

**ASİF ATA (İNAM ATA)**

# Soylu Atalı

# Düşünməyin İnam Ölçüsü
## 1-ci Bitiq

**Çapa hazırlayanlar*: Nurtəkin,***
***Göylü Atalılar***

**Soylu Atalı.**
**Düşünməyin İnam Ölçüsü (Ruhsal araşdırma sonucları. Törənlərdə, toplantılarda çıxışlar). (Atakənd-44). Bakı, "Elm və təhsil"- 2022, 392 səh.**

Asif Atanın (İnam Atanın) Mütləqə İnam Ocağının Yükümlüsü, Ruhaniyyat yönündən araşdırmaçı filosof, görkəmli publisist Soylu Atalı, yeddinci kitabı ilə, İnsanlığı soraqlayanların qarşısına gəlir. Bu kitabda onun dönməz inadı, Ruhaniyyat Qurucusunun (Asif Atanın) İşini davam eləməsi, Ocağı yaşatması, yönətməsi bütün aydınlığı ilə özünü göstərir. Yaşama, Doğaya, İnsanlığa bağlı sağlam fəlsəfi mühakimələri ruhaniyyat ölçüsünü tanıdan yüksək idrakilik örnəyidir.

Bu kitab – Asif Ataya daha da yaxınlaşmaq, onu anlamaq açısından uğurlu bir bilgi yönüdür.

**Ön söz**

Ürəyində Günəş olsun!

Sayğılı oxucu, sənə sunduğumuz bu kitab gələnəksəl kitablara bənzəmir. Sən bu kitabda bədii süjetlərlə, romantik ovqatlarla üzləşməyəcəksən. Burada yaşamaq, var olmaq çağırışları var. İnsanlığın gözəlliklərini ömürdə üzə çıxarmaq, toplumun birgəyaşayış ölçüsünə gətirmək umacaqları var. Asif Ata, insanı, sosial-siyasi varlığa çevirib, çaşqınlıqlara sürüyən ideyaların puç olduğunu öyrədir bizə. Bütün bunlara qarşı ideya dirənişi yaradıb. Bizim də qabağa durub İnsanlığı qurtarmaq yolunda ərdəmlik göstərməyimizi istəyir. Toplumsal-siyasi quruluşların, dini baxışların insana yaramadığını hər yöndən aydınlaşdıraraq, İnsanlaşma aşamasına başlamağın gərəkliyini anladır. Bu istəklərini gerçəkləşdirmək üçün toplumla ideya arasında körpü rolu daşıyan "Ocaq" adlı qurum yaradıb. Biz də bu Ocağın varlığını yaşatmağa, qorumağa çalışırıq. Söz yox, Ocağı fiziki bir qurum olaraq deyil, ideyanı – düşüncə yoluna, yaşam ortamına çevirən hərəkat kimi oluşdurmaq güdümündəyik.

Bu kitab həmin istəklərin, göstərilən çabaların çəkilən harayları, yaşanan ümidləridir. Ruhaniyyatı geriliklərdən, xurafatlardan arındırıb İnsanlığa qaytarmaq yolunda düşünməyin, yaşamağın İnam ölçüsündən verilən soraqdır. Bizə soraq vermək düşür.

Ürəyin Qaranlıqları yarsın!
Atamız Var olsun!

## 34-cü ilin İnsanilik Bayramında

***Ocaq ilsırası ilə 14 Günəş Ayı, 34-ildə (mart, 2012)***
***Asif Atanın Mütləqə İnam Ocağı "İnsanilik"***
***Bayramını keçirdi.***

Ocaq Günsırası ilə 20-ci ildən Bayramlar keçirilməyə başlayıb. 14 ildir Bayramlarımız ardıcıl keçirilir. İlk yol doğada (təbiət qoynunda) keçirmişik. Asif Ata ideya vermişdi, məzmunu yazmışdı. Bayramı gerçəkləşdirmək, onu biçimə salmaq üçün zaman gərək idi, Atanın buna ömrü çatmadı, ancaq biz bunu gerçəkləşdirdik. Doğrudur, indi də elə düşünürük, biçimcə tam çözümünü tapmayıb...

Biz ilk Bayramı Ceyranbatan gölünün qırağındakı meşə zolağında keçirmişdik. O zaman böyük bir tonqal qaladıq, bayrağımızı qaldırdıq. Söz dedik, Bayram alındı. Bu günə qədər də davam edirik.

...Əqidəçi olmaq çox çətin məsələdir. Əqidə aşiqlikdir. Əqidə uğrunda ölmürsənsə, gecən-gündüzün əqidəyə bağlı deyilsə, əqidəli deyilsən. Əqidəli insanlar bəşər tarixində barmaq sayda olub. Gərək həyata bağlı heç bir idealın olmaya, verəsən özünü millətə, vətənə, insanlığa.

Asif Atanın yaratdığı Mütləqə İnam Dünyabaxışı çox böyük məna daşıyır. Nədir bu məna? Bəşəriyyət min illərdir bayramlar keçirir. Məsələn, Qurban bayramları düzənləyir. Min illərdir qurban törənləri doğanın olaylarına qarşı keçirilir, Allahdan yardım dilənilir. Allahdan ruzi-bərəkət istəyirlər qurbanlar verməklə. Allahları razı salmaq istəyirlər diləklərinə uyğun olaraq. Asif Ata, bəşər tarixində ilk yol, bəşəriyyətin yaşadığı, yaşatdığı cəfəngiyyata, İnsanlaşma inamı ilə, son qoyub. Bütün baxışı insana yönəltmək – yeni aşama başlamaqdır. Azərbaycanda Hürufilik olub, nə yazıqlar, yaşamayıb, davam etməyib. Əgər Allahlara, bütlərə olan münasibət insana yönəlsəydi, insan məbuda çevrilərdi. İnsana sevgi, inam verə bilmədi bəşər. Özünü balaca saydı insan. İnsan öz içinə enmədi. Dərk eləmədi özünü, tanımadı. İnsana yarımçıq, nisbi münasibətə görə dünya insanilik uyumunu itirdi, bu fəlakət hələ də davam edir. İnsan

özünü toplumdan gizləməməlidir. İnsan qorxur toplumdan. İçindəki balacalığı üzə çıxara bilmir, gizləyir. Gərək içindən balacalığı çıxarasan, onu ləğv edə biləsən...

Ata deyir, İnsan ortamdan, gedişdən üstündür, Mütləqləşməyə yetə biləndir. Biz insanın içindəkinə inanırıq. Düşünürük, insanın qurtuluşu bundadır. Balacalığında saxlamaq insanı öldürməkdir. Asif Ata deyir, insan göründüyünə bərabər deyil. Onun içində Mütləq var, İnsanilik var, ona çatmalıdır. Çatmasa, dünya necə var elə qalacaq. Çatsa, dəyişəcək uyum.

Biz, Asif Atanın davamçıları olaraq, öz evimizdə ortam yaratmağa çalışırıq. Hamı balasını biznes oxuluna qoyur. Biz öz balalarımızı İnam Ocağının oxuluna yönəldirik. Biz İnsaniliyi bayram eləyənlər soyu yetişdirməyə çalışırıq.

### *34-cü ilin ilk "Ailə Günündə Toplantı İnam Odasında (İçərişəhərdə) keçirildi.*

Bugünkü toplantı Ocaq bireyinin özünü həryönlü aşması üçün bir oxuldur. Yığcam, aydın, uğurlu hesabatlar olmalıdır. Bireyə özünü ifadə eləmək üçün olanaq vermək gərəkdir. Ata deyir, "özüylə-döyüş"lə özünü elə yaratmaq gərəkdir, zamanı gələndə mən deyim, qalxın ayağa. Birey özünü yaratdıqca ruhsal dirçəliş yolu keçir. Elə bir aşama gəlib çatır, o aşama, bəlkə də, qlobal dəyişiklik aşaması olur.

Ocaq monastr yaratmır, molla yaratmır, özünə yiyə olan sağlam, döyüşkən insan yaradır. Bu həqiqətdən yan keçənlər çox oldu. Bundan sonra da olacaq. Ocaq Yolu beş günlük deyil, kimsə nəyəsə tələsiyirsə, yanılır. İnsan özünü ona görə yaratmalıdır, ruhsal döyüş apara bilsin. Əgər biz Atanın tələbləri ilə özümüzü yaratmasaydıq, Asif Atanın ölümündən sonra, səfərlər edə bilməzdik. "Xalqın içinə çıxın" deyirdi. Xalqın içinə həqiqəti bilən çıxa bilir, həqiqəti bilməyən xalqın içinə çıxa bilməz. Həqiqəti bilən dörd divarın içində qala bilməz. Ocağın tədbiri, oxulu elə bireylər yaradır.

Ata deyirdi ki, kamilləşin, ancaq kamillik ölçü deyil. Kamilləşəndən sonra başlayır hər şey – döyüş də, təsdiq də! Ata deyirdi, "özünə

qarşı amansız ol, inamsız olma". Özünə qarşı amansız olmaq gərəkdir, ancaq özünə ziyan vermək səviyyəsində yox. O zaman döyüşkən insan yaranır. İçdən qurulan birey xalqla üz-üzə gəlir. Sığmır özünə. Xalq qalıcılığımızdır, biz ona qulluq edirik..

### *31 Günəş, 34-cü il, Atagün Ailə Günündə*

Bu gün 31 Günəş Ayı, 34-cü il İlsıramızda "Atagün" Ailəsinin I Aylıq toplantısında söz demək (hesabat vermək) istəyirəm. Ömrümün ciddi bir kəsimini Ocağa hesabat verməklə keçirmişəm. Biz hamımız daim Ocağa hesabat veririk. Başqalarından fərqimiz də bundadır. Hər kəs ona hakim olan ortama hesabat verər. Bizdən qıraqdakılar həyata hesabat verirlər, yadlığa hesabat verir. Yəni insan özünə yad olan, gərək olmayan bir gedişə ömrü boyu hesabat verməli olur. Hər kəs özünün bəsit halıyla gedişin yavrusu kimi çıxış edir. Gediş onun atası olur, mənliyinə hakim olur. Gediş onun böyüyü olur. Gediş qarşısında hesabat vermək özündən ayrılmaqdır. Bizə görə hər birey özünə hakim olmalıdır. Özünün atası olmağı, böyüyü olmağı bacarmalıdır. Mənim düşüncəmə görə hər bir Ocaq Evladı öz içində Asif Ata obrazı, halı yaratmalıdır, yaratdığı obrazla özünə Atalıq eləməlidir. Əgər sən özün öz halına yiyə ola bilmirsənsə, onda dünya səni oynadacaq. Bu isə yaşaya-yaşaya ölmək deməkdir. Adam özünə yiyə olmayanda hər şeydən qorxur. Qorxu da o deməkdir, sən həqiqəti bilmirsən, demirsən. Bayaq Elana bacımız deyir, "Mən Ocaq söhbətlərində bəzən güzəştlər edirəm, düşünürəm, filan şeyi deməmək də olar". Bütün bunlar ona görə olur, adam həqiqəti axıra qədər bilmir. Nəyi deyim, necə deyim sorğusu qarşısında qalır. Ancaq adam həqiqəti bilə-bilə qorxunu ötür, ürəkli olur, özünü ifadə səviyyəsini üzə çıxarır. Həqiqət adama aşiq tövrü verir, hal verir. Vaxt vardı mən Atanın adı tutulan yerdə həyəcan keçirirdim, rahatsız olurdum. Sanki söhbətdən gizlənməyə çalışırdım. Çünkü həqəqəti axıra qədər deyə bilmirdim. O yerdə ki bizə heyranlıqla qulaq asırlar, orada danışmağa nə var ki?! Gərək

bizə əngəl olduqları yerdə danışa biləк. Bu da o vaxt olur, bir daha deyirəm, həqiqəti biləsən, ona doğmalaşasan. Həqiqəti bilməyəndə, ona doğma olmayanda Həqiqət susur, Həqiqətsizlik danışır; Xeyir susur, Şər danışır; Ədalət susur, Ədalətsizlik danışır... Buna görə deyirəm, biz ömrümüz boyu Ocağa hesabat veririk – Xeyir, Ədalət, Həqiqət, bir sözlə, İnsanilik hesabatı! Xeyir, Ədalət, Həqiqət – İnsanilik hesabat verirəm. Xeyirə hesabat vermək, Xeyir hesabatı vermək o deməkdir, adamın ömrü, içi xeyirlə dolur. Münasibəti yaxşılıqlarla (fəzilətlərlə) zənginləşir. Pis əməllər görmək, pis hallar üstə yaşamaq Şərə hesabat verməkdir.

Dünya dağılsa da, Ocaqçı həqiqətlə yaşamalıdır. Dünyada qlobal dəyişikliklər eləmək bir yana, axı insanın özü bu cür yaşamaq üçün dünyaya gəlir. Dünyaya canavar kimi yaşamağa gəlmir. Ona görə də həqiqətə yiyəlik eləmək gərəkdir. Adam həqiqəti itirəndə həyatda canavar kimi yaşayır.

## *Atagün Ailəsinin II Ailə Günü*

*(26 Çiçək Ayı, 34-cü il)*

Ailə Gününün gedişində bəlli sorular çevrəsində də danışmaq olar. Bəzən Ocaqçılar deyirlər, sözüm çoxdur, ancaq burada danışan zaman həyəcanlanıram. Mən buna doğal baxıram, Atanın Bayrağı qarşısında danışan sorumluluq daşıyır, ancaq elə bir eşqlə dolmaq gərək, həyəcanı ötmək olumlu olsun. Həyəcan qaçılmazdır, sadəcə onu uğurla qarşılamaq, uğurla yaşamaq gərək. Həyəcanın özülündə duran məsələ odur, yurdumuza öz istəyini, ideyanı vermək istəyirsən, bunun necə qarşılanması, necə yeriməsi var.

O ki qaldı, biz törənlərimizi təkcə çağırdıqlarımıza görə keçirmirik, ruhsal öyrətmənlik səviyyəsinə qalxmaq istəyirik. Atadan öyrəndiklərimizi vermək üçün özümüzü böyütməliyik. Toplum tamaşaçılığa, lağlağıçılığa meyillidir. O, xeyirə təşnə deyil, xeyiri yaratmaq istəmir. İdeya insanı gərək toplumun qarşısında çəkingən olmasın. Sən o

zaman çəkingən olursan, öz dediyinin gözəlliyini dərk eləmirsən, özün qəbul eləmirsən, ona görə çevrəndən xoflanırsan.

İş yerimdə bir vaxtlar mənə soraq çatdırırdılar, filankəs sənin əqidənə lağ eləyir. Baş qoşmurdum. Ortaya ərdəmli davranış qoyurdum, çevrəmdəkilər getdikcə buna alışdılar, daim məni doğrusevər, xeyirsevər gördülər, qəbul eləməyə başladılar. Elimdə, kəndimdə, toplumsal ortamda, bir sözlə, hər yerdə bu aqibəti yaşayıram. Bu Aqibət ağgünlülüyümdür. Hər bir insanın içində yemək, yaşamaq tələbi olduğu kimi, bizim də həqiqət tələbimiz var.

Xalqımızın içində yadlıqlar var. Atadan öyrəndik, yurdumuzda oturuşan yadlıq sınırını dağıtmalıyıq. Bu xalqa hər cür siyasal, ruhsal doktrinalar qıraqdan sırınır, sonucda özünə yadlaşır, özünə qarşı çevrilir. Bu xalqı əyiblər. Bu xalqı bu kökə salan – onun içinə dolan yadlıqlardır. İnsanı insan kimi yaratmaq daha çətindir, nəinki onu pozmaq. Onu öz gözündən sal, özünə inamsızlığı ucbatından hər işə gedəcək. Ancaq ona bir yarpaq sevgi göstərsən, görəcəksən, çiçək kimi açacaq.

İnsana sevgi vermirlər, inam vermirlər.

Biz bu yoldayıq, bu yolda olmağımızla qürur duyuruq. İçimiz dünyalaşır.

İnsanı tanımaq, dərk eləmək gərəkdir. Atanın "Sədaqət" kitabında "kim idim, kim olmuşam" sorusu qoyulur. Atanın həqiqətini eşitdim. Onun ürəyindən doğan gözəlliklərin çağırışı ürəyimi doldurdu. Yanlışlar çıxdı ürəyimdən, düşüncəmdən. Ağlım kəsir, gözüm görür, dünyanı yıxırlar, yurdumu parçalayır, millətimi kiçildirlər. Elə ruhsal qüdrət yiyəsi olmalıyam, buna qarşı dirəniş göstərə bilim... Vətən insanı qeyrət üstə kökləyir. Vətən insan duyğularını böyüdür. Vətənin varsa, qeyrətin yaranır. Vətəni qorumağa, milləti qorumağa, insanlığı qorumağa qeyrət gərəkdir. Vətənli olmaq qeyrətli olmaqdır, vicdanlı olmaqdır. Bizim isə vətənimiz param-parça durumdadı, deməli, bizim qeyrətimiz param-parçadı. Vətənin param-parça olursa, deməli, millətin gözü kölgəli olur. Onun oğulları qeyrətsizləşir. Azərbaycan kişilərinin başıqapazlı qalmasına dözmək olmaz! Vətəni düşünmək istəyənlərin qeyrəti toparlanmalıdır. Millətinə deyəcəyin sözün var, sənin Bəşər olmaq olanağın var.

Vətəni necə qorumaq olar? Vətəni – onun insanının ağlında, düşüncəsində qorumalısan. Vətənə sevgi, münasibət insanın ağlında, düşüncəsində yaranır, bu sevgidən, bu münasibətdən vətənə yol başlayır. Böyük ideyaları əkirsən insanın mənliyində. Böyük ideyalar böyük vətən doğasında göyərir, gəlişir, obrazlı desək. İdeya vətənə çevrilir, vətənlə birlik yaradır. Sənə ərəbin verdiyi ideya ilə vətən yarada bilməzsən. İdeya ondan ötrüdür, insanların ürəyini işıqlandırasan, onu bulandırmayasan.

### *Uluyol-Hünər, Ulufərəh Ailələrinin birgə "Ailə Günü" törənində*

(29 Çiçək Ayı, 34-il)

"Uluyol-Hünər", "Ulufərəh" Ailələrinin, artıq neçə aydır, birgə keçirdikləri toplantılarda daha geniş bir hal sərgilənir. Bunu bu gün də izləyirəm. İndi bununla bağlı bir neçə söz demək istəyirəm. Mən öz Ailə Günümüzdə hesabat verirəm. Bundan sonra o biri Ailələrin Günlərində hesabat verməyəcəm. Genel olaraq, yeri gələndə nələr-sə deyəcəm, istər amallaşma yönündən, istər özüylədöyüş yönün-dən. Bu mənim üslubumdur, bilmək, bildirmək, köklənmək, kökləmək.

Atanın "Uluyurd Aqibəti – Bütöv Azərbaycan" kitabının ideoloji bir çəkiciliyi var. Orda araşdırmalar, qiymətləndirmələr var. Ancaq Atanın İnam üstə yazılan kitablarını daha çox oxumaq gərəkdir.

Bir neçə söz də qonuyla bağlı demək istəyirəm. "Cəmiyyətin icraçılıq, sinfilik köləliyindən nə dərəcədə uzağam?!" Cəmiyyətçiliklə bağlı nə varsa, bunun hamısı psixologiyadır. Psixologiya nədir? Mən yazmışam, psixologiya Adamlıq halıdır. Adamdakı duyğulardır. Psixoloqluq nədir? Adamların Adamlıq duyğularının ifadəsini, özünü necə aparacağını öyrənməkdir, izləməkdir eləməkdir, düşüncə bildirməkdir. Adam duyğuları hamıda oxşardır. Onu bilməkdə çətinlik də yoxdur. Adamlıq duyğularını ötəndən sonra yeni bir hal

başlayır, belə deyək, yeni bir psixologiya – ruh "psixologiyası" başlayır. Ruh "psixologiyası" psixologiyadan yüksək bir olaydır. Bunu mən şərti olaraq psixologiya adlandırıram, o psixologiya deyil artıq. O hal psixikaya bağlı deyil, ruha bağlıdır. İnsan ruha bağlı yaşayanda onun gözəlliklərini izləyirsən – Onun içinin ucalıqlarını, davranışındakı gözəllikləri, ömründəki ucalıqları. Hünərin var, bunun psixoloqu ol. Adamlıq bəsitlikdir, bəsitliyin bilicisi olmağa nə var ki? Bax, ona görə də sinfilikdir, nədir, bunların hamısı Adam psixologiyasına bağlı bir şeylərdir. Bunların hamısı Adamlıq halından doğan, adamlıq halını nizamlayan şeylərdir. Adamlıq halından yüksəyə qalxmaq yox, Adamlığın özündə nizamlayandır. Sinfilik Adamlığa xas olan cəhətdir. Adamdakı balacalıqlardan, cılızlıqlardan yaranır sinfilik. Bütün eybəcərliklərin hamısı Adamlıqdan yaranır, Adamlığı qoruyur, Adamlığı saxlayır, tarazlayır. Ona görə də biz ruhsal keyfiyyətlərimizi üzə çıxarmaqla (hər birey özünü qurmaqla, yaratmaqla) hər bir psixoloji çalarlardan, sinfilikdən, cəmiyyətçilikdən çıxırıq. Özüylə uğraşmaq nə deməkdir? Düşünməyin, günlərin bir günündə, illərin bir ilində, birdən-birə, Asif Atanın ideyalarını kamil şəkildə biləcəksən, sonra da durub xalqın içinə gedəcəksən. Yox! Amallaşma, Kamilləşmə, Xalqlaşma bir-biriylə sıx şəkildə bağlıdır. Biri olmadan o biri olası deyil... Ona görə Ata deyirdi, öyrəndiyin qədər de. Gözləmə, hamısını birdən-birə deyəcəksən. Ardıcıl olmalıdır. Nə qədər istəyirsən evində otur, nə qədər istəyirsən bura gəl, Ailə Günü'ndə söz de, yalnız quru söz deyə bilərsən, əgər sən bu üç tələbin üçünü də yaşamasan. Hər üçünü yaşamaq gərəkdir. Yaşamaq nədir? Öncə özünü məcbur edirsən, vadar edirsən. Bir növ ömrü istədiyin uğurlu yönə alışdırırsan. Ömürdə ardıcıllıq yaradırsan, ondan sonra o, tələbə çevrilir. O halla yaşayırsan. Ondan sonra istəsən də o haldan çıxa bilməyəcəksən. Özüylədöyüş özünü məcbur etməkdir. Heç nə asan yaranmır. Böyük, qüdrətli şəxsiyyət olmaq istəyirsənsə, mütləq bu aşamaları keçməlisən. Ocağın da yolu qüdrətli Evladlardan keçir. Atanın tələbi budur: İstəyirsiniz dünya dəyişsin, özünüzü dəyişin. Çünkü siz dəyişəndən sonra başlayır hər şey . Döyüş ondan sonra başlayır. Yoxsa işin sənə bağlı yönü həmişə yerində sayacaq.

...Başımızın üzərində bu Bayraq dalğalandıqca bizim işimiz, səsimiz, sözümüz dünyanın hər yerində deyiləcək. Tələsmək olmaz.

### *“Uluferəh” Ailəsinin “Ailə Günü”*
*(22 İşıq Ayı, 34-il)*

Bugünkü törən, məncə, bir addım qabağadır, “Ulufərəh”in bundan öncəki tədbirlərindən üstündür. Söz yox, öncəki tədbirlərdə də müsbət hallar var idi, bundan öncəki tədbirlərin də rolunu aşağı salmırıq. Ancaq bu gün artım var. Çıxışlarda ömrü sözə qoyma, sözü canlandırma var idi. Burada xalqlaşma azdır, ancaq bireylərin özüylə bağlı düşüncələri, axtarışları uğurludur. Özü də, yenə deyirəm, gəlişmə var. Belə-belə sözlə istəyin birliyi yaranır. Bu başlanğıcdır. Yaxşı olardı, özünüzün də vurğuladığınız kimi, bu tədbirlərdən çıxandan sonra, evdə dediklərinizlə bağlı bağımsız düşünəsiniz. Nə etmək haqqında düşünəsiniz. Onda görəcəksiniz, dediyiniz canlı sözün uyumu qırılmır. Bax, Ulunur deyir, gərək Ocaqçı özündə yeni keyfiyyətlər üzə çıxarsın, bu keyfiyyətlərlə oyun oynamasın. Bu keyfiyyətlərlə oyun oynamasın nə deməkdir?! Gedirsən, evdə yenidən düşünürsən. Arxayınlaşmırsan, yenidən düşünürsən, yenidən sözə sarılırsan, əmələ sarılırsan. Bu, bir nizam yarada bilər şəxsin ömründə, yerişində.

Gərək biləsən, şəxsiyyət kimdir. Şəxsiyyət məsələsi nə deməkdir? Gərək bunu biləsən. Əgər bunu bilsən, onda adamın gücü bir neçə dəfə artır. Onda adam çevrədəkilərin onu sardığı, sarıdığı etkiləriylə hesablaşmır. Ortama bac vermir. Çünkü, doğrudan da, insan təkcə yaşadığı durumu, yaşadığı ortamı deyil, bütün zamanları – uzaq gələcəkdə özünün bugünkü halını, onun etkisini görə bilər. Niyə mən uzaq gələcək deyirəm?! Çünkü yaxın gələcəkdə bugünkü durumun harmoniyası var, cismani ömür var. Uzaq gələcəkdə cismani ömür yoxdur. Orada sənin ortaya gətirdiyin söz var, ortaya gətirdiyin iş var, əməl var. Onu görə bilirsən. Bax, sənin bugünkü nizamlanmağın, köklənməyin səni uzaq gələcəyə aparır. Şəxsiyyət odur. Şəxsiyyət bugündə özəl bir rahatsızlıqla qalxıb-enmir. Şəxsiyyət onu düşünmür, tutalım, Ulunur kimi gənc bir oxul öyrəncisiylə dünyanı necə

dəyişmək olar?! Şəxsiyyət onu düşünməz. Bugünkü tədbirin nə demək olduğunu aydın dərk edər. Nə yaranır, nə baş verir, nə yetişir?! Bunu anlaya bilir.

Mən Ocağın halını, nizamını düşündükcə belə düşüncəyə gəlirəm, zəifliklər var. Ancaq heç bir vaxt mən o zəifliklərlə Ocaqçının üzərinə getməmişəm. Mən Ocaqçının üstünə onun yetmədiyi, yetməli olduğu tələblərlə gedirəm. Eyni halda, münasibəti o açıdan qururam. O zəifliyin motiviylə Ocaqçıya yanaşmaq – zəifliyi saxlamaq, qorumaq deməkdir. Hər an Ocaqçı zəiflikdən çıxmalıdır. Bir pillə yuxarı qalxmalıdır. Hər an, hər gün. Ən azı bununla bağlı düşünməlidir. Sözün qiyməti onda bəlli olur. Sözün qiyməti onda təsdiq olunur. Ata deyir, dünyanı öyrəndim, gördüm, insan öz həqiqi qiymətini tapmayıb. İnsanın öz həqiqi qiymətini kim verəcək? "İnsan öz qiymətini tapmayıb" o deməkdir, özüylə üz-üzə oturub düşünməyib. Özünü dəyərləndirməyib, özünü tanımayıb, özünü dərk eləməyib. Özündən yüksəyə qalxmayıb. Ata ona görə özünütanımanın yolunu yaratdı, bu yola üz tutan özünü tanısın. Toplummu insana qiymət verəcək? Verməyəcək. İnsana qiyməti özü verir. Necə verir? Dediyimiz bu keyfiyyətlərlə. Yüksək ruhsal əməllərlə, ruhsal döyüşlə. Hər kəs özü öz yaxasını əlində saxlamalıdır. Hər kəs, doğrudan da, özünün kim olduğunu hər gün özünə deməyi bacarmalıdır. İnsan bioloji tələblə ruhsal tələb arasında vurnuxur. Bu vurnuxmada o, ən çox üzü bioloji tələbə baxır. Asif Ata Ocaqçıya, gündə üç yol, "Rica"ları deməyi önərir ki, üzünü döndərəsən ruhsal tələbə. Ricalar səni sənə tanıdır. Səni sənin yadına salır. İslamda üç yol, ya da beş yol namaz qılırlar. Bu səni sənə tanıtmaq deyil. Ruhaniyyata üzünü döndərmək deyil. Düzdür, o tam şəkildə məişətə doğru da saxlamır üzünü, ancaq üzünü bəndəyə çevirir. Allaha çevirmək bəndəyə çevirməkdir. Ritualların oxşarlığının, anlam baxımından, heç də eyni çəkisi, etkisi yoxdur. Bundan öncə də qaydalar olub. Həmişə böyük düşüncə adamları insanı özünə xatırladan, yadına salan, özüylə üz-üzə qoyan addımlar haqqında düşünüblər. Yazıçı nə üçündür? Poeziya nə üçündür? Poeziya yüksək həqiqətləri öyür. Gözəlliyi öyür. Onu kitab şəklində verir insanların əlinə. İnsanların əlində kitab olanda, yəni poeziya ilə üz-üzə qalanda məişət etkisindən, tələbindən ayrılır.

Heyvanlaşmaqdan ayrılır. Özünün insan olduğunu duyur. Ən azından dərk eləməsə də, duyur o məqamda. Toplumsal həyatın, bəlli anlamda uyumu qorunur. Budur. Bundan ötrüdür. Ələşdirmə (tənqid) də o deməkdir, poeziya insanın yönünü onun çıxdığı bataqlığa döndərməsin. Bu gün Avropanın ardınca qaçanlar, postmodernist deyilənlər, gözəlliklərə üz tutan poeziyanı, klassikləri topa tuturlar. Ona görə topa tuturlar, o klasssiklərin hikmətlərində insan özünə görsənir. Tanıyır özünü. İstəmirlər insan özünü tanısın. İstəyirlər heyvan olsun, onu istədikləri kimi yönətə bilsinlər.

Mifologiya, dastanlar, musiqi, sənət – bunların hamısı insanın özünü özünə göstərmək üçün düşünülən, beyinlərdə, ürəklərdə axtarılan nəsnələrdir. Hamısı ona qulluq eləyir. Di gəl, məzmun insanın özünü tanıma tələbindən ayrılırsa, onda məzmun dinin namazından oluşur. İnsan üzünü tutur Bəndəyə. Poeziya da, ədəbiyat da, sənət də, musiqi də... əgər orda insanın özünü görməsi yoxdursa, bunlar elə dinin namazı kimi bir şey olur.

Biz deyirik oxumaq gərəkdir. Ata "25 söz" adlı adsıra verib. Dünyanı dərk eləmək üçün bu kitabları oxumaq gərəkdir. Çünkü orada ruhsal xətt var, ruhsal yön var. Baxmayaraq, böyük kitablar çoxdur. Olanağın var, çağın varsa, demir, bu 25 kitabdan artıq kitab oxuma. Ancaq deyir, dünyanı dərk eləmək üçün, ruhaniyyatı bilmək üçün bu 25 kitab adamın qolundan tutur. Oxu, düşün, musiqiylə uğraş, poeziya ilə uğraş, sənətlə uğraş, rəssamlıqla uğraş. Oxu, uğraş, orada özünü gör. Gör gələcəyini, gör bəşəriyyəti. Bəşəriyyət sənin gələcəyindir. Gör xalqını. Belə bir böyük, gözəl, yüksək bir tələblə. Dediyim kimi, mifologiya da, əsatirlər də, dastanlar da, poeziya da, sənət də hamısı ona görə yaranır. Hamısının istəyi birdir, insanı özünə tanıtmaq, Adamın İnsan olmasına qulluq göstərmək. Düzdür, bunlar ayrı-ayrılıqda o gücdə olmurlar. Bəşəriyyət elə pozuntuya uğrayır, onu dirçəltmək üçün qulağının dibində saz çalmaq yetərsizdir. Burada Dünyabaxış gərək olur. Peyğəmbərin sözü, harayı gərək olur. Ancaq ziddiyyətli, təzadlı yox. Sağlam, doğruçu. Peyğəmbərlik Həqiqəti demək üçündür. Asif Ata üçün birinci peyğəmbərlik olayı gəlir, sonra filosofluq, şairlik. Peyğəmbər göstərir, böyüdür, filosof anladır, şair öyür, sevdirir. Buna görə bəşəriy-

yətin uğurlu yönü üçün peyğəmbər yolu gərəkdir, filosofluğa bağlı peyğəmbər yolu. Alimlik də danılmayan bir şeydir. Ancaq İnsanın insan olmasından gedir söhbət. İnsanın bəşər olmasından gedir söhbət.

Ocağımızın qarşıdan gələn tədbirləri var. O tədbirlərə, indidən istəyirəm deyəm, ciddi hazırlaşmaq gərəkdir. Həm içdən, həm də təşkilatca hazır olmaq gərəkdir. Baxın, ikicə saat oturursan burada, öz içinlə, öz ortamınla uğraşırsan, öz dünyanla olursan, çalxalanırsan, qaynayırsan, durulursan. Bunun heç yerdə bənzəri yoxdur. Ona görə daim bu kökdə qalmaq, bu əhvala köklənmək. Ayrı cür yaranmır. Qayanı səbrlə deşmək gərəkdir. Bizə sürü gərək deyil. Bizə yaşının 20, ya da 50 olmasından asılı olmayaraq, şəxsiyyət gərəkdir. Biz o şəxsiyyətin dalınca qoşmuşuq. Sizə, "Ulufərəh" Ailəsinə uğurlar diləyirəm. Atagün Elinə sizin sorağınızı aparıram.

## *Atagün Ailə Günü*

*(26 İşıq Ayı, 34-cü il)*

*(İşıq Ayının 26-sı Atagün Eli'ndə (Örənqala) Ailə Günü törəni keçirildi. Törəni giriş sözü ilə Ailənin Yükümlüsü Günev Atalı açdı.*

*Sonra Soylu Atalının düşüncələri dinlənildi:* Mənim bura gəlişim özüm üçün özəl anlam daşıyır. Ata ruhaniyyatında bu bölgə ilə bağlı ciddi olaylar, hünərlər yaşanıb. Atanın bu bölgədə görüş keçirməsi; hələ o dövrdə burada Ocaq Ailəsinin yaranması; Ata öləndən sonra ilk yol burada torpağa qoyulması, etirazların təşkil olunmuş biçim alması, Ocağa, Günevə qarşı yönəlməsi. Bu günə qədər də əlaltı mollaların Günevə, Ocağa qarşı etirazlar təşkil eləməsi – Ocaq tarixində çox prinsipial məsələlərdir. Azərbaycanın başqa rayonlarında bu dərəcədə Ocağa bağlı olaylar yaşanmayıb. Çünkü başqa rayonlarda bu cür ardıcıl Ocaq işi aparılmayıb. Başqa rayonlara səfərlər eləmişik, söz demişik, ədəbiyyat yaymışıq, ancaq Şərin yerini dar eləyən davamlı Ocaqçımız, Ocaq Ailəmiz olmayıb. Günevin Ocaqda varlığı ayrı bir məsələdir. Günev elə-belə söz demir, ruhaniyyat üstə yaşayır. Saldığı "Amal Bağı"nda öncə İnam Evi adına bir tikilisini

qullanmış, sonra isə öz ideyalarımıza uyğun memarlıq layihəsi ilə İnam Evinin (İnam Məbədinin) tikintisinə başlamışdır. Bu işdə bizim köməyimiz azdır, əsas yük Günevin üzərindədir.

Biz bu yurda Atagün adı verdik. Örənqala adının üstündən xətt çəkmirik. Ancaq bu ad tarixi, fiziki addır. Atagün onun ruhsal adıdır. Atagün – Ata günlü, ağ günlü, İnam günlü anlamı ilə Atanın Günevi anlamının birliyindən oluşur. Yuxarıda saydığımız olaylar, əməllər, ömürlər bu adı tam anlamıyla doğruldur...

Sonra, mən sizdən xahiş edirəm, siz Günevi, Elananı ata-analarının qoyduğu adla deyil, Asif Atanın qoyduğu adla çağırasınız. Bu adlar sizin övladlarınıza, yaxınlarınıza ona görə verilir, onlar ulusal, ruhsal keyfiyyətlərin daşıyıcısına çevrilsinlər. Siz onlarda ruhani, xəlqi keyfiyyətləri görməyə çalışın. Onda sevinəcəksiniz, adlarının niyə dəyişməsinin fərqinə varacaqsınız. Bu adlar bireydə ulusal-ruhsal keyfiyyətləri ifadə edir.

Başqa bir məsələni də sizinlə bölüşmək istəyirəm. Sizə elə gəlməməlidir, bizim burada, ya elə hər yerdə işimiz yalnız dinlərlə döyüşməkdir, bir növ öcəşməkdir. Deyil! Biz İnam yaradırıq. Başqa sözlə, Asif Atanın "Din İnamla əvəz olunmalıdır" tələbini həyata keçiririk. Yəni insanı qurtarmaq istəyirik. Ona görə toplumsal həyatda dinin yalanlarını rədd edirik, insanın ağlında, düşüncəsində ruhaniyyat adına oturuşmuş yalanların mahiyətini açıb göstərməklə, əsilləşmə işinə qulluq göstəririk. Ancaq insanı aldadan, yıxan təkcə din deyil, həm də siyasətdir. Bu siyasətin arxasında Batıçılıq gələnəkləri (ənənəsi) dayanır. Bu gələnəklər antimilli, antibəşəri əməllərin daşıyıcısıdır. Yadlıq – özgələşdirmə işini həmişə mərkəzlərdə başlayır, sonra dalğa-dalğa bölgələrə yayılır. Hələ bölgələrdə Batının açıq-saçıqlığı, hərcayiliyi özünü qabarıq şəkildə göstərmir. Ona görə siz elə bilirsiniz mollaların, dinçilərin yaratadıqları eybəcərlik təkcədir. Sabah Batının yaratdığı hərcayi həyat tərzi bölgənizi qapsayanda yenidən din qurtuluş kimi görünər topluma. Asif Atanın ideyalarını ciddi tutmaq gərəkdir. Atanın işini genişləndirmək üçün çox zəhmət çəkmək gərəkdir. Bir az məişət, güzəran tələblərimizdən, təsərrüfat işlərimizdən xalqımızın gələcəyinə qurban verməyi düşünməliyik. Biz hər yerdə başımızı təsərrüfatlarımızla qatırıq, yadlıq, özgəçilik isə

içimizə soxulub özünə yer eləməkdədir. Ona görə Asif Atanın yaratdığı İnsanlaşma Hərəkatına qoşulmaq gərəkdir. Bu Hərəkatla Millətləşmənin, Dövlətləşmənin həqiqi səviyyəsini yetirə bilərik. Bilirsiniz, Asif Atanın haraylarını eşitmək həqiqətlə dolmaq deməkdir. Həqiqətlə dolan insan güclü olur. İnsan öz ömrünü din yalanları, siyasət oyunları üstə quranda xəlqi gücü yaranmaz...

### *Evlad Günü Törəni*
*(1 Şölə Ayı, 34-cü il)*

*(Ata-Ocaq ilsırası ilə (iyun, 2012) Asif Atanın Mütləqə İnam Ocağı "Evlad Günü" Törənini keçirdi. Törən "Asif Ataya Evlad oldum – Bəşəri Anlama yüksəldim" carıyla başladı).*

Törən həryönlü, dolğun şəkildə Evladlığın ifadəsi olmalıdır. Ona görə də Evladlıq olayını hər kəs özü üçün aydınlaşdırmalı, dərk eləməlidir. Yoxsa, birdən kiminsə içində elə dolaşıqlıq başlamasın, mən özüm elə Ata yaşdayam deməsin. Ocaq Evladı olmaq – öyrətmənlik, müdriklik, filosofluq deməkdir. Evladlıq döyüşkənlik deməkdir, öndərlik deməkdir. Bu gün Ocaq ayrı-ayrı bireylərin əməyi, yaradıcılığı sayəsində qorunursa, bu o demək deyil, bu elə belə olmalıdır, axıra qədər də belə olacaq. Ocaq İnsanlaşma hərəkatıdır. Bu hərəkat, söz yox, ordu səviyyəsində əli baltalı döyüşə qalxan hərəkat deyil. İnsanlaşma həqiqətinin dərk olunması, bu yöndən yaradıcılığın araya gəlməsi, fəlsəfənin yaranması, ölçünün yaranması, bununla da insanlaşma sürəci. Sürəc hərəkatdır. Ayrı-ayrı bireylərin işi ilə, məktəbin davamı ilə sınırlanan bir olay deyil. Mən sizi əmin edirəm, əgər hansı birinizsə, düşüncənizdə, özünüzü Ocaqdan ayırsanız, heç olarsınız. Bir vaxt Ocaqda olub gedənlər indi məhv olurlar. Ocaqda olub sonra qıraqda yaşayasan, şəxsən mənim ağlıma çatmır. Gərək ruhunu öldürəsən, fiziki yaşaya biləsən.

...Bizim çox böyük gücümüz, olanaqlarımız var. Ocaq adı meydana gələndə o saat rahatsızlıqlar, sorular, sevinclər ayağa durur. Atanın adı böyük iş görür. Biz o böyük işin arxasındayıq.

Bu gün Azərbaycan fəlakət içində yaşayır. Hər kəs fəlakətdən çaşqın durumdadır. Fəlakət insanı ya böyüdür, ya da quzuya döndərir, məhv edir. Güney Azərbaycanı faciə döyüb-döyüb, döyüşə qaldırıb. Borçalıda şirin-şirin döyüb, sakit özgələşib. Biz Azərbaycanda öz evimizin içində özgələşirik. Ocaqçı olaraq, bunlardan yüksəkdə dayanasan, birləşdirəsən öz ağlında, öz idrakında, mənəviyyatında, gələcək Azərbaycan surəti yaradasan, – adamlar buna xülya kimi baxırlar, çünkü sadəcə izləyicidirlər. Biz izləmirik, döyüşürük...

Atanın ölümündən sonra, elə Atanın sağlığında da nə qədər çalxalanma oldu. Bunların içindən çıxasan, yenə öz sözünü deyəsən, yenə öz yolunu gedəsən, bax, Azərbaycanın qurtuluşu üçün belə səviyyə gərəkdir. Batıdan gələn demokratiyanın prinsipi odur, heç kim böyük ola bilməz, hamı balacadır. Böyük yoxdur, böyümək də yoxdur, sürü var. İnternetlər, şəbəkələr ona qulluq edir. Çəkişmədir bu. Çəkişmədə elə sfera yaradırlar, insanın inamı qırılsın. Olanağı olan adamların da özünə inamı qırılsın. Belə boş ortam yaradılır. Balaca olmaqdan usanmırlar. Biz də böyük olmaqdan usanmamalıyıq. Balacanın işi böyüyə diş qıcamaqdır. Balacaların qısqanclığı böyük olur. “Xural” qəzetində çap olunmuşdu “Balacalığın gücə qarşı ironiyası” yazım. Siyasi anlamda da belədir, bireysəl anlamda da. Bu məsələləri ciddi düşündükcə Evladlığın yeni səviyyələri başlayır – tamam yeni səviyyə. Bireysəl olanaqların hamısı üzə çıxır. Bireysəl qaydada elə səviyyəyə gəlib çatırsan, düşünmürsən, mənim 16, 25 yaşım var, mən gəncəm, yaşlıyam. Düşünmürsən, mən 16 yaşlı Ulunurla necə söz deyə bilərəm. Söz inamın, qüdrətin üzərində yeriyir. Söz yaşın üzərində yerimir. Mən özüm üçün həmişə düşünürəm – kiməm?! Özümə cavabım nikbin olur.

Hər kəs Ocaqla iç-içə yaşasa, özünün qüdrətini üzə çıxaracaq. Evladlıq öndərlikdir. Öndər olduğunuzu unutmamalısınız. Sən bu xalqın mənəvi, ruhsal öndərisən. Bu həqiqətlə dolsan sənin yükün də, sorumluluğun da, bu xalqa qulluq eləmək qayğın da böyüyəcək...

### *Ata Sonevini Ziyarət Günü Törəni*

*(5 Şölə Ayı, 34-cü il)*

***Ocaq Günsırası (təqvimi) ilə Şölə Ayının 5-də (Miladla 5.06.2012) Mütləqə İnam Ocağının Evladları Ağstafa şəhərinə səfər etmişlər. Səfərin məqsədi Ocaq mərasimlərindən biri olan "Ata Sonevini Ziyarət" Mərasimini həyata keçirmək olub.***

***Ocaq Yükümlüsü Soylu Atalı ziyarətin mahiyəti ilə bağlı düşüncələrini bildirdi:***

Düz 15 ildir ziyarət səfəri həyata keçiririk. Bircə ili ötürməmişik, Ziyarətimizdə ara verməmişik. Hər gələndə çox zəngin içlə gəlmişik. Çünkü çox ciddi əməllər həyata keçirmişik. Atanın ölümündən sonra özümüzəxas ruhsal əməlçilik üslubu, gələnəyi yaratdıq. Ata üslubunun Evlad üslubunu yetirməsi baş tutdu. Sadəcə yamsılayıcı olmadıq. Ona görə ürəyimizin gücü, sevgimizin olanaqları tükənmir. Yolu dərk elədik, ona sarıldıq. İndi əqidə üstə yeni insan halı yaradırıq. Bu hal üstə hər yerdə Atanın harayını çəkirik. Zaman-zaman sonevin ziyarətinə gələnlər çox olacaq, ancaq Atanın harayını çəkənlər az olacaq. Biz az olmaqdan, azlardan olmaqdan çəkinmirik. Çünkü nə elədiyimizin fərqindəyik. Böyük məsələləri adiləşdirə bilmərik. Adiləşdirsək, gələcəkdə Ağstafa ziyarətimiz Azərbaycan olayı kimi dərk olunmaz. Ağstafalıların sorağı yoxdur, buranı biz Azərbaycanın "Məkkəsinə" çeviririk...

Bu gün adamlar elə düşünə bilər, biz duyğusal adamlarıq, buraya öz duyğularımızın dalınca gəlirik. Bir para adamlar düşünə bilər, bu kişinin üzərimizdə mənəvi haqqı var, onu qırağa qoya bilmirik. Başqa biriləri deyər, qeyrətə boğulub üzə düşürlər. Bəlkə də illər öncə əhvallarımızda bu deyilənlərin nişanələrini tapmaq olardı. Ancaq bütün bunlardan dərində elə bir Tələb var, biz o Tələblə böyüyüb yetkinləşmişik.

Bu Tələb – Yurdumuzda İnam Xalqı yaratmaqdır...

## Xəlqilik Bayramı 34-cü il

Qutsal Gündür. Asif Atanın Mütləqə İnam Ocağı özünün qutsal bayramlarından biri olan "Xəlqilik" Bayramını həyata keçirir. Düz 12 ildir Ocaq Bayramlarını həyata keçiririk. Mən "Asif Ata Amalı, ya da İnsanlığın İnamı" adlı bir əsər yazdım. Bu yazı təkcə sunuş deyil, həm də heyrətdir. Asif Ata Yola başlayanda, hələ 60-cı illər idi, – sonu görünməyən bir Yola başlayırdı. Nə gələnək vardı, nə təcrübə vardı. Yəni Onun özünün başladığı yöndən gələnək yox idi, genel ruhaniyyat gələnəyi vardı, fəlsəfi məktəblər gələnəyi vardı. Ancaq Asif Atanın ortaya qoyduğu prinsiplər baxımından heç bir gələnək yox idi. Bəs O nəyə inanırdı belə, nəyə güvənirdi, tək-tənha düşmüşdü bu Yola?! İzlənilirdi, özü də amansız bir Sovet imperiyasının içində. Nəyə güvənirsən? Sənin xalqıyın durumu da o deyil axı. Xalqının başına yüzillərdir oyun açırlar. Onu salıblar ayaq altına. Sən nəyə güvənirsən, belə bir addım atırsan, usanmırsan, yorulmursan, dayanmırsan. Səni qəbul eləmirlər, yorulmursan. Sənin haqqında min cür söz-söhbət yaradırlar, sarsılmırsan. Bunu, yalnız Asif Atanın dünyabaxışını, İnamını, onun prinsiplərini ciddi olaraq öyrənəndən sonra adam anlayır, O hansı gücə dayanırmış, Onun içindəki yenilməzlik nə imiş.

Bu gün, biz elə bir aşamadayıq, bilirik nə istəyirik. Asif Atanı biz anlayırıq. Onun Yolunu ciddi yaşadırıq. Baxmayaraq, bir neçə illər bundan öncə biz yalın idik. Asif Ata aramızdan getdi, ancaq biz dayanmadıq, tükənmədik, yorulmadıq. Bu xalq bizi eşitdi, eşitmədi, görüşlər keçirdik, qapını üzümüzə bağladılar, biri elə dedi, biri belə dedi, ancaq biz usanmadıq, geri durmadıq. Bax, bu geri durmamaq məsələsi adamın içində başqa bir güc formalaşdırır, başqa bir təpər yaradır, başqa bir istək yaradır.

…İstək – xalqın içində bir qom adamın inadla ruhsal direniş yaratmağa yetməsidir. Ruhsal direnişi də, bir qom adam, sadəcə həvəslə yaratmır. Bizim söykəndiyimiz möhtəşəm ideyalardır. Təkcə türkün yox, təkcə Azərbaycanın yox, bütün bəşəriyyətin mahiyətini özündə daşıyan dərin, əsaslı ideyalardır.

İnsan elə şeyi bayram eləməlidir, o, insanın ömrünə girsin, qurulsun. Asif Ata Xəlqiliyin prinsiplərini bəlirləyib. Bunların üzərində O, Mütləqə İnam yaratdı. Mütləqə İnam – insanın qurtulmasıdır. İnsanın qurtulması millətin qurtulması deməkdir. İnsan qurtulmayıb. Bütün tarixi dönəmləri səhifələyin, görün hansı dönəmdə insanın qurtuluşuna bağlı addımlar atılıb, ideyalar ortaya qoyulub. İnsan xurafatın əsirinə çevrilib. Siyasi xurafatın, dini xurafatın, ideoloji xurafatın əsirinə çevrilib. Qəlibə düşüb, çıxa bilmir. Ayağa durub çaba göstərən də baxır sağına, baxır soluna, görür, insan balacadır, mənliyinin yiyəsi deyil. Onun səviyyəsinə uyğun çabalar göstərir, təşkilat yardır, ideya ortaya qoyur. Bununla dünya dəyişməz axı?! Bununla xalq yaranmaz axı?! Asif Ata deyir, xalq özündən çox ayrılıb. Xalqı sevirsənsə, xalqın indiki səviyyəsini döyməlisən. Xurafat səviyyəsidir onun indiki səviyyəsi. Uşaq səviyyəsidir. Döyməlisən, böyütməlisən. Əgər döyəcək, böyüdəcəksənsə, onda sevginə layiq yaradacaqsan. İndi gör kim olmalısan. Gör necə şəxsiyyətlər olmalıdır. Bu sadə məsələ deyil, asan deyil.

Hər birimiz böyük iddialarla ayağa durmuşuq, xalqa qulluq edəcəyəm deyə. Ancaq özümüz düşürük qəlibin içinə, kütlənin səviyyəsindən bir addım da qabağa getmirik. Ancaq tanınırıq, məşhurlaşırıq, bir çoxumuzu tanıdırlar kürəyimizə əl qoyaraq. Pulumuzu da bol eləyirlər, bizi politoloq da eləyirlər. Ancaq baxın, xalqın içində əsil direniş göstərən adamlara xalq yaxın gəlmir. Xalqın da səviyyəsi o qədər aşağılanıbdır, gözü axtarır görsün buna söz deyən tanınmışdır, yoxsa tanınmamış. Onun nə dediyi əsas deyil ha, həqiqət deyir, ya həqiqətsizlik, əsas deyil, görək tanınıb, yoxsa yox. Tanınan səni məhv eləmək üçün tanınıb, o, səni uşaq səviyyəsində saxlayır. Görmürsən bunu?!

Ona görə də özül prinsiplər olmalıdır. O prinsiplər üzərində də ciddi düşünən insanlar olmalıdır. Qoy az olsun, ancaq sağlam olsun… Yetər o ideyalar insanın beyninə, ürəyinə yazılsın, dilinə, şöhrətinə yox. Qoy nə qədər başına qar yağır-yağsın, nə qədər mənliyin sarsılır-sarsılsın, bu əzabın altında, ancaq həqiqətən özün atdığın addımı dərk eləyəsən, sən nə eləyirsən. Bax, Mütləqə İnamla insanın, xalqın qurtuluşu budur.

## *“Atagün” Ailəsinin IV Aylıq Törəni*
*(30 Şölə Ayı, 34-cü il)*

Şölə Ayının 30-u, saat 16-da başlayan Atagün Ailəsinin Aylıq törənində söz deməzdən öncə Ataya səcdə qılıram, Bayrağımızı öpürəm.

Bu gün bizim burada Amaldaşcasına, dostcasına bir araya gəlməyimizin, burada oturub ruhsal söz söyləməyimizin özü qutsallıqdır. Çünkü bizi buraya başqa duyğular, başqa tələblər gətirmir. Qutsal söz söyləmək, qutsal əhvallar sərgiləmək, əslində, Ata Yolunu gərəyincə yaşatmaqdır. Bu da xalqımız üçün, sözün doğru anlamında, ruhsal məktəb deməkdir. Burada bizim həm fərəhli əhvallarımız var, həm də bəlli bir ruhsal gərginlik var. O da onunla bağlıdır, biz İnsanlaşma Bayrağı altında oturub qutsallığa çağırış edirik. Bu isə bizdən bütövlük, dolğunluq, ciddiyyət tələb edir. Bu həm də törənin yönüdür. Biz başqa bir süfrədə də otura bilərdik. Məsələn, çay süfrəsində deyə-gülə söhbətlər edərdik, lap doğmalaşardıq. Ancaq bu, tədbirin tələbinə, səviyyəsinə bərabər olmazdı. Ona görə də bilməyimiz gərəkdir, Ocaq tədbirləri özündə ruhsal ciddiyyət daşıyır. Bu törən bizim hər birimizi ciddiyyətə, sorumluluğa bağlamaqla yanaşı, həm də düşüncəyə bağlayır. Biz ruhsal iş başındayıq.

Son çağlar bir çox ədəbiyyatlar oxudum, eləcə də Atanı oxudum. Sonucda əmin oldum, bizim çox ciddi ortamımız yaranıb. Habelə, bizim ruhsal döyüş işimiz çox əsaslı, özümlüdür.

Bu ay mən məzuniyyətdə oldum. Vaxtdan gərəkli səviyədə yararlana bildim. Çoxsaylı bireysəl görüşlər keçirdim. Habelə səfərlər elədim. Uzun zamandır Borçalıda Ocaq sorağını ciddi yaya bilmirdim. Bu dəfə səfər uğurlu alındı, görüş keçirdim, bağlantılar qurdum, yenidən görüşlər keçirmək üçün Borçalı rayonundakı Gənclər təşkilatının rəhbərliyi ilə razılığa gəldik. Qərara gəldik, çağaşırı mən gedib orada milli-mənəvi, bəşəri yöndə, Mütləqə İnam ölçüsü ilə, maarifçilik işi aparım. Oradan birbaşa Atagünə səfərim, Amaldaşlarımla, eləcə də Amalımızın dostları ilə görüşümün baş tutması ayrıca bir məna daşıyır...

"Asif Ata Amalı, ya da İnsanlığın İnamı" adlı bir yazı yazmışam. Onu Amaldaşlarım kitabça halında hazırlayıblar da. Bu kitabçalardan xeyli nüsxələr yaydıq. Borçalıda özüm də onu bir daha oxudum. Orada toxunduğum məsələlər məni bir daha düşündürdü. Anladım, Asif Atanın Ocağını dayandırmaq, qarşısını almaq olumsuz olacaq. Çünkü məzmun çox dərindədir, işlər çox genişlənib. Bunun niyəsinin ikinci səbəbi odur, Asif Atanın özül prinsipləri bütöv bir həqiqət olmaqla yanaşı, bəşəri humanizmə dayanır. Biz bir toplum olaraq zora uğramışıq. Bizə zorla mədəniyyət verirlər, dünyabaxış verirlər. Bizə qılınc çəkib İnam veriblər. Ancaq Asif Atanın Mütləqə İnam Ocağı öz İnamını heç kimə qılınc qorxusu ilə vermək düşüncəsində deyil. Biz zor göstərməyəcəyik. Bizə, bir millət olaraq, zor göstəriblər – yadlar. İndi də bizə (Ocağa) zor göstərirlər. Bu zor öz toplumumuzdan gəlir. Bizdən yadlığı qoruyur. Bizim sevdiklərimiz bizə qılınc çəkir – öz xalqımız. Çünkü yadlıq onun ruhuna, mənliyinə hakim kəsilib. İndi biz istəyirik, onun öz Atası, öz Peyğəmbəri, öz Dünyabaxışı onun ruhuna hakim kəsilsin. Onda yadlıq əsarətindən çıxacaq, ruhsal özgürlüyünü bərpa edəcək. Buna görədir, biz ona sevgi veririk. Onun özünəxaslığını ona sevgi ilə veririk. Bizim Ocağımızın heç vaxt sönməyəcəyi, həm də, bu məzmuna bağlıdır.

Heç kimə düşüncə zoru da göstərmirik, təlqin əsasında İnamı verməyin doğru olmadığını dərk edirik. Xalqı o qədər özünə yadlaşdırıblar, o səni qorumalı ikən, yadlığı səndən qoruyur... Asif Atanın Ocağının qarşısıalınmaz içsəl bir gücü var. Gerçək fiziki gücü o deyil, ancaq içsəl gücü qarşısıalınmazdır.

Özüylədöyüş hesabatı ilə bağlı bir şeyi demək istəyirəm, mənim hər zaman özümlə üz-üzə qalmağım, özümlə sağlam görüşüm olur. Mən öz ömrümdə buna yetmişəm. Özümü hər yöndən aşkarlamağım, özümü aldatmamağım, yalanların üzərinə yeriməyim məni Mütləqə İnam yolunda daha da qətiyyətli edir. İçsəl gücüm artır. Nə qədər, adam özünü aldadır, o, özünü yalan ortamına bağlayır. Onun içsəl gücü olmur. Adamın aldığı tərbiyə istər evindən, istər toplumdan, istər xalqının indiki səviyyəsindən, – öyrəndikləri yalandan oluşur. Daim bunları ötmək gərəkdir. Öz içində yeni hal yaratmaq – döyüş əzmini artırar. Gərək öz içində toplumçuluqdan gələn

əyintiləri, pozuntuları görəsən, özünə deyəsən, onu ötəsən. Onda sənin gələcəyin var. Sən öz içinə güvənə bilərsən. Tərsinə olarsa, ömür özünü aldatmaqla sınırlaşır, qırılır...

## *Uluyol-Hünər Ailə Günü (2 Od Ayı, 34-cü il)*

*(Ocaq Yükümlüsü Soylu Atalının uğurlaması)*

Ocaq tədbirlərində söz demək fərqlidir. Başqa tədbirlərdə adam öz bildiklərindən danışır. Bizdə söz – yaşamaq deməkdir. Yaşadığımızı deməkdir. Ocaqçı üçün prinsipial bir məsələdir, o nə deyir. O, yaşayıbsa, söz deyir. Biz ruhsal dirçəliş həyata keçirirk. Biz bütün taleyimizi buna bağlamışıq. Bizim üçün həyatın ana xətti Amaldır. Ona görə də Amalüstə yaşamaq haqqında hər an düşünmək gərəkdir.

Amallaşma, Kamilləşmə, Xalqlaşma yönündən hesabat verilməlidir. Bir çox baxışlardan fərqli olaraq, bizdə insanın başlıca istəyi özünü, həyatı içdən dəyişməkdir. İdeala doğru öz ömrünü dəyişməkdir. İnsan, İdealı özü üçün bəlli etməlidir, – İdeal nədir elə, mən öz ömrümü dəyişməliyəm. Kamilləşmənin İdeala doğru tələbi özüylədöyüş əsasında gerçəkləşir. Bireyin özünü yaratması, özünü tanımağından başlayır. Bu, Mütləqə İnam fəlsəfəsinin əsas xətlərindən biridir. Özünü tanımaq. Hər kəs, toplumun 99%-i gizlənir. Az adamlar var, gizlənmir, içdənliyə (səmimiyyətə) dayanır. İnsanlar, ilk olaraq, gözün gördüyünə əsaslanırlar. Gözünün gördüyü əsasında təsəvvürləri formalaşır. Gözün yaratdığı təsəvvürlərdən fərqli olaraq, adamın düşüncəsinin, içsəl görümünün yaratdığı təsəvvürlər var. Doğrudur, içsəl təsəvvürlərlə baxmaq, başqa sözlə, içsəl gözlə baxmaq gələnəksəl bir şey deyil. Ona görə hər bir insandan tələb edə bilməzsən, sən gözün gördüyünü öt, Ruhunla bax. Sonuc olaraq o baş verir, insanlar davrananda, yaşayanda başqalarının yaratdığı təsəvvürlərə kökləyirlər özlərini. Başqalarında təsəvvür yaratmaq üçün necə davranmalıyam, – İçim nədirsə, o gizlənir. İçimdə balaca-

lığımı, xudbinliyimi gizləmək zorunda qalmamalıyam. Yaşadığımız həyat sanki səhnəyə çevrilir. Biz həyatı yaşamaqdan çox rol kimi ifa edirik. Belə davranmaq gərəkdir, qıraqdan baxırlar. Əgər insan öz içində həqiqətə yetərsə, mənliyini tanıyarsa, o öz qarşısında sorumlu olur. Mən vicdan əsasında yaşamalıyam, çünkü insanam. Ədalət prinsipləri ilə yaşamalıyam, ləyaqət prinsipləri ilə yaşamalıyam.

İnsanın özü qarşısında sorumluluğu olmadığı üçün başqaları qarşısında gizlənmək zorunda qalır. Özüylədöyüş fəlsəfəmiz insanı bu fəlakətdən qurtarmalıdır. Asif Atanın "İnsanlaşın – İnsanlaşdırın" harayı buna dayanır. Mütləq içdənlik, mütləq doğruluq, dünya nə çalır çalsın, qırağın baxışına görə kökləmə içini. Buradan nə çıxır ortaya? İnsan özünü öz durumuyla, indiki durumuyla, toplumun baxışıyla deyil, Mütləqlə, İnsaniliklə tutuşdurmalıdır. İnsan özünü İnsaniliklə tutuşduranda tamam başqa mənzərə açılır, başqa hal yaranır.

İstər dini, istər siyasi doktrinalar bizə niyə fəlakət yaşadır, çünkü heç biri insana gərək olmaq haqqında düşünmür. İnsan da öz içində tam özgürlüyə çıxmır. Ona görə də bizə sunulan, yeridilən hər şey bizi həyat aktyoruna çevirir. Ona görə bu gün bəşəriyyət özünə yad yaşayır. Öz mahiyətinə, insani tələblərinə arxa çevirdiyi üçün. Millət dediyimiz ayrı-ayrı bireylər deməkdir. Ayrı-ayrı bireylərin bütövlükdə baxışı ondan qıraqda yaranan ortama görə hesablanır. Ortam doğru deyil. Ona görə ortamın qəlibinə girmək gərək deyil. Ortamı dəyişmək gərəkdir. Adamların ağlına sığmır, üç-beş insanla ortam necə dəyişir?! Bilirsən, necə dəyişəcək – sən dediyimiz yöndə, özünlə doğrusansa, içdənliklisənsə, özünü tanıyırsansa, hansı ortamda olmağından asılı olmayaraq, qurulduğun kimi olacaqsan. Ortamın bəsitliyinə enməyəcəksən. Burada sənin ortama özün kimi girməyin yeni uyum yarada bilər. Bütün bəşəriyyətin tarixində, özünə doğma yaşayan, ayrı-ayrı şəxsiyyətlər ortama etki göstərib. Demirəm, ortamı tam dəyişib. Ortamı dəyişmək üçün, söz yox, bireyin bireysəl keyfiyyətlərindən başqa dərin məsələlər var, bunlar da ödənməlidir. Bireyin dərin keyfiyyətləri hansı ideyaya söykənir, hansı ölçüylə yaşanır, üzə çıxır, bu, genel ortamın açarına çevrilir, doğrudan da.

Bu gün bütün hallarda düşüncə bir şeyə yönəlir. Bilim gəlişir. Tərəqqi sanki son zirvələrinə çatıb. Ancaq hər kəsin şüurunda, psixologiyasında bir düşüncə hakimdir, ya o həqiqətən bunu bilir, ya da altşüur dedikləri şeydə bir düşüncə ortaya çıxır, mən heç bir şeyi dəyişə bilmərəm. Siyasi anlamda da bu belədir, dini anlamda da. Fatalizm ("Qismət"lə barışmaq). Guya başqa tələblərlə yaşayanlar, başqa tələblərlə baxanlar dini fatalizmi qəbul eləmir. Ancaq onunla söhbət edəndə deyirlər, sən neyləyə bilərsən, nəyi dəyişə bilərsən ki?! Çağdaş düşüncəli adamdır, təhsilli, savadlıdır. Özünəxas təfəkkür olanaqları var, ancaq deyir, sən nəyi dəyişə bilrəsən ki?! Bu elə onun ağlında, şüurunda fatalizmin oturuşması deməkdir. Min illərdir insan axtarır, düşünür, həyatda ideal yoxdursa, harda var?! – Bilmək gərəkdir, İdealı öz ömründə yarat. Buna sənin olanaqların var. Mərdlik, vicdan, ədalət gerçəklikdə yoxdursa, öz ömründə yarat. Niyə axtarırıq orda-burda? Asif Atanın tələbi odur. İçində yarat, yet, olanaqlarını aşkarla. İdeal məsələsi insana bağlıdır, ondan qıraqda deyil. Dünyanın mənası dünyadan qıraqda deyil, onun özündədir. Onun nizamı, uyumu göylər səltənətində yönətilmir. Böyük bir nikbinlik var burada. Bunu bəşəriyyətə vermək ciddi ömürlər istəyir...

Yol məsələsi belədir, biz həyatın bütün yönlərini ruhsal çalışmalarla sınırlaşdırmaq düşüncəsində deyilik. Atanın ruhsal çalışması onları sınırlaşdırmır, stimul verir. Ata "Uluyurd Hərəkatı" kitabında belə deyir: – Hərəkat yaranmalıdır. Bu xalq 50 ilə, ya 100 ilə dəyişir. Bu elə məsələlərdir, xalqın bütün yönlərdə qırıldığı nöqtələri bərpa edir. Milli strategiya haqqında da biz düşünürük. Milli strategiyanı bəlli edən ana xətt var. Bu, xristianlığın qoynunda, ya da ərəb baxışının etkisində yaranmaz. Avropanın hansısa dəyərindən bəhrələnə bilərik. Ancaq sən, millət olaraq, özün öz yaradıcılığını ortaya qoymalısan. Milli strategiya odur. Tutuquşu olmaq olmaz. Kölgə olmaqla nə yarada bilərsən?! Biz bütün hərəkətləri sınırlaşdırmırıq. Biz deyirik, Güney Azərbaycanda Uluyurd Hərəkatı başlamalıdır, bunun üçün Milli İdeoloji gərəkdir, Konsepsiya gərəkdir, İdeya gərəkdir, bunun arxasınca gedən sağlam ürəklər gərəkdir. Millətə yönəlik, onun gələcəyinə yönəlik mən nə istəyirəm – Bütöv xətt. Milli məsələlərdə tam, bütöv baxış yaranmalıdır.

### *"Ulufərəh" Ailəsinin IV Aylıq Törəni*

*(2 Od Ayı, 34-cü il)*

İstənilən dində, siyasətdə şəxs özünü aldadır. Hər kəs başqasının baxışına hesablayır hər şeyi. Özünü özünə tanıtmır, göstərmir. Ocağın istəyi Şəxsiyyət yaratmaqdır. Şəxsiyyət özünü yaradır. Özünü yaradan nə özünü, nə heç kimi aldatmaz.

Bir var gözün yaratdığı təsəvvür, bir də var için yaratdığı təsəvvür. İnsanın gözüylə gördüklərindən baxışı formalaşır. Toplum hər şeyi gözün yaratdığı baxışa hesablayır. Ona görə də heç kim olduğu kimi görünmür, sonucda həyat aktyorluqdan oluşur, həyat səhnəyə çevrilir. Canlı həyatı biz, insanlar aktyor kimi yaşayırıq – özünü, başqalarını aldada-aldada. Bu gün bütün bəşəriyyət canlı həyatı aktyor kimi yaşayır. Az şəxsiyyətlər olub həyat aktyorluğundan qırağa çıxıb.

Özünə deməlisən, mən buyam, adiyəm, cılızam, mən şəxsiyyət olmaq istəyirəm. "Ailə Günü"nün tələbi budur. İnsan öz içinə girir, öz içini ələşdirir, içi genişlənsin, böyüsün, özgür olsun. İçin özü üfüqə çevrilir. O üfüqlərdə hər şey uça bilər, poeziya yarana bilər, musiqi yarana bilər, – dəyərə çevrilə bilər adamın içi.

Dedi-qodu özünə ortam axtarır böyüsün. Deməli, bu ortamın biri sən ola bilərsən. Başqalarının balacalığı üçün ortam olmamalıyıq. Bizim qəlbimiz dedi-qodu ortamı deyil, yalan ortamı deyil. Gözəl ortamların yaranmasına "bir çiçəklə yaz olmaz" deyimi ilə yanaşmalı deyilik. Çiçək açsa da yaz olur, açmasa da. Ancaq çiçək açıbsa, deməli yaz gəlib. Yaz gəlibsə, deməli, çiçək bir deyil, çoxdur. Çoxu da görən gərək. Görə bilməyənlər "bir çiçəklə yaz olmaz" deyimini gəlişməyə, döyüşməyə əngəl kimi qullanırlar. Lap çiçək çox deyilsə belə, bilmək gərək, yaz gəlibsə, deməli, çiçək açacaq. Ya da tərsinə, bircə çiçək açıbsa, deməli, yaz gələcək, çiçəklər də açacaq.

Gələnək yarat, yol yarat, örnək yarat. Biz indiyə qədər ideal axtarırdıq. Soydaşımız Səbuhi bəy deyir, həyatda ideal yoxdur. Bəs onda idealı harda tapaq?! Asif Ata deyir, özündə yarat :

Ədalət axtarırsan – özündə yarat.
Qeyrət axtarırsan – özündə yarat.
Həqiqət axtarırsan – özündə yarat.

İdeal axtarırsan – özündə yarat.

Yaranan hər bir uca dəyərin dalğaları dünyanı bürüyəcək. Qorxma, həyatın axırı deyil, heç nəyi bu günə hesablamaq olmaz. Ömrü, döyüşü bu günə hesablamaq olmaz. Əbədi sabaha hesablamaq gərəkdir. Bu günün gözü əyri görür hər şeyi. Sən bu günün gözünə hesablasan, balaca qalacaqsan. Bugün istənilən addımını qaralayır, düşüncəni qaralayır, baxışını qaralayır. Sevgini lağa qoyur, hünərini lağa qoyur, qəbul etmir. Onun baxışı balacadır. O baxışlarla dünya məhv olub. Sənin istədiyin nədir? Həyatı dəyişmək istəyirsən, qlobal dəyişiklik istəyirsən. Necə dəyişəcəksən o baxışdan qorxa-qorxa?! Ömür verirsən əqidəyə, yola, həm də gizlənəsən, heç nə alınmaz, onda gedək işimizlə uğraşaq, gedək biz də özümüzə maddi üstünlük yaradaq... Bax, şəxsiyyət yaratmaq məsələsi çox önəmlidir. Asif Atanın "Ailə Günü" üçün qoyduğu tələblər – Amallaşma, Kamilləşmə, Xalqlaşma – şəxsiyyətin yaranması yoludur. Bununla biz şəxsiyyət yaradırıq "ağac-ağac, birey-birey, hal-hal". Ona görə də, Göylü, sənin hesabatını alqışlayıram.

Mənə sual verirlər, Asif Atanın yolunda siz özünüzdən başqa kimi görürsünüz? Deyirəm, Günevi, Nurtəkini, Göylünü, Türkeli. Günev necə işlər görür, bir nöqtədə dayanmır, səsi bölgəni bürüyüb. Ondan çox şey öyrənə bilərik.

Günevə deyirdim, sən İnam Evini tik, gələcəklər. Qoy Ailədə az olaq. Lap 10 il az olaq, ancaq gələcəklər.

Ocaqçının özü üçün ən böyük bəlirtisi nə olmalıdır – Fərəhçilik. Bir var, deyirsən, mən fərəhlənirəm, bir də var, doğrudan da, fərəhə yetmisən. Şəxs Fərəhə o vaxt yetir, nə etdiyinin, hara getdiyinin mahiyyətini dərk edir. Ocaqda elə olub, adamlar böyük araşdırmalara gedə bilmirlər, deyirlər, Ocaqda olduğum üçün fəxr edirəm, fərəhlənirəm i.a. Doğrudanmı ona yetmisən?! Həyatda hər kəs üçün bəlirsizlik var. Çoxluq bilmir, o, həyatda kimdir, həyat onun üçün nə deməkdir?! Adamlar ən çox özünü aldadır, vurnuxur. Yalanlar içində vurnuxmalarla həyat sürmək bəlirsizlik fəlakətidir. Tarixdə olan az şəxsiyyətlər var, onlar özləri üçün tam bir bəlirti əldə ediblər. O da az keyfiyyətdir. Çoxlu pulu olan adamlar var, onlar elə bilirlər, hər şey onlara aydındır, əslində isə onlar özünü aldadıb yaşayırlar.

Asif Ata Ocaqçı üçün yön verir, İnam, fəlsəfə verir, özünü tam olaraq aydınlaşdırsın. Özünün Həyatda, Sabahda yerini bəlirləsin. Adamın içi həqiqətlə dolmursa, adam bədbin yaşayır. Həqiqətə yetmədiyi üçün, həqiqətsizlik girdabına düşdüyü üçün adam həyatda özünü öldürür (intihar edir).

Yüksək keyfiyyətlərə yetmişəm deyirsiniz, necə yetmisən, o açılmalıdır. Mən vüqarlıyam. Necə yetmişəm vüqara?! Araşdırmalarla yeni zirvələr aşırsan. Özüylədöyüşün tələbi budur. Göylü qüsurunun yönünü araşdırdı. Ruhsal bilik – məntiq əsasında araşdırmalardan əldə olunur. Bilik – hal araçılığıyla yaşamaqdır. Özüylə döyüşün dəqiq, konkret çalarları üzə çıxmalı, bilinməlidir, onda yenilənmə başlayacaq.

## *Ailə Günü*

*(24 Od Ayı, 34-cü il)*

Ailəçilər Ailə Günü'ndə uğurlu hal yarada bilirlər. Bu, əldə olunmuş bir dəyərdir. Ocaqçı fərqli düşünür, həm də fərqli yaşayır. Adam yaşayanda söz deyə bilir, yaşamayanda söz deyə bilmir. Yaşamaq deyəndə, öz həyatını fərdi şəkildə sürdürməyi gözdə tutmuram. Zamandan üstün yaşamaq deyirik. Mən inanıram, bəlli aşamada zamaniçi işlərindən deyil, zamandan açılma işlərindən danışacaqsan. Fiziki, bioloji varlığımız bizi gerçəkliyə bağlayır. Biz o addımları ona görə atırıq, zamandan açılaq. Biz zamanın içində olsaq da, zamanın tələbləri ilə yaşamırıq. Bunu deyə bilmək aşaması var qabaqda. Elə hal olmur, mən zamana həsr olunum. Evimdə fiziki iş görürəm, əlim işləyir, ancaq düşüncəm Amalın tələblərinin yanındadır.

Sufilər haqqında oxuyuram, yüzilləri düşünürəm. Atayla sufilərin fərqini görürəm. Sufilərin gözəlliklərini görürəm, həm də Atayla onların fərqini anlayıram. Mənim içimdə yəqinlik yaranır, sufilərin yaxşılıqlarının yiyəsi var – o, Asif Atadır. Yüzillər sonra sizin də yaxşılıqlarınızı yüksəkliklərə, zirvələrə qaldıran, onu yenidən insanlıq gedişinə bağlayan ideya var, yön var, şəxsiyyət var. Mənim içimdə,

ağlımda söhbət gedir. Adamlar bir-biri ilə söhbət edir, çox hallarda bir-biri üçün maraqsız olurlar. Niyə? Çünkü hər kəs özündən, öz balaca əhvallarından deyir. Hər bir toplumsal adam indiki gedişi, zamanı ən primitiv şəkildə ifadə edir. Hər kəs özünün yaşadığını balaca bir boya ilə verir. Gərək insanlara elə şey verəsən, sənin yaşadığın elə bir şey olsun, həm də qarşındakının yaşadığını qapsasın, düşüncəsini, gələcəyini qapsasın. Özüylədöyüş hesabatı bütün insanlığı qapsayır. Heç kim ondan usana bilməz. (Əgər bundan usanırsa, demək içi boşdur). Şəxs öz içində gediş edir, insanlara sanki öz içinin fotolarını göstərir. Ailə Günü özünüyaratma araşdırmalarından oluşur...

Yasinin indiki halı 2-3 il öncəki halından fərqlidir. Qabaqlar bədbin idi, indi bədbinlikdən çıxıb, içinin fərəhli halını sunur. O, Atanın işinin içinə girə bilir. Ata böyük ruhsal ortamdır – dünyanın mahiyətini öz içində daşıyan. Bu ortama yan alıb Yasin. Bu da onun içini, düşüncəsini işıqlandırır. Diləyim odur, bu halı artsın, azalmasın.

Son zamanlar çoxlu sayda bireysəl görüşlərim olub. Biz burada ortam qururuq. Bu ortam Azərbaycan deməkdir. İçəridən qurulmaq çox böyük məsələləri çözür. Yasin deyir, bizim istəklərimizi Atanın İnamı həryönlü doğruldur. Doğrudur, çünkü Ata çaydır, bizim axtarışlarımız irmaqlardır, onlar gəlib o caya çıxır...

## *"Ulufərəh" Ailə Günü*

*(25 Od Ayı, 34-cü il)*

İnsan başqasına hesablayır məişətini, maddiyyatını. Başqalarından üstün görünməyə çalışır. Əgər başqasından üstün görünməsə, paxıllıq duyğusu ona rahatlıq verməyəcək. O bunu gözə alıb üç qatlı ev tikməlidir. Başqasının olanaqları qabaranda gözügötürməzliyi ona əzab verəcək. Həsəd duyğusunu sakitləşdirməkdən ötrü (aradan qaldırmaqdan ötrü yox, sakitləşdirməkdən ötrü) mütləq o, özünə üstün güzəran düşünür.

Bir də sirr məsələsi, Göylünün çıxışında, özümü sirr saxlamağa yoxlayıram dedi. Biz Mütləqə İnam Ruhaniyatının daşıyıcılarıyıq. Biz Asif Atanın hikmətini, kəlamını ciddi şəkildə öyrənməliyik. Öyrəndikcə çox şeylər bizə aydınlaşacaq. Nədir sənin saxladığın? Doğrudanmı o sirdir?! O sirr deyil. Sirr dünyanın mənasıdır. Onu açmaq gərəkdir. Biz sirr saxlamaq üçün yaranmamışıq. Biz sirri açmağa gəlmişik. Sənin dediyin sirr deyil. O balacalıqdır, eybəcərlikdir, sən onu özünə yaxın qoymursan, onu dilinə yaxın qoymursan, yaddaşına yaxın qoymursan, ömrünə yaxın qoymursan. Başqasının oyunbaz gizlinləri sənin qonun deyil, onu gizlin tutasan, ya bölüşəsən. Belə şeyləri dilindən, düşüncəndən, yaddaşından rədd edirsən. Dediyim kimi, sirr böyük məsələdir. Ocaqçı olaraq, biz hər an sirləri açmalıyıq. Bax, bu, özünü fəth eləməkdir. Özündəki sirləri açmaq. Sirr Mənadır. Mənim insanlığımın yolunu kəsən duyğular var. O sirri açmaq üçün onun yolunu kəsən duyğuları tanımaq gərəkdir, mənim yolumu niyə kəsir, neyləyim kəsməsin?! Bu cəhətdən Türkel özündəki sirri açmağın izinə düşüb. Böyük sirlərin də izinə düşsə, onda dəyişikliklər gedəcək. Özünü açıb tökməkdən qorxmamaq, usanmamaq gərəkdir. Ailə Günü bireyin qurulması üçün ruhsal ortam deməkdir. Aktivliyinizi artırın. Sizin bir-birinizin üstünə getməyiniz yolverilməzdir. Adamlar çağırın, onların qarşısında hesabat verin. Özünüzdə güc tapın. Türkel, gör bu günkü hesabatını başqasının yanında verə bilərsənmi? Ona görə "Ailə Günü"nə adamlar çağır. Açın, göstərin Asif Atanı. Kim açacaq Asif Atanı. Kim açacaq özünü. Söz xatirinə söz demək olmaz. Arxayınlaşmaq olmaz. Çalxalanmaq gərəkdir, onda "yağınız" (dəyəriniz) üzə çıxacaq.

Var İslam ruhaniyatı, var Mütləqə İnam Ruhaniyatı, Azərbaycanda. Mən başqalarının adını çəkmirəm. Çünkü Xalqın həyatında İslam ruhaniyatı var, xalqın gözündə, qulağında isə Mütləqə İnam Ruhaniyatı var. Xalqın qulağı ilə həyatı arasında çox böyük bir təzad var. Bu təzad gündən-günə artmalıdır, böyüməlidir. Gündən-günə böyüməsi üçün Ocaqçı özünə əl qatmalıdır, ömrünə əl qatmalıdır. Siyasətdə niyə uzaq yol gedə bilmirlər, çünkü istəklərinə yetə bilmirlər. Çünkü onların konkret istəkləri olur, onların əli ona çatmır. Bəs Ruhaniyatda?! Ruhaniyatda ən böyük sonuc bireyin özü üzərində

qələbəsidir. Siyasətdə isə başqalarının üzərində. Ruhaniyatda öz üzərində qələbə haqqında düşünülür. Çox zəngin hala yetilir. Fərəhi yaradan öz üzərindəki qələbədir. Başqasının üzərindəki qələbə hansı duyğuları yaradır? Acıq duyğusunu, qəzəb duyğusunu, həsəd duyğusunu, mənəmlik duyğusunu i.a. Ancaq öz üzərindəki qələbə fərəh duyğusunu yaradır. Ocağın üstünlüyü odur, böyüklüyü də odur, dayanmazlığı da odur. Yoxsa dayanardıq. Yol getməzdik. Mən öncələr çox rahatsız olurdum, hər kəsin üstündə çox əsirdim. Bugünkü halımla onu doğru saymıram. İndiki halımla deyirəm, o vaxt mən zəif idim. Yolun miqyasını düzgün ölçməmişdim. İndi mən yenə əsirəm, ancaq böyüməsi üçün, ağgünlülüyü üçün. Başqa anlamda yox.

Mütləqə İnam Ruhaniyatının üstünlükləri nədir? İnsana bağlı olması. Bax, hər yerdə insan özündən qıraqdakını bəsləyir. Mütləqə İnam Ruhaniyatında insan özündəkini bəsləyir.

Mən indi sufiləri oxuyuram. Mən onların İslamdan üstünlüklərini görürəm. Hərçəndi o üstünlükləri qabartmır kitab, tərsinə, İslamın qoynuna, qoltuğuna doldurur onları. Ancaq mən onların halını oxuyuram, onların halını görürəm. Onlar fəryad qoparırlar, mən Allahın yanında olmaq istəyirəm, yolumu kəsməyin. Mənsur deyir, mənim halımın adı eşqdir. Mən onların halına baxdıqca Ataya doğru dönürəm, Atanın onlardan üstünlüyünü görürəm. Məsələ burasındadır, içdənliklə (səmimi olaraq) Atanın üstünlüyünü görməsəm, onlar mənə mürşidlik edərdi. Mən onların mənə mürşidlik eləməsindən qorxmuram. Sadəcə istəmirəm, çünkü içimə onlar mürşidlik eləsələr, nisbi qatlara qalxaram. Mənim içimə Asif Ata mürşidlik edir.

### *Ziyarətgah Günü*
*(1 Qürub Ayı)*

Qutsal Günümüzə başlayırıq. Ziyarətgah Günü Törənini həyata keçiririk. Hansı aşamadan hansı aşamaya gəlib çıxdıq. Ocaq Günsırası ilə, yanılmıramsa, 16 cı ildə “Ata Evini Ziyarət Bayramı” adı ilə bu tədbiri həyata keçirmişik. Hər bir Ocaq Ailəsi bireysəl qaydada, səhər saat 10-dan başlayaraq, Atanın qarşısına toplanırdı. Ailənin işini,

yönünü Ataya hesabat verirdilər. Ata Ailəyə uğurlama verirdi. Beləliklə, gün içində bütün Ailələr Atanın qarşısında olurdular. Bu gələnək Atanın ölümünə kimi davam etdi. O dövrdə bu törən Atanın bir ruhsal bəlgə yazmasından sonra başladı. Bəlgədə Ata öz evini Ziyarətgah kimi vurğulamışdı (1 Qürub Ayı). Həmin ruhsal bəlgə yazıldıqdan 1 il sonra, mənim önərimlə, bu Günü törənləşdirdik. Ataya üz tutmuşdum, mənə dedi, yaz, necə görmək istəyirsən, gətir Ataya, qəbul eləyim. Mən də yazdım, apardım, Ata heç bir artırma eləmədən qəbul elədi. Ancaq 97-ci ildə, Atanın ölümündən sonra, bir sıra Evladlar bildirdilər, bu Törən (Ata Evi əlimizdən çıxdıqdan sonra) ortadan qalxmalıdır. Mən Törənin keçirilməsinin gərəkliyini vurğuladım, əsaslandırdım, Ata daşdan-divardan oluşmayıb, onun ideyaları da daşdan-divardan oluşmayıb, daş-divar bizim üçün o vaxt özəl anlam daşıyır, onun içində Ocaq var, onun içində biz varıq. Əgər onun içində Ocaq yoxdursa, onda o, bir məna daşımır. Ancaq ideya ölmür, Ocaq ölmür, Ata ölmür. İş gedir, getməlidir. Ona görə də ortadan qaldırmaqdan söz gedə bilməz. Beləliklə, biz törəni Atanın ölümündən sonra da davam elədik. Ancaq "Ata Evini Ziyarət" deyil, "Ziyarətgah Günü Törəni" kimi. Söz yox, indi Ailələrin bireysəl qaydada qəbulu yoxdu, o, Ata qarşısı üçün idi. İndi Atanın gerçək qarşısı yoxdu, Ruhsal qarşısı var, Ailələr bunu birlikdə törən kimi həyata keçirir. Adiləşdirmək isə olmaz. Qıraq adamların gəlişinə gərək yoxdu. Bir dəfə Atadan icazə istədim, görüntü çəkən var, o, törənə qatıla bilərmi? Gözləyirdim, Ata deyəcək hə, burda nə var?! Ancaq gördüm Ata düşündü. Xeyli baxdı, dedi, oğul, bizə çəkiliş də gərəkdi sabaha çatdırmaq üçün, bir yol olsun, gələcəkdə baxarıq. Sonra sözünə davam elədi, Ocağın törənləri qutsal olaydır, orda bağımsızlıq var, özgürlük var. Atanın dediyi o idi, Ocaq törəninə yalnız Ocaqçının haqqı var. Başqalarının da eyni səviyədə haqqı olacaqsa, onda Ocaqçı ilə Ocaqçı olmayanın fərqi olmaz. Bu haqqı o qazanıb, Ocaqçı olması ilə. Biz bayramlara adamları çağırırıq, Ocağı öyrətmək, ideyaları vermək üçün. Ailə Günlərinə də çağırırıq, ancaq törənə yox. Bir özünəxaslıq, yaxşı anlamda gizlilik də olmalıdır. Düzdür, biz basına veririk, saytlara qoyuruq, o sirr deyil. Canlı bir hal var burda. Canlı bir halın özü sirdi. Törən heç bir vaxt kütləviləş-

məyəcək. Açıq qapı olmayacaq. Niyə Ata deyirdi, biz qəzet buraxa bilmərik, qəzet adiləşdirir bu cur qurumları. İnformasiya bolluğu yaradıb səpələmək olmaz, öyrətmək gərəkdir. Sözün qədrini bilmək gərəkdir. Qoy axtarıb öyrənsinlər. Ucalıqda dayanıb elə bir söz deyək, onu axtarsınlar, səpələməyək. Ölkə basınında isə çap olunmaq gərəkdir addım-addım. Bu bizim xeyrimizədir. Ocaq elə bir quruculuq olayıdır, səpələnmək baxımından, onun tələsməyə haqqı yoxdur. Bağbanlıq gərəkdir, içəridən qurmaq gərəkdir. İnsan eşqlə dolanda, artıq onun bağbanlığı başlayır. Ocaq tarla deyil, buğdanı necə gəldi səpəsən. Ocaq bağdı, bağa da həzin, ardıcıl, aram-aram qulluq gərəkdir.

İndi keçirəm Atanı ziyarət məsələsinə. Biz Atanı ziyarət edirik, qıraqdakılar tıncıxır, başlayırlar min yerdən sual verməyə, qınamağa. Sizin hər işiniz yaxşıdır, ancaq Asif Atanı bütləşdirirsiniz. Asif Ataya sizin yanaşmanız şəxsiyyətə pərəstişdir i.a. Deyirik, şəxsiyyətə pərəstiş o deməkdir, pərəstiş elədiyin şəxsiyyət var olur, sən heç olursan. Asif Ataya səcdədə, pərəstişdə isə mən böyüyürəm, kamilləşirəm, ucalıram. Mən danılmıram, Asif Ata məni çəkir, qaldırır göylərə. Mənim başımdan basıb özü qalxmır göylərə. Stalinə yanaşma ilə Asif Ataya yanaşma bir deyil. Stalinə yanaşmada qorxu vardı. Hamı heç olurdu, Stalin hər şey. Asif Atanın isə ətəyindən tutan adam böyüyür, onun ağgünlülüyü deyilmi? Ocaqda nə qədər saylar olub, indi də var, ancaq o say yox oldu. O sayın içində Nurtəkin yox idi, Günev yox idi. Ona görə yoxa çıxdı. Ancaq bu gün, Asif Atadan sonra şəxsiyyət yaranıb, "dilini dinc" qoymayan şəxsiyyətlər yaranıb, Ocağın harayını çəkir. Bu məsələnin özü insanların ağlına yeriməlidir. Burada sənin böyüməyinə əngəl olan yoxdu. Əslində sənin qarşında geniş olanaqlar açan var. Necə də məsələni asan deyirlər, anlamına varmırlar. Atanı başımızın üstündə ona görə tutmuruq, bu yaxşı kişi idi, aramızda gözəl bağlantı olub, doğmalığımız olub, biz də onu başımız üzərində saxlayırıq. Biz Onu göylərdə ona görə tuturuq, ruhumuz yadlıqlardan açılır, qurtuluruq, özgür oluruq. Min ildir müsəlmanlaşdırılan toplumdan türk yaratmaq istəyirik. Çətindir bu. Gərək nə qədər qüdrətli olasan, böyük olasan, müsəlmandan türk yarada biləsən. Müsəlmandan heç nə yaratmaq olmur. Çox ağır işdir.

Bizim Ruhaniyatımızın məzmunu, ideyaları Asif Atanın yerini bəlirləyir, ona yanaşmanı da bəlirləyir – yəni Mütləqə İnam Ruhaniyyatı. Belə götürəndə, ruhaniyyatda şəxsiyətə fərqli yanaşma həmişə olub, olmalıdır. Ruhaniyatda Şəxsiyətə fərqli yanaşma onun yaradıcılığına, quruculuğuna söykənməkdir. Siyasətdə şəxsiyətə münasibət bundan fərqlidir. Çünkü siyasətdə insansevərlik yoxdur, xalqsevərlik yoxdur, hakimiyətsevərlik var. Hakimiyəti sevən insanı necə sevə bilər?! Ona görə də elələri ilə tutuşdurma aparmaq olmaz ruhaniyatdakı şəxsiyətləri. Ruhaniyatdakı şəxsiyətlər də, əgər yolun düzgünlüyünü axıra qədər bəlli edə bilmirsə, bu, məsələnin ayrı bir çalarıdır. Başlıca olaraq, ona münasibət, onun yaradıcılığına görədir, onun bəşəriyəti çağırdığı yönə görədir. Mütləqə İnamda ən böyük əxlaq insanın kamilliyinə münasibətdir. İnsanın kamilləşməsi ilə Birlikdə olmaqdır. Çünkü kamil insandan hər cür ülvi münasibət gözləyə bilərsən. Kamil insandan sədaqətsizlik gözləmə, vəfasızlıq gözləmə, dönüklük gözləmə, eybəcərlik gözləmə. Ona görə kamilliyə tapınmaq, kamilləri tanımaq ən böyük əxlaqdır. Dinin əxlaqı Allahı tanımaq, Allaha tapınmaq deyil, ona gözüyumulu boyun əyməkdir. Din əxlaqı ilə İnam əxlaqının fərqi odur. Nitşe əxlaqı da var. Nitşe dinin əxlaqını standart bir şey sayır, dilək olunan bir şey kimi baxır, özü isə əxlaqdan o yana bir əxlaq görür. Bunu doğruçu əxlaq sayır. Halbuki, bu da Nitşenin dilədiyi əxlaqdır. O öz dilədiyini doğru sayır, o birilərini isə yalnış. Niyə, çünkü Nitşenin insanı toplumüstü insandır (fövqəl insandır). Toplumüstü ayrı şeydir, toplumdan üstün ayrı şey. Toplumüstülük ierarxiyadır, təbəqədir, onun insanı, əslində bütün olanaqları ilə, gücü ilə hər şeyi danır. Soruşmaq gərəkdir, sənin insanının gücü qurtardı, onda neyləsin, intihar eləsin? Bəri başdan zəifin yaşamağa haqqı yoxdur. Necə ki heyvanat aləmində var, xəstə düşən heyvanı yığılıb yeyirlər, zəif insanı da basıb öldürmək gərəkdir, belə çıxır. Nitşenin əxlaqı heyvanat aləminin əxlaqıdır. Avropa bu gün, baxmayaraq, qanunlarla yoluna qoyur hər şeyi, insana qanunlarla yanaşır, ona hüquq verir qanunlarla, ancaq işin mahiyətində Nitşenin fəlsəfəsi durur. Nitşenin fəlsəfəsi ayrı-ayrı bireylərin münasibətində özünü özəl göstərməsə də, dövlətlərin

münasibətində özünü göstərir. Bireyə özgün edilən xassələri, keyfiyyətləri dövlətlər həyata keçirir. Həmin baxışdı.

Mütləqə İnam Ruhaniyatı, bu gün Ruhaniyat adına dünyanın halına hopan, gedişlərin hamısını rədd edir, ona qarşı durur. Biz əlin barmaqları sayda adam, dünyanın yaratdığı qaydaları rədd edirik. Mütləqə İnam Ruhaniyatı Azərbaycanın ruhsal mahiyətindəki olaylara üz tutur, onları qoruyur. Ona görə qoruyur, dünyanın azğın gedişinin qarşısında onun qönçələri hələ körpədir. Hürufiləri sunuruq, niyə, xalq hürufiləri tanımasa, Ocağı hürufi aqibətinə yuvarlayacaq. Ocağın dediyini heç anlamayacaq.

Ocağın törənləri kökləyir, qurur, yaradır, yenidən qaytarır iş başına. Özümüzə deyə bilirik, uçurub-tökürük, cilalayırıq. Törənlərimizin gözəlliyi odur, Ailə Günlərimizin gözəlliyi odur. Böyük bir həqiqət, böyük bir nizam, böyük bir uğur. Sonrakı işlərimiz var, çox uğurla, nizamla, aram-aram gedirik. Böyük bir olaya çevrilirik. O qədər zəngin bir mədəniyyət yaratmışıq – Mütləqə İnam mədəniyyəti. Onun qarşısını heç nə ilə ala bilməyəcəklər. Hürufilərin ədəbiyatları gəlib bizə çatmayıb, Nəsiminin şeirlərindən başqa. Asif Atanın zəngin bir irsi, nəinki təkcə özününki, Evladlarının irsi də dünyanın hər yerinə yayılıb. Bu təkcə texnikanın gəlişməsinə görə deyil, həm də onun Evladlarının fədakarlığına görədir. Günün bu günündə, 34 ildə ürəklə demək olar, Mütləqə İnam Ruhaniyatı tarixin, sabahın heç bir olayı ilə tutuşdurulmaz. Yerimizə başqaları olsa, özlərini göyə qaldırarlar. Biz təvazökarıq bu boyda zəngin gedişin qabağında, çünkü içəridən yetkinik, özümüzə inanırıq, nümayişə ehtiyacımız yoxdur, Quruculuğa ehtiyacımız var...

Yükümüzdən Böyük Fərəhimiz yoxdu!
Atamız var olsun!

### *Qürub Ayı, 34-cü il*

Mütləqə İnam Ocağı olaraq, bizim işimiz nədir? Bunu mən çox vurğu eləyirəm – Öyrətmənik. Bax, hər bir Ocaqçı bu yükün altında dayanıb nəfəsini dərməlidir, düşünməlidir. O özünü uydurmamalıdır. O, özünə deməlidir, mən öyrətmənəm. Kimin öyrətməniyəm? - Xalqın. Xalqın yox ey, bəşərin. Məsələn, Elana, sadə kəndçi bir qadın durub deyir, mən bəşərin öyrətməniyəm. Bunu biz heç kəsə elan eləmirik. Evladlıq yükünün altına girən bilir, bizim yükümüz öyrətmənlikdir. Səlahiyətimiz, statusumuz budur. Ancaq mən öyrətmən olmaq üçün hansı aşamaları keçməliyəm; hansı imtinalara yetməliyəm, hansı səviyələri yetirməliyəm?! Bütün bunları düşündükcə Atanın tələbləri ilə üz-üzə gəlirsən. Hər düşüncədə bircə addım qabağa getsən, bir Evlad olaraq, özünü təsdiqə yetərsən. Adam ruhsal sorumluluqla dolanda yükün altında əyilmir. Qüdrətli, yenilməz, cəsarətli olur – yenilmir həyata, yenilmir toplumçuluğa, yenilmir məişətə. Bütün bunları ümumiləşdirib, Evlad nəyin uğrunda döyüşdüyünün fərqinə varır.

Nəyi bilməyin, hansı işi görməyin bəzi çalarlarını burada vurğu eləmək istəyirəm.

Birinci, xalqı böyütmək yolunda İnam tələb edir, onun, yəni xalqın, peyğəmbərlik haqqında düşüncələrini dəyişəsən. Bir var peyğəmbərlik sözünün etimologiyası, bir də var onun məzmunu, yükünün mənası. Peyğəmbər sözü bəllidir, fars sözüdür, “soraq gətirən” deməkdir. İnsandan, dünyadan qıraqda olan, insana, dünyaya özgün olmayan bir qüvvədən şirnikdirici, qorxuducu soraqlar gətirən, özünün varlığı bilinməyən, yaradıcılığı olmayan, icraçı bireyə peyğəmbər adı verilib. Əslində isə peyğəmbərin daşıdığı yük bu deyilənlərdən qat-qat artıqdır, anlamca dərindir. Biz də xalqa peyğəmbərlik məsələsinin sorumluluğunu, yükünü, mənasını həqiqətlə ekvivalent bir səviyyədə sunmalıyıq. Əslində peyğəmbər yeni yön yaradır, yeni həyat yaradır. Yeni İnsan yaradır. Yeni ölçü yaradır. O, insanı necə yaradır, bütün bunları necə yaradır, bu, məsələnin başqa bir yanıdır. Yəni insandan o bəndə yaradır, yoxsa kamil qüdrət yaradır, bu, ayrı şeydir. Ancaq peyğəmbərin işinin yönü budur. Elə

bu nöqtədə dayanıb peyğəmbərlik haqqında əsil düşüncəni xalqa vermək gərəkdir. Peyğəmbər soraqçı deyil, kölə deyil, qul deyil, peyğəmbər Atadır. Peyğəmbər düşüncə yiyəsidir, ideya yiyəsidir. Hünər yiyəsidir. Heç kimin bacarmadığını o bacarır. Heç kimin girə bilmədiyi yükün altına girir. Ona görə o, Atadır. Xalqın peyğəmbərlik haqqında düşüncəsinə bu girməlidir. Lap elə Məhəmməd özü də, peyğəmbərliyinin birinci aşamasında, ciddi bir fədakarlıqla, əzab yükünün altına girdi, Atalıq sorumluluğuna yüksəldi. Sonradan hökmdarlıq səlahiyyətinə yetdi. Bax, orda köləlik də var, bəndəlik də. İnsandan ayrılmaq, içindən ayrılmaq köləlikdir. Bax, orada Məhəmməd artıq Ata deyil, yəni o cür peyğəmbərlik Atalıq deyil. Əgər peyğəmbər özü quldursa, yalnız icraçıdırsa, o, yalnız Cəbrayılın, Allahın ağzına baxırsa, mənimlə fərqi yalnız budursa, onda onu mən Ata saya bilmərəm. Atanın içsəl özgürlüyü, böyüklüyü, düşüncəsi, ideyası olmalıdır. Bu səbəbdən də əsil peyğəmbər elə Atadır, Ata elə peyğəmbərdir.

İkinci, Atanın Evladı xalqın Din haqqında düşüncəsini dəyişməlidir. Din – İnam fərqini açmalıdır, deməlidir. Din bütünlüklə ixtiyarı Allaha verir. İnsan ixtiyarsız qalır. İxtiyarsız insan özü, bağımsız olaraq, həqiqətə qovuşa bilmir. Dində İnsanın böyük həqiqətə yiyə durmağa olanağı, ixtiyarı yoxdur. Bu səbəbdən də, din İnam ola bilmədi. Din İnamın işini görə bilmədi. Bu səbəbdən də Bəşər öz mahiyətinə yetmədi. Bu nöqtədən xalqın din haqqında düşüncəsini dəyişdirmək gərəkdir.

Üçüncü, xalqın böyük şəxsiyyətlər haqqında düşüncəsini dəyişdirmək gərəkdir. Xalq böyük şəxsiyyətlərə həmişə çelişkili (ziddiyyətli) yanaşıb. Gah onu göyə qaldırır, gah da yerə yıxır. Gah uydurub artırır, gah da azaldıb gözdən salır. Böyük şəxsiyyətlər xalqın gələcəyi görən gözüdür. Onları düzgün qiymətləndirməyəndə xalq gerilikdən, köhnəlikdən çıxa bilmir, yeni şəxsiyyətlər yarada bilmir. Bu isə xalqın sürüləşməsi ilə sonuclanır. Eyni halda, böyük şəxsiyyətlərin dəyərini itirdikdə xalq tarixini, qədimliyini itirir. Qədimlik, tarix xalqın gələcəyə gedən yolunda zəmindir. Havadan asılı qalan xalq gələcəksizləşir. Ayağının altında zəmin olmasa, gələcəyə addım götürə bilməzsən. Ona görə də böyük şəxsiyyətlərə, köhnəlmişlik adı

verərək, onu arxivə gömmək fəlakətdir. Ocaq Evladı bu fəlakətin mahiyətini dərk eləməli, böyük şəxsiyyətlər haqqında xalqın düşüncəsini yeniləməlidir. Əgər xalqın böyük şəxsiyyətlər haqqında düşüncəsini dəyişdirə bilməsək, Asif Atanı da bu xalqa verə bilmərik. Xalqın dəyərə yanaşma üslubunda yanlışlıq davam edərsə, sabah o, Asif Atanı da həmin "köhnəliklər" içərisində görəcək. Habelə, sabah yarana biləcək şəxsiyyətin də taleyi, yəni xəlqi yönü, xəlqi taleyi sorğu altına düşür. Bu məsələlər olduca ciddi məsələlərdir. Biz Mütləqə İnam ölçüsü ilə həqiqəti üzə çıxarmalı, xalqın baxışını ona yönəltməliyik.

Dördüncü, xalqın bilim haqqında düşüncəsini dəyişmək, ya da dəqiqləşdirmək gərəkdir. Bilim gəlişmənin (tərəqqinin) təkanverici qüvvəsidir. Ancaq gəlin görək, bilim nədən asılıdır? – Toplumsal, iqtisadi formasiyadan. Toplumsal, iqtisadi formasiya da kapitalizmdir. Kapitalist bilimin başında durur, onun yiyəsidir. Ona görə də bilim insanın başına oyun açır. Məişətimizdən tutmuş mədəniyyətimizə qədər hamısında siyasi avantüranı bilim araçılığıyla həyata keçirirlər. Kapitalizmi gəlişdirmək üçün, yəni çoxlu pul əldə eləmək üçün yediyimiz qidaları xəstəliyə çevirib bizə verirlər. Sağlam heç nə yoxdur. Ona görə də bilimi ruhaniyatla birləşdirmədən toplumsal gəlişməyə (ictimai tərəqqiyə nail olmaq) yetmək olumsuz olacaq. Bizim bilimə ruhsal baxışımız əslində toplumsal düşüncəyə yenilik gətirir. Toplumsal düşüncədə ayıqlıq yaradır.

Beşinci, xalqın dövlət haqqında düşüncəsini dəyişdirmək, ya da dəqiqləşdirmək gərəkdir. Burada da Asif Atanın dövlət haqqında öyrətisi (təlimi) əsaslı şəkildə öyrənilməli, baxışlara gətirilməlidir. Öyrətmək gərəkdir, dövlətin başına ağa yerinə Ata gəlməlidir. Ata o kəsə deyirlər, o, imtiyazsız öndərdir. Bizim baxışımızda Atanın maddi imtiyazı olmur, yalnız ruhsal imtiyazı olur. Gərək dövlətin başına gətirdiyin adam özü yüyürməsin. Onu minnətlə, xahişlə gətirmək gərəkdir. Gərək dövlətin başına gəlmək üçün milyardlarla pul xərclənməyə. Həmin milyardlar xalqın firavanlığına xərclənməlidir. Burada bireysəl özünüyönətmə prinsipini dövlət əsaslı şəkildə həyata keçirməlidir. Nə qədər Din bireyin taleyini Allaha tapşırır, siyasət də dövlətə tapşırır, toplumsal həyat nizam tapa bilməyəcək.

Din bireyin taleyini Allaha tapşırdığı üçün onu mütiləşdirir. Mütiliyin yaratdığı toplumu isə dövlət amansızcasına yönətir. İç siyasət nə deməkdir? O deməkdir, dövlət öz xalqına qulluq eləmir. Öz xalqını aldadır, yola verir. Xalq isə ədalət istəyəndə ona qarşı zorakılıq yeridir. Belə dövlət olmaz axı. Dövlət anlamca qutsal olaydır. Qutsallıq ölçüsündə qurulan dövlət öz xalqına qarşı oyunlardan çıxa bilməz. Bireyi çoxluğun basqısından, çoxluğu bireyin zorundan qorumaq dövlətin başında duran atadan – öndərdən çox asılıdır. Bunun gerçəkləşməsi o vaxt olar, dediyimiz kimi, dövlət ruhsal quruluş anlamı daşısın, onun başında duran kəs Ata olsun. Bəzən biz dövlət ruhaniləşməlidir deyəndə, adamlar elə bilir, dövlətin başında molla durmalıdır, Dövlət İranlaşmalıdır. Heç də elə demirik. İran ruhsal dövlət deyil, din dövlətidir. Özü də ən pis səviyyədə zorakılığa əsaslanır. Ruhsal dövlət din dövlət anlamına yox, İnsani dövlət anlamına gəlir, yəni İnsani qanunlarla yönətilən bir dövlət. İran insanı alçaltmaqla zor səlahiyyətinə yetir. Ona görə də o dövlət deyil.

Bütün bunların hamısını genelləşdirsək, bu düşüncəyə gəlmək olur, xalqda yeni ölçü yaratmalıyıq. Beləliklə, biz özümüzün, işimizin yönünü ifadə eləmiş oluruq. İstəyimiz odur, həyatdan xurafatı silək. Biz demirik, bir aşamada, uşaqdan böyüyə hamı dönüb kamil olsun. Bu olası deyil. Biz deyirik, xurafat həyata hökm eləməsin. Həyat yalan münasibətlər əsasında formalaşmasın. Onda insani münasibətlər qurulacaq. İnsani qanunlar işləyəcək. İnam ona görə gəlib. Yalan həyatın nizamını tərk eləsin, xurafatı Yer üzündən silsin. Ayrı-ayrı bireylərdə Adamlıq səviyyəsi qalacaq. Adilik, bəsitlik olacaq. Ancaq insanilik qurularsa, həyatın nizamı Adamlığın yaşatdığı xurafatdan deyil, İnsanilik tələbindən oluşacaq. Xurafat nədir? – Yalanı həqiqət kimi sunmaq.

### *"Uluyol-Hünər", "Ulufərəh" Ailələrinin "Ailə Günü"*
*(26 Qürub Ayı, 34-il)*

Mən hesabatımı "Atagün" Ailəsində verdim. Burada ayrı-ayrı düşüncələrimi bölüşmək istəyirəm: ...Ocaq Yükümlüsü Evladdır. Evlad olmaq isə öyrətmənlikdir. Atanın Evladı olmaq, İnamın Evladı olmaq bizi qalıcı olaraq öyrənci səviyyəsində saxlamır. Bizi öyrətmənlik səviyyəsinə böyüdür. Ancaq biz dünyaya heç nəyi sırımırıq. Ona gərəkli olanları veririk. Biz bilmədiyimiz nəsnə varsa, onun dalınca getmirik. Bilmədiyimiz varsa, ondan rahatsız da deyilik. Biz həyatı, dünyanı bilirik, bilməyə borcluyuq, mənaca, insanca, gedişcə. Bilirik, bilməliyik. Bizim işimiz, qonumuz, sözümüz İnamdır, mənəviyyatdır, insançılıqdır, bəşərilikdir. Bizim siyasət adlı qonumuz yoxdur. Biz, dünyaya yön olaraq, gərəkli gedişləri bilirik. Ruhaniyat məsələsində, dünyanın ruhsal düzənində bizi öyrətməyə bir kimsədə olanaq yoxdur. Ata bütün yüksək, gözəl nə varsa, onun zirvəsidir. Bəşər tarixində insanı İnam səviyyəsinə qaldırmaq olmayıb. Asif Atada insan İnam səviyyəsinə qaldırılıb. Yalnız "Mütləq olan həqiqidir" ölçüsü ilə yeni bəşər halı yaranır. Bəşəri axtarışlarda bulunanlar da Mütləq Ədalətin olmasını istəyiblər. İstək olub. Bu mənada sayğı duyuram. Bu istək İslamın peyğəmbərində də olub. Ancaq bir baxış kimi qəbul edə bilmərəm. Ata deyir, Məhəmmədin həyatının birinci aşamasına sayğı duyuram, ancaq sonrakı aşamadakı hökmdarlığını rədd edirəm.

Axtarışları, rahatsızlıqları danmaq olmaz, ancaq bütövlükdə, bir baxış olaraq, İslama sayğı duymuram, çünkü orda insan əyilir, dünya əyilir. Ata isə, dediyimiz kimi, insanı İnam səviyyəsinə qaldırır. Biz bu halın, səviyyənin öyrətmənləriyik...

Asif Ata Ocağı nizamı, uyumu baxımından çox artıb. Ailədə isə çatışmazlıqlar var. Hər dəfə xatırlatsam da, hələ bəzi məsələlər bütövləşməyib. Özüylə döyüşsüz, özünü ələşdirməsiz Ocaq yoxdur. Qüsurları deməkdən qorxmamalısan. O qüsurları özünə deməyincə, onu göstərməyincə sən ondan qurtula bilməyəcəksən. Qüsuru gizlədikcə balacalığa qısılırsan, sığınırsan. Özüylədöyüşün tələbi odur,

içini ələk-vələk edəsən, qüsurlarını üzə çıxardasan, özünü yaradasan. Əgər Ocağın adı İnsanlaşmadırsa, Kamil İnsan ideyası varsa, necə özünü gizləyə bilərsən, özünü uydurub böyük kimi sırıyasan? Harda hünərin var, harda mənəvi üstünlüklərin varsa, onları da araşdırıb de, ancaq onlara əngəl olan qüsurlar da varsa, onları da açıb demək gərəkdir. “Ailə Günü”nün işi odur, Ocağın törənlərinin, Bayramlarının ayrı gedişi var, “Ailə Günü”nün tələbi Evladın özünü yaratmasıdır. Boynunaalma əsasında özüylə döyüş, öyrənmək, öyrəndiklərini xalqa vermək.

Ocağın xalqlaşma işi, ayrı-ayrı böyük işlər var, ancaq bunun hesabatı tam deyil. “Ailə Günü”ndə hesabat sistemli olmalıdır.

Kamilləşmə araçılığıyla xurafatı qovmaq, yerinə İnamı gətirmək gərəkdir. Xurafatı yalnız din yaratmır, həyatın bütün sahələrində – mədəniyyət, musiqi, idman i.a. sahələrində xurafat var. Yalanı həqiqət kimi verirlər. Ölçü yalandan oluşur. Ona görə də aldadırsan, aldanırsan, kələk gəlirsən, insana saygı yoxdur, heç kim heç kimin qədrini bilmir. Ölçü sağlam olmalıdır.

## *“Şərqilik” Bayramı*
### *(12 Ata Ayı, 34-il)*

Qutsal Günümüzə başlayırıq. Doğusal, Bəşəri bir olayın məzmununu ifadə edirik. Ocaq olaraq apardığımız iş standart olmayan bir təsəvvür yaradır. Elektrotexnikanın gəlişdiyi bir çağda biz topluma qədim gələnəklərin mahiyətindən, məğzindən irəli gələn düşüncəni sunuruq. Bu, ciddi bir məsələdir. Ciddiliyi ondadir, insanların baxışlarında kəskin fərqlər var. Çağdaşlıq, köhnəlik cəbhələrinə bölüblər toplumsal həyatı. Söz yox, çağdaşlıq gərəkli bir işdir, yəni gəlişmə. Köhnəlik, yəni gərəksiz, artıq vaxtı keçmiş. Ancaq Qədimlik köhnəlik deyil. Bu gün dünya nizamının başında duran ağalar var. Onlar guya hər şeydə humanistlik göstərirlər. Bunların humanistliyi Qədimliyi köhnəltməkdən oluşur. Hər bir toplumun özünüyönətmə haqqını dilə gətirirlər. Erməninin öz taleyini çözməsini (müqəddəratını həll etməsini) önə verib Azərbaycana qarşı qoyurlar. Başqa

Doğu dövlətlərini də köhnəlik adı altında darmadağın edirlər. Biz heç bir xalqa qarşı deyilik. Ancaq bu məsələyə geniş, dərindən yanaşmaq gərəkir. Xırda toplumlara dövlət yaratmaqdan ötrü böyük, qədim xaqları sıradan çıxarmaq planları həyata keçirilir. Türk millətini dövlətsizləşdirmək məqsədi güdülür. Buna görə Doğu dəyərləri sıradan çıxarılır. Keçən yüzilin 15-ci ilində, Bakıda qırğınlar törədib, Azərbaycanı erməniləşdirmək istəyirdilər. Osmanlı qoşununun gəlişi o planı pozdu...

Bu gün heç kimin ağlında Doğu obrazı yoxdur. Doğu deyəndə hamı gerilik, köhnəlik başa düşür, hökmdarların səltənətindəki hərəmxanalar başa düşülür. Məgər Doğuda bunlar olanda, Batıda despotçuluq yox idimi?! Qladiatorluq olayı vardı Batıda. Əgər bir vaxtlar qladiatorluq bireylərin aqibətində vardısa, bu gün Doğu xalqlarının aqibətində bu var. Baxın, Əfqanıstanda, İraqda, başqa ərəb dövlətlərində insanları bir-birinə qırdırırlar. Quldarlıq gələnəkləridir bu.

Batıya qarşı deyilik, Batıçılığın Doğu üzərində ağalığından gedir söhbət. Batıçılığın qədim Doğu xalqlarının mədəniyyətini sıradan çıxarmasından gedir söhbət. Nə qədər, Doğu xalqlarının mədəniyyəti düzgün dərk olunmur, onların üzərində insani, bəşəri gəlişmə baş vermir, heç bir uğur gözləmək olmaz. 90-cı ildə hamı düşünürdü, Avropa bizə firavanlıq gətirəcək. Bizim toplumun içində eyitimçilik (maarifçilik) işi getməyib. Tariximizi bilmirik, dəyərlərimizi bilmirik, tariximizi Sovetlər yazıb, fars yazıb i.a. İstədikləri kimi yazıblar. Abemizi 5 dəfə dəyişdilər. Ona görə, baxın, Azərbaycan gəncliyində Doğu ruhu, türk ruhu qalıbmı?! Ədəbiyatdakı obrazlar belə Batı adlarıdır.

Biz bəşəriyyəti bütöv dərk eləmək istəyirik. Bütöv dərk eləməyə qoymur Avropa. Biz düşünmüşük, öyrənmişik, Doğu, Doğusallıq dünyanın, mənəvi-insani açıdan, hərəkətverici qüvvəsidir. Məsələn, ilk sivilizasiya, 9-12-ci minilliyə dayanan Şumer mədəniyyəti – türkə özgündür. İlk yazı – türkə özgündür. İlk şəhər, ilk dövlət Şumerdə türk mədəniyyətidir, Doğu deyən şeydir. Avesta bilik sistemi i.a. Heç nəyi qoruyub saxlaya bilmirik, sabaha çatdırmırıq. Avesta bilik sistemində bütün dəyərlərimizin sintezi özünü göstərmişdi.

Sonradan Avesta Güney Azərbaycanın Şiz kəndindən olan Zərdüşt peyğəmbərin Dünyabaxışına bağlandı. Zərdüştdən sonra gələn bütün dünyabaxışlar, hamısı ondan bəhrələndi. Yunanlar hind fəlsəfəsindən bəhrələnib. Hər birinin mayasında Zərdüştün çalarları, tələbləri yaşayır. Bu, bir Doğusallıq xəttidir. Peyğəmbərlik olayı Doğuda olub. Batıda vəhy yoxdur.

Doğu öz mahiyətini ən çox türk millətində ifadə eləyib. Ona görə də türkün üzərində çox vurğu edirik. Dədə Qorqud olayından böyük ədəbiyat, obrazlar yaratmaq olardı. Böyüklük idrakla, təfəkkürlə, mənəviyyatla ölçülür. Eləcə də Xürrəmilik olayı, Hürufilik, Sufilik olayı. Bilimi, texniki gəlişməni dayandırma, ancaq bilimi azğınların da əlinə vermə. Atom, nüvə yarağının ixtirasına çevirmə. Hansı dövrdə insan baxış önündə olub? – Yalnız Hürufilərdə, Sufilərdə.

Bizim ölçümüz var, düşüncənin yönünü dəyişmək gərəkdir. Dünyanın, bəşərin qurtuluşu Doğu dəyərlərinin bərpa olunmasındadır. O dəyərlər üzərində gəlişməni, yeniliyi, çağdaşlığı yaratmaq gərəkdir. Asif Ata, onun Ocağı bu yükün altındadır.

Qonağımız Avropanı öyrənməyin xeyrini vurğuladı. Avropaya yayılmaq, Avropanı öyrənmək millətimizə xeyirli ola bilər, Avropada öz millətini belə təmsil etməyin gərəkliyini dedi. Avropadan çox şeylər öyrənməliyik deyə sözünə davam etdi.

Buna yönəlik baxışımı bildirmək istəyirəm. Biz düşüncələrimizi əsaslandırırıq. Asif Atanın dediyini, istəyini bilmək, öyrənmək gərəkdir. Avropaya Asif Atanın dəyərlərini, Azərbaycanın dəyərlərini öyrətsən, görəcəksən, Avropa yalındır, ruhaniyat açısından, Avropadan öyrəniləsi bir şey yoxdur. Avropadan sosial həyat üstünlüyü öyrənmək olar, o da onun buyruğunda olmaqla. Avropada mənəviyat gələnəyi, ölçüsü yoxdur. Azərbaycanda iş aparırıq, bölgələri gəzirik, görüşlər keçiririk. Azərbaycanda ola-ola onun içində biz ruh yaradırıq, qurtuluş yaradırıq, məbəd yaradırıq, yön (qiblə) yaradırıq. İnsanı mahiyəti ilə, mənəviyyatı ilə üz-üzə qoyuruq. Avropaya tamah salan adamlar Avropanın dəyərlərinin nədən oluşduğunu əslində düzgün bilmirlər. Onlar Avropanın hay-küyünü, demokratiya-filanı bilirlər. Pulçuluqla döyüşən yazarlarını, aydınlarını, düşüncə adamlarını bilmirlər. Küyə getmək olmaz. Dünyanı biz bütöv

götürürük... Kürəsəlləşməni niyə qəbul etmirik? – Kürəsəlləşmə dəyər deyil. Kürəsəlləşmə – mənim milli dəyərlərimdən sıyrılıb çıxmağımdır, üzümü (simamı) itirməyimdir. Gərək ingilis kimi düşünəsən, alman kimi düşünəsən. Gəlin baxaq, görək hansı bir dəyərimiz həyat tərzimiz kimi mövcuddur. Heç bir keyfiyyətimiz. Biz kölgəyik, robotuq. Faciələri dərindən öyrənmək gərəkdir. 70 yerə parçalanmışıq. Mudros bağlaşmasını xatırlayın. Bakını vermişdilər, İstanbulu II Nikolaya vəd vermişdilər, həmin o Avropa, ingilis. Orta Doğu projesinin tələblərini xatırlayın. Güney Azərbaycanın haqqını, hüququnu dilə gətirən yoxdur. İranın eybəcərliyini görmür Avropa? Xocalını bilmirmi Avropa? Necə olur, yalançı erməni soyqırımı ilə sıxışdırır Türkiyəni, ancaq Xocalını soyqırım kimi tanımır? Məsələyə dərindən yanaşmaq gərəkdir, bizim ağrımızı dərindən duymaq gərəkdir. Biz Avropaya savaş açmırıq. Sivilizasiya bizimlə başlasa da, görün nə günə qalmışıq. Param-parça olmuşuq. Almaniyanı niyə birləşdirdilər, Güneyi niyə birləşdirmədilər? Sınırları dəyişdirmək olmaz i.a. necə olur bu? Hanı Şuşa? Hanı Kəlbəcər? Avropanın burada böyük sistemi işləyir. Bizim qovğamız rus xalqıyla deyil, rus siyasəti ilədir. Fransa deyilmidi, qanun qəbul etdi, kim soyqırım məsələsini dansa, tutuqlanacaq. Demokratiyadan danışır. Zaman-zaman, sovetlər qurulanda da, bolşeviklər bizə "qurtuluş" gətirmişdi. Antitürk biriləri Bakıda antitürk dövlət qurmuşdular. Yaxşı araşdırmalar gərəkdir. Biz heç kimin yağısı deyilik...

### *"Atagün" Ailəsinin VIII Aylıq törəni*
### *(26 Ata Ayı)*

Ata Ayının 26-da "Atagün"ün tədbirində söz deməzdən öncə Ataya səcdə qılıb Bayrağımızı öpürəm.

Yeri gəlmişkən, biz İnam Ocağıyıq. Özümüzə deyə bildiyimiz hər bir uğuru, uğursuzluğu, artımı, qüsuru hər yerdə ruhsal içdənliklə deməyi bacarmalıyıq. Biz görüntü yaratmaqla özümüzə baxış yönəldə bilmərik. Bugünkü həyatda, toplumda tanınmaq diləyi bizim ürəyimizdən keçə bilməz, qıraqdan keçməlidir. Biz Amalımıza uyğun

yaşayırıq. Özümüzün insan olduğumuzu dərk eləmək, İnsanlığı dünyada, yaşamda bərqərar eləmək istəyirik. Ona görə də, hansısa çatışmazlıqlarla gizlənmək, hansısa yalançı təbliğatla işimizi uğurlu göstərmək, etkimizi şişirtmək gücsüzlük, içdənsizlik (səmimiyyətsizlik) demək olar. Bizim fərqimiz ondadır, özümüzü aldatmırıq.

Mən ciddi amallaşıram. Hər şeyi kökündən düşünürəm. Hər kəsin əzbərlədiyi bir söz var: "Çörçil deyir, demokratiyadan eybəcər şey yoxdur. Ancaq nə etmək olar, bəşəriyyət hələ bundan yaxşısını deyə bilməyib". Ancaq biz Asif Atanın yeni sivilizasiya yaratdığını elan edirik – İnamlaşma, İnsanlaşma sivilizasiyası. Ona görə cəsarətlə deyirəm, Çörçilin sözü mənə çox əcayib görünür. Necə yəni bundan yaxşısı yoxdur?! Yoxdur, yarat! Tarixin ağzına niyə tamaşa eləyirsən, hər şey, bütün olanaqlar tükəndi?! Həm pozucu siyasətlə xalqların dəyər yaradıcılığının qarşısını kəsirlər, həm də deyirlər bundan yaxşı nəsə deyilməyib. Niyə başını işlətmirsən, niyə axtarmırsan, niyə yaratmırsan? Hamı elə bu sözü təkrarlayıb arxayınlaşmalıdır? Bax, ona görə də qürurla deyirik, Asif Ata yeni quruluş yaradıb – yeni toplumsal-iqtisadi formasiya deyirlər, quruluş deyəndə bu məsələni gözdə tuturuq. Bu quruluşun yönətim quralları var, ideyası, nizamı, yönü var. Bunun sabahı var. Mən çox inanıram, inanmasaydım, Evladlıq Nişanəsini qoyardım stolun üstünə, çıxıb gedərdim başqa işin dalınca. Bu gün dinlərin eyitim (tərbiyə) verdiyi toplum bizim sözümüzə qulağının arxasını çevirirsə, o demək deyil, beynimiz, ürəyimiz bu ideyalardan soyumalıdır. Quruluşu ruhsal inad yetirir.

Özüylədöyüş məsələsiylə bağlı bir-iki məqama toxunmaq istəyirəm. Genel olaraq, yaşamaq özü çox çətindir. Onun çətinliyini adamlar məişət sorunlarına bağlayırlar. Çörəyin az olması, qazancın çətin olması yaşamağın çətinliyi kimi qəbul edilir, giley bu durumdan dolayı yaranır. Ancaq mən yaşamağın çətinliyini heç vaxt məişət qayğılarımla ölçməmişəm. Yaşamağın çətinliyi "Öz" məsələsidir, özü olmağa bağlıdır. İnsan mürəkkəb aqibət yaşayır. Bax, bunca adiliklərdən, keçiciliklərdən çıxırsan, artırsan, böyüyürsən, ancaq günlərin birində içində bir çolaqlıq baş qaldırır. Ona görə də ən çətin gedişdə belə, özünə hakim olmağı tam, həryönlü yetirmək gərəkdir. Başqa cür gələcək soylara örnək vermək olası deyil. Necə ciddi məsələdir.

Mən bu yaxın günlərdə içimin iki sorunu ilə üzləşmişəm. Heç vaxt ağlıma gəlməzdi, mənim hardasa yalan işlətməyim ola bilər… İş yerimdə işlər qaydasında getdiyində yaradıcılıqla da uğraşıram. Bir dəfə ciddi qeydlər aparırdım. Bizim sahənin böyüyü işlə bağlı mənimlə bir məsələni dəqiqləşdirmək istədi. Mən onu yola vermək üçün məsələni yoxladığımı dedim, düşüncələrimdən ayrılmaq istəmədim. Sonra düşünəndə bu yalanıma görə utandım. Gedib üzr istədim, özüm də bilmədən sənin mənə olan inamından, güvənindən dolayı durumu yola vermişəm. Özümdən acığım gəldi. Axı Ocaq ona görə yaranıb, insanlararası münasibətlərdə yalan aradan getsin. Məndə də yalan qalacaqsa, bəs onda yaradıcılığım, düşündüklərim nə iş görəcək, kimə gərəkdir bunlar?! Gözləmədiyim bir şey olduğuna görə, doğrusu, sarsıldım. Gərək özünü ciddi öyrənəsən.

Bir neçə söz xalqlaşma məsələsi ilə bağlı deyim. Mənim bireysəl görüşlərim, söhbətlərim çox olur. Artıq Ocaq ölçüsü ayrı-ayrı bireylərə uğurla çatır. Artıq gərəkli örnəklər var. Mənim araçılığımla Ocağa üz tutanlarda ruhsal oxul öyrənciliyi səviyyəsi yetirirəm. Gücümüzdən artıq işlər görürük. Bəzən əl telefonuma zəng edib dini, siyasi məsələlərlə bağlı suallar verirlər. Bildirirlər, ayrı-ayrı adamlarla söhbətlər aparırlar, qarşıya çıxan suallara məndən cavablar istəyirlər. Biz də belə şeydən yorulmuruq. Yorulmazlığımız ruhsal varolmağımıza bağlıdır.

### ***“Uluyol-Hünər”, “Ulufərəh” Ailələrinin birgə “Ailə Günü”***

*(28 Xəzan Ayı, 34-il)*

Amallaşmadan nə öyrəndim, hansı düşüncəyə yetilirsə, o açılmalıdır. Bu səni həm Amaldaşına tanıdar, həm də əsərin olar. İkinci, Özüylədöyüş ideyası özündən giley demək deyil. Yetkinləşmə hesabatı vermək gərəkdir. Bunu eləyə bilmək üçün içdən güclü olmaq gərəkdir. Özüylədöyüş – özünü dəyişmək üçün axtarışdır, cəhddir. Özünü dəyişmək üçün özünü tanımaqdır. Bütün insanlar öz

davranışını toplumun baxışına hesablayır. Toplumun gözünün baxarı ölçüyə çevrilir. Öz yanında, öz içində özünü aç-tök, belə olanda, sən toplumun içinə çıxarkən göründüyün kimi olarsan, görüntü yaratmazsan. Biz hər bir yaxşı şeyi kitablardan oxumuşuq. Geneldə isə bizim ömrümüz, davranışımız kitab olmalıdır. Yaşamın özüylə, idealın özüylə ömrün uyumu yaranmalıdır. Nə yazırıq biz? Ağılda, düşüncədə, idealda olanı, ya da qədimlikdə, tarixin dolanbaclarında olanı, yoxsa, yaşadığımız ömrün tələbini yazırıq?! İnsanda çatışmayan budur. Sənət, incəsənət gərəkli şeylərdir. Ancaq sənətlə, incəsənətlə ömür arasında kəskin ayrılıq olmamalıdır. İncəsənətlə ömür arasında kəskin ayrılıq yarananda incəsənət olur muzey olayı, yaşama girmir. Toplum bütün yaxşı şeyləri, eləcə də fəlakətləri rol kimi oynayır. Hər şeyi səhnələşdirirk – faciəni də, yaxşılıqları da (fəzilətləri də). Həyat aktyorluq gedişlərindən oluşa bilməz. Ocağın yaratdığı odur, Sənətlə ömür arasında bağlılıq olsun. Örnək göstərsin Sənət. Gerçək həyatın özünü, toplumsal həyatın özünü, onun üstünlüklərini örnək göstərsin. Asif Atanın istəyi odur...

Asif Ata deyir, insan bədən-ruh birliyi olsa da, ruhsal tələblərlə yaşamalıdır. İnsan öz ilkinliyinə, İnsanlıq adlı mahiyətinə yetməlidir. Özünü dəyişməli, mahiyəti üstə yaşamalıdır. Biz Ruhumuzu – İnamımızı, İdrakımızı, Mənəviyatımızı, İradəmizi yaradırıqsa, o, xalqın düşüncəsinə, həyat tərzinə, sevgisinə girir, xalqda iş görür. Xalq araçılığıyla bizim işimiz, düşüncələrimiz soylara ötürülür, ədəbiyatda yerini tapır.

Asif Atada ilkinliyə qayıtmaq məsələsi İnsanlığın tələblərini daim ömürdə üzə çıxarmaqdır.

***"Atagün" Ailəsinin 8-ci "Ailə Günü"***
*(30 Xəzan Ayı, 34-cü il)*

Hesabatımı Günün Carına aydınlıq gətirməklə başlamaq istəyirəm. Günün carı olduqca önəmlidir – "Atagünüm – Atayurdun İnam carçısı". Bunu hər bir Ailə özündə güc tapıb deyə bilər. Yəni "Uluyol-Hünər", "Ulufərəh" Ailələri də. Biz "Ailə Günü" keçiririk. Ocaqda böyük fədakarlıq, əmək, hünər var. Zaman gələcək, bunun içinə girib araşdıracaqlar. Biz işin içindəyik, bunun önəmini, dəyərini görürük. Ancaq "Ailə Günü"ndə istək Evladın ruhsal boyunun artması, yarananın dilə gətirilməsidir. Ona görə özüylədöyüş hesabatı çox əsaslı olmalıdır. Günev bayaq özüylədöyüş yönündə boynunaalmalar (etiraf) etdi. O dedi, yan-yörəyə baxır, yan-yörə daş-qaya kimi qarşılıq verir, sanki usanmaq halı olur, birdən də rahatsız olur, məndə usanmaq halı var deyə. Bunun qarşısını necə ala bilərsən – özünü görərək. Özüylədöyüş çox önəmlidir o hala qayıtmamaq üçün. Ata deyir, artmayan azalır...

Amalı hər gün öyrənirəm. Bu gün Amallaşma ilə bağlı deyəcəklərim – insanın ilkinliyi ilə bağlıdir. Eləcə də Yolun yayılmaq (təbliğat) məsələsi ilə, Dünyabaxışların gərəkliyi ilə bağlıdır. Əslində insan tək yaşaya bilmədiyi üçün birgəyaşayış qaçılmazlığı ortaya çıxdı. Birgəyaşayış da tələblər ortaya qoydu. O tələblərin ödənməsi üçün yarandı dövlət. Birgə əməl etmək, birgə qurallar – burada bəlli daşlaşmış (ehkami) şeylər var, qaçılmaz. Din ona görə yaranır, insanlar həyat nizamının tələbinə birgə əməl etməklə dağınıqlıqdan, sürülükdən çıxsınlar. Ancaq Din bütün yönləri ehkamlaşdırır. Bəlli ehkamlar var, onların olması qaçılmazdır. Nizam – birgəyaşayışı ödəyir. Ölügötürmədə, ya evlilik qurarkən işlənən qurallar bu sıradadır. Birgəyaşayışı ödəyən bu qurallar milləti yaradır. Millət birgəyaşayışın mənəvi-ruhani keyfiyyətlərinin daşıyıcısıdır. Millət – insanın fiziki üzü deyil, mənəvi göstəricisidir. Millət ruhani anlamdır. Bəzi qurallar var, hamı üçün eyni olmalıdır. Avropaya meyilli adamlar həmin qurallara pis baxırlar. Məsələn, Ocağımızda Bayrağımızı öpmək – ruhani eyitimdir (tərbiyədir). Sənin yolun nədir, quralın nədir – bunu bəlli edir. Avropaya doğru qaçanlar dini ehkamdan

qaçanlardır. Mən də ehkamı qəbul etmirəm. Dinin əsas sorunu odur, həyatın bütün sahələrini ehkamlaşdırdı. Söz yox, xalqın yönünə (qibləsinə) baxış dəyişməzdir. Xalqın böyük anlamda gələnəyi, keyfiyəti dəyişməzdir. Ancaq elə çalarlar var, bireyin özünün qarşısında qapını bağlamaq olmaz. O, gəlişmə gətirməlidir, yeni gələnək gətirməlidir. İdeya gətirməlidir, həyat qabağa getməlidir. Bireyə olanaq vermək gərəkdir. Özüldə olan qaralları dağıtmaq olmaz, ancaq başqa sahələrdə ona olanaq tanımaq gərəkdir. Din bu olanağı vermir. Konservativ bir gediş yaradır. Halbuki həyat durmadan gəlişir. Din də onun qarşısına yasaqlar qoyduğu üçün çelişki (ziddiyyət) əmələ gəlir. Buna görə toplumsal nizam, uyum pozulur. Bir vaxtlar Asif Atanın Evladlarının içərisində gözübağlılıq (ləbbeykçilik) hökm sürürdü. Hər kəsi dindirirdin, qarşıdakını gözə almırdı, düşüncəsini dinləmirdi. Qarşıdakını dinləməyəndə ona nə verəcəyini də bilmirsən...

Konservatizm toplumsal özbaşınalıq (anarxiya) yaradır. Dövlət başına gələnlər həmin konservativ baxışlardan yararlanaraq toplumu əzə bilirlər. Hakimiyyət də konservativ qəlib yaradır. Ölkədə qanun yüksək sayılır. Ancaq bu qanun biryönlü anlaşılır, işləyir. Xalqın mayasına üz tutmur. Ayrı-ayrı qrupların, nümayəndələrin çıxarına üz tutur. Ondan da anarxiya yaranır. Konservativ baxış olmaz. Özül prinsiplərə toxunmadan gəlişmək, ideya ortaya qoymaq üçün meydan vermək gərəkdir insanlara.

İkinci, ilkinlik məsələsi ilə bağlı. Bəşər tarixində ayrı-ayrı fəlsəfi baxışlar insanların ilkinliyi haqqında düşünüblər. İlkinlik nədir – insanın mənəvi-ruhani başladığı nöqtə. Vedalarda (hind ruhunda) ilkinliyə dönüş məsələsi qoyulur: İnsan doğulur, gənclik, qocalıq çağlarını yaşayır, ölür. İkinci yol doğulanda o, öncəki həyatda yaşadığının yönünə görə bəlli bir biçimə düşür. Yəni ət yeyibsə şir biçiminə, çox yatıbsa ayı biçiminə i.a. şəkillərdə doğulur – heyvan kimi. Bir insan ömrü bu cür milyon illərlə dövr edir. Məqsəd o olmalıdır, insan dövr eləməkdən qurtulsun, göylərə getsin. Orada ilahi yerini tapsın.

Sonra, semit dinlərində ilkinlik Adəmlə Həvvadan başlayır. Adəmlə Həvva öncə cənnətdə olublar. İblisin fitnəsinə uyduqları üçün cənnətdən qovulublar. Onlardan törəyən bəşər övladları Allaha

yalvarmalı, nəsə yaxşı işlər görməli, cənnətə qayıtmalıdırlar. Ruh biçimində olmalıdırlar.

Asif Atada ilkinlik – insanın Ruhani xilqət olmasıdır. İnsan cismən doğulsa da, fiziki-bioloji varlıq olmaqdan daha çox Ruhani varlıqdır. İnam, İdrak, Mənəviyyat, İradə daşıyıcısıdır. İnsan şüurlu həyata başladığı andan öz ilkinliyinə – İnsanlıq mahiyətinə can atmalı, çatmalıdır. İnsanlaşmalıdır...

Təbliğat məsələsi ilə bağlı da bir neçə söz deyim. Bu gün bütün dünya təbliğatla uğraşır. Təşkilatlar, qurumlar, qruplar... Dərin fəlsəfə təbliğatla uğraşmır. Təbliğat – qrupun, qurumun, təşkilatın çıxarını, məqsədini başqalarına yeritməkdir. Hər təbliğatın içində yüyürmə, göstərgəlik var. Normal, doğruçu araşdırma, yanaşma hər cür göstərgəliyi, oyunçuluğu darmadağın edir. Təbliğat yerinə eyitimçilik olmalıdır. Eyitim quruculuq yetirir. Xalqla, xəlqi quruculuqla oynamaq olmaz. Mənəviyyat dünyasında yaşamaq istəyirəm. Bunu kimə nümayiş etdirməliyəm? Fədakarlığımız millətimiz üçündür.

Kamilləşmə məsələsi – bəzən rahatsız olmuşam. Bir an düşünmüşəm, kamilləşmə olası deyil. Toplumsal həyat olduqca böyük anarxiya içindədir. Yaşamaq üçün, işləmək üçün düzgün ola bilmirsən. Eyni zamanda başqa cür də ola bilmirsən. Ömrüm elə qurulub, oyunlara girə bilmərəm. Burda isə mən sanki zərər çəkirəm. Mən Soylu Atalıyam, elə məqamda büdrəyirəm, özümü çaşdırır. Özümü aldada bilmərəm, fərəhliyəm, hər şey yaxşı olacaq. Hər şeyi yaxşı eləmək gərəkdir. Mənim uşaqlarım üçün ruhaniyyatçı olmaq çətin olacaq. Həyatı çox uçurublar. Elə durum yaranıb, hər kəs ölkədən qaçmaq istəyir. Bu gün mənim bir çox şeyə ehtiyacım yoxdur. Yaxşı, mənim ehtiyacım yoxdur, bəs başqası nə etsin?! O zaman düşünürəm, ortamın arılığını qorumaq, gəlişdirmək gərəkdir. Birgəyaşayış ortamında insanların bir-birinə bağlılığı, doğmalığı, güvənci arılaşmalı, bütövləşməlidir. Mənəvi dünya yaratmalısan. Bu, olduqca çətindir, ancaq ayrı yol yoxdur.

Xalqlaşmam – qəzetlərdə Göylünün təşkilatçılığı ilə yazılar çap olunur – ayrı-ayrı qonularda. Bireysəl görüşlərim də olur. İdeyalarımızı tanıtmaq istəyilə insanlarla söhbətlər aparıram. Bununla bağlı

işlərin yayılması, öyrənilməsi təşkil olunur. Xalqlaşma işində uğurlarımız var, ancaq azdır, kütləvi görüşlərimiz də davam eləməlidir.

Milli sualla bağlı – Millət ruhani anlam daşıyır, fiziki anlam daşımır. Bireylərin toplamı da toplumdur, millət deyil. Bireylərin toplamının anlamı, bu anlam əsasında birliyi millət deməkdir. Millət bəlli bir toplumun birgəyaşayış nizamıdır. Tək dil nizamıdır. İnsanlıq, qələbə çalmadı bəşəriyyətdə, ona görə İnsanlığın qırıldığı nöqtədə fəndgirlik başladı. Çalıb-çapma, talama, – bunların hamısının arxasında fəndgirlik dayanır. Bu, bireylər arası yanaşmada da, dövlətlərarası yanaşmada da özünü göstərir. Dövlətlərarası yanaşmada birincilik, üstünlük, ağalıq uğrunda yarış başladı. Ağa ölkələr özlərinə əngəl kimi insanın iç gücünü görürlər. Ona görə də insanın iç gücünü sındırırlar. Böyük dövlətlər antiinsani iş aparırlar. Millətin dəyərlərini gözdən salırlar. Balaca dövlət də özündən güclü dövlətin diktə etdiklərini edir. Xalqın güzəranını uçurur, mənəvi dəyərlərini uçurur. Beləliklə, dünya ağalığı uğrunda savaş milli sorunlara yol açdı. Bir milləti öz içində tam, axıra qədər sındıra bilməyəndə başqa etniklərin etkisi ilə böyük millətin içində iş aparırlar, torpağını bölürlər. Milli sorunlar insanlığın qırıldığı nöqtədən başlayan siyasətin əsasında formalaşır. Bunun da həlli siyasətlə deyil. Siyasət ağalıq ortaya qoyur. Milli sorunun həll olunması insanın içindən başlayan ruhani bir sürəcdir. İnsanlaşma məsələsidir. Bu insanlaşmanın dövlət səviyysində qapsanması, genişlənməsidir, bölgələrə keçməsidir, insanlararası, xalqlararası yanaşmalarda nizam yaratmasıdır. Dövlətlərarası yanaşmalarda humanizm yerini tapmasa, bu məsələ çözülməyəcək...

### *34-cü ilin "İnam Evi Günü" Törəni*

Bu günkü törən nə deməkdir?! – Asif Ata Moskvada təhsil alıb qayıtdıqdan, Azərbaycanı, dünyanı öyrənəndən sonra belə düşüncəyə gəlir, Azərbaycan ciddi olaydır, ancaq onun yiyəsi yoxdur. Dünyada Azərbaycana yer ayrılmayıb, Azərbaycan da özünə yer eləməyib – xəlqi, bəşəri yer. Bu səbəbdən də düşünür, Azərbaycanda Yeni İnam yaratmaq – Yeni fəlsəfə yaratmaq, yeni yön yaratmaq, yeni xalq yaratmaq, yeni insan yaratmaq gərək. Çox çətin məsələdir bu, ancaq olumsuz deyil. Asif Ata bunu bildiyi üçün özünü bütünlüklə bu işə köklədi. Sovet vaxtı o cür prinsiplərlə çıxış eləmək olduqca qorxulu idi. Yaşlı soy bunu bilir. Bu gün də bizə deyirlər, bu prinsiplərlə cıxış eləmək çətindir, Amerika var, İslam var... "Sovetlər Birliyi"ndə Kommunist ideologiyası dəhşət idi, 37-ci il repressiyalarını yadınıza salın. Belə bir gedişdə elədi bunu, ölümü gözünün altına aldı Asif Ata. Vətənini, xalqını sevən adam savaşmalıdır. Ata bu yöndən savaşa başladı, ancaq o vaxtlar Amalının yönü tam olaraq bəlli deyildi. Həm də bu savaş, özünü dünyanın pozulmuş gedişinə qarşı qoymaq idi. Başqa yol özünü doğrultmurdu. Ona görə də Ata dedi: "Düşündük, daşındıq, Ocaqlaşma yolu tutduq". Ata bütün sorunları köklü olaraq öyrənəndən sonra bu düşüncəyə gəlib. Asan gəlməyib bu düşüncəyə. Biz ona peyğəmbər deyirik, elə bilirlər həvəslənib deyirik. Elə deyil. Ata Yeni Dünyabaxış yaradıb, Yeni Yol yaradıb, Yeni Söz yaradıb, elə-belə demirik. Bu mənanı daşıyır, bu anlamı daşıyır özündə. Bu mənada onun apardığı iş, 60-cı illərdən çağımıza qədər 52 il deməkdir. Onun 34 ili Ocaq biçimində gedib.

Yurdumuza, millətimizə, ümumilikdə İnsanlığa qarşı görülən tədbirlər 100 illər öncədən hazırlanır. Bizimkilərə isə on il o yanı göstərəndə deyirlər, hələ ona çox var, qısa çağda daha önəmli nələrsə gərəkdir. Axı qısa çağda özümlü xalq yaranmır, dövlət yaranmır. Tez-tələsik bəşər qurulmur, çox əsaslı iş getməlidir. O əsaslı işi aparmaq üçün Asif Ata Dünyabaxış yaratdı.

Bu gün hamımız Türk Birliyinin gərəkliyindən danışırıq. Biz hamımız istəyirik, Azərbaycan bütöv olsun. Dünyada türkün sözü olsun.

Biz hamımız istəyirik. Ancaq necə olsun? Bundan ötrü atılacaq addımın özülü yoxdu. Bax, o özülü yaradır Asif Ata.

Yuxarıda saydıqlarımızı toplumun bəlli kəsimi olaraq istəyirik, bəs bu istəyimiz niyə gerçəkləşmir? Niyə biz millət ola bilmirik, niyə biz dövlət ola bilmirik? Niyə Türk Birliyi yaranmır? Birinci səbəb, türk toplumları fərqli dünyabaxış daşıyıcılarıdır, fərqli mədəniyyət daşıyıcılarıdır. Dünyabaxış məsələsi birinci koşuldur, mədəniyyət Dünyabaxışın əsasında yaranır. Əgər insanların böyük məsələlərdə düşüncə ayrılığı varsa, onları vətən üçün bir araya gətirə bilməyəcəksən. Deyirlər hərənin öz həqiqəti var. Deyirik, böyük məsələlərdə hərənin öz həqiqəti yoxdur. Doğrudan da, türk olaraq, fərqli dünyabaxışlarımıza görə biz bir araya gələ bilmirik. Hər dünyabaxışın arxasında siyasi qüvvələr durur. Həmin baxışlar siyasiləşib. Xristian türklər var, buddist türklər var, musəvi türklər var, isavi türklər var, müsəlman türklər var i.a. Bu Baxışların heç birində də türkün qatqısı yoxdur. Bu baxışlar necə bəşəridir, onların heç birində türkün qatqısı yoxdur. Ona görə Asif Ata dedi, "Düşündük, daşındıq, Ocaqlaşma yolu tutduq". Mütləqə İnam türk ruhundan yaranıb, bəşəridir. Mütləqə İnamda bütün xalqların yeri var. İnsanlaşma olayında bütün xalqların yeri var. Bütün xalqlar Mütləqə İnamda özü ola bilər, üzü qorunar, ancaq bizim üzümüz heç bir dünyabaxışda qorunmur. Nəyi qəbul ediriksə oluruq o. Adımız da dəyişir, üzümüz də dəyişir, ölkəmiz də dəyişir, hər şeyimiz dəyişir. Ərəb kimi düşünürük, fars kimi yaşayırıq, ingilis kimi düşünürük. Belə yaşamaqla millət olmaq olası deyil. Belə yollarla biz dirçələ bilmərik. Ona görə də Asif Ata dedi, Türk Birliyinin açarı onun özünün dünyabaxışının yaranmasıdır, ruhunun dirçəlməsidir. Necə dirçəltmək olar – özünün ruhunun tələbləri ilə, milli dəyərlərimizi yaratmaqla, yaşatmaqla. Özül prinsiplərlə oturuşmalıyıq. Asif Ata Mütləqə İnam dünyabaxışı yaradıb, özünün quralları ilə, törənləri, abesi, günsırası ilə i.a. hamısı milli. Milliliyin ruhani yönü bu dediklərimizə bağlıdır. Bunların hamısı xalqın formalaşması üçündür, millət olmağın qutsal çalarlarıdır.

Asif Ata Ocağı çox çətin yollar keçib. Atanın sağlığında belə bir yerimiz yox idi, törənlərimizi keçirək, orda-burda yer axtarırdıq. Mən Ocağa gəldikdən sonra (12-ci ildən) Ocağın törənləri mənim kirayə

qaldığım evlərdə keçirildi. Baxın, yurdumuzda minlərlə məscid var, onlarca kilsə var, sinaqoq var, ancaq bircə dənə İnam Evi yoxdur. Kilsə, məscid, sinaqoq bizim ruhumuzun evi deyil. Ruhumuzun Evi gərək! Bura bizim "İnam Evi"miz kimidir. Ulusəs Atalı bu odanı Ocağın ixtiyarına verib. Bizim tədbirlərin çoxu burda keçirilir. Ancaq biz İnam Məbədini tikməkdə inadlıyıq. Beyləqanda "Amal Bağı"nda İnam Evini addım-addım tikirik. Bizim sağlığımızda ikinci Evi Bakıda tikməyi planlaşdırmalıyıq. Bugünkü törənimiz həmin məzmunla bağlıdır – İnam Evi məzmunuyla. Bu tədbiri, Asif Atanın ölümündən sonra, mənim Ruhani bəlgəmlə gerçəkləşdirdik. Törənləri Asif Atanın özü yazıb. Yalnız ikisini mən önərmişəm Asif Atanın özünə. Bunlardan biri "Ruhani İdrak Günü"dür. Rayonda yaşayan Evladlar Asif Ata ilə tez-tez görüşə bilmirdilər. Ona görə, onların suallarını cavablandırmaq üçün yarandı. İkincisi isə, Ata o vaxt "Səməd Vurğun" küçəsində yaşayırdı, bir otaqlı mənzildə. Ata Ruhani Sənəd yazmışdı, evi ziyarətgah olsun. Orda Evladlaşdıq, orda yarandı çox şeylər. Mən də bir rica yazdım, bunu törənləşdirək, qalıcı olsun. Ata da bunu alqıladı. Bugünkü törən də İnam Evi anlamını ifadə edir. Onu həm də yurdumuza, soydaşlarımıza sunuruq.

Biz bu törəni niyə keçiririk?! Bu ünvan xalqın öz ruhunda dirçələ biləcəyi ünvandır. Gəlin oturaq söhbət edək, görək Asif Atanın işindən, ünvanından başqa, özül prinsiplərə dayanan xəlqi iş harda var, xəlqi ünvan harda var? Varsa, sevə-sevə gedərəm. Çünkü bizim üçün xalq böyük söhbətdir.

Bu günə qədər bəşəriyyətin içərisində üç ideologiya milləti ortadan qaldırmağa çalışıb. Onlardan biri İslam ümmətçiliyidir. Ümmətçilikdə millət yoxdur. İkincisi, kommunizmin "vahid bəşər" ideyası, bütün millətlər gec-tez aradan gedəcək. Millət kapitalizmin məhsuludur deyirlər. Asif Ata yazırdı: Bu ideyanın məntiqi odur, öncə çiçəklən, sonra solacaqsan, öncə diril, sonra öləcəksən. Mən də bir yazı yazmışdım: tutaq, hamı rusca danışacaq, bəs mənim sazımı hansı dildə çalacaqlar? Ya da ingilisin dilində muğam oxuya bilərsiniz? Bəs mənim anamın layla çaldığı dil hara gedəcək?..

Üçüncüsü, millətə qarşı düşünülən – Kürəselləşmə ideyasıdır. Vahid bir mədəniyyət yaranır, demokratiya da ona qulluq edir.

Kürəsəlləşmədə türk yoxdur. Bəs indi neyləyək? Gərəkdir buna dirəniş göstərək – milli kimliyimizi ortaya qoyaq. Bunca xalqın içində gərəkli iş getməlidir. Xalq olmaq onu sevəndən dərin düşüncə istəyir.

"İnam Evi Günü" belə bir anlam daşıyır...

### *"Atagün" Ailəsinin Ailə Günü*
*(30 Yağış Ayı, 34-cü il)*

Böyük qürurla deyərəm, Asif Atanın İstəyi baş tutdu.

Əgər Ocağı baş tutubsa, Onun Xalqının yaranması da baş tutacaq...

Son çağlar Amallaşma məsələsində bir yəqinlik dönüb-dönüb içimə qayıdır: Ata deyir, xalq mənadır, əhalinin toplamı deyil. Yəni Mənanı bütün hallarda toplam ifadə eləmir. Xalqın mənasını həmişə az sayda insanlar ifadə edir. Bu gün Azərbaycanda türk xalqı adında bir məna, məzmun var. (Xalqın məzmunu daha geniş biçimdə ifadə olunmağa başlayarsa, o deməkdir, xəlqilik halı ənənə biçimini alıb). Xalq bu gün də, az sayda insanları ilə, o məzmunla yaşayır. Bu gün həmin say xalqın tarixi aqibətini yaşayır, ruhani aqibətinin ifadəsini yaşayır, ancaq hələ geniş gələnəksəl bir biçim almayıb. O biçimi alması üçün gərək çox işlər görək, çox zəhmətlər çəkək. Əgər bir adamın, beş adamın içində məna, məzmun öz ifadəsini tapırsa, bu o deməkdir, başlayıb. Bu o deməkdir, biz bədbin olmamalıyıq. İnsanlar nə vaxt bədbincəsinə fəryad edirlər? – Özü o məzmunla, mənayla dolmursa, yaşamırsa. Mənayla məzmunla dolanın bir düşüncəsi olur, onu daha geniş şəkildə xalqın həyatına gətirsin. O, ağlamır hər şey qurtardı deyə. Mən də istəyərdim, bu gün hər şey birdən-birə olsun. Mənim istəyimlə deyil ki. Min ildir uçurulan şey birdən-birə olmur ki. Ona görə Ata deyir başladıq. Gərək davam eləyəsən. Sual ortaya çıxa bilər, doğrudanmı xəlqi mahiyəti elə bu gün Asif Ata başlayıb? Zərdüşt də xalqı başlamışdı. Babək də xalqı başlamışdı. Hər biri uçurulan, dağılan gələnəklərimizi, xalqımızın özgürlük anlamını öz zamanında başlayır. Bu gün də Asif Ata yenidən başlayır. Yenidən can-

landırır, yenidən mənalandırır. Daha böyük, daha yüksək səviyyədə. Böyük bir başlanğıcdır İnsanlaşma ideyası. İnsanlaşmanın İnam səviyyəsi böyük bir olaydır. Biz Asif Ataya dayananda gözümüz açıq olur. Bu açıqlıqda qədimliyimizi də görürük, dəyərlərimizi də. Ancaq düşünməyə artıq Asif Atadan başlayırıq. Çünkü Asif Ata İnsandan başlayır. Asif Ata İnsanlaşmanı İnam səviyyəsindən başlayır. Bütün dərdlərin əlacı odur deyir. Demirsən Qarabağ necə həll olunacaq? – İnsanlaşaq, xalqlaşaq, millətləşək. Ondan sonra görəcəksən, əl-ələ verib sorunlarını çözəcəksən. Bu gün sənin gözün o yana baxır, mənimki bu yana. Çözümü kim düşünəcək?! Ona görə deyir, bütün dərdlərin əlacı insanlaşmaqdadır.

İnsanlaşmaq kimin üçünsə uzaq yüzillərin o tayında görünə bilər. Bunu sən o uzaqlıqda gördüyün üçün özündən başlamırsan. Onda sənin üçün, söz yox, o "Gələcək" gəlməyəcək. Mənim üçün elə bir "Gələcək" gələcək. Çünkü o Gələcəyin daşıyıcısıyam. Ona görə insanlaşma böyük gələnəkdir. Özüylədöyüş gələnəyinin, öncəki çağlarda da, ayrı-ayrı eyitim çalarları, gedişləri olub. Ayrı-ayrı şəxsiyətlərdə olub. Özüylədöyüş – İnamın gələnəyi, sistemi kimi isə Asif Atadan başlayır. Asif Ata insanı "Özüylədöyüş"ü gələnəyə çevirməyə çağırır. İnsanlaşma – Millətləşmə, Vətənləşmə - yaşam gələnəyi olmalıdır. İnamın tələbində bu var. İnamın yönü İnsana bağlıdır. İnsandır Qiblə. Ona görə Özüylədöyüş ideyası çox böyük dəyərdir, o başlayıb.

Biz Asif Atanın dediklərinə söykənə bilməzdik Özüylədöyüş ideyası olmasaydı. O tələb olmasaydı. Hərə öz içindəki yadlıqla yaşayır. O yadlığı yenmədən, onu qırağa qoymadan, Asif Ata nə qədər gözəl deyir desin, nə qədər böyük dəyər verir-versin, o dəyər sənin qulağında yaxşı səslənəcək, ürəyinə enməyəcək. Böyük Dəyərlərin ürəyinə girməsi üçün ürəyindəki xıltlardan arınmalısan. Özün arımalısan. İçini arılamasan qutsallıq ora girməz. Heç yerdə belə gələnək, belə tələb yoxdur. İndikilər elə bilirlər, biz ərəbin, Avropanın yağısıyıq. Yağısı deyilik, onların bizi küçümsəmə gedişlərinə qarşıyıq. Qoymur axı insan olum, qoymur axı millət olum. Qoymadığı üçün döyüşürük. Bax, o cəhətdən belə bir böyük ideya baş tutub, bireylərimizin halında özünü göstərir...

Biz bu xalqın içində dəyər yaradırıq. İnanın, bu gün kim Asif Atanın işiylə, əməliylə öyünürsə, onun yönü Gələcəyədir. Gələcəkdə Asif Atanın Ruhani Hərəkatı xalqlaşacaq, dünyalaşacaq, onda ona tapınmağa nə var. Hamı tapınacaq onda. Ancaq bu gün kim onu görə bilir, ona tapına bilir, onun adı, doğrudan da, gələcəyin qurucuları sırasındadır.

Mənim həmişə qolumdan tutan Özüylədöyüş əməlidir. Özümü görmə, özümü qınama, Əlçəkmə (imtina)! Ömrümü Asif Atanın işinə bağlayıram, onunla nəfəs alıram. Yenə də mən özümü döyürəm, qüsurlarımı görürəm. Min illərin o üzündən gəlirik biz işimizin anlamıyla. Arınırıq, arılayırıq xalqımızın gələcəyinin, mənəviyatının yolunu. Çox işlər görürürk, ancaq Böyük Təsdiq qarşısında çox iş görmürük, azdır. Bununla belə, fiziksəl olanaqlarımızdan çox iş görürük. Biz hər gün Atanın işini gerçəkləşdiririk, ədəbiyatını yaradırıq. Onun sözünü çatdırırıq hər yerdə...

İşimizin fiziki miqyası az olsa da, ruhani miqyası çox böyükdür... İki gündür səfərdəyik. Üç görüşdə yüz əlliyədək soydaşımızla görüşdük. Üstəlik törənimizə gəlib çatdıq...

"Ruhanilik-Dünyəvilik" məsələsiylə bağlı bir neçə söz deyim. Əslində həyatın ölçüsü ruhani olmalıdır. Ruhanilik İnsanın mahiyətinə dayanmaqdır. İnsanlıqla yaşamaqdır. Ölçü kimi onu əsas götürməkdir. sözsüz, biz həm də fiziki varlığıq. Biz mal-qarayla uğraşırıq, təsərrüfatla, sənaye ilə uğraşırıq. Bunlar da bizim həyatımıza özgündür. Bu mənada işin biolojiliyə bağlı yönü dünyəvidir. Ancaq Ölçü, həyatın gedişindəki nizam ruhanilikdir. Nizam Ruhanilik əsasında olanda dünya gözəl olur. Ancaq hər şey dünyəvi olanda dünya gözəl olmur, eybəcər olur. Hər şey biolojiliyə bağlı olanda həyatda siyasət, biclik tüğyan eləyir. Biz deyəndə, dünyanın nizamında ruhanilik əsas olmalıdır, deyirik, əgər bu olacaqsa, onda insanın insana yanaşması qutsal olacaq. İnsan insanda eybəcərlik axtarmayacaq. İnsan insana qarşı eybəcərlik eləməyəcək. İnsanlaşma ölçüsü, ruhani eyitim yol verməz. Hər şey adiləşib indi. Heç kim eybəcərliyə qarşı nifrət duyğusuyla, direniş əməliylə yaşamır...

### *Bəşərilik Bayramı-34*

Ocağımızın ciddi, davamlı bir inadı var. Bu gün biz az sayda adamlarla bayram tədbiri həyata keçiririk. Həyat-Amal döyüşü var içimizdə. Bu gün xalqın Xalq olmasını şərtləndirən düşüncə Həyat-Amal döyüşüdür. Amalmı yenir, həyatmı? – Bu bizim üçün nizamdır, quraldır. Bu bizi gücdən sala biləcək sürəc deyil. Bizim xalqın ruhuna olan inamımıza qarşı dayana biləcək sürəc deyil. Biz bu tədbiri Ocaqçılarla, dostlarla keçiririk. Ancaq bilirsiniz, Xalqın ağlında, içində, düşüncəsində oturuşan bir şey var. Azərbaycanda, Sovetlər dağılandan sonra, yüzlərlə, minlərlə təşkilatlar formalaşıb, hər birinin də tədbirləri olur. Bu tədbirlərə, söz yox, başqaları da çağrılır. Hər kəs tədbirə say toplamaq üçün çabalar göstərir. Tədbirə gəliş onlara görüntü kimi gərəkdir. Çünkü tədbirə gəliş olmursa, onlar özlərini sırıya bilmirlər. Bizə də gəliş gərəkdir, biz də istəyirik. Ancaq bizə görüntü üçün deyil, dəyişmək üçün gərəkdir. Bizim tədbirə ona görə gəlmək gərəkdir, içdən dəyişiləsən. Gərək insanlarımız içdən dəyişilsin, xəlqi yönə, xəlqi məzmuna köklənsin. Bizə buna görə gərəkdir. Mənim xətrim üçün gərək deyil. Asif Atanın xətri üçün gərək deyil. Xalqın qurulması üçün gərəkdir. Ona görə, insanlarımız bunu qarışdırmamalıdır. Qarışdırma var, insanlarımız Ocağın tədbiri ilə başqa tədbirlərin ayrıntılarını görməz. Xalqın içində bizim atdığımız addım Mənaya, Məzmuna, Gələcəyə bağlıdır. Bugünə bağlı deyil. Şəxslərin istəklərinə, çıxarlarına bağlı deyil.

Nə qədər, toplum içəridən Asif Atanın ideyalarına, işinə köklənməyib, heç kim tələsməsin, heç kim deməsin bu xalqın sabahı necə olacaq?! Bu xalqın bugünü nədirsə, sabahı da o olacaq. Ancaq biz də istəyirik xalqın gələcəyini bəlirləyək. Mənə çox suallar verirlər: “Ocaqdan qıraqda xalqın qurulması, şəxsin dəyişilməsi olumsuzdurmu?” Sizə deyirəm, bax, bu sözümü də, üzümü gələcəyə tutub deyirəm, olumsuzdur! Niyə?! Çünkü insan həyata niyə gəldiyini bilmir. İnsanın heyvandan ayrıntısı, bu gün, yalnız şüurlu davranışı ilə bağlıdır. Başqa ayrıntı yox kimidir. Heyvan da həyat uğrunda döyüşür, insan da. Sadəcə insanın şüurlu çıxarları var. O, görəv istəyir, var-dövlət istəyir, yüksək yönəticiliklər istəyir. Heyvan isə ancaq

mövcudluğunu qorumaq, yaşamaq istəyir. Ona görə də insan həyatda Quruluşun içinə düşür, Quruluşun dediyi tələblərlə hərəkət edir, dediyi tələblərlə düşünür, ayrı tələblərlə düşünmür. Ona görə mümkün deyil dəyişmək. Dəyişilməsi üçün mütləq onu içəridən yeniləmək gərəkdir. İnsanın içini, xarakterini yeniləmək gərəkdir. Bunu da insan özü eləməlidir. İnsanın özünün bunu eləməsi üçün isə Asif Atadan başlanğıc götürməli, ideya götürməli, Məna, Məzmun götürməli, Haqq götürməlidir. Bax, belə bir səviyyədə insan düşünəcəksə, o, dəyişilmək haqqında da düşünəcək. Tərsinə olarsa, dediyim kimi, dəyişmək olumsuz olar.

Çətinliyə düşmək istəmir heç kim... Bir neçə gün öncə bir məktəbdə görüş keçirdik. Direktor israrla soruşur, sizi kim maliyələşdirir. Yurdumuzda heç kim inanmır, xalq üçün özündənkeçənlər ola bilər. Heç kim inanmır, xalq üçün sən öz balalarının boğazından kəsib addım ata bilərsən.

Yarım ay öncə biz bölgəyə səfər elədik. Ağşın bəyin maşınıyla gedib çıxdıq Salyana, Biləsuvara, Beyləqana. Siz bir düşünün, o yolları biz hansı çətinliklərlə getmişik. Heç bir bireysəl çıxar yoxdur burda. İnsanlara bunu deyirsən, inana bilmir. Dərdimiz nədir? – Bu xalqın arasından çıxan bu insanların içində bir istək var. Bu xalq dəyişilməlidir. Bu ruhani eyitimi bizə Asif Ata verib.

Biz orda yaxşı görüşlər keçirdik. Çoxsaylı adamlarla, gənclərlə görüşdük. Sözümüzü dedik, ədəbiyatlar verdik. 3 gün səfərdə olduq. İndiki kapitalizm dünyasında Azərbaycanda bireysəl çıxarların cırmaqlaşdığı bir dönəmdə bunu insanlara deyirsən, ağlına girmir. Ona görə də Asif Atanın ömrünü ciddi öyrənmək gərəkdir. Bizim üçün örnək var. Asif Ata olmasaydı, mən bunu eləməyəcəkdim. Ocaq olmasa heç kim bunu eləməyəcək. Bax, ona görə deyirəm, Ocaqdan qıraqda belə şeylər alınmır. İnam, Dünyabaxış məsələsi isə min ildə bir yol olur. Ona bu cür ömür verən, özündənkeçən az sayda insanlar yüz ildə, iki yüz ildə bir yol olur, hər gün olmur. Ancaq o insanların ömrü, özündənkeçməyi, əməyi, dediyi söz araşdırıldıqca, öyrənildikcə, onun izinə düşmək mümkündür. Xalq gərək onun izinə düşsün. Xalq gərək onun içindəki ləyaqətin nə demək olduğunun fərqinə varsın. Bunu niyə deyirəm? Mən istəyirəm

biləsiniz, Ocağa dayanıb addım atmaq, iş görmək olumludur. Bunu usanmadan eləmək gərəkdir. Bir çağlar Ocaqda insanlar vardı, düşünürdü, mən haçağacan söz deyəcəm... Asan gəlir admlara. Çünkü hər kəs dəyişikliyi başqasında axtarır, özündə yox...

Mən, Soylu olaraq, içdən özgürlüyə dartınan bir adamam. Mənim özgürlüyüm Ocağın özgürlüyünə təndir. Başqa özgürlüyüm yoxdur. Bundan o yana özgürlük isə Ocaq demək deyil. Mən bundan o yana da özgürlük əldə eləyə bilərdim. Məsələn, azdan-çoxdan yaradıcılığım var, qələmim var, gedib özümü ifadə edə bilərdim. Siz gözəl bilirsiniz, bu vaxtadək çox əsərlər yazılıb. Ancaq əsərlərin arxasınca harda çabalar olur? Məsələn, hürufilik. Hürufilik təkcə əsər yazmayıb, eləcə də onun arxasınca addım atıb, çabalar göstərib. Niyə o, əməli olaraq bu günə gəlib çatmayıb, o məsələnin ayrı yanıdır. Onların hamısını doğrayırdılar, qılıncdan keçirirdilər. Düşünməyin, bu gün bizim başımıza sığal çəkirlər. Bu gün, XXI yüzil, VII yüzildən daha çətindir. İndi sözü demək, qandırmaq daha çətindir. Bilimin bunca gəlişməsinə baxmayaraq. O çağlar durum (başqa anlamda) bir az da bundan üstün idi. Niyə üstün idi? Orda canlı ünsiyyətlər üçün olanaq var idi. Orda şərin yönü bir idi. İnsanları əzməyin yönü bir idi. İndi mindir. Bilmirsən hansının ağzını hara yönəldəsən. İndi, bilimin çağında, hamı özünü dahi sayır. Hamı bilgisayarın qarşısında oturub bilgi (informasiya) ilə dolur. Hamı elə bilir dahidir. Ona görə böyük sözü onlara anlatmaq çətindir. Bu çətinliyi nə ilə yarmaq olar? – İnsanların içində xəlqi mahiyətin oturuşması ilə; Xəlqi sevginin oturması ilə; İnsani sevginin oturması ilə; Gələcək sevgisinin oturması ilə; Ölməzlik sevgisinin oturması ilə.

Biz Bəşərilik bayramı keçiririk. Bunun anlamı nədir? Xalqların bəşəri məzmunu var. Xalqların ülvi birliyi deməkdir bəşər. Xalqların dəyərlə uğraşması deməkdir bəşərilik. Xalqlar dəyərlə uğraşırsa, xalqların dəyərləri bir-birinə gərək olursa, insana gərək olursa, onda bəşərilik məzmunu ülvidir, özünə bərabərdir. Olmursa, bəşər sürüdür. Bu gün baxın dünyaya. Dünya uşaq kimidir. Bu boyda bilimsəl gəlişmənin qarşısında dünya uşaq kimidir. Qəzetləri oxuyun, görün nə görəcəksiniz?! İsrail Fələstinin filan yerini dağıtdı, Fələstin teror törətdi, Rusiya belə getdi, Amerika filan yerdə bu addımı atdı.

İran filan şey elədi, dövlətlərin bir-birinə münasibəti. Deməzsənmi, rəsmi Tehranla rəsmi Bakı gərginləşir. Əzbərlənmiş şeylər. Adamda ikrah doğurur. Körpə uşaqlar oyun oynayan kimi, – deyir mənim topumu ver, mən də sənin ayaqqabını verim. O da deyir, topunu verirəm, mənim ayaqqabımı ver, üstəlik öz ayaqqabını da ver. Budur dünyanın nizamı. Dünyanın bir-birindən istədiyinə baxın. Mənim filan çıxarımı sən təmin elə, mən də sənin xətrinə dəyməyəcəm. Bununla bəşər özü ola bilərmi? Bununla dünya nizamlı olarmı? Dünyanın böyük görünən siyasəti balaca uşaq ağlının yürütdüyü cılızlıq kimidir. Uşaqda yenə bir məsumluq var, bunda eybəcərlikdir. Şər budur. Belə dünya olmaz. Tamam boş şardır dünyanın halı. İndiki hal, indiki nizam eybəcərlikdir. Yaxşı, necə olacaq bu? Bu gedişə qarşı insani dirəniş nə vaxt olacaq?.. Belə xalq olmaz, belə gediş, belə nizam olmaz. Asif Ata deyəndə "düşündük, daşındıq, Ocaqlaşma yolu tutduq", inanın, ağlıma çatmırdı nə deyir Ata. Sıradan bir abe imiş Asif Atanın dediyi.

Bütün dünyanın indiki siyasi nizamına baxarsan, heç ağlına, inamına sığışmaz, belə bir geniş eybəcərliyin qabağında dünya düzələ bilər. Adamlar elə düşünür: " Dünya düzələ bilməz. Bu xalq düzələn deyil." Kimi dindirirsən, deyir, bu xalq düzələn deyil. Düzəltməyə çalışdınmı, addım atdınmı? Ləyaqət göstərdinmi? Özün dəyişdinmi?..

Ədalət hardadır? Ədalət səndədir.

Mən bir az çəkingən deyirdim, adamlar elə bilər, biz Asif Atanı zorla topluma sırımaq istəyirik. Son günlər ciddi düşünmüşəm, Asif Atadan ciddi yapışın. Hər kəsə deyirəm mən bunu. Asif Ata bəşəriyyəti qorxudan, xofdan çıxardır. Filmdə baxmısınız, Teymur deyir, mən çox ölkələr basdım, hamımız ölüb gedəcəyik, ancaq Allah qorxusu, Allah xofu canımızdan çıxmayacaq. Asif Ata deyir, İnsan içində Mütləq gəzdirir. Mahiyyətcə zamandan, mühitdən, ortamdan üstündür. Hər bir insan Mütləqiliyə meyil eləyir. Mütləqləşməyə qadirdir. Bu qiyməti anlayan, hərəkətə keçən insan kamil ola bilər. İnsan kamil olmalıdır o deməkdir ki, o, mənəvi qüsurları işləmir, getmir ona. Eyni halda bu suala cavab verməlidir: Allahdan niyə qorxursan? Belə deyək, lap qorxmalısan. Qüsurlusan deyə qorxursan. Qüsur-

larına görə qorxursan ki, Allah səni məhv eləyəcək. Asif Ata isə deyir, kamil ol. Mənəvi qüsurlarını qoy qırağa, bu qüsurların etkisində yaşama. Bu o deməkdir ki, Allahdan qorxma, hökmdardan qorxma. Kamillik qorxusuzluq deməkdir, yəni sorumluluq. İsrarla demək gərək deyil ki, qorxu yaxşı şeydir, qorxmasan yaxşı işlər görməzsən. Bizə görə qorxu pis şeylərin qaynağıdır. Din isə deyir, qorxmasan müsəlman deyilsən...

Xofdan çıxmaq deməkdir Asif Atanın Amalı. Teymur Nəsimi ilə qarşılaşanda deyir hər bir canlıda qorxu var, mən nə qədər güclü olsam da Allah xofu canımdan çıxmır. Onda ondan soruşmaq gərəkdir: bu qədər baş kəsirsən, xəta işlədirsən, bəs o xətanı işlədəndə Allahdan qorxmursan? Necə Allahdan qorxursan ki, xəta işlədirsən, bəs Allah xətaya görə qorxutmurdu səni? Əgər Allah xətaya görə qorxudursa, niyə xəta işlədirsən?

Teymur tarxidə qaldı. İndiyə baxaq. Allah sizi xətanıza görə qorxudur, hədələyirsə, siz də Allaha inanırsınızsa, niyə xəta işlədirsiniz bəs?! Cəmiyyətin ağlı, mənəviyyatı bunca çelişkili formalaşıb...

Biz buna görə qəbul eləmirik xristianlığı, müsəlmanlığı. Bu gün də ardıcıl şəkildə qulağımızı dəlirlər ki, Allahdan qorxmaq ona görədir, insan pis iş görməsin. Din, 1400 ildir, qorxuda-qorxuda heç bir pis işi aradan qaldıra bilməyib. Asif Ata bütün əngəlləri qarşımızdan götürmək üçün ortaya gəlib...

Bəşəriliyin məzmunu budur: insan insan olsun. İnsanilikdən başlayır bəşərilik. Xəlqilikdə davam eləyir. Bunlar pillələr deyil, bir mənadır, bir məzmundur. İnsan bəşər deməkdir mənaca, İnsandan qıraqda bəşər yoxdur, çünkü xalq yoxdur. Xalq olmayan yerdə bəşər yoxdur.

Bax, bunun harayını çəkirik biz...

***xxx***

**...**Biz öz dəyərimizə sevgiylə yanaşır, öz böyüklərimizin arxasınca sevgimizlə gedirik, bu, doğrudur, ancaq sevdiyimizi anlamalıyıq, dərk eləməliyik. Dərk eləməsək sevgimiz tükənə bilər. Dərk eləməsək hardasa dayana bilərik. Bu olmasın deyə, Amala tam bağlanmaq,

onunla iç-içə olmaq gərəkdir. Bunun üçün də Amalı öyrənmək, özünə tam əmin olmaq gərəkdir. Əgər Ocaqçı üçün bir Ruhani əminiyyət yaransa, sabah üçün o, rahatsız olmaz ki, Ata Mütləqçi kimi bilinəcəkmi, qəbul olunacaqmı?! Dediyim kimi, bunun üçün Yol-İdeya öyrənilməli, dərk olunmalıdır. Dərk olunsa, biləcəksən ki, Ocaqçıların yaşamının rolu yüksək olsa da, bütöv şəkildə Ocağa gələnin yaşam gedişinin əyri, ya düz olmasından asılı deyil. Məsələyə tam olaraq mən Qurumun yerişindən baxmıram. Ataya öz dediklərindən, yaratdıqlarından baxıram. Belə bir fakta baxaq, Babəkdən sonra ayrı-ayrı aşamalarda Xürrəmilik Hərəkatı adına fəaliyyətlər baş qaldırdı. Ancaq bu fəaliyyətlərin heç biri tarixi silkələmədi. Bununla belə, hər bir böyük Olayın davamı sonradan zəifləsə də, Olay öz önəmini itirmir. Asif Atada da həmçinin. Asif Ata Mütləqə İnam yaradıb. Mütləqə İnamın daşıyıcısı bu gün Soyludur, sabah başqası olacaq. Bunlar Asif Atanın İnamını hansı səviyyəyə qaldıracaqlar, Atanın işini hansı səviyyədə yaşadacaqlar tam deyə bilmərik. Ancaq Atanın işi dayanacaqmı?! Nə qədər səmimi olsan da tam bir qərar vermək olumsuzdur. Ocaqçıların varlığı, çalışmaları bizim düşüncə yürütməyimiz üçün birbaşa fakt deyil, yardımçı faktdır. Ata öz qüdrətini ortaya qoydu...

***xxx***

...Hər kəs özünün sevgisiylə, fəaliyyətiylə, əməyiylə, əməliylə öz obrazını yaradır. Kim hara qədər olanaqlıdır, hara qədər başarılıdır?! – Bunu düzgün qiymətləndirmək gərəkdir. Ocaqçı özünün ilkin axtarışlarını özü üçün bütöv həqiqət saymalı deyil. Öz axtarışlarınızla toplumda rastlaşdığınız, qarşılaşdığınız elə faktları tanıyarsınız ki, bu faktlar sizi həvəsdən sala da bilər, həvəsə mindirə də bilər. Bunlar aşamalardır. Ancaq əslində toplumda qarşılaşdığınız neqativ hallar sizin həvəsinizi bəlirləmir, daha doğrusu, bəlirləməməlidir. Düzdür, hər atdığınız addımların uğurları sizə fərəh gətirir. Ancaq bu fərəh sizin ümumi Ocaqçılıq fərəhinizin tərkib hissəsidir. Məqama bərabər fərəhdir. Tutalım ki, mən gedib bir görüş keçirdim, Atanın ideyalarını dedim, bu mənim içimdə bir sevinc halı yaratdı. Bu, mənim Amala,

Mütləqə, Asif Ataya, onun xalqının gələcəyinə bağlı böyük fərəhimin tərkib hissəsidir. Təkcə bu bəlirləmir mənim böyük fərəhimi. Bu onun elementi kimi görünür, ifadə olunur. Bax, bu cür düşüncəyə yiyələnməliyik ki, bizim fərəhimiz qalxıb-enməsin. Onda münasibətlərimiz də qalxıb-enməyəcək. Biz uzaq hədəfi görməliyik. Asif Atanın Ocağına çoxlu Evladlar qəbul olunurdu. Məsələn, mənim Ocağa gəldiyim günsıradan (Ocağın 12-ci ili) sonrakı ildə Ocağa 36 Evlad gəldi. Ancaq hamısı qalmadı. Bu 36 sadəcə say idi, hayla gəldi, vayla getdi. Bu bizim Ocağa münasibətimizi bəlirləyə bilməz axı. Xalqın içindən həvəsə düşənlər gəlir. Gərək özüylə uğraşıb Asif Atanın dediyinə layiq olsun. Yoxsa həvəslə gəlib, həvəslə də çıxıb gedəcək. Bu mənada xalqımızın içindən gələn, gedən, yıxılan, duran bizim Ocağa baxışımızı heç vaxt bəlirləməyib, bəlirləməyəcək, bəlirləməməlidir. Xalq yaratmaq bunca sadə bir şey deyil. Xalq yaratmaq olduqca böyük bir aşamadır. Bu aşamanı keçmək üçün qurucu insanlar yetişməlidir. Biz, Ocaq olaraq, gözəl bir ortam yaratmışıq. Ortamımız sağlamdır, sədaqətlidir, güvəniləndir. Ancaq Ruhani bir çalxalanma yaratmaq, zamanı silkələmək baxımından hələ çox körpədir. Biz o aşamaya gəlib çıxmalıyıq. Bax bu ortam böyüdükcə bizi ora apara bilər. Bizə deyəndə ki, yaxşı, özünüzü döydünüz, dəyişdiniz, sonra? – Başa düşmürlər sonra demək nə deməkdir. Biz ideyamızla toplumun içinə gedirik. Toplumun içində hər bir eybəcərlik var. Adamın əsəblərini məhv edə biləcək əməllər, hərəkətlər bollucadır. Qapıdan çıxdın, hər şeylə qarşılaşırsan. Bax, adam toplumun miqyasca böyük ortamında bizim hər birimiz pozula, məhv ola bilərik. Ancaq biz gəlib Ocaqda böyüyürük, bərkiyirik, məhv olmaqdan çıxa bilirik. Toplum (Cəmiyyət) bizi başqa cür kökləyir, əslində kökdən salır. Ocaq bizi tamamilə ayrı bir hala kökləyir. O mühitin əlindən alır, hazırlayır, sağlam Mühit yaradır, örnək yaradır. Üz tutacaq bir mühit oluşdurur. Bu fərdlərin hər biri böyüyüb qüdrətləndikcə xalqın içində ən yaşlısı belə, ağsaçlısı, ağbirçəyi belə, gəlib Ocağın ən gənc Evladından öyrənəcək. Çünkü onun ağlı, ürəyi işləmir bu yöndə. Bax, Ocaq elə bir mühitdir. Ocaq elə bir şəxsiyyət yaratmağa, elə bir səviyyə yaratmağa qadirdir. Ocaq çaşmayan bir ortamdır. Bütün dünya çaşa bilər, Ocaq çaşmaz, ayrı-ayrı fərdi

məqamlar istisna olmaqla. Ortamımız ideala bağlı olduğu üçün çaşmaz. Bu, artıq çox ciddi başlanğıcdır xalqın içində. Çaşmayan bir Ortam.

Bayaq bir soydaşımız gəlmişdi, söhbət elədik. Aşağı-yuxarı söhbətimiz elə bu yöndə idi. Hara baxırsan, hara əlini atırsan əlin boşa çıxır. Qalaq-qalaq diplomları yığmaqla deyil. Əlini atırsan onların heç nəyi yoxdur. Balıq kimi sürüşüb çıxır əlindən. Söz deyə bilmirsən. Dünən burda Kərkük, Ərbil ziyalıları, nümayəndələri var idi. Onlarla görüşüb söhbət elədik. Mən milli yöndə düşüncələrimizi deyirəm, bunlar heyrətdən donur. Yoxdur heç yerdə, yoxdur bu söhbət. Aparılmır, qorxurlar. Ya düşünmürlər, ya siyasət imkan vermir, ya niyə, axır yoxdur. Mən yazılarımın birində yazmışam ki, mənə Asif Atanın Ocağından başqa əsaslı söz deyən bir mühit göstərin, mən oranı ziyarətgahım sayım. Elə şey göstərin, mən onda yanılmayım...

## *34-cü ildə "Ruhani Səfər Günü" Mərasimi*

"Ruhani Səfər mərasimi"miz Ocağın Xalqın içinə çıxmasıyla başladı. Xalqın içində Ocaq sözünün deyilməsi olaylaşdı, qutsal gün kimi Ocaq tarixinə yazıldı, "Səfər Günü" adını aldı. Əslində bu, Ocağın ilkin aşamasının ifadəsidir, ruhani səfər gələnəyinin yaşadılmasıdır. Ocaq çox ağır bir zamanda başladı, çox gərgin yaşadı. Elə bir zamanda başladı ki, o zamanda "Ocaq" sözünü demək olumsuz idi. Atanın əli hər yerdən üzülmüşdü, söz demək çətin idi.

Ata düşünüb ki, ruhani iş başlamalıdır. Ocaqsız xalqın içində iş aparmaq sonuc verməyəcəkdi. Ocaqsız xalqın içində Qurtuluş çəkili iş aparılsaydı, onda yetənəkli bir alim kimi Asif Atanın işi öz mövcudluğundan sonra başa çatacaqdı. Ona görə də Ocaq gərək idi. Ocaq isə gələnəklərlə yaşaya bilərdi. İndi keçirdiyimiz mərasim həmin gələnəklərdən biridir.

Hələ 6-cı ildə Ata, mərasim keçirərkən, belə bir söz söyləmişdi: – biz artacağıq, çoxalacağıq sayca, ancaq yenə də az olacağıq. Niyə deyirdi? – Burada bir tutuşdurma aparaq. Məhəmmədin peyğəm-

bərliyini elan eləməsindən az vaxt sonra ordusu yaranmışdı. Çünkü onlara sosial, maddi təminat yaratdı. Döyüşdülər, qənimətlər əldə elədilər. Ona görə də orduya çevrilə bildi. Ruhaniyyat orduya çevrilməməlidir, çevrilə bilməz. Ruhaniyyat barmağın sayı qədər adamlar olacaq həmişə, əsillər olacaq meydanda! Əsil mənada ruhaniyyatçı, ruhaniyyatla nəfəs alandır, onunla yaşayandır! Bütün varlığını ona həsr edən Məcnunlar az olacaq. Biz bilməliyik Ocağa gəliş nə deməkdir. Qıraq adamlar gələ də bilər, gəlməyə də bilər, onun öz işidir, o, Ocağın aşiqi deyil. Bir az maraqdan gələn olar, bir az bilik əldə eləmək üçün gələn olar, bir kəsimi bizə sayğıdan, bir kəsimi Ataya, Onun yaratdığı dəyərə sayğıdan gələr. Ancaq biz bilik verən ünvan deyilik, biz həyat yaradan ünvanıq. Ona görə də Ocağı yaşatmaq bizim borcumuz deyil, həyat tərzimizdir.

Bizim Ruhani səfərimizin başqa bir cəhəti də var: Bölgələrdə oluruq, Ataya görə eldən-elə səfər, evdən-evə səfər, qonşuya səfər, məktəbə səfər, içinə səfər ruhsal əməldir – bunlar hamısı səfərdir. Çünkü biz Amalı təkcə xalqın qulağına demirik, öz içimizə də deyirik. Xalqa arada bir deyirik, ancaq özümüzə hər gün deməliyik. Çünkü xalqın bizi eşitməsi, qəbul eləməsi, var olması, bizim Amalı özümüzə deməyimizdən, deyə bilməyimizdən asılıdır.

İndi bugünkü gedişlə bağlı qısaca düşüncələrimizi deyək: Bu gün Azərbaycanımızın siyasi halı, bizdən asılı olmayaraq, çox qorxuludur. Həmişə Ocaq olaraq vurğuladığımız bir məsələ var, biz, bir millət olaraq, Güney Azərbaycanımızda çökmüşük. Bu gün də bizim Qarabağ sorunumuz Güney Azərbaycanımıza qovuşmağın qabağını kəsir. Başqa sözlə, Azərbaycanın bütövləşməsinin qabağını kəsir. Güney Azərbaycan sorunumuzla isə bütövlükdə Türk Dünyasının birliyinin qabağını kəsirlər. Buna görə də dövlətimiz gücsüzdür, yalındır. Çünkü Bütöv deyilik, Böyük deyilik. Hər günün olayları dalğa-dalğa dövlətimizə etki göstərir. İndi üzərimizə başqa etkilər də gəlir.

Sosializmlə mübarizədə olan kapitalizm dünyası, bu gün bütöv şəkildə qələbəyə doğrudur. İki Quruluşun apardığı rəqabət özlərinin qalib-məğlub aşamasını bəlirləyib. Sosializm, demək olar, uduzdu. Sosializmin uğursuzluğunun başlıca nədəni o idi ki, milli sorunları həll eləmək yerinə, millətin özünü ləğv eləməyə girişdi. O, məğlubiy-

yətini axıra qədər öz bətnində gəzdirdi. Kapitalizm dünyası milli məsələləri qabartmaqla, milli dövlətçiliyi qabartmaqla sosializmin süqutuna gətirib çıxardı. Halbuki kapitalizmin özü antimillidir. Pulçuluq özü milli dəyərləri vurub sıradan çıxarır. Milli dövlətçilik kapitalizmdə nəyə bağlıdır?! Böyük, oturuşmuş xalqlara ağalıq edə bilməyəndə onun içindəki etnik toplumların dövlətinin yaranmasını irəli sürür, adını da qoyur dövlət yaradıram. Əslində böyük dövlətlərin özülü oynadılır yerindən. Bununla da ağalıq eləmək olanaqlarını genişləndirirlər. Bu isə milliliyə qarşı yönələn bir gedişdir. Kapitalizm öz adını "xalq hakimiyyəti" qoyur, ancaq heç bir "xalq hakimiyyəti" sürəci baş vermir. Xalqdan ayrılmış adamlar hakimiyyətə gəlir, xalqı talan edir. Əslində bu sürəclərin hamısı sovetlərin içində başladı, sonra SSRİ-nin varisi olan Rusiyanın başqa bölgələrdə nüfuzunu sıradan çıxarmaq üçün hərəkətə keçdilər. Ayrı-ayrı bölgələrdə çıxarlar toqquşdu – Əfqanıstanda, Yuqoslaviyada i.a. Sonra keçdilər Orta Doğuya, Suriyaya...

Bu çağa kimi ölkəmizdə "balanslaşdırma" siyasəti aparılırdı. Bu siyasət nədir? – Batıya da pay verir, Rusiyaya da. Ona da qurban verir, buna da. Bu gün isə seçim qarşısında qalıb. Ona görə hakimiyyətimiz çaşbaş durumdadır. Nə qədər ki, Rusiyayla Batının çıxarları bizim bölgədən uzaqda toqquşurdu, balanslaşdırmaya icazə verirdilər, bu gün onların çıxarları bizim bölgədə toqquşur, artıq burada balanslaşdırma siyasəti yeriməyəcək. Artıq seçim eləməlisən, ya o, ya bu. Nə yazıqlar ki, seçim eləmək ölkəmizə baha başa gələcək.

Bu gün seçki məsələsində dünyanın gözü Azərbaycana dikilib. Necə olacaq, hakimiyyətə kim gələcək, Batınınmı kadrı gələcək, Rusiyanınmı kadrı gələcək?! Rusiya Qafqazdan əl çəkmək istəmir. Batının İranla münasibətləri normal deyil. Bizim isə milli dövlət strategiyamız yoxdur. Bizdə taktikalar var. Dövlətin diplomatiyası, nizamı hakimiyyəti qorumaq taktikalarından oluşubdur. Ona görə də durumumuz olduqca pisdir. Bu, bizdən – Ocaqdan asılı deyil. Ocaq öz sözünü deyir, öz işini görür. Biz davamlı şəkildə öz münasibətimizi deyəcəyik. Bizim öz mübarizə üsulumuz var, ömrümüzü qoyuruq, halımızı qoyuruq. Ocağın ideyaları var, "Uluyurd Hərəkatı" ideyası var i.a. Ona görə də biz bədbin deyilik. Bütün dünyaya yön verə

biləcək ideya qüdrətimiz var. Bədbinlik üçün səbəb yoxdur, durum çətin olsa da. Dünyada nə baş verirsə versin, Ocağın gələcəkdə qələbəsi qaçılmazdır. Bizim sağlığımızda gördüyümüz işlər var, bizdən sonrakılar da öz sözünü deyəcəklər. Ocağın qələbəsi gərəklidir, qaçılmazdır. Asif Atanın Amalı bir az sonra daha geniş biçimdə başa düşüləcək...

### *Uluyol-Hünər Ailəsinin "Ailə Günü"*

*(Sərt Ayı, 34-il)*

Bugünün qutsallığı ondadır, insanımız içinin olanaqlarını üzə çıxarır. Bununla da, insanın içində ruhsal üfüqlər başlayır. Bu, əslində böyük yaradıcılıqdır. Bir az öncə Ağşın bəy qatıldığı bir toplantıdan danışdı, rahatsızlığını bildirdi. Bilirsiniz, bu gün bizim, Azərbaycan olaraq, böyük ümidlərə, böyük sözlərə ehtiyacımız var. Harda Azərbaycan adına, millət adına toplantı varsa, orda ümid olmalıdır, ümidsizlik yox. Ancaq nə yazıqlar, biz Azərbaycanın, təşkilatlar açısından, içinə yeridikcə, ürək açan durumlarla qarşılaşmırıq. Çünkü insanlarımız sözü tanımırlar, Sözlə, ömürlə uğraşmırlar. Hamı güzəranla uğraşır. Güzəranın tələbində, sınırında millətlə uğraşırlar. Burada isə istək millətin gələcəyindən daha çox, bireysəl gələcəyin qurulmasına yönəlir. Ona görə heç kim yüksəyə qalxmır, axarın içərisində özünü ifadə eləyir. Axı özünü necə ifadə eləyəcəksən, özün yoxsan. Bu mənada Ocağın toplantıları Yurdumuzda yeni aşamalar deməkdir. Bu, düşündürücüdür, eyni halda, bizə böyük fərəh verir.

Mən indi bir neçə kəlmə hesabatla bağlı söz demək istəyirəm:

1-ci, Amallaşma hesabatı. Amalın yeni aşamaya addım atmasını ciddi düşünürəm, ciddi aydınlaşdırmağa çalışıram. Bu düşüncəyə gəlmişəm ki, biz, Ocaq olaraq, böyük çətinliklər içinə düşdük, böyük gərginliklərlə yaşamışıq. Buna baxmayaraq, mənə elə gəlir, biz, Ocaq olaraq, gözə aldığımız həm birinci aşamanı yaşayırıq, həm də ikinci aşamaya addım atmışıq. Birinci aşama Ocaq içində daha dərindən

bilinir. Birinci aşamada böyük arxiv (müqəddəsat) yaratdıq, böyük irs yaratdıq. Bu irs bütün bəşəriyyətə bəsdir. Ocaq ədəbiyatlarının Azərbaycanda, eləcə də, Azərbaycandan qıraqda yayılmasını başa gətirə bilmişik. Bizdən qıraqda da, başqa yönlü ədəbiyatlar yayırlar. Bu yayımın arxasında çox güclü kapital durur. Təşkilatlar, siyasi niyyətlər durur. Bizim heç bir maddi olanağımız olmadığı halda nələr yaratmışıq. Bizim yaratdıqlarımız içimizə dayanır. İnsan böyüklüyünə, insan idealına dayanır, onlarınkı bireysəl çıxarlara, mənimsəmələrə dayanır. Çox böyük bir fərq var. Bir az qabağa baxa bilən adam, bu fərqə görə, onur duya bilər. Özünü xoşbəxt saya bilər. Mən Ocağımızın bu aşaması ilə fəxr duyğuları yaşayıram. Fəxrlə yaşamasaydım, mübarizə apara bilməzdim. O qürur, o vüqar özünə təsəlli səviyyəsində yaranmayıb. Mənim axtarışlarımın, tapıntılarımın üzərində yaranıb. Son çağlarda "Rəmzlər" kitabını oxudum. Oxumağımın sonucunda anladım ki, biz ikinci aşamaya başlamışıq. Yəni Ocağın daha geniş biçimdə bilinməsi, qəbul olunmağa başlaması aşaması...

Özüylə döyüş əməlimdə qəribə duyğular keçirmişəm. İş yerim böyük, toplumsal bir ortamdır. Bu ortamda hər cür xarakter var. Bu ortamda, son vaxtlar bəzi əyintilərdən özümü qoruya bilməmişəm, onlara, adiliklərə qarışa bilmişəm. Bunu düşündükcə Atanın bir sözünə yenidən qayıtdım: "Ən pis, iyrənc ortamda belə, insan özü olaraq qala bilər". Bu qədər yol gedəndən sonra da içimdən belə qəribə duyğular keçərmiş. Sonra içimdə bu hallara qarşı bir çiyrənmə yarandı. Ayıldım, insan köklənəndə isə nə qədər gözəl olur. Anladım ki, qarışmaq olmaz. Qarışmaq – bulaşmaqdır. Adamın özünə nəzarəti olmasa, qarışa bilər. Atanın sağlığında o müəssisədə hamının biri idim. Əyləncəli əməllərə qarışırdım. Ata öləndə ayıldım. Anladım ki, yol, yük yiyə istəyir. Hansı səviyyə ilə?! Sadaladığım səviyə ilə? Deməli, çıxmaq, arılmaq, durulmaq gərəkdir. Ömrü ona kökləndim. Bir qalxınma aşaması oldu. Arada, necə deyərlər, düz xətt əmələ gəldi. O düz xətt sanki ayrı-ayrı adi əlamətləri mənə qaytardı. Yenidən çiyrənmə, yenidən ayılmaq. Ömürdə nə qədər aşamalar var. Deməli, Ocaqla ciddi uğraşmaq gərəkdir. Anladım ki, ruhani sorumluluq bir an belə, ömrü tərk etməməlidir. İkinci çalar, acıq

duyğularım üzə çıxdı. Nurtəkinin diqqətsizliyinə qarşı acıq duyğum... Bireysəl yanaşmalarda belə qüsurlar hələ özünü göstərirsə, o deməkdir ki, arxayınlaşmaq olmaz, zirvələr aşmaq gərək.

Xalqlaşma ilə bağlı: Bu əməlim davamlıdır. Bu ay Ocaqlaşmağımızın daha zəngin çaları yaşandı. Çoxsaylı görüşlər keçirdik. İşin təşkil olunması baxımından İnamlının, Ağşın bəyin, Göylünün əməllərini alqışlayıram. Bizim görüşlərimiz, xalqlaşmağımız irimiqyaslı şəkildə oldu. Atanın dediyi kimi, ağac-ağac, hal-hal böyütmək əməli. Xalq yaratmaq asan məsələ deyil. Onun içində keşməkeşli gedişlər var. Heç vaxt ləbbeykçiliklə iş olmur. Azərbaycan xalqının içində əlverişli ortam yoxdur. Belə ortamda iş görmək üçün gör kim olmalısan?! Dəyərləri ölmüş, kimliyi ölmüş, aradan getmiş bir xalqın içində davamlı haray çəkəsən, bundan usanmayasan. Torpağa 10 dəfə məhsul qoyursan, alınmır, 11-ci dəfə yenə qoyursan, deməli, ümid bəsləyirsən. Deməli, torpağın içində yaratmaq qüdrəti var. Bu xalqın ruhani olanaqları tam aradan getməyib, xarakteri dəyişib, ruh dərində qalır, üzə çıxartmaq gərəkdir. Bu da kütlə ilə olmur. Ocaqdan qıraqda hər kəsə elə-belə görünər. Ocaqda asan deyil. Bizim yanaşmağımızda dərd var, ağrı var, istək var. Sadəcə dərdini kimlərəsə demək yox. Bəlkə də politoloqlardan taktik olaraq, nəsə bəhrələnmək olar. Bizim dövlətimiz də, xalqımız da taktikasında birtəhər yeriyir, strategiyasında isə axsayır. Xalqın özünün strateji bəlirtisi yoxdur, dövlətinin strateji bəlirtisi necə ola bilər?! Xalqın stratejiliyi nə deməkdir?! – Kimliyi, məktəbi, dərsi, mədəniyyəti, hər şeyi – xalqın ruhuna uyğun qurulmasıdır. Ona görə biz özüylədöyüş hesabatı veririk. Özünü görmə, bu boyda yükün altına girmə – Dayanmağı bacarmaq deməkdir. Ona görə də özüylədöyüş hesabatı Ocağın özül məsələlərindəndir. Ona görə də özüylədöyüşü nizamlı, sistemli yaşadıb həyata keçirmək gərəkdir.

"İnsan aqibətində ruhaniyyatın rolu". Qonu yetərincə aydın, aktual qonudur. Ruhaniyyat – insanın özünə çatmasında başlıca rol oynayan olaydır. Söz yox, Ruhaniyyat təkcə bir insanın ömründə özünü ifadə eləmir. Toplumsal yaşamda insan ruhaniyyat araçılığı ilə özünü həm ifadə edir, həm də bəlli edir. İnsan, tarixdən göründüyünə görə, sürüdən ayrıldı, toplum halına düşdü. Birgə yaşamağı

təmin etmək üçün qaydalar düşündü. Qaydalar sonradan insana verilməyib, öz mahiyətindən gəlib. Qaydalara təkan verən məna, məzmun bu gün meydana gəlmir. İnsan birey olaraq düşünür ki, mənim bu toplumda bir haqqım var. Həyatda yaşamaq, özünü ifadə etmək, münasibət qurmaq, özgür şəkildə yaratmaq, qurmaq haqqı var. Bu haqqı içimdəki məna verir. Hər kəs özünü düşünəndə bireysəl çıxarı ortaya gəlir. Hər kəs özünə çəkir, həyat uğrunda mübarizə getməyə başlayır. Həyatı qamarlayırlar, maddiyyatı qamarlayırlar. İnsan zor işlədir. Kim güclüdür, o da qabağa gedir. Ancaq birgəyaşayışı təmin etmək üçün qaydalar yarandı. Düzdür, qaydalar hardasa qəlibdir, ancaq gözəl qəlibdir. Bu gün Avropa nəzəriyyələri bağırırlar ki, guya bizi qəlibdən çıxarırlar. Qaydaların itirilməsinə çalışırlar. Ruhaniyyat bizi o nizama, o qəlibə qaytarır ki, hər kəsin haqqını gör, o nizamı gör. Gücün var, ağlın var, ləyaqətin də olsun. Başqalarının haqqını ayaqlamaq olmaz.

İndi bizə deyirlər ki, demokratiyaya çatmamışıq. İki min ildir, demokratiya var, ancaq özgürlük yoxdur. "Xalq hakimiyyəti" sözü yaxşı səslənir. Ancaq tarixin heç bir aşamasında xalqın hakimiyyəti sürəci olmayıb. Xalqdan ayrılanların xalq üzərində hakimiyyəti sürəci gedib. Ruhaniyyat – insanı insan kimi göstərən "qəlib"dir. Bu "qəlib" özgürlüyə çatdırır. Ruhaniyyatdan qıraqda insan zorakılıqda sınırlanır (məhdudlaşır). Zorakılıqda sınırlanan insan içində ruhaniyyatdan özgür olur (ayrılır). Ruhaniyyatda isə quruculuğu, yaradıcılığı göylərə qalxır, içi özgür olur. Asif Ata bəşəriyyətə bunu verməyə gəldi. Gəldi ki, insan qorxudan çıxıb xalq olsun. Hər şeyin əsasında ruhaniyyat durur.

### *“Uluyol-Hünər” Ailəsinin “Ailə Günü”*
*(20 Qar Ayı, 34-cü il)*

Mənim Ocağa yaxın insanlardan daha çox ummağa haqqım var. Bizə yol göstərirlər, iş, əməl önərirlər, mən isə odun-alovun içindəyəm. Qıraqdan yol göstərmək yox, işin içində olmaq gərəkdir. Bizim sözümüzə söykənmək, söykək olmaq gərəkdir. Yolu olana yol göstərmək doğru deyil. Biz Yolu gedirik...

Özüylədöyüşün çalarları odur ki, öyrəndiklərimi deməliyəm.

İstəyirsiniz özüylə döyüş əməliniz getsin, onda Amallaşmaya vaxt ayırın, görüş keçirin. Görüş keçirin, sonra görün əhvalınız necə olacaq... O günü gənclərlə söhbət aparırdım, həyəcandan ağzım qurudu. Düşünürdüm, mən ideyanı bunlara necə verim, tamam boşdurlar. Mən boş quyuya necə su dolduracam?! O halı yaradana qədər dəridən-qabıqdan çıxdım, işgəncə çəkirdim sanki...

Özüylə döyüş yönündə bir məqamı deyim sizə. Yaxınlarda bir sarsıntı keçirdim. İçimdə addımı dala qoymağımla bağlı idi, nəyinsə alınıb-alınmaması ilə bağlı deyildi. Mən addımı dala qoydum. Düşündüm ki, deyəsən bu xalq mütləq məhv olub. Doğrudanmı bizim zəhmətimiz boşunadı. Doğrudu, bu əhvaldan çıxdım, ayıldım, ancaq ayılandan sonra sarsıldım. Niyə bir an içimdə addımı dala qoydum deyə sarsıldım. Addımı dala qoymaq olmaz. Ata nə dedi? – Dedi ki, bu xalq bizim balamızdır. Biz onu böyütməyə borcluyuq, böyütməliyik. Yolun yarısında sınma, sarsılma, dönmə, ayağını dala qoyma. Bizə belə deyirdi. Belə tələb qoyurdu qarşımızda. Onda xalq olacaqsan. Onda şəxsiyyət olacaqsan. Onda sənin kimliyin bəlli olacaq. Sənin üzün bəlli olacaq.

O, yükün altında uzun zaman tək idi. Ocağı var idi, ancaq həm də tək idi. Xalqın içindən köməyi-harayı yox, Ocağın içindən ciddi köməyi-harayı yox, baxmayaraq, biz onu ovcumuzun içində saxlayırdıq. Mən ona qulluq edirdim. Ancaq mən ona ömrünü uzatmaq üçün qulluq göstərirdim, Amalına qulluq göstərmirdim, yəni ideyalarının harayını çəkə bilmirdim. Gücüm yox idi. Onun işlərinə hər cür qulluq edirdim, ancaq şəxsiyyət kimi ona dayaq deyildim. Şəxsiyyət kimi onun harayını çəkə bilmirdim. Mənəmliyim, balaca-

lığım, qüsurlarım imkan vermirdi. Topluma Asif Atanın ideyalarını göstərə bilmirdim, özümün mənəmliyimi göstərirdim. Fəlakət budur. Ona görə də bax bu tədbir, "Ailə Günü", məktəbdir. Bizi yaratdı, indi də yaradır. Bu məktəbin öyrənciləri də, öyrətmənləri də Ocaqçılardır. Böyük fədakarlıqlar yaşayan Ocaqçılar. Mənim Amaldaşlarım, mən sizləri çox sevirəm. Övladlarımdan da çox. Mən hər addımda anama yarıya bilmirəm. Siz mənim anam dediyim Yurdumun, Millətimin ruhani yükünün altına girmisiniz. Mən sizin taleyinizi düşünəndə əzablarınıza ağlayıram. Haqq bilirəm, haqq sanıram, fəxr edirəm, öyünürəm. Bütün dünya yolsuzdur, məktəbsizdir. Ona görə kimsə "Ailə Günü"ndə hesabat verəndə günahkar adamlar kimi danışmasın. Hansısa qüsurunun üzərinə fərəhlə, coşquyla yeri ki, o sənin ürəyini tərk eləsin. Yanlışlığının üzərinə elə yeri ki, o səni tərk eləsin. Günahkar sizi qapsayan yolsuz toplumdur. Özündən ayrılıb. Toplumda iki adam göstərin mənə, onlar davamlı şəkildə milli sözə söykəkdir. Bu yükün altında necə coşqusuz ola bilərsən?! Hikmət var sənin əzabında. Bizim davamızın adı nədir? Millət nə ilə var olur?! Əgər insan bu təbiətin gözəllikləri ilə yetinsəydi, onda nə insan olardı, nə xalq. Təbiətin gözəllikləri ilə yetərlənmirsən, ona görə sənin içsəl qüdrətin aşkarlanır. Ona görə aşkarlanır ki, təbiətin yaratdığından daha gözəl şeylər yaratmaq istəyirsən. Yüksək şey yaratmaq Əbədiyyət işığını yandırmaq üçündür. Əbədiyyət işığı xalqdır, millətdir, bəşərdir. Bütün sənin varlığın ona qulluqdur.

Qarşıda milyonlarla sual var. Heç kim bu suallara cavab vermək haqqında düşünmür. Niyə düşünmür? Dərəbəylikdir, anarxiyadır, insanlıq üstə deyil gediş. Milyonlarla sual var, o suala cavab ala bilmədiyim üçün özüm döyüşürəm, özüm verirəm o cavabları. Nədir bu həyat, nədir bu düşdüyüm durum, hanı insan, hanı münasibət, hanı dünya, hanı ana, hanı ata? Suallara cavab istəyirəm. Mübarizə ona görə gərəkdir. Nə qədər ki, bu suallara cavab vermirsən, heç bir gəlişmədən danışmaq olmaz. Hər kəs Allahın ümidinə buraxıb gəlişməni. Həyat uçub-dağılır. Qurmaq gərəkdir. Buna ömür verən insan gərəkdir. Kim xalqı yaradırsa, əzab da onun boynundadır, fərəh də onun ürəyindədir. Ocağın bu hikməti var, onu verməliyik. Böyük

çətinliklərin qabağında duruş gətirmək asan iş deyil. Möhtəşəm qüdrət tələb edir. Ocaqda olan adam bu qüdrətlə xoşbəxt ola bilər...

"Uluyol-Hünər" Ailəsi 22 ildir yol gəlir. Asif Atanın Ocağını yaratdığı tarixdən bu günə qədər ardıcıl-davamlı yaşayan yeganə Ailədir. Bu Ailəni mən başladım. Öncə adı Uluyol idi, Hünər adını mən artırdım. Ailə çox hünər göstərdi, çox işlər gördü. Asif Atanın irsini qorumaqda, müqəddəsatını yaratmaqda, yaymaqda, xalqlaşmaqda o qədər davamlı işlər gördü ki, "Hünər" adı qoydum.

"Uluyol-Hünər" Ailəsi Atanın ölümündən sonra Ocaq Olayına çevrildi, Ocaq onun üzərində davam elədi. Ailə özül olaydır onu qorumaq gərəkdir.

## *Ocağın "Ailə Günü" Törəni*

*(6 Köçəri Ayı, 34-cü il)*

Qutsal Günümüzə başlayırıq. 34-cü ilimizin "Ailə Günü" mərasimini həyata keçiririk.

Ocaq olaraq çox dərin, zəngin yol keçmişik. Dərinliyi, zənginliyi nədədir? Həm ideya böyüklüyü, həm bu ideya böyüklüyünə tapınmaq, ondan sapmamaq (onu hara qədər bilməkdən asılı olmayaraq, bu ideya böyüklüyünə tapınmaq, onu yaşatmağa ardıcıl səy göstərmək). Bu, çox böyük tarixi bir ləyaqətdir. Təkcə tarixi yox, (tarixi sözü bir az balacadır) bəşəri, Ruhani bir ləyaqətdir. Bu gün heç yerdə bu düzəydə ləyaqət özünü göstərmir. Hər yerdə addımlar bu, ya başqa biçimdə umacağa bağlıdır. Vətən istəyənlərin, dövlət istəyənlərin, söz azadlığı istəyənlərin, demokratiya istəyənlərin çoxluğunun çalışmaları, işi umacağa bağlıdır. Ən yaxşılarının belə. Tək umacaqsız Olay Ocaqdır. Bax, Ocağı yaşadan da budur. Heç bir zahiri qələbəlik yoxdur. Qələbəliyi say yaradır. Mən heç kimin ləyaqətinə kölgə salmağı ağlımın ucundan belə keçirməmişəm. Ancaq mən bunu sizə deməliyəm, baxın, gənclər küçələrə çıxırlar. O gənclərin bir çoxu, doğrudan da, düşünür ki, vətən üçün eləyir, millət üçün eləyir. Onların hər birinin addımı, çalışması bir-birinə bağlıdır. Bir-birinin görünməsinə bağlıdır. Say qələbəliyi onları

həvəsə gətirir. Ocaqda bu yoxdur. Ocaqdakılar bir-birinin ruhani doğmalığına küsənirlər. Məsələn, Ocaqçılar bilirlər ki, onun hansısa bir amaldaşı lap qüsurlu ola bilər, nədəsə yanlış eləyə bilər, ancaq heç bir vaxt Amalına, amaldaşına dönüklük eləyə bilməz. Bax, bu hal var. Bu halın içinə girdikcə yaşayır, içinə girdikcə dərk eləyir. Toplumda da buna bənzər bir şey gərəkdir. Çünkü heç kim o haldan, o havadan sığortalanmayıb, onun əyilmək, əyrilmək ehtimalı böyükdür. Ancaq bu hal Ocaqda yoxdur. Ocaqçıda bu hal bəlli anlamda olarsa, Ocaqdan çıxa bilər. Yoxsa Ocaqda yaşaya bilməz, qala bilməz. Ocağı yaşadan belə özül prinsiplərdir. Ocağın yaşaması milli, bəşəri yöndə çox böyük dəyişikliklər üçün tutalqadır. Baxın, az sayda insan, Asif Ata bunları necə yönləndiribsə, illərlə bu Ocağı yaşadırlar. Daim tədbirlərini keçirirlər, işlərini görürlər. Hətta siyasi zümrənin bir sıra adamları bizə Don Kixot kimi baxsalar da, bu keyfiyyətləri dana bilmirlər. İşimizə heyrətlənənlər var. Ancaq həm də təəccüb edirlər, suallar yaranır, – bunlar görəsən nə istəyirlər axı? Nəyə nail olacaqlar? Bax, belə bir heyrət var. Biz deyirik, Bəşəriyyətə yenilik gətirmişik, dəyişiklik gətirmişik. Vüqarla deyirik. Biz bunu bütün çalarlarına qədər dərk eləsək də, eləməsək də, bu yəqinlik bizim ağlımızda var. Bu yəqinliyə biz yetmişik. Ona görə də qıraqdan bizə olan maraq, diqqət, münasibət bizi çaşdırmır, çaşdırmayacaq da. Heç kim bizi danmağı bacarmır, bir neçə səbəbdən. Bir səbəbi odur ki, ən azı düşüncəmiz qarşısında, ideyalarımız qarşısında özlərini yalın görürlər. İkinci səbəb, bizi arı, doğruçu, məsum sayırlar, ona görə bizə qarşı başqa əhvallar sərgiləmək eybəcərlik olardı. Üçüncü bir kəsim, mənə elə gəlir, görməzdən gəlir. Bu kəsim hesab eləyir ki, biz nağıl səviyyəsində öz işlərimizlə uğraşırıq. Yəni belə düşünənlər də yox deyil. Kimin necə düşünməyindən asılı olmayaraq, baxın, bizim günü-gündən işimizin dərinləşməsi, günü-gündən sözümüzün kəsərinin artması içdən dağılan toplumun baxışını çəkir. Söz yox, bu hal Asif Atanın sağlığında daha geniş idi, fərqli idi. Bu fərqi Asif Atanın Sovet dönəmində ortaya qoyduğu cəsarət, İdrak böyüklüyü yaratmışdı. İndi toplumla bağlı işin bir pis cəhəti odur ki, dünyada informasiya bolluğu var, dünyada elə pəncərələr açılıb ki, bu pəncərələrdən çox şey gözlə görünən düzəydədir. Böyük analizlərə

guya gərək qalmır. Gerçəkliyi deyirəm ha. Hər kəs o gözlə gördüyünü də, necə deyərlər, artıq ağlına yazır. Biz hər şeyi qlobal götürürük. Cari deyilən, taktik deyilən şeylərdə dayana bilmərik. Bax, o qlobalı başqaları götürmür, bu günün havasıyla, tələbiylə yaşayır, bu günün informasiyasıyla, bilgisiylə yaşayır. Bunun içində də, yenə ən pis cəhət odur ki, gündəlik baş verən olaylar insanların baxışını tamam alır. Düşüncə tamam bu gündən oluşur. Gələcəkli düşüncə yoxdur. Bax, işin toplumla bağlı pis yanı odur. Bizim də üstünlüyümüz budur. Təkcə Azərbaycanla bağlı deyil, bütün dünyada bizim, Ocaq olaraq, üstünlüyümüz budur. Bütün dünyada gələcəkli düşüncə yalnız Ocaqdır. Əgər başqa yerdə olsaydı, indiyə qədər üzə çıxardı. İnternet var, mətbuat var. O saat dalğa-dalğa hər yerə yayılardı fərqli baxış, fərqli düşüncə. Gələcəyə siyasətin baxışı var. Gələcəyə milli, bəşəri baxış yoxdur. Ocaq yeganə Olaydır ki, gələcəyə milli baxışı var. Hərənin üzü bir yana baxan toplumun sabahkı baxışı, düşünürəm, Ocağın məzmununa doğrudur. Bu gün görünməsə də, doğru Ocağın yanındadır, olanaq Ocaqdadır. Yenə deyirəm, bu, üzdə görünməyə bilər. Gələcəkli düşüncə, gələcəkli gediş özü sənə bu faktı verir. Düşünmək üçün əsas verir. Düşün, görəcəksən bunu. Ona görə, bunları bilərək, dərk eləyərək, Ocaqçıdan böyük ciddiyət, böyük qüdrət, qətiyyət tələb olunur. Məncə Ocaqçılar elə düşünməlidirlər ki, hər kəsin ömründə yeni aşama başlayır. Yeni aşama nədir? Məsələn, mən öyrənci gənclərlə çevrəmdə Ocaq üçün Ruhani bir hal yaradıram. Daim uğraşıram. Az qala hər kəslə bireysəl işləyirəm. Hər bir Ocaqçının özünün çevrəsində Ruhani sipər olmalıdır, özünün Ruhani öyrənciləri olmalıdır. Əgər bu olacaqsa, Ocaqçının qüdrəti, ümidi birə beş artacaq. Çünkü sorumluluq adamı içdən böyüdür, olanaq genişlənir. Nə qədər ki, bu tam deyil, adam özünü yalın bilir, sorumluluqdan qıraqda bilir. Ancaq bu olandan sonra, dediyim kimi, sorumluluq bir neçə qat artacaq. Ən azından bilirsən ki, sən bura ömür qoyursan, sənin ömrün boşuna getmir. Sabah sənin ömrün boşuna olmayacaq. Fiziki ömrün başa çatandan sonra bəlli olacaq ki, sənin ömrün boşuna getməyib. Təkcə Ocağın əməl tarixinə yazılmaq azdır, öyrətmənlik gərəkdir. Bunun üçün öz üzərində ciddi işləmək gərək. Bunun üçün Ruhani Ailə var. Ruhani Ailə birey üçün belə bir

böyük olanağı ortaya qoyur. Mən Ocaqçıların ləyaqətini də, arılığını da sevirəm, dəyərləndirirəm. Əməlini də, fədakarlığını da dəyərləndirirəm. Ancaq bunlar Ruhaniyyat Ocağı üçün yetərsizdir. Bu yetərsizliyi ötmək gərəkdir. Ocağın tədbiri böyük məktəbdir, kökləyir adamı. Ancaq Ocağın tədbirinə gəlməklə işi bitmiş saymaq doğru deyil. Ocağın tədbirinə gəlmək, tədbirdən-tədbirə görünmək, ya da arada işlərə qoşulmaq azdır. Həyatın işini Amaldan qabağa buraxmaq olmaz. Mən anlayıram, ailə var, məişət var, ev var. Ancaq biz bunları bilə-bilə Ocağa gəlmişik. Gözümüzün altına almışıq onları. Ata deyir, yoxsulluqdan utanmamaq, halallıqdan usanmamaq. Bu o deməkdir, sən yaşadığın ömürdə yediyin sufi yeməyi olacaq, geyindiyin sufi geyimi olacaq. Hamı kimi dəbdəbəli olmayacaq. Bunu bilməlisən. Özünü buna kökləmək gərəkdir. Onda artıq Allah nə deməkdirsə (Mütləq olan), onu dərk eləyəcəksən.

İki gün öncə burda Güneylilərlə görüşdüm, söhbət elədik. Onlar məndən soruşdular, Ocağın ideoloji, siyasi olaylara münasibəti necədir?! Dedim, biz dərviş deyilik, sufi deyilik. Biz dərviş həyatını qiymətləndiririk, ancaq qəbul eləmirik (yeməyini, geyinməyini demirəm). Dərviş üçün vətən yoxdur. Dərviş üçün millət yoxdur, dövlət yoxdur. Dərviş üçün bunlardan doğan prinsiplər yoxdur. Mənim üçün var. Mən hər zaman deyirəm. Yazmışam da, deyirəm də. Mən bilmirəm, Güney Azəbaycanla Quzey Azərbaycan əbədi parçalanmış qalacaqsa, Türk ulusu səpələnmiş qalacaqsa, Asif Atanın Ocağı nə üçündür?! Mən bilmirəm bəşərilik nə deməkdir?! Mənə çatmır. Ya mənim idrakımın gücü buna yetmir, anlaya bilmirəm, ya da mənim dediklərim doğrudur. Bunlar hamısı böyük birlik təşkil eləyir. Biz deyirik, hər şey insan üçündür, Allah üçün deyil. Asif Ata hər şeyi insan üçün ortaya qoyur. Həyatın gözəlliklərini, səcdəni, müqəddəsliyi insan üçün yaradır Asif Ata. İnsan harda var olur?! – İnsan vətəndə var olur, millətdə var olur. Sürüdə insan yoxdur, sürüdə millət yoxdur. Ona görə də biz fərqli yanaşırıq. Asif Atanın "Uluyurd Aqibəti – Bütöv Azərbaycan" kitabının dediyini deyirik, o halı deyirik. Eləcə də çalışmalarımız. Biz heç vaxt siyasətin içinə girməyəcəyik. Ancaq heç vaxt deyə bilmərik, siyasətdən qaçacağıq. Ona ruhani etki göstərməliyik. Onu yönəldən insanlara ruhani etki göstərməliyik.

Siyasətin insana qarşı yürüşlərinə etki göstərməliyik. Siyasət insana qarşıdır. Bəs yaxşı mən nəylə döyüşürəm onda? İçsəl şərlə döyüşmək nə deməkdir? İçsəl şərlə döyüş ona görədir ki, həm də toplumsal şərlə döyüşə bilək. Yəni içdən böyüyən, arınan, güclənən insan toplumsal şərlə döyüşə bilər. Toplumsal şər də siyasətin yaratdığıdır. Yaxşı, mən onunla döyüşməyəcəmsə, qıraqda duracamsa, onda çalışmalarım nə deməkdir?!

Dedim ki, Ruhani Ailə ən dərin olaydır Ocaqçı üçün. Ona görə yenə mən o qonuya qayıdıram. "Ailə Günü" tam olaraq, tələblərə uyğun, məzmununa uyğun keçirilmir. "Ailə Günü", Atanın yaratdığı biçimə görə, başlamalıdır səhər saat 10-dan. Nə qədər davam eləyəcək bilmirəm. Deyirdi, təbiət qoynu seçin mərasimi keçirməyə. Təbiət mərasimləşsin. Bulaqbaşı seçin, ağac kölgəsi seçin. O yerlərdə "Ailə Günü" keçirilsin. Söz yox, vaxtı süni şəkildə uzatmağa gərək yoxdur. Harda söz qurtardı, orda mərasim də başa çatmalıdır. Gərək için qaynasın. İnanın, "Ailə Günü"nə hər yerdən gələrlər. "Ailə Günü"nü məktəbə çevirmək gərəkdir. Kimin nə deyib, nə düşünməsini, necə reaksiya verməsini götür-qoy eləmədən, insanı keyfiyyət-keyfiyyət açmaq, toplumun yaşamını açmaq. Bir cəhətini bu gün, sabah o biri cəhətini. Bu cür, ortaya dərin suallar qoymaqla. Onda adam özü adi həyatdan uzaqlaşar. Ona görə "Ailə Günü" keçirmək üçün bəlli saatlar ayrılmalıdır. O saatlarda Ailə Günü üçün sanballı söz demək, uğraşmaq gərəkdir özüylə.

Məncə, Nurtəkinlə Göylü öz sorumluluqlarını axıra qədər bilmirlər. Hər ikisi Ocaq üçün çox böyük işlər görüblər, görürlər. Ancaq dediyim kimi, sorumluluqlarını elə bil, tam bilmirlər. Ailə yükümlüsü Ailə quruculuğuyla davamlı uğraşmalıdır. İdrak işlətməlidir bundan ötrü. Ailə Gününü məqam kimi yola vermək olmaz. Quruculuq gərəkdir – Düşüncə quruculuğu, Evlad quruculuğu, Əməl quruculuğu. Mən burda cəsarət tapıb deyirəm, bir Ailə Evladı kimi, öz işimi yetərli dərəcədə görürəm. Hesabatımı, işimi, əməlimi. Düzdür, bəzi əməllərimi sizin köməyinizlə, araçılığınızla eləyirəm. Ancaq eləyirəm. Burada Ailə yükümlülərinin dediyim yöndə hünərləri, olanaqları genişlənərsə, mənim işim daha uğurlu ola bilər. Mənim vaxtımı o işlər alır. Mən daha ciddi, daha davamlı görüşlər keçirə bilərəm,

(oxumaq mənə hava, su kimi gərəkdir) daha çox oxuyaram, yazarlıq vaxtım artar i.a. Bu, mənim amaldaşlarımdan, doğmalarımdan umduğum, tələb elədiyim, istədiyimdir. Ocağın "Ailə Günü" mərasiminin ilk gedişində umduğum, dilə gətirmək istədiklərim bunlardır.

Bilin ki, bir nəfər Ocaqçı yüz nəfər həyatçıdan daha qüdrətlidir. Bir nəfər Ocaqçı ilə qovğa eləmək olar, onun dediklərini eşitməmək olar. Ancaq onun dediklərinin qarşısını kəsmək, onun dediklərini ortadan qaldırmaq, danmaq olmaz. İstənilən adamın, həyatçının dediyini qulaqardı eləmək olar, Ocaqçının istər gələcəyə bağlı, istər millətə bağlı, istər bəşərə bağlı dediyini isə qulaqardı eləmək mümkün deyil. Çünkü bəşəriyyətin gələcəyi, taleyi böyük ideaların yaşadılmasından asılıdır. Mən bir az Qandinin savaşını tutuşdurdum. Hindlilərə xas zəif bir fərd etkisi bağışlayır, ölüvay. Ancaq o "ölüvay"dan çıxan hikmətə bax, onun yaratdığı dəyişikliyə bax. Hindistanın yönünü çevirdi. Düzdür, Hindistanın yönünü min illərdir Budda formalaşdırır. Qandi Budda deyil. Qandi peyğəmbər deyil. Ancaq gör o necə dəyişdi, dönüşdürdü. Qandi bütün hindlilərin gəldiyi qənaətdən daha doğru qənaətə gələ bilib. Fərqi odur, üstünlüyü odur. Hinddə ideya var. Ancaq hinddə o ideyanın böyüklüyü qədər yön yoxdur. Ancaq Qandi o ideyalara o qədər doğru, ağıllı, düşüncəli yanaşa bilir ki, hində sığmır, Bəşər olur. Qandinin üstünlüyü odur, Hində sığmadı, Bəşər oldu. Hindlilərin hamısından daha yaxşı gördü o ideyaların səmtini. Daha yaxşı eləyə bildi. Qıraqdakılar gerçəkliyi görür, mənanı görmür. Yüz adam bir yerdə qələbəlik yaradar, ancaq bir ideya adamının işini görə bilməzlər. Üzdəki qələbəlik yüksəkdə göstərə bilər, ancaq yüksək ola bilməz. Necə ki, çürük meyvə də ağacda yüksəkdə görünür, ancaq onun yeri yerdir. Balaca təkan bəsdir ki, onu yerdə görəsən. Ona görə insanın içi, insanın böyüklüyü, ucalığı bütün kəmiyyətlərin hamısını əlində tuta bilər.

Ata nəyə görə Ruhani Ailə yaratdı?

Ruhani Ailə məsələsi Ocağın sütunu deməkdir. Bir an hesab eləyin Ruhani Ailə yoxdur. Ocaqçılar gəlirlər mərasimə, gedirlər. Sonra 3 Ocaqçı, 2 Ocaqçı, 10 Ocaqçı zəngləşib bir araya gələ bilərlər. Bu hərdən bir olar, özü də sistemsiz bir şey olar. Ancaq bir də var,

sənin qarşında duran tələblər var, struktur var. Ailə struktur deməkdir. Ailə təsadüfi toplantı deyil. Xalq da ailələrdən oluşur. Əgər ailə olmasaydı, xalq olardı sürü. Ancaq ailə əmələ gəlir, soy əmələ gəlir, xalqa çevrilir. Bu bir sistemdir, o ailədə bəlli bir hal yaranır, tərbiyə yaranır. Sorumluluq var. Övlad atasından, anasından öyrənir. Sürünün içinə gedib hərədən bir şey götürmür. Ocaq Ailəsi toplumdakı cismani ailənin Ruhani biçimidir. Orada ata var, ana var, övlad var. Burada Evladlar var, Ata var. Ata Ocağın hər bir Ailəsində var. Mənaca, məzmunca hər bir Ailənin atası Asif Atadır. Ocaq bir qurumdur, bir Ruhani birlikdir. Onun bölgələrdə ruhani strukturu olmalıdır. Yəni yerlərdə, kəndlərdə, bölgələrdə olan Evladlar bir araya gəlməlidir, bəlli bir struktur əsasında qurulmalıdır. Bəlli bireylə nizamlanmalıdır. Bir sorumluluq daşıyan olmalıdır onların içərisində.

İndi bir neçə söz də gedişlə bağlı deyim, sonra mərasimimizi başa çatdıraq. Bu gün bulanlıq olaylardan qıraqda duran, heç nəyə bulaşmayan olay Asif Atanın Ocağıdır. Toplum bizi anlasa da, anlamasa da biz doğru yoldayıq. Mənə "Gündəm Xəbər"in redaktoru sual verir ki, Asif Ata niyə AXC zamanında meydanda olmadı? Baxmayaraq ki, mən onun səbəblərini izah eləyirəm, yenə onun içində o sual qalır ki, niyə meydanda olmadı? Niyə hamının yanında olmadı? Bu gün də elə düşünürlər ki, Asif Atanın Evladları özlərini çəkib qoyublar 4 divarın arasına, toplumun içində deyillər. Heç bir mitinqə qarışmırlar, heç bir aksiya keçirmirlər, etiraz filan yoxdur. Baxın, yoldaşlar mənə sual verirlər ki, Soylu Atalını tutuqlasalar Ocaq neyləyəcək, necə reaksiya verəcək, hansı aksiyanı keçirəcək? Bilirsiniz, toplumda gedən proseslərin hamısının bayağı bir oyun olduğunu Ocaq bilir, dərk eləyir. Ona görə qarışmır, Ocaq öz işini görür. Nə gözləyirəm ki, o hay- həşirdən, nə dəyişəcək? Biz özül dəyişikliklər peşindəyik. Toplumun düşüncəsini, ağlını hər gün oynadırlar. Ocağın ağlını oynada bilmirlər. Gündə bir olay atırlar ortaya. Hərbidə əsgər öldü. Ciddi bir səbəbi olmayan ölüm, əlbəttə, dövlət üçün faciədir. Ortada savaş yox, bir şey yox. Buna doğrudan da, sağlam münasibət bildirmək gərəkdir. Ancaq daha bunu siyasiləşdirib hakimiyyətə qarşı, hakimiyyətə gəlmək üçün eləmək olmaz axı. Bunu vətənçilik, millətçilik açısından eləmək gərəkdir. Dövlətçilik prinspindən yanaşıb eləmək

gərəkdir. Hamı həşirin içindədir. Çünkü heç kim xalqın xalq olması, özünə dönməsi, özünə bənzəməsi haqqında düşünmür. Hər kəs fakt axtarır ki, bax bu fakt maraq doğuracaq. Mətbuat çığır-bağır faktı axtarır ki, maraq doğursun, alınsın, satılsın. Biznes kimi. Dəllallıq eləyir hamı. Olaylardan dəllalcasına bəhrələnib qullanırlar. Ocaq buna getmir, qarışmır. Əkrəm Əylisliylə bağlı mövqe bildirirlər. Baxın necə bildirirlər? İqtidar onu topun lüləsinə qoyub atır. Onu hər şey elan eləyir. Dönük, filan. Gəncləri öyrədirlər, onun qulağını kəsmək gərəkdir. Boynunu vurmaq gərəkdir. Nə bilim nə. Bəziləri də Ə. Əylislini durub savunurlar ki, burda nə var ki? Romandır da. Yazıçı düşüncəsi azaddır-filan... Bunların hamısı siyasi oyun oynayır, bunlar hamısı siyasi münasibət bildirir. Bir nəfərin adının, nüfuzunun qorunması üçün bütün dövlət çıxarlarını qurban verirlər. Bunu hakimiyyətdəkilər eləyir, hakimiyyətin küyünə gedən insanlar eləyir. O biri kəsim də hakimiyyətə qarşı olduğuna görə, Əkrəm Əylislini savunur. Halbuki Ə.Əylisli millətə dönüklük eləyib. Dönüklüyü siyasiləşdirmək olmaz. Ədəbi, toplumsal ortamın insanları onu doğru mühakimə edib ifşa eləməlidir. Daha siyasiləşdirmək yox...

Türkiyənin siyasətinə baxın. Ərdoğan ölkəni nə günə qoyur?! İçdə dönük axtarırlar. Hamının baxışını içəri bağlayır, dış siyasət oyunlarından baxışları yayındırır ki, dış qüvvələrə necə bac verdiyi görünməsin. Bunların hamısı baxışları yayındırırlar. Yalandan TAQM yaratdılar – Türkiyə, Azərbaycan, Qırğızıstan, Monqolustan birliyi. Ancaq Doğu Türküstan məhv edilir. Çinin qarşısını ala bilmirlər. Dünya gücləri də Çinin qarşısını kəsə bilmir. Çin sürətlə gəlişir. Orta Doğunu iflic duruma saldı Batı, Avropa. Ancaq Çinin qarşısını almaqda acizdirlər. Rusiya da bundan qorxur, Batı da. Onu gələcəkdə islah eləmək üçün Türk ordu birliyinin yaranmasına hardasa göz yumarlar. Bəlkə də Uyğurustan bəhanə kimi qullanılacaq Çinə qarşı. Ancaq hələ buna getmirlər. Buradan türklüyün qalib çıxmasını istəmirlər.

Nə qədər ki, Ocağın dediyi prinsiplər əsasında türk birliyinə doğru addım götürülməyəcək, heç nə məni inandırmır. Necə ola bilər, adı çəkilən türk dövlətlərinin başında onun-bunun kadrları var. Bunlar da türk birliyi yaradırlar?! Ərdoğan türk birliyi yaradır türkü kimdənsə qorumaqdan ötrü? Onun özü antitürkdür. Ya da Azərbaycanın

başında duran kimdir?! Azərbaycanın milli kimliyini alaq bostanına çevirib. Necə ola bilər, bunlar türk birliyi yarada bilərlər?! Bu mümkün deyil.

Həm guya İsrailin mümkün basqınlarından qorunmaq üçün Türkiyə tədbir görür, həm də Azərbaycan İsraillə hərbi əməkdaşlıq eləyir. Türkiyə İsraillə guya düşməndir. Türkiyə İsraillə guya döyüşür. Həm də Azərbaycanla Türkiyə bir blokdadır, bir araya gəlib. Həm də Azərbaycanla İsrail hərbi əməkdaşlıq eləyir. Bundan da murdar oyun ola bilməz. Bu murdarlıq, bu eybəcərlik onu göstərir ki, hamısı sifarişlə həyata keçirilən gedişlərdir. Mən yazmışdım, bilirsiniz, Türkiyəylə İsrailin münasibətinin korlanması sifarişlədir. Amerika onu istəyir. Necə Türkiyə Amerikayla müttəfiqdir, necə Türkiyə NATO-nun üzvüdür, necə Amerikayla İsrail ən yaxın müttəfiqdir ki, Türkiyəylə İsrail qarşıdurma halındadır. Nə deməkdir bu? Ağıla sığan şey deyil. Hamısı düşünülmüş, yaradılmış görüntüdür. Orta Doğu layihəsi ərəbləri arxayın salmaqdan ötrü İsraillə Türkiyəni münaqişə durumuna gətirdi. Mərmərə dənizində olan olayla bağlı Türkiyə yalandan çığırdı, bağırdı. Heç nə də eləmədi. "Ya mən İsrailə hücum eləyirəm, ya da o məndən üzr istəyir". Eləyə bilərdi, güclü dövlətdir. Niyə eləmir? Hamısı həşirdir, görüntüdür. Ərəblər Türkiyəyə ümidlənməlidir, Ərdoğan ərəblərin liderinə çevrilməlidir, Orta Doğuda bütün istəklər yerini bulmalıdır. Son aşamada Batı bütünlüklə Orta Doğunu gözətim altına götürməlidir. Sonra keçməlidirlər Çinə.

Biz bu oyunlara bel bağlamırıq, nə ölkənin içində gedən proseslərə, nə ölkənin dışında gedən proseslərə.

Qabaqdan prezident seçkisi gəlir. Prezident seçkisinə qədər görün nə qədər başqatıcı oyunlar ortaya çıxartdılar. Ramiz Mehdiyev olayı, eləcə də bölgələrdə: Qubada, İsmayıllıda yaşananlar. Əsgər ölümü, filan. Elə bil, bu olayları iqtidar özü bilərəkdən nizamlayır ki, xalqın hiddətini bəri başdan boşaltsın, sonra prezident seçkisində xalq bir araya gəlib etiraz etməsin. Doğrudur, qıraq qüvvələrin burada qarşıdurmalar yaratması da yox deyil. Ancaq faktlar ölkənin öz içindədir. Daha beləsi olmamışdı. Xalqın hiddətini seçkiyə qədər tamamilə küçələrə boşaltmaq hədəfi götürülüb. Bunu həm ölkə rəhbərliyi edir, həm seçkidə çıxarları olan qüvvələr.

Ocaq ona görə bulaşmır gedişə. Ocağın qədrini bilmək gərəkdir. Ocağı yaxşı öyrəndikcə bütün gedişi doğru dəyərləndirə biləcəksən. Biz siyasətçi deyilik, ancaq siyasi oyunları görməyəcək qədər sadəlöhv də deyilik. Çünkü doğrunun, həqiqətin nə demək olduğunu görürük. Hökm deyil, siyasəti dərk eləmək üçün siyasətçi olasan. Siyasəti siyasətçidən daha çox Ruhaniyyatçı dərk eləyə bilər. Çünkü siyasətdəki murdarlıqlar Ruhaniyyatın tələbinə ziddir. Zidd olduğunu görürsən ruhaniyyatla yaşadığın üçün...

### *Atagün Ailə Günü*
*(Köçəri Ayı, 34-il)*

Mənim ömrümün yönü tam olaraq Amallaşmaya bağlıdır. Amalı həryönlü öyrənir, həryönlü düşünürəm. Onun mənim içimdəki yerini böyütməyə çalışıram. Bundan ötrü hər gün oxuyuram, geniş qapsamda ruhani bilik əldə eləməyə çalışıram. Bir neçə yöndən mənim özümüifadə olanaqlarım var. Bunlardan ən önəmlisi özüylədöyüş məsələsidir. Çünkü insanın öz üzərində qələbə çalması baş verməsə onda biz heç nə istəməyə haqlı deyilik. Hər yerdə hər kəs narazılıq eləyir: "biz hüququmuzu bilmirik, biz filan şeyi eləmirik…" Mən deyirəm, sən hüququnu bilə bilərsən, ancaq sən hüququnu bilsən də yenə həminkisən. Çünkü hüquq məsələsi siyasi nizama özgündür. İnsanın haqqı var. O haqqı heç kim ona vermir. Bu haqqı nə dövlət verə bilər, nə toplum, nə də ki Quruluş. İnsan öz İnsani haqqına özü yetməlidir. Bunun üçün özünün üzərində qələbə çalmalı, içindəki haqsızlıqdan çıxmalıdır. Nə qədər ki, insan içində balacalıq daşıyır, heyvanilik daşıyır, heç vaxt ədalət tələbinə doğmalaşa bilməyəcək, xeyirə çata bilməyəcək. Xeyirin, ədalətin qaynağı bizdən qıraqda deyil, kürsülər arxasında deyil, bizim öz içimizdədir. Bir var mən öz içimdə ədalətə yetəm, bir var toplumu yönətəndən (genel olaraq yönətimdən) ədalət gözləyəm. Toplumu yönətəndən gələn ədalət mənim içimdəki ədalətdən qaynaqlanır. Əgər insan içində ədalətə yetirsə, onun dövlətinin başına gələn onun istəklərini yerinə yetirir. Yəni dövlətin başına gələn də öz içində ədalətə yetən

insandı. Nə qədər ki, mən ədalətə içimdə yadam, yalnız qıraqdan istəyirəm, o, baş tutmayacaq. Birimizi seçirik, gəl bizi yönət (idarə elə). Sonra da ondan ədalət istəyirik. Bu ədalət öz içimizdə yoxdur. O da bizim birimiz idi, oturtduq yönətimin başında. O sənə hansı ədaləti verəcək?! Bu, toplumda çözümünü tapmayan bir məsələdir. İnsanın özünə münasibəti məsələsi çözümünü tapmayıb. Ona görə Asif Atanın özül ideyası insan üzərində qurulub. İnsan özünün içiylə bir yaşamalıdır, bir olmalıdır. İnsan mahiyətindəki üstün, gözəl keyfiyyətlərinə yetməlidir, fəzilətlərlə dolmalıdır. Buna görə bizim işimiz böyük gələcəyə dayanır.

Bu gün toplumda aclıq, səfalət hökm sürür. İki təbəqə yaranıb, iki cəbhə yaranıb: bunlardan biri iqtidar sayılır, biri müxalifət. Bunlardan biri (iqtirarda olan) əlindəki olanaqları qullanıb hər şeyi qamarlayır. Müxalifət deyilən cəbhə isə xalqın aclığından, düşdüyü səfalətdən yararlanıb İqtidarın əlindən iqtidarı almaq istəyir. Ona görə Müxalifət xalqı aclığa qarşı mübarizəyə çağırır, xalqı aclıqdan çıxaracağını vəd eləyir. Baxın, bəs Asif Ata nə vəd edir? Asif Ata aclığa qarşı mübarizəyə çağırmır. Asif Ata içərimizə yeriyən özgəçiliklərə qarşı mübarizəyə çağırır. Deyir, sənin, bir xalq olaraq, özünü tanımağın, öz kimliyini yaratmağın yolunda əngəl var. O əngəl nədir? Məsələn, Avropa mədəniyyəti. Avropa mədəniyyəti yerə-göyə sığmayan bir şəkildə sənayeləşmə üzərində qurulub. Pul, kapital üzərində qurulub. Ona görə Avropada ailə yoxdur, müqəddəslik yoxdur. İnsana saygı, ruhani münasibət qalmayıb. Avropanın fəlsəfəsi bu gün toplumun durduğu yer ilə uğraşır. Halbuki fəlsəfə insanın Olmalıya doğru meyliylə uğraşmalıdır. İnsanın haqlı olduğu məsələlərlə uğraşmalıdır, necə eləyim ki, insanı əzəli haqqına çatdırım. Fəlsəfə onunla uğraşmalıdır. Ancaq Avropanın fəlsəfəsi toplumun social-bioloji halıyla uğraşır. Bu hal isə heyvanat aləminə uyğundur. Avropanın fəlsəfəsi Quruluşa - kapitalizmə qulluq eləyir. Demokratiya çağırışıyla bizim başımızı qatırlar, aldadırlar. Demokratiyanın anatomiyası var, mənşəyi var. Mən o məsələyə burada toxunmaq istəmirəm. Demokratiyanın toplumsal-siyasal anlamı odur ki, toplumda səfil zənginə bərabərdir. Onun da hüququ var, bunun da. Küçədə hasar dibinə yıxılan sərxoş, özünü tanımazla, bu xalqın qur-

tuluşu yolunda əzab çəkənin heç bir fərqi yoxdur. Mən demirəm özünü tanımazı çıxdanc eləmək gərəkdir, o da insandır. Ancaq o heyvana enib, öz kefində, öz səfilliyində, bu biri əzab çəkir, xaqının düşdüyü fəlakətlərin ağrısıyla yaşayır. Necə onunla bunun ləyaqəti bir ola bilər?! Bax, ədalət burda pozulur. Çünkü Şəxsiyyət tanınmır, bilinmir. Bəs qurtuluşu kim yetirəcək?! Beləcə, xalqı sürüyə çevirib yönətirlər. Gözdən pərdə asırlar. Demirəm, səfili vur öldür, deyirəm, Şəxsiyyəti heç eləmə. Ümidi, insanı heç eləyən Qurluşa bağlama yalandan. Hüquq oyunları ilə böyük Amalların yolunu kəsmə. İnsanı səfil duruma salıb ona hüquq uydurma.

Biz səfalətlə mübarizə aparırıq. Səfil səfilliyə yuvarlanıb, mən isə o səfilliyə qarşı mübarizə aparıram. Hüquq, demokratiya məsələlərinə dayanıb mübarizəaparmaq bir oyundur. Özgür söz belə gəldi, insan haqqı elə getdi, hamısı ölkənin içini yönətməkdən ötrüdür, insanların həssas durumlarını qullanırlar. İnsanın "söz özgürlüyü" nəyə qulluq eləyir? Ölkənin başında xalqı talan eləyənlər usanmırlar. Bütün sərvətləri talayırlar. Ancaq Avropa, siyasi dünya onların başlarında duranıın seçilməsini dəstəkləyir. Sonra da deyir, haqqın pozulubsa ona qarşı çıx. Həm toplumu aldadır, həm iqtidara xəbərdarlıq edir ki, bax, sənin ac günə saldığın bu toplumun əliylə səni yıxaram. Ona görə mən səndən nə istəyirəm, onu verəcəksən, mənə qulluq eləyəcəksən. Sərvətlərinin bir hissəsini mənə axıdacaqsan. O da hakimiyyətini itirməməkdən ötrü xalqın varını, sərvətlərini verir siyasi dünyanın azğınlarına. Mən olayçılığa varmaq istəmirəm, ancaq bir epizod kimi demək istəyirəm. Baxın, məmurların əlində toplanan pullar hardadır?! Avropa banklarında. Bulnarın hamısı Azərbaycan xalqının pullarıdır. Milyardlarla pul Avropa banklarındadır, Avropa onunla yeyir, yağlanır, bizə ağıl öyrədir. O pulun heç bir qəpiyi belə, Azərbaycana gələn deyil, zamanı gələndə başdakını inqilabla devirir, o pulları da orda dondurub mənimsəyir. Ərəb ölkələrinin pullarının arxasına eləcə keçdilər. İndikilər durub Avropanın həyat yönünə ağız suyu axıdıb bizim üçün bəzəyirlər. Bazarda almanın üzündən tozu silən kimi, qəşəng göstərirlər, axı bu almanın içi çürükdür. Sənayenin gəlişməsi ilə bizim başımızı qatmaq olmaz. Biz yüksək mədəniyyət, yüksək dəyərlər daşıyıcısıyıq. Bu olanaqlarımızın qarşısını kəsirsən.

Dünyadakı anarxiyaları sən yaratmısan, sənin ideologiyan, sənin yönətimin yaradıb. İçimizi qatıb qarışdırırsan, sonra da deyirsən, siz geridə qalıbsınız. Bax, Ədalətsizlik, həqiqətsizlik burdan qaynaqlanır, aclıq-səfalət burdan qaynaqlanır. Avropadan gələn fəlakət budur. Asif Ata deyir, bununla döyüşmək gərəkdir. Nə qədər ki, sən bununla döyüşməyəcəksən, aclıq-səfalət içində yaşayacaqsan. Aclığın-səfalətin qaynağı sənin döyüşdüyün subyektdə deyil, daha dərinliklərə gedir Ona görə Asif Atanın işi bir günlük, beş günlük məsələ deyil.

Sonra Avropanın, o biri güclərin əlində oyuncaq elədiyi məsələlərdən biri toplumumuzun dini hissləridir. Biz inam xalqıyıq. İnana bilən xalqıq. Bizim inamımızı qullanırlar, onu siyasətə çevirirlər.

Dünən xəbərlərdə eşitdim ki, Saatlının kəndində qəbirstanlığı dağıdıblar. Kim dağıdıb? Vəhabilər. Niyə? Başdaşı xoşlarına gəlmir. Dağıdacaqlar. Mən bunu mətbuatda çox yazmışam. Bu gün Azərbaycanda vəhabilərin sayı durmadan artır. Onlar hələ yeni başlayanda mən yazırdım, sabah saqqallı, şalvarı gödək adamlar Vətənin, millətin namusuyla oynayacaqlar. Onu sənin millətinə qarşı təşkilatlandırırlar. Onun arxasında İngiltərənin azğın siyasəti durur. Onun arxasında Səudiyyə Ərəbistanının pulu, kapitalı durur.

İkinci, Amerikanın hazırladığı Nurçuluq. Bu da Amerikanın İslamı, dinidir. Onun əsas qaynağı Türkiyədədir, Azərbaycanın içində də genişlənirlər. Siyasi pozuculuq, qarşıdurma üçün zəmin yaradırlar – Vətəndaş qarşıdurması üçün.

Üçüncü, İranın şiəçiliyi. Bunlar hamısı siyasətdir, hamısı oyundur. Baxın, ərəbistan ölkələrində bizdəki kimi Aşura deyilən gün keçirmirlər. Niyə Azərbaycanda bu cür qələbəlik səviyyəsində keçirirlər? Aşurada səslənən hədələr, qıcanan yumruqlar kimə qarşı yönəlir?! Sənin ölkəndə, Azərbaycanda nə imam Hüseynin 15 arxadönənindən bir kimsə yoxdur, nə də Yezidin 20 arxadönənindən bir kimsə. Bəs kimin yanında durub kimə barmaq silkələyirsən?! Öz ölkəndə sünnü sayılan qardaşlarına qarşı barmaq silkələyirsən. Bununla İran bizim içərimizdə vətəndaş qarşıdurması yaradır. Sabah, istədiyi vaxt Azərbaycan iqtidarına etki göstərməkdən ötrü onun içində vətəndaş qarşıdurması yaradacaq. Şiyəni sünnüyə qarşı qaldıracaq. Min ildir

şiə-sünnü qovğasından qurtara bilmir bu millət. Törədəcək o qırğını, özü istədiyinə yetəcək. Bunlar ona görədir, Güney Azərbaycan haqqında düşünməyək. Təbrizi dilimizə gətirməyək. Sonra, Türkiyə bizim qardaşımızdır. Bu gün Türkiyənin başında duran adamları qəbul eləmirəm. Bizim də başımızda duranları qəbul eləmirəm. Söhbət ondan getmir. Söhbət dövlətimizdən gedir. Onun başında, ayağında kimin durmasından asılı olmayaraq, bu bizim dövlətimizdir. Bizim dövlətçiliyimiz qutsaldır. Xalq dövləti olmayanda dağınıq gündə olur. Yenə deyirəm, o başqa məsələ ki, dövlətin başına layiqli oğullar gəlməli, xalqın ləyaqətinə qulluq göstərməlidir, eləcə də Türkiyədə. Türkiyənin başında kim durur, hara əyir, o başqa məsələ, ancaq Türkiyə, türk toplumu olaraq, mənim qardaşımdır. Türkiyə bəllidir, sünnü sayılır. Burada da Türkiyəylə Azərbaycanın arasına şiə sınırı çəkir İran, burada da qarşıdurma zəmini yaradır. Çünkü Azərbaycan dövləti güclənməsin, Türkiyəylə ilişgiləri böyüməsin, Güney Azərbaycan haqqında düşünməsin. 35-40 milyon insanımızın hər gün haqqı ayaqlanır. Hər gün o insanların içərisində dara çəkilənlər var. Mən onları internetdə izləyirəm. Kəndiri insanımızın boğazına yaxın gətirirlər, əli-qolu qandallı, o əyilib kəndirini öpür. Mən onda ağlayıram. Bu mənim soydaşımdır, bu mənim qardaşımdır. Onu orda məhv eləyirlər.

Güney Azərbaycan insanı doğduğuna öz dilində ad qoya bilmir. Hamısına ərəb-fars adı qoyulur. Niyə qoymurlar öz dilində ad qoyulsun? Çünkü öz adını qoyarsa, ona məktəb açarsansa, onun milli şüuru yaranar, ayılar, özgürlüyü uğurunda savaş başlayar. Parçalanmasının, bölünməsinin hesabını sorar.

Siz bilirsiniz, burda, Beyləqanda Sirikli kəndi var. Sirikli kəndini 50-60 ildir iki yerə bölüblər. Bu faciədir, qohumla qohum bir-birinin üzünə həsrətdir. Bu fəlakətdir, bu eybəcərlikdir. İnsanı, xalqı bu duruma salmaq olmaz. Deyirik hakimiyyətin başında duran xalqı pis günə qoyur. Görürsünüz, hakimiyyətin başında durmayan da xalqı bu günə salır. Ona kim səsini çıxaracq? Nə vaxt qeyrət göstərib deyəcəyik belə olmaz. Bunu deməyə qeyrət gərəkdir, qeyrəti din yaratmır, İnam yaratmalıdır. İnam Sabahlıdır. Bizdən sonra balalarımız qalır, soyumuz qalır, Xalqımız qalır. Biz ölürük, xalq ölmür. Bu

xalqın sabahı var. Ona görə Asif Ata deyir, içinə gələn, gətirilən yadlıqla, özgəçiliklə döyüş. Onda sən xalq kimi qurulacaqsan. Onda dövlətiyin başına içindən qeyrətli oğulların gəlib səni yönətəcək. Onda yaxa dartışdırmağa, qovğaya gərək qalmayacaq. Bu nə vaxt olacaq? - Bilmirəm. Bundan ötrü mübarizə aparmaq gərəkdir. Asif Ata vəd vermir heç kimə. Asif Ata mübarizəyə çağırır. O mübarizəni birinci özündən başla. Özünü yarat. İçini yaxşı öyrən, gör sən kimsən, sənin içində qeyrət varmı, kişilik varmı, namus varmı, vicdan varmı, cəsarət varmı, millət sevgisi varmı, həqiqət sevgisi varmı?! Yoxdursa özünə bunu de, yarat. Özünə, Vətəninə, Millətinə yiyə çıx. Bütün bunların hamısı üçün biz Asif Atadan tuturuq. Bütün ömrünü, şüurlu həyatını bu xalqın gələcəyinə verib.

Özüylə döyüş yönündə bir-iki söz deyim. Biz günorta "Mütləqlə Təmas Ricası" deyirik. Orada belə deyim var: "Dağların vüqarında mənliyim yaşayır, ona çatım". Nə deməkdir?! – Dağla görüşən insan ucalığa, sabitliyə, dəyişməzliyə boylanır. Dağ insan üçün bu keyfiyyətləri öz ömrünə daşımaq zəmini olur. Bunu düşündükcə, özünü dərk etmək təpəri aşkarlayır. Təpər verir insana. Mən görürəm ki, əslində o gördüklərim içimdə olandır. Mən dağda tapıram onu. Mən içimdən mənalandırıram onu. O olmaq istəyirəm. Ona necə çata bilərəm? Öz üzərimdə qələbə çalmaqla, içimdəki balacalıqdan çıxmaqla.

"Çayların axarında mənliyim yaşayır, ona çatım"! Çaydakı saflıq, coşqu, dinamiklik, insanda cahilliyi, ətaləti, ziddiyyəti aradan qaldırmaq üçün düşüncə olanaqları açır. Ancaq bunun üçün onunla üz-üzə dayanmaq tələb olunur. Təbiətdə insan gözəlliyi, ucalığı var. Rəssamlıq nədən yaranır? Təbiətə baxırsan, ondakı sehr, möcüzə içsəl duyğuları aşkarlayır. İnsana xas olan duyğuları, təbiətdən qaynaqlanmaqla, işləyir, ifadə eləyir. Çayda bir dinamiklik var. Daim axarlıq, coşqu. İnsan xislətidir bu. O coşqu mənim içimdir, mənim ruhumdur. İnsanın bu dərəcədə özünü təbiətdə görə bilməsi olanaq verir ki, o, bilsin dünya mənaca gözəldir. Dünyanın mənasıyla üz-üzə duranda başa düşürsən, həyat gördüyün deyil, gördüyündən çox üstündür. Sən ondan ayrılmısan. Sən onunla bir ola bilmirsən, sən balacalığa, heyvana enirsən.

Ya da, “Qürubun qübarında mənliyim yaşayır, ona çatım!” İnsan qəlbinin duyduqları, düşündükləri, izhar elədikləri onunla ünsiyyətdə olan hər kəsi doğal durumundan çıxara bilir. Ona insan ömrünü anladır. Özünə yad yaşadığını öyrədir. İnsanın könlünün qubarlanması buna görə baş verir. Günəş qürub çağına enəndə istər-istəməz adamda kədər baş qaldırır. Nədəni bəlli olmur. Nəsə, insanın halına çatır ki, o, öz mənasından ayrılıbdır. Bu gözəlliklərdən ayrılıbdır. O, ölümlüyə meyil edib. Ondan heç nə qalmayacaq. Qürub o kədəri üzə çıxarır. İnsan insanla gözəl ünsiyyətdə olanda, qeybətdən uzaq, ləyaqətsizlikdən uzaq, paxıllıqdan uzaq, onda həmin o qürubun ona xatırlatdıqlarını dərk edir. İnsan mənasıyla üz-üzə gəlir.

## *Uluyol-Hünərlə Ulufərəhin Ailə Günü*

“Uluyol-Hünər”lə “Ulufərəh” Ailələrinin birgə keçirdikləri ilin sonuncu Ailə Günündə söz deməzdən öncə bayrağımızı öpürəm, Ataya səcdə qılıram. Bayrağı öpmək Ruhsal tərbiyədir. İnsanın ürəyinin gücünü yaradan səbəblərdən biridir. Çünkü İnsan səcdənin üstünlüyünə doğru düşünə bilir. Ona görə bu bir tələbdir, bu bir gözəl tərbiyədir. “Rica” demək məsələsi də onun kimi. Mən son vaxtlar “Rica”nı demirdim, bir neçə gün öncəyə kimi ara vermişdim. Bir neçə gün öncə içimdə, davamlı olaraq demək gərəkdir tələbi baş qaldırdı. Dedim, ancaq gördüm, yenə tələsiyirəm. Həmişə “Rica”nı deyəndə tələsmişəm. Qəribə bir tələskənliyim var. Bu tələskənliyi aradan qaldıra bilmirəm. Məncə, tələskənliyim xarakterimlə bağlıdır, Ruhumla bağlı deyil. (Çünkü Ruhsal nizam məsələlərində tələsməməyi bacarıram). Həyatdan gəlir: Yemək yeyəndə də tələsiyirəm, iş görəndə də tələsiyirəm.

Düşünürəm, bireyin (fərdin) Ocaqda olması çox böyük uğurdur. Bəlkə də kimsə bunun dərindən fərqinə varmayıb. Ancaq mən fərqinə vardım, Ocaqda olmaq uğurdur. Demirəm Ocaqda olmaq xoşbəxtlikdir. Çünkü xoşbəxtlik yaranan bir yaşamdır, durumdur. Gərək onu yaradasan, yaşayasan. Ocaqda yol getmək, Ocaqda var

olmaq, ruhani keyfiyyətləri əldə eləmək xoşbəxtliyi. Həyatda olanla Ocaqda olanın özəl fərqləri var. Bu fərqlər Ocaqçının xeyrinədir. Hər hansı bir uğurlu əqidədə olmaq, uğurlu yolda olmaq həyatda kor-koranə yaşamaqdan qat-qat yüksəkdir.

Sonra gərək biz boynunaalma (etiraf) məsələsində özümüzü aldatmayaq. Bireyin boynunaalması özünü qınamasının eyni deyil. Boynunaalma Özünüqınamadan çox yüksəkdir, dərindir. Ona görə hər birey öz üzərində düşünsə yaxşı olar, o, boynunamı alır, yoxsa özünümü qınayır. Boynunaalma özünün içinin dərinliklərinə düşmək, bu dərinlikdə əzaba qatlaşmaqdır. Əzaba qatlaşan haray çəkər, hünərə qoşar. Boynunaalma (Etiraf) çox böyük Ruhani tələbdir. Ocaqçı o tələbə yetmişəm deyərək özünü aldada bilməz. Məsələn, Tolstoy kimi, Qandi kimi. Onlarda çox sağlam boynunaalma var. Asif Atada dərin boynunaalma var. Hesab edirəm ki, mən də bu yoldayam. Mən bunu adını çəkdiyim insanlardan öyrənmişəm – özünü aldatmamaq. Yol adamı, mübarizə adamı özüylə səmimi olmalıdır. Özünü qınama özüylə döyüş halı yaratmasa, adamı öz gözündən sala bilər. Boynunaalma özünütanıma, özüylə döyüş yetirdiyi üçün adamı öz gözündən salmır. Özünü qınamadan yüksəyə qalxmayanda, bu qınamalarla sadəcə vicdanı susdurmaq olar. Axı vicdan nə qədər ağrımalıdır?! Ağrıda-ağrıda vicdanı ağrısızlığa öyrətmək olar. Onda da o qınamaların hər hansı önəmi də ortadan gedər. Bu mənada boynunaalma olduqca önəmli keyfiyyətdir. Çünkü boynunaalmada qüsurlardan çıxmaq baş verir.

Mən bəzi məsələlərdə, başqalarının qüsurlarına qarşı, öz qüsurlarıma qarşı olduğum kimiyəm. Bunu məndən Ocağın durumu tələb eləyir. Ancaq mən onu doğru saymıram. Mən başqalarının qüsurlarına qarşı dözümsüzlüyümlə xarakterimdə bir zabitəlilik yaradıram. Bu zabitəliliyin Ruhaniyyata bağlılığı biranlamlı deyil. Bir çalardır. Zabitəlilik az Ruhanidir. Son vaxtlar başqalarına qarşı aşırı tələbkar olmamaq üçün daha çox iş görməyə başlamışam. Çünkü istəmirəm mənim xarakterim zabitəliliyə köklənsin, Ruhaniyyatdan uzaqlaşsın. Mən bundan çəkinmişəm. Heç kimə işi zorla gördürmək olmaz. Adam özü iş görmürsə, içi ilə doğmalaşmasa, görülən iş anlamını itirər. O cəhətdən daha çox ruhani əməllərə qatlaşıram. Bu mənim üçün

fərəh qaynağıdır. Ancaq burada məni əhvaldan çıxardan odur ki, görəcəyim işlərin bəlli bir hissəsi bilgisayarla bağlıdır. Onun da olanaqlarını axıra qədər bilmirəm. Oxu işinə qarşı içimdə coşqun bir istək var. Hansısa işin buna əngəl olmasını da istəmirəm.

Ocağın mühitini yaratmaq məsələsi var. Ocağın mühitini fərd özünün ləyaqətiylə yaradır. Mənim, ya başqasının tələbindən asılı olmamalıdır. Ocağın indiki durumunu azaltmaq düşüncəm yoxdur. Ocaq çox gözəl bir mühitdir, ayrı-ayrı qüsurlarının olmasına baxmayaraq. Söz yox, Ocaq mənim düşündüyüm kimi qüdrətli deyil. Ancaq hünərlər çoxdur. İstəyim odur, hər bireyimiz xalqda ruhaniyyatı təsdiq edə biləcək qüdrətə, davamlı olaraq, özünü böyütsün. Əmələ gəlincə, mən əməl tələbi yox, əməl təklifi, təşəbbüsü göstərəcəm. Çünkü mən Ocağın dediyi əməlləri daha yaxşı tanıyıram...

Azərbaycan toplumu (Ocaq bunun fərqində olmalıdır) bu gün nə dinə etiraz edir, nə də Batıçılığa – Avropaçılığa. Aclığa etiraz edir, səfalətə etiraz edir. Aclığa qarşı mübarizənin başında bu gün siyasi Müxalifət görünür. Ona görə də toplum ən çox siyasi müxalifətin yanında görünür. Ocağın yanında görünmür. Çünkü Ocaq aclığa, səfalətə qarşı, yəni üzdə olana qarşı döyüşmür. Ocaq dinə qarşı, Batıçılığa qarşı döyüşür. Toplumun istəyiylə, döyüş xəttiylə Ocağın istəyi, döyüş xətti üst-üstə düşmür. Əslində Ocaq Azərbaycan uğrunda döyüşür. Toplum bunu görməyə bilər. Ocaq özü bilir nə edir. Toplumda ən aktiv adamlar belə, üzdəki sorunların üzərində vurğu eləyirlər. Hakimiyyət dəyişikliyi üzərində vurğu olunan həyat heç vaxt abad olmaz. Gərək hakimiyyət dəyişikliyi üzərində deyil, xəlqi dəyişiklik üzərində vurğu eləyəsən. Xəlqi dəyişiklik uğrunda mübarizəni apararsansa, onda xalqın içində tərəqqi başlaya bilər. Baxın, neçə ildir Sovetlər dağılıb. Sovetlər dağılandan üzü bu yana görün bir addım tərəqqi varmı? Göyə sputnik buraxmaq tərəqqi deyil. Bayaq dedim, adamlar var, deyirlər, vətən mənim gözümdən düşüb. Vətən gözdən düşürsə, göyə sputnik qoymağın adını necə tərəqqi qoya bilərsən? Əgər hərbi qulluq əsgərin gözündən düşürsə, əsgər vətənə qulluğu şərəfi saymırsa, necə deyə bilərsən, tərəqqi baş verib?

Batıçılıqla döyüşənlər din üçün döyüşürlər, dinlə döyüşənlər batıçılıq üçün döyüşürlər. Bugünkü ateistlər elə bilirlər, dinlə döyüşürlər, əslində dini yaşadırlar. Niyə? Çünkü onların əməli, əməyi batıçılığı doğruldur. Batıçılıqda hədsiz dərəcədə çökmələr var. Hədsiz dərəcədə insana, insanlığa uyğun olmayan cəhətlər var. Ona görə dinə meyil artır ki, batıçılıqdan qorunsunlar. O baxımdan din uğrunda savaşan Azərbaycan üçün savaşmır. Nə də batıçılığın yanında durub savaşırsa, yenə də Azərbaycan üçün savaşmır. Ocaqdan başqa heç yerdə, əsaslı olaraq, Azərbaycan uğrunda mübarizə getmir. Mən görürəm, ən yaxşıları belə, içində başqa əhvallar gəzdirirlər. İkiüzlülük pis şeydir. Belə adamlar nə qədər ağzıyla quş tutsa da, onun ləyaqətinə söykənib Azərbaycan olmaq mümkün deyil. Mən elə ikiüzlülük eləmərəm, eləyə bilmərəm. Mən insanlarda uğurlu bir addım görəndə sevinirəm. Onlar bunu eləmirlər. Xalq üçün addım atanın içində qısqanclıq duyğusu, paxıllıq duyğusu paralel durur. Vətənsevərliklə qısqanclıq duyğusu paralel durursa, o şəxsin ömründə qısqanclıq üstünlük təşkil eləyəcək. Paralellik heç vaxt özünü doğrultmur. Mən Azərbaycan bayrağına etiraz eləyəndə yazmışdım ki, 3 məna daşıyan bu bayraqda 2 məna 3-cü mənanı udur. Yəni dinçiliklə, Batıçılıq Türkçülüyü sıradan çıxardır. Özgəçiliklə özümlüyü yanaşı qoymaq olmaz. Bütün bəşəriyyətin tarixi özümlüklə özgəçiliyin paralelindən oluşubdur. Həmişə özgəçilik özümlüyü üstələyib. Həmişə heyvani insanini üstələyib. Ona görə heyvaniliklə insaniliyi yanaşı qoymaq olmaz. Onun da xətrinə dəymə, bunun da xətrinə dəymə – mümkün deyil.

Sonra, Batıçılığın qorxusu görünmür, dinin qorxusu görünür. Batıçılığın qorxusu niyə görünmür? Demokratiya, insan özgürlüyü kimi çəkici sözlər onu pərdələyir. Din isə açıq yasaqlar qoyur. Avamlıq yaradır. Bunu eləmə, onu eləmə. Mən düşünürəm, qorxusu görünməyən olay qorxusu görünəndən daha qorxuludur. Başqa sözlə, batıçılıq dindən daha qorxuludur. Buna görə də batıçılığın özünün xəttində olanlar bilməlidirlər, dinin özü də batıçılığın tələsinə düşüb. Bu gün Ruhaniyyat yoxdur həyatda. Dində zərrə qədər ruhaniyyat qalmayıb. Çünkü yalan var, yanıltma var.

Bir məqama da toxunum: Ocaqçı elə düşünməməlidir, illərlə öz içini yaradacaq, sonra Ocaq işlərinə qurşanacaq. Tərsinə, içini yaratmaq istəyən adam daha çox Ocaq işi görməlidir. Ocaq işi görməkdən böyük iç işi yoxdur. Ocaq işi gördükcə adam içəridən arılır, durulur. Ocaq işi gördükcə özünü tanıyır, qüsurlarını üzə çıxarır. Yanlış eləməkdən qorxmaq gərək deyil, biganə qalmaqdan qorxmaq gərəkdir. Ən böyük yanlış biganə qalmaqdır. Yanlış eləyə-eləyə yanlışdan çıxa bilərsən. İş görən nədəsə yanıla da bilər. Biganəlikdə isə çox ciddi qorxu var. Qorxudan qorxmaq gərəkdir...

Mən həmişə oxu (mütaliə) üstdə qeydlər eləyirəm. Onlardan sonuncu məqamları istəyirəm oxuyam:

*xxx*

Şəxsiyyət olmağa can atan özünə qarşı layiq olmadığı münasibəti umursa, o deməkdir, doğru münasibətin, əsilliyin həyata gəlməsinə əngəl olur. Qeyri-kamil səviyyəyə qarşı kamil münasibət ummaq insanlığın təsdiqinə əngəl olmaqdır.

Mən özümə qarşı elə münasibət istəmirəm artıq. Bir vaxtlar mən buna gözümü yumub gedirdim. Mənə ayrı-ayrı Ocaqçılar səcdəli münasibət sərgiləyirdilər. Halbuki, mən ona layiq deyildim. Layiq olmadığım bir şeyi yaşatmaq isə əsilliyə əngəl olmaqdır. Arı adamlar elə bilərlər bu səviyyəyə münasibət hər şeydir. Deyil. Ona görə əl çəkdim (imtina elədim) özümə qarşı aşırı münasibətdən.

*xxx*

“Qavrama yolu ilə nəyəsə inanmaq gerçəkliyi tanımaqdır. Mənanı qavrama yolu ilə, təcrübələrlə dərk etmək mümkün deyil”.

Bu, Ocaqçıdan böyük, dərin duyğular istəyir. Duyğulara mane olmayın. Toplum belə deyəcək, elə deyəcək deməyin. Vəcdə mane olmayın. Ehtizaza mane olmayın. Məna ehtizazla dərk olunur. Məna ağılla, təcrübəylə, qavrama yolu ilə dərk olunmur. Elm qavrama yolu ilə dərk olunur (yəni gerçəklik), Məna yox.

*xxx*

Dində mövhumat sərgiləyən qurallar o qədər dərinə işləyir ki, müsəlmanın ən kamil səviyyəsi yalnız ibadət möminliyi ilə ölçülür. Kuralları icra eləməklə möminləşən müsəlman heç vaxt Tanrını dərk etməz. Kurallarda məhdudlaşmayan tək-tək fərdlər mömin ola bilər.

*xxx*

Məna yoxdur demək subyektiv baxışdır. Obyektiv baxış ola bilməz. Kim deyirsə məna yoxdur, onun üçün həqiqətən məna yoxdur. Yəni Məna ilə yaşamayan üçün məna yoxdur. Məna ilə yaşayana məna var.

*xxx*

Tanrı insana münasibətdə, kainata münasibətdə nədir? Bu məsələni din izah edə bilmir. Çünkü Tanrını insanın içində, kainatın içində görmür. Ona görə də dinçi kainatın içiylə insanın içinin bağlılığını (əlaqəsini) dərk eləmir. (Bu Ocağın böyük üstünlüyüdür).

Dinçi ilə dindən danışmaq çətindir. Bəs Mütləqçi necə? Biz Mütləqçiyik, ya da adlanırıq. Hər kəs öz inancına dayanıb, özünü hamıdan ağıllı sayır. Mütləqçi öz inamına dayanıb özünü hamıdan ağıllı saymalı deyil. Özünü həqiqətin doğması saymalıdır. Hamıdan ağıllı olmaq olar. Hamıdan ağıllı olub da həqiqətlə bir olmamaq da mümkündür...

Bir neçə söz Türkelin ruhani adalma günü ilə bağlı: “6 Köçəri Ay, Ocağın Ruhani Ailə Günü Mərasimində Türkel dedi, bu gün onun üçün önəmli bir gündür, çünkü bu tarixdə Ocağa Evlad qəbul olub – 12 il öncə. 12 ildə Türkelin Ocağa verdiyi, aldığı məsələsini çözsək, görərik, o, ən çox Ocaqdan alıb. Özü də az almayıb. Ocağa verdikləri də olub. Ocaq tarixinin yazılmasında qatqı göstərib. Yəni Ocaq işlərinin həyata keçməsində buyruqları yerinə yetirib. Sonra Ocağın içini, çölünü düşünəndə səmimi olur, səmimi düşünə bilir. Bu onun uğurudur. Bu uğuru hər adam o yaşda, o çağda əldə eləyə bilmir.

Toplumda yaşayıb arı-duru qalmaq ciddi göstəricidir. Mən bicliklə, gicliklə baş saxlamağın yanlısı deyiləm. Biz, Ocaq olaraq, nədəsə aldana bilərik, aldanmışıq da. Bəzən mən özüm bu aldanışlara dö-

züm göstərməmişəm, pərt olmuşam. Söz yox, gedib məni aldadanla haqq-hesab çəkməmişəm. İndiki çağda da aldanmalarım olur.

Hinddə Ahimsa deyilən bir ideya var. Bütün hindlilər o Ahimsa deyilən ideyanı düzgün anlamayıblar. Ona görə müti olublar. Mən hind xalqını aşağılamaq üçün demirəm. Məndə onların bu halı acı duyğu yaradır. Ahimsanı düzgün anlamadıqlarına görə. Ya da ideyanın özünü düzgün ortaya qoymayıbar. Zor tətbiq etmək yolverilməzdir deyib çox şeyi qurban vermək olmaz. Bax, o mənada deyirəm, bir var bizim avamlığımızdan, ağılsızlığımızdan, biganəliyimizdən, vecsizliyimizdən irəli gələn aldanmalar, yanlışlar, bir də var, bilirik, abırımızı qoruyub baş qoşmuruq. Bu, ruhaniyyatımızdan irəli gəlir. Mübarizəni doğru qiymətləndirib dərk etmək gərəkdir. Çünkü biz eybəcərliyə eybəcərliklə cavab vermirik, eybəcərliyin yanına enmirik. Asif Atanın bayrağının anlamı o keyfiyyətdir. O bayrağı öpməklə həmin keyfiyyəti öpürəm mən, yəni o keyfiyyəti özümdə yaşadıram. Bu açıdan ömrün qədrini bilmək diləyirəm Türkelə, bu xətdən qırağa çıxmamaq gərəkdir. Düzdür, gəncliyin qaçılmaz istəkləri olur. Onun dalınca addım ata bilərsən, ancaq addım atanda düşün, gör addımın səni hara apara bilər. Mən zəngin, varlı olmaq həvəsində bulunan övlad istəmirəm. Mən Asif Atanın işini doğruldan övlad istəyirəm. Onda böyük ləyaqətin altına imza atmaq olar.

## *Yeni İl Mərasimi*

*(1 Günəş Ayı, 35)*

35-ci ilmizdə Ocaqda, eləcə də Ocaqdan qıraqda – dünyada nə baş verdi? Davamlı şəkildə dünyanı dağıdır, xalqları dağınıq duruma salırlar. Heç kim bəşəri, insani dəyər yaratmır. Hər kəs çığır-bağırda, hayda-həşirdədir. Hər gün küçələrdə hay-həşirlər var. Hər gün qovğalar, hakimiyyət dartışmaları var. Hər gün insan ölür, öldürülür. Ac qoyulur, susuz qoyulur. Vicdansızlıq, həqiqətsizlik, ədalətsizlik gedişlərinə dözməyərək, özünü öldürmələr baş verir. Çıxılmazlıqlar yaranır. İnsan başını itirib. Asif Atanın "Özündə Mütləq gəzdirir"

dediyi insanın başına olmazın oyunlar açılır. Ocaq isə 35-ci ilin içində fədakarlıq elədi, ləyaqət göstərdi, ailəsinin boğazından kəsdi, səfərlər elədi, bölgələrə getdi, hər yerdə Atanın ideyasından doğan ümid işığı yandırdı. Hara getdisə, gəncliyin ağlında Azərbaycan yaratdı. Gəncliyin ağlında Asif Ata yaratdı. Gəncliyin ağlına Azərbaycanın ruhani dəyərlərinin nə olduğunu yazdı. Başını itirən aydınına söz dedi. Xalqı özünə göstərən çoxsaylı ədəbiyyatlar hazırlayıb hər yerdə (umacaqsız) payladı. Ocağın hər bireyinin əməli, ləyaqəti ifadə olundu burda. Nə qədər işlər görüldü. Bu işlər boşuna əmələ gəlmir. Ürəkdə sevgi olmasa, təpər olmasa, eşq olmasa, o işlərin heç biri əmələ gəlmir, işıqlanmır. Bunu uydurmuruq – dünya nə deyir, Ocaq nə deyir. Dünya nə haldadır, Ocaq nə haldadır. Nizam yaradırıq, hal yaradırıq. Gələcək yaradırıq. Bizə çətinliklər əngəl ola bilmir, çünkü eşq var. Eşq qanad deməkdir. Biz hər yerə ürəyimizlə gedirik. Ona görə çətinliklər bizim yolumuzu kəsə bilmir. Ürəklə yeriyəndə uğurlar görünməyə başlayır. Ocaqla dünyanın böyük fərqi var. Bütün dünyanın mənəviyyat yaşantısının ölçüsü Atanın ünvanındadır. Heç kimin gücü çatmaz bunu dansın. Azərbaycan dünyanın ahəngsizliyinə uyğun hava çalır, Ocaq bu havaya uymadı, həşirə düşmədik. Qoruduq Ocağımızın ləyaqətini, Atanın adını, tələbini. Qoruya bildiyimiz üçün də varıq. Asif Atanın ölümündən sonra 17 ildir Ocaqda yol gəlirik. 17 ilin içində nə qədər böyük sarsıntılar var, nə qədər böyük sevgilər var, inadlar var, hünərlər var, təpərlər var, özündənkeçmələr var, qurbanlar var. Bunların hamısı 17 ilin özülü oldu. Yurdumuzda İnsanlaşma harayı çəkdik, Millətləşmə harayı çəkdik. Sevgimizlə, yaradıcılığımızla, ağlımızın işığıyla. Doğrudur, Ata tələbi ilə, Ocaq tələbi ilə hələ aşılası çox zirvələrimiz var, çox işlər var qabaqda. Bizim bu zirvələri qalxmağa olanaqlarımız da var. Ocaq mühiti kamil, uca mühitdir, ayrı-ayrı yanlışlar olsa da. Üzümüzü heç kimə tutmadıq, heç kimdən böyük quruculuq gözləmədik, Ruhaniyyat xəttində nə ediriksə özümüz edirik. Heç kimin yaxşı işinə qarşı söz deməmişik, heç kimə də mənasız ümid bəsləməmişik. Çünkü ümid yeri daha böyük anlamda Ocaqdadır. Yurdumuzun gözü ayda-çayda qalıb. Türkiyəni özümüzə doğma saydıq. Türkiyə bizə nə verdi – İslam. Üzdə olanlarımız Avropanın ayağının altına yıxılırlar.

Nə verdi bizə Avropa – kapitalizm, pulçuluq. O pulçuluğun sonucudur, insanlar aclıqdan özlərini yandırırlar. Həyat nə qədər gözündən düşməlidir ki, intihar edəsən. Gərək sənin üçün heç bir işıq qalmasın, ümid qalmasın, dəyər qalmasın ki, sən özünə od vurasan. Bunu Avropa pulçuluğu gətirdi. Pulçuluq olan yerdə talançılıq var. Sənə elə bir mühit, hal verir ki, sən o mühitdə özünü asmalı olursan…

Ocaq da böyük maddi olanaqlar üzərində oturmayıb. Ancaq bunun qabağında milli-insani yöndə addımlar atırıq. Bu məsələ sözə sığmır, ifadəyə gəlmir. Ocaqda həm işimiz, həm varlığımız, həm də addımımız yox yerdən yaranan olanaq kimi oldu.

Ocaq miladın 1979-cu ilindən başlayıb. O vaxtdan hər bir Ocaq ili quruculuqla, yaradıcılıqla özündən öncəki ilin davamı olub. Adam qəlbini verəndə iç işığa çevrilir, işıqlanır. Yeni ilimizə qədərki çağların hamısını araşdırsaq, görərik ki, hamısına ürək qoyulur. Ata deyir, Ocağı ancaq aşiqlər yaşadacaq. Aşiqlərin sırası genişlənəcək, ancaq yenə az olacağıq. Aşiqlər az olur. Ruhani tarixi yazan da aşiqdir, böyük dəyişiklikləri eləyən də aşiqdir. Xalqın yönünü dəyişən də aşiqdir. Bəşərə yeni nizam halı gətirən də aşiqdir. Ocağımızın aşiqlik hünəri, aqibəti qutlu olsun, uğurlu olsun.

## *Atagün Ailə Günü*

*(21 Günəş Ayı, 35-ci il)*

Ocağımızın "Ailə Günü"nün tələbi – Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatını verməkdən oluşmalıdır. Ocaqçılığın böyük tələbləri hesabatların nizamındadır. Ancaq hesabatlar hələ ömürlərdə sarsıntı yaratmır. Mənim halım, mənim sözüm, mənim quruculuğum həyatı dəyişməyə yetərlidirmi? Bu sualı hər kəs hər dəfə özünə verməlidir. Əgər həyatı dəyişməyə yetərli deyilsə, onda neyləməli? Ocaq məna baxımından böyük Olaydır. İşlərimiz də çoxdur. Ancaq bizim işlərimiz nə dərəcədə sistemlidir?! Günev deyir, "34-cü il səfər ilim olub, heç bir ildə bu qədər səfər etməmişəm". Bu səfər özü yetkinlik göstəricisidir. Çünkü xalqın içinə çıxmaqdan böyük

hünər, əməl yoxdur. Nə qədər Ocağın içində gözəl işlər görsək də, xalqın içinə çıxanda bilirsən, həyatı dəyişmək olar, ya olmaz. Evində oturub nə qədər iş görürsən gör, onunla tarix yaradarsan, ancaq o, işin bir çalarıdır. Ona görə “Ailə Günü”nü məktəb düzeyinə qaldırmaq gərəkdir. “Oxu günü”ndə Amallaşmanın tutumu bəlli olacaq. Hələ Ocaq Amallaşma haqqında ürəkaçan hesabat verməyib. Amallaşma Amalı öyrənmək deməkdir. Mən Amalı öyrənməli, yaşatmalıyam. Bu iki hal yoxdursa, aqibət bütöv ola bilməz.

...İş yerimdə bir mühəndis var, dinə qarşı söz deyir, türkçülük haqqında danışır. Ömründə bunlarla uğraşmır, ancaq eşitdiyi, duyduğu, biliyinin gücü çatdığı qədər danışır. Atası öləndə ona dedim, mən gəlib “Ölügötürmə kuralları” üstə söz demək istəyirəm. Başladı ağzını sürüməyə. Qoy danışım qardaşımla-filanla. Bir dəfə türkçülükdən danışanda dedim, sən yenə türkçülükdən danışırsan?! Sən necə danışa bilərsən ki, bunları yaşamırsan. Sən dinə qarşı danışırsan, ancaq din sənin yasında söz deyir. Dedi, ixtiyarım özümdə deyil. Qorxur, birdən kimsə deyər, bu dinsizi (Soylunu) hardan tutub gətirmisən?! Dostumuz Şamil Salehin yasında söz dedik, molla mənə yer göstərdi, sağ ol dedi. Mən ona dedim, molla, rahatsız olma, buraya dinlə dalaşmağa gəlməmişəm, İnsani ruhu göstərməyə gəlmişəm...

Amallaşma Amalın böyüklüyünü, gözəlliyini dərk etmək üçündür. Kimsə dini qarşıma kötük kimi dığırlayanda mən onu qırağa qoyuram. Ancaq bütün söhbətlərimdə mən Asif Atadan danışıram. Adamlar bizi görəndə elə bilirlər, bizim söhbətimiz ancaq dini dışlamaq olacaq.

...Mən çox oxuyuram, dünyadakılarla Asif Atanı tutuşdururam. Çünkü bəzi məsələlərdə Asif Atayla, Ona qədərki bir sıra fəlsəfi baxış sistemləri arasında vergüllər fərqi var. Bəzən fərq görünmür, sanki hər şey üst-üstə düşür. Ancaq mənasına varanda görürsən, o vergül dağ qədər fərq ortaya çıxarır. Mən onu axtarıram, tapıram. Məsələn, ruh məsələsi. Hegel “Ruh” əsərində Ruh məsələsini o qədər dərin qoyur, deyirsən, Ataya qədər də var. Ancaq ruhun təyinatına gəlib çıxanda görürsən, sanki Yerlə Göy aralandı, böyük fərq görünməyə başladı. Hegel məntiqlə gəlir, ancaq görürsən ki, o, ruhu anlayışlarda

axtarır, Asif Ata İnsanın Mənində axtarır. Anlayışlar insanın iç qüdrətindən aşağıda durur.

Bir məsələni deyim, əslində Asif Ata idealizmə yad deyil. Söz yox, idealist deyil, Mütləqçidir. Üzdən baxanda Atanın dediyi ilə idealizm arasında yenə də vergüllər görünür. Dərinliyinə gedirsən, anlam fərqi yenə özünü göstərir. İdealizmin ən qədim nümayəndələrindən biri Platondur. O deyir, dünya ideyalar aləmindən yaranıb. Dünya ideyalar aləminin kölgəsidir, belə biçimlənib. Ata deyir, dünya Məna ilə biçimlənir, Məna ilə işıqlanır. Fərq nədədir? İdeya – Məna. Asif Atanın dediyi məsələlərin bəziləri öncələr də deyilib. Ancaq İdeya ilə Məna bir şey deyil, ideya insan təfəkkürünün məhsuludur. İnsan təfəkküründən qıraqda ideya yoxdur. Ancaq Məna insan təfəkkürünün məhsulu deyil. Məna dünyanın qüdrətidir. İdealizm axtara-axtara dünya ilə ideya arasında ayrılıq görür. Sonra, ideya ilə materiyanın birinciliyi, ikinciliyi üstündə materializmlə döyüşür. Asif Ata döyüş cəbhəsinə girmir, onlardan yüksəyə qalxır. Deyir, dünya Məna ilə bir bütündür. Məna dünyadan öncə ola bilməz. Dünya sadəcə Məna tələbi ilə daim dəyişir, yenilənir. Böyük bir fərq var.

Tanrı ideyası. Tanrı Allah deyil. Tanrıçılarla söhbət edərsən, onlar da deyər, Allahla Tanrı bir deyil. Tanrıda Allaha özgün deyilən keyfiyyətlər yoxdur. Yəni danışmaq, hökm vermək, kitab yazmaq kimi keyfiyyətlər. Ancaq Tanrıçını dindirərsən, deyər, siz dediyiniz Mütləq elə Tanrıdır. Ancaq ayrıntıları aydınlatsaq görərsiniz, Asif Ata ayrı bir şey deyir. Tanrı özlüyündə panteizmə dayanır, panteizmin idealıdır, Doğanın ilahiləşdirilməsidir. İslamda doğa ilahiləşdirilmir, Allah ayrıca qıraq qüvvə kimi, dünyadan ayrı bir qüvvə kimi götürülür, dünyanı yönətir. Mütləq isə Dünyanın nizamında, uyumundadır. Nə Tanrı, nə də Allahdır. Mütləq – Dünyanın özündədir, onun üstündə deyil, nə də dünyanın özü deyil...

Amallaşma bu fərqləri ortaya çıxarır. Dünya nə deyir, Asif Ata kimdir?

Həm içimizlə, həm çölümüzlə yaşayırıq. Kamilləşmə işi – özüylə döyüşdür, Özünü görmədən, tanımadan başlayan. Özünü qınama özüylə döyüş deyil, ya da çox az bir çalarıdır. Özünü qınama, ən yaxşı halda, insanın fiziki-bioloji qırağaçıxmalarına qarşı yönəlir. Özüylə

döyüş isə ruhumuza, mənliyimizə hakim kəsilən daha böyük qüsurlarla üz-üzə gəlməkdir. Hər addımda görürsən, ürəkdən sallanan xıltlar var, ürəyə əngəl olur. Var olmağa əngəl olur. Dərindən düşünmək, dərindən araşdırmaq gərəkdir.

Sonra, başqa bi məsələ – Ocaqçı ömrünün nizamı. Ocaq nə dərəcədə öz içində nizamlıdır? Bu öyrənilməlidir.

Özüylədöyüş Gündəliyi tutulmalıdır, yazılmalıdır, buna qarşı sorumluluq duyğusu olmalıdır. Ocaqçının həyat tərzinin tamğasıdır (möhürüdür) bu.

## *Uluyol-Hünər Ailə Günü*
*(25 İşıq Ayı, 35-ci il)*

Ailə Gününü Ocağın Mərasimindən sonra ikinci böyük olay saymaq olar. Ailə Günündə hər yol mən özümü Mərasimdəki kimi duyuram.

Bizim istəyimiz yaşadığımız dönəmi qapsamır, bizdən sonrakı çağları gözə alır. Genel olaraq, Ocaq kimi böyük olaylar öz çağına sığmır. Ona görə bütün çağlarda görünür, iş görür. Nəsimi də öz çağına sığmadı. Sığmazlıq – bütün çağlara sığmaqdır, bütün çağlara etki göstərməkdir. Sığmazlığın anlamı budur. Belə bir Olayın daşıyıcısı olmaq, onu yaşatmaq sıradan bir proses deyil. Bu sorumluluğu mən hər zaman öz üzərimdə duyuram. Ona görə də özümü Atanın qarşısında görürəm.

Biz Ocağa, Ataya səcdə eləmək gələnəyi ilə başlamışıq. Başlanğıcdan çoxlarımız bilmirdik səcdə nə deməkdir. Ancaq zaman-zaman Olayı yaşadıqca adamın ağlına çatır. Biz Ataya səcdə üzərində köklənmişik. Ataya səcdə bizə nə verir?! Ya da mən niyə Ataya səcdə qılmalıyam?! – Ataya səcdə qılmaq dünyaya, həyata, insana misilsiz bir inam bəsləməyimi ifadə edir. Dünyaya inanıram. Dünyaya inanmasaydım Ataya niyə səcdə qılırdım? Müsəlman dünyaya inanmır, ona görə də o, fövqəldünyaya səcdə qılır. İnsana səcdə qılmır. İnsandan qıraqdakına, göydəkinə səcdə qılır. Dünyaya inanmır,

həyata inanmır, heç insana da inanmır. Dünyanı fani sayır, həyatı keçid sayır. İnsanı fani dünyada yaşayan fani bəndə sayır. Həm bəndə sayasan, həm də necə səcdə qılasan?! Burada inana bilməzsən. Mən Ataya səcdədə dünyanı tanıdım, özümü tanıdım. Həm də dünyaya inandım. Ata mənə dünyanı göstərdi, dünyaya inandırdı. Ata məni öz qanadlarında dünyanın mənasına çatdırdı. Mənim səcdəmin anlamı odur. Heç bir dində dünyaya inanmırlar. Ona görə də insana səcdəli münasibət yoxdur. Bizim Ataya səcdəli münasibətimizə ağız büzürlər, deyirlər siz bütləşdirirsiniz. Bunu deyənlər dünyaya inanmayanların cərgəsində olanlardır. Bu, toplumla bir qom Ocaqçının arasında fərq yaradır. Bu fərq bir gələcək deməkdir, göy-yer arası deməkdir. Bu fərq insana inam, hünər, cəsarət verdiyi dərəcədə onu sorumlu edir. İnsana inanmayanlar bizim səcdəli münasibətimizi anlamazlar. Dünyaya inanmayanlar, Dünyanı fani sayanlar bizim səcdəli münasibətimizi anlamazlar. Ona görə bizim ruhani sorumluluğumuzun özülü-özəyi var.

Həyatı siyasət yönətir, Dünyanı siyasət tarazlayır. Siyasətdə şəxsiyyət, ona pərəstiş edəni aldadır. Ruhaniyyatda aldatmır. Siyasətdə vəd verirlər ki, məni hakimiyyətə gətirin, bütün nemətləri sizə verəcəm. Sadə insan ona hansı ümidlə baxır, yəni düşünür ki, hakimiyyətə gələndən sonra dəyişiklik edər, mənə firavan həyat gətirər, mənə ədalət gətirər, problemlərdən çıxaram, özümü insan kimi bilərəm. Hakimiyyətə gələndən sonra yerə-göyə sığmayan hərislik baş qaldırır, insanların arzularını gözündə qoyur, zəbt edir. İnsanların arzularına dönüklük (xəyanət) edir, xətt çəkir hər şeyin üstündən. Tükənməyən hərislik. Yazıq insan. Tükənməyən ümid, tükənməyən dönüklük. Əli səlahiyyətə çatan kəs(lər) bütöv bir dövləti özünün qəniməti sayır. Xalqa gələcək, mədəniyyət qurmalı olan, xalqı təmsil etməli olan kəs dövləti özünün qəniməti sayır. Bütün dəyərlərin hamısı məhv edilir, bütün dəyərlər oyuna çevrilir. Bizim döyüşümüz buna qarşıdır. Biz dünyaya qurtuluş yönü veririk. Bunu Asif Ata yaradır. Ataya səcdə buradan qaynaqlanır. Dünyaya inam dünyanı qurtarmaq sorumluluğu yaradır. Ona görə münasibətimiz qutsaldır. Mən ona səcdə qılıram, bununla da bütün dəyərlərin mənasını anlayıram. Səcdə müqəddəslik yaradır, bu o deməkdir ki, mən dəyərlərə

qəsd edə bilmərəm, dönüklük edə bilmərəm. Mən dəyərlərin qədrini bilməliyəm.

Belə halları yaradan ürəkdir. Bizim insana yanaşmağımızın əsasında ağıllı münasibət durmur, ürəkli münasibət durur. Ağıllı münasibət tükənən münasibətdir. Ürək sənin haqqında nə vaxt danışır? Məhəbbətli olanda, sevdalı olanda. Sevdalı ürək çox həssas, kövrək, incə olur, ancaq çox möhkəm olur, yaşarı olur. Dünyanın qurtuluşu kövrək ürəklərdədir, incə ürəklərdədir, ürəksiz möhtəşəm ağıllarda deyil. Dünyanın məhvi var möhtəşəm ağıllarda. Ancaq dünyanın qurtuluşu kövrək ürəklərdədir. Ocaq o sevdalı ürəkləri yaradır, onu bəsləyir. Dörd divarın içində o proses gedir, sonra bu divardan qırağa çıxır.

Biz, millət olaraq, yad bir dünyabaxışın etkisində yaşayırıq. Həyatımızın nizamı ondan asılı duruma düşüb. Dövlətimizin xalqa münasibəti ondan asılı duruma düşüb. Üzdə bu görünmür. Çünkü insanı yönətən (idarə edən) ideya, ya da ideologiya insanın içində oturuşmuş köləlikdən yapışır. Dövlət də öz vətəndaşını onun içindəki köləliklə yönətir. Bizim bütün milli obrazlarımız uçub-dağılıb. Dində bütün obrazlar ərəb millətinin bireysəl özəlliklərini daşıyır. Allah sözü də, Allahın daşıdığı keyfiyyətlər də ərəb millətinin keyfiyyətlərinə stimul verir. İnsanla Allah arasında bağlantı quran mələklər həmin obrazlardır. Hamısı ərəb kimliyini ifadə edir, ərəbin özəlliklərini (xüsusiyyətlərini) daşıyır. Türkün obrazı hanı? Artıq daşıdığımız İnamda həssas, sevdalı ürəklər yaşayır, gəlişir, həmin milliliyi təsdiq edir. Dünyabaxış məsələsi belədir, insanı yarada-yarada milliliyə çıxır. Milləti yaratmaq üçün insanı yaradır. İnsanı yaratmasa, millət yoxdur. İnsanın obrazında millətin özəllikləri bəlirlənir (xüsusiyyətləri müəyyən olunur). Dünyabaxış bunu verir. Asif Atanın yaratdığı obrazlar elə bir düzeydə qurulur ki, Milliliyi var edir, başqa sözlə, milliliyi bəşəriliyə yüksəldir. Ərəb bəşəriliyi endirir, milli özəlliklərində sınırlaşdırır (məhdudlaşdırır). Asif Ata türkün milli özəlliklərini öz obrazları araçılığı ilə bəşərləşdirir. İnsanın kamilliyi haqqında dediyi bütün hikmətlər onu sübut edir. Özüylə döyüşün həqiqəti onu sübut edir. Mənim Ataya səcdəli münasibətim o həqiqətə dayanır.

Nurtəkin haqqında bir neçə söz demək istəyirəm. Onun Ocağa gəlişinin 17-ci ilidir. 17 il az bir vaxt deyil, əqidə daşımaq üçün. Əqidəli olmaq – Əqidənin özülündə dayanan həqiqətə vurulmaq deməkdir. Bu ömür yolunda Nurtəkini necə izlədim?! – Ocağa gəlişinin birinci ilində Atanı itirdi. İlk günlərində, çoxlarında olduğu kimi, Nurtəkində də sadə görünən, üzdə görünməyən proseslər gedirdi. Məsum bir qız uşağı, hər şeyə heyrətlə baxırdı – Ataya, Ocağa, Ocaqçılara. Bu heyrətli münasibət o demək idi ki, Nurtəkinin içində məsum bir "uşaqlıq" vardı. Arılığın görsənişləri idi onlar. Arı adamın sadəlövhlüyü onu uşaq göstərir. Ancaq Atanın ölümü ilə onun sarsıntısı başladı. Ata sağ qalsaydı, bilmirəm, Nurtəkin müsbət yöndən bu dərəcədə dəyişərdimi?! O sarsıntı onun ömrünün özülü oldu, dirək oldu sonrakı ömrünə, o çağdan bu çağa kimi. Ocaqda ayrı-ayrı hallar oldu, münasibətlər gərginləşdi. Ancaq İnam onun əlindən tutub bu günə çıxardı. Hər bir tələb Nurtəkin üçün yenilik idi. Ağlında, sevgisində, Ocağı anlamasında yenilik idi. Bu yeniliklərlə dola-dola görüşlər keçirdi. Görüşlər təşkil elədi, Azərbaycanın rayonlarını gəzdi. Bakıda, Sumqayıtda i.a. Tükənməyən bir eşq, tükənməyən bir enerji. Atanın İnamının, Baxışının harayını çəkdi, üzləşdiyi çətinliklər ona məktəb oldu. Üzünə bağlanan qapılar da ona başqa yönlər açdı. Sığmadı. Dayanmadı, üzünə bağlanan qapılar inamını qırmadı. Ataya inamı, Atanın Baxışına inamı o qədər oturuşdu ki, onu idraki cəhətdən böyütdü, yetkinləşdirdi. Nurtəkin mənə də qanad idi. Ocaqda ən çox Nurtəkinə güvəndim, ona söykəndim. Bu hal, bu ömür, bu münasibət Ocaq tarixində gözəl bir örnəyə çevrilir. 17 il quran, qurulan illər oldu, gözəl, ruhani illər oldu. Bu gün də Nurtəkinin işləri davam edir. Bu xətt qurulub. Nurtəkinə ruhani mənada ölüm yoxdur, bitib, təsdiq olunub. Qutlayıram.

### *"Ulufərəh"in Ailə Günü*
*(21 İşıq Ayı, 35-ci il)*

Bütün dünyanın döyünən ürəyi deyilən bir söz var, biz o ürəyi qoruyuruq, bax, bu damın altında. Dünyanın hər yeri cirkab selinə qərq olub, çünkü dünyanın hər yerində siyasət oyunu söz deyir, həyatın nizamını siyasət oyunu quraşdırır. Biz isə ruhaniyyatla uğraşırıq. (Din ruhaniyyatı da siyasət oyunudur). Dünya siyasətlə əyilir, biz isə onu ruhaniyyatla qorumağa çalışırıq. Bu gün gerçək dünyanın gedişi bizdən asılı deyil. Bizdən Gələcək asılıdır. Biz gələcəyə yön veririk. Ona görə də biz öz yaşamımızda, yerişimizdə İnama əsaslanırıq. Mən insana inanıram. Mən əyilən insanın içindəki insanilik olanağına inanıram. İnsan içindəki insanilikdən yan keçib, ona görə əyilib. Ancaq mayallaq aşanın içində səcdə olanağı var. Mayallaq aşanlar dünyanın üzdəki gedişi ilə uğraşır, biz ruhaniyyata söykənib dünyanın içi ilə uğraşırıq. Dünyanın əyilməyinin, söz yox, bəraəti yoxdur. Ancaq Dünyanın, İnsanın mahiyətində xeyir var. İnsan üzünü xeyirə tutanda var olur. O xeyirə görə var "mən"lik. Deməli, insanın qurtuluşu ordadır. Bəs insanların başlarına açılan oyunlar nədir? Bir vaxtlar insanlar Doğa olayları qarşısında aciz qalırdılar, allahlar qonusu, doğa qonusu, zaman-zaman gəlib çıxır bugünə. İndi bu gün elm gəlişib, insan Doğa olayları qarşısında aciz deyil. Bəs insan nəyin qarşısında acizdir?! – Gəlişmənin (tərəqqinin, inkişafın). Gəlişmə İnsanlıqdan qıraqda getdiyinə görə həyatın başına min bir oyun açır. Elm, texnika elə bir oyun açır ki, insan çaşbaş qalır. İnsan Elmi-texniki gəlişmənin qarşısında acizdir. Biz ruhaniyyat deyirik, onlar elm-texnika deyir. Ancaq biz ruhaniyyatda israr edirik, çünkü Asif Ata bizə israr etmək ruhu verib. İnsan yiyəsi olduğu elmin qarşısında acizdir. Acizlikdən səni ruhaniyyat çıxarda bilər. Biz onunla uğraşırıq. İndi dünyada heç kim dinə inanmır, vicdana inanmır, allaha inanmır, gələcəyə inanmır. Bəs yaxşı, sənin texnikan nə deməkdir?! Elm, texnika insanlığın inamını məhv edir. Yavaşıt onu, sənayeləşməni azalt. Bunu eləməsə, tam fəlakətə gedir. Biz demirik, bununla dünya batacaq. Biz bədbin deyilik, fəlakət son

həddə çatanda İnsanlıq Asif Atadan yapışacaq. Ancaq İnsanlığın fəlakət içinə yuvarlanmasını seyr etmək ağırdı.

Bəzən sözü deyirsən, insanların ağlına batır, ancaq deyir, bu mümkün deyil axı. Mümkün deyil deyən inanmır, bəs bunu söyləyən, sən özün inanırsanmı?! Dünya siyasi oyunların əlində çaşıb, mən isə dərinlikdən baxıram, deyirəm mümkündür. Üzdəki həşirlər bir köpükdür. İnsanın olanaqlarını qaytar ona, o köpüklərdən yüksəyə qalxacaq. Sən sözünü de, öyrət, zaman-zaman xalqın qulağı dolacaq. İnsana söz deyirsən, o səninlə razılaşmasa da, Doğru Söz şüurunun altına yeriyir. İnamı vermək üçün heç kimlə qovğa eləməyə gərək yox. Qovğada sən onun yalınlığını qoruyursan. Asif Ata görüşlərində şifahi sual istəmirdi, yazılı verin deyirdi. Ata deyirdi: "Mitinqə bənzəməsin görüşümüz". Yəni mən sənə Söz deyirəm, get düşün. Qayıdıb mənim qarşıma nağıl qoyma, sənin qoyacağın nağılları mən ötmüşəm. Mənim sənə dediyim həqiqətdir, bu haraydır. Sənin bugünün halına uyğun dediklərinə gərək duymuram. Ruhaniyyatın dediyi budur. Ruhaniyyat dərin məsələdir. Ruhaniyyat ağacı suvarmaqdır, bağbanlıqdır. Ruhaniyyat göy olayıdır. Göylə uğraşanın inamsızlığa haqqı yoxdur. Ocaq tərki-dünya olayı deyil, ancaq dünyaya qarışmayan, dünyadan ayrılan, dünyadan üstün olan, dünyaya gərək olan Olaydır. Biz sufilər kimi tərki-dünya deyilik. Onlar gedişlə mübarizə aparmazdılar, ancaq biz həyatın gedişini dəyişmək istəyirik.

Göylü deyir, evin içinə gedirəm, qeybətdən başqa qonu eşitmirəm. Çünkü məsələ tərbiyədən artıq keçib. Məsələn, belə götürək, 19 yaşında iki gənci evləndirirsən, bunların bugünkü həyatda gördüyü nədir, şou biznes. Ha ona de ki, şou biznes mədəniyyətsizlikdir. Dediyini onun qulağı eşidir, ancaq içinə enmir. Çünkü onun gördüyü budur, onun üçün həyat budur. Hamı belə yaşayır. Uşaq belə bir dünyaya doğulur, bunları görür. Deyirsən gördüklərin mədəniyyətsizlikdir, soruşur, bəs sənin dediyin əsil mədəniyyət hardadır, ay ata, ay ana? Ona görə indi tərbiyədən böyük işlər gərəkdir. Ocaq dünyası həmin böyük işlər üçündür. Dünyadan fərqlilik, ayrılıq da odur. Sən toplumun yaşamadığını yaşamalısan. Bax özünə doğmalıq burdan başlaya bilər. Hamı toplumun

tərbiyəsini daşıyır, barmağın sayı qədər adam yeni yön yaradır. Azdır, hələ az olacaq, çünkü sənin Milli Ruhaniyyatın yoxdur. Milli Ruhaniyyatın yoxdur ki, qocanı yerinə qoysun, ananı yerinə qoysun, qardaşı yerinə qoysun, nizam yaratsın. Heç nə yerində deyil. Asif Ata hər şeyi yerinə qoymaq üçün gəlib. Biz dünyadan ayrı deyəndə də bunu gözdə tuturuq: toplumun içinə gedirik, ancaq toplumun münasibətinə qarışmırıq, qeybətinə bulaşmırıq, gedişinə bulaşmırıq. Ocaqda ayrı cür köklənmişik, yoxsa məhv olarıq. Biz münasibətlərdə dünyadan ayrıyıq, eyni zamanda öz sözümüzü də deyirik. Sən get orada öz qurallarımızı oxu, 15 adam qulaq assın. Yasin gedib babasının sonevi (qəbiri) üstündə Ocaq qurallarını oxuyur, 20 adam da ona qulaq asır. Təklər qaydaları verir, insanlar da getdikcə alışır ki, bu Asif Atanın dediyidir, milli-insani olanları verirlər. İnsanların gördüyü milli bir şey həm də bəşəridir, çünkü millisiz bəşər yoxdur. Milli olan bəşəridir. Milli olmayan bəşəri deyil.

Xalqın ruhuna gileyçilik hakim olub. Hətta yaxşı bir şeydə də pis axtarırlar. İnsanlarda artıq hər yerdə, hər şeydə bir pis axtarma halı var. Pisin bəraəti yaşayır toplumda. Mən yaxşıda yaxşı axtarıram, yamanda yaman. Ancaq yamanda da yaxşını görməyə çalışıram ki, böyüdüm. Asif Ata mənə bunu deyir. Ocaq o deməkdir.

Asif Ata evinə gələn hər kəsin üzünə qapı açırdı. Mən də rahatsız olurdum, deyirdim Ata, qapını açmamışdan deşikdən bax, bəlkə Atanı öldürməyə gəliblər. Ata deyirdi: “oğul, mən Ocağıma Evladlar qəbul edirəm. Mən sizə inanıram. Sizin içərinizdən biri Ataya su yerinə ağu verə bilər. Ata onu içəcək”. Yəni demək istəyir ki, Ata İnam yaradıb, Ata İnamçıdır. Bu o deməkdir ki, bütün dünya inamsızlığa qərq olanda mən İnam yaratdım. İndi özüm inamsız ola-ola, o İnamı bu dünyaya necə verə bilərəm?! Mən inanıb o ağunu içərəm, ancaq İnamımla içərəm. Mən ölərəm, ancaq İnamım ölməz. İnamım dünyaya dərs deyəcək. Bax, bu, peyğəmbərin gətirdiyi ölçüdür. Məni də həyat məsələlərində çox aldadıblar. Mən inanıram, o da qullanır. Mən içimdə acıma duyğusundan başqa duyğu olmayana qədər böyüməliyəm, kamilləşməliyəm. Dünya da o vaxt dəyişir. Mənim üçün dünyanın dəyişməsi öz içimdən başlayır. Asif Atanın İnamı bu deməkdir.

Ocaqçı yaşamını izhar edir, burada sənin öz duyğularını tanımağın dünyayla bağlı məsələdir. Bu, dünyanın dəyişilməsi üçün yaradılan məktəbdir. Dünya bireydən başlayır. Ona görə də amallaşmada bir az da dərinə getmək gərəkdir. İdeal nədir, onu necə görürəm? Məncə, bu məsələnin araşdırılmasına getmək gərək. Xeyirin gerçək durumu, bizə çalarları ilə etkisi, ədalət prinsipi. Bunların öz anlayışlarından qullanıb dərinə getmək olar. Biz duyğuları toplumda deyil, özümüzdə tanımalıyıq. Bütün dünya bulaşıb gedir, o selin içində yıxılmamaq, dayanmaq özü hünərdir. Onun içində dayanırsan, ona bulaşmırsan, üstəlik mübarizə aparırsan, söz deyirsən, dəyişmək istəyirsən. Bizim işimiz budur. Ocaq Ailəsi bu yöndə günbəgün dəyişməlidir. Yükümüz böyükdür, fərəhimiz ona görə çoxdur!

**(Müqəddəs Oxuma:** Atanın "Gerçəkliyi ötmək" kitabı oxundu Soylu Atalı açıqlama verdi).

Bütün məsələlərlə bağlı dinlərdə güzəşt var. Ancaq Atada güzəşt yoxdur. Nədə güzəşt ola bilər?! Tutaq ki, mən Ocağa nisbi keyfiyyətlərlə gəlmişəm. Ata mənim içimdəki olanaqlara inanır, məni böyüdür. Mənim qüsurumu gözümə soxmur. Buna güzəşt demək olarsa, əslində bu hal böyütmədir. Dinlərdə güzəşt odur ki, insan bəsit ola bilir, qoy olsun, təki allaha ibadət eləsin. Ancaq o başa düşmür ki, allahı tanımaq allaha quru ibadətdən keçmir. İnsanın necə var, o cür qalması ödənilir, təki ibadətlə uğraşsın. Atada bu yoxdur. Ata deyir, ya hər şey, ya heç nə.

Biz Ataya səcdə qılırıq. Ataya səcdə şəxsiyyətə pərəstiş deyil. Bir var Stalin şəxsiyyətinə pərəstiş, bir də var Ataya səcdə. Stalin şəxsiyyətinə pərəstiş o deməkdir ki, bütün toplumun mən'inin üzərində Stalinin mən'i ifadə olunur. Hamının mən'i heç, Stalinin mən'i hər şey. Ancaq Asif Ataya səcdəmdə mən böyüyürəm. O məni təsdiq edir, o mənim içimi üzə çıxarıb şəxsiyyətə yüksəldir. Bu, özünü başqasında tapmaqdır. Asif Ata deyir insanın insana səcdəli münasibəti olmalıdır. İnsan hər şeyə səcdə qıldı. Bayrağında bütün heyvanları canlandırdı. Biz isə bayrağımızda insanı qaldırırıq. Bizim içimiz insanilikdir. Carımız "İnsanlaşın – İnsanlaşdırın"dır! Bu gün mənim üçün Asif Ata obrazlaşmış insandır. Kamilləşib, özünü təsdiq eləyib. Mən bayraqda mücərrəd insan şəkli qoya bilmərəm. Asif

Ataya münasibətdə mən əksilmirəm. Biz Asif Ataya münasibətimizlə ayrı-ayrı insanları kiçiltmirik, əksiltmirik. Tərsinə, onları böyüdürük. Asif Ata onların yolunda əngəl deyil, onların yolunu açır. Hər bir şəxsin özündən yüksəyə qalxıb, şəxsiyyət olmaq olanağı var. Asif Ata nisbiylə barışmır, əgər barışsaydı, onda deyərdi, mənə münasibət hər şeydir, sənə münasibət heç şey. Asif Ata Mütləq münasibət öyrədir: Dostluq varsa, mütləq olmalıdır, səcdə mütləq olmalıdır, atalıq mütləq olmalıdır. Mən nisbi olum, müti olum, sənə səcdə edim, Ata onu qəbul eləmir. Nisbi sən mənə gərək deyilsən deyir. Sən bütöv, kamil mənə gərəksən.

Ata deyirdi, "mən Atayam, Atanın əlini öpürsünüz. Ağanın əlini öpməzlər". Ağanın içində fəzilət yoxdur, müqəddəslik yoxdur...

Mən əl öpməklə içimdəki müqəddəsliyə cavab verirəm. Səcdə insanın özünə çatmasıdır. Bütövləşmə, əsilləşmə yoludur.

### *Ocaq tədbirlərindən birində*

*(30 Şölə Ayı, 35-ci il)*

Bütün dünya hər şeyində dəyişkəndir, Ocaq dəyişkən deyil. Ocaqda dəyişiklik var irəliyə doğru, gəlişməyə doğru. Dəyişkənlik yoxdur. Dəyişkənlik gah elə, gah belə deməkdir. Ancaq Ocağın ölçüsü birdir – Mütləqilik, ya hər şey, ya heç nə. Ona görə də Ocaqda dəyişkənlik yoxdur. Belə götürəndə fiziki baxımdan Ocaq dünyanın bir nöqtəsidir. Həyatın, dünyanın anlamı açısından götürəndə isə Ocaq dünyadan həm fərqli, həm də üstündür. Asif Ata yaradıb o üstünlüyü. Bütün dünya əslində insansızlıq girdabındadır. Bütün dünya siyasət oyunlarının girdabındadır. Siyasət normal uyum yaratmır. Siyasət dünyanı tapdalayır. Burada "bacarana baş qurban" prinsipi əsas rol oynayır. Ona görə də həyat uğrunda çox amansız mübarizə gedir. Həyat uğrunda mübarizənin çeşidləri var: maddiyyat uğrunda, hakimiyyət uğrunda. Bütün bunlar İnsan kimi yaşamaq istəyən üçün deyil. Ocağın bireyləri fiziki olaraq toplumdadır, yəni biz tərki-dünya deyilik. Ancaq toplumun köntöy prinsiplərinə də tabe deyilik. Biz bu yaşamı illərnən yaratmışıq. Ocaqda İnsana münasibət

var. İnsana səcdəli münasibət əsas götürülür. Bir sıra adamlar bunun mahiyətini kəsdirmir. Onlar hesab edir ki, biz sadəlövhük, dünyanın gedişindən soraqsızıq. Əslində isə bütün dünyanın gedişi Asif Atanın ruhani xəttinin altındadır. Sovet dövrü uzaqda qalmayıb. Sovet dövrünün ədəbiyatının motivlərinə, obrazlarına baxın. Səməd Vurğunun Savalanı kim idi – Buldozerçi. Əmək cəhbəsi yaranır, ailədən danışanda belə əmək cəbhəsi obrazlaşır. Ailə yoxdir, insanların münasibəti yoxdur. İnsanların münasibəti epizodik var. Əmək hər şeydir, bir xətdir gedir, təssərüfat, kolxoz... Bugünlə o günün fərqi nədir bəs? Millilikdən danışırsan, deyir beynəlmiləllik. Deyirsən insanlıq, deyir nə insanlıq, komputer getdi, sən qaldın geridə. Texniki gəlişmə canavar kimi insanlığı alıb udur. Toplumda bir qurum göstərin ki, bəşərilik adına, millilik adına tədbir keçirir. Çağdaş ədəbiyatın qonularını mənə deyin, heç birində Millilik, bəşərilik yoxdur. Asif Ata hər şeyi yerinə qoymağa gəlib. Nə ilə?! Yeni dünyabaxışla. O deyir ki, mənim Ocağımın Evladı Kantı bilməyə bilər, ancaq o, özcə milli ruhuyla, milli sevgisiylə elə davamlı ola bilər ki, xalqın içində qlobal dəyişikliklər yarana bilər. Hökm deyil, buradan gedib dünyanın o başındakını biləsən. Mən ruhun tələblərini bilirəm, xalqın ruhunu tanıyıram. İnsan nəylə yaşayır, nəylə var olur, bax o əsasdır. Bu günkü insanlar elə bilirlər, İnama, Peyğəmbərliyə gərək yoxdur. Bütün zamanlarda gərək var. Gəlin baxaq, 7-ci yüzil, 1-ci yüzil, ya da 21-ci yüzil. Bunlar arasında bir fərq axtaraq. Önəmli bir ayrıntı tapa bilməyəcəyik. 7-ci yüzildəki geridüşüncəli adam bu gün texniki gəlişmə çağındakı geridüşüncəli adamdır. Adamların üzündən gerilik, köhnəlik yağır, çünkü mənəvi, ruhani dəyişiklik getməyib. Əsilləşmə baş verməyib. Heyvanlaşma baş verib. İnsan instinktlərin tabeliyində yaşayır. Özünü içəridən dəyişməsən, millətin yiyəsi olmayacaq. Öndəri hardan alaq? Ağsaqqalı Rusiyadanmı çağıraq, Avropadanmı çağıraq? Xalqın içində yaranmalıdır bu. Xalqın içində yaranan – xalqın öz prinsipləri əsasında formalaşandır. Bu xalqın etnik kimliyi var, bu gün biz onlardan əl çəkirik. Rusvari yaşayırıq, ərəbvari yaşayırıq, ingilisvari yaşayırıq, öz etnik mahiyətimizlə yaşamırıq. Ona görə də küçəmizdən tutmuş geyimimizə qədər hamısı antimillidir, antiinsanidir. Bunun tərsini də deyirəm. Yəni əgər Rus

özünün mahiyətindən əl çəkib Türkvari olarsa, deməli, o antiinsanidir. Özünəməxsusluğu itirmək Bəşəriliyi itirməkdir. Hər xalq özünəməxsusluqla Bəşəridir. Çox böyüyəm, az böyüyəm, bu mənəm. Mənim içimdə bir mahiyət var, tələb var, məna var. Ona görə Asif Ata İnsana sabitlik vermək istəyir, Dəyişkənlik yox. Dəyişkənlik ayrı şeydir, dəyişiklik ayrı şey. Dəyişiklik odur ki, daim gəlişirsən, bir yerdə qalmırsan. Dəyişkənlik isə gəlişmə deyil, gerilikdir. Yəni gah elə olursan, gah da belə. Gah ədalətli olursan, gah ədalətsiz. Bununla İnsani gəlişmə (tərəqqi) olmaz. Dəyişməzlik məsələsi odur ki, dəyişdikcə sabitləşirsən: həqiqətsevərlikdə sabitləşirsən, vətənsevərlikdə sabitləşirsən, bəşərsevərlikdə sabitləşirsən. Asif Ata bunu verir, bu keçirdiyimiz tədbirlərin də mahiyəti əslində budur – İnsanın özünəxaslığının qorunması, əslində milli özünəxaslığın qorunması...

Bu gün seçki olacaq deyə bir çaxnaşma yaranıb ölkədə. Hər kəsin baxışı burada. Kimin kadrı gələcək deyə düşünürlər. Bizim, millət olaraq, dövlət olaraq, içimizdə iş görən başqa əllərdir. Dünya bizim varlığımızı saya salmır. Toplumumuz da elə düşünür ki, ya biz dünyadan ayrılmalıyıq (təcrid olmalıyıq), ya da dünya güclərinin himayəsində (basqısı altında da demək olar) olmalıyıq. Bu iki yoldan başqa düşünə bilmirlər. Deməli, bu iki yoldan da birinci (ayrılmaq) mümkünsüzdür, qalır ikinci, güclərin himayəsində, ya da basqısı altında olmaq. Bəs üçüncü yol yoxdurmu?! Üçüncü yolu Asif Ata deyir...

Bu gün olduğu kimi Azərbaycan tək olmayıb. Amerikanı müttəfiq elan elədi, Rusiyanı müttəfiq elan elədi, zaman-zaman biz çox yazmışıq bunları. İqtidar deyir, rusla bizim heç bir sorunumuz yoxdur. Sorunumuz yoxdur deyə-deyə Sabah böyük bir faciə ilə üz-üzə gəlirik. Rus imperiyası dövlətimizi basqı altında saxlayır. Onun kadrları oturub hakimiyyətdə. Bir kəsimi də Amerikanın. Deyirsən müttəfiqəm Amerika ilə. Amerika səni müttəfiq sayar?! Hansı gücün var, xalqla hansı birliyin var ki, Amerika səni özünə müttəfiq saysın?! Amerika siyasi gücdür, o səni qulluqçu sayır. Əgər xalqın içində millimənəvi keyfiyyətlər oturuşmayıbsa, onda biz heç bir vaxt milli birlikdən danışa bilməyəcəyik. Biz heç bir vaxt hakimiyyətimizin özülünün milli keyfiyyətlər əsasında qurulmasından danışmayacağıq. Kadr gərəkdir, şəxsiyyət gərəkdir, siyasi lider gərəkdir. Bu isə Milli

Çıxarlar əsasında yetişə bilər, Amerikanın cibinə girməklə yarana bilməz. Rusun adamı mənim milli kadrım ola bilməz axı.

Bizim Güneyli-Quzeyli böyük olmaq şansımız var. Nə vaxt böyük ola bilərik?! O taylı-bu taylı milli iş getsə. Gərək biz alınmayaq, satılmayaq. Bəziləri düşünür ki, seçkilər yaxınlaşır, indi durub milli kadr yetişdirmək haqda düşünək?! 200 ildir biz yanlışları yeniləyə-yeniləyə gəlirik. Dərs götürmürük fəlakətlərimizdən. Oynadırlar bizi. 200 ildir oynaya-oynaya gəlirik. Buna hansı nöqtədəsə "dur" demək gərəkdir. "Dur" deməyi, milli baxışları oluşduran İdeya bacarar. Mədəniyyəti də, siyasəti də, hamısını Dünyabaxış oluşdurur. Hamısına özül verir, prinsip verir. Onda yaranır milli ideolojilik. Siyasi prosesi ələ almalıdır milli kadrlar, hanı o qüvvələr?! Bu gün o yoxdur heyif ki. Bu gün siyasi spektr çox çelişkilidir. Bu gün bir-birlərini sevməyən adamlar bir araya gələ bilmirlər. Çünkü onların içi bir deyil. Hamısının yaxası başqasının əlindədir. Onların çevrəsi də qaragüruhdur. Ayrı-ayrı arı insanların ləyaqətinə mən heç vaxt kölgə salmamışam. Ancaq onlar azdır, etkisizdir. Az-çox etki göstərmək olanaqları olanlar isə bir-birini gözü götürməyənlərdir. Budur ölkənin durumu, ağrılıdır, faciəlidir. Milli birliyi ortaya qoyun, görün dünya necə hesablaşır sizinlə. Amerika birini, Rusiya birini satın ala bilməsə, görün birlik yaranır, yoxsa yox! Onda yavaş-yavaş Azərbaycanla yandaşlıq məsələsi gündəmə gələcək. Milli birlik yaranarsa, Güney Azərbaycanla da bütövləşmək məsələmiz gündəmə gələ bilər!

### *"Ailə Günü"ndə deyilmiş söz*

*(29 Şölə Ayı, 35-ci il)*

Biz bir qayda yaratmışıq. Daha doğrusu, Asif Ata yaradıb. Mərasimin, Ailə Günü toplantılarının genel məzmunu, hətta biçimi oxşardır. Ancaq bizim istənilən törənimiz toplumsal toplantılardan fərqlidir, məzmun oxşarlığı da yoxdur. Bu qayda bizim qaydamızdır, bizi ifadə edir. Biz nəyə köklənmişik, nəyi vermək istəyiriksə onun qaydasıdır, onun ölçüsüdür. Burda dayanmaq, doğrusunu eləmək,

doğrusunu demək olduqca ciddi sorumluluq tələb edən bir şeydir. Həyatda hər şey dəyişilir. Dəyişilməyə meyillidir. Zaman hər şeyi dəyişir, zaman əbədiliyin qırılan aşamalarıdır. Ona görə hər şeyi dəyişir. Zaman hər şeyi dəyişməsə, özü yerində durar. Ancaq bir var zaman dəyişir, bir var zamanı dəyişəsən. Sovetlər dövrünün öz həyat yönü vardı, ədəbiyatın, sənətin standart yönü vardı. Qəhrəmanlar obrazı yaradılırdı – standart. Hətta ailə qonusu yaradıcılığın süjet xəttini təşkil edəndə belə orada istehsalat qabarırdı. Bütün insanlar sanki əmək yarışına girmişdilər. Bütün insanlar varlığını hamının baxışında olan əməkdə axtarırdı, kolxozda ifadə edirdi. Beləliklə də, obrazlar qulluqçu səviyyəsinə endirilirdi. İnsan tanınmırdı, insan açılmırdı, insanın özünü həsr elədiyi, qulluq elədiyi açılırdı. Əmək, istehsalat fetişləşdirilirdi. İnsan ona qulluqda aktiv görünürdü, mahiyəti baxımından insandan heç nə qalmırdı. Bu gün elmi-texniki tərəqqinin tələbləri əslində sovet dövrünün istehsalat tələblərindən heç nə ilə fərqlənmir. Bu gün də qonu kompüterdi. Hər kəs ona can atır. Hər kəs orda yarışır, hər kəs orda özünü ifadə eləməyə can atır. Başqasını da qınayır orda olmadığına görə, indi texnika yüzilidir sən nə işlə uğraşırsan deyə suçlayır i.a. Beləliklə, zaman dəyişilir, ancaq əslində bir çox şeylərin təkrarında dəyişilir, yeniliyə çatmır, çatdırılmır. Bəzən adamlar bir təşkilat yaradır, ancaq uzun çağlar orda qala bilmir, başqa təşkilat yaradır. Bizim heç kimi yamsılamamağımız, heç kimə bənzəməməyimiz əslində insani tələbdən doğur, hansısa fərqlilik yaratmaq gedişi deyil bu. Ona görə Asif Atanın ömrü, hər anlamda, çağaşırı öyrənilməlidir. Bu öyrənmədən bəhrələnmək, bu öyrənmə ilə dolmaq gərəkdir.

Biz çox çətinliklər keçmişik, heç kim, heç nə bunu dana bilməz. Bizim yetdiyimiz məsələlər var, bir də yetməli olduğumuz məsələlər var. Ona görə daha çox araşdırmalı, daha çox öyrənməliyik. Yetdiyimizi izhar eləməliyik, yetməli olduğumuzu təhlil etməliyik, açmalıyıq. Onda biz birey olaraq qurula-qurula yaşayacağıq. Biz doğrudan da düşünməliyik: Amalın bütün tələblərinə hazırıq, yoxsa bəlli tələblərinə?! Bəzən gerçəkliyin tələbi ilə yanaşanda Amalın tələblərilə yaşamaq rüsvay yaşamaq kimi görünür. Gerçəkliyin baxımından rüsvayçılıq, insanlığın baxımından səadətdir. Meşədə heyvan-

larla uğraşan Məcnun öz dövründə rüsvay idi, ancaq indi o ölçüdür, idealdır. Sevgi idealıdır. Bu gün biz Məcnuna bənzər hallar yaşaya bilərik, ancaq gələcəyin gözündə ölçü ola bilərik. Bu günün baxışı ilə hər şeyi ölçsək, onda hər şey bu günə bənzəyəcək. Heç nə sabaha getməyəcək, mənəvi gələcək qurulmayacaq. Biz bugünün ölçüsü ilə deyil, gələcəyin qurulması ilə ölçürük hər şeyi. Asif Atanın əlindən tutmaq – bizə quran, yaşadan gələcək verir. Biz çox şey itirə bilərik fiziki mənada. Atanın o zaman pulu, qazancı olmurdu. Sonda da ailəsi üçün çox asan oldu Atadan ayrılmaq. Əslində Atanın hər şeyi vardı – istedadı, qələmi i.a. Ailə isə ondan gerçək zənginliklər istəyirdi. Mən düşünürəm, Atanın durumunda ola bilərəmmi?! Mən işləyirəm, filan. Ancaq işim olmasa, ailə məni yalqız qoyardımı?! Söz yox, əgər quruluş sovetvari olsaydı, Atanın işini apardığım üçün məni işdən çıxarardılar. İtirmək, itirilmək gerçəkliyin baxımından var, bir də var idealın tələbində itirmək, itirilmək. İnsan nə edir?! Əqidə üstə yaşamaq elə bir tələbdir ki, istənilən halda gerçəkliyin gözündə insan rüsvayçı ömür yaşaya bilər. Rüsvayçı ömrü yaşamaq ideal baxımından rüsvay olmamaq deməkdir. Bir sözlə, heç kimə bənzəməmək, yamsılamamaq. Hər şey dəyişilir, təşkilatlar dəyişilir, təşkilatların istəkləri dəyişilir. Heç kəs bir xətt götürüb yoxuşu gedə bilmir. Hərə istəyir sağdan, soldan getsin. Biz yoxuşu düz gedəcəyik... Heç bir vaxt səni içindən sındıra biləcək həyat etkiləri qalmamalıdır. Amal bunu istəyir.

Bizim idealımız deyilənlərdən olduqca fərqlidir. Biz Ailəyə böyük olay kimi baxırıq. Ağşın bəy deyir, mən qorxu keçirirəm öz övladlarımla bağlı. Mənəvi ölçülər olmadığına görə insan yaşaya-yaşaya ölür. Zaman onu mənəviyyatsız edər, onun yaşaması daha böyük fəlakət olar. Çünkü vətəninə, millətinə yad böyüyər. Zaman, gediş hər mənada ideala qarşıdır. Ailə idealın bir maddəsidir, idealın əvəzi deyil. Zamanın üzü elə dəyişib, nələrsə alınmaya bilər. İnsanın fiziki cəhətdən nəyi isə alınmaya bilər. Asif Atanın ailəsi toplumun ailəsindən fərqlənməyib. Ailə müqəddəs mənasına bərabər olmayıb, müqəddəslik üzərində yaşamayıb. Ailə sadəcə olaraq fiziki mövcud olub, onun nəfəsi, davranışı pis anlamda toplumsal olub, İnsana yad olub. Ailə əslində həm var, həm də yoxdur. Çünkü ailəni var edəcək

amal yoxdur. Asif Ata deyir, Atamı sevirəm, Amalı ondan çox sevirəm. Anamı sevirəm, Amalı ondan çox sevirəm. Qardaşımı, bacımı, ailəmi sevirəm, Amalı ondan çox sevirəm. Bununla da atama, anama, qardaşıma, bacıma, sevgilimə layiq oluram. İdeala bağlı olan Amalımız hər şeyi yerinə qoyandır. Amalım yaşasa, dost dosta bənzəyəcək, sevgili sevgiliyə bənzəyəcək, ata ataya, ana anaya bənzəyəcək. Bu baxımdan insan Amal üstə yaşayanda qurbanlar çıxır qarşıya, bəzən şəxsi faciə yaşayırsan bugünün dediyi səviyyədə. Çünkü əsillik yoxdur. Əsillik necə yaranacaq?! Onun idealını yaşayan, yazıb ortaya qoyan, ona əməl edən, gələcəyə gedən insanlar onu həyata qaytaracaq. Həyata qaytarmaq gərəkdir əsilliyi, gözəlliyi. Kim qaytaracaq?! – Həmin qurban verməyi bacaranlar.

Tarix boyu ayrı-ayrı şəxsiyyətlərin işığı ona görə gərək olub, adamlar onunla özlərini dərk eləsinlər, özlərini bilsinlər, onlar ailə quranda da ailəni dərk eləsinlər. Əslində ailə onda alınacaq. İnsanlaşma olmasa, ailə yaranmayacaq. Heyvanın ailəsi olmur ki.

Bu yaxınlarda toya çağırmışdılar, getdim. Orda ailə haqqında söz deyilmir. Mən isə söz dedim. Dedim ki: əslində xalq ailə araçılığı ilə yenilənir, həm fiziki, həm mənəvi cəhətdən. Bu gün fiziki cəhətdən bəlli biçimdə ailəçilik ödənilir, mənəvi cəhətdən isə ödənilmir. Ailəni quran qız, oğlan xəlqi mahiyəti dərk eləməlidirlər ki, ailə qursunlar, bunlardan övlad dünyaya gələcək, övlad soya çevriləcək, xalq əmələ gələcək. Ailə həm fiziki cəhətdən xalqı formalaşdırır, onun özülünü yaradır, həm xalqın mənəvi keyfiyyətlərini özündə daşıyır. Bunlar ailədə ödənərsə xalq xalqa bənzəyəcək, insanlıq olacaq, gözəl birlik ortamı yaranacaq. Hələ bu yoxdur, gediş ayrı şeydir. Asif Atanın əqidəsi əsilliyin yaranmasına qulluq edir, əqidəsinə görə şəxsi həyatında faciəvilik olsa da. (İndiki həyat ən çox ailəsizlik ortamıdır). Şəxsi həyatının alınmamasına baxmayaraq, Ata xoşbəxt idi. Çünkü şəxsilikdən çox yüksəkdə yaşayırdı...

...İndiki çağda həm Amalın əsil olsun, həm ailən əsil olsun, mümkün deyil. Həm zəngin yaşayım, həm Amalçı olum, mümkün deyil. Mən əqidə ilə uğraşıram, qazanc ilə uğraşmıram. Əqidə ilə uğraşanda da ailə ac qalır. Əslində böyük mənada bəşəriyyət öz

yerində deyil. Yoxsa doğanın olanaqları insanlığın var olması üçün yetərincədir. Ancaq alınmır, çünkü doğanı qamarlayırlar...

Bizim ona çatıb-çatmamağımız ayrı, ancaq ideal nisbi deyil. Məsələn, xoşbəxtlik adlı ideal var. O nisbi deyil. Ona hər kəs tam çata bilmir. Ancaq həmişə insan ideala can atır. O ideala can atdığı üçün gözəlliklər yaranır. Mən işin keçici çaları ilə deyil, əbədiliyə bağlı çaları ilə uğraşıram. Keçici tükənəcək, əbədi isə qalacaq. Mən uzağı 100 il yaşayaram. Onda belə çıxar ki, mənim çatdığım dəyərlər ölüb qurtarır?! – Qurtarmır. Yəni biolojiliklə ölçmürəm məsələni. Nəsimi öz əqidəsi yönündə, ideala canatma, ona ömürvermə açısı ilə bu gündən baxsaq, bizim üçün idealdır. Mən onun baxışında hansısa cəhətləri qəbul etməyə bilərəm. Ancaq Nəsimi əqidəyə bağlanıb, varlığı ifadə eləyib, ideal əsasında yaşayıb, ayrı şeylərə yön verməyib. Onun ləyaqəti özü idealdır. Bu günün özündə də o cəhətdən İdeala yetmək mümkündür...

Gediş yazısında qoyulduğu kimi, ölkəmizdə baş verən olaylarla bağlı düşüncələrimi deyim. Dünyada baş verən məsələləri biz bilməliyik. Ocaq dərviş ortamı deyil. Dünyada nə baş verirsə, insanları nə ağrı-acı gözləyirsə, onu qiymətləndiririk. Biz fiziksəl olaraq toplumla bir yerdəyik, tərki-dünya deyilik, münasibətlərimizi dilə gətirməliyik.

Azərbaycanla bağlı, hazırda gündəmi tutan məsələ hazırlığı gedən seçkidir. Genel olaraq gündəmi hər zaman seçki məsələsi tutur. Bələdiyyə seçkisi, parlament seçkisi, prezident seçkisi. Halbuki seçki yoxdur, bunlar görüntüdür. Görüntü olmaqdansa həqiqi təyinatlar olsa yaxşı olar. Guya seçkidə xalq iştirak edir, ancaq bilinən odur ki, xalqın qatqısı yoxdur, xalqı qatışdırırlar. İndi Prezident seçkilərinə hazırlıq gedir. Nə yazıqlar ki, gənclik, aydın, məktəb, öyrəncilər, öyrətmənlər, hamı seçki oyunları ilə uğraşır. Onsuz da Azərbaycanda seçki sürəci dünyanın Azərbaycana münasibəti zəminində həyata keçir. Dünya Azərbaycanı necə görmək istəyirsə, o cür də hərəkət edir. Biz də, toplum olaraq, dünyanın böyük güclərinin verdiyi yön əsasında davranırıq, yaşayırıq. İndi Azərbaycanda böyük güclərin istəkləri öz həllini tapmaq yönündədir. Bizim çıxarımız deyil, onların çıxarı təbliğ olunur yenə. Rusiyanın, Amerikanın burda gözləntiləri

var. Buna yönəlik də Milli Şura yarandı. O Milli Şurada Rusiyanın kadrı, İranın kadrı, Amerikanın kadrı, Ərdoğanın kadrı var, Azərbaycanın kadrı yoxdur. Hər şey anarxiya durumundadır. İş elə gətirib ki, Milli Şura yaranandan sonra böyük güclərin rahatsızlıqları yaranıb ki, görəsən bu Milli Şuraya Rusiyanın böyük etkisi var, yoxsa Avropanın?! Kim gələcək hakimiyyətə, seçkinin növbəti aşamasında hansı güc öz nüfuzunu, çəkisini qoruyub saxlayacaq?! Azərbaycanın siyasi elitası da Amerikanın, ya Rusiyanın münasibətindən asılı olaraq oynayır, oynadılır. Görünən isə odur ki, indiki iqtidar yerində qalacaq. Azərbaycan yenə talanacaq, yenidən anarxiya, gözü ora-bura dikmək, yalvarmaq. Xalq da ümidsiz, kütlə, kölə. Gediş hər bir insana ümidsizlik, çıxılmazlıq aşılayır.

Amerika region-region nüfuzunu artırmağa çalışır. Rusiya regionlarda – Avropanın, Amerikanın qarşısında geri çəkilir. İndi Avrasiya birliyinə qarşı İqtisadi NATO yaradılır. Çünkü burada yalnız Rusiya deyil, Şimali Koreya var, Çin var, onların iqtisadi cəhətdən olanaqları var. Ona görə Batı bunların qarşısını kəsən oyunlar aparır. Bu oyunların qabağında Rusiya öz içinə doğru çəkilir. Batının Rusiyanı içəridən qarışdırmaq olanağı genişdir, Rusiyanın içi türk toplumlarıdır. Ancaq Amerika da, Avropa da istəyər ki, Rusiyanın tərkibində olan ayrı-ayrı türk dövlətləri bağımsızlığa can atmasın. Hətta belə bir şey başlasa, Avropa çalışar Rusiyaya kömək eləsin i.a. Ancaq buna baxmayaraq, Türk Birliyi bizim istədiyimiz şəkildə meydana gələrsə, türk dövlətləri bağımsızlığına qovuşa bilər. Bu ayrı. Faktiki çabalar ona doğrudur ki, bu baş verməsin. Bir sözlə, bütün dünya düşmənçilik zəmini üzərində çalxalanır. Bu çalxalanan dünyanın içərisində bir damla Ocaq işığı var, bu böyük ruhani potensiyadır, biz onu yaşadırıq. Bu gün Ocaq dünyanın gözünə görünməsə də, faktdır, həqiqətdir. Bəzən sağlam bir şey görünmür. Ancaq bilirsən ki, o toxum var, o artacaq, yayılacaq. Ocaq alaqların içindəki sağlam bitki kimidir. Biz İnsanlaşma olayı ilə nəfəs alırıq, yaşayırıq. İdeya bizi fərəhləndirir, yaşadır.

## *Uluyol-Hünər Ailə Günü*
*(28 Od Ayı, 35-ci il)*

Bu gün genel söhbətin davamı olaraq, belə bir düşüncədən başlamaq istəyirəm: "Millət köhnəlsə məhv olar". Mən onu "üç oğluma məktub" əsərimdə yazmışdım. Bir neçə söz də onunla bağlı demək istəyirəm. Əsər təkcə üç övladıma ünvanlanmayıb. O, bütövlükdə Azərbaycan gəncliyinə ünvanlanıb. Mən varlı ailə istəmirəm. Bayaq dedik ki, insan gələnəksəl olaraq, asanlığa meyil edir. Asanlıq, rahatlıq da insanın sırf bioloji özünüifadəsidir. Ona görə də insan bütün baxışını ora yönəldir. Bütün ömrünü ora yönəldir. İnsan nəyin üzərində vurğu eləyirsə, ömrünü nəyə ayırırsa, orda bərkiyir, orda formalaşır. Orda yaranır. Məişətə ömür verən adam məişət kişisi, ya da məişət qadını olur. Yüksək ideallara ömür verən adam da yüksək şəxsiyyət olur. Bütün tarix boyu belə olub. Ömrü nəyə verirsənsə, ona da çevrilir. Ona görə də gərək ömrü, doğrudan da, yüksək ideallara verəsən.

Bizim üçün də yüksək ideal, söz yox, insandır, millətdir, bəşərdir. Bu xəttin əsasında yaşayırıq, düşünürük. Ona görə bizdən soruşsalar ki, biz millətçiyikmi, ruhaniyyatçıyıqmı? – Belə cavab verərik, bizim hədəfimiz insan, millət, bəşərdir. Bu o deməkdir, biz ruhaniyyatçıyıq da, millətçiyik də. Millətçilik böyük anlamda ruhaniyyatçılıqdır. Ondan ayrı bir şey deyil. Ruhaniyyatçılıqdan ayrılmış millətçilik imperializmdir, şovinizmdir. Avropada bir vaxtlar bütün bəşəriyyəti lərzəyə salan Hitler millətçiliyi vardı. Bu, bəşəriyyətə qarşı yönəlmiş dəhşətli bir fəlakət idi. Ona görə biz düşünürük, millətçilik bağlıdır ruhaniyyatçılığa. Ruhaniyyatçılığın da əsasında insanın özünə çatması durur. İnsan özünə bənzəmirsə, onda o millət ola bilmir. Millət – insanın özümlüyüdür. Əgər millət özünə çatmırsa, onda olur kütlə. Bax, bireyin içinin qurulması belə böyük bir anlam daşıyır. Bəzən insanlar sual verir ki, bu söhbətləri elədiniz, sonra? İnsanlar anlamır ki, bu söhbətlər söhbət xatirinə deyil, bu sənin var olmağın üçün zəmindir. Yaşamağın üçün, addım atmağın üçün ayağının altında yerdir. Millət olmaq üçün qurucu bir gedişdir.

Biz danmırıq, sovetlər dağılandan bu yana Azərbaycanda milli duyğular baş qaldırıb. Ancaq bir var duyğular əsasında milli davranmaq, bir də var ruhanilik əsasında milli yaşamaq. Bunlar arasında böyük fərq var. Duyğularla millətçilik eləmək ruhani yaşamaqla millətçilik eləməkdən çox azdır. Duyğularla davranan millətçilər istənilən vaxt dəyişilə bilir. Biz onu görürük... İnsan üzdəki duyğularla davranmaqdan uzağa getmirsə, onu millətinə qarşı da qaldırmaq olar, dövlətinə qarşı da. Satın almaq da olar, olur da. Bir var şüar, bir var ideya. Deviz ən çox həyata keməyən, ya da sistemləşməyən arzudur. Ancaq ideya sistemləşən arzudur. Gerçəkləşmək olanağı güclü olan, yüksək olan arzudur. İdeya bitkin konsepsiyadır. Ona dayanıb insan olmaq olar, millət olmaq olar. Ancaq nə yazıqlar, toplum olaraq, bizim milli baxışlarımız ən çox şüarlarda əks olunur. İçəri enmir. Ona görə insanlarımız üzdəki şüarlara gözüyumulu "baş üstə" deyir. Çətinliyi bacarmır, özündən keçə bilmir, milli şüurun gəlişməsində özünün yerini, rolunu bəlirləyə bilmir. Genel kütlə hara gedirsə, (kütlə deyəndə kənd təsərrüfatı ilə uğraşan əməkçiləri demirəm təkcə, bəlli toplumsal aktivləri deyirəm) birey də ora gedir, yəni hamı necə məndə elə deyib yetərlənir. Ancaq heç kim heç kimdən razı da deyil içində. Hamısı bir-birinin haqqında "boşboğazdır, əməlsizdir" deyə düşünür. Bu da sonuc olaraq ona gətirib çıxarır ki, millət gözümüzdən düşür. Özümüz gözümüzdən salırıq milləti. İndi özümüz gözümüzə qaldırmalıyıq milləti. Hər zaman mənim vurğu elədiyim bir sözdür: bizə ancaq milləti söymək öyrədirlər, milləti sevməyi heç kim öyrətmir. Dış qüvvələrə bel bağlayanlarımız anlamalıdırlar, bizə onlar millət sevgisi öyrətməyəcəklər. Nə də iç qüvvələrdən (özü üçün olan qüvvələri gözə alıram) bunu gözləmə. Milləti gözündə qaldırmaq üçün birey özü-özünü gözündə qaldırmalıdır. Özü özünün yiyəsi olmalıdır: mənliyinin, vicdanının, ləyaqətinin, sevgisinin yiyəsi olmalıdır. Nə qədər ki, biz millətə sevgini şüar kimi deyirik, o, millətə çatmayacaq. Elə ki, biz millətə sevgimizi ömrümüzdə yaşadacağıq, doğrudan da əməli addımlar atacağıq, iş görəcəyik, qarşımıza çıxan şirnilərdən imtina eləməyi bacaracağıq, onda millətləşməyə başlayacağıq. Qarşımıza milli sevgi də çıxır, bioloji, bireysəl çıxarlar da. Toplum olaraq ikincini götürürük, milli

sevgini qırağa qoyuruq ki, buna sonra baxarıq. Hər kəsin içinə bu istək hakim olur. Çünkü hər kəs ən çox bireysəl istəklərlə yaşayır. Bu açıdan baxsaq, ruhaniyyatla uğraşmaq çox ciddi məsələdir. Biz ruhaniyyat deyəndə dini anlamda yanaşmırıq. Nə də ateist deyilik, İnamçıyıq. Dinləri qəbul etmirik bəlli səbəblərə görə. Hər yerdə də deyirik. Biz bunu kefimizdən eləmirik, dində millət var olmur. Çünkü dində millət anlayışı yoxdur. Halbuki Millət insanın müqəddəsliyi yaratması, yaşatması üçün çox əsaslı bir özüldür. Müqəddəslik millətdə yaşayır, var olur. Müqəddəslik mücərrəd, Göylər aləminin diktə elədiyi bir şey deyil. Müqəddəslik insani münasibət deməkdir. İnsanın insana, vətənə, millətə, bəşəriyyətə olan sağlam münasibətidir. Münasibət nə qədər gözəl, ülvi olursa, nə qədər xeyirə dayanıb gerçəkləşirsə, bir o qədər müqəddəslik həyata yeriyir. Müqəddəslik quru ibadət demək deyil. Müqəddəslik göylərə əl açıb dilənmək deyil. Əgər ibadətdə, özünüifadədə insan yaranmırsa, qüdrətlənmirsə, millətinə, vətəninə, bəşəriyyətə, gələcəyə gərək olmursa, sürü halında, bəndə halında qalırsa nə din gərəkdir, nə də Allah. Mən anlamıram, belə anda allah nə deməkdir?! Bəzən elə düşünürlər, biz Allaha qarşı çıxırıq. Bunu demək asandır. Mən deyirəm, Allahını tapmış adamam. Ancaq əzizim, mən ərəblərin mənə sırıdığı Allaha tapınmamışam. Bu mənim suçumdur?! Semitlərin dediyi Allaha tapınmıram. Çünkü onların dediyi Allah allahlıq anlamına uyğun deyil. Onların dediyi Allah deyil, hökmdardır. O, ərəb psixologiyasının ortaya gətirdiyi adamabənzər qüvvədir. Bu açıdan allahlıq mənasını saxlamaqla “allah” sözünün özü də bir qırağa qoyulmalıdır. Çünkü o, Qüreyşilərin Əl-illah adlı baş bütünün adıdır. Ordan götürüblər “allah” sözünü. Bəzən “ellax” sözüylə də bağlayırlar “allah” sözünü. Qədim Şumer dilindəki ellax – yaradıcı mənasında işlənib. Bu doğru deyil, ərəblər nədən şumer dilindən götürməliydilər allahlarının adını?! Bu ad elə Əl-illahın adından götürülüb.

Yunanların baş allahının adı Zevsdir. Belə çıxır ki, yunan qılıncını mənim boynuma dirəsəydi, ərəbin deyil, onun allahını qəbul edəcəkdim. Yunanların dediyini deyəcəkdim min il. Mən yunanların, ya da ərəblərin dediyini deməli deyiləm axı. Mənim öz baxışım var, öz düşüncəm var. Bu, mənim birey olaraq baxışım deyil, milli

düşüncə sistemidir. Bunu Asif Ata yaradıb. Bütün dünyanı öyrənib, təfəkkür ortaya qoyub. Deyir, allah anlamına doğru yanaşmayıblar. Mən öz açımdan yanaşıram. Düzdür, burada Türk baxışıyla, türk mahiyətiylə yanaşma var, ancaq bu məsələ tək Türk məsələsi də deyil. Türklərin Tanrıçılıq ideyası da olub. O da İnsanlıq üçün bir aşamadır. Düzdür, ərəblərin allahlıq ideyasından gözəldir, ancaq Panteizm əsaslı bir baxışdır. Biz Mütləq olanı doğrulduruq, O, Dünyanın içsəl qüdrətidir, Anlamıdır, ağası deyil. O, kainata hökm eləmir. O, əzəli, əbədi, sonsuz, kamil olan qüdrət gerçəklikdən artıqdır. Onunla oyun oynamaq olmaz. Onunla insanı şirnikdirmək, qorxutmaq olmaz. Ona görə də ruhaniyyat deyəndə biz dinin dediyi ruhaniyyatı qəsd eləmirik. Orda ruhaniyyat yoxdur. Orda oyun var.

*(Sizin içinizdə dinə tapınan varsa, bizi düzgün başa düşün, hisslərinizə toxunmaq üçün demirəm. Həqiqətimiz kimi deyirəm. Bizdən aşağılama gözləməyin. Biz ciddi düşüncəyə, ciddi axtarışlara bağlı insanlarıq. Biz istəyirik həqiqət olsun ortada, yalan olmasın).*

Bizi aldatmayın. Bu, materialistcəsinə yanaşmaq deyil. Materialistlər, bilirsiniz ki, hər şeyə maddi zəmində münasibət bildirirlər. Materiyadan fərqli bir şey düşünmürlər. Ancaq materiyanın özündə bir nizam var, uyum var. Söz yox, bu nizam, uyum özündədir, özündən qıraqda deyil. Bax, ona görə də biz burada ruhaniyyat deyəndə bilimin olanaqlarını da gözə alırıq. Bilimin məntiqi, fəlsəfənin məntiqi, eyni zamanda gerçəkliyin məntiqi. Bunlar Birlikdə olmalıdır. Gerçəklikdə onun zəmini olmalıdır, əsası olmalıdır. Ancaq dediyimiz kimi, təkcə gerçəklik məsələsi deyil. Gerçəklikdən üstün bir həqiqət var. Məsələn, İnsanlıq nədir? İnsanlıq nə bədən deyil, nə əşya deyil. İnsanlıq bizim daşıdığımız, bədəndə bədəndən artıq Mənadır. O insanlıq əsasında biz münasibətimizi qururuq, insana, bəşəriyyətə münasibət sərgiləyirik. İnsanlıq həmin yüksək qüdrətin bir çalarıdır. Həmin məzmun əzəli, əbədi, sonsuz, kamil olan qüdrətin bir çalarıdır. Dünyalıq adlı məna var, dünyada özünü göstərir. Bu mənada Asif Atanın dediyi Mütləq semitlərin dediyi allah deyil. Onun eyni deyil. Yerlə göy qədər fərq var. Bizim dediyimiz ruhaniyyat dünyalığa, insanlığa, qutsallığa dayanan bir yanaşmadır. O, ehkama, yalana, itaətçiliyə, qismətçiliyə dayanan bir şey deyil. Bax, bu açıdan

düşünürük, biz başqa xalqların baxışını kapirovka eləməli deyilik. Yamsılamalı deyilik. Ərəb, ya bir başqası belə düşünür deyə biz də belə düşünməməliyik. Özümüz ağıl işlətməliyik. Axtarış sonsuzdur. Həmin məzmuna baxış sonsuzdur.

İndi qayıdıram söhbətimizin başlanğıcına. “Millət köhnəlsə ölər” ifadəsi işlətdik. Millətin köhnəlməsi ruhaniyyatı itirməsi deməkdir. Bayaq dediyim ayrı-ayrı keyfiyyətləri itirmək deməkdir. Əgər millət həmin bireysəl keyfiyyətləri itirirsə, bu, onun köhnəlməsi deməkdir. Nə qədər qəribə səslənsə də, bizim, millət olaraq, son yüzillərdə üzümüz köhnəlməyə doğrudur. Bizə görə, Asif Ata elə ona görə ortaya çıxdı, milli, insani, bəşəri dünyabaxış ortaya qoydu. Millət köhnələ, ortadan qalxa bilməz. Çünkü millətin içində olanaqlar var. Bu olanaqları üzə çıxarmaq, milləti ayağa qaldırmaq gərəkdir. Bu açıdan bizim millətçiliyimiz ruhaniyyatçılığımız deməkdir. Bəzən deyirlər, Asif Ata da bir milli din yaratmaq istəyir. Doğru demirlər. Mütləqə İnam dünyabaxışı milli olduğu qədər bəşəridir. Biz həmişə vurğu eləmişik, bir də vurğu edirəm, millətsiz bəşər yoxdur. Bəşər millətlərin yüksək Birliyi deməkdir. Ona görə də millətin yaratdığı gözəl, yüksək dəyərlər nə varsa, o bəşəridir. Hər bir millətin yaratdığı, təkcə bizimki yox. Dövlətlərin yaratdığı dağıdıcı, pozucu nə varsa antibəşəridir. Bu açıdan Asif Atanın yönü – İnsançılıq, Millətçilik, Şərqilik, Bəşərilik. Hər birey üçün Asif Atadan, onun dünyabaxışından, millət sevgisindən, öyrənməli çox şeylər var. Biz hər kəsi buna çağırırıq.

Bu gün bizim bir amaldaşımız Masallıdadır. O, Masallıda görüşlər keçirib. Sonra gedib Lənkəranda görüşlər keçirib. Yəni xalqın içində olmaq, yerlərdə, bu söhbətləri xalqın içində aparmaq gərəkdir. Bilirsiniz, hər bir yeni baxışın, yeni yolun, yandaşlarından daha çox, ilk aşamada tərs olanları (əleyhdarları) olur. Nə yazıqlar ki, bizim toplumumuzda qaralama əhvalı yüksəkdir. Ancaq buna baxmayaraq, bizim nəyimiz varsa, onu deyirik. Nə düşünürüksə onu ortaya qoyuruq. Heç kimin, nə islamçıların, nə xristinların, nə başqalarının, ayrı-ayrı qurumların bizə qarşı olmaları bizi çaşdırmır. Çünkü bu bizim həqiqətimizdir, içimizdə əsaslı şəkildə oturub. Ona görə xalqın, millətin var olması, özünə bənzəməsi üçün davamlı, ardıcıl iş apar-

maq, onu öz mahiyətinə çağırmaq, bunda israr eləmək gərəkdir. Səni sevərlər, sevməzlər, sənə diş qıcayarlar, səni döyərlər, Atanın deidyi kimi, “bu xalq bizim balamızdır, o bizim üzümüzü cırsa belə, biz onu böyütməliyik”. Bunun üçün sənin için nə olmalıdır, təfəkkürün nə olmalıdır ki, özül olasan, məktəbi qoruyub saxlayasan. Biz deyirik, bütün yönlərdə uğraşan insanlar bu məktəbdən bəhrələnə bilər. Onun mənliyi yarana bilər, şəxsiyyəti qurula bilər. Şəxsiyyəti qurulandan sonra, o, öz yönündə daha doğru addım ata bilər. Baxın, ölkədə o qədər fərqli baxışlar var, o qədər fərqli gedişlər var... Hamı da deyir, demokratiyadır da, çox baxışlar olmalıdır. Biz elə demirik. Biz insanın fərqli düşüncələrinə sayğı duyuruq. Ancaq insanın öz orbitində bireysəl düşüncələrinə sayğı duyuruq. Onun gücünün yetmədiyi milli, bəşəri bir yöndə ağlına gələni fırlatmağına sayğı duymuruq. Biri tutalım ateistdir. Mən onun baxışına necə sayğı duya bilərəm?! Biri deyək ki, qlobalistdir, biri deyək ki, Batıçıdır, biri rusçudur, biri nəçidir. Necə deyim bu da onun baxışıdır, sayğı duymalıyam. Axı onun baxışıyla ayrı bir hava çalınır, ayrı bir ortam yaranır, bu ortam sənin içini üfunətə bürüyür. Sənin milli için olmur. Mən ona necə sayğı duya bilərəm?! Əgər sənin fərqli baxışın milli-toplumsal tərəqqiyə gərək olursa, ona sayğı duyuram. Hamı milli-insani çətirin altında durub özünəxas fərqli düşünə bilər, bu fərqli düşüncə zərər vermədikdə sorun yoxdur. Yoxsa siyasətdə biri deyir, mən liberal demokratam, biri deyir, mən sosial demokratam, biri deyir filan şeyəm. Bu cür baxışların olması, gəlin görək, xalqın ideoloji yönünü qururmu, yoxsa ördək-balıq-xərçəng oyunu yaradır sənin taleyində?! Biri havaya çəkir, biri suya çəkir, biri quruya çəkir. Bunu yaradırsa, necə sayğı duya bilərəm?! Biz, Ocaq olaraq, indi nəyiksə, min il sonra da o olacağıq məzmunca. Söz yox, gerçək gəlişmə baxımdan daha yeni-yeni aşamalar olacaq. İnsanlığa sözümüz budur: buyur, davam elə.

...Bizim Asif Ataya münasibətimiz, bəzən bilməyən, tanımayan, ilk dəfə izləyən adamlar üçün uşaq münasibəti kimi görünə bilər. Bəzən deyirlər, sizə elə gəlmirmi, Asif Atanı bütləşdirirsiz? Dönə-dönə mən buna aydınlıq gətirmişəm, yenə vurğu edirəm, bizim Asif Ataya münasibətimiz hansısa partiya üzvlərinin öndərlərinə münasibətinin

eyni deyil. Partiyanın üzvlərinin öndərlərinə münasibəti bu səviyyədə olarsa, o, gülünc doğurar. Niyə? Çünkü partiya başçısı öz toplumunun yanında ona görə yuxarı pillədə durur ki, o, başqa partiya başçısını öz cərgəsində duranlardan daha yaxşı aldada bilir. O, birinci pillədə ona görə durmur ki, çevrəsinin sevgisini fəth eləyib. Sevgidən gəlməyən münasibət heç bir vaxt doğrula bilməz. Biz deyirik, Asif Ataya münasibətimiz təbliğat xarakteri daşıyan məsələ deyil, O, yeni bəşər halı yaradır. Təkcə yeni millət halı yox, yeni bəşər halı. Burada umacaqsız özünü qurbanvermə var. Bu ömür çox fərqli ömürdür. İsa deyir, nəyin var hamısını ver, düş dalımca. Bu nədir? – Olandan vermək umacaqsızlıq deyil. Olmayandan verə bilmək umacaqsızlıqdır. Deyə bilərsiz ki, olmayandan nə  verim?! Bax, bütün məsələ ondadır. Mən öz ömrümdən misal çəkim. Hərçənd bu daha maraqlı, etkili olar. Asif Ata son çağlarda Akademiyada işləyirdi. Bir dəfə mənə dedi ki, oğul, mən ora getmirəm ancaq aylıq alıram, yaxşı deyil, bizim ləyaqətimizə uyğun deyil. Gedib ərizə ilə Atanı o işdən çıxartmaq gərəkdir. Mən ərizəni götürüb getdim, Asif Atanı işdən çıxartdırdım. Ocağın Evladları Asif Ataya aylıq verirdi. Ancaq iş o yerə gəlib çıxdı ki, Asif Ataya aylıq vermək olduqca çətinləşdi. Mən işləyirdim, ancaq kirayə verirdim, ödəyə bilmirdim. Baxın, indi gücüm yoxdur Asif Ataya nə verim?! Bax, olmayandan vermək məsələsinə gəlib çıxıram. Mən səhər tezdən daş karxanasına getdim. Bütün sutkanı daş yükləyib pul qazandım. Nə qədər ki əlimdə pulum yox idi, içimdə vermək istəyi vardı. Ancaq gedib ağır zəhmətlə daş yükləyib pul qazandım, bax, məsələ ondan sonra özünü göstərdi. Bu pulun çoxunumu Asif Ataya verim, azınımı?! Tərəddüd edirdim, pulun çoxunu verməyə əlim gəlmirdi. Olmayandan vermək məqamı gəlib çıxıb ortaya. Umacaqsızlıq bunu bacarmaqdır. Bu bir anda baş qaldırmır. Mütləq umacaqsızlıq deyilən hal var ha, o insan qəlbində tamah duyğusu yeniləndən, için azad olmasından sonra əmələ gəlir. İnsan qəlbinin müqəddəs duyğuları üzə çıxandan sonra əmələ gəlir… Birtəhər özümdə güc tapıb, çoxun da üstünə öz payımdan artırıb verdim Asif Ataya, evimə çox az pul saxladım. Ancaq verəndən sonra sevincimin həddi-hüdudu yox idi. Az qala bağırmaq istəyirdim ki, mən bunu bacardım, verə bildim. Bu hal məndə umacaqsızlığın

başlanğıcı idi. Yoxsa, Hacı Zeynalabdin Tağıyevdən millətə ata düzəldirlər. H.Z.Tağıyev millətin sərvətlərini əlinə yığmışdı. O sərvətlərdən az bir hissəsini millətin özünə qaytarırdı. Adamlar elə bilirdilər umacaqsızdır, böyüklük eləyir.

Xalq – insanda başlayan uca keyfiyyətlərin əsasında yaranır. Bir də görürsən, filan deputat filankəsin kitabını çap elədi. Az qalır ayağının altına sərilib minnətdarlıq eləsin ki, o mənim kitabımı çap elədi. Bu kitab xalqa gərəkdir, gərək deyil, bu ayrı. Ancaq bu qədər deputatlar, pulu olanlar öz milyonlarından balaca bir hissəni bu xalqın ayrı-ayrı nümayəndələri üçün xərcləyir. Nə dəyişib, nə düzəlib? Hansı ləyaqət təsdiq olunub, hansı umacaqsızlıq özünü doğruldub? – Heç biri. Niyə? Çünkü bu xərcləmələr onların içinin hikməti deyil, özünü xalqa sırıması üçün atdığı addımdır. Onun içində yarımca duyğu belə tərpənməyib, müqəddəsləşməyib. Onun içində yarımca duyğu tərpənib müqəddəsləşmirsə, onun xalqa nə dəxli var, o, xalqın inkişafında nə kimi rol oynaya bilər, nə kimi söz deyə bilər, nə kimi iz buraxa bilər?! - Heç bir. Hamısı oyundur, hamısı səhnə olaylarıdır, aktyorluqdur. Xalq aktyorluqla yaranmır. Xalq müqəddəs niyyətlərlə yaranır, müqəddəs əməllərlə yaranır. Asif Atanın mühiti ona görə məktəbdir. Ona görə ucadır…

Mən Tolstoyun “Hərb və sülh” ünü oxuyuram. Tolstoyu oxuduqca, Asif Atanın dediyi, zəhmət çəkdiyi ideallara qatqı görürəm. Tolstoy 19-cu yüzildə bütöv bir toplumun münasibətlərini təsvir eləyir. Kübar toplumun münasibətləri, ünsiyyətləri, ölkələrarası münasibətlər. Necə gözəl, dəqiqliklə ifadə edilir. Əsərdə hətta mənfi xarakterlərlə tanış olduqda belə, adamda ikrah duyğusu doğurmur. O qədər doğal, o qədər gözəl vurğu eləyir, o xarakterlər böyük bir zərərə çevrilmir. Bəlli gedişlər, nizamlamalar var, peşmançılıqlar var. Doğru ünsiyyətlərdə addımı dala qoymalar var. Onun Nataşa obrazı var. Tolstoyun əsərinin canı odur sanki. Bu qız havalanır, göylərdə olur. Ancaq özü dərk eləmir öz halını. Bu qızın sanki gerçəkliyi yoxdur, tamam duyğulardan oluşub. Duyğular necə şövqlü, necə ehtiraslı, necə coşqun, necə axıcı, necə gələcəyə üz tutan. Heç yerdə dayanmır. Evdən çıxıb gedəndə yatacağı yerə qayıtmaq arzulamır, istəmir. Sanki əbədi yol istəyir. İçi odur. Əslində Peyğəmbərlərin

harayı, hikməti həmin Nataşaların duyğuları, halı olmalı idi. Ancaq onlar yanlış olaraq insan qəlbinin hikmətini mücərrəd göylərdə axtardılar. İnsan qəlbinin gözəlliklərində, duyğularında izhar eləyib, haray çəkə bilmədilər. Sənin harayının hədəfi budur. Onu açıb göstərə bilməlisən. Açıb göstərə bilmədilər. Niyə? – Çünkü Asif Atanın dediyi kimi, nə yazıqlar peyğəmbərlər filosof ola bilmədilər. Asif Ata filosofdur. Mənim əlimdən tutub insan qəlbinin gözəlliklərinə doğru aparır. Ona sevgi bəsləməyə çağırır. Onu görməyə, göstərməyə çağırır, deyir, bunları gör, göstər, qoru, qədrini bil. Onda görəcəksən sənin mühitin nə demək olur. Onda görəcəksən toplum necə dəyişə bilir. Asif Atanın harayı budur.

Asif Ata deyir göylər aləminin sahibi sənsən, göylər aləminin sakini də sənsən. Sən yer olayı deyilsən, göy olayısan.

Öncələr bir yazı yazmışdım: əski peyğəmbərlər göyləri insandan ayırdılar. Göyləri insansız qoydular, insanı göysüz qoydular. Göylə insan arasına sınır çəkdilər, göyü tapşırdılar doğaüstü qüvvələrə.

Atanın işi kamil işdir!

### *Atagün Ailə Günü*
*(20 Ata Ayı, 35-ci il)*

"Ailə Günü"müz üçün deyəcəyimiz qonular var. Bu qonular bizim hardan hara gəldiyimizi ifadə edir. Birey olaraq öz içimizdə, xəlqi anlamda, eləcə də bəşəri anlamda hara gəlib çıxmışıq?! Dünyadan, toplumdan fərqli olaraq bizim işimiz də, içimiz də daim yoldadır. Yol getməyə bilmərik. Çünkü elə bir istəyi gerçəkləşdirməyə çalışırıq, onun arxasınca getmək mütləqdir. Bu, adi gediş deyil. Bənzərsiz bir gedişdir. Bizim hesabatımızın özü də həmin gedişin anlamını sunur. Bu anlamı həm öyrənir, həm öyrədir.

Mən, "Atagün" Ailəsinin bir Evladı olaraq, Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı vermək istəyirəm. Mənim amallaşmamda maraqlı bir aşama başlayıb. Mən Atanın sağlığında özümü düşüncəyə yönəltməyə çalışırdım, çox hallarda düşünə bilmirdim. Söhbət Amal yönlü düşüncələrdən gedir. Mən düşünmək istəyirdim,

düşünə bilmirdim. Uzun çağlar içimdə özümə qarşı acıq yaranırdı, niyə düşünə bilmirəm?! İndi mən düşünməyə bilmirəm. Hər dəqiqə, hər saniyə düşünməyə bilmirəm. Niyə bir vaxt düşünə bilmirdim, indi düşünməyə bilmirəm?! Bu məsələni özümçün aydınlaşdırmışam. İstənilən insanda düşüncənin qaynağı var, səbəb var. Sadəcə olaraq o səbəb, o qaynaq aşkarlanmır. Aşkarlanmır ki, adam daim o qaynağa dayanıb düşüncəsini gerçəkləşdirsin. Bu da ondan irəli gəlir ki, insan ən çox bioloji tələblərlə yaşayır. Fiziki varlıq olaraq yaşayır. Fiziki varlığı da düşündürən səbəblər, məsələlər həyatda tutduğu mövqe, evi, eşiyi, mənzili... Bəzən də həyat insanı o qədər qovğaların içinə atır ki, ondan ayrılıb başqa şey haqqında düşünə bilmirsən. Yəni bütünlüklə varlığını zəbt eləyir. Düşüncəni, şüurunu, beynini zəbt eləyir. Bu gün insan elə duruma salınıb ki, həyat canavar kimi ağzını açıb onun üstünə yeriyir. Bu qədər sorunlar, qayğılar-filanlar, insanı ağuşuna elə alır, məhv edir. Məsələn, mən özüm, bilirdim ki, məhv oluram. Ancaq Ata mənim əlimdən tutdu, qurtuldum. Necə? – Mən işimi, həyatımın yönünü bəlli bir nizama qoydum. Bu nizam o vaxt, bu vaxt məndə davam edir. O nizamdan qırağa çıxmıram. Adam bioloji mövcudluğunun mövqeyində dayanıb düşünərsə, onun özünün etnik, milli, insani varlıq olduğu haqqında düşünməyə vaxtı, macalı olmaz. İnsan mütləq bioloji düşünməkdən qırağa çıxmalıdır...

Dünən mənim iş yerimdə söhbət edirdik. Hərdən mən iş yerimdə olanlara (orda mühəndislər var, işçilər var) onlara sual verirəm ki, söhbət yaransın, adi qonulardan açılsınlar. Məsələn, dünən birinə sual verdim, sənin üçün kədər nə deməkdir? – Dedi, kədər yaxşı şey deyil, adamı üzür. Deyirəm, səni üzsə də, üzməsə də, kədər var. Yaxşı, kədər pis şeydir, üzür, bəs nə olsun, İnsanlığı itirməkmi? Deyir, yox, niyə ki? Deyirəm kədərin olmaması nə deməkdir? Kədər üçün səbəb var axı. Həyatda bəs qədər səbəb var. Yəni kədər olmasın, nə olsun, arsızlıq? El arasında "arsız adamın kədəri olmur" deyirlər, hər şeyə qarşı vecsiz əhvalda olan adama. Bir var fərəhli insan (fərəhli insan kədəri də fərəh kimi yaşayır), bir də var arsız olasan. Arsız adamın kədəri-zadı olmur. Söhbət böyük kədərdən gedir... Bu məqamda o biri yoldaş da qoşuldu söhbətə. O tamam qonunu çəkdi ayrı yönə, – insanın beyni filan quruluşdadır, beyindən filan siqnal

ötürülür. Söhbəti ora gətirib çıxardı ki, ürək sadəcə bir nasosdur. Sırf bioloji yanaşır hər şeyə. Mən də onların baxışını ruhaniliyə yönləndirmək istəyirdim. Deyirəm, ürəyi nasos sayırsan, biologiya, anatomiya onu öyrədib sənə. Ürəyin içini açıb baxarsan, içində ayrı bir şey yoxdur. Kəllənin içində qırışlar var, nələr var. Ürəkdə yoxdur. Deyirəm axı ürəkdə ruhaniyyat var. Deyir o beyindən gəlir. Mən bunlara ruhaniyyatın rolunu anlatmaq üçün bir misal çəkdim: deyirəm, baxın, ata əkir, uşaq dünyaya gəlir. Ancaq atanı deyil, ananı qutsal sayır insan. Çünkü ana əzab çəkəndir, bəsləyəndir, böyüdəndir. Bax, ürək odur. Ürəyə gələn nə varsa, onu bəsləyir, böyüdür, ifadə eləyir. Duyğular ürəklə ifadə olunur. Ürək-beyin birliyi var. Ürək özü beyini qidalandırır...

Mən bu arada Tolstoyu oxuyuram. Əslində amallaşıram. Çox adam kitab oxuyur. Bir var adamın özünün bildiyi, həyatdan, təcrübədən gələn, bir də kitabdan oxuduğu. Bunlar qarışır bir-birinə. Məndə qarışmır. Çünkü Asif Ata var, mənim ölçüm var. Mən çəkini, ölçünü itirmirəm. Ona görə mən Tolstoyu oxuyuram, amallaşıram. Nə oxuyuramsa, orada Atanın dediyi mənim üçün gerçəkləşir.

Tolstoy "Hərb və sülh"də hərbdən danışır. Ancaq iki məqam var orda. Birinci, toplumsal həyatın sorunları, bireylərin o sorunlar içərisində özünü aparması, davranışı, bir-birinə münasibəti. Bir də bəşəriyyəti təhdid edən müharibə amansızlığı. Müharibə amansızlığının içərisində dinc həyatın bərbad hala düşməsi var. Bayaqdan Tolstoyun təsvir elədiyi ailə, məhəbbət, bir-birinə sevgi bəsləyənlər, ya da tüfeyli həyat sürənlər, əyləncə dalınca qaçanlar, bunların hamısı həyatın iç prosesləridir. Müharibə bu proseslərin hamısını qatıb-qarışdırır bir-birinə. İnsanlar normal gedişdən qırağa çıxırlar, dəhşət bunların həyatını qapsayır bütünlüklə. Görün nə baş verir?! – Onun Nataşa obrazı var. Nataşa Andrey adlı birisiylə adaxlanır. Sonra Andrey bir ara müalicə üçün başqa ölkəyə gedir. O qayıdıb gələnə kimi, Nataşaya burda, oğlanın atası, bacısı ögey münasibət bəsləyir. Halbuki bacısı dindar bir qadındır, xristiandır. Atası isə Nataşanı istəmir. Nataşada elə şövqlü əhvallar var ki, hələ özü onu dərk eləmir. Onda fərqli əhvallar var. Günlərin bir günü, ikinci dəfə, müharibə başlayır. Andrey həmin bacısıyla Nataşanın gözünün qabağında

ölür. Bu ölüm onları bir-birinə bağlayır. Onlar arasında ülvi bir ünsiyyət başlayır. Onlar öz aralarında Andrey haqqında danışmırlar, qorxurlar ki, danışsalar, onun varlığını, onunla bağlı xatirələri təhqir edərlər. Ona görə daim başqa qonularda danışırlar. Ancaq getdikcə görürlər ki, Andreyin varlığı bütünlüklə bunların varlığına hopub. Baxın, görün nə ortaya gəlir?! – Ata deyir, Şər Xeyirə xeyir verir. Əcəba, Şər xeyirli bir şey imişmi? Uzun çağlardır bu haqda düşünürəm. Belə çıxır ki, Şər yaxşı bir şey imiş. Ancaq Şər yaxşı bir şey ola bilməz, bu bəllidir. Ata nə demək istəyirmiş?! Baxın, müharibənin dəhşəti insanları bir-birinə necə bağladı. Çünkü insan ən ağır, çətin, əzablı məqamda insan olduğunu anladı, başqa insanın ona gərəkliyini dərk elədi. Bunlar bir-birinə necə gərək imiş. Adi bir zamanda zahirən hər şey öz axarında gedir. İnsanda olan olanaqlar aşkarlanmayıb. Fəlakət bunu aşkarladı. Fəlakətin aşkarladığı olanaqlar insanların həm özünü özünə tanıdır, həm də bir-birinə bağlayır. Bax, Şər Xeyirə xeyir verir budur. Yəni Ata deyir, Şər Xeyiri ortadan qaldıra bilmir, bəlli aşamalarda Xeyirə ziyan versə də... Tolstoydan mənim çıxardığım sonuc budur. Onunla bağlı yazacağım şeylər var.

Dünya ədəbiyatında, düşüncə klassikasında olan dühalar var. O dühaları yaxşı öyrənsən görərsən, Asif Atanın dediyinə doğmadır. O dühaların çabaları Asif Atanın dediyinə qulluq eləyir, bəs Asif Ata neyləyir?! – Asif Ata onların insanlığa göstərdikləri qulluğu böyüdür, yüksəldib İnam səviyyəsinə çatdırır, xalqın həyat tərzinə qaytarır. Asif Ata onlara deyir, mənim böyük bir ruhaniyyat sistemim var. Mənim yaratdığımda öz dühanın olanaqlarını yaşada bilərsən. Ona görə biz deyirik, Asif Ata bəşəriyyətin böyük dəyərlərinin məğzidir. Hər bir Bəşəri dəyər Asif Atanın Dünyabaxışının mayasında var, itmir. Bax, ona görə nə oxuyuram, nə düşünürəmsə, gəlib çıxıram Atanın dediklərinin təsdiqinə.

Bir də "deyilənlə yaşanan" məsələsi ilə bağlı demək istəyirəm. Bəzən söz deyirlər, sevgiylə deyirlər, ancaq o, ömürdə davamlı yaşamaya bilər. Belə hallar çox olur. Belə olanda söz havadan asılı qalır. Sözün cilalanması da, sözün gözəlləşməsi də, etkiyə çevrilməsi də yaşanan ömürdə özünü göstərir. Söz nə vaxt gözəlləşir – yaşamda, ömürdə ifadə olunanda. Ömürdə yaşananı urvatdan salanda söz

adiləşir. Dünyada böyük mənada müsbət addım atılmır. Məsələn, Bakıda biz çox söz deyə bilərik. Ancaq oradan bu sözün arxasınca bura gəlirsən, burdakıların sevincinə, fərəhinə ortaq olursan, onun yaratdığının bir daşını qaldırıb o birinin üstünə qoyursan, deyilən söz bir boy artır. Bax, bu olur yaşam. Yaşamda ecaz var, əsrar var, sirr var, cazibə var. O yaşam cəzb eləyir. Sözün özünü cazibəyə çevirir. Çünkü o sirr insanların baxışında üzə çıxır. Biz bütüm bəşər tarixində yaranan, yaşanan gözəlliklərin hamısının sirrini üzə çıxarırıq – sevgimizlə, əməyimizlə, əməlimizlə, gəlişimizlə, quruculuğumuzla. Bizim yaşamla deyim məsələmizin birliyi (vəhdəti) var. O birlik gözəl bir cazibəyə çevrilir. O cazibə bu gün heyrəti olanların sevgisinə keçir. Heyrəti olmayanların ən azından ilgisini çəkir (marağına daxil olur). İlgi (maraq) getdikcə böyüyüb Asif Atanın kim olduğuna boylanacaq, Onun kim olduğunu arayacaq, axtaracaq. Bizim işimiz ona qulluq eləyir. Asif Ataya yönələn o ilgilər, baxışlar (diqqətlər) son anda nəyi kəşf edəcək, hansı sirrə yetəcək?! – Bütövlükdə xalqın, insanlığın, bəşəriliyin gözəlliyinə, doluluğuna, yüksəkliyinə, gərəkliyinə. Asif Atada onlar toplanıb (cəm olub). Bütün məsələnin yönü budur.

İndi mən "özüylədöyüş" əməli ilə bağlı bir neçə söz demək istəyirəm. Bəzən deyirlər, Asif Atanın "özüylədöyüş" ideyası ondan qabaq da deyilib. Mən deyirəm, deyilməyib. Bu yaxınlarda əslən Güney Azərbaycandan olan bir soydaşımız – savadlı, 5 dil bilən, dünya klassiklərindən sorağı olan, mənə deyir, Asif Atanın dedikləri öncə də deyilib. Soruşdum, Asif Atanın dediklərini ondan öncə kim deyib, xahiş edirəm mənə de. Durub baxdı. Heç nə deyə bilmədi. Dedim deməyiblər. Mən orda vurğu elədim, bir var ideya, ideyanın məzmunu, bir var detalları. Oxşar detallar görürsən, deyirsən bunlar öncələr də vurğu edilib. İdeya verilməyib axı. Hardadır "Mütləqə İnam"? Hardadır "özüylədöyüş"? Özünütənqid var. Özünütənqid Özüylədöyüş deyil. Özünütənqid ən çox özgəliyin təsdiqi olub. Asif Atada özüylədöyüş tərbiyə deyil, özünün içini silib yenidən yazmaqdır. Yenidən doğulmaq ideyasıdır. Özünü kommunist ideyası uğrunda tərbiyə eləmək yox, özünün allahlıq xilqətini üzə çıxarmaqdır. Özünün içsəl gözəlliklərini, olanaqlarını üzə çıxarmaqdır. İnsan

olduğun dərk olunmalıdır. İçin kəşf olunmalıdır. Asif Ata deyir, içində Mütləq gəzdirirsən. Mütləq, yəni Əzəli, Əbədi, Kamil, Sonsuz olan. Onu sən təkcə içində gəzdirmirsən, ifadə eləyirsən. Onun əlamətlərini heyvan da gəzdirir, ancaq o ifadə eləyə bilmir. Çünkü onun ruhu – inamı, idrakı, mənəviyyatı, iradəsi yoxdur. Asif Ata onu izah eləyir, sən gör hansı bir zənginlikdə olan varlıqsan?! Bax, "Özüylə Döyüş" ora gətirib çıxarır adamı. Ancaq özüylə döyüş yolunda insanın qarşısına balacalıqlar çıxır öz içində. Heyrətinin qabağını eqoizm kəsir. Çünkü sən heyrətin yanında deyilsən, xudbinliyin yanındasan. Heyrəti eşitsəydin, heyrət keçərdi xudbinliyi...

Bir adam bir topluma tamamilə yeni düşüncə halı gətirə bilər. Yeni həyat nizamı gətirə bilər. İstər pis, istər yaxşı. Pis gətirdilər, sovetlər dağılandan sonra baxın qaydalarımıza, qanunlarımıza, toyumuza, vayımıza. Bir adam başladı, hamı xorla eləmədi ki. Ya da peyğəmbərlər, bir olub, həyata bəlli nizam gətiriblər. Görün insan özündə nə qədər böyük hikmət daşıyır.

Mən öncələr elə bilirdim, özüylədöyüş məsələsi bir yerə qədərdir. Son çağlarda anladım, bir yerə qədər deyil, çox yerə qədərdir. İnsanda o qədər dərinliklər var, o dərinlikləri açdıqca, aşkarladıqca yeni dərinliklər görünür. Özüylə döyüş təkcə qüsurları döymək deyil, içinin dərinliklərini hər mənada kəşf etməkdir.

"Xalqlaşma" işinə yönəlik də çalışmalarım çoxdur. Bu əməl Ocağın xalqda qurulmasını sağlayır. Söz yox, bunu hər kəs etməlidir. Bunun üçün Atanı mənim yanımda öymək yox, başqalarının yanında demək gərək. Mənim yanımda deməyə nə var, mən Atanın aşiqiyəm. Atanın aşiqi olmayanın yanında demək gərəkdir. Bunu eləmək Cəsarət tələb edir. Cəsarəti isə Ruhani bilik yaradır. Xalqlaşmanın əsas canı ruhani bilikdir. Bilməsən deyə bilmirsən, verə bilmirsən, cəsarətin də çatmır. "Həyatın çətinlikləri qarşısında İnamı yaşatmağın ləyaqəti" qonusu qoyulub gediş yazısında. Amaldaşlarımın hər biri mənim üçün qiymətlidir. Mən bəzən düşünürəm, gərək nələrisə gözə alım. Özümlə bağlı güzəşt eləmirəm. Ancaq amaldaşlarımla bağlı güzəşt edirəm ki, gücləri çatsın. Həyat çox mürəkkəbdir. Həyat çox mükəmməl qayğılar deməkdir. Qapıdan çölə çıxırsan, bütün o sorunlar səni çevrələyir. Onların içərisindən yol tapıb bir

bəlirti əldə edə bilmirsən (müəyyənliyə çıxa bilmirsən). Ona görə Ata deyir, Amal yolu gedəndə nə gecikmək olmaz, nə tələsmək olmaz. Bizim yolumuz yoxuşdur. Yoxuşu qaçmazlar. Yoxuşu dayanmazlar da. Səbrlə inad. Səbrlə inadı bizim tədbirlərimiz yaradır. Bizim tədbirlərimiz Amalın tələbini, ləyaqətini, gərəkliyini bütünlüklə açıb ortaya qoyur, izah edir. Ürəyi möhkəmləndirir, beyini möhkəmləndirir. Qətiyyəti artırır. Mən hesab eləyirəm ki, İnamı yaşatmağın ləyaqəti odur ki, insanlarımıza səbrlə sevgimizi verə bilək. Onların ağlının, ürəyinin böyüməsinə yön verək. Əgər bunlar olarsa, onun dizi yerə gəlməz. O axıra qədər bu yükü daşıyar. Hər zaman ələ keçmir ki, gözəl ürəklər, cəsarətli, hünərli, qüdrətli insanlar. Onu yaratmaq asan deyil.

Həyatın minimal tələbləri var. Gərək bir-birimizin yanında olaq. Bir-birimizin qayğılarımıza ayıq baxaq. Mən insanlara həsr olunmağa meyilliyəm. Ancaq xırda fədakalıqlara da getməyə meyilliyəm. Bilirsiniz, mənim prinsipim belədir: məsələn, mən Günevin qayğısına, acısına qoşulmalıyam. Yeri gələrsə, onun ac qalmasının qarşısını almalıyam. Çünkü Günev ömrünü mənim ömrümü verdiyim Amala həsr edir. Ancaq Günev ömrünü Amala deyil, öz məişətinə verirsə, mən də üstəlik ömrümü Günevin məişətinə verim, onda Ocaq yaranmır. Özünü öz həyatına verən adama həsr olunmağa gərək görmürəm. O kəs ki, öz həyatını yaşayır, getsin yaşasın. O kəs ki, millətinin, vətəninin gələcəyi üçün uğurlu bir addım atır, onun qayğılarına çiyin vermək olar. Burda həmin insanlar birlikdə qayğılarının üstünə yeriyə bilər. Birinin gücü çatmayanda o biri onun yanında olar...

Yükümüzdən Böyük Fərəhmiz Yoxdur!
Atamız Var olsun!

## *Toplantıda deyilən söz*
*(30 Ata Ayı, 35-ci il)*

Mən Ocaqçıların çıxışlarına qulaq asdıqca, zəif, ya güclü söz demələrindən asılı olmayaraq, hər dəfə ümidlənirəm. Ona görə ki, hər kəsin dediyi söz artıq hər kəsin özünün sözüdür. Bir çağlar söz demək üçün Ocaqçı özünə nəyisə təlqin edirdi, söz xatirinə deyirdi. Ancaq indi bu, uğurlu yaşamın görsənişi kimi özünü göstərir.

Bir dəfə "Qutsal Öyrənim Günü"ndə qonu qoymuşdum – Zərurət-Azadlıq məsələsi. Yaranan durumlarla bağlı baxışınızı yenidən o məsələyə yönəltmək istəyirəm. Marksistlər deyir, "Azadlıq dərk olunmuş Zərurətdir". Ata isə deyir, "Azadlıq rədd olunmuş Zərurətdir". Ata nə demək istəyir? Bir misal çəkim. Tutalım, bir insan dənizə düşüb, boğulur. Elə yerdədir, ona yardım edəcək kimsə görünmür. Belə görünür, onun ölümü zərurətə çevrilib. Gəlin görək, insan o zərurəti dərk edirmi? Məsələyə dərk olunmuş zərurət kimi yanaşılsa, onda insan əlini yanına salıb təslim olmalıdır. Ancaq təslim olmur, çabalayır, qurtulmağa calışır. Ya da başqa misal: Məcnun divanə olub düşür çöllərə. Leyli ölür, gömülür torpağa. Torpağa gömülən Leylinin yoxluğu zərurətdir. Bəs Məcnun divanəlikdən əl götürürmü, daha da çöllərə düşür. Bax, rədd edilmiş zərurət budur. Onun içi elə bir eşqlə dolub ki, o eşq, aşiqlik onu bütün toplumdan, bütün dünyadan yüksəkdə saxlayır. Yüksəkdə olduğu üçün bütün varlığı ilə azaddır. Azadlıq – onun üçün yaranan zərurəti rədd edir. Belə bir məsələyə baxaq. Bir var həyatdan gələn zərurət, bir də var ortamdan gələn zərurət. Belə ki, insan yeməlidir, içməlidir, bunun üçün işləməlidir, ömrünün böyük bir hissəsini əməyə həsr eləməlidir. Bu, zərurətdir, qaçılmaz bir şeydir. Ancaq eyni zamanda insanın içi başqa əhvallarla yüklüdür, o romantik duyğularla yaşamaq istəyir. Həyatda isə tamamilə başqa duyğuların yeriməsinə çalışır. Həyatda mövcud olmaq üçün əmək gərəkdir, işləmək gərəkdir. Mövcudluğun təminatıdır bu. Burda da, içəridə başqa əhvallar baş qaldırır. İnsan içində baş qaldıranın arxasınca tam gedə bilməsə də, onun üçün qaçılmaz olan zərurəti yenə rədd edir. Doğrudur, mütləq imtina həddinə gəlib

çıxmır, çünkü mövcud olmayacaq. Ancaq qane eləmir insanı işləmək, qidalanmaq, daha doğrusu, onda dayanıb qalmaq.

Bir də Ocaqçının özünün bağlılığı, azadlığı məsələsi gəlib çıxır ortaya. Hər bir Ocaqçı özü üçün ortamın yaratdığı zərurəti rədd edir. Qurbanlar verir, fədakarlıqlar edir. Hesablaşmır. Özünü yükün altına verir. Özünün azadlığını sanki məhdudlaşdırır. Bu, belədirmi? Belə olsaydı nə baş verərdi? Belə olsaydı 15 il yol gedə bilərdinmi? Gedə bilməzdin. Bu nədir? İnsan azadlığı dərk edir. Azadlığı dərk edir, görür ki, onun yaşamağının, varlığının hərəkətverici qüvvəsi Mütləqi tanımaqdır, Mütləqli olmaqdır.

Adam ən çox özündən qıraqdakı dış etkinin tələbiylə addımlar atır. Onun üçün gözə görünən, görünməyən əmrlər var. Xəyali qüvvələri demirəm. Məsələn, toplumun, hakimiyyətin, dövlətin etkisi var, gözə görünmür, ancaq onların yönətməsi ilə davranır, yaşayır insan. Bir var bu, nə addım atırsa, onun gözünə görünən, görünməyən qüvvələrin əmriylə atır. Toplumu nəzərdə tuturam. İnsana hərbidə əmr verirlər ki, adamı öldür. Hərbidə hərbçi öldürür. Ancaq öldürəndə düşünmür ki, öldürdüyünün sorumluluğu onun üzərindədir. Deyir, mənə əmr verildi, öldürdüm. Dış amilin iradəsini sorumluluğun altına qoyur, arxayınlaşır. Nə baş verir? Sorumluluğu dış (özündən qıraqdakı) iradənin boynuna qoyur, özü vicdanı sakit halda yaşaya bilir. Buna görə də dünya əyintidən əyintiyə uğrayır. Ancaq insan qətl törədirsə, insanı öldürürsə, əslində Allahı öldürür. Özünə bağlı, onun mövcudluğuna bağlı, onun varlığını təsdiq edən Allahı öldürür. Allahı öldürməklə, yəni onun ömrünü, həyatını mənalı edən bir faktı öldürməklə, insanın yaşaması nəyi ifadə edir? İnsan Allahı öldürməklə həyatın mənasından özünü məhrum edir. İnsan dış iradənin əmriylə insanı öldürməkdən qaça bilmirsə, özünü öldürməlidir. Çünkü Allahı öldürüb yaşamaqla yaşamamaq arasında heç bir fərq yoxdur. Deməli, özünü öldürməlidir. Əgər insan bunu dərk edərsə, bütövlükdə bəşəri nizam qurtuluş tapar. Asif Atanın dediyi odur. Asif Ata onu vermək istəyir İnsana. Ona görə də insan bu həqiqəti dərk edərsə, onun yaşamağının mənası olar. Ocaqçı üçün Azadlıq odur. Dış amilin əmrinə boyun əyməmək, nəinki boyun əyməmək, ona qarşı çıxmaq. Biz dış amilin əmriylə Allahın atribut-

larını – vicdanı, ləyaqəti i.a. öldürmürük, əmri rədd edirik, özümüzü də doğrulduruq. Azadlığımızı təmin edirik. Sənin həsr olunmağın odur. Sənə qəlib kimi görünən yükün altına girirsən. O yük qəlib kimi görünsə də, qəlib deyil, o sənin qurtuluşundur, Azadlığındır. Hər bir dış etkidən azad olmaq – Azadlığı təsdiq edir! Bütünlüklə içsəl halın etkisində yaşayırsan, öz iradənə tabe olursan. Öz iradənə yiyə olursan. Ocaqçının mənəviyyatının, mübarizəsinin dayaq nöqtəsi odur. Ata niyə dinləri rədd edir? Çünkü din insanı dış amilin tabeliyinə verir. Dış amilin tabeliyindədirsə, insan özü olaraq görünmür, bilinmir. İnsan özü olaraq həyat sürmür, varlığını ifadə eləmir. O insanın heyvanla, yəni Allahı öldürənlə heç bir fərqi qalmır. Müti, kölə. Hökm deyil ki, sən yanındakı insanı öldürəsən, içindəki insanı öldürürsən. Din insana öz içindəki insanı öldürtdürür. Köləlik, mütilik ifadə olunursa, təsdiq olunursa, içəridəki insan ölür. İçəridəki insanın ölməsi əslində Allahın ölməsi deməkdir.

Mən başqa ədəbiyyatları oxuyub araşdırıram, Atanı başqa ədəbiyyatların araçılığıyla da ifadə edirəm. İndi Tolstoyu araşdırıram. Əslində onun axtarışları, insan haqqındakı mülahizələri, həyat qənaətləri hamısı Atanı ifadə edir. Tolstoy Atadan öncə yaşayıb. Niyə Atanı ifadə edir?! Tolstoy çox böyük məktəbdir. Ancaq bir var köklü dəyişiklik, bir də var həyatda etik pozuntuları bərpa eləmək. Toplumsal pozuntuları bərpa eləməyə qulluq göstərmək. Tolstoy ikinci məsələyə bağlıdır, Asif Ata birinciyə. Asif Atada köklü dəyişiklik olduğuna görə Tolstoy Asif Ataya sığışır. Asif Ata Tolstoya sığışmır. Ancaq baxmayaraq ki, Asif Ata Tolstoydan daha geniş, daha zəngin, daha qapsamlıdır, bunlar arasında gözəl bir doğmalıq, gözəl bir hal yaranır.

Biz, Ocaq olaraq, başqa ədəbiyyatları niyə oxuyuruq? Zövq almaq üçün oxumuruq, başqalarından fərqlənmək üçün oxumuruq, başqalarından üstün bilik əldə eləmək üçün oxumuruq. Baxmayaraq, bilik bütün nəsnələri həyat gedişinə uyğunlaşdırmaq üçün əldə olunan uğurdur. Biz onun üçün oxumuruq. Biz onun üçün oxuyuruq ki, Asif Atanın dünyaya verdiyi ismarıcı anlaya bilək, eyni halda anlada bilək. Biz oxuduğumuzda elə sonuclar əldə edirik, Atanı topluma izhar edəndə bizim ayağımızın altında ciddi zəmin olsun. Oxu (oxumaq)

bizim üçün zəmindir. O zəmin üzərində dayanıb daha dərin, daha qapsamlı, daha bitkin şəkildə Asif Atanı topluma verə bilək. Buna yetə bilirik. Oxuduğumuzda böyük ideyanı deyə, görə bilmiriksə, onu oxumaq gərək deyil. Əlimizə aldığımız ədəbiyat gərək tələblərimizə cavab versin. Ona görə balaca ədəbiyat oxumuruq. Düşüncənin yetkinləşməsi, artması gərəkdir. Atanın yolunda sağlam addımlar atılması gərəkdir. Uğurlu sonuclar əldə etmək gərəkdir. Bütün çabalar yetirilməli, bəslənilməli, böyüməlidir. Çox zəngin yol keçmişik. Usanmadan, yorulmadan yol gəlirik. Çox ciddi uğurlara yetmişik. Bu uğurların hamısı bizi ayaqda saxlamaq üçün güclü bir həyat qüvvəsidir. Bu qüvvədən biz irəliyə doğru addım götürə bilirik. Ona görə də Ocağın ortamını qorumaq, gəlişdirmək üçün daim yeni düşüncələr, yeni axtarışlar gərəkdir – Ocaqçının yerişini, davamlılığını, verimliliyini gəlişdirmək üçün.

Bir məsələyə də düşüncəmi deyim. Toplumda adamlar arxa axtarır özlərinə. Bizə arxa gərək deyil. Arxa köləyə gərəkdir, toplumun quluna, məzlumuna gərəkdir. Adam o köləlikdən, o psixologiyadan çıxmasa, azadlığını anlamaz.

Yeni aya uğurlu başlamağımız, yeni əhvallarla dolmağımız gərəkdir. O qədər güclü olmalıyıq, səsimiz hər yerdən eşidilsin. Bizim mübarizəmizin genişlənməsi içəridən böyüməyimiz deməkdir. Ruhani güc, ruhani olanaqlar genişləndikcə hər bir addımın etki miqyası böyüyür.

## *Ailə Günü*

*(23 Xəzan Ayı, 35-ci il)*

Amallaşmamla bağlı çox geniş danışa bilərəm. Çünkü çox geniş amallaşıram. Özü də elə öyrənirəm, hər bir qaranlıq nöqtəni Atanın işığıyla aydınlaşdıra bilim. Bu baxımdan, hər birinizə ayrılıqda demişəm, indi də deyim, bədii ədəbiyatın olanaqlarından uğurla yararlanıram. Asif Atanın baxışının dünyaya gərəkliyini hər çalarıyla aydınlaşdırmağa çalışıram. Əlbəttə, həm özümə, həm də

başqalarına. Mən böyük ədəbiyatlarla uğraşdıqca qarşıma çoxsaylı suallar çıxır. O suallara cavabı Ata ölçüsüylə vermək istəyirəm.

Mən həmişə demişəm, hər bir Ocaq Evladı içində Ata obrazı yaratmalıdır, onunla özünə atalıq eləməlidir. Asif Ata gerçək olaraq yanımızda yoxdur, ancaq bizim Atayla özümüzə Atalıq eləmək olanağımız var. Ona görə biz sorumluluq daşıyırıq. Elə bir düzəyə gəlib çıxmışıq, heç bir sərbəstliyə meyil eləmirik. Adiləşməni nəzərdə tuturam. Bu çox böyük uğurdur, biz həmişə özümüzü Atanın qarşısında bilirik.

İndi Amallaşmamın bəzi məqamlarna toxunmaq istəyirəm. Nədir baxışımı çəkən, İnsan kimdir, Həyat nədir, İnsan niyə həyata gəlir, ya da insan həyatda necə yaşamalıdır, özünün azadlığına necə çatmalıdır, nə üçün itirib azadlığını? – Bunlar Asf Atanın əqidəsinin ortaya gətirdiyi, cavab verdiyi suallardır. Bu sualları bu, ya başqa biçimdə Ataya verənlər olub. Mənə doğmadır. Tolstoy da o sualları verir. İnsan nə deməkdir? Biz niyə heyvanat aləmindən böyük mənada fərqlənə bilmirik, fərqlənmək istəmirik? Bu sualların cavabını aydınlaşdırmaq istəyirəm. Atanı bu cür öyrənirəm.

Müharibələr olur, siyasət dövlətlərarası münasibətləri tamamilə əyintilərə uğradıb. Dövlətlərarası münasibətlər tamamilə yadlıq, yağılıq həddinə çatıb. Heç bir dövlət başqa bir dövlətə ziyan vermədən yaşamaq istəmir. Bu hal xalqların psixologiyasına yeriyir. Xalqlar bir-birinə düşmən gözüylə baxır.

Bu gün Rusiyada gedən proseslər nəyin ifadəsidir? Üzdə baxanda bir azərbaycanlı bir rusu öldürüb, onlar da ayağa qalxır ki, azərbaycanlı gəlib içimizdə yaşayır, çörəyimizi yeyir, hələ üstəlik insanımızı da öldürür. Bu, əməlin üzdən görünən cəhətidir. Siyasətin dediyi başqa çalarlar var. Rusiya Azərbaycanı sıxma-boğmaya salır ki, sən “Avrasiya ittifaqı”na girməlisən, gömrük aktlarına qol çəkməlisən, o da çəkmir. Rusiya da başlayır azərbaycanlıları orda sıxışdırmağa, yerini dar eləməyə. Azərbaycana bu cür araclarla basqı göstərir. Bu biri yandan başqa qüvvə basqı göstərir ki, onun yox, mənim boyunduruğumda olmalısan.

Bütün bunları dövlətlər təşkil eləyir, dövlətlər həyata keçirir. Baxın, dövlətlərin həyata keçirdiyi bu eybəcərliklərin, insana qarşı

atılan bu cür murdarlıqların hamısı yığılır, böyük bir üfunət boşluğu yaradır. Düşürsən o boşluğa, əlin-ayağın yerdən üzülür. İnsan olaraq, heç nə haqqında düşünə bilmirsən. Nə müqəddəslik var, nə xalq var, nə insan var, nə gözəllik var. Heç nə yoxdur. Nə var? Üfunət. Üfunətdə yaşamaqmı olar? Məhv olmaq olar, boğulmaq olar. O ruhu Tolstoyun əsəri üstündə araşdıra-araşdıra gəlib çıxdım Asif Atanın "Ruhani Dövlət" ideyasının üzərində dayandım. Nə qədər yüksək əxlaq zəminində ortaya atılmış bir ideyadır – Ruhani dövlət.

Ya da bütün dövrləri qapsayan insan fəlakəti. İnsanın vara, dövlətə həris olması, tamah salması, bunun da əsasında münasibət qurması bütün dövrlərdə eyni xarakter daşıyıb. Bir az öncəki dövrdə də, indi də eyni xarakter daşıyır. Heç nə dəyişməyib. İnsanın tamah saldığı, maddi nemətlərə göstərdiyi münasibət əsasında bağlantılar qurulur. Bax, bunu ədiblər də vurğu eləyir. Mən də araşdıra-araşdıra görürəm, İnamın zəruriliyi insanın qarşısında dikəlib. Yəni bəşəriyyətin qarşısına dikəlib.

O dövrün kübar toplumunun münasibətləri ilə bu dövrün guya gəlişmiş toplumunun münasibətləri arasında fərq axtarıram, tapa bilmirəm. Uyğunluq görürəm. Bu da özündən sonrakı zamana nə ötürür? Gəlin görək Quldarlıq aradan qalxıbmı?! O gün qəzetdə oxuyuram, araşdırıblar ki, 30 milyondan artıq insan qul səviyyəsində yaşayır. Təsəvvür edirsinizmi?! Qul səviyyəsi varsa, istər 35 milyon yaşasın, istər 350 milyon, Quldarlıq aradan qalxmayıb. Nisbi xarakter daşıyır. Ancaq sayın az olmasına baxmayaraq, genel toplumun halı, uyumu, nizamı Quldarlıq prinsiplərinə uyğundur. Öz toplumumuzu götürək, bu gün elə bir insan tapa bilməzsən ki, o, nevroloji olaraq, psixoloji olaraq sağlamdır. Xəstəliyi nədir yaradan? – Toplumun nizamı, uyumu (ahəngi) pozulub. Nədən hamı bir-birini ilan kimi çalmağa, məhv eləməyə hazırdır? İnsanın insana heç bir sevgisi, saygısı yoxdur. Hara gedir bu? Bax, bunların hamısını mən o əsərlərdən oxuya-oxuya gəlirəm ki, XIX-XVIII yüzil nə idisə, bugünkü də odur. Ona görə böyük zərurət yaranıb Asif Atanın "Mütləqə İnam"ına. Gəlib çıxıram onun üstünə. Mənim amallaşmam bu səviyyədə gedir. Doğrudan da biz bir əqidəyə tapınmışıq, arxasınca düşüb illərlə yol gedirik deyə Asif Atanı öymürük, toplumumuzu da özümüzün baş

üstə deyib yapışdığımıza görə “sən də gəl, ondan yapış” demirik. Biz toplumal fəlakətləri anlayırıq, öyrənirik. İnsanın sorunlarını anlayırıq. Ona görə də Atanın hikmətinin qüdrətini anlatmaq istəyirik. Bizim çağırışımız budur. Biz Asif Ataya müəllim kimi baxmırıq. Bütün dövrlərdə yüksək düşüncə adamları, mütəfəkkirlər, ədiblər, çoxluq baxımından, bütün sorunların nədənini sosial sorunların böyüməsində, çoxalmasında axtarıblar. Yəni toplumsal (ictimai) ədalətsizliyin çoxalmasında. O nöqtədən başlayıblar topluma ismarıclar verməyə. Ancaq heç nəyə yetməyiblər. Asif Ata isə deyir, bütün sorunların hamısının nədəni insanın içindədir. İnsanın içindəki sədaqətsizlik, vətənsizlik, həqiqətsizlik, ədalətsizlik suçundadır. Burdan başlamaq gərəkdir. İnsanı burdan qaldırmaq gərəkdir ki, sosial ədalətsizlik dediyin sorunlar aradan qalxsın. Sosial ədalətsizlik nə deməkdir, onu Quruluş yaradır?! Quruluş yaratmır axı. İnsan yaradır. Asif Ata sübut edir ki, bütün sorunların qaynağı bireysəl sorunlardır.

Mən Tolstoyda da məsələyə bu yöndən baxıram, öyrənirəm. Onun bundan öncə “Anna Karenina”sını oxumuşam. Anna o dövrün ictimai qayda-qanunları, prinsipləri əsasında, tələb olunan səviyyədə ailə quran kübar cəmiyyətin nümayəndəsidir. Əri dövlət məmurudur, pis adam da deyil. Bir körpəsi də var. Yəni normal bir ailədir. Özü də cavan bir qadındır. Günün birində bacısının ailə sorunlarını yoluna qoymaq üçün Rusiyanın başqa bir bölgəsinə gedir. Orada Vronski ilə rastlaşır. Vronski onun içinə bir qığılcım atır. Hardan alıb atır? Onun öz içindədir özülü. Sarsılır, özünə yer tapa bilmir. Onun içində başqa əhvallar baş qaldırır, başqa istəklər üzə çıxır, xəyanət edir. Ərinə xəyanət edir, körpəsinə xəyanət edir. Sonra da, bu xəyanətin sonucu olaraq, həyat gözündən düşür. Özü də gözündən düşür. Ölüm o qədər adiləşir ki, ölümlə həyat arasında fərq onun üçün aradan qalxır. Gedib özünü qatarın altına atır, ölür. Bu normal bir tendensiya deyil. Əslində biz bunu toplumda həmişə görürük. Nə baş verdi? Axı bu sürüşkən bir qadın deyildi. Bu o deməkdir ki, insan heç vaxt özünü normal aşkarlamaq olanağı tapmır toplumda. İçində məhəbbət aşkarlanmır. Məhəbbət əsasında ailə qurmur. Ruhani istəklərini aşkarlaya bilmir. O ehtiraslar, çılğınlıqlar özünü başqasında tapma səviyyəsində aşkarlanmır, yaranmır, boğulur. Quru, cansız

dövlət məmuru onun ruhani tələblərinə cavab vermir. Günlərin bir günü onun içində o keyfiyyətlər aşkarlanıb üzə çıxır, bu halın qabağında Anna özüylə bacarmır. O məqamlar qeyri-adi məqamlardır – yüksək münasibətlər, bağlılıqlar yerinə cansız, soyuq həyat onu təmin etmir. Qalır fakt qarşısında. Bu addım xəyanətdir, bunu demək, insanı yamanlamaq da asandır. Səbəbi isə heç kim düşünmür. Adam vicdanla ilahi istəklərin, ehtirasların arasında qalır. Halbuki insanın ömründə vicdanla romantik əhvallar birlik (vəhdət) təşkil etməlidir, etmir. Çünkü toplum normal qurulmayıb, insan öz qiymətini tapmayıb. Ona görə də içsəl (daxili) ehtiraslarla vicdan arasında seçim qarşısında qalır. Birincini seçəndə xəyanət olur, o birini seçəndə özündən ayrılma. Bax, Asif Ata insanı özünə çatdırmağın açarını tapıb. Bunun həllini tapıb. Həlli odur ki, insana imkan ver, böyüsün, özünə yiyə çıxsın, içindəkiləri aşkarlasın, özünü ruhani ifadə eləsin, daxili azadlığına yetsin. Həyat nizamını daxili azadlığı səviyyəsində qursun, təmin eləsin.

Asif Atanın topluma dediyi ideyalar şüar deyil, quru nəzəriyyə deyil. Gerçək həyatın aydınca qurulması üçün açardır, nizamdır. Olduqca gerçək əsaslar üzərində qurulub, gerçək zəmin hazırlayır. O zəmini biz, Asif Atanı içimizdə yaşatmaqla, gerçəkləşdiririk...

### *Ailə Günü*

*(27 Xəzan Ayı, 35-ci il)*

**...**Bizim tədbirlərin hamısı həm məktəbdir, həm də ruhani mühitdir. Özünü ifadə eləmək mühitidir, söz demək mühitidir. Bəzən Amaldaşlarımız tədbirdə söz demirlər, bu, sözü deməyin sorumluluğundan irəli gəlir. Bir halda ki, məktəbdə özümüzü hiss edirik, məktəbdə danışmaq ciddi məsələdir, o yerdə ki, biz öyrənirik, öyrədirik, danışırıq, öyrəndikcə, öyrətdikcə sözümüz yaranır. Səfərdən söhbət açdıq. Səfər nə deməkdir?! Asif Atanın Ailə mərasimlərində Ocaqçının düşüncəsini bildirməsi, söz deməsi üçün Ailənin qarşısına qoyduğu tələb var. Bu tələblərdən biri – Amallaşma hesabatı

verməkdir, ikinci – Kamilləşmə – özüylə döyüş, özünü yaratma, üçüncü də – Xalqlaşma hesabatıdır ki, Amalın tələblərini hər yerdə, həmişə xalqa çatdırmaq yönündədir. Bizim xalqlaşma işimiz həm birbaşa canlı ünsiyyətlərdən keçir, həm də yazıdan, ədəbiyatlardan. Tədbirləri səsdən sözə çeviririk, kitablaşdırırıq, onu elektron mətbuata çıxarırıq, kitablar hazırlayırıq, kitablar evlərə gedir, bağışlanır, bunların hamısı xalqın içində ruhani halın yaranmasına yol açmaqdır. Xalqın içində onun öz insanının, aydınının İnam sözü deməsidir. Evlad bu işin nə demək olduğunu dərk edir, fərqinə vara bilir. Səfər məsələsi olduqca önəmli məsələdir, sabaha dönən bir yöndür. Burada bu addımı atmağın özü üçün də birinci dediyimiz şərtlər ödənməlidir. Xalqın içinə kim çıxa bilir?! – O kəs çıxır ki, onun içi olur. Bu içdə güc olur, söz olur, qüdrət olur. Xalqın içinə biz ruhani sözlə çıxırıq, qurucu, gələcəkli sözlə çıxırıq. Xalqın içinə biz təbliğatla çıxmırıq. Xalqın içinə getmirik ki, bizi prezident seç. Onun özünün bir ayrı tələbi var. O, bugünlə bağlı bir şeydir. Gəl məni deputat seç, gəl məni prezident seç. Bunlar bugünlə bağlı şeylərdir. Biz xalqın gələcəyinə söz deyirik. Gələcəkli söz də gərək yaransın. Bu məktəb ondan ötrüdür, özünü yaradasan. Amallaşma – Ruhani biliyə, ruhani hikmətə yetmək deməkdir. Həqiqətlə dolmaq deməkdir. Həqiqətlə dolmayanın xalqın içinə getməyə gücü, cəsarəti olmaz. Xalqın içinə yalanla gedilmir ki?! Xalqın içinə tamadalıq səviyyəsində gedilmir ki?! Bu məsələ olduqca böyük önəm daşıyır. Bizim də səfərlərimizin məqsədi budur. Biz səfərdə xalqı həm görürük, tanıyırıq, həm də xalqa çatdırmaq istədiklərimizi, demək istədiklərimizi vermək olanağı əldə edirik, ortam yaradırıq. Bu, bəzən insanın özünün də fərqinə varmadığı min ilə dediyi sözdür. Məsələn, Şəms Təbrizli ilə Ruminin münasibətini aydınlaşdırsaq nə görərik – iki yetkin insanın arasındakı münasibət o qədər dolu, dolğun, dərin məzmunlu olur ki, o qədər insani, bəşəri məzmun təşkil edir ki, bu ünsiyyət min il yol gedir. Şəms Təbrizlinin bu günə kitabı qalmayıb. Ayrı-ayrı epizodik nələrsə var. Ancaq onu biz xalq olaraq, bəşər olaraq yüz illərdir ki, izləyirik. Şəmsin bugünə nəyi gəlib çıxıb?! Münasibət hikməti gəlib çıxıb. Özünüdərk hikməti gəlib çıxıb. İnsanı sevmək hikməti gəlib çıxıb. Biz onlardan bəhrələnirik. Xalq belə hikmətlərin üzərində

oluşur. Xalq kortəbii bağırtıların üzərində oluşmur. Belə münasibətlərin üzərində oluşan xalqın gələcəyi olur. Bu baxımdan bizim səfərlərin önəmi böyükdür.

Toplumda hansı ehtiyac yaranırsa, insanlar da ona köklənir, ona meyil edir. Sadə şeylər deyirəm, sovet vaxtı təhsildə kimi dindirirdin deyirdi, mən prokuror olacam. Borçalıda deyirdilər, mən saza gedəcəm. Aşığın yanına gedib saz öyərənəcəm (bu yaxşı ehtiyacdır). O, toplumda yaranan ehtiyacdır. Ehtiyac nədirsə, axın ora olur. Bugün bizim toplumda nəyə ehtiyac yaranıbsa, axın da oradır. Bu günlərdə bir adamın dediklərini dinlədim, deyir, haqqın yolunu tapmaq istəyirəm, gedib mollalıq edəcəm, iki yas məclisinə getsəm bəsimdir. Qəbirstanlıqda iki surə oxusam bəsimdir. Bunu deyən yüksək təhsillidir, deyir, axşama qədər yüyürürəm ora-bura, pul tapa bilmirəm, ən doğru yol budur. Eləməyib ha, ancaq ürəyindən keçir. Toplumda ona ehtiyac yaranıb. Özəllikcə bölgələrdə, gənclər ora yüyürür. Mənim qonşumun balaları nənəsindən öyrənir, abdəst alır. Göz nəyi görür, şüur nəyə yönəlirsə, toplumda nəyə ehtiyac yaradılırsa, əsas axın ora gedir. Biz nə istəyirik? Biz bölgələrə gedirik, çoxsaylı adamlarla görüşürük. Xalqın özünün içində ehtiyacı dəyişmək istəyirik. Sənin ehtiyacın nəyə olmalıdır? Onu bəlirləmək istəyirik. Çünkü ehtiyacı bilmirlər, sən yaratmırsan, başqası gəlib yaradır. Başqası da özünəyarar ehtiyac yaradacaq, bu xalqa uyğun ehtiyac yaratmaz ki! Əslində ruhani tələbin, ruhani faktın, ruhani olayın görəcəyi işlər bunca qapsamlı, bunca genişdir, dəyərlidir.

Mən həmişə vurğu edirəm ki, insanlarımız ünsiyyətə can atmalıdır. Ünsiyyətə nə vaxt can atacaqsan?! Ünsiyyətə hər vaxt can atmaq olmur. Ünsiyyətə can atmaq üçün birinci, o ünsiyyətin tələbinə uyğun içdə ehtiyac olmalıdır. İkinci, o ehtiyacı ödəmək üçün zəngin, Ruhani hal olmalıdır, yön olmalıdır. Biz nə vaxt o ehtiyacı hiss edə bilərik?! – İçdə onu özümüz yaradanda. Ünsiyyət çox dərin, mənəvi məsələdir. Onun böyük, zəngin, ruhani özünəxaslığı, əsasları var. Mənəvi ehtiyacda adam özünü ifadə edir, alır, verir, dolur. İnsan başqası üçün mənəvi ehtiyacı ödəyəndə, həm də, özü zənginləşir. Bəzən görürsən, ayrı-ayrı qohumlarla söhbət edəndə yuxu tutur onları. Çünkü mənim mənəvi ehtiyacım nağıldır onlar üçün. Əgər

bunu insan anlamırsa, düşünmürsə hansı xalqdan, hansı gələcəkdən danışırsan?! Gələcək haqqında onun ağlında bəlirti yoxdur. Heç nə düşünmür. Bir deyil, iki deyil, bütöv toplum belədir. Toplumun ağlında gələcək bəlirlənməyib. Onun ağlında insan yoxdur, dövlət yoxdur, millət yoxdur. Mən səfərdə söhbət edərkən insanların heyranlığında nə görürəm?! – Bu heyranlığa qədər onların ağlında, düşüncəsində vətən, millət, gələcək obrazları yetkin deyil. İnsanın içinə balaca bir qığılcım atırsan, ayılır ki, o insan imiş, varlıq imiş, əşya deyilmiş. Bu məsələ olduqca önəmlidir. Bütün zamanlarda eyitimçilərin işi kütləni kütlükdən çıxartmaq olub. Biz kütləni kütlükdən çıxarmağa çalışan aydınların çabalarına dəyər veririk, ancaq bunu Ocaq üçün, yəni özümüzün görməli olduğumuz iş açısından az sayırıq. Asif Atanın işi – Xalqın içində İnama ehtiyac məsələsidir.

Ocaqçılar özüylədöyüş hesabatı verirlər. Özüylədöyüş hesabatında öz qüsurlarının üzərinə yeriyirlər. Bu yaxşıdır, ancaq zarımaq olmaz, müsəlman kimi hesabat vermək olmaz. Müsəlman deyir: "mən bəndəyəm, cılızam, bəsitəm, Allah böyükdür, yüksəkdir, filandır. O hara, mən hara, mən o ola bilmərəm".

Ocaqçının özüylədöyüş hesabatı Özünüyaratma yönündədir. Mənim hansısa bir nöqsanım var, bəsitliyim var, adiliyim var, filan. Ancaq bu durumda qalmıram, döyüşürəm, artıram, böyüyürəm – Mütləqə qovuşuram. Özünü tanıyanda adam fərəhlənməlidir. Çünkü özünü tanımısansa, deməli, başlamısan artıq. Qorxa-qorxa, günahkar, suçlu, zəlil bir varlığa çevrilmək yox, özüylə döyüşə-döyüşə özünə inanmaq! Ocaq o qədər böyük addımlar atıb ki. Həm də böyük ədəbiyyatlar yaradıb. Mən sizə böyük sorumluluqla deyirəm, bu ədəbiyyatlar yüz illərlə araşdırılıb öyrəniləcək. Beyləqanda İnam Evinin gündəliyini mən başladım ki, Günev davam eləsin. Orda birinci cümləm odur ki, zaman gələcək, burada sənin yazdığın hikmət, əməl, hünər sabah sənin xalqının toyunda, yasında, evində danışacağı söyləmlərə, söhbətlərə çevriləcək. Onun qədrini bilmək gərəkdir. Bunlar quruculuğun, quruculların söhbətidir, məsələsidir. Böyük ədəbiyat böyük gələcəyə aparan bir məsələdir. Ata bu gün Ocağın idrakıdır, yönüdür, xəttidir, stimul verən gücüdür. Bu işlər

təkcə çeviklik deyil, içərinin sevgisi, fərəhidir. O fərəh işıq kimi işin üzərinə düşür...

### *Ailə Günü*

*(9 Yağış Ayi, 35-ci il)*

Amallaşma, Xalqlaşma, Kamilləşmə hesabatımızı verək. Bunu verməzdən öncə bir xatırlatma eləmək istəyirəm. Ailə Günlərimizdə izlədiyim yeniliyi vurğulamaq istəyirəm. Öncələr Ailə Günlərini keçirəndə ehtiyatlı davranırdıq, standart keçirirdik. Birdən artıq söz deyərik, qırağa çıxmalar ola bilər... Ancaq bu gün o hallar ortadan gedib. Sonuncu ayları deyirəm. O da bir aşama idi. Biz Ocağa yeni gələn çağlarda o cür ehtiyatlılıqla, içimizdəki həmin yasaqla özümüzü tərbiyə edirdik. O yasağa ehtiyac vardı, çünkü biz o səviyyədə deyildik ki, bir-birimizin sözünü kəsmədən, lağlağı etmədən, qırağa çıxmadan mərasimi böyük bir ləyaqətlə, sevgiylə, Amaldaşlara qarşı doğmalıqla başa çatdıraq. Bu, çətin idi. Bizim onda nə qəlbimizin gücü vardı, nə də böyük mənada ağlımızın. Ona görə də o yasaqlar gərəkli idi, bir aşama təşkil edirdi, qaçılmaz idi. İndi ona ehtiyac qalmır, çünkü biz yol keçmişik, içəridən böyümüşük, yetkin, ruhani hala dolmuşuq. Mərasim nədir, Ailə nədir, Evlad kimdir, bunu çox gözəl bilirik. Bir də yasaq məsələsini ona görə burda vurğu elədim ki, bundan sonrakı qonumuza aydınlıq gətirəndə bir məsələyə toxunmalı olacağıq, dində yasaq, qorxu məsələsi. Biz bu məsələyə Asif Atanın Ocağı olaraq, sxematik yanaşmırıq. Qonu var, bu qorxu hansı şərtlər əsasında qurulub. Qorxu, yasaq necə meydana çıxdı, olmamalıydımı? Aşama idimi, ya nə? Bunlara qısa bir aydınlıq gətirməliyik.

İndi isə Amallaşma ilə bağlı onu deyim, mən Atanın ideyalarını, yolunu hər gün düşünürəm, hər gün də onun bir çalarını, cəhətini özüm üçün aydınlaşdırmağa çalışıram. Söz yox, mənim ömrümün yönü budur. Ona görə yenə də bəzi çalarlara üz tuturam. Dünyaya münasibət məsələsi. Dünyanı bütöv görmək, götürmək gərəkdir, dünyaya bir yöndən yanaşanda adam aldanır. Tutalım, dünyaya

mәna gözüylә baxırıq, başqa cür görürük. Ancaq gerçәkliyin gözüylә baxanda görürük o deyil. Әgәr biz buna yetkin olmayan bir idrakla yanaşarıqsa, ürәyimiz qırılar ki, bizim istәyimiz romantikadır, xәyallarda var, gerçәklikdә o yoxdur. Ancaq biz gerçәkliyin nә demәk olduğunu özümüz üçün aydınlaşdıranda Mәna ilә Gerçәklik arasındakı tәzadda boşluğa düşmәyәcәyik, mәhv olmayacağıq. Әsas mәsәlә odur, biz orada qorunuruq, üzülmәkdәn qurtuluruq. Bizim yetkinliyimiz bizi orada qurtara bilir. Ona görә dә Atanı Gerçәkliklә bәlli bir münasibәtdә araşdırmaq, öyrәnmәk uğurlu bir izah doğura bilәr, uğurlu bir sonuc ortaya çıxara bilәr.

Mәn Ordubadini oxuyuram. Oxu`mun (mütaliәmin) çeşidli olması әdәbiyata olan hәvәsimdәn, ya da romantik әhvalımdan deyil, Atanı izah elәmәk, onun ideallarını tanıtmaq anlamı daşıyır. Ordubadi Nizaminin dövrünü ifadә elәyib. O dövrdә insanlararası münasibәtlәr, dövlәt-xalq münasibәtlәri, ya da xilafәtin ağalığının sınırları, Azәrbaycanın toplumsal hәyatında xilafәtin etkisi, fәlakәtlәr, boşluqlar yaxşı ifadә olunub. Nә üçün bunların adını çәkirәm?! – 12-ci yüzildә insana münasibәtlә 21-ci yüzildә insana münasibәt arasında çox ciddi bir bәrabәrlik var. Dövlәt başında duranların hәyata münasibәtindә, xalqına münasibәtindә, yurduna münasibәtindә olan uyğunluq dәhşәtli mәqam ortaya çıxarır. Aclıq, insanı qul yerinә qoyub әmәyini qullanmaq, qadınlardan hәrәmxanalarda qullanmaq bu gün dә var. Sadәcә olaraq, onu bizdәn gizlәyirlәr. Üzdә biz onu görmürük, ancaq hәr şey öncәki çağlarda olduğu kimi var. Yaxşı, bәs onda tәrәqqi nә demәkdir? Dәyişiklik nә demәkdir, hardadır o dәyişiklik? Onda 21-ci yüzilә niyә 21-ci yüzil deyirik, onda elә deyәk 12-ci yüzil. Bu mәsәlәni izah edәndә Asif Atanın ortaya çıxmasının nәdәnini anlayırıq. Biz Asif Atanın "Azәrbaycanımız – Azәrbaycanlığımız" harayını eşidәndә Azәrbaycanı tanıyırıq, Azәrbaycanın dәyәrini görürük, sevinirik. Bu, Asif Atanın işinin çox az bir cәhәtidir. Asif Ata bütövlükdә bәşәr sivilizasiyasının yönünü dәyişmәk üçün ayağa durub. Bunu aşama-aşama elan edib, izah edib: buna onun gücü çatacaqmı, çatmaycaqmı; nәylә çata bilәr gücü, nәylә çatmaya bilәr; necә olar çata bilәr, necә olar çatmaya bilәr?! – Bu mәsәlә olduqca böyük bir hikmәtdir, böyük bir hәqiqәtdir.

İnsanlığın tarixi mövcudolmanın tarixi ilə ölçülmür. Ya da biz onunla ölçmürük. Bəzən bir neçə on min ilə qədər fiziki mövcudluq tarixi uzanır. Ancaq biz, aşağı-yuxarı, Şumer-Babil-Akkard mədəniyyətinin çağından üzü bu yana olan dönəmə sivilizasiyanın başlaması tarixi kimi baxırıq. Bu, az vaxt deyil, 10-12 min il deməkdir. 10-12 min ildə insanlıq hardan-hara gəlib. Bunu Asif Ata əsaslı şəkildə öyrənib. Bu aralığın içində insan arayıb, insana münasibət axtarıb. Təkcə VII yüzillə çağımız arasındakı tutuşdurmalarda axtarmayıb. Elmə bəlli olan ilk sivilizasiya ilə indiki sivilizasiya arasında axtarıb. Şumerdə başlayıb dövlət, mədəniyyət, sənət. Bir başlanğıc olaraq, bu, gözəldir, aşamadır. Ancaq bütöv deyil, kimi qane edə bilər ki? Ondan sonra gəlib orta çağlar, ya da miladın ilk çağları. Ondan da bir az bu üzə göyel dinlərin başlaması. Baxın, elmin bizə dediyi sivilizasiyaya qədər, ictimai-iqtisadi formasiyaların ilki, birincisi ibtidai icma dövrüdür. İnsanın sürü halında yaşaması dövrü. İnsan sürü halında yaşayır, qəbilələr formalaşır, tayfalar əmələ gəlir. Bu qəbilələr, tayfalar arasında toqquşmalar gedir. Bu döyüşlərin əsasında həyat uğrunda mübarizə dayanır. Həqiqət uğrunda deyil, insan uğrunda deyil, həyat uğrunda mübarizə dayanır. Qidanın, yeyiləcək bir şeylərin əldə olunması uğrunda mübarizə gedib. Dəhşətli dərəcədə bir-birlərini qırıblar. Hazır neməti bir-birlərinin əlindən almaq üçün bu qırğınlara gediblər. Ancaq anlayıblar ki, hazır nemətlər hardasa qurtarır, bunları əkib-becərmək gərəkdir. Onları əkib-becərmək istəyəndə görürlər ki, əsir götürdükləri insanları öldürmək gərək deyil, onları işlətmək gərəkdir. Onları işlədiblər, əməyini qullanıblar. Yeni aşama başlayıb, qul-quldarlıq dövrü. Sonra getdikcə torpağa, mülkiyyətə yiyələnmək məsələsi ortaya çıxıb. Beləliklə, Quldarlıq Feodalizmə keçib – Yeni ictimai-iqtisadi formasiya. Bunlar arasında yüz illər, min illər zaman keçir. Ancaq yenə də insan ağlı, insan düşüncəsi əsaslı dəyişməyib, gerçəklikdə gəlişmə gedib. Yalnız üzdəki yaşamda gəlişmə gedib, üzdə yeniliklər olub. Sonra başlayıb sənayeləşmə. Sənayenin yaranması ilə Kapitalizm başlayıb. Sənaye ilə texnologiyanın gəlişməsi başlayıb. Kapitalizmin daha yüksək aşaması gəlib çıxıb. Sosializm arada qırılan bir şey oldu, arada ideya olaraq, nəzəriyyə olaraq mövcud oldu, yaşaya bilmədi.

Dediyimiz kimi, formasiyaların içində insana münasibətin olmaması, insanın qiymətini tapmaması, insani bağlılıqların müqəddəslik, ülvilik tanımaması. Axır göyel dinlər yarandı. Peyğəmbərlik yarandı müqəddəslik harayı çəkmək üçün. İnsanların eybəcərlikdən əl çəkməsi üçün. Gəlib çıxdı Renesans dövrü, Avropada elm başladı dirçəlməyə. Kainatın başqa ünsürlərinin fəth olunması baş verdi. Ancaq yenə də insan yoxdur, yenə insani münasibət yoxdur, yenə insan qiymətini tapmır. Peyğəmbərlərin də vurğu elədiyi məsələlər hamısı insandan qıraqda oldu... Bütün bunları biləndən sonra Asif Atanın ortaya çıxmasının nədəni bəlli olur. Asif Ata bütün baxışları insanın üzərinə yönəltdi, insanı kainatın ortasına (mərkəzinə) qoydu. Ancaq o bunu həvəs üçün eləmədi. Asif Ata öyrəndi ki, dünyanı qurtarmaq üçün insanın yerini, dəyərini doğru bəlirləmək gərəkdir. İnsan dünyanın nizamıdır. Asif Ata insanı bütünlüklə öyrənəndən sonra belə düşüncəyə gəlib, daha doğrusu, belə bir soruya cavab verməyə çalışıb: axı necə ola bilər, kainatı fəth eləyəsən, özünü fəth eləyə bilməyəsən?! Yəni Asif Atada İnsanın baxış mərkəzinə gətirilməsi, etiqad səviyyəsinə gətirilməsi təsadüfi deyil. Burada məsələ gəlib dayanır dünyabaxışın özül prinsipinə. Biz ritorik soru yazmışıq – "Allahmı, Mütləqmi?". Asif Ataya qədər Allah (yəni Mütləq olanı axtarmaq gedişi) axtarışı yanlış deyil, yanlış – Mütləqə təyin verməkdədir. Dünyanın qurtarılması qaçılmazdır, gərəklidir, çünkü dünya beş günlük deyil. Dünya mənaca əbədidr, ona görə dünya üçün Əbədiliyə uyğun olan bir nizam gərəkdir. Bu nizamı axtarmaq niyyəti doğru olub, ancaq dediyimiz kimi, təyinat yanlışdır. Niyə yanlışdır? – Göyel dinlər insanla uğraşmadılar. Asif Ata kimi insanı baxış mərkəzinə gətirib həryönlü öyrənmədilər. İnsanın bütün kainatın nizamı olduğunu ortaya gətirmədilər. Əgər ortaya gətirsəydilər nə olacaqdı? – Allah ideyası təhrif olunmayacaqdı. Allah məsələsi ona görə təhrif olundu ki, insan məsələsi düzgün dərk olunmadı. İnsan-Allah münasibəti düzgün bəlirlənmədi. İnsan Allahdan yerlə-göy qədər fərqli, bəsit bir varlıq hesab olundu. Ona görə də Allahı insan ağlının bəsit məntiqinə uyğun şəkilləndirdilər. Ağlın məntiqi də deyir, Allah dünyanı yaradır, yönətir. Dünyanı yönətən olmasa, nə olar bizim axırımız?! Əslində isə insan özünü

dərk eləsə, heç vaxt deməz bizim axırımız nə olar. Heç vaxt deməz Allah yönətir, hər şeyə göz qoyur. Özünü dərk edən özünə yiyə olmağı bacarırsa, insanlaşmağı bacarırsa, insani münasibət qurmağı bacarırsa, insani münasibətlə dünyanın halını gözəlləşdirirsə, dünyanı hansısa fantastik gücün yönətməsinə inanmaz. Qıraq iradəyə boyun əymək insanı heçə çevirir. Allahla insan arasında uçurum yaratmaq durumu bura gətirib çıxartdı, insan qurtula bilmədi. Bir halda ki, dünyanın halı insandan asılıdır, bunlar insanı dəyişmək yerinə insana heç bir qatqısı olmayan, insandan qıraqda olan bir şeyləri dəyişməyə başladılar. Ağlın məntiqinə uyğun onu düşündülər. Ancaq Asif Ata Allah ideyasını ruhaniyyatın nizamı kimi öyrəndi. Həm kainatın bütövlükdə ünsürlərinin qarşılıqlı bağlılığı, elmi bağlılıqları – cazibə-itələmə filan, biri məhv olandan sonra yeninin yaranması uyumu kimi. Eləcə də bizim planetimizdə hər şey bir-birinə bağlıdır, bir-birinə etki göstərir. Dağ uçur, uça-uça davam etmir, yeniləri yaranır. Bu nizam pozulmur – yenidən əmələgəlmə nizamı var. Çay soğulur, yenidən çay əmələ gəlir. Doğada heyvanların bağlılığı, yenilənmələr. Bütün bunlar Tək nizamdan doğur, ancaq bu nizam yönətilir anlamına gəlmir.

Bunların hamısının əsasında duran böyük bir qüdrət – Mütləq, insanda necə görsəniş tapır?! Toplumda çoxları elə bilirlər, Asif Ata "Allah" sözünü "Mütləq" sözüylə əvəz edib. Elə deyil. Müsəlman Allahı öz ağlının məntiqində görür. Asif Ata isə Mütləqi insanın bəsit, gerçək ağlının məntiqində görmür. Bunu ruhun olanaqlarında görür. Asif Ataya görə nə qədər ki, insan Allah haqqında sadəcə danışır, o, heç o anlamı doğru ifadə edə bilməyəcək. Məhəmməd də doğru ifadə edə bilmədi. Müsəlman da doğru ifadə edə bilməyəcək. Bəs biz Mütləqi nə vaxt doğru ifadə edə bilərik? – Biz sıradan yaşayıb Mütləq haqqında eşitdiklərimizi danışmaqla yox, Mütləqilik tələbilə yaşayanda. İnsan kamilləşdikcə o anlama ağlın məntiqi ilə yanaşmır. Yaşadığı nizamla, uyumla yanaşır. Bax, mən necə yaşayıram – insana sevgim var, insanla doğmalığım var, dünyaya sevgim var, vətənə sevgim var, başqasının haqqını bilirəm, vicdanı tanıyıram. Burda mənim üçün Mütləq aydınlaşmağa başlayır. Özümü aşkarladıqca, mənəvi keyfiyyətlərimi üzə çıxartdıqca Mütləq haqqında doğru biliyə

yetirəm, Onu ifadə eləmək olanaqlarına yetirəm. Əgər özümü aşkarlama yoxdursa, mənim üçün də Mütləq olacaq Məhəmmədin dediyi Allah. Adamın ağlının məntiqindəki adamabənzər qüvvə – qəzəblənən, yönətən. Bax, Allah sözündən qorxu belə məsələlər üzərində formalaşıb. Allahın təyinatı yanlış olub. İnsanla Allahı (əslində Mütləqi) Birlik`də (vəhdətdə) götürmürsənsə, insanı ağlının gördüyü səviyyə ilə bərabər sayırsansa, yəni dedi-qoduçu, tamahkar, qorxaq sayıb məhdudlaşdırırsansa, insanı tanımayacaqsan, onu bəndə sayacaqsan. Dünyanı "yönətən" Allahı isə hər şey sayacaqsan. İnsanla belə bir təzad təşkil edən Allahı insana qorxu qaynağı kimi sunanda Allah da var olmaz, insan da. Yaxşı, özünü aşkarlamayan, özünü ifadə eləməyən, özgürlüyünə, vüqarına, qüruruna yetməyən insan Allaha necə baxacaq? – Əlçatmaz bir şey kimi. O bu balacalıqla yaşaya-yaşaya neyləyəcək? – Allahdan qorxacaq. Adam yaxşı iş görmək üçün iç olanaqlarını (daxili imkanlarını) aşkarlamır, insanlaşmır, insani yetkinliyə çatmır, Allahdan qorxmaqla yetərlənir. Allahdan qorxub ona ibadət edir. İbadət edir, sonra gedib o yanda oğurluq edir. Görürsünüzmü, Ata ilə əski peyğəmbərlərin ayrıntıları hardadır. Min illərin ortasındakı bir arada Asif Ata bütöv bir dəyişiklik eləmək istəyir. Bu Yeni sivilizasiya deməkdir, yeni ictimai-iqtisadi formasiya deməkdir. Bu ictimai-iqtisadi formasiyanın adı – İnsanilik sivilizasiyası, ya da İnsanilik Erasıdır. Nə Quldarlıq, nə Feodalizm, nə Sosializm, nə Kapitalizm nə də başqa izm...

### *İnam Evi Günü*

*(Yağış Ayı, 35-ci il)*

İnam Evinin yaranması, ağıllarda oturuşması bir, ya bir neçə ömür üçün deyil, bütövlükdə xəlqi bir olaydır. Min ildir sənin başının üstündə duran, sənə uyğun olmayan, sənin hər anlamda etnik varlığını sıxışdıran, mədəni kimliyini də sual altına qoyan bir dünyabaxışa açıq dirənişdir bu. Əməli dirənişdir. İnam Evi odur. Bu tədbirin məzmunu İnam Evidir, içinin biçimi İnam Evidir. "Atagün Eli"ndə biz yeni memarlıq cəhətdən İnam Evinin tikintisinə başlamışıq. Bura,

oturduğumuz yer memarlıq cəhətdən İnam Evi deyil. Ancaq bununla belə, bunu biz öz sevgimizdə, ağlımızda qurmuşuq, öz ömrümüzdə bunun məzmununu yaratmışıq. Bu, iki min məscidin içində xalqa Ruhaniyyat Məbədi yaradıb sunmaqdır eləməkdir. Onun məzmununu ortaya qoyursan. İllərlə vurğu edirsən, bezmədən, usanmadan deyirsən, sorağını yayırsan, illərlə qafalara yeridirsən ki, sənin ruhunun, ruhaniyyatının öz Evi'ni yaradıram. Gözün yığışsın yadların ətəyindən. Gözün yığışsın yadların məmləkətindən. Bunun məzmunu budur. Biz burdan Ağstafaya gedirik. Atanın Sonevini ziyarət edirik. Adamlar da deyirlər, biz gedib orda öz öyrətmənimizə sayğı göstəririk. Öyrətmənə sayğını orda niyə göstəririk?! – Burada oturub bir yazı yazardım, kitabını çap edərdim, olardı öyrətmənə sayğı. Mən öyrətmənə qulluq etmirəm, xalqıma qulluq edirəm. Burdan gedirlər Məkkəyə. Biz isə deyirik, sənin böyüyün sənin yurdundadır. Amalın sənin yurdundadır. Onu yarat, ona tapın, ruhun qoy burda böyüsün. Qoy ruhun burda ünvan tapsın. Balaca məqsədlər deyil bunlar. Az adamın ağlında böyük ideyaların qazanı qaynayır. Bu, toplumun içində görənlərin sayından asılı deyil. Beş adam, ya beş yüz adam görür, bundan asılı olmayaraq, çox prinsipial addımlar atılır, işlər qurulur. Biz burada çap elədiyimiz qəzet buraxılışından danışırıq. Azərbaycanda onlarca qəzet buraxırlar. O qəzetlərin içində çox az qulluq var. İnformasiyalar vermək qulluğudur. Çox az eyitimləndirmə var. Bizim hazırladığımız "Buraxılış" o deyil. O "Buraxılış" insanın yaşaması üçün, söz deməsi üçün, addım atması üçün məzmundur. Bu günlərdə çap elədiyimiz kitab da həmin məzmunu verir...

Burada başqa bir məsələyə də toxunmaq istəyirəm. Biz Yas mərasimi keçirdik. Yas mərasimində Qurallarımızı bütöv şəkildə ifadə eləmədik. Buna baxmayaraq, Yas Mərasiminin sorağını yaydıq. Bir adam Asif Atanın dediyini deyəndə, xalqın içində dalğa yaranır. Başlanğıcdan axıra kimi nə molla, nə başqa "ruhaniyyat" daşıyıcısı gətirmədik, Asif Atanın Qurallarını həyata keçirdik. Asif Atanın sözüylə, ölügötürmə gələnəyilə ölünü yerdən qaldırıb torpağa qoyduq. Min ildə birinci dəfədir ki, (Ataya keçirdiyimiz "Yas Mərasimi"ndən sonra) çağımızı deyirəm (bundan öncə də yas mərasimləri keçirmişik, paralel olub), ilk yoldur, ölünü evdən aparıb torpağa

qoyuruq, öz sözümüzlə, belə demək olarsa, öz ayəmizlə. Burada başqa qatqı olmur. Bircə adam Asif Atanın sözünü deməklə, onun evində Yas Törəni keçirildi. Bircə adam Asif Atanın sözünü deyir, onun evində Beşikbaşı Quralı baş tutur. Beşikbaşı Mərasimi – evlənməyin məzmununu, mahiyətini evlənənlərə, qatılanlara çatdırmaqdır. Xalqın içində belə bir gələnəyin oturuşmasını təmin etməkdir. Bunlar hamısı addımlardır – bir addım, iki addım, addımlar böyüyə-böyüyə gedəcək. Mən bilmirəm neçə ilə tam dəyişəcək. Ancaq xalqın içində bu addımlar, yavaş olsa da, atıla-atıla gedir. Bunlar hamısı ciddi öyrəniləsi, sonuca varılası məsələlərdir. Xalqın özümləşməsi məsələləridir.

Göylünün Ocağa gəlişinin 15 ili oldu. Onu biz törən kimi keçirdik, yazıya çevirib sunduq. Bu, məsələnin yubileyləşməsi anlamı daşımır. Göylü bu Yolu seçəndə bəlkə də fərqinə varmayıb. O, normal insan həyatının bir sıra çalarlarını qurban verib, Asif Atanın arxasınca gedib. Düşünmürdü, bu addımı hara atır, onu nə gözləyir. Asif Ata ona hansı taleni verəcək. Sonra zaman-zaman anladı ki, Asif Atanın arxasınca ona görə düşüb ki, xalq yaransın. Sənin millətin özünə bənzəsin. Buna ömür verib, qulluq edib. Həmin qulluğu tanıtmaqdır ömrün ruhsal 15 ilini sunmaq. 15 ildir Asif Atanın işinə, ideyasına qulluq göstərir ləyaqətlə. Biz də bunu sunuruq öz Amaldaşlarına, Yurduna. Xalqa bir ismarıc veririk: sən bu yanda Hüseynə, Həsənə yas keçirirsən, mən isə burada sənin ləyaqətinə qulluq göstərirəm. Bu qızcığazın, məsum bir varlığın ləyaqətini sənə sunuruq. Götür, onun ləyaqətinə yiyə dur. Ona sən yiyə duranda böyüyəcəksən, qüdrətli olacaqsan. Bunun qulluğu səni sənə bənzədəcək. Yox olmaq qorxusuyla üz-üzəsən. Düşünməlisən, addım atmalısan. Səni bir millət kimi fiziki olaraq yox eləmirlər ki. Mənəvi-ruhani olaraq yox edirlər. Mənəvi-ruhani yoxluqda fiziki varlığın anlamı nə deməkdir?! Əgər sənin bəşəriyyətə deməyə sözün yoxdursa, insan kimi özünü duymursansa, öz dövlətinə yiyə çıxa bilmirsənsə, xalq olaraq, özün özünü yönətə bilmirsənsə sən kimsən?! Hardan başlayıb hara gedirsən?! – Çox ciddi sualdır. Bunun cavabı çağın tələbinə, məntiqinə uyğun olmayan, çağın tələbindən, məntiqindən qat-qat yüksək olan Ruhsal savaş anlamındadır. Ona görə Asif Ata deyib, düşündük,

daşındıq, Ocaqlaşma yolu tutduq. Bir vaxtlar onun ağlından hakimiyyətə gəlmək, milli dövlət yaratmaq keçib. Sovet DTK-sının izləmələrinə kimi çevrəsində çoxlu adamlar olub. Təqib başlayan kimi bircə adam qalmadı. Ata gördü, xalqın bu durumu ilə dövlət qurmaq, sabaha getmək olumsuzdur. Xalqı yenidən yaratmaq gərəkdir. Yoxsa nə dövlətin dövlətə bənzəyəcək, nə dəyərin dəyərə bənzəyəcək... İndi bizim toplumumuz guya savaş (mübarizə) aparır. Mən bilmirəm nəyin uğrunda aparır?! Hamı deyir, rejim dəyişməlidir. Axı necə?! Bir çox insanlar elə düşünürlər, dış güclərin kölgəsində olmadan savaşmaq olumsuzdur. Bu düşüncə ilə heç nə qurub yaratmaq özünü doğrultmaz. Sən öz gələcəyini asılılıqda görürsən. Ərəb şüurunun basqısı altındasan, ya Rusiyanın siyasi işğalının, Amerikanın ideoloji işğalının, nə fərqi var?! Xalqın toparlanması, özünə güvənməsi gərəkdir ki, sən bu xalqa güvənə biləsən. Xalqa güvəndiyin qədər səninlə hesablaşarlar. Ondan sonra dış güclərlə sənin münasibətin əməkdaşlıq səviyyəsində olar, asılılıq ortadan qalxar. Yoxsa onun-bunun buyruğunda durmaqla ancaq ölkəndən davamlı qurbanlar verə bilərsən. Dış güclər sənə meydan verər ki, sən özgür olub onun etkisini yurdundan qıraqda tutasan. O səndən hər şeyini istəyir. Sənin öz siman olmasın, öz yönün, yönətimin olmasın, hər şeyi o sənə versin, sən də onun qulluğunda, buyruğunda durasan. Onda sənin nəyin dövlətdir?..

## Atanın ölümündən sonra Ocağın durumunu dəyərləndirmə açısından bir neçə söz

Ata öləndən sonra "Ocağı necə yönətmək" məsələsi sorun kimi qarşımıza çıxdı. O çağkı Ocaqçıların bir çoxu Atanın bir sözünü əzbərləmişdilər, oturub-durub onu deyirdilər. Atadan o çağlarda soruşmuşdular ki, Ata olmayanda mərasimlər necə yönətiləcək? Ata cavab vermişdi: hər mərasimi biriniz. O bunu ona görə demişdi ki, hələ özü sağdı, biz də ruhsal anlamda böyüyəcəyik, yetkin, kamil Ocaqçılar olacağıq, heç bir sorun da qalmayacaq. Axı mərasimi yönətmək sadə bir məsələ deyil. Onu yönətənin ciddi sözü, düşün-

cəsi olmalıdır. Yoxsa mərasimi bayağılaşdırmaq olar. Ancaq o çağın Ocaqçıları Atanın sözünə hərfən yanaşıb tərslik edirdilər (indi onlardan heç kim Ocaqda deyil). Mən Soylu olaraq, onda "Ata Timsalları" ideyası verib şura kimi bir şey yaradaq demişdim. Çoxluq buna qarşı oldu. Dil tapa bilmədik, bölündük. Sonra onlar dağıldılar, biz Ocağı yaşatdıq. Ata Timsalı sözünün yerinə də daha uğurlu söz işlətdik – "Ocaq Yükümlüsü". Mən indi də o düşüncədəyəm ki, mərasimi nizamlamaq ciddi sorumluluqdur, bununla zarafat eləmək olmaz. Ocaq bir qaydadır, nizamdır. O, qayda, nizam əsasında yaşaya bilər, necə gəldi yox. "Necə gəldi"nin gec-tez axırı yoxdur.

Biz "Ailə Günü" törəni keçiririk. "Ailə Günü"nün öz tələbləri var. Hər bir Ailəçi Amallaşma hesabatı verir – Atadan hansı kəlamı öyrənmişəm, bu, mənim üçün nə deməkdir? Kamilləşmə hesabatı verməlidir – kim idim, kim olmuşam. Dünən kim idim, bu gün kiməm?! Hansı üstün, əskik cəhətlərimi üzə çıxara bilirəm?! Özümdə hansı keyfiyyəti, ya da çatışmazlıqlar bəlirləmişəm?! Filan çatışmazlıq mənim üçün nə deməkdir, nədən bilirəm, bu, çatışmazlıqdır? Bu çatışmazlıqla döyüşə bilirəmmi?! Necə edim ki, döyüşüm?!

Amalın hansı tələbini, hansı kəlamını topluma çatdırmışam?! Harda çatdırmışam, necə çatdırmışam, bu münasibət necə oldu, necə yarandı, necə alındı? Bu yöndə çox yığcam, sanballı hesabat vermək olar. Sonra yurdumuzda nə baş verir? Buna yönəlik düşüncələr bölüşülür. Bundan sonra Ocaqsevərlərin, gələn adamların düşüncələri dinlənilir, sualları cavablandırılır. Bu prinsip gözlənilməlidir. "Qutsal Öyrənim Günü"ndə daha dinamikdir hal. Bu ayrı. Bunların hər biri Ocağın özünəxas tədbirləridir ki, öyrənmək, mənimsəmək gərəkdir.

Biz çox yol keçmişik, söz yox. Ancaq nə qədər ki, bu dediklərim bütöv deyil, bizim gedişimizdə nizam zəif ola bilər. Ona görə bunlara əməl etmək gərəkdir.

Bir sözlə, ay içində gördüyümüz işlər, görüşlərimiz hesabat verilir. Həm də burada olan, eşidən bilir, öyrənir.

Dinin insana yanaşması ilə İnamın insana yanaşması daha hansı çalarlarda özünü göstərir. Bir neçə söz bununla bağlı demək istəyirəm. İnsan nə vaxt güclü olur, nə vaxt gücsüz olur? Dinin məntiqinə

görə insan heç vaxt güclü olmur. İnsan aciz bəndədir. Aciz bəndə heç vaxt güclü ola bilməz. Bəs bəndənin acizliyi nədən doğur? – İnsanın ilk əcdadı Allahın qarşısında günah işlədib, biz də onun törəməsi olduğumuz üçün, o suça görə, gözü kölgəliyik, acizik. Ancaq Asif Ata nə deyir? – İnsan o vaxt güclü olur ki, özünü tanıyır. Özünü tanıma nə deməkdir? – İlk aşamada Adəm-Həvva nağılını rədd eləmək. Dinə demək gərək: sən məni Allahıyın qarşısında, günahkar olaraq, mühakiməyə çəkmə. Müttəhim kürsüsündə oturtma. Mənim içimdə ilahi sevgi var. Yəni, mən dünyada, həyatda, insanda olduğundan, göründüyündən artıq bir məna kəşf edirəm. İlahi sevgi yaranır içimdə. Əgər insan özünü tanımırsa, heç bir vaxt özünə inanmayacaq. Özünə inam olmayan yerdə insan heç bir vaxt sevməyəcək. Nə Amaldaşını sevər, nə dostunu sevər, nə idealını sevər. İdealı da Allahdır. Belə deyək, Mütləqdir. Əgər xristian, müsəlman, geneldə bütün din toplumundan soruşsan Allahı sevirsənmi? Hamısı xorla deyəcək sevirəm. Mən də deyirəm, yalan deyirsiniz. Sevmirsiniz. Əgər Allahı sevsəydiniz, onda insana Allah sevgindən pay düşərdi. Əgər sənin Alah sevgindən insana pay düşsəydi, dünya bugünə qalmazdı. Sənin insana sevgin yoxdur. Allahı necə sevirsən ki, Allahın məzmununu qəlbində daşıyan, o məzmunu səninlə Birlik`də yaşadan insanı tanımırsan, sevmirsən. Ona görə deyirik: insan özünü tanıyarsa özünə inanar. Özünə inanan sevə bilər. Çünkü ürəyi güclü olar. Tanımaq, inanmaq, sevmək. Bu üç keyfiyyət Birlikdə insanı yenilməz edir. Onun içində fövqəladə bir sevgi olarsa, o, heç vaxt məni günahkar saymaz.

Din başçısı deyir, yeni din yaratmaq günahdır. Özünə peyğəmbər demək günahdır. Allahı tanımaq günahdır. O şeylər ki, İnsana, İnsanlığa xasdır, o şeylər ki, İnsanı uca edir, tərəqqiyə qulluq edir, onun hamısına din "günahdır" deyir.

Allaha inam gözüyumulu inamdır. Nədən doğur bu, bircə dindar bunu oturub düşündümü, Allaha gözüyumulu inam nədən doğur?! İnsana acıqlanma var: dəymə, toxunma Allaha. Yazıq insanın ağlını elə söndürüblər ki, həyatda heç nəyə inanmır. Həm heç nəyə inanmır, həm də son ümidini itirmək istəmir. Allaha inamı son ümididir onun. Buna dəymə, buna da dəysən (həyat heç nədir, fanidir)

ölərəm. Ona görə də ona toxunma, onu düşünmə, təftiş eləmə, izah eləmə, aydınlaşdırma, heç nə eləmə. Bax beləcə, gözüyumulu inanan gəlir sənin üstünə…

Asif Ata isə deyir, Allahı, yəni bir olan Mənanı (göydə oturan Allahı yox) araşdır, aydınlaşdır, dərk elə. Dərk eləsən, güclü olacaqsan. Mənanı dərk edəndə adamın içi böyüyür. Qorxu nə deməkdir – mütilik. Sevgi nə deməkdir – azadlıq. İnam nə deməkdir – azadlıq. İnsanın əlindən azadlığını alıb mütiliyə tapşırmısan. Ona görə də dünya əyrisindən düzəlmir. İnsan nə vaxt qorxur (Din elə deyir qorx, Allahdan qorx)?! O vaxt qorxursan ki, əməlin düz deyil, qəlbin düz deyil, sözün düz deyil, yönün düz deyil, hər şeyin əyridir. Hər şeyi əyri olan adam qorxar da. Hər şeyin düzdürsə, niyə qorxursan?! Qorxa-qorxa hara gedəcəksən?! İnsanı qorxudan çıxartmaq məsələsi var. İnamın əsas məqsədi – insanı qorxudan çıxartmaq, özünə tapşırmaqdır. Bu cəhətdən bizim sözümüz də, işimiz də, döyüşümüz də, tədbirlərmiz də, dinin mütiləşdirməsinə, dindarın mütiləşməsinə qarşı böyük dirənişdir. Bu dirənişə yetmək, yetirmək, bu dirənişdə var olmaq gərəkdir. Bizim istəyimiz budur…

Bəs özüylə döyüş necə yetirilə bilər, bütün bunlar elə-belə həvəslə olmur. Özünü məcburetmə gərəkir. Əgər mən özüylə döyüşdə özümü öz yanlışlarımı görməyə yönəltməsəm, heç bir vaxt onu aradan qaldıra bilməyəcəm. Bugünün yanlışlar içində, özgürlüyün yox, gediş sənə qarşı. Əgər istəyirsən sabahın da sənə qarşı olmasın, istəyirsən dünya səni zorlamasın, siyasət, din səni zorlamasın, sən özün özünü zorla, özün özünü məcbur elə. Nəyə?! – Yüksək anlamla dolmağa. İnsanlığı yaşatmağa, onu özündə kəşf etməyə, onu böyütməyə, öz mahiyətinə bərabər yaşamağa. İnsan özü özünün əlindən tutub irəli aparmasa, heç bir vaxt adi həyatdan çıxa bilməyəcək. Özüylədöyüş – özünə zor göstərməkdir. Ancaq özünə qarşı elədiyin zoru, başqasının sənə qarşı elədiyi zor ilə eyniləşdirmək olmaz. Biz bioloji duyğular daşıyırıq özümüzdə. O duyğular bizi əsirinə çevirir. Özünə qarşı zor göstərmək, əslində o duyğuların etkisinə dirəniş göstərməkdir, onun tabeliyinə girməməkdir. İçimizdən gələn balacalığın səsinə qulaq asmırıq. Əslində biz

içimizdəki balacalığa zor göstəririk. Bizi bizdən aldığına görə balaca duyğulara zor göstəririk...

### *Ailə Günü*

*(22 Sərt Ayı, İnam Günü, 35-ci il)*

Sözümü aydınlaşdırıcı, sərgilənən düşüncələri gücləndirici biçimdə demək istəyirəm. Biz Günev Atalının yükümlüyündəki “Atagün” Ailəsinin “Ailə Günü”nü keçirdik. Görüş də keçirdik. Genel olaraq Azərbaycanın bütün bölgələrində oluruq, maddi-fiziki olanaqlarımızın çatdığı qədər səfərlər edirik. Asif Atanın ölümündən sonra Azərbaycanın bir çox bölgələrində görüşlər keçirmişik. Bu bölgələrdə bizim üzümüzə qapılar asan açılmayıb. Həyəcan keçirmişik, əsəb xərcləmişik, ağrılar yaşamışıq. Səfərlərin etkisi şəxsən mənim həyatımda ciddi izlər buraxıb. 40-a yaxın bölgədə görüş keçirmişəm. Elə bölgələr var, təkrar görüşlər keçirmişəm. Biz xalqımızın içinə gedirik, onun öz içində yaranan, başlanan bir Yolun ismarıcını çatdırırıq. Ancaq bu bizə asan başa gəlmir. Üzümüzə açılan qapılardan daha çox qapılar üzümüzə bağlanır. Ən çox gənclərlə, bölgə aydınları ilə, rəsmi, qeyri-rəsmi insanlarla görüşlər keçiririk. Belə götürəndə Ocaq kimi bir olayın yaşaması, yayılması ən çox bölgələrdən yayılmaqla genişlənir. Şəhər, konkret Bakı bu gün beynəlmiləl şəhərdir. Burada söz demək bir neçə açıdan çətindir. İnformasiya bolluğu deyilən bir oyun var, hər kəs də özünü informasiyalı bilir. Hər kəs internetdən, sosial şəbəkədən bəlli informasiyalar toplayır, elə bilir, o, dünyanın altını da bilir, üstünü də. Bəzi kitab oxuyanlar da deyirlər, Asif Ata özündən öncəkiləri deyir. Bu hallar Asif Atanı ciddi, doğru öyrənməməyin sonucudur. Mən bundan rahatsız olmuram. İnsanlara ədəbiyyat verirəm, deyirəm, oxuyun, bizi ələşdirin (tənqid edin). Əgər doğrudan da hesab edirsinizsə, biz yanlış söz deyirik, doğru yolda deyilik, bizi ələşdirin. O ələşdirmənin içindən doğru olan, gərək olan sağlam yönlər tapa bilməsəm, sənə deyəcəm. Deyəcəm, doğru ələşdirmirsən, sübut edəcəm. Ələşdirmənin sağlam axtarışları, yönü olarsa, o deməkdir, doğrudan da, Asif

Ata yurdunda öyrənilir, araşdırılır. Biz heç kimi Atanı gözüyumulu qəbul eləməyə çağırmırıq. İnsanlara belə bir tələb qoymaq olumsuzdur, doğru deyil. Biz öyrənmək üçün araşdırmağın yanlısıyıq. Yurdunda belə bir olay var. Yurduyun bir qüdrətli şəxsiyyəti qabağa durub "sənin xalqına ruhaniyyat gətirmişik" deyir, "sənin xalqına milli yön veririk" deyir. Doğrudanmı verir, öyrənmək gərəkdir, anlamaq gərəkdir. Ancaq sözünün yerini bilməyənlər, ağzına gələni danışanlar, cırmaqlaşmaya meyilli olanlar bəs qədərdir. Mən buna önəm vermirəm. Mən onları öz ləyaqətsizlikləri ilə baş-başa buraxıram. Dostoyevskinin bir sözü var: – "hər hürən itə daş atsan, mənzil başına gedib çıxa bilməzsən". Bizim işimiz çox ağır, yolumuz çox uzundur. Hər bir addım ömrə yükdür. Biz bu yüklə yaşamağı fərəh sayırıq – fərəhlənmək insanın halıyla, durumuyla bağlıdır. Belə yükün altında hər yoldan ötənə baş qoşmaq olmaz.

...Biz Atanın vaxtilə keçirdiyi görüşləri, tədbirləri, səfərləri səsdən sözə çevirmişik, kitablaşdırmışıq. Hələ sovet dönəminin qaynar çağında Asif Ata özünü bütövlükdə quruluşa qarşı qoymuşdu. Özünü quruluşa qarşı qoymaq – bilə-bilə özünü odun içinə atmaqdır. Çünkü DTK aradan götürməsə də, elə şantaj edər, elə duruma salar, bunun qarşısında özündə güc tapıb ayaq üstə durasan, üstəlik öz ruhaniyyatının harayını çəkəsən, yol yaradasan, israrla vurğu edəsən, bu, düşündürücü, bənzərsiz bir keyfiyyətdir. Bu keyfiyyət hardan yarandı? Asif Ata öz dünyasını yaratdı, o, öz dünyasının nə demək olduğunu bilirdi. Nə qədər aydın, sağlam, duru olduğunu bilirdi. Haqq edirdi. Onu qıraqdan deyilən sözlər dayandırmırdı. Onun qəlbinin gücü vardı. Beyninin gücü vardı. Bu, Asif Atanın özünə inamının gücüydü. Dediyinə inanırdı, mənliyinə, varlığına inanırdı.

Gör onun özü haqqında qulağı nələr eşidib. Onun özünü hansı səviyyədə vurublar, öz çağdaşları. Yazıçılar Birliyi. Bir deyim yazmışdı: "Rəsul Rza – anadan şair doğulmayan". Ömrü boyu yazıçı Anarın başçılıq elədiyi "Birlik" imkan verməzdi Asif Ata geniş çap olunsun, yayılsın, bilinsin. Ya da başqa akademik düşüncəli adamlar, əngəl idilər, indi də əngəldirlər. Bunların hamısının qarşısında sən öz dediyin düşüncənin yiyəsi olasan, ona inanasan, onu vurğu edəsən, onun harayını çəkəsən, özü də sovet vaxtında, sən bilmirsən,

harayının sonucu hara qədər gedəcək. Gedəcək, getməyəcək, bu toplum səni qəbul edəcək, etməyəcək, bəlkə yarı yolda qırılacaqsan?! Ancaq həqiqətçi üçün, öz həqiqətini dərk edən üçün, haqq edən üçün onun fiziki olaraq hara qədər gedəcəyi önəmli deyil. Önəmli odur ki, o bu həqiqəti yaşayır. Onun içinə insan sevgisi, xalq sevgisi, bəşər sevgisi hakimdir. Toplumun durumu, səviyyəsi nədir, nə deyir özü bilər. Sənin zəhmətin o toplumu dəyişəcək, dəyişməyəcək, burda da çox şey səndən asılı deyil... Biz Asif Ataya peyğəmbər deyirik. Yeni baxış yaradıb, yeni həyat yaratmaq istəyir, yeni insan, yeni bəşər halı yaratmaq istəyir. Biz bunu deyirik. Biz bunu özümüzdən çıxarmırıq. Ancaq onun nə qılıncı var, nə qalxanı, nə maliyəsi var, nə fiziki gücü. O, harayçıdır, heç kimə sırımır düşüncəsini, heç kimin düşüncəsini zorlamır. Heç kimin üzərinə qalxanla, qılıncla yerimir. İşin 40%-i ondan asılıdır. İşin 60%-i onun üz tutduğu xalqından, yurdundan asılıdır. Mən sənə, bir dünyabaxış yaradıcısı olaraq, ömrümü verirəm, varlığımı qoyuram, qurbanlar verirəm. Hər şeyimdən keçə-keçə gəlirəm. Sən bunun qədrini biləcəksən-bilməyəcəksən, bu, sənin ləyaqətinin işidir. Mən çalışıram, çabalayıram, yalvarıram sənə...

Ata deyirdi, bu xalq bizim körpəmizdir. O bizim üzümüzü cıra bilər, biz onu böyütməliyik, biz buna borcluyuq. Biz bu yolu, aqibəti seçmişik. Bu yolda sənə daş da atacaqlar, sənə söz də deyəcəklər. Ona görə də Asif Ata Akademiyanın prezidenti işləmədi, Mərkəzi Komitənin ideoloji katibi işləmədi, işləyib keflə-damaqla 80 il yaşamadı. Fərəhli bir əzabla 62 il yaşadı. Öz ömrüylə, öz ölümüylə, sevgisiylə, harayıyla xəlqi bir yön yaratdı. Gələcəkli bir uğurun altına imzasını qoydu...

Yasinin çıxışı ilə bağlı bir məqama toxunum. Asif Atanın Ocağı siyasətlə uğraşmır, eyni zamanda dərviş qurumu da deyil. Dönə-dönə vurğu eləmişik, Ocağın dünyaya baxışı dərvişlərin baxışı deyil, çəkilə öz qınına. Bəşəriyyətə söz deyən sufilər tərki-dünya idilər, qarışmırdılar dünyanın gedişinə. Millətçilik xətti onlarda yox idi. Asif Ata millətçidir. Millətçilik sözü insançılıqdan başlayır. Əgər insançılıqdan başlamırsa, millətçilik olur imperiyaçılıq, şovinizm. Asif Atanın xətti budur – İnsançılıq, Millətçilik, Yurdçuluq, Şərqçilik, Bəşə-

rilik. Dünyada gedən olaylar var. İnsanın başına açılan oyunlardır, həyatın başına açılan oyunlardır bunlar. Ya da yurdumuzda gedən olaylar. Biz buna biganə deyilik. Biz siyasətlə uğraşmırıq, bu o demək deyil, baxışımızı bildirməli deyilik. Xalq yaratmaq mitinqin işi deyil. Elə bir quruluşda yaşayırıq ki, nədəsə mitinqlər də gərək olur. Ancaq qurtuluşu mitinqə bağlamaq, davamlı olaraq ona səsləmək – kökündən yanlışdır. "Mitinq tələsi" adında bir yazı yazmışdım. Həyat elə amansızdır, pulçuluq elə həddə gəlib çatıb ki, insanlar sıradan həyatlarını yaşaya bilmirlər. Ona görə də bunların içində hiddət, nifrət yaranır. Ya bu nifrət insanların içini heçə döndərir, ya da o böyüməlidir, artmalıdır, şərə qarşı yönəlməlidir. Bu baş vermir. İnsanlarımızın hiddəti küçələrimizə boşaldılır. O enerji, hiddət düzgün yönəldilmir, havaya sovrulur. İnsanlarımızın zamana qarşı, gedişə, azğınlığa, şərə qarşı nifrətini səfərbər eləmək, düzgün yönəltmək gərəkdir. Nə qədər ki, insan özünün içini özü üçün bəlirləməyib, nə istədiyinin fərqində deyil, bu insanla yola çıxmaq çətindir.

Hamı deyir, bu hakimiyyət dəyişməlidir. Biz də istəyirik dəyişsin. Axı necə dəyişməlidir? Bu məsələ arzulamaqla alınan deyil. Böyük bir prosesdir. Böyük prosesi həyata keçirmək üçün sənin sağlam, milli qüvvən varmı?! Bir-birini eşidə biləcək, bir cəbhədə sağlam münasibət yarada biləcək qüvvən varmı?! Yoxdur axı. Kim yaradacaq o milli qüvvəni?! – Onu mitinq yaratmır. Mitinq deyilən bir ortamdan heç olmasa doğru yararlanmaq gərəkdir, bu ortam bu gün bir auditoriyadır. Orada yaxşı maarifçilik işi qurmaq olar. Köklü sorunlar açılmır. Televiziyanı qapayıblar üzünə, maarifçilik işi apara bilmirsən tv-lərdə, gənclərlə görüşə buraxmırlar, qəzetinlə de, köklü sorunları ortaya qoy. Nə qədər deyəcəksən, bu hakimiyyət rüşvətxordur, bu hakimiyyət korrupsionerdir?! Bu, çıxış yolu deyil. Maarifçilik xətti olmaldır. Xalqın baxışını köklü sorunlara yönəlt. O xətdə də daim vurğu elə. Şüurlarda Gəlişmə tendensiyası yarat. Mən mitinqdəki soydaşlarıma qarşı sayğılıyam. Bu öz yerində. Ancaq aparıcılar köklü iş görmürlər. Onu demək istəyirəm.

Ukraynada proseslər gedir. Tutalım, Ukrayna rusa meyillilikdən qurtarıb Batı meyilli oldu. Axı xalqın həyatında nə dəyişəcək?!

Yoxsullar dönüb varlı olacaq?! Götürək Azərbaycanı. Azərbaycan uzun çağlardır aralıqda qalıb. Balanslaşdırma siyasəti yürüdür. Hələ sənə dəymirlər, toxunmurlar. Ancaq Orta Doğuda gedən proseslər yavaş-yavaş Qafqazın içinə doğru gəlir. Çünkü sənin ölkəndə dünya güclərinin çıxarları günsəl (taktiki) olaraq hələ toqquşmasa da, qlobal olaraq toqquşur. Hələ sorunlarını Orta Doğuda çözməyə çalışırlar. Gəlib sənin bölgənə də çıxacaqlar. Onda "balanslaşdırma" oyunun yeriməyəcək daha. Ölkənin sərvətlərini, varını dış basqıçılara bağışlamaqla ölkəni qurtarmaq olası deyil. Belə götürəndə Azərbaycanın başında duranların istəyi ölkəni qurtarmaq da deyil, öz ağalıqlarının ömrünü uzatmaqdır. Bununla belə, deyək, ölkəni qurtarmağın ayrı yolları var axı! Mən düşünürəm, Azərbaycanın, ya bir başqasının hansısa bir siyasal gücün basqısından çıxıb başqasının basqısı altına keçməsilə xalqın həyatında heç nə dəyişmir. Milli şüur gəlişmir, özünüyönətim ideolojisi yaranmır. Ona görə xalqın içində, onu düşünən qüvvələr bu gedişi araşdırmalı, düzgün sonuc çıxarmalıdır. Asif Atanın Ocağı öz xəttində döyüşür. Bizim fiziki gücümüz yetərsizdir. Bizim maliyyə olanaqlarımız yoxdur. Ancaq sənin xalqını əyanlərin hər şeyi var. Sən bir kitab çap edirsən, o 50 kitab. Heç sənin kitabını oxumurlar, onu oxuyurlar. Güclüdən umurlar, görüm nə deyir, mənə nə gətirir. Halbuki bizdən qıraqda siyasal savaş heç bir ciddi dəyişiklik gücündə deyil. Ona görə biz elə savaşlara ümid bağlamırıq. Biz öz sözümüzü deyirik, öz savaşımıza bel bağlayırıq. Bu savaş 50 ilmi gedəcək, 100 ilmi, onu bilmirəm...

"Ailə Günü"nün hesabatı Amallaşma, Kamilləşmə, Xalqlaşma yönündə olur. Amallaşma – Asif Atanı, eləcə də dünya düşünərlərini Asif Atanın ölçüsüylə öyrənmək. Kamilləşmə – hər an özünün içindəki qüsurları tanımaq, boynuna almaq (etiraf etmək), döymək, böyümək. Ocağı qeyrət tələbi ilə də yaşada bilərsən. Bir də var Evladlıq – Ocaqçılıq. Bu, artıq qüdrətdir. Quru Söz deyil. Ocaqda Atalıq-Evladlıq prinsipi var. Atalıq kamil bir məna daşıdığı kimi, Evladlıq da kamil məna daşıyır. Evladlıq düzeyinə çatanda söz yiyəsinə çevrilirsən, onda yenilməz olursan, yurduna, insana, millətə sevgin bəlli olur. Orada öz kimliyini, mənliyini bilirsən, qətiyyətlə addım atırsan, gedirsən. Təkcə qeyrətlə Ocağı yaşatmaq bir yerə

qədərdir. Özüylədöyüş – özünü gizləmədən, içindəki duyğuları üzə çıxarmaq, yanlışları döyməkdir. Qurulmasan qura bilməzsən.

Özüylədöyüşün bir cəhəti xalqlaşma əməlində özünü göstərir. Xalqlaşmada hər cür adamlarla üz-üzə gəlirsən. Hər cür təpki ilə qarşılaşa bilərsən. Sənin gərək qəlbinin elə gücü olsun, sözünün elə qüdrəti olsun, təpkilərdən geri durmayasan, xalqına öz sevgini, hikmətini verə biləsən. Asif Atanın həqiqətini, haqqını verə biləsən. Bizim üçün yaşamağın özülündə zəhmət durur. Böyük işlər əzabdan keçir. Əzabdan yaranan fərəh sağlam fərəhdir. Oğlun instituta girir, fərəhdir, ancaq bireysəl fərəhdir, xalqa özgün deyil. Ancaq mən sənin gələcəyin üçün, xalqın üçün ciddi, uğurlu bir addım atıram, ona fərəhlənirəm, bu daha böyük fərəhdir. Bu fərəh qurula-qurula davamlı olur, bir məqama bərabər olmur. Ömür onda var olur...

**...**Mən Ocaqçılara deyirdim, Asif Atanı tanıyan şəxsləri danışdırın, qoyun xatirələrini bölüşsün. Təkcə öyməsin, qoy ələşdirsin (tənqid eləsin) də. Yəni necə düşünürsə, elə danışsın. Qoy Asif Ata gündəliyə gəlsin, qoy bilinsin ələşdirilən kimdir, öyülən kim. Mən quru görüntü yaratmağa qarşıyam. Doğrudan da, qurucu yanaşma gərəkdir. Üstün balaca oğluyla bölgədə səfərdə olub, söhbətlər eləyib, ədəbiyatlar verib. Qayıdıb gələndə baxışlarını bölüşdü: "filankəs Ata haqqında o vaxtkı izləmələrini deyəndə mənə xoş oldu". Bu da, doğrusu, mənə xoş gəlmədi. Deyirəm, onlar Asif Ata haqqında danışmırlar, Asif Əfəndiyev haqqında danışırlar. Biz Asif Əfəndiyevi davam eləmirik, Asif Atanı davam edirik. Yaşlı soy Asif Atanı Asif Əfəndiyev kimi tanıyır, yəni ədəbi tənqidçi kimi. Ancaq biz deyirik, Asif Ata bəşəriyyətə sunulacaq yeni dünyabaxış yaradıb. O, peyğəmbərdir, o, Atadır. Danışanlar da Asif Əfəndiyev haqqında danışırlar, bu da Asif Atanı indiki durduğu qatdan keçmişə, aşağı pilləyə qaytarmaq olur. Heç kimin ağzını yuma bilmərik, ancaq onların dediyində Asif Ata yoxdur. Asif Ata haqqında danışmağa qorxurlar. Çünkü dini rədd edənin, Yeni İnam yaradanın adını tutmağa gücləri, cəsarətləri çatmır. Bu, bizim xalqımızın durumudur. Ancaq nə olur-olsun, güzəşt doğru deyil. Asif Ata əzabla, əziyyətlə özünü təsdiq edib. O deyir, mən xalqa yeni dünyabaxış gətrimişəm. Biz də durub onu Asif Əfəndiyevə qaytaraq, bu doğru deyil.

Asif Əfəndiyev Azərbaycan xalqının ədəbiyat-sənət xəttində örnək addımlar atdı. Ancaq böyük toplumsal dəyişikliklər üçün ədəbiyat-sənət araçılığı ilə etki göstərmək böyük ideoloji gedişlərin qarşısında yetərsiz olur. Çağdaş ədəbi proseslərin etkisi heç görünmür. Çünkü bu gün milliliyə qulluq edən sənət yaranmır. Ancaq yenə deyirəm, yaransa belə, millətləşmə sürəcinin yeriməsi üçün bu yaradıcılıq sahəsi çox yetərsizdir.

Sonra, adamların dindən qorxması məsələsi. Biz insanlarla söhbət edəndə onların inancı ilə oynamırıq. Bu gün xalqımızın əsas kütləsi onlardır. Mən görürəm, bir insan səmimi, ya heç səmimi olmayaraq, dinə inanır, bunun duyğusu var, mən onun duyğularını əzmirəm. Ancaq həqiqəti ona saygı ilə anlatmalıyıq. Onun duyğularını həqiqət tələbində böyütməyə çalışıram. Dinə qiymət verəndə də mollaların baxışını ölçü götürmürük. Molla dini düzgün ifadə etməyə bilər. Din daşıyıcıları yanlış yolda ola bilər. Ancaq dinin özül prinsipləri var, biz dinə o prinsiplərindən yanaşırıq. Mən "Özül prinsiplərdə yalan olmamalıdır" yazısı yazmışam. Asif Atanın dünyabaxışını ondan öncəki baxışlarla tutuşdurub aydınlaşdırmağa çalışıram. Söz yox, Asif Atanın dünyabaxışını ondan öncəkilərə rəqib kimi sunmuruq. İnam məsələsi rəqabət olayı deyil. Din insanı var eləmədi. Din İnamla əvəz olunmalıdır. Din Allahı qoruyur. Ancaq Allahı qorumaq hansı anlama gəlir? Allahla insan iç-içə olduğu halda, din onları ayırır, mücərrəd göylərdə Allahı qoruyur. Belədə isə İnsan yaranmır, qurulmur, qorunmur. İnsanı qorumaq gərəkdir. Əslində Allahı qorumaq insanı qorumaq anlamına gəlməlidir. Onda dünya tamam başqa dünya olacaq. Bunu isə din edə bilməz. Çünkü dinin başqa hədəfi var. Din üçün dünya fanidir. Gec-tez bu dünya ləğv olunacaq. Dünyanı fani sayır, eyni zamanda insanı fani sayır. İnsan ömrünün faniliyi ideyası yanlışdır. Hətta insan fiziki olaraq da fani deyil. Fiziki olaraq biz ölümlüyük, ancaq bu fani demək deyil. Fani heç deməkdir, puç, mənasız deməkdir. Bu mənada dinin Allahı qoruması heç bir məntiqi doğrultmur. İnsan qorunmalıdır...

## *Atagün Ailə Günü*

*(35-ci il, Qar Ayı)*

Qutsal bir gündə yenə Ata qarşısındayıq. Onun harayını, ideyalarının məzmununu qəlbimizə yazırıq.

Ailənin Amallaşma-Kamilləşmə-Xalqlaşma tələbi daim dilimizi açan bir məsələdir. Hər zaman yerişimizi, gəlişimizi, yüksəlişimizi ifadə eləmək üçün Atanın düşündüyü ən yaxşı, uğurlu biçimlərdən biridir Ruhani Ailə məzmunu.

Öncə sizin dediyiniz allahlıq məsələsinə bağlı düşüncəmi bildirmək istəyirəm. Müsəlmanların çoxu heç müsəlmanlığını bilmir, dərk etmir, dərinliyinə getmir. Onlar Quranı heç oxumayıblar. Ancaq israrla Quranı oxu deyirlər. İnanmıram onu deyənin özü oxuyub axıra çıxıb. Niyə inanmıram? Əslində heç bir dinin, ruhaniyyatın kitabı topluma söz deməyib. Topluma sözü o kitabı öyrənən adamlar deyib. Asif Atanı da topluma Mütləqə İnam kitabından başqa biz verməliyik. “Mütləqə İnam” oxunaqlıdır, axıcıdır, çünkü orda bədiiyyat güclüdür, o biri kitablar aforizmdir, düşüncə istəyən bir şeydir. Ona görə Asif Atanın özünü də, onun kitablarından çox, topluma biz verəcəyik. Toplantılıarımız ona görədir, biz Asif Atanı oxuyub öyrənirik, ruhani biliklə doluruq, Asif Atanın yolu, istəyi nədirsə, onu toplumumuzun ürəyinə yazırıq.

Müsəlman düşünür, ibadətlə Allahı həm ifadə eləyir, həm də təsdiq eləyir. Yəni namaz qılırsa, böyük bir təsdiqə yetir. Əslində belə deyil. Söz yox, xalq bəlli mənada ruhaniyyatla yaşayır. Ancaq nisbi yaşayır, getdikcə tükənir. Ona görə Asif Ata doğru bir Ruhaniyyatın özülünü qoyub onun kitabını, fəlsəfəsini yazır, onun nəzəri əsaslarını bəlirləyir, gedişini doğru bir ölçüylə dəqiqləşdirir. Onu artırır, əsilləşdirir, qırağa çıxmaları dəqiqləşdirir. Belə olmasa, toplumun içində olan o ruhaniyyat əyintiyə uğrayaraq tükənəcək. Çünkü toplumun nə ağlının, nə ürəyinin gücü əyintilərdən qorunmağa yetərli deyil. O ruhani hallarla dolmur, yenilənmir, özünü yaratmır, böyütmür, qurmur. Ona görə də ortaya çıxan şəxsiyyət, peyğəmbər böyük mənadan, böyük hallardan ayrılan toplumu ayağa

qaldırır, ona həyatın məzmununu yeni ölçüylə yenidən öyrədir. Toplumu düzgün yönəltmək üçün zəhmət çəkir, əzab çəkir.

Belə götürəndə peyğəmbərlər mənanı yaratmır. Məsələn, biz deyirik Asif Ata Mütləqə İnam yaradıb. Bu Mütləqi yaradıb demək deyil. Asif Ataya qədər Mütləq yox idi?! – Var idi! Biz, yəni toplum Mütləqə yad idi, ya da Mütləqə yanaşma doğru olmurdu. Asif Ata Ona yanaşmanı bəlirlədi, bizə yeni ölçü verdi. Bax, bu ölçü ilə sən özünü insan olaraq təsdiq edə bilərsən. Ona görə insanlarla qovğa eləmək gərək deyil – Allah varmı, yoxmu?! Allah, yəni Mütləq var, sən özünə bərabər yaşayanda, sən özünə bərabər yaşamırsansa yoxdur. Sənin qəlbin Allah sevgisiylə insana ilahi münasibət bəsləyirsə, sənin qəlbin qutsaldır. Ruhaniyyat budur. Mən sənin qəlbini öpməyi bacarıram. Çünkü sənin qəlbin arıdır. Allahın varlığını mənə göstərir sənin qəlbinin gözəlliyi. Allahın var, çünkü insana insan kimi yanaşırsan. Vicdanın var, ədalətin var, azğınlığın, pozğunluğun yoxdur. Yox, sənin qəlbin əyridir, sözün əyridir, üzün əyridir, vicdanın əyridir, ədalətin əyridir, deməli, Allahın da yoxdur. Allahın olsaydı, əyri olmazdın axı. Allahı burda axtar. "Quru-quru qurbanın olum"la Allah mövcud olmur. Sən deyə bilərsən, o gözlə görünmür. Gözlə görünməyənin nişanələrini, əlamətlərini mənə göstər. Təzahürlərini, ifadəsini göstər. Nəylə göstərəcəksən?! – Xeyirxah əməllərinlə, gözəl varlığınla. İnsani düşüncələrinlə, davranışlarınla.

Əgər sən gözəl yaşayacaqsansa, əyri yaşamayacaqsansa, Allahın varlığını qovğa eləməklə (mübahisə yoluyla) sübut eləməyə gərəyin olmayacaq. Göstərirsən də. Yoxsa sən Allah məzmununa zidd yaşayırsan, sonra da dəridən-qabıqdan çıxaraq mənə Allah sunursan. Zorla sunma. Mənə özünün bilmədiyin, dərk eləmədiyin bir şeyi sunma. Səndə olmayan bir şeyi mənə vermək istəyirsən. Ona görə də Allah məzmununu Asif Atadan öyrənmək gərəkdir.

Bir də biz kamilləşməkdən danışırıq. Kamilləşmə həqiqəti nədir?! – İnsanın özünü tanıması. Əgər insan özünü tanıyırsa, nə eləyirsən elə, o kamilləşəcək. Özünü tanıyırsa, tanımaq istəyirsə. Tanımırsa, tanımaq istəmirsə, heç vaxt onun kamilləşməsini gözləmə. İnsanın özünü tanıması nədir?! – Ata deyir, dünyada xeyir də var, şər də. Gerçəklik xeyir, şər mövcudluğuyla doludur. Bax, indi şərh edəcəyi-

miz kitabda – "Ölçü"də deyilir, dünya ziddiyyətlidir. Heç bir vaxt dünyada ziddiyyət aradan qalxmayacaq. Eyni zamanda vurğu eləyir, heç bir vaxt dünya şərsiz olmayacaq. Bax, bunu Ata deyir. Ata heç bir vaxt düşüncələri bədiiləşdirib gözdən pərdə asmır. Heç bir kitabında. Ata, həqiqət nədirsə, doğru nədirsə, onu deyir. Nə varsa, necədirsə, necə olmalıdırsa, onu deyir. Deyir, dünyadan heç bir vaxt şər əskik olmayacaq. Atanı eşidən adam deyər, əgər dünyadan şər əskik olmayacaqsa, onda sənin fəlsəfən nəyə gərəkdir?! Ancaq Atanın İnamı, əməli sübut edir, şər dünyada mövcud olur, insanda isə başa çatır. Şər insanda ölür. Kamilləşmə məsələsinin canı budur. Şər, ziddiyyət insanda başa çatır. İndi gərək elə yaşayasan, şərdən azad olasan. Dünya şərdən tam qurtulmayacaq. Çünkü dünyada təbiət var. Təbiətdə heyvanat aləmi var. Heyvanlar dünyasında amansızlıqlar var, parçalayır, öldürür. Bu doğaldır, qanunauyğunluqdur. Ya elə toplumun bireylərini götürək. İnsanlar anadan kamil doğulmur. Hamı da kamilləşməklə uğraşmır. Ona görə onun əməllərində yamanlıqlar qalacaq, pisliklər qalacaq. İnsan doğulur, nə qədər, o kamilləşməyib, onun əməllərində çatışmazlıqlar olacaq. Bu o deməkdir, həmişə toplumda bunlar olacaq, çünkü doğulma var. Ancaq insan dünyaya gəlir, qarşısına məqsəd qoyur: mən öz mahiyətimə bərabər yaşamalıyam. Mən insanlaşmalıyam. İnsanlaşmaq istəyən adam öz içində naqislikləri, qüsurları tanıyır. Özünə deyir, mənim içimdə ədalətsizlik var, xudpəsəndlik var, cəsarətlə deyir. Deyir, göstərir, özünə aydınladır, tanıyır. Tanıyandan sonra özüylə barışmır, çünkü onda İnsanlıq mahiyəti var. Ancaq mahiyətinə uyğun yaşamayanda heç kim öz ayranına turş demir. Özünü tanımağa da cəsarət eləmir. Mahiyətini təsdiq eləmək istəyirsənsə, özünü tanımalısan. Buna görə heç kimin gözünə baxmalı deyilsən, görəsən qıraqdakılar səni necə görəcək, əyrimi görəcək, düzmü?! Qorxmaq gərək deyil. Sən özün özünün əyriliyini gör, başla onu düzəltməyə. Heç kimə məhəl qoymadan başlayırsan əyrilərdən çıxmağa, o sənə baxanlar günlərin bir günü gözlərini açıb baxırlar, sən artıq onların düşündüyü deyilsən, ucalığa çatıbsan. Beləliklə, özünü təsdiq edirsən, kamilləşirsən.

Biz bu yolda çox uğurlar əldə eləmişik. Asif Atanın ölümündən sonra onun Ocağının yaşaması, qalması, xalqda yayılması, sınırları aşması ona görə baş verir, bizim ömrümüzdə insani dəyişiklik var, davamlılıq var, ardıcıllıq var. Günü gündən durum ağırlaşır, sən isə fərəhlənirsən. Necə olur bu?! – Çünkü sənin ömrün o yüklə bir yerdə böyüyür.

Bax, biz bu məsələləri ölçü götürüb həm özümüzü yaradırıq, həm də ruhsal ortamımızı.

Başqa bir cəhət xalqlaşma məsələsidir. İndi Ocağın xalqlaşması öncəki illərlə tutuşdurmada bir az da qabağa gedib. Bizim yaxın çevrəmiz mənə zənglər edir. Kim nə iş görür, mənə zəng edib deyir. Mən də bölüşürəm. Ocaqçılar, Ocaq dostları hərə bir yanda xalqlaşır. Konkret mənim xalqlaşma işim artıb, demək olar, günaşırı mənim bireysəl görüşlərim olur. Evimdə, İnam Evi kimi qullandığımız İçəri Şəhərdəki odamızda, iş yerimdə. Hər dəfə görüşlərdə ciddi hal yaranır. Həm Atanın sözünü deyirəm, həm də ədəbiyatlar verirəm.

## Ailə Günü

*(26 Qar Ayı, 35-ci il)*

Ailə Günündə həm amallaşma, kamilləşmə, xalqlaşma hesabatı vermək, həm də gündəmlə bağlı məsələləri çözmək gərəkdir. Mən bunu uğurlu hesab edirəm. Ancaq yenə dərinə getmək gərəkdir. İnsanlarımızın düşüncələri fərqli ola bilər, bu fərqi aradan qaldıra bilmək, düşüncələri bir araya gətirmək gərəkdir. İnsanı özüylə üz-üzə qoymaq gərək. Bəzən kiməsə elə gələ bilər, bununla hara gedib çıxmaq olar, yəni biz burda bunları dedik, eşitdik, nələrisə aydınlaşdırmağa çalışdıq, bununla hara getmək olar?! Adamların içində çaşqınlıq doğuracaq suallar yarana bilər. Ancaq "hara gedib çıxa bilərik" sualına çox uğurlu cavab var. O nədir?! – Bizi, toplum olaraq, elə böyük bir dərdin içinə atıblar, bu dərdin içində ağlımız qarışıb. Həm ağlımız qarışıb, həm ölçümüzü itirmişik. Heç nəyimizə doğru yanaşa bilmirik. Heç nəyimizdə bəlirti tapa bilmirik. Toplumumuz bütovlükdə belə bir durumdadır. Belə bir durumda nədən başlayaq.

Bəlkə də dünya sivilizasiyanın aşamalarını vurub keçib, biz isə deyirik başlayaq. Nə yazıqlar, biz çox şeyi sıfırdan başlamalıyıq. Çünkü biz başlamamış durumdayıq. Başlamaq üçünsə bizə bəlirti gərəkdir. Kimik biz, nədir dərdimiz?! – Dərdimizi üzdəki faktlara bağlayırıq. Üzdəki faktları saymaqla bitməz. Biz sovetlər dönəmindən üzü bu yana, 20-25 ilin sorunlarını deyil, təkcə onun bir ayının faktlarını sadalasaq, onu heç bir yaddaş götürməz. Yəni o qədər dəhşətli faktlar sadalamaq olar. Ancaq bu faktları, uğursuzluqları doğuran səbəblər var axı. Gəlin görək, bu səbəbləri doğrudanmı doğru bəlirləmişik?! Hərə bir yorum gətirəcək o səbəblərə. Ancaq o yorumların özünün içində heç kim inanmayacaq, onun dediyi doğrudur. Çünkü bəlirtinin açarı əldə deyil.

Bu günlərdə bir yazı yazdım, adı belədir: “**Balanslaşdırılan Faciələrimiz”.** Sizin bayaqdan vurğu elədiyiniz üzdəki faktların səbəbini hardasa aydınlaşdıra bilir.

Bu yazı sizin kimi mənim də içimi göynədən dərdlərimizin tələbindən yaranıb. Azərbaycan toplumunun içində ayrı-seçkilik salmaq, onlara, baxışlarına görə fərq qoymaq mənim üçün ağırdır. Ancaq deməliyəm, bu insanlar yalnız bir şeyin davasındadır – sosial sorunların. Müxalif kəsimin yanına gedənlər nə üçün gedir, ümid axtarır, acından ölməsin, sosial sorunları yoluna qoyulsun. Onları qınamıram, acından ölməli deyillər ki. Ancaq üzdəki sorunlarda dayananda məsələ həllini tapmır axı. O, sosial sorununu həll etmək üçün ora gedir, milli-insani sorunları həll etmək üçün getmir.

Mənə bir tanış şair kitab verib, səhifələyib oxudum. Mən poeziyanı tanıyıram, duyğunu tanıyıram, dəyərləndirirəm. O duyğu dərindədir, yoxsa üzdədir, bilirəm. Onun rahatsızlıqları var, sadə dildə özünü ifadə edibdir. Vətən nisgili, bölünmüşlük, yurdumuz dağılıb b.k. Şair az-çox fəlakəti görür, içi yanır, əlinə qələm alıb içinin yanğısını ora yazır, sonra qoyur bir qırağa. O yanğının dalınca isə addım atmır. O, özünü sakitləşdirir. Mən onu qınamaq üçün demirəm, çünkü o, yol bilmir. Ayrı atıla biləcək addım tanımır. O, bununla özünə təsəlli verir. Bir balaca vicdanını susdurur, ürəyinə sərinlik gətirir. Bizim qarşımızdakı qardaşımız kimi. Arı oğlandır. Özünü ora-bura vurur, yol axtarır, ancaq tapmır. Mən insanları anlayıram, hid-

dətini ifadə etmək üçün gedirlər mitinqə. Əlacsızlıqdandır. Ancaq biz deyirik, düşünüb ciddi, uğurlu addımlar atmaq gərəkdir. Düşünürük, bu xalq nəyi itirib, bu xalq harda yıxılıb, bu xalqı ayağa qaldırmaq üçün nə gərəkdir?! – Bax, onun ölçüsünü tapmışıq, o ölçü ilə yaşayırıq. İnsanlarımızın ağlı, düşüncəsi, qəlbi böyüməlidir. Dörd divar arasında isə böyümə olmur. Asif Ata deyir, öyrəndiyin qədər öyrət, için dolduqca addım at. Ağlın dolduqca addım atmalısan. Oturmalısan, səbrlə söz deməlisən, sonra toplumun içinə getməlisən, sevə-sevə söz deməlisən, doğru bildiyin, mənimsədiyin halı yaratmalısan.

Ona görə deyirəm, biz başlamalıyıq. Gəlin bu xalqın yeriməsi üçün ideoloji yön yaradaq. Xalq öz qurtuluşuna doğru bir yolla getsin. Böyük məsələlərdə düşüncə ayrıntıları aradan qalxmalıdır. Bizim insanlarımız gərəksiz sözgüləşdirməyə meyillidir, çünkü iş görməyə meyilli deyil. İş görən addım atır.

Toplumsal toplantılar olur, mən getmirəm, çünkü özümü orda tapmıram. Kimisə aşağılamaq üçün demirəm, mən orda boşboğazlıq görürəm, "quş qoymaq" üçün toplantı keçirirlər. Mənim ürəyim o toplantılardan bir təpər, bir hikmət götürmür. Onu vermək gərəkdir. Kim verəcək?! Ona görə biz deyirik, gəlin, ölçünü öyrənək, yaraqlanaq o ölçü ilə. Bizim bu gün yaşadığımız sorunları bəşər tarixində başqaları da yaşayıb.

...Dövlətimiz işğal olunub. Verməyəcəklər geri. Siyasi müxalifətimiz milli qüvvə deyil. Bunu mən sevinə-sevinə demirəm, ağlaya-ağlaya deyirəm. Bugünkü hakimiyyətin dövlətimizi qamarlayaraq, onun üzərində möhkəm oturmasının arxasında elə qüvvələr dayanır, müxalifətimiz həmin qüvvələrin torbasındadır. Müxalifətimiz həmən qüvvələrə qarşı söz demir. Milli Qüvvə yaranmalıdır, özündən keçən oğullar qabağa durmalıdır. Millətlə işləməlidir, onu toparlamalıdır, heç nəyə baxmadan. Sən onsuz da heç nə edə bilmirsən. Qüvvəni yarat, o qüvvəyə əmin olduqdan sonra ayağa dur. Ayağa dura biləndən sonra işğal olunmuş mədəniyyətimizi geri alırıq. İşğal olunmuş azadlığımızı özümüzə qaytarırıq. Bu gün nə edirsən et, alınmır. Ona görə də biz Asif Atadan möhkəm tutmuşuq. O bizi millət olmaq üçün çağırıb...

Biz millətçilikdən çox danışırıq, ancaq Asif Ata bəşəridir. Çünkü millətsiz bəşər yoxdur. Mən özümdən soruşuram, bəşər nə deməkdir?! Milləti bir qırağa qoyanda cavab verə bilmirəm bu soruya. Bəşər millətlərin insani keyfiyyətlərinin birliyidir. Biz millətçiyik deyəndə bizi çox adam başa düşmür. Mənə sual verirlər, Asif Ata bəşəridir, yoxsa millidir? Milli olmayan bəşəri ola bilməz, ya da tərsinə. Xalqa onun dəyərlərini tanıtmaq azdır, onların üzərində milli varlığımızı saxlaya biləcək dəyərlər yaradırıq. Asif Atanın Mütləqə İnam Dünyabaxışı milli dəyərlərimizin yeni, üstün aşamaya keçməsidir. Millət olmaq istəyirsənsə, bundan yan keçmək ola bilməz. Bundan qorxmaq gərək deyil. Biri xristianam deyərək qoxur, biri müsəlmanam deyərək qorxur. Özgəçi olub qorxmayın Özümlükdən. Sevmək gərəkdir. İnsanlığın bayrağını başının üzərinə qaldırmaq gərəkdir. Səni sən eləyən dəyərdən qaçmaq olmaz. Dəyərinə yiyə dur.

Bütün bunlar içimizdə bir yol yaradır. Bu məktəbdən bəhrələnib hədəflərimizə çatmaq istəyirik.

Biz sabah gedirik Gəncəyə, özümüzlə Ocaq ədəbiyatları götürmüşük. Söz deyəcəyik, ədəbiyat verəcəyik insanlarımıza. Bunu şöhrətimiz üçün eləmirik. Sevgimizin əlindən tutub gedirik. Xalqımıza olan sevgimizin arxasınca gedirik. Asif Atanın ortaya qoyduğu böyük hikmət təkcə mənə gərək deyil, xalqımıza gərəkdir...

Ailə Gününə uğurlar diləyirəm. Fərəhli hesabatlar vermək diləyirəm. Bu gün Ocaq olaraq, gördüyümüz işləri saysaq bitməz. Bu insanların hamısının əməyi var. Səhər mənə Beyləqandan bir qardaşımız var (Günevin qonşu kəndindəndi), o zəng edib əməllərindən danışır. Gördüyü işdən fərəh alır. Baxmayaraq, milli-insani ağrılar onu da darıxdırır. Baxın, bir insan ləyaqəti ayaqda olarsa, o xalqının içində özü boyda işığa çevrilir. Örnəyə çevrilir. Bu, mənəviyyatdan tutmuş, ideologiyaya qədər, dövlətçilik prinsipinə qədər bütün əməllərdə özünü göstərir.

**"Ailə Günü"**
*(17 Köçəri Ayı, 35-ci il)*

Bayrağın evə gəlişiylə qürur duyğusu yaşamaq gərək. Bununla bağlı söz demək istəyirəm. Bizim, Azərbaycan olaraq, insan olaraq, millət olaraq, balalarımız hansı bayrağın altında bələyə bükülür; hansı bayrağın altında tərbiyə alır; Bizim xalqımız hansı bayrağın altında ölüsünə göz yaşı tökür; Bizim xalqımız hansı bayrağın altında ailəsinə uğurlama (xeyir-dua) verir; Bizim xalqımız hansı bayrağın altında üzünü sabaha tutur?! – Hər birimiz rahatsız oluruq, dərdlənirik, bəzən də qəzəblənirik, deyirik, yurdumuzda heç nəyin yiyəsi deyilik. Heç nəyimizə haqqımız çatmır. Ən elementar məişət məsələsindən tutmuş ən yüksək məsələlərə qədər sən haqsızlaşmısan. Niyə haqsızlaşmısan? İndi toplumumuz ən çox sosial sorunlarla yaşadığına görə bu məsələdə, başlıca olaraq, iqtidarı suçlayır. İqtidar suçludur, böyük suçu var, ancaq onun suçu bugünün suçudur, dünənin suçu deyil. Bayaq adını çəkdim hansı bayrağın altında var oluruq, bizim, toplum olaraq, suçumuz ordan başlayır. Bizim fəlakətimiz ordan başlayır. Bayraqsız xalq olmuşuq. Ruhaniyyat bayrağımız ərəbin qara bayrağıdır, onun bayrağını başımızın üzərinə qaldırdıq. Ruhumuz ərəb bayrağı altında özgələşdirildi. Öz varlığımıza, öz kimliyimizə yadlaşdırıldıq. Balalarımız yadlığa tapınma tərbiyəsi ilə böyüdü. Sən ailəni qurursan, sənə molla kəbin kəsir. Sənin ailə ruhunun özülünü molla qoyur. Molla bayraqsızlıq deməkdir. Özgürlüyün (azadlığın) itirilməsi deməkdir. Bizim ruhumuzun bayrağı ərəbləşdiyi üçün dövlətimizin bayrağı ruslaşdı, ingilisləşdi... Dövlətimizin bayrağı xalqın ruhundan yaranan, xalqın ruhunu yaşadan bir şey olmalıdır. Hər bir şey özündə milli anlam (məzmun) daşımalıdır – İnsani anlam, gələcəkli anlam. Bayraq odur. Ona görə sizin hər hansı birinizin evinə Asif Atanın bayrağı gedirsə, sizin qəlbinizi titrədirsə, sizin qəlbinizə min illərin faciəsindən sıyrılıb çıxan ruhaniyyat ilğımı axıb dolur. Bu o deməkdir, sənin evində öz insanının, öz şəxsiyyətinin, öz millətinin, öz gələcəyinin varlığı bilinir, yaşanır. Varlığı ifadə olunur.

Bu, məsələnin bir yanı. İkinci, bununla uyumlu səslənən Ocaqçının nə ilə dolması məsələsi. Nə ilə dolmusan bu çağa kimi?! – Bu gün biz Asif Ata ilə dolmaq istəyirik. Ömrümüzün, içimizin, İdrakımızın, Mənəviyyatımızın Asif Ata ilə dolmasını istəyirik. Ona görə bir araya gəlmişik. Bu çağa kimi ərəbçiliklə, farsçılıqla, rusçuluqla, ingilisçiliklə dolmusan. Bu o deməkdir, sənin yurdunda sevə biləcəyin, ruhuna doğma olan bir dəyər tanımırsan, sənin sevdiyin, sevməli olduğun dəyəri yurdunda tapmırsan, gözün yurdundan qıraqda qalıb. Asif Atanın gəlişi o deməkdir, Yurdundan qıraqdakına münasibət yaratmaq gələnəyini Yurdundakına münasibət yaratmaq gələnəyi ilə əvəz edirsən. Asif Ata ilə dolmaq o deməkdir, həqiqətin nə olduğunu bilmək istəyirsən, Millətin nə olduğunu, Vətənin nə olduğunu, Gələcəyinin nə demək olduğunu bilmək istəyirsən. Bəşərin nə demək olduğunu bilmək istəyirsən. Bütövlükdə dünyanın nə demək olduğunu bilmək istəyirsən. Asif Ata ilə dolmaq o deməkdir. Mən Asif Ataya rast gələnə qədər nə ilə dolduğumun fərqində deyildim. İçimə hər şey dolurdu. İçimə hər şey doldurulurdu. Bu gün kimin əlinə nə keçir sənin içinə doldurur. Sənin körpələrinin, balalarının içinə doldurur. Ona görə də sənin içində elə bir yadlıq formalaşır, içinə dayanıb millət ola bilmirsən. İçinə dayanıb üzünü xalqına tuta bilmirsən, söz deyə bilmirsən, sevə bilmirsən onu. Onun qədrini bilə bilmirsən. İçin o qədər ayrı şeylərlə dolub. Həmin ayrı şeylərlə dolduğu üçün için qaranlıqdır.

İndi sən Asif Atanın ətəyindən tutursan, o öz milli-insani hikmətini sənin içinə doldurur. Doldurduqca yadlığı, özgəliyi içindən çıxarır. Hər bir Ocaqçı bu tədbirə gəlib hesabat verir, yadlıqdan nə qədər azad olub, nə qədər yadlıqdan boşalıb, nə qədər Asif Atayla dolub. Asif Atayla dolmaq millət olmaq, insan olmaq deməkdir. Onun hesabatını verirsən. Bax, Ocaq olaraq, tədbirə gələndə, hazırlaşanda nədən danışırıq, nəyin hesabatını veririk?! – Yadlıqlardan arına bilmişəmmi, nə qədər ayrıla bilmişəm. Bunları öz doğmalarımıza deyirik, onları sevindirək, fərəhləndirək ki, sənin arzuladığın, yaratmaq istədiyin dəyər bu gün mənim içimdə bir addım da qabağa getdi. Çox böyük ləyaqətdir, sorumluluqdur bu.

Tədbirimizə gələndə Elçin bəy dedi, toplumumuzun indiki ağır durumunda, dünyanın indiki qarışıq çağında bu cür tədbir keçirməyin özü hünərdir. Bax, nədir o hünər?! – Hər yerdə səni əyirlər, yıxırlar. Varlığını əyirlər, xalqını yıxırlar. Gələcəyini yıxırlar. Sən Ocağın ünvanına gəlib qurursan onu. Beş insanın, on insanın qəlbində, ağlında qurursan, sonra da onu göndərəcəksən xalqın içinə, get xalqın içini dəyiş, qur. Bizim tədbirlərin mənası odur, gəlişlərin mənası odur...

Qutsal mərasimlər keçiririk. Mərasimlər Asif Atanın ruhani hüzurudur. Biz toplumda yaşayırıq. Toplumun içində olanda harda, kimin hüzurunda oluruq?! Söz yox, Yadlığın hüzurunda oluruq. Toplumun içinə gedirsən, yadlığın hüzurunda olursan. Ancaq sən Ocağa gəlirsən, mərasimə gəlirsən, Asif Atanın hüzurunda olursan. Asif Atanın hüzurunda olduğun üçün, bu ünvandan toplumun içinə çıxanda da sənin ruhun yenə Asif Atanın hüzurunda olur. Yadlığın hüzurunda olduğun qədər səni yadlıq buyurur, yadlıq yönəldir. Yadlıq verir sənə istədiyini. Asif Atanın hüzurunda olduğun qədər sənə gərək olanı Asif Ata verir. Ondan götürürsən. Belə bir səviyyədə düşünərək, yaşayaraq, fərəhlənmək, eşqlə dolmaq. Asif Atayla dolmaq eşqlə dolmaqdır. O mənə deyir, insan kimdir, vətən nədir, dünya nə haldadır, nə halda olmaldır onu öyrədir. Dünyada elə bir ünvan yoxdur, orada biz Asif Atanın verdiyini, dediyini götürə bilək. Ocağın tədbirlərinin əvəzi yoxdur, insanın içini arındırır, arılıqla doldurur. Arındıra-arındıra doldurur. Arı pətəyi necə doldurursa, Asif Ata bizim ağlımızı, qəlbimizi ruhani şirə ilə elə doldurur. Dünyanın Dünyalıq mənası ilə doldurur. Bütün təbiətin şirəsini arı pətəyə doldurduğu kimi, Asif Ata bütün dünyanı mahiyətiylə, gözəlliyi ilə bizim qəlbimizə doldurur. İş budur, əməl budur, gələcək budur...

Biz son vaxtlar çox böyük işlər görürük. Tədbirə sığmırıq, xalqın içinə çıxıb söz deyirik. Zəngin əməllər, basın yayınında (mətbuatda) çıxan yazılar, söz, düşüncə, görün nə qədərdir. Gözlü görsün, ürəkli sevinsin, düşüncəli mübarizə aparsın. Biz heç kimi aşağılamırıq, heç kimə üstdən aşağı baxmırıq. Ancaq bütün dünyada Ocağın əvəzini görmürük. Onun qədrini bilmək gərəkdir. Onunla yaşamaq gərəkdir. Qaya-damcı məsələsidir bu iş. İdeya baxımından biz damcı deyilik,

dəryayıq. Ancaq biz fiziki mənada damcıyıq. Damcı davamlı düşəndə qayanı parçalayır. Bir damcı özündə hansı gücü, mənanı daşıyırsa, biz, fiziki azlar da, özümüzdə həmin mənanı daşıyırıq. Nə qədər asta, səbirlə olsa da, günlərin bir günü görəcəksiniz, dünyanın Ocağa ehtiycı necə böyük imiş. Ocağın uğurlarına sevinin. Arxayınlaşmayaq, özümüzdə güc tapaq, daim Atanı qoruyaq. Atanı qoruduqca qorunacağıq. İdeallarınızı sevin, qoruyun, o da sizi qorusun. İnsanlar idealları sevmir, qorumur. İnsanlar özlərini qoruyur. Özünü qoruyanı heç kim qorumayacaq. Özünü qoruyanı heç kim sevmir. İdealları qoruyanı hər kəs sevəcək. Onun sevdiyi, ona gərək olan İdeala ömür verdiyni görəcək, sənin qədrini biləcək. İdeal səni qoruyur, ona qulluq elədiyin üçün. Çünkü İdeal ağıllara etki göstərir, səni var edir. Bütün dünya sənin üstünə yerisə də, sən İdealına münasibətdən addımını dala qoyma. İdealına sevgində, münasibətində həmişəlik ol, bütöv ol. Onda görəcəksən dünya səni necə eşidəcək.

## Atagün Ailə Günü

*(24 Köçəri Ayı, 35-ci il)*

Bugünkü qutsal günümüzdə – “Atagün Ailəsi”nin ilin sonuncu aylıq mərasimində söz deməzdən öncə bayrağımızı öpürəm.

Günümüzün adına qutsal gün dedim. Ocağın mərasimləri hamısı qutsaldır. Çünkü bütöv ruhaniyyat halı, nizamı var. “Ailə Günü”, Ocaq Bayramları, “Qutsal Öyrənim Günü” kimi tədbirlərimiz var, bunların da məzmunu, nizamı, halı qutsaldır. Bütöv gedişində qırağaçıxmalar ola bilər. Qıraq adamlar da qatılırlar. Bəzən fərqli düşüncə sərgiləyənlər olur, bəzən əhval yüngüllüyü olur kimdəsə. Başqalarının qatılmadığı Ocaq mərasimlərində qırağaçıxmalardan söz gedə bilməz. İndi bizim “Ailə Günü”müz də öz halıyla varlığıyla, nizamıyla müqəddəsdir.

Biz bir Ocaq Ailəsi yaratdıq. Bu Ocaq Ailəsi burada olan iki Ocaqçının Ocaq əhvalında yaşamasını, Ocaq əhvalında söz deməsini, Ocaq əhvalına doğru addım atmasını qüvvədə saxladı. Ruhani Ailə yoxdursa, Ocaqçının ömrü Ocağa bütöv bağlanmır. Ocaq Ailəsi

yoxdursa tədbir də keçirilmir. Onda ruhsal hal pozula bilər. Ailə hər bireyin içini elə bir nizamda saxlayır, Ocaq insanı daim Ocaq əhvalı sərgiləyir. Ocaq ortamı yaradır.

Atagün Ailəmiz yarandı. Burada Ocaqlaşma, Xalqlaşma yeni aşamaya keçdi.

İndi mən Amallaşma yönündə bir neçə söz demək istəyirəm. Ancaq o yöndə bir az qorxa-qorxa danışacam. Çünkü ciddi sorular qarşıma çıxıb. Tam çözməmişəm. Məsələn, bəşəriyyətin ruhaniyyat adına keçdiyi yol var. Dünyabaxış – yoluna, etki yönünə görə bir neçə aşamanı qapsayır. Deyək, monoteizm, politeizm, panteizm, dualizm. Biri də Mütləqçilikdir. Ancaq sonra öz-özümə düşündüm, bunları bir az tutuşdurdum. Görürəm, bunlar doğrudan izah olunmaq, aydınlaşdırılmaq tələb edir. Məsələn, *politezim (çoxallahlıq) – Mütləqçilik*. Asif Ata deyir, dünyanın əzəli, əbədi, sonsuz, kamil Dünyalıq mənası var. Həyatın həyatdan artıq olan əzəli, əbədi, sonsuz, kamil Həyatlıq mənası var. İnsanın insandan artıq olan əzəli, əbədi sonsuz, kamil İnsanlıq mənası var. Politeizm də deyir, külək allahı var, günəş allahı var, yer allahı var, göy allahı var... Kimsə araşdırmadan oxuyar, deyər, Asif Atada deyilənlər çoxallahlığın əlamətidir. Dünyanın əzəli, əbədi, sonsuz, kamil Dünyalıq mənası, Həyatın əzəli, əbədi, sonsuz, kamil Həyatlıq mənası, İnsanın əzəli, əbədi, sonsuz, kamil İnsanlıq mənası... Bunların özü hərəsi müstəqil bir məna kimi anlaşılar. Ancaq elə deyil.

İkinci, *teizm-Mütləqçilik.* Ata deyir, gerçəklik Mənadan yaranıb. Onda belə götürmək olar, öncə Məna olub, sonra gerçəklik olub. Yəni öncə Məna olub deyə, Mənadan gerçəklik yaranıb. Semit dinlərində də deyilir, öncə Allah olub, kainat olmayıb. Sonra Allah onu bir-bir, aşama-aşama yaradıbdır. Bax, burda da yenə bizi öyrənən, araşdıran adam belə oxşarlıq axtarıb deyə bilər, Asif Atanın dediyi həmin məsələdir, nə fərqi var, anlayışları dəyişib. (Söz yox, dərinə gedəndə görürsən, fərq anlayışlarda deyil, məzmundadır).

Ya da Asif Ata deyir, gerçəkliklə Məna vəhdətdədir. Onda belə çıxır, gerçəklik də əzəli, əbədi, kamil, sonsuzdur. Yəni vəhdətdədirsə, bu da əzəlidir. Əzəli nədir? Başlanğıcı olmayan. Deməli, belə görünə bilər, gerçəklik də əzəldən var. Dualizm də deyir, maddi, ruhi dünya

iki bərabərhüquqlu başlanğıcdır. Bəs fərq nədir?! Atanın dediyi ona qədər deyilmiş "izm"lərin dediyindən anlayışlarlamı fərqlənir?! Ya da epizodik izahlarlamı fərqlənir?! Bəlkə elə bəşəriyyət onları deyib indiyə qədər?!

Ya da *panteizm-Mütləqçilik*. Ata deyir, Dünya özündən yaranıb. Yəni Dünyalıq dünyanın özündədir. Onu Allah yaratmayıb. Panteizm də deyir, təbiət – dünya dörd ünsürdən yaranıb. Od, su, torpaq, hava. Təbiətdən yaranıb. Bu da özündən yaranıb anlamında görünür. Yəni burada üzdən baxanda panteizmlə də gəlib kəsişir.

Bu, ciddi, fəlsəfi bir məsələdir. Mən bu gün bu məsələləri yarı-yarımçıq deməyəcəyəm. Genel baxışlarım var. Mən bunun üzərində işləyirəm.

Sonra, Mütləqə inanan insan məsələsi qoyulur, kamil insan, dünyaya inam. Nədir bunlar, bizim ağlımızda hansı yönü yaradır?! Burada bir məqama toxunmaq istəyirəm: Toplumumuz müsəlmandır. Bir var İslam əxlaqı, bir də var Mütləqə İnam əxlaqı. Nədir İslam əxlaqı, nədir Mütləqə İnam əxlaqı?! İslam deyir, insan Allaha boyun əyməlidir (itaət göstərməlidir). İslam qorxunu həyatın başlıca ölçüsü (meyarı) kimi götürür. Həyat, yəni yaşam. Yaşamağın, mövcud olmağın əsasında qorxu durur. Qorxmasan sən özün ola bilmirsən, yaşaya bilmirsən. Yəni qorxmalısan, pis iş görməyəsən. Bir sözlə, həyatın ölçüsü qorxudur İslamda.

Birinci, Allaha boyun əyməlisən, ikinci, Qorxu həyatın başlıca ölçüsüdür. Üçüncü, dünyanı danmaqdır (inkar eləməkdir). Bu da həmin zəncirin bir halqasıdır. Bunu demirlər ha, deməzlər. Əxlaq nədir?! – Münasibət, davranış. Münasibətin özülüdür əxlaq. Necə davranırsan, necə düşünürsən o, əxlaqın özülüdür. İslam əxlaqı budur. Bəs Mütləqə İnam əxlaqı nədir?! – *İnsana inam, İnsanlığa qulluq, dünyayla birlik*. Mütləqə İnam əxlaqından böyük bəşəri əxlaq yoxdur. Təzada baxın. İslam dünyanı danır, sən Mütləqə İnamda dünyayla Birliyə (vəhdətə) yetirsən. O, gözüyumulu Allaha boyun əyməyə çağırır, sən Mütləqə İnamda insanlığa qulluq göstərirsən. O, insanı qorxu faktı kimi qəbul edir, sən Mütləqə İnamda insana inanırsan. Baxın, İslam əxlaqı ilə Mütləqə İnam əxlaqının arasında yerlə göy qədər fərq var. Ona görə Mütləqə İnam əxalqı bir

dünyabaxışın təkcə bir xalqda oluşdurduğu əxlaq sistemi deyil, bəşəri əxlaq sistemidir.

İkinci qonumuz kamilləşmə qonusudur. Özüylədöyüş məsələsi, bizim "Gediş Yazısı"nda qoyduğumuz qonular – "ruhani böyüməyimdə Ocaq ortamı ciddi məktəbdir", "özüylədöyüşdə ardıcıllığı qorumaq gərək, kamillik təsdiq olunsun". Mən düşünürəm, əgər bir ruhani qurum kimi Ocaqla uğraşmasam, bağımsız yaradıcılıqla uğraşaram. Bu yöndə böyük  uğurlar əldə edə bilərəm. Ancaq mən bu düşüncəni kitab kimi qatlayıb bir qırağa qoyuram. Mənim əlimə qələmi də, dilimə sözü də, beynimə düşüncəni də Ocaq verib. Ocaq ortamı  insanı özünə, dünyanın gələcəyinə inandırmaq gücü yetirir. Ocaqda elə bir yaşam sistemi oluşur, həm insana, həm də bütövlükdə dünyanın gələcəyinə inam adamın yaşamına hakim olur. Ona görə də adamın içində nikbinlik özü yaradıcılığa stimul verir. Ocaq ortamından başqa ayrı yerlərdə nikbinlik yaranmır. Başqa sözlə, yalançı nikbinlik yaranır. Məsələn, məsciddə yalançı nikbinlik yaranır. Get Suriyada döyüş, sən haqq yolunda döyüşüb ölürsən, elə ordanca cənnətin qapısından içəri girəcəksən. Yalançı nikbinlikdir. Burada nikbinlik yoxdur. Heç bir gerçək əsası yoxdur, heç bir həyati məntiqi yoxdur. Ancaq insan göründüyünə bərabər deyil. Özündə Mütləq gəzdirir. İnsana inanmasan, dünya qutsallaşmayacaq, nizam tapmayacaq. Dünyanın bir parçası olan, balaca bir insan, fiziki olaraq balaca bir nöqtəsi olan insan – bütün sonsuz kainatın anlamı fiziki anlamda balaca olan varlıqda üzə çıxır. Bütün kainatın köksündə insan adlanan zərrə döyünür. Buna inam bütün dünyanın gələcəyini sənin üçün aydınlaşdıracaq. İnsan özünə bərabər yaşayarsa, mənəvi varlıq olduğunu təsdiq eləyərsə, dünya özündə insani nizam tapacaq.

Ağaclar öz-özünə boy atır, çaylar oz-özünə axır, bu ayrı şeydir. Dünyanın nizamı insanın insana, həyata, təbiətə münasibətidir. Bununla da, əslində bütün dünya nizam tapır. Bu planetdə dəyişikliklər olur, başqa planetə etki göstərir. Kosmik etkilər deyirlər. Başqa planetin bizim planetə etkisi olduğu kimi. Ancaq bu, dünyanın fiziki nizamıdır, mənəvi nizamı deyil. Ona görə kainatın köksündə, insan adlanan "nöqtə"də döyünür onun nizamı. Ocaq ortamı həmin

nöqtənin qutsallığını, gərəkliyini anladır, öyrədir. Bundan böyük nikbinlik olmaz.

Sonra, özüylədöyüşdə ardıcıllıq məsələsi. Tutaq, biz Ocaqda həvəslə mövcud oluruq. Həvəslə gəlirik, həvəslə deyirik, həvəslə hansısa bir işi aşırırıq, sonra gedirik başqa əhvallara. Ancaq bir də var eşqlə doluruq, bütün varlığımızın əsasında yalnız Ocaq durur. Aşiqanə bir ömür başlayır. Bu aşiqanə ömür insanı çəkib sonsuzluğa aparır. O yolda insan daim ona əngəl olan xarakterik çatışmazlıqlarını izləyir, görür. Gördükcə aradan qaldırır, ya da qaldırmağa çalışır. Özüylədöyüş ardıcıllığı odur. Özünü daim görmək, daim tanımaq, daim böyümək. Özüylədöyüş qalxıb-enən səviyyə deyil. Bu gün özümə göz qoydum (nəzarət elədim), yaxşı oldum, sabah hamının biriyəm... Ardıcıllıq odur, bir xətt üzrə gəlişmə olur (inkişaf gedir). Kamilliyə gedən yolda eniş yoxdur. Daim bir xətt üzrə qalxınma var. Bax, Ocağın bizə verdiyi həm də belə bir xətdir. Əgər bu olmasaydı, Asif Atanın ölümündən sonra, 17 il, onun Ocağını, hikmətini, böyük ideyalarını qoruyub yaşada bilməzdik. Balaca həvəslə, balaca əhvallarla, adi həyati münasibətlərlə, gah inam, gah inamsızlıqla, gah sevgi, gah sevgisizliklə, gah doğmalıq, gah yadlıqla olası deyil. Bununla nəinki 17 il, 17 gün də yol getmək alınmaz.

## İnsanilik Bayramı

(*14 Günəş Ayı, 36-cı il)*

Yurdumuzun əsarət altında olduğu bir zamanda, Sovetlər çağında Asif Ata adında bir ər qopdu soyumuzdan (Dədə Qorqudda deyildiyi kimi). Azərbaycanın özündən ayrılmasının dərdini öz ürəyinə yüklədi. Heç kimi eşitmədi hələ gənc yaşlarında. Atasını, anasını belə, sevə-sevə eşitmədi. Deyirdilər Azərbaycanın dərdiylə uğraşma, özünlə uğraş, tanın, böyük ol. Özünə mal-mülk yarat, yüksək görəvlərə yet. Ancaq həqiqətlə ünsiyyətdə idi Asif Ata. Həqiqətlə doğmalaşmışdı. O deyirdi, həqiqətini tapan insan heç vaxt ondan üz döndərə bilməz. Ona görə atasını eşitmədi, anasını eşitmədi, özünü eşitdi, qəlbini

eşitdi, öz dünyabaxışını yaratdı, öz fəlsəfəsini yaratdı. Azərbaycanın ruhani mahiyətini ifadə eləyən, mənəviyyatını göylərə qaldıran "Azərbaycanımız – Azərbaycanlığımız" dəyər sistemini yaratdı. Onun harayını çəkdi. Təqiblərə uğradı. Çünkü Milli idi. Çünkü İnsani idi. Çünkü Bəşəri idi. Ancaq onu təqib edən Dövlət Təhlükəsizlik Komitəsi (SSRİ-nin) idi. Yəni imperiya idi, imperiyanın yerli əlaltıları idi. Ağzından vurdular. Millət haqqında danışma dedilər. Millətçilik eləyərsən, onda yüz damğa vurarıq sənə... Vurdular da: antisosialist, antikommunist, antimarksist, pantürkist, klerikalist… nə qədər damğalar vurdular. Özü deyirdi, bu damğalardan biri bəsdir, adamı nəinki tutsunlar, güllələsinlər. Ancaq nə yaxşı, işin üstü açılmışdı, imperiya ona heç nə eləyə bilmədi, eləmədi, daha doğrusu. Dünyaya səs salmaq istəmədi imperiya. Dünyaya səsi çıxmışdı Asif Atanın. Türkiyədən tanımışdılar, Avropadan tanımışdılar. Ona görə də qaldı, öz Yurdunun harayını çəkdi. Gizli də olsa çalışmalarını sürdürdü. 90-cı illərə qədər Azərbaycan basın yayını qapılarını onun üzünə bağlamışdı. Çap eləmirdilər. Auditoriyalara buraxmırdılar. Çünkü 1979-cu ilə kimi də onun auditoriyalarını tanımışdılar, ona görə bağlamışdılar. 1975-ci ildə "Etik-estetik tərbiyə klubu" yaratmışdı. Orada inadla Azərbaycanın mahiyətini ifadə eləyən dəyərlərin harayını çəkirdi. Onun milli ruhu diriltməsindən duyuq düşən rəsmi qurumlar bağladılar onun "Tərbiyə Klubu"nu. Dönmədi işindən, əqidəsindən, yolundan.

Asif Atanın ölümündən sonra da biz çoxsaylı görüşlər keçiririk. Təkcə basında çıxışlarla yetərlənmirik. Azərbaycanı qarış-qarış gəzirik. Bu vaxta qədər Azərbaycanın 40-dan çox rayonunda olmuşuq, kəndlərində olmuşuq. Gəncləriylə, bilim adamlarıyla, sadə insanlarıyla görüşlər keçirmişik, söhbətlər aparmışıq. Dərdimiz nədir?! – Azərbaycanlıların ağlında Azərbaycan obrazı yaratmaq, onu İnam xalqına çevirmək. Xalqın ağlında Azərbaycanın varlığını obrazlaşdırmaq. Yoxdur Azərbaycan obrazı insanlarımızın ağlında. Mən çox insanlarla söhbət eləmişəm. Özünü aydın sayan insanlarda da bu belədir, nə yazıqlar. Öz yurdumun insanlarını – soydaşlarımı aşağılamıram. Yurduma sevgim sonsuzdur. Mən insanların ayağının

altına çiyin verməyə hazıram. Yetər, o, öz milləti, vətəni üçün söz desin, ayağa dursun. Ancaq fakt faktlığında qalır...

Bizi, bir xalq olaraq, zaman-zaman özümüzə o qədər yadlaşdırıblar, o qədər balacalaşdırıblar, bilmirik yurdumuzun yönü haradır, dəyəri nədir. Bilmirik hardan gəlib hara gedirik. Yadlaşdırıblar özümüzü özümüzə. Ona görə də insanlarımıza deyəndə çaşırlar çox vaxt. “Azərbaycan nədir sənin üçün” deyirsən, başlayır, Azərbaycan 9 iqlim ölkəsidir, neft ölkəsidir. Belə Azərbaycan olar?! Sonra heç nə deyə bilmir. Niyə?! Çünkü Azərbaycana bugünkü gözlə baxır. İndiki gözlə baxanda Azərbaycan yoxdur. Nə varlığı varlığa bənzəyir, nə mənəviyyatı, nə mədəniyyəti, nə dəyəri özününküdür. Geyimindən tutmuş davranışına qədər hamısı yadlaşıb. Küçələrimizi də görürsünüz. Azərbaycanda özünə xas bir şey tapa bilmirsən. Ancaq televiziya bar-bar bağırır – “biz çox gözəl qalxınma yolu keçmişik. Tərəqqi başdan aşır. Hər şeyimiz əladır”. Heç nəyimiz əla deyil. Yüksək texnologiyaların işləməsi xalqın mənəviyyatının yüksəlməsi demək deyil.

Biz üzümüzü tuturuq Asif Ataya. O, bizə Azərbaycanı tanıdır, öyrədir, sevdirir. Mən Borçalıda doğulmuşam. Borçalıda mən Azərbaycan tarixini bilmirdim. Gürcüstan tarixi öyrədirdilər bizə. Yalnız elə-belə bilirdim, Borçalı nə vaxtsa Azərbaycan torpağı olub. Bu az idi. Ömrümdə bir yol, əsgərlikdən gələn çağlar, cəsarət göstərmək istəmişdim. Hər yandan ağzıma vurdular. Nədi-nədi deyirdim, Borçalı Azərbaycandır. Hərə bir yandan ağzıma vurdu, səsini çıxartma, yoxsa səni içəri salarlar. Sovet vaxtı idi. İndi nə dəyişib?! – Həşirə düşdük. Həşirə saldılar bizi. Demokratiya həşirinə saldılar. Ancaq iki min ildir demokratiya ölü doğulub. Yoxdur demokratiya Azərbaycanda, daha doğrusu, dilədiyimiz uğurlu yaşam. “Xalq hakimiyyəti” sözü yalandır. Xalqın üzərində hakimiyyət var. Quldarlığın öz demokratiyası var idi, Feodalizmin öz demokratiyası. İndi də kapitalizmin öz demokratiyası var – Pulçuluq demokratiyası. Kimin pulu varsa, qanun onun çıxarı üçündür. Demokratiya pullular üçündür. Amerikada milyardlarla pulu olan prezident seçilir. Çünkü xalqa özünü sırıdır, televiziyaya o çıxır. Sizin hansı biriniz televiziyaya çıxıb təbliğ edə bilərsiniz, mən də bu xalqın yönətiminə qatqı

göstərmək istəyirəm?! – Heç biriniz. Çünkü heç birinizdə o pul yoxdur. Nə qədər istəyirsən xalqını sev, istəyirsən onun dəlisi ol. Səni heç yaxın buraxmazlar. Bizim ölkəmizdə də kimin pulu varsa, onu seçkilərə buraxırlar. Bir də pullulara gərək olanları.

Asif Ata ömrünü Azərbaycana verib. Azərbaycanın təkcə filosofudur, Fəlsəfənin onunla bağlı ontologiyası yaranıb. Azərbaycandakı çoxluq diplom filosofudur. 5 söz yazıb puluyla, dost-tanışı ilə fəlsəfə elmlər namizədi olurlar. Baxın, nə baş verir versin, insandan qıraqda baş verir. Tərəqqi insandan qıraqda baş verir. Toplumsal tərəqqi yoxdur. Körpüləri nə qədər istəyirsən çox tik. Nə qədər istəyirsən göydələnlər tik. Onun insana özgünlüyü (dəxli) yoxdur. Söz yox, içində yaşayan insandır, ancaq o tərəqqi insanlığa qulluq eləmir. O tərəqqi sürü yaradır. Ona görə biz, Asif Atanın Ocağı olaraq, Onun çağırışını hər yerdə deyirik: “İnsanlaşın – İnsanlaşdırın”. Bəzən xətirlərinə dəyir, deyirlər, biz insan deyilik?! – Mən illər öncə içimə baxdım, gördüm, insan deyildim. Aldatmadım özümü. İçimdə hər cür balacalıq vardı. Toplumumuzda, bölgələrimizdə tərbiyəli adamlar var. Ancaq tərbiyə insanlığın aşağı pilləsidir. Tərbiyəylə insan yol gedə bilmir. Ortam (Mühit) korlayır onun tərbiyəsini. Ona görə Asif Ata Özüylədöyüş ideyası verdi. Asif Ata deyir, bəşər övladı məxluq kimi doğulur, adam kimi böyüyür, İnsan kimi qurulur, fəlsəfi dilnən desək, yenidən doğulur. Məxluqun vətəni yoxdur. Məxluqun həqiqəti yoxdur. Məxluq ədalət tanımır. Məxluq yalnız öz qarnını tanıyır. Özü üçün yaşayır. Dəyər yoxdur onun üçün. Nə yazıqlar, məxluq səviyyəsində qalır çoxluq. Məxluq səviyyəsində qalan çoxluq sürüyə çevrilir. Məxluq elə heyvan kimi bir şeydir. Əgər onun üçün ədalət, həqiqət, dəyər, vətən yoxdursa, elə heyvandır. Adam həqiqətdən danışar, ancaq həqiqət uğrunda bir addım atmaz. Ədalətdən danışar, ədalət uğrunda bir addım atmaz. Vətənindən bol-bol danışar, ancaq gərəkəndə, vətən üçün ölümə getməz.

Bir haşiyə çıxım. Mənim böyük övladım cəbhə bölgəsindədir. Ermənilərlə üz-üzə səngərdədir. Özü də Ocaqçıdır. Mən Ağcabədidə görüş keçirirdim, söhbətlər edirdik. Orada övladımın cəbhə bölgələrindən birində olduğunu bildilər, mənə yaxınlaşıb dedilər, sizin adamınız var, uşağı ön cəbhədən arxa cəbhəyə çəkmək üçün?!

Mən onlara dedim, sizə bir saatdır vətən sevgisindən, millət sevgisindən danışıram. Siz mənə deyirsiniz, oğlunu xalqın balalarının arasından götür, gətir arxaya qoy. Mən onu eləyə bilmərəm. Söz yox, mən atayam, bilirəm bu nə deməkdir. Mən bilirəm orda fəlakət də ola bilər. Mən o fəlakəti yaşaya bilərəm, ancaq qırmızı-qırmızı yaşaya bilmərəm. Sizin qarşınızda Azərbaycandan, vətən sevgisindən danışa bilmərəm. Ayda bir neçə yol xalqın balaları ilə görüş keçiririk. Biz onların ağlında vətən obrazı yaradırıq. Mən necə onların gözünün içinə baxıb deyim, mən vətənimi sevirəm, sizi də vətən sevgisinə çağırıram?! Mən onu eləyə bilmərəm... Mən Asif Atanın əlindən tutmasaydım, bəlkə də eləyərdim.

Aşağı-yuxarı 20 il bundan öncə işlədiyim müəssisədə mən qumar oynayırdım. Süfrə açırdıq araqlı-çaxırlı, yeyib-içirdik. Əyləncəli oyunlar, nərd, domino. Günlərin bir günü, Asif Atanı azdan-çoxdan anlamağa başlayanda, ağlım çaşdı, mən neyləyirəm. Mən hansı yükün daşıyıcısıyam, necə ömür yiyəsiyəm?! Bu ömür Asif Atanın dediyi deyil. Bunları mən kitabımda da yazmışam. O kitabım çıxanda bir sıra Amaldaşlarım qarşı çıxdılar, özün haqqında bunları niyə yazırsan deyə. Dedim, bu ömrü mən yaşamışam. Mən papiros çəkirdim. İndi 18 ildir papiros çəkmiərm, spirtli içki içmirəm. Əyləncəli oyunlara mənim heç vaxtm da yoxdur, həvəsim də. İndi mən qələm-dəftərdən, kitabdan ayrıla bilmirəm. Səfərdən, görüşlərdən ayrıla bilmirəm. Bu aqibəti mənə Asif Ata öyrətdi. Onun yolunda əldə elədim. İçimə girdim gördüm, içimdə balacalıqlar var. Gördüm, bu içlə nə desəm boğazdan yuxarı olacaq. Bu içlə mən vətəni sevə bilməyəcəm. Bu içlə mən xalqımı sevə bilməyəcəm. Ən yaxşı halda, görüntü yaradacam özüm haqqında. Ona görə də Asif Atanın özüylədöyüş ideyasını özümə bayraq elədim. Özümü tanıdım, öz içimdəki balaca duyğularla döyüşdüm. Hələ də ayrı-ayrı qüsurlarım qarşıma çıxanda özümlə döyüşürəm. Ayrı-ayrı qüsurlarım ortaya çıxanda deyirəm, bu, mən deyiləm.

Asif Ata niyə özüylədöyüş ideyası yaratdı?! – Hər kəs başqası ilə döyüşür. Hər kəs başqasını qaralayır. Başqasının haqqında ağzına gələni deyir. Hər kəs başqasını söyür, başqasıyla cırmaqlaşır. Heç kim özüylə döyüşmür. El arasında buna deyirlər, "heç kim ayranına turş

demir”. Ancaq Asif Atanın yolu dedi, birinci öz ayranına (turşdursa) turş deməsən, onda həqiqət sözünü dilinə ala bilməyəcəksən. Həqiqət səviyyəsinə qalxa bilməyəcəksən. Mənəviyyat qüsuruyla, idrak qüsuruyla, iradə qüsuruyla yaşamaq olmaz. İdrak qüsuruyla yaşayır toplumumuz. Cəfəngiyyata tapınır. Cəfəngləşir. Cəhalətləşir. Ancaq bir yandan da tərəqqi adından danışır. Eləcə də mənəvi qüsurları. Bizə, bir xalq olaraq, bir sıra basın da, televiziya da antixəlqi şeylər öyrədir. Heç birində milli-mənəvi dəyərə rast gəlməzsiniz. Nə yaxşı, arada sazdan-muğamdan verirlər. Ancaq bu azdır. Xalqın balalarının tərbiyəsini korlayanlar hamısı pul qazanır, xalqın varidatını yığır cibinə. Həm mənəviyyatını uçurur, həm ləyaqətinə həqarət gətirir. Həm onun vətəninə həqarət gətirir, həm də onun pulunu talayır. Onlar olur xalqın başbiləni. Bunlar hamısı Asif Atanın görümündə 60-cı illərdən (bu fəlakət) qabarıb. Deyib, döyüşüb. Təqiblərdən qorxmayıb. Diplomlarını SSRİ-yə qaytardı, “Ali Attestasiya Komissiyası”na. Yazdı: sənin verdiyin filosofluq diplomları mənsəbsevər, əzbərçi, öz xalqına qarşı yaşayan mənəviyyatsız sürü yaradır. İnsani, xəlqi ləyaqətimi qorumaq üçün sizin diplomlarınızı özünüzə qaytarıram. Ancaq bizimkilər rüşvət verir, pul verir diplom alır, sonra da deyir, mən aliməm, mən professoram, mən akademikəm, sən isə heç kimsən. Burdan yığışıb gedirlər Məkkəyə, orda həci olurlar, gəlib burda pul qazanırlar, sənə də üstdən aşağı baxırlar: “Mən həciyəm, sən heç kimsən”. Vətən, Millət anlayışı onun içindəki insanların qəlbində var ola bilər, sevgisində böyüyə bilər. Əsilliyində böyüyə bilər, əsilsizliyində yox. Vətən Həmədandan başlayır düz Dəmirqapıya (Dərbəndə) qədər. 1200 km bir coğrafiyanın içində, 400-500 min kv.km-dən 69 min kv. km ərazimiz qalıb. Niyə?! Çünkü heç kimin qəlbində vətən sevgisi bütövləşmədi. Xalqın ağzı bir yerə gəlmədi. Hamını bir yerə bağlayan dəyər tanınmadı, sevilmədi.

Plüralizm nədir – xalqı dağıtmaq. Sənin öz düşüncən var. Olsun, qarşı deyiləm. Ancaq düşüncən olsun da. Sən düşüncə ilə uğraşmırsan axı. Ancaq deyirsən, mənim də öz düşüncəm var. Hüquq oyunu oynayırlar. Sən o haqqa yetməmisən axı. Sən tüfeyli bir ömür yaşayırsan, özün də deyirsən, səninlə mənim haqqım, hüququm

eynidir. Sənin yaşamaq hüququna qarşı deyiləm. Çörək yeməlisən, paltar da geyməlisən. Ancaq xalqın meydanına çıxıb deməli deyilsən, mənim də öz sözüm var. Xalq böyük məsələdir, ciddi məsələdir. Bununla, yəni düşüncə ilə, sağlam idraklı insanlar uğraşmalıdırlar, qalanlar onları eşitməlidirlər. Biri bizi rusun ayağına bağlayır, biri farsın ayağına, bir başqası ingilisin ayağına. Bütövlük, Birlik yarada bilmirsən bu ölkədə. Bir-birini söymək, qara piarçılıq. Xalqın içində bir balaca Birlik olanağı yarananda içindən min dənə hoqqa çıxardır. Bir ideologiya yoxdur. M.Ə.Rəsulzadə ideologiyası deyirlər, ancaq heç kim M.Ə.Rəsulzadənin yoluyla getmir. Yoxdur elə bir şey. Mən demirəm M.Ə.Rəsulzadənin yolu ideal yoldur. Ancaq indikilərdən qat-qat yüksəkdir... Baxın, biz Asif Atanın Ocağı olaraq, 4 bayram keçiririk. Bizə bir balaca Novruz bayramı yaxındır. Ona görə balaca deyirəm, Novruz bayramında məzmun qalmayıb. Kimdir bayramı keçirən. Baxın, mənəviyyatımızı uçuranlar, çılpaq atdanıb düşənlər, onlar Novruz bayramını rəsmi şəkildə keçirirlər. Təkcə şəkərburayla Novruz bayramı olmaz. Məzmun olmalıdır, məna olmalıdır... Bir az onun məzmunu bizə yaxındır, qalan bayramların heç biri bizə doğma deyil, yaxın deyil. Bilmirsən nəyi bayram edirlər. 12 ayın az qala yarısı bayramdır. İçində də heç nə yoxdur. Asif Ata 4 bayram yaratdı. Hamısı da mənayla, məzmunla bağlı. Biri, bu günkü, "İnsanilik" Bayramı adlanır. İnsani məzmunu, İnsanilik həqiqətini bayram edirik. Öncə mərasimləşdiririk, doğmalaşırıq. Sonda çay süfrəsində də doğmalaşırıq. Musiqi də olar, başqa bədii çalar da. İkinci bayramımız "Xəlqilik" Bayramı adlanır, yayın birinci ayı, Şölə Ayının 13-də keçiririk. Xəlqiliyi bayram edirik, milli ruhun varlığını bayram edirik. Üçüncü bayramımız "Şərqilik" Bayramıdır. Ata Ayının 12-si (sentyabr ayında). Niyə Şərqilik?! Asif Atanın yolu – İnsanilik, Millilik (bizdə Türkçülük), Doğusallıq (Şərqilik), Bəşərilikdir. Başqa xalqlara qarşı deyilik. Başqa xalqların dəyərlərinə qarşı deyilik. Biz başqa xalqların dəyərsizliyinə qarşıyıq. Bizim içərimizə dəyər yerinə dəyərsizlik doldurmalarına qarşıyıq. Biz nə rusun düşməniyik, nə ingilisin, nə farsın. Bu xalqlara düşmən gözüylə baxmırıq. Xalqlar ayrı şeydir, dövlətlərinin yürütdüyü ideologiya, siyasət ayrı şey. Antiinsani ideologiyalara qarşıyıq. Baxmayaraq, Doğunun özündə o qədər

eybəcərliklər olub. Hərəmxana eybəcərliyi olub, şahların sarayında min cür əzazillik olub. Ancaq bəşəriyyət təkcə bundan oluşmayıb. Sivilizasiya Doğuda olub. Böyük fəlsəfə Doğuda yaranıb. Muğama bərabər nə var. Doğu xalqları birgə yaradıb onu. Peyğəmbərlik olayı Doğuda yarandı. Böyük poeziya Doğuda yarandı. Budur Doğusallıq (Şərqilik). Nə qədər bunun qədrini bilmirik, nə qədər Avropadakı elmi qalxınma Doğu dəyərlərilə Birlik yaratmır, bəşərilikdən danışmağın yeri yoxdur. Biryanlı tərəqqi olmur. Doğunu danmaq, onu təkcə cəhalətə bərabər götürmək olmaz. Doğunu təkcə hərəmxanalara bərabər götürmək olmaz. Necə biz Avropanı təkcə dağıdıcılığa bərabər götürmürük. Onda gərək dünyadan əl çəkəsən, ona bərabər götürəsən. Ona görə də Doğusallığı bayram edirik.

Sonuncu (dekabrin 12-si) Sərt Ayı Bəşəriliyi bayram edirik. Biz adamları çağıranda gəlməyə qorxurlar bəzən, çünkü Heydər Əliyevin öldüyü gündür. Biz bu bayramı ondan çox qabaq keçirməyə başlamışıq. Ona qalsa, bu gün də Babəkin öldürüldüyü gündür. Mən inanıram, Asif Ata bu günün – Babəkin öldüyü gün olduğunu bilmirdi, şərti seçmişdi bu tarixi. Düzdür, bayram əyləncə deyil onsuz da. Babək azadlıq ölçüsü idi. Mən İnsanlığın qələbəsi sayıram Babəkin varlığını. Biz bu bayramları keçiririk. Öncə məzmunca, yəni mərasim kimi keçiririk. Sonda çay süfrəsində də doğmalaşırıq. Düşüncələrimizi bölüşürük. Mən düşünürəm, xalqın keçirdiyi bayramlarda mərasim olmaldır, söz deyilməlidir. Niyə bayram edirik, nədir bayramın səbəbi... Yubiley keçirirlər. Niyə keçirirsən?! Gərək elə mənalı ömür yaşayasan, o ömrü bayram eləməyə haqqın ola. “Mənalı ömür yaşamışam, insan kimi yaşamışam, vətənimə, millətimə qulluq eləmişəm”... Əsil mənada özünü təsdiq edən insanlara keçirmək olar ömür bayramı (yubileyi). Bayram onun kimi. Niyə keçirirk bayramı. Xalqın ömründə bir məna tapırıq, məzmun tapırıq, onu xalqın özünə deyirik...

Bir daha deyirəm, biz bu günü Babəkin anım günü kimi keçirmirik. Elə görünməsin, keçirdiyimiz bu gün Babək günüdür.

Sonra kimsə dedi, “Qarın qardaşdan irəlidir deyib babalarımız”. Bu düşüncəni bir az dəqiqləşdirək. Bunu babalarımız deməyib. Biz kimə babalarımız deyirik?! O kəslərə baba deyirik, onlar bizim

tariximizi yaradıblar, dəyərlərimizi qoruyublar. 9 milyonun hamısına baba demirik. Onların içərisində xalqın mənəviyyatını yaradan, ağlını yaradan insanlarımıza keçmişimiz kimi baxırıq. Babəklərə, Nəsimilərə, Füzulilərə dəyərimiz, keçmişimiz kimi baxırıq. O ifadəni babalarımız işlədə bilməzlər. Onu cılız adamlar deyiblər. Ya da onu, qarnını qardaşdan irəli bilənlərə satira kimi deyiblər. Yoxsa cılız adamlardan bizə baba olmaz. Bizim tariximizin, keçmişimizin babası deyillər onlar. Ocaq olaraq, ifadələrimizi özümüz düzəltməliyik. Bəzən qıraqdan da deyirlər, atalarımız, babalarımız belə deyiblər. Mən də deyirəm, siz xalqı ayaqlar altına salan adamları niyə atalarımız, babalarımız sayırsınız. Siz xalqa qulluq edən insanları sayın atanız, babanız. Bizə həqiqəti verən, yol göstərən insanlardan örnək götürə bilərik. Onları babalarımız, atalarımız saya bilərik. Biz milli-insani yöndə yanlışlar eləyənlərə, günahlar işləyənlərə babalarımız deyə bilmərik. “Palaza bürün, elnən sürün” ifadəsini babalarımız deyə bilməz. “Ağa deyir sür dərəyə, sür dərəyə” – babalarımız bunu deyə bilməz. Burda oturanlar – bizlər, yəqin 100 ildən sonra babalar olacağıq. Biz nəylə babalar olacağıq?! – Ləyaqətimizlə, hikmətimizlə, böyüklüyümüzlə. Həmişə xalqı barmaq sayda insanlar tanıdıb (təmsil edib). Asif Ata istəyir, xalqın içində xalqı dağıdan qüvvə olmasın. Xalqı dağıdan cəhalət, qaragüruh olmasın. O demir, milyonlar dönüb kamil olsun. Söz yox, alınmaz. Alınan odur, xalqının içində (qiblə) yön yaranır, mənəvi-idraki yön. Sənin xalqının içində müdrikin olur, ağsaqqalın, həqiqi şairin olur, həqiqi yazıçın olur. Onların yaratdığı milli ortam olur. Yaxşın da, pisin də milli ortama boyun əyir. Bu gün özbaşınalıqdır. Bu gün evlərin içi eybəcərləşir, bu eybəcərliyi televiziyaya çıxarıb göstərirlər. Əgər xalq özünə bərabər olsaydı, buna heç kim risk eləməzdi. Ona görə vurğu edirik: öz içimizdə dəyəri tanımalı, yaratmalı, yiyə çıxmalıyıq. Heç bir xalqın da haqqı yoxdur, özünün zibilini başqa xalqa sırısın. Bəhrələnmək ayrı şeydir, sırımaq ayrı şey. Sırımaq o deməkdir, sən özününkünü qoyursan qırağa, onunkunu götürürsən. Bəhrələnmək o deməkdir, gözəl bir dəyəri sunursan, başqaları ondan bəhrələnir. Necə insanlar bir-birinin gözəlliklərindən bəhrələnirlər, dünya xalqları da bir-birinin

gözəlliklərindən bəhrələnməlidir. Xalqların özünəxaslıqları var. Onu sevmək, bəhrələnmək olar.

## Atagün Ailə Günü

*(21 Günəş Ayı, 36-cı il)*

Öncə Amallaşma haqda demək istəyirəm. Bəzən Ocaqçılar deyirlər, Atadan oxudum, az oxudum, oxumadım i.a. Bunu demək olar, ancaq bilmək gərəkdir, Amallaşma təkcə kitab oxumaq demək deyil. Sən bu ayın içində Atadan bir şey oxumaya bilərsən. Bu çağa kimi oxumusan axı. Düşüncələrində elə bir hikmətə gəlib çıxa bilərsən, o sənin üçün də ciddi bir qapı açar, amaldaşların üçün də. Düşüncəni demək gərəkdir, nə anladım. Hər günüm Amalı düşünməkdirsə, hər günüm Amal üstə yaşamaqdırsa, deməli, düşünəndə Amalımı yaşayıram. Ona görə Amallaşmanı təkcə kitabdan deyil, həm də düşüncə yarpaqlarından götürürük.

Atanın "Dünyaya qarşı durmaq" deyimi var. Bu, Ocaqçı üçün yüksək bir koşul deyil, bəlkə də sıradan bir koşuldur. Dünya zəlil gündədir. Hər şey adiləşib. Bəyəm bu hal təkcə sənin xalqındadır?! Dünyanın hər yerindədir. Evin içini açıb tökmək təkcə Azərbaycandan gəlmir, dünyadan gəlir. Bu nədir, bunu mən saya alım?! Mən dünyada həqiqəti, böyük hikməti saya alardım, o yoxdur axı. Putin böyük şəxsiyyətdir?! Obama böyük şəxsiyyətdir?! Böyük şəxsiyyət deyil. Alimin icad elədiyi yaraq dünyanı hədələyirsə, hədə yarağının arxasında duran adam böyük şəxsiyyət deyil axı. O şəxsiyyəti dünya üçün örnək götürmək olmaz axı. Örnək götürə bilərsən, bax, bu evi. Deyərsən, nəfəsi təntiyən, üzü üstə düşən, umudu heç olan insanlar gələr, sənin bu evində umud tapar, həqiqət tapar, gözəllik tapar. Dünyanın anlamını tapar. Dikələr beli, ayağa durar, deyər, hələ yaşamağa dəyər. Özünü tanıya bilər insan balaca bir ünvanda. "Dünyaya qarşı durmaq" o deməkdir. Bu boyda ərdəmlik ortaya qoyursan, özündən keçirsən, böyük insan zəhməti ortaya qoyursan. Bakıdan durub gəlmisən bura, bu ünvanı, yüz illər bundan sonrakı

çağlar üçün qutsal söz söyləyən, insanlığa örnək olan bir ünvanı ziyarət eləməyə. Bu ünvanda dayanıb yüz il bundan sonraya söz deyirsən. "Dünyaya qarşı durmaq" o deməkdir...

Burada toxunulan düşüncələrə aydınlıq gətirək. **Vicdan-duyğu** məsələsi. Vicdan özüldür, duyğu özül deyil demək olmaz. Duyğu da özüldədir. Duyğu nə istəyir, niyə duyğu istəyir, ya istəmir, vicdan da ona əngəl olur?! Bax, onu bizə Ruhaniyyat öyrədir. Asif Ata deyir, Özüylədöyüş sənin içində vicdanını boğan duyğu saxlamır. Özüylə döyüşərək, onu qırağa qoyursan, onu əməlsiz qoyursan. Vicdanına qanad olan duyğu böyüdürsən. Onda üzü gülə-gülə sabaha uçub gedəcəksən. Duyğu vicdanın qanadıdır, üzü sabaha uçur.

**Sevgi məsələsi**. Məncə, Amaldaşımız Göylü düşüncəsinə bir az düzəliş etməlidir. Deyir, gərək içimdə sevgini yaradam. Sevgini yaratmaqmı, böyütməkmi? Sevgi var axı (söz Ocağa, Amala sevgidən gedir). Sənin sevgin olmasa idi, bu boyda aşamalar keçə bilərdinmi?! Hardasa başqa əhvallar sevgini zəif göstərə bilər, onu arxa plana keçirə bilər, adamda hansısa bir yaddançıxmalar ola bilər. Onu aradan qaldırmaq, gəlişdirmək, böyütmək, əsilləşdirmək, kamil səviyyəyə çatdırmaq gərəkdir. Ocaq ortamı sağlam ortamdır.

...Ata deyir, vaxtı diriltmək gərək. Vaxtı diriltmək, yəni beyni tüfeyli düşüncələrdən qorumaq, əli-əməli hərcayi gedişlərdən qorumaq. Onda vaxtı dirildəcəksən. Vaxtı nə alır – içdəki balaca duyğuların əyilməsi, əzilməsi, sapması. Ocaq – vaxtın dirildiyi ünvandır. Bütün dünya üçün bunu demək gərəkdir, bütün dünya üçün bu, özünü doğruldur.

Amaldaşımız Üstün özüylə bağlı əsəb, gərginlik keçirdiyini vurğuladı. Başqa bir iş görəndə əsəbiləşirəm, Ocaq işi görəndə fərəhlənirəm deyir. Əgər sən Ocaq işi görəndən sonra ayrı bir iş görüb əsəbiləşirsənsə, bu o deməkdir, Ocaq işi tam bitməyib içində. Tam bitməsi nə deməkdir – aşiqlik. Aşiq öz fiziki varlığı üçün də gedib iş görər, ancaq heç əsəbiləşməz. Ancaq ömrünü daha çox həyata verərsənsə, onda əsəbiləşərsən. Qurtuluş Aşiqlikdədir. Amal aşiq istəyir.

Günev deyir, "mən özümü ağgünlü (xoşbəxt) sayıram". Bu, sıradan bir deyilişə oxşayır. Ancaq o deyiliş hamının dediyi deyil.

Yəqinlikdir bu. Təsadüfən bu gün əhvalının yaxşı olmasından irəli gəlmir. Bu, içdə yaranan bəlirtidir, oturmadır. O vurğuda saxta bir şey yoxdur. O mənə qanad verir. Sən içində yəqinlik yaradırsan. Gəlib elə bir səviyyəyə qalxırsan, vurğu edirsən – “Mən Ağgünlüyəm”. Bu tamğa (möhür) vurmaqdır. O tamğanı sənin ürəyin vurur. Yaşamısan, qalxmısan, ucalmısan. İllərini qurmusan. Qüdrət onda yaranır. Bütün dünya ona qarşı çıxa bilər, o yenə deyəcək, mən ağgünlüyəm. Kənddə yaşayan başqa biri də deyə bilər, mən ağgünlüyəm. Sən harda yaratdın ağgünlülüyünü?! Ancaq Günev deyə bilər, 25 ildir bu ağgünlülüyü yaşayıram. Tolstoyun 70 yaşında ağlına gəldi, o ağgünlüdür. Bu özü bir təsdiqdir.

**Asif Ataya tapınmaq məsələsi.** Ocaqda hər birey Asif Ataya tapınmağından qürur duyğusu keçirir. Təkcə Asif Ata Ocağının törənlərində deyil, dünyanın hər yerində qürur duyğusu keçirir. Həmin qürurla deyə bilərsən, xalq Ocaqdadır.

Mən Azərbaycanın xəlqi mənasını sevirəm, heç kim mənim qarşımda durub bu xalqı aşağıladığımı deyə, bunu sübut eləyə bilməz, gücü çatmaz. Mənim ömrümə xalqın ağrısı yüklənib. Mənim ürəyimə onun özünə qarşı yaşadığı fəlakətlərinin kədəri yüklənib...

Sonra, dünyanın hər yerində bu sözü mən deyərəm: Asif Atanın davamında, min il sonralar üçün belə, fəlakət yoxdur, qəbahət yoxdur, insana, bəşərə qarşı dönüklük yoxdur. Məhəmmədin davamında dönüklük var. Möhtəsim Səhllə birləşib xəyanət elədi, Babəki öldürüb vətənini dağıtdı, özgürlüyünü əlindən aldı. Bu, Məhəmmədin davamıdır. Məhəmmədin davamında bu var, çünkü özülünü Məhəmməd özü töküb. O özülün üstündə bu yarandı. Asif Atanın davamında o yoxdur, olmayacaq. Asif Ata elə özül qoymayıb.

Ona görə deyirəm, Məhəmməddən qorxan adamdan türk olmaz, xalq olmaz. Mən türkəm, xalqam, öz evimin içində öz işığımı yandırıram. Öz başımın üstündə öz göyümü görürəm. Öz allahımı görürəm, ona tapınıram. Ona görə deyirəm, mən Türkəm, xalqam, xalqın məzmunu məndədir. Məhəmməddən qorxan sən, necə türk ola bilərsən, mənə kafirlik damğası vuran sən, necə türksən, nəyin türkdü, necə xalqsan sən?!

Mən bir yazı yazmışdım: İsa dağılmış, çökmüş Avropa insanından özünə, allahına yanaşma sərgiləyə bilən insan yaratmaq üçün çalışdı. Görəsən, Asif Ata dağılmış, müsəlmanlaşmış bu xalqdan türk yarada biləcəkmi, nə vaxt yarada biləcək?! O vaxt türk yarada biləcək, bu xalq deyəcək, mən müsəlman deyiləm, xristian deyiləm, buddist deyiləm. Mənim tarixim var, babalarım var, o tarixin üstündə qətiyyətlə dayanan şərəfli bir türkəm. Bütün qəlbimin gözəlliklərini bəşəriyyətə açan şərəfli bir insanam, onda sən deyə biləcəksən, türksən. Ona görə Ocağın nə işlə uğraşdığını anlamaq gərəkdir. Beş adam bir araya gəlib haray çəkir, söz deyir, ürəyinin şəhdini-şirəsini qoyur ortaya. Oyun oynamır, taledir bu. Bütün bəşər aqibəti, yeni bir səviyyədə, sənin ürəyinin sevgisində, döyüşündə yer tapıb. Bəşəri görmək istəyən bu ürəyə baxsın. Ayrı yerdə bəşəri tapa bilməyəcək. Ocağın atdığı addım, ortaya qoyduğu ləyaqət min il öyrəniləcək bir dəyərdir. Mən bu Yolun vurğunuyam. Mənim vurğunluq duyğularımı Asif Atanın Mütləqə İnam sevdası yazıb-yaradıb. Ona görə mənim başqa yönə vaxtım yoxdur. Mən ancaq Ocaqla uğraşıram. Bu xalqın mahiyətində tapınılası həqiqət işığı var. Asif Ata yox yerdən ona həqiqət uydurmur. Yox yerdən ona gələcək uydurmur. Xalqın içində böyük məsələlər var. Asif Ata "Azərbaycanımız-Azərbaycanlığımız" dəyər sistemi yaradıb. Bu sistemdə Asif Ata Dədə Qorqud haqda danışır. Halbuki Dədə Qorqud haqda yazını insanlarımız gedib dışarıda axtarmalı olur – Drezdendə, Vatikanda... Dədə Qorqud elə bir yaşam sistemidir, bütün bu gün illədiklərimizin hamısı o özüllər üzərində gəlişir. Ata deyir, Dədə Qorqud Ağsaqqallıq böyüklüyümüzün ifadəsidir. Ağsaqqallıq böyüklüyümüzün ifadəsi nağıl deyil, yaşamdır. Böyük var idi, ailə var idi, igid var idi, qəhrəman var idi, nizam var idi. Üstündən min il keçdi, xalq dastanlar yaratdı. Xalqın həmin diləyi, niyyəti Koroğluda yenidən ortaya çıxdı. (7777) Dəlilər bütöv bir xalq deməkdir. Yəni xalqın obrazını ifadə eləyir. Bu xalqın içində yarımca şər yoxdur, dönüklük yoxdur, hamısı mərddir, haladır. Ata deyirdi, mən inanmıram Həmzə türk olsun. Mən də əminəm, Koroğlu dünyası türkün dünyası idi, Həmzə erməni toplumunun obrazı idi. O gəldi Türkün içinə, ona yer verdilər, üzünə xoş baxdılar. Axırda türkün torpağını parça-parça əlindən aldı. Koroğlunun atını

aldadıb əlindən alması elə həmin mənadır. Necə bir-birinə bənzəyir. Ona görə də xalqın içini böyütmək gərək, ağlını böyütmək gərək. Dəyərinə baxmaq gərək, nağıl deyil bu.

Bəzən sən ermənini nümunə göstərib deyirsən, erməni qədər də olmadıq. Deməli, sən Koroğlunu dərk eləmirsən, Babəki dərk eləmirsən, Dədə Qorqudu dərk eləmirsən. Babəkin özündən keçməsini görmürsən. O, özündən keçirdi, sən bu günə düşməyəsən. Bu gün ayaqlar altında qalmısan, namusun əllərdə qalıb. Babəkin özgürlük carının adı "Gələcək" idi – sənin ruhunun qurtulduğu Gələcək. Asif Atanın da dediyi odur. Asif Ata demir on beş gündən sonra mən bu xalqı düzəldəcəm. Deyir 100 ildən sonra sənin xalqın məhv olmasın, ləyaqət qoysun ortaya. Həmin Gələcəyi yaradır. Babək sənin üçün Gələcəyi verirdi, diləyini gözündə qoydular, satdılar i.a. İndi Babəkinə yiyə çıx. Onda gəlib çıxacaqsan Asif Atanın çağırışına. Görəcəksən, nə istəyir səndən Asif Ata. Asif Ata deyəndə bu bayrağı başının üstünə qaldır, ona görə demirdi, ona da tarixdə bir yuva aç. Bu Bayraq sənin başının üstündə olanda, sənin başının üstündə başqasının çətiri olmayacaq, göylər üzünə qapanmayacaq, işığa həsrət qalmayacaqsan, yaşarılığın sevgisinə həsrət qalmayacaqsan. Bu Bayqağı başının üstünə as, ürəyin bu bayrağın işığı qədər böyüyəcək, özgürlüyünə yiyə çıxacaqsan...

Mən bu Bayrağı öpdüm, dərk elədim, duyğularımın gözəlliyindən utanmıram. Duyğularının gözəlliyini dərk eləməyən utanır. Öz böyüyünə tapınmaqdan utanır, onu sevməkdən utanır, həqiqət carçısı olmaqdan utanır, hamının biri olmamaqdan, qırağa çıxmaqdan əziyyət çəkir. Gülərlər mənə, lağ eləyərlər mənə deyir... İndi Ocağı da, onun hikmətini də gör, bu dünyanın gedişini də.

Bir neçə söz də Yurdumuzun bu günü, sabahı haqqında. Sovetlər dağılandan uçurum daim dərinləşir. Bunu dərinləşdirən nədir?! – Hər zaman biz bunu vurğu edirik, sözümüzü deyirik. Buna nədən siyasal mənada Azərbaycanın milli ideolojisinin olmamasıdır. Milli ideoloji olmadığı üçün, sən kürəyini Qırağa söykəyirsən, Qıraqdan səni yıxa biləcək dalğalar gələcək üstünə. Çünkü Qıraq heç bir vaxt səni düşünməyib, düşünməyəcək də. Uğurlu bəşər halı yaranmayıb, umasan, filan xalq vicdanlı xalqdır. Çıxarlar, ilgilər (mənafelər, mara-

qlar) dünyasında yaşayırıq. Heç bir vaxt qıraqdan sənə müsbət, xeyirli iş gəlməyəcək. Bizim içimizdə çalışanlarımız kürəyini söykəyir qırağa. Bu birinci səbəb.

İkinci, din. Din bütün balacalığı ilə özünü göstərir, toplumu daim çalxalayır, anarxiya yaradır. Dinin yaratdığı anarxiya, siyasətin yaratdığı anarxiyadan az deyil. İkisi də uçurumu dərinləşdirir. Çoxrəylilik məsələsi aradan qalxmalıdır. İnsanların düşüncə müxtəlifliyi yalnız şəxsi məsələlərində ola bilər, dövlət məsələsində, xalq məsələsində onun, necə gəldi, qarışmağa, danışmağa haqqı yoxdur. Hər kəs ağlına gələni üyüdüb tökür ortaya. Millətin düşünəni, sevəni, aydını ortaya durmalıdır. Ağıl işlətməlidir, ortaya məntiq qoymalıdır, milli ideoloji qoymalıdır. Bu məntiqlə, bu ideoloji ilə dövlətçilik məsələləri möhkəmlənməlidir. Eyni halda, dindən addım-addım imtinanı bacarmalıdır, üzünü tutmalıdır Mütləqə İnama, Türklüyə. Tutmasa uçurum dərinləşəcək. Harda üzünü tutacaqsa, orda başlayacaq fəlakətdən çıxmağın dönüş aşaması. Ona qədər bizdən asılı deyil. Biz özümüz öz işimizi görürük. Biz əyilməməliyik, dönməməliyik, yıxılmamalıyıq, nə düşünürüksə onu eləməliyik. Öyrətməliyik, Atanın dediyi kimi, birey-birey, hal-hal, ağac-ağac. Biz xalqın qulağını doldurmalıyıq hər yerdə, günlərin bir günü uçurumda boğulan deyəcək, biz Ocaqdan yapışmalıyıq.

***(22 Günəş Ayı, 36-il)***

Biz dünəndən bura gəlmişik. Dünəndən, demək olar, iş başındayıq. Sözümüz, tədbirimiz, əhvalımız görün nə qədər zəngindir. Biz burda söz dedik, danışdıq, yemək yedik, iki gündür bir yerdəyik. Bu gördüyünüz insanlar bir-biri üçün adiləşmədi. Bir-biri üçün önəmini, dəyərini azaltmadı. Bir-birinə güldən ağır söz demədi. Sayğı ortadan qalxmadı. Dəyərimiz öz yerini tanıdı. Bu böyük bir mədəniyyətdir. Yolboyu gələndə bir söz işlətdim. Səfərə gedirik. Səfər çox böyük mədəniyyətdir. Bizim gəlişimiz ruhani səfərdir. Bu da ruhani səfər mədəniyyətinin təsdiqidir.

İnsanlar tədbirimizə gəlir. İki saat, üç saat, dörd saat bir yerdə oluruq. Bu çağda özünü sıxarsan, mədəniyyətli, qanacaqlı görünməyə çalışarsan. Ancaq bir gün, iki gün, üç gün bir yerdə səfərdə olasan, içində nə varsa üzə çıxacaq. Yaxşı, ya pis. Axıra qədər özünü gizləməyin olumsuzdur. Asif Atanın Ocağı, görürsünüzmü, necə içlər oluşdurur.

## Uluyol Hünər Ailəsinin Ailə Günü

*(25 Günəş Ayı, 36-cı il)*

**...**Bu, mənim üçün böyük fərəhdir. İçindən dəyişir insan. İçindən dəyişdikcə onun duyğuları da aydınlaşır, baxışı da aydınlaşır. Ocağına, Ocağın Atasına da, Evladına da münasibət aydınlaşır...

Öncələr "Uluyol" Ailəsi ("Hünər" adını biz sonradan vermişik) Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Asif Ata Ailəsi sayılırdı. Çünkü mən o institutda oxuyurdum, oradan Asif Ata Ocağına ayrı-ayrı Evladlar gətirmişdik. Onda Bakı Dövlət Universitetinin Asif Ata Ailəsi vardı. Universitetdə oxuyan Ocaqçı qızlar yaratmışdılar. Nə yazıqlar, indi onlardan heç kim qalmayıb. Hər halda bu adlar vardı, Ruhani Ailələr vardı. "Uluyol" Ailəsi Atanın ölümündən sonra elə Ocaq demək oldu. Bunu geniş açmayacam, Ailə Gününün qonusu deyil. "Uluyol" Ailəsi Hünər göstərdi. Ocağı yaşatdı, özünü təsdiq elədi. Ondan sonra bu Ailədən Ailələr doğdu. Bayaq da vurğuladığımız kimi, Beyləqanda "Atagün" Ailəsi var. Asif Ata Beyləqana "Qədimyurd" deyirdi, biz də Günevin yaşadığı köyə "Atagün Eli" deyirik. Günevin orada varlığı, göstərdiyi ruhani ərdəmlik genişdir, qapsamlıdır, uğurludur. Doğrudan da, tarixdir. Ona görə də oranı Atagün Eli, Ailəni uyğun olaraq Atagün Ailəsi adlandırırıq. Daha sonra "Ulufərəh" Ailəsi var – Göylü Atalının yükümlüyündə. Mən "Atagün" Ailəsindəyəm. Hər ay Beyləqana gedirəm. Ailə Günləri keçiririk, olanaq tapanda görüşlər keçiririk.

Ailə Gününün hədəfi bireyləri Ocaqlaşdırmaq, kamilləşdirməkdir. Mən hesabatımı Atagün Ailəsinin "Ailə Günü"ndə demişəm. Sizin

çıxışlarınızda bir neçə məqama baxış yetirmək istəyirəm. Öncə Nurtəkinin "Kədərdən çıxa bilməyən Kədərdən çıxara bilməz" düşüncəsinə yönəlik söz demək istəyirəm. Belə götürəndə axı heç kim heç kimi kədərdən çıxara bilməz. Biri kədərə qərq olubsa, mən onu kədərdən necə çıxara bilərəm?! Mən ona nə qədər təsəlli versəm də, o kədərdən çıxmaz. Üç il öncə Nurtəkinin anasının yas mərasimini keçirdik. Orada Abil Ulusoy bir söz söylədi. Bu yaxınlarda o törənini kitablaşdırdıq. Deyir: "bir dəfə yas mərasimində idik. Sonevlikdən (Qəbirstanlıqdan) çıxanda atama dedim, sən sevinməlisən. O da dedi, ay oğul, sonevlikdə sevinməzlər axı. Dedim, sən türk kişiləri içində təkcələrdənsən, Ocağa Evlad vermisən. Özümə yönəlik onu da bildirdim, Azərbaycana Uluyurdçu vermisən)"...

Rafiq Tağı da axırda deyir, hər halda ağır bir itkidir. Nurtəkinin, Üstünün anası ölüb. Nə qədər söz desən də, bu, kədərdir, ağrıdır. Bu düşüncəni gücləndirmək üçün mən o misalı çəkirəm. Yəni İnsan kədərə qərq olub, onu necə çıxaraq kədərdən?! Bir var bireysəl kədər, bir də var toplumsal, Milli kədər. Kimimi, kimsəmi itirərəm, bu, mənim bireysəl kədərimdir. Buradan mənim özüm çıxmalıyam. Məni çıxarmaq gərək deyil. Ağlayacam, sızlayacam, özüm bu kədərdən çıxacam. Bir də var Milli Kədər. Milli Kədər daha böyük kədərdir. Milli Kədərdən çıxartmaq olar insanları – ciddi ruhani-mənəvi ortam yaratmaqla. Millətin özünü itirməsi kədəri var. Bu, millətin bireylərinin üzərinə yüklənir. Sən bəşəriyyəti bir millətdən başlayırsan qaldırmağa. Bir millətdən qaldırmırsansa, sən necə bəşər ola biləcəksən?! Millətlə uğraşmaq bəşərlə uğraşmaq deməkdir. Mən öz millətimin kədərini yaşaya, daşıya bilirəmsə, başqa millət üçün örnək oluram.

İnamlının da sözünə yönəlik söz deyim. O, deyir, mən Asif Atanı tanıyandan sonra aydınlılıq (ziyalılıq) gözümdən düşdü. Aydınlılıq (Ziyalılıq) yox, "aydınlar" ("ziyalılar"), yəqin onu demək istəyir. Niyə düşdü?! Həmin məsələdir. Aydın dediyimiz kəs milli ağrılarla, Milli qayğılarla yüklənmir. Aydın dediyimiz kəs millətdən uzaq yaşayır. Özü üçün yaşayır, öz dərdi, öz kədəri ilə yaşayır. Aydın deyilən kəs elə manevrlər edir, onun aydınlığından heç nə qalmır. O, satılır, boyun əyir. Yaxasını elə yerə verir, xalqa gərək olmur. Gərək aydın

ixtiyarını əldən verməsin. Hakimiyyət ən birinci kimə baxış yetirir?! Kimləri ala bilibsə. Kim yaxasını verirsə, hakimiyyət onu xalqın aydını kimi sunur. Onu gözə soxur. Budur sənin aydının. Halbuki xalqa çalışan adam 200 manat aylıq alır, acından ölür, dərddən ölür. Milli Kədər budur. Milli dərd budur. Millət üçün yaşayır acından ölür. Ya iradəsinin gücü çatır əyilmir, acından ölür, ya da iradəsinin gücü çatmır, o da yaxasını verir, mən sənə qulluq edəcəm deyir. Belələri az deyil. 200 manatla sarsılan, sarsıdılan, öldürülən az deyil.

Sovetlər qurulandan üzü bu yana aydınlarımızı açıq şəkildə öldürdülər. Açıq şəkildə xalqı düşünənləri doldurdular zindanlara. Sürgün elədilər, xalq düşməni damğası vurdular. İndi aləm qarışıb. Xalq düşməni damğası vurmaq gərəkmir. Aydın olmaq olanağı olanı ya çörəklə satın almalıdır, ya da buraxmalıdır ac-yalavac nə qədər istəyir çabalasın. Televiziya onun əlində, basın onun əlində, auditoriya onun əlində. Xalqa satılmışları göstərir sənin aydının budur deyə. Yəni akademiklərin, professorların, başqa titulluların, daha kimlərin, 99 %-in ixtiyarı özündə deyil. 1% ixtiyarı özündə olanın isə gücü yoxdur. Düşüncə də zəifdir. Onlar da bir araya gələ bilmirlər. Onların da bədbəxtliyi ondadır. Onu çağır Ocağa, gələ bilmir. İkinci yandan qınaya bilmirəm, gedib çalışır, çörək qazanır.

İnamlı deyir, Ocaqçılıq əzabdır. O, öz içindəkiləri deyir. Bunu boynuna almaq yaxşıdır, səmimiyyət gərəkdir Ocaqda, oyun oynamaq olmaz, uydurmaq olmaz. Ancaq onun dediyi fal deyil. Mən isə deyirəm, Ocaqçılıq yüksək fərəhdir. O öz içində yüksək fərəhə çatmayıb, ona görə yalan danışmır. Deyə bilməz, Ocaqçılıq adlanan yüksək fərəhə çatmışam. Əgər çatmamısansa, düz eləyirsən demirsən. Ancaq Ocaqçılıq çox yüksək fərəhdir. Çox yüksək aqibətdir, çox yüksək bacarıqdır. Mənim saniyəm belə boş deyil. Bununla belə, nə özüm, nə də ailəm acından ölmür. İndi iş yerim var, ordan çıxarsalar, yenə mən yüksək fərəhli Ocaqçı olacam. Yenə mən Soylu olacam. Yetmişəm ona...

Adamın içində çabalamalar, qarışıqlıqlar başlayır, özünü döyə-döyə gəlib çıxırsan bir aşamaya. O aşamadan sonra, ayrı-ayrı hallarda, ac da qalsan, susuz da qalsan yenə yüksək Ocaqçı olursan. Ocaq səni insan olmaq üçün çağırır. İnsanlaşmaq üşün, öz mənana bəra-

bər olmaq üçün çağırır. Sənin əzabın niyə var?! Çünkü sən toplumun biri ola bilmirsən, nə də hələlik tam ayrıla bilmirsən, qalırsan ortada. Onda əzab çəkməyə başlayırsan. Hamı kimi başını salla, get bir tikə çörəyinin dalınca, başına vururlarsa əy, dizinə vururlarsa qalx, əgər elə olarsansa, heç bir zəhmət yoxdur. Ancaq sinə gərirsən, zəhmət budur. Ocaq adama olanaq yaradır. Ocaq şüuru artırır, idrak verir, bu yetənəklə get məişətini də qur. Mən məişətimi Ocaq ağlıyla qurmuşam. Söz yox, "qaz vurub qazan doldurmamışam", sadəcə acından ölmürəm, Ocaqçılıq yaşamımı da qururam. Ocaq heç kimin məişətinə əngəl olmur, tərsinə, hər şeyə nizam gətirir. Ona görə Ocaqçılıq çox yüksək fərəhdir.

İnamlı deyir, Atanı oxuduqca baxışlarım düzəldi. Ağşın bəy də bayaq vurğu elədi, toplumda boşuna söz deyən çoxdur. Ocaq Ailə Günü keçirir. Hər dəfə dinləyirsən Ocaqçı hesabat verir – filan qüsurum ortaya çıxdı, filan zəifliyim var i.a. Söz yox, asan deyil. Birdənbirə deyə bilməzsən, mən Asif Atanın davamçısıyam, kamiləm. Ancaq Ata deyirdi, bizim ölçümüz kamilləşmə deyil. Kamilləşmə bir aşamadır. Bizim hədəflərimiz uzaqdadır. Kamilləşməni uzatmalı deyilsiniz ömrünüzün axırına qədər. Doğrudur, asan deyil, ancaq olumsuz da deyil. Yetər, özünlə səmimi olasan. Özünü aldatmayasan, içində özünlə səmimi olasan, içində özünə badalaq atmayasan. Qoy qıraqdan nə qədər istəyirlər sənə badalaq atsınlar, içində özün özünə badalaq atma. Onda görəcəksən sən kimsən. Sənin aydınlığın, xalqına gərəkliyin onda təsdiqini tapacaq.

Yasin bəy deyir, psixoloji sarsıntılar keçirdim. Bilirsiz, adam nə qədər gözəl kitab oxuyursa oxusun, içində qurulmasa düşüncəsi cilalanmır. Nitqi də cilalanmır. Sözü də başqalarının könlünü oxşamır. Quruluğu, yüngüllüyü gözə girir. İçəridən qurulduqca düşüncə cilalanır, adamın içində söz qaynayır. Yasin bəy sufilərin, Mövlanə Ruminin, Şəms Təbrizinin adlarını çəkir. Onların içi vardı, içi olduğu üçün də sözləri vardı. İçləri olduğu üçün onların sözü min ildir yol gəlir. İçi olmayanın sözü getmir. İçdir aparan sözü qabağa. Qurulmadan, sözü nə qədər bərli-bəzəkli desən də, burda qalacaq. Bizim yazarlarımız, şairlərimiz əsər qoyur ortaya. Ancaq çoxluğun əsərləri sabaha getmir, burda dayanır.

Psixoloji sarsıntı nə deməkdir?! O deməkdir, insanlaşmaq kef deyil. Qarşına elə şeylər çıxır, əməl eləmək gərəkdir. Ucalıq istəyirsənsə, ədalət istəyirsənsə, ucalıq tələblərinə əməl eləmək gərəkdir. Eləmək istəyirsən, qarşına başqa əngəllər çıxır, iradəni zorlayırsan, sarsılırsan. Ancaq istəyirsən, can atırsan. Yasinin içində ona görə sarsıntılar baş verir, o, ucalıqlara can atır. Qarşısına min dənə əngəl çıxır. Onları aşmaqda gücü yetərsiz olur. Onda sarsılır. Hər zaman içində sarsıntılar səni çulğayanda Asif Atadan yapış. O, səni qaldıracaq göylərə.

Ömrün qurulması məsələsi ilə bağlı bir neçə söz artırım. Düşüncənin qurulması məsələsi. Dünən mənim evimə qonaqlarım gəlmişdi. Mənim evimdə ruhani qonaqlarım çox olur. Cismani qohumlar daha az gəlir. Onlarla mənim qonum çox fərqlidir. Onlar da bilirlər. Ancaq onlarla, dünən mənim evimdə, iki saatdan çox, millətin taleyindən danışmışıq. Bayaq vurğuladığınız xəritənin – Həmədan-Dərbənd aralıqlı bir coğrafiyanın taleyindən söz açmışıq. Sonra geneltürk qonusuna keçmişik. Krım, Tatarıstan da qonumuza girib. Onlar mənim qonumu artıq tanıyırlar. Onlar bilir, mənimlə onların söhbəti ancaq bu qonuda tuta bilər.

Sən özün özünü yaratdıqca, qurduqca görünür, sənin yönün (qiblən) nədir. Başlanğıcda çətin olur. Qohum gərək səni tanısın, səninlə hesablaşsın. Evimizin içində də elədir. Vətənini, Millətini sevirsənsə, gözünün altına al, qohumlar, bəlli anlamda, səndən əlini üzsün. Qohum, qardaş, ata, ana hardasa səndən əlini üzməlidir. Buna gərək yetəsən, bundan gərək qorxmayasan. Dözəsən, bacarasan. Sənin ailəni, vətənini, ulusunu yadlar yönətir. Kim bununla döyüşəcək?! Necə mübarizə aparacaqsan?! Çayxanada oturub boş-boş danışmaqlamı?

İnamlı mənə telefonda deyir, nə vaxta qədər mənim ölümün üstündə Fatimeyi Zəhraya ağı deyib ağlayacaqlar?! Deyirəm qəzəblənməklə onun qarşısını ala bilməzsən. Nəylə alarsan qarşısını?! – Durub Soylu ilə gedirsən Lökbatana. Görüş təşkil edirsən, xalqın balalarına söz deyirik. Deyirik, sənin böyüyün kimdir, taleyin nədir, millətin nədir, vətənin haradır.

Biz bacardığımızdan artıq işlər görürük, ancaq bunu az sayırıq. Bizim işimiz sözdür, ideyadır, ürəkdir. Bizim qılıncımız yox, topumuz, tüfəngimiz yox. Biz xalqın içində görüşlər keçiririk, söz deyirik, ədəbiyatlar paylayırıq. Bunların hamısı bəlli xərclər tələb edir. Heç kimin boynuna minnət qoymuruq. Ancaq biz balalarımızın boğazından kəsib bu addımı atırıq. Biz Ocaq arxivi yaradırıq. Nə qədər fərəh, zəhmət yaşamışıq. Bunların hamısı quruculuq işidir. Bunlar bizim özümüzə bağlı deyil, xalqın taleyinə, aqibətinə bağlıdır. Bugünkü Ailə Günləri də içimizi quran, kökdən düşməyə qoymayan tədbirlərdir.

İndi sualların cavabına keçirəm.

Yasin bəyin sualı – “İnsan dünyaya sığmır, Vətənə sığır”. Asif Atanın sözü.

Dünya-Vətən. Bizim dinə qarşı döyüşümüzün koşullarından (şərtlərindən) biri nədir – dünyanın fani sayılması. Əgər din dünyanın malını, mülkünü fani saysaydı, onu anlayardıq. Ancaq din dünyanın özünü fani sayır. Yəni bu dünya heçdir, axirət dünyası var. Biz bunu rədd edirik. Birinci, Dünya fani deyil. Sənin ağlının gücü fanidir, dünyanın Əzəliliyini görmürsən. Dünyanın Əbədiliyini, Müqəddəsliyini, həmişəliyini, sonsuzluğunu görmürsən. Get ağlınla uğraş. Dünyayla dünyanı anlayanlar uğraşsın.

Dünya Əzəlidir, Əbədidir, Kamildir, Sonsuzdur, ancaq insan bəlli bir tarixi aqibətə bağlıdır. İnsan bəlli bir özünəxaslığa bağlıdır. Nə qədər, insan birey olaraq öz içini, olanaqlarını üzə çıxarır, o, bütün xalqların hamısı üçün dəyərə çevrilir. Göylərə qalxır onun içi, sonsuz olur. Ancaq insan birey olaraq bir yerə qədərdir. İnsanın əbədiliyi isə mücərrəd deyil. İnsanın əbədiliyi xalqdır, millətdir. Mənim əbədiliyim türk millətidir. Mənim yaxşım, yamanım türk millətində var olacaq, o yaşadacaq. Ondan sonra dünya xalqları yaşadacaq. Mənim Nəsimiliyim türk xalqında var olur. Xalqın yaşadığı, özünü ifadə elədiyi bir coğrafiya var. O coğrafiya vətəndir, müqəddəsdir. Səni sən eləyən, dəyər eləyən. İnsan dünyaya sığmır, sınırlarını aşır, ancaq insan öz əbədiliyinin ifadəsi baxımından vətən anlamına sığır. Çünkü vətəndə onun xalq adlı əbədiliyi var. Əbədilik burda ifadə olunur.

İlqar bəyin sualı, Asif Atanın ideyalarının yayılması bizim üçün yetərlidirmi? Söz yox, yetərsizdir. Ancaq olduğundan qat-qat yüksək əməl qoyuruq ortaya. Asif Atanın qəbul olunması çox böyük prosesdir. O, 5-3 günün söhbəti deyil. Çünkü Asif Ata bir fəlsəfə məktəbinin başçısı deyil. Asif Ata Peyğəmbər olaraq, İnam yaradan olaraq gündəliyə gəlib. Bunu qəbul eləmək üçün insanlar gərək əski peyğəmbərdən, əski baxışdan əl çəksin. Bu da asan deyil. Birdən-birə bu baş verməyəcək. Bu çox böyük zəhmətlər tələb edir. Ancaq bizim, Ocaq olaraq, uğurlarımız 36 ildə bənzərsizdir. Özümüz üçün yetərli olub-olmadığını qoyuram qırağa. Vaxt vardı "Ata" sözünü deyəndə adamlar qulağını tuturdu, mətbuat yaxın qoymurdu. "Ata" sözünün eşidilməsi, dinlənilməsi, qəbul edilməsi üçün biz illərlə zəhmət çəkdk. "Ata" sözü bu sözün altında yatan məzmunu gətirir. "Ata" sözünü qəbul elətdirməsən, o məzmunu verə bilməyəcəksən. İndi çoxluğun bu adla hesablaşması baş tutdu. Nəinki "Ata" sözüylə, "Peyğəmbər" sözüylə hesablaşılmağa başlanılıb. "Asif Ata Ocağı", "Asif Atanın Qutsal Bitiqləri", bu deyilişlər artıq qulaqlara dolub. Asif Atanın Mütləqə İnam Ocağı bütün dinləri rədd edir. Türk dünyasının içində ruhaniyyat mərkəzi yaradır dünya üçün. Bu, zarafat bir məsələ deyil. Uğurlar çox böyükdür. Onun arxivi, ədəbiyatı, sistemi, Evladları, Evladlarının içində oturuşma, Evladların dönməzliyi, bunlar balaca söhbətlər deyil. Bu sadaladıqlarım hamısı deyil, bunlardan çox-çox artıq şeylər sadalaya bilərəm. Mən şəxsən bu cəhətdən içimdə çox nikbinəm.

Ocaqda kim nə bacarırsa edir. Ocaqdan qıraqdakılar da nə bacarırlarsa eləsinlər. Heç kimi sürümürük. Təngnəfəs yol getmək olmaz. Yoxuşu çıxanda yüyürməzlər. Biz çox böyük zirvələr fəth edirik. Orada biz təngnəfəs yüyürə bilmərik. Hər kəsin öz qayğıları da var. Söhbət nədən gedir?! Ölçü var. Sənin gördüyün iş budur, uydurub ondan böyüyünə iddia eləmə. Aldatma nə özünü, nə başqasını. Sən aldadanda Asif Ata zədə götürür. Sənin balan var, ailən var, əlindən alan yoxdur. Ancaq ömrünün əsas hissəsini evinə, eşiyinə verirsən, 10 faizini əqidəyə, onda demə mən qüdrətli insanam, əqidəliyəm. Qüdrətlilər imtinalara yüksəlir, imtinalar yetirir. Bəzən ailələri dağılır əqidəlilərin. Söhbət ondan gedir. Ocağın içinə gələn

adam gözünün altına almalıdır, ya kamilləşməlidir, ya da çıxıb gedəcək. Asif Atanın tələblərini yaşamaq gərəkdir. Ocaq elə bir ortam yaradır, insan bütün olanaqlarını üzə çıxarır...

## "Ruhani İdrak Günü" törəni

*(25 Çiçək Ayı, 36-cı il)*

Mərasimin məzmununa bağlı söz deməzdən öncə bir neçə söz Ocağımızın işiylə bağlı demək istəyirəm. Son çağlar Ocağımızın işləri uğurlu bir yöndə artıb. Bu da ona bağlıdır, hər birey bəlli bir xətdə aktiv çalışır. Ancaq düşünürəm, Ocaqçı yalnız bir xətdə deyil, ruhani bacarığını bütün yönüylə ortaya qoymalıdır...

"Ruhani İdrak Günü" mərasimi bölgələrdə olan, Atayla bağlantı qura bilməyən Ocaqçıların içində yığılıb qalmış sorulara cavab tapmaq üçün yaranıbdır. Bakıda olanlar Atayla sıx-sıx görüşə bilirlər. Bölgələrdə olan Ocaqçılar isə Ata ilə davamlı görüşə bilmirlər. Mən də bununla bağlı Ataya üz tutdum. Ata dedi, biçimini düşün, "Rica" şəklində yaz gətir Ataya. Yazıb apardım, həmin tarixdən "Ruhani İdrak Günü" mərasimi yarandı. Bu gün Ata cismən olmasa da, biz bu gələnəyi davam edirik. Ocaqda hansısa gələnəyi ortadan qaldırmaq olmaz. O dövrdə "Yas mərasimi" var idi – "28 aprel, Milli hökumətin devrilməsi" ilə bağlı. Bir dəfə Ata dedi, Ocaq varsa, Yas qurtardı. Ata o mərasimi ortadan qaldırdı. Bu ayrı.

Bu mərasim üçün üz tutanda Ata dedi, "İdrak Günü" Mərasimi üçün bir gün seç, mən də Çiçək Ayının 25-ni seçdim, Ata qəbul elədi.

"Ruhani İdrak Günü" mərasimində hər bir Ocaqçının düşüncələri dinlənilir, həm də soruları cavablandırılır. O sorulara mən də cavab verə bilərəm, özünüz də cavab verə bilərsiniz. Bu bir məktəbdir... "Ruhani İdrak Günü" bizə öyrədir: **Ocağımızın yerişi, qorunması, gəlişməsi** Evladın mənəvi böyüməsinə bağlıdır. Hər birey Ocaqdan öyrənir, öyrəndiklərini xalqın içində deyir, öyrədir. Ancaq məsələ bununla bitmir, örnək ömür yaradırsan. Gedərsən, 5-3 adamın içində söz deyərsən, onları heyrətləndirərsən, bəzən sənə tez inanarlar, tez də qırılarlar. Qırılmamaq üçün Ocağı ciddi öyrənmə-

lərini sağlamaq gərəkdir. Bütün dünya nə çalır çalsın, sən öz havanı çalmalısan, bu görünməlidir. Vaxt var idi, Asif Atanı sındırmaq üçün ona qarşı hər şey deyirdilər. Bizi də sındırmaq istəyənlər var. Sınmamaq üçün Atanı bilməlisən, dünyanın gedişini anlamalısan. Ata haqqında heç nə tapmırdılar deməyə, nə desinlər – KQB-yə işləyir, dış qüvvələrə çalışır?! – Buna kim inanar?! Deməklə deyil, gərək deyilənlərdən nələrsə görünsün də. Ona görə boş deyilişlərə inandırmaq mümkün deyil. Bəlli dövr üçün çaşdırıcılıq yaradırlar, şər bunun üçün çabalayır, ancaq qarşısını almaq olmur. İndi də Ata haqqında bu cür düşüncələr yox deyil, Ata ölüb, aramızda deyil. Bu üzdən Ataya qarşı davranışlar açıq müstəvidə özünü göstərmir, ancaq yox da deyil. Belə şeylər Atanın başından bir tük də sala bilməz. Hansısa zəif bir Ocaqçını etkiləyər, bu isə, Atanın zəifləməsi, ya da yıxılması anlamına gəlməz.

Toplumda insanlar var, Ocağı izləyirlər, onlarla söhbət edərsən, səndən soruşar, filankəslər də var, sizdəndirlər?! Biz – "bizdəndir", deyil məsələsi yaratmırıq, Ocaqla uğraşırıq. Ocaqla Ocağın anlamına, tələblərinə uyğun uğraşan, yaşayan hər kəs bizə doğmadır. Biz Ocağın prinsiplərini yaşadırıq, qoruyuruq, sunuruq. Kim hara qədər yeriyə bilirsə, ora qədər bizimlədir. Kim içində Ata ilə bərkiyir, o uzaq gedə bilər, o böyüyə, arta bilər. Yoxsa, evi-eşiyiylə, özünü gözlərə soxmaqla uğraşan adamlar bizimlə deyil. Atanı kimsə sevə bilər, bu ayrı, sevgi mühakimə olunmur. Ancaq Atanı yaşatmaq, onun ideallarını qorumaq üçün Ruhani ortam olmalıdır, bu ortamın yaradıcısı, qoruyucusu olmalıdır...

Ocağın yerişini sağlamaq üçün Ocaqçının Ruhani idraka yetməsi gərəkdir. Belə olarsa, qıraqdan heç bir etki onu yoldan ayıra bilməz.

İkinci, Ocağın qorunması dedik. Heç nə itmir, ən adi görünən işlər yazılır, sabaha çatdırılır. Bunu yazmaq üçün də yaşamaq gərəkdir. Bütün yaranan ədəbiyyatlar Ocaq insanlarının yaşamıdır. Hər yerdə Ocağı vermək üçün, ağılları, ürəkləri doldurmaq gərək. Bunun üçün ömürdə daim yenilənmə olmalıdır.

Üçüncü, Ocağın gəlişməsi də bu dediklərimizə – fərdin kamilləşməsinə bağlıdır. Bu üç məsələ ciddi öyrənilməli, dərk olunmalı məsələlərdir...

İndi bir neçə söz də bugünkü proseslərə yönəlik deyək. Mən hər an bu düşüncəyə gəlirəm, dünyada baş verən olaylar Asif Atanın gərəkliyini daha da qabardır. Xalqlar dövlətsizləşirlər. İndi dövlət sözü ilə dövlətsizlik sözünün arasında fərq yoxdur. Mahiyyətcə dövlət zor demək deyil. Dövlət həyat uğrunda döyüşü yoluna qoymalı deyil. Dövlət xalqın yaşam nizamını yaratmalı, bunu gəlişdirməlidir. Xalqın həyatını, ruhani kimliyini, insani ləyaqətini, sosial durumunu qorumalıdır. Dünyada heç bir dövlət əsaslı şəkildə bununla uğraşmır. Çağdaş dövlət öz funksiyasını çox az yerinə yetirir. Riyazi dillə desək, heç 20 faizini ödəmir. Ona görə də dövlətlərarası münasibətlər yağılığa gətirib çıxarır. Xalqlararası münasibətlər insani gücünü itirir. Dövlətlər özlərinə ağalıq imtiyazları axtarır, başqalarının hesabına varlanmağa, başqalarının üzərində hakim gücə çevrilməyə çalışır. Bir sözlə, imperiyaya can atırlar. Gücsüz, ikinci sort dövlətlər isə onların buyruğunda durub özlərini qorumağa çalışırlar. Çünkü gediş elə qurulub, hamı elə qəbul edir, imperiya olmadan yaşamaq olmur. Bu gediş insanlığa qarşı yönəlib. Ona görə Atanın gərəkliliyini artırır. Nə edirsən et, Atanın dediyi İnsanlaşma məsələsinə gəlib çıxır. Dünyanı heyvanlar yönətir, heyvan dünyası yaranıb, heyvan ortamı yaranıb, İnsan dünyası çöküb. İnsan dünyasında belə yaşanmazdı axı. İnsan dünyanı qurardı. Dünyanı sevmək yoxdur, ona ağalıq eləmək var.

Türkün Doğa sevgisi Tanrıçılığa bağlı idi. Tanrıçılığı qurban verdi ərəbin Allahçılığına. Doğa yiyəsizləşdi. Tanrıçılıq Doğanı sevmək, Doğaya vurğunluq öyrədirdi. İndi Doğanı məhv edən dünyaya Türk Tanrıçılığı gərək deyil.

Dünyanı yenidən qurmaq üçün Asif Atanın Mütləqə İnamı gərəkdir. Türk Mütləqçiliyi Türk Tanrıçılığından daha yüksək bir səviyyədir.

Bir dünyada ki Allahın adı pul olsun, o dünyanın nəyinə güvənə bilərsən?! Planetin məhv edilməsi gözümüzün önündədir. Bu gün Batı Pulçuluqdan dünya yaradıb, bunu qorumaq üçün hər şeyi qurban verir. Əfqanıstandan tutmuş, İraq, Suriya, Azərbaycan, Gürcüstan, Misir, Liviya, hamısında gedən proseslər onları pulçuluğun qurbanlarına çevirir. Quruluş özünü qorumaq üçün qurbanlar hazırlayır, qurtuluş uydurur. Xalqlar kapitalizmlə döyüşməsinlər

deyə, demokratiya ilə aranı qatıb-qarışdırırlar. Guya demokratiya azadlıqdır, qurtuluşdur. Nə qədər yeritmək, mənasız təbliğat aparmaq olar?! Dağıda-dağıda gəlib ikinci canavarla – Rusiya ilə üz-üzə qaldılar. Rusiya gördü onun gələcəyi qorxu qarşısındadır, başladı yeni dağıdıcılığa. Rusiya yarandığı gündən imperiya kimi qurulub, milli dövlət kimi qurulmayıb. Ona görə Rusiya bu gün milli dövlətə çevrilmək istəmir, çevrilə də bilməyəcək. Əgər o imperiya çökərsə, rus dövlətinin gələcəyi yoxdur. Ona görə də çabalayır. Rusun heç bir mədəni etkisi qalmayıb. Bir vaxtlar mədəni-maarifçilik etkiləri var idi. İndi o da yoxdur. Öz içində xalqın mənəviyyatı çöküb, acınacaqlı bir durumdadır Rusiya. Ona görə də ancaq qol gücü, zor nümayiş etdirir. Avropanın murdarlığı daha böyükdür, ancaq üzdə elə görünür, onun zoru yoxdur.

Rusun verməyə şirnisi olmadığına görə güc nümayış etdirir. Özü vahimələnir öz durumundan, qorxuya düşüb, NATO gəlib ağzının içinə girib. Ukraynada Batı oturmaq istədi, Rusiya qorxuya düşdü, ona görə də açıq zor ortaya qoydu. Açıq zor göstərməkdən hələ uzun vaxtlar çəkinməyəcək. Çünkü Batıya başqa etki olanaqları yox kimidir. Bu gün Rusiyanın bu cür addımlar atmasını dayandırmamağın üç nədəni var:

1. Rusiyanın dağılması SSRİ-nin dağılması olayına bərabər deyil. SSRİ dönəmində türk dövlətləri yox idi. Hamısı zəif idi, hamısı ələbaxan idi. Hamısının iqtisadiyyatı dağılmış idi. Ancaq SSRİ dağılandan sonra türk dövlətlərində bəlli dövlətləşmə quruculuqları gedib artıq. Bəlli bir gəlişmə var, ona görə də Rusiyanın dağılması türk dövlətlərinin bir araya gəlməsinə nədən ola bilər. Üstəlik yeni Türk dövlətləri yarana bilər. Bununla da iki qitənin orta zolağında (Adriatik dənizindən uzaq Sibirə qədər) Türk Birliyi yaranıb yeni Gücə çevrilə bilər. Bunu hesablayırlar, bilirlər. Ona görə də Rusiyanı parçalamadan onu, əlaltıları kimi, necə yönətməyin yolunu arayırlar.

2. Bilirsiniz, Batının Doğunun enerjisi resurslarına böyük ehtiyacı var, qabağını Rusiya kəsib. Həm özünün enerjisini satır, həm də Qafqazınkını. Onların yolunu bağlamaq olanağı var Rusiyanın. Ona görə Rusiyanın nazıyla oynayırlar, ehtiyatla davranırlar.

3. Quruluş balaca qurbanları udur, balaca qurbanlar tükənəndən sonra böyük qurbanlara keçir. Təkqütblü ağalıq sistemi yaranır. Bir vaxtlar Rusiya kapitalizm Rusiyası idi. Sosializm inqilabı ilə Rusiya kapitalizmdən çəkildi geri. İndi o yenidən kapitalizmin əsas güclərindən biri olmağa can atır. Bu proses çox çətin olduğundan Rusiya özü qurbanlığa çevrilib. Böyük qurbanlar isə böyük dağıntılar deməkdir. Bu isə dünyanı yenidən qatıb-qarışdıra bilir. Elə bir anarxiya yarana bilər, bəlli olmaz ortaya hansı düzən çıxacaq. Bu düzəndə hansı güclər hegemon olacaq. SSRİ-nin dağıntılarının altından dünya hələ də çıxa bilmir, hələ də dünya qarışıbdır. Fəlakətlər hələ də tükənmir. Rusiyanı dağıtmaq, SSRİ-ni dağıtmaqdan daha ciddi sorunlara səbəb ola bilər. Oyun oynayırlar, Azərbaycanı da bu oyunda fırlayırlar. Ondan enerji dəhlizlərinin yaranmasına razı olmasını istəyirlər. Azərbaycan isə bundan qorxur. Rusiya silah gücünə onun da içinə yeriyə bilər. Batı Azərbaycanın arxasında durmur. Batı Gürcüstanın arxasında durmadı. Rusiya asanlıqla gürcünün içinə girdi, koşullarını yeridib çıxdı. Qarabağı Rusiya işğal elədi erməninin adına, dağıtdı taladı, Batı bir işə yaramadı. Halbuki Azərbaycanla "Əsrin Kontraktı"nı bağlayıb. Ancaq Rusiya koşullarını yeritdi, Azərbaycan da hesablaşdı. Bu günə qədər də öz koşullarını yeridir. Avropa Ukrayna ilə "Assosiasiya sazişi" bağladığı yerdə Rusiya girdi içinə qoymadı, Batı arxasında durmadı. Batı heç kimin arxasında durmur, deyir, sənə demokratiya verirəm, qalanını sən elə. Dünyanın gedişi hədsiz dərəcədə murdarlaşıb.

Atanın bir sözü vardı, dünyada nə baş verir versin, Ocaq öz işini görməlidir...

Bu gün gəncləri qabağa itələyirlər. Gəncləri harda yetişdirdilər ki, verirlər qabağa, sonra hakimiyyət hamısını tutub doldurur içəri. Gəncləri ayaqlar altına itələmək gərək deyil. Gəncliyi yetişdirmək, milli qüvvəyə çevirmək gərəkdir. Biz onu deyirik, bizi az gənclər eşidir, əsas kütlə hipnozdadır, gedir. Gəncliyin şöhrətsevərlik duyğusunu qullanırlar. Sürüyə çevirirlər gəncliyi. Biz də deyirik, gəlin Ocağa, ağlınızı Ocaq böyüdə bilər. Biz demirik, elə ucdantutma hamı Ocağı anlayacaq. Ocaq aşiqlər işidir, hər kəsin işi deyil. Ancaq Ocağa dayanıb böyük işlər görmək olar. Dünyada nə baş verir-versin,

Atanın Yolundan qıraqda qurtuluş olası deyil. Dünyada yeni ruhani nizam yaranmalıdır, yeni bəşər halı yaranmalıdır. Bu yeni bəşər halını ruhaniyyat yaradır, siyasət yaratmır.

İndi sizin düşüncələrinizə yönəlik bir neçə söz deyim: Kimsə belə bir söz dedi: "İfadə elədiyim duyğuların hamısında öz yerimi axtarıram". Adam düşüncəni tanıyandan sonra özünü tutuşdurmağa başlayır. Bir var oxuduğu adama xoş gəlir, bir də var, oxuyub incələyirsən. Elə ki, başlayırsan öz duyğularınla tutuşdurmağa, onda o sənin ağlında daha yaxşı oturur. Məncə, bu yeni haldır ifadə baxımından. Hər bir incə məqamı öz duyğularınla tutuşdurmaq. Mütləqə qovuşma məsələsində isə bir az dəqiqləşdirmə aparmaq olar. Mütləqə qovuşma yolun sonu deyil, yolun başlanmasıdır. Ataya deyirdilər, deyək, biz kamilləşdik, sonra. Ata deyirdi, elə hər şey ondan sonra başlayır. Ata mərasimdə deyirdi, kamilləşmək məqsəd deyil, siz bir ilə, iki ilə, üç ilə gecikməməlisiniz, kamilləşməlisiniz. Kamilliyi ömrünüzün axırına daşımamalısınız. Mən bir yazı yazmışdım, kamillik sözü ilə analogiya təşkil eləmir, ancaq ciddi məsələ idi: "Axır, Böyük Yolun başlanğıcına gəlib çatdım". Böyük Yola qədər də yol var, bu yol adamın içindəki axtarışlarıdır. Yolu tapırsan, yolu tapandan sonra ağıl da uğur tapır, istək də, gediş də. Kamilləşmək bir məqamda nəyəsə çatmaq deyil. Sənin ömrün, duyğuların elə kamilləşə-kamilləşə gəlir. Elə bütün yaradıcılıq ondan sonra başlayır. Hər şey elə ondan sonra başlayır.

## Ailə Günü

*(29 Çiçək Ayı, 36-cı il)*

Mən "Ailə Günü"nün anlamını, onun tələblərini, qonularını daha geniş araşdırmağın yanlısıyam. Amallaşma, Kamilləşmə, Xalqlaşma haqqında bir neçə söz deyim: Amallaşma – Atanın ölçüsü, düşüncəsi, ideyası – söhbətimizin ana xəttidir, özülüdür. Ata bizi nəyə yönəldir, İnsanlığı necə qiymətləndirir, nəyə çağırır, bunlar yarpaq-yarpaq açılmalıdır. Asif Atanın 13 Bitiyi var, bunlar hamısı həmin məzmunu

açmağa ortam yaradır. Biz nə istəyirik, istəməyimizin gələcəyi varmı, yoxmu?! Bunlar izahını tapmalıdır.

Xalqda ən çox baxış üzdəki gedişlərə yönəlir. Hər kəsin varlığı bioloji həyatın üzərində qərarlaşıb, ondan qırağa çıxa bilmir. Nə qədər bütün baxışlar bioloji həyatın üzərində qərar tapır, xalq olmaq çətindir. Asif Atanın Amalı, kitabı bunları açır. Heç bir sorunun çözümünü Asif Atanın dediyi ölçüdən qıraqda tapmayacaqsan. Dövlət sorunları əsaslı çözmür. Sonuncu yazımda bir məqama toxunmuşam: – dövlət-dövlətsizlik. Dövlətlə dövlətsizlik arasında bərabərlik işarəsi var. Dövlət həm var, həm də yoxdur. Təkcə bizim ölkədə yox, bütün dünyada. Çünkü dövlət özünün gərəkən işini görmür. Dövlət həyat uğrunda mübarizəni gerçəkləşdirir. Bioloji mövcudluğu, bu yöndə çabaları sürdürür. Dövlət insanı həm uçurum qarşısına gətirir, həm də bioloji həyat uğrunda mübarizəni tənzimləyir. Axı dövlət belə düşünülməyib. Dövlət daha böyük addımlar üçün, varlığın qorunması üçün gözdə tutulub. Bir vaxtlar bəşəriyyət sürü halındaydı. Sürü halından çıxmaq üçün aşama-aşama yol keçib axırda dövlət yaratdı. Dövlət ondan ötrüdür, hər kəsin haqqını tanısın, insanların həyatında bəlli bağlılıq, bəlli yön yaratsın. Eləcə də insanı var edən içsəl olanaqların üzə çıxmasına ortam yaratsın. Ata deyir, dövlətin əsas funksiyası toplumu bireyin zorakılığından, bireyi toplumun basqısından qorumaqdır. Dövlət elə işlər görür, bəşəriyyət qan gölünə çevrilib. Qırğınlar, dəhşətlər. Üzdə olan məsələləri sadalamaq istəmirəm. Bu gün hara çıxırsınız çıxın, hamıda aqressiya görəcəksiniz. Bu ondan irəli gəlir, insanın həyatı həyata bənzəmir, yediyi qida qidaya bənzəmir. Qidanın tərkibində insanı aqressivləşdirən komponentlər var.

Azərbaycan gənclərinin halını nizamlamaq olumsuzlaşır. Ailə nə tərbiyə verəcək?! Ailənin özünə tərbiyə vermək gərəkdir.

Gözün gördüyü nədir?! Qapıdan çölə çıxırsan anarxiya, dağıdıcılıq. Gənclik duyğuların üzərində yaşayır. Həmin duyğuları aqressivləşdirirlər, vəhşiləşdirirlər ki, bu xalqın gələcəyi müdrik olmasın. Toplumsal, siyasi qurumlar gəncliyi qabağa verirlər. Gəncliyin emosionallığını qullanırlar. Dövlət gəncləri tutuqlayıb salır içəri. Gəncliyi içəri doldurub xalqın potensiyasını məhv edirlər. Gəncliyi

qabağa vermək gərək deyil. Kal, emosiyaları üzdə olan gəncliyi qabağa vermək olmaz. Gəncliyi böyütmək, yetkinləşdirmək gərəkdir. Gənclikdən Milli Qüvvə yaratmaq gərəkdir. Gənclikdən kadr yaratmaq gərəkdir xalqın gələcəyi üçün. Gəncliyə önərim odur, küçələrə axışmayın. Düşünün, özünüzü hazırlayın. Bir neçə il sonraya özünüzü hazırlayın, düşüncə yiyəsi olun. İllərlə mən Asif Atanı dinləmişəm...

Kal gəncliklə iş görmək olmaz. Dövlətin qurucu, qoruyucu funksiyası yoxa çıxıb. Ona görə dövlətlə dövlətsizlik arasında bərabərlik işarəsi var. Bu, zor aparatıdır, qorxu qaynağıdır.

Asif Atanın bəşər övladı ilə bağlı "Məxluq, Adam, İnsan" ayrıntıları var: Bəşər övladı məxluq kimi dünyaya gəlir, adam kimi böyüyür, insan kimi yenidən doğulur. Məxluq heyvan kimidir, yeyir-içir, soy artırır. Adam yarı məxluq, yarı insandır. Adam vətənini sevir, ancaq vətəni uğrunda ölümə getmir. Həqiqəti sevir, ancaq həqiqət uğrunda döyüşmür. Yəni duyğusu var, sevgisi var, addımı yoxdur, arxasında durmur. Bizim aydın sayılanlarımız Adamlıq səviyyəsindədir. Asif Ata deyir, İnsan özündən keçəndir, özünü tanıyan, özüylə döyüşən, özünü yaradan, təsdiq edən kamil bireydir. Bizim insanlarımız özüylə döyüşmür. Hamı başqasıyla döyüşür. Hamı kompramat axtarır ki, bir-birini kiçiltsin, aşağılasın. Mən dönə-dönə demişəm, demokratiyadan eybəcər ideologiya yoxdur. Demokratiya toplumu sürü halına gətirir. Sübut eləmək istəyir ki, şəxsiyyət gərək deyil, hamı bir-birinə bərabərdir. Hamı bir-birinə bərabər ola bilməz axı. Hamının haqqı var ayrı şeydir. Ancaq haqlı haqsız, haqsız haqlı durumdadır. Bu, demokratiyanı düşündürmür. Məmurlar eynəyinin üstündən sənə əmtəə kimi baxır, insan kimi baxmır. Çünkü insan kimi dərk eləmir. Onun içində o anlayış yoxa çıxıb. Demokratiya şəxsiyyətlə şəxsiyyətsizi bərabərləşdirir, ona görə də ölkənin, xalqın yiyəsi olmur. Millət öz içində şəxsiyyət yaratmalı, onun qədrini bilməlidir. Tarixi şəxsiyyətlərdən örnək götürməlidir. Buna görə biz bu tədbirlərdə fərdin duyğularının, idrakının, mənəviyyatının böyüməsinə çalışırıq. Özünü təsdiq etməsinə çalışırıq.

Ötən iki ay içində 32 ünvana ayaq döymüşük – mədəniyyət evlərinə, kitab evlərinə, daha çox isə məktəblərə. Bunun qarşısında toplam 5 görüş keçirmişik. Ancaq uğurlu söhbətlər olub. Ortalama

150 gənclə söhbət etmişik. Onlarla söhbətimizin yönü əsasən belə olub: sənin yurdunda dəyər var, bu dəyəri tanı, yiyə dur. Özünü böyüt. Söymə yurdunu. Söymə millətini. Sənin gözündən salınan millətini söymə. Bu gün bizim söhbətimiz Babəklərin harayıdır. Onları tanı. Nəsimiləri, Babəkləri qanına qəltan elədilər. Ancaq yenə də onların yurdunda Asif Ata çıxdı ortaya. Onların sevgisini, vətəninə, millətinə bağlılığını qiymətləndirdi, yeni aşama başladı, haray çəkdi: Ya özünü yaradıb millət olmalısan, ya da bu aqibət, bu tale səni uçuruma aparır.

Şəxsiyyətlərimizi doğradılar, ancaq onların baxışlarını dəyişə bilmədilər. Bəs bu gün vətən deyib qışqıranlar necə?! Sənin qolunu burub içəri salandan sonra millətinə, vətəninə münasibətin dəyişəcəkmi? Gör ondan sonra Vətən, Millət məsələsi sənin üçün hansı müstəvidə dayanır?! İçində qəzəb, kin var. Sənə əzab verildiyi üçünmü mübarizə aparırsan məmurlarla, yoxsa həqiqi vətən sevgindir sənin rahatlığını pozan?!

Ocaqçı üçün Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı yarpaq-yarpaq içində açılan olanaqlardır...

Asif Ata mənəvi, ruhani boşluğu, ideoloji boşluğu doldurur. Yetər ki, onu eşidəsən, bəhrələnəsən.

...Hər bir olay ayrı-ayrı bireylərin ağlında, düşüncəsində, qəlbində formalaşır. Hər bir olay bireydən, bireylərdən başlayır. Sosialist devrimi (inqilabı) Leninin Razliv gölü qırağında yazdığı, işlədiyi ideoloji baxışdan törədi. Söz yox, biz Leninin devrim həşirini qəbul eləmirik, bu ayrı qonudur. Bir adamdan başlamasını misal çəkirəm. Bu, məsələnin birinci yanı. İkinci, biz neyləyək ki, Azərbaycan toplumu min ildir basqı altındadır. Min il basqı altında olan toplumu 5 gün içərisində qurtarmaq alınarmı?!

Asif Atanın baxışı: **İnsanlaşma, Millətləşmə, Doğulaşma, Bəşərləşmə** yönündədir. Ancaq heç bir millət Millətçilik səviyyəsini keçmədən bəşər ola bilməz. Bəşər mücərrəd deyil. Bəşər konkret olaraq ayrı-ayrı millətlərin (yaratdığı dəyərlərlə) birliyidir. Sürü deyil. Bu gün bəşər yoxdur. Çünkü siyasi dağıdıcılıq var, azğınlıq var. Xalqlararası münasibət yağılığa çevrilib. Heç bir xalq yaratdığı dəyərlə meydanda deyil, gücüylə, zoruyla, gücsüzlüyü ilə meydan-

dadır. Millətlər yaratdığı dəyərlərlə meydanda olmalıdırlar. O dəyərlərlə onlar bir-birindən bəhrələnə bilər. Bu gün xalqlar dəyər yaratmır, siyasi anarxiya yaradırlar. Demokratiya bütün dünyanı bürüyüb. Çağımızda Demokratiya Millətçiliyin ortadan qalxmasına hesablanmış ideologiya kimi görünür.

Millətçilik nə deməkdir bizim üçün?! – Bu çağa kimi bəşər tarixində 3 ideologiya olub Millətçiliyə qarşı, milləti aradan qaldırmağa girişib. Onlardan biri 7-ci yüzildə İslam ümmətçiliyi. İslamda millət yoxdur. Hamı Allahın bəndəsidir, Məhəmmədin ümmətidir. İkinci, Kommunizmin "vahid bəşər", "vahid millət" ideyası. Cəfəng, xülyəvi "vahid bəşər". Üçüncüsü, Kürəsəlləşmə. Vahid ideologiya, sonuc olaraq "vahid bəşər" deməkdir. Bu da millətin ortadan qalxmasıdır. Halbuki kommunizm ideyasının başında duran Lenin millətçi idi, özü də şovinist millətçi idi. Sağlam millətçi deyildi. Rus kommunizmi imperiya səviyyəsində millətçilik yürüdürdü axıra qədər. Ərəbçilik xətti yürüdürdü Məhəmməd. Birmənalı şəkildə sənin dilin, danışığın, üslubun, poeziyan, şeirin, ruhun, mənliyin hamısı ərəbləşmişdi. Bu günə qədər də o ruhani işğaldan qurtarmayıb millətimiz. Bütün bəşəriyyət ərəbin dilində ibadət etməlidir. Həyatını, mədəniyyətini onun dilində gəlişdirməlidir. Bu məntiq də özünü doğrultmadı. Kürəsəlləşmə də özünü doğrultmayacaq. Niyəsini də aça bilərik. Burada da ingilisçilik baş xətdir. Hakimiyyət öz xalqına yiyə çıxmır, özünün vətəndaşına gün ağlamır. Talançılıqla uğraşır. Yabançı şirkətlər də gəlib sənin ölkəndə iş yerləri açır, vətəndaşını işə götürərkən qoyduğu şərtlər də milli kimliyinin danılması üzərində qoyulur: ingilis dilini bilməlisən, ingilis mədəniyyətinin əsaslarını öyrənməlisən. Birinci şərtləri budur. Bu o deməkdir ki, sən öz ölkəndə çörək qazanmaq, mövcudluğunu sürdürmək üçün başqa xalqın mədəniyyətinin əsarətini yaşamalısan. Bundan da eybəcər gediş ola bilməz. Özününkü də bir heçdir. Kürəsəlləşmə bunu gətirir.

***Millətçilik – hər bir millətin özünəxas dəyərlərinin yaranıb ortaya çıxması, hər bir millətin öz mahiyətinə dayanıb ülvi, müqəddəs, yüksək bəşəri keyfiyyətlər yaratması, özünü ifadə etməsi yönüdür***. Hər bir millət özünün yüksək dəyərləri ilə bəşər

ailəsində olmalıdır. Bəşər xalqlarına müsbət, mənəvi, insani etki göstərməlidir. Bəşərilik buradan başlayır. Mən türkəm, Asif Ata bu millətin övladıdır. O, bütöv bir etnosun – türk etnosunun qurtuluşunu düşünür. Bu İnamı birinci növbədə bu xalqa verməliyik, bu xalqın ruhunu ayağa qaldırmalıyıq. Bu xalqın ruhunu qurtardığın dərəcədə bəşərləşirsən. Milliləşdikcə bəşərləşirsən. Ayrı cür bəşər deyə bir şey yoxdur. Heç bir xalqın dəyərlərinə qarşı deyilik. Öz dəyərlərimizin də qədrini bilirik...

Bu gün bizim harayımız Babəklərin harayıdır. Ölməyib Babək. Mən burda Onun harayını çəkirəm. Bu xalqın içində gəlişmə deyilən bir şey varsa, həmin haraylara görədir, həmin şəxsiyyətlərə görədir. Əgər Babək olmasaydı, Dədə Qorqud, Nəsimi, Zərdüşt olmasaydı, onda bu xalq erməninin durumundan aşağı olardı, heç adı bəlli olmazdı...

Bizim dövlətimiz var, ancaq yiyə çıxmırıq, onu gərəyincə yaşatmırıq. Bu gün kürdlər Zərdüştə iddia edirlər, Ergenekon bayramı bizimdir, Koroğlu bizimdir deyirlər, Babək bizimdir, Şah İsmayıl bizimdir deyirlər. Niyə deyirlər? Bu gün dünya gücləri kürd seperatizminə dövlət yaratmaq istəyir. Bu dövləti insansevər olduğuna görə yaratmır. Bu bölgəni qarışdırmaq, anarxiya yaratmaq, bölgəni yönətmək üçün yaradır. Erməni bəs eləmir ona. Kürdün də qarışdırıcı güclərin buyruqlarında duranları dövlət yaratmağa haqlı olduqlarını sübut etməyə çalışır. Dövlət yaratmağa, bəşəriyyətə böyük dəyərlər verə bilən toplumlar haqq edir. Dövlətin içində bir millət də yaşayır, bir neçə millət də yaşayır. Hər bir milləti yönətməlidir dövlət. Bunun üçün hər kəsi yönəldən, onun yönünü yaradan bir mədəniyyət olmalıdır. Bu mədəniyyəti həmin dövlətin yiyəsi yaradır. Belə olmazsa, dövlətin funksiyası aradan gedir. Dövlətli olmağa o vaxt haqq edirsən. Dəyərlərimizi adlarına çıxırlar ki, torpaqlarımızı qamarlamağa özlərini haqlı saysınlar. Gərək böyük dəyər, böyük mədəniyyət yaradasan, ortaya qoyasan. Onun əsasında dövlət yaranır. Bunu süni şəkildə eləmək olmur axı.

Bizim dövlətçilik gələnəyimiz var. Minillərə dayanır. 200 illik tarixdə, Qacarlar devriləndən sonra, Güneydə toplumumuzu sıxırlar. Nəyə görə?! – Dövlətçilik gələnəyi yaradan dəyərlərimizə görə.

Dünyaya verdiyimiz insani dəyərlərə görə. Biz dünyaya söz demişik. Bunların hər birinin xalqın, bəşəriyyətin həyatında rolu var.

Bu gün tarixi şəxsiyyətlərin dedikləri bütöv şəkildə oturuşmayıbsa, bu o demək deyil ki, bunlar itdi-batdı. Onlar böyük bir gələnək, dəyər sistemidir, xalqların gəlişməsini qabağa aparır. Bizim həyatımızda Babək, Nəsimi dəyərdir, bizim bəşəriyyətə dediyimiz sözdür. Bizim içimizdə olan Azadlığı Babək ifadə edirdi. Bu gün bizim içimizdə yenə də Azadlıq istəyi var. Azadlıq istəyi heç vaxt ölmür. O istəyi ifadə edən yeni Babəklər çıxacaq ortaya, bu qarşısıalınmaz bir prosesdir.

Asif Ata da yeni sivilizasiya başladı. Bu gün onu beş adam, ya beş yüz adam eşidir, bu ayrı məsələdir. Asif Ata ortaya çıxıb, dəyər yaradıb. Onun davamçıları da bütün varlığı ilə bunun xalqda oturuşmasına çalışırlar. Deyə bilmərəm, 50 ildən, ya 500 ildən sonra Asif Ata bu xalqın içində oturuşacaq, dünyada yeni sivilizasiya yönünü təsdiq edəcək. Ancaq Asif Ata bu gün qarşısıalınmaz bir prosesi başlayıb. Başqa Soylular da çıxacaq ortaya, Atanın işini davam edəcək. Bu xalq qısır deyil.

O başqa məsələ, proses bizim arzuladığımız şəkildə sürətli getmir. Mümkün də deyil. Min ildir üzü üstə yıxıblar bizi. 36 il bir siyasi partiyanın varlığı açısından böyük rəqəmdir. Çünkü siyasi partiyanın hədəfi hakimiyyətə gəlməkdir. Ruhaniyyatın hədəfi isə İnsanlaşdırmaqdır. Yeni bəşər halı yaratmaqdır. 36 il bu hədəf üçün 36 gün də demək deyil. İsanın ölümündən 200-300 il sonra xristianlıq başladı qəbul olunmağa. Asif Ata dünən başalyıb...

Elə olub, mən görüş keçirmişəm, zala 120 nəfər yığışıb. Asif Atanın ideyalarını demişəm, Onun harayını çəkmişəm. Heç kim səsini çıxarmayıb. Xalq öz içində sönmüş Ocağının istisinə qızınır. Xalq öz həqiqətinin harayını eşidir. Bu xalqın qulağı dolmalıdır illərlə. İllərlə zəhmət çəkməliyik gecə-gündüz. Demək gərəkdir 10 illərlə. Vaxt vardı Asif Atanın adını mətbuata çıxara bilmirdik. Bu gün Asif Atanın sarsılmaz sistemi, heyrətli, fədakar Evladları var. Xalqının içinə çıxır, sevgiylə Atanın sözünü çatdırır. Asif Atanın ciddi arxivi var, bu arxivlə xalqın özünəxaslığını qurmaq olar, elə günü bu gün. Bunlar hamısı xalqın mahiyyətindən gəlir...

## Atagün Ailə Günü

*(30 Çiçək Ayı, 36-cı il)*

Çiçək Ayının sonuncu günü Atagün Elində “Atagün” Ailəsinin ikinci aylıq törənində söz deməzdən öncə Bayrağımızı öpüb Ataya səcdə qılıram.

Gələnəksəl olaraq, Ailə törənimizin hesabat qonuları haqqında danışacağıq. Bunu danışmazdan öncə buraya gəlişimin özəl bir məna daşıdığını vurğu eləmək istəyirəm. Elə görünə bilər, biz Asif Atanın Ocağını yaşatmaqdan ötrü hər ay özümüzə zəhmət veririk, ya da özümüzü buna zorlayırıq. Bəlkə də başlanğıcda bu dediyim məqamlar bəlli çalarda var idi. Çünkü Ocağı yaşatmaq üçün, doğrudan da, zəhmətə qatlaşmaq gərəkdir. Eyni halda, bu bölgədə Günevin varlığı, Ocağa yiyə çıxması, Ocaq Ailəsində çalışması olaylaşdı. Biz istəyirik, bu bölgədə Günevin zəhmətinin qədrini bilən, onu dəyərləndirə bilən ayrı-ayrı bireylər, zaman-zaman ayağa durub ortaya çıxa bilsin. İnsanların, qarşı çıxa-çıxa, ciddi ilgilənmələri, onların içində Ocağa gərəkliyin üzə çıxması işi gedir. İsanların ağlında, içində həm təpki var, həm də gərəklik (ehtiyac) var. İkisi də var. Təpkinin nədəni bəllidir: heç kəs onun ağlına, qan yaddaşına hakim kəsilən etkilərdən birdən-birə özgür olmaq istəmir. Çünkü onun ağlının, idrakının gücü o deyil. Birdən-birə boşluğa düşəcəyindən qorxur. O boşluqda özünə yer tapsın, yol tapsın, ayağa dursun, söz yox, onlar üçün asan deyil. Ona görə təpki qaçılmaz şəkildə ortaya çıxır. Hər kəs qüdrətli deyil. Biz istəyirik Yurdumuzda qüdrətli insanlar yaransın. Ocaq ona görə var, bu insanlar gözünü sağa-sola döndərəndə ömür yolunda rastlaşacağı boşluqdan qorxmasın, anlasın, o, özünü təkcə öz çevrəsində təsdiq eləmir. Boşluq onun çölündə deyil. Boşluq onun içindədi, əgər o, özünü həmin əhvalla doldura bilsə, onda boşluqdan söz gedə bilməz. İnsan öz içindəki boşluğu doldurmalıdır. Nəylə doldurmalıdır?! – Asan olmasa da, Asif Ata ilə doldurmalıdır. Bununçün də, yenə deyirəm, aşamalar gərəkdir.

Gərəklik məsələsinə toxunum. Gərəklik ona görə var, peyğəmbərlər min illərdir insan qəlbinin gözəlliklərini fəth elədilər, ancaq insan idrakını fəth eləmədilər. Bax, əski peyğəmbərlərlə Asif Atanın

bu nöqtədəki, bu gedişdəki ayrıntısı ortaya çıxır. Mənim amallaşmamın bir çaları da bununla bağlıdır. Bu düşüncəni mən həm amallaşmayla, həm də “Gediş Yazısı”nın ikinci qonusuyla bağlayıram – “İdeya – düşüncələri dəyişməlidir”. Peyğəmbərlər insan qəlbinin gözəlliklərini fəth elədilər, ancaq insan idrakını fəth eləmədilər. Nəinki insan idrakını fəth eləmədilər, tərsinə, insan idrakının yolunu qapadılar, bağladılar. İnsanın qəlbində gözəlliklər var. Duyğular var. Peyğəmbərlər bu duyğuları, gözəllikləri, insandan uzaqda olan, ona hökm edən qüvvəyə yönəltdilər. Bu yanlış məsələ də bəşəriyyətin varlığına hakim kəsildi. Bununla da insanın öz içində, doğal olaraq, yaşatmalı olduğu məna gözəlliyi aşama-aşama ömürdən ayrıldı. Asif Atanın doğru gəlişi ilə insanın içinin həmin gərəkliyi yenidən ayağa durur. Yenidən ödənmək istəyir. Bunu heç nə ödəmir.

Peyğəmbərlər gəlirlər ki, insanı heyvandan ayırsınlar. Yəni bioloji həyatın mənəvi-ruhani həyat üzərindəki etkisini aradan qaldırsınlar. Bu gün biz görürük, həyat bütünlüklə bioloji qurallara boyun əyir. Gediş bütünlüklə biolojidir. Cismaniliyə bağlıdır hər şey. Hər şey fiziki mövcudluğa bağlıdır. Hər şey fiziki mövcudluğa bağlı olanda insanın yadından çıxır ki, ondan qıraqda başqası da var. İnsanın olanaqları öz bioloji mövcudluğunu qorumağa, ona qulluq göstərməyə yönəlir. Bununla da o, artıq başqa şey haqqında düşünə bilmir. Mən yalnız özümün mövcudluğumu düşünürəmsə, bəs insanı sevməyə haçan vaxtım olacaq?! Bəs insanın üzündəki qutsallıqları oxumağa haçan vaxtım olacaq?! Onun ağlının gözəlliklərini dinləməyə vaxtım olmayacaq. Bax, peyğəmbərlər ona görə gəlir ki, bunlara sənin vaxtın olsun. Bioloji həyatın etkilərindən açıla biləsən. Bioloji həyata pərçimlənib qalmayasan. Ruhsal həyatını yaradasan. Ancaq görək peyğəmbərlər buna yetə bildilərmi?! – Bilmədilər. Niyə bilmədilər?! – İnsanın mahiyəti Ruhaniyyatçılığa bağlıdır. O, Ruhaniyyat əsasında yaşayanda olur İnsan. Sırf bioloji həyatla uğraşanda olur heyvanatın parçası. Heyvan yalnız boz çöllərdə otardığımız qoyun deyil ki. Heyvan – bütünlüklə fikizi mövcudluğu ilə uğraşana deyirlər, bütün düşüncəsi bioloji varlığına bağlı olana. Bu düşüncəylə yaşamaq heyvanilikdir, insanilik deyil. Peyğəmbərlər insanı axıra qədər heyvandan ayıra bilmədilər. İnsan qəlbinin gözəlliklərinə yiyə çıxa

bilmədilər. İnsan qəlbinin gözəlliklərini üzə çıxaran idrakdır. Gərək qanasan o gözəllikləri. Tanıyasan, dərk eləyəsən. Dərk eləməsən, o gözəlliklər solacaq. Həyətdəki güllərə qulluq göstərməyəndə solduğu kimi. Qəlbin gözəlliklərinin qoruyucusu İdrakilikdir. Onun yolunu bağladılar peyğəmbərlər.

Asif Ata insan qəlbinin gözəlliklərini Dünyanın mənasına bağlamağa bağladı. Əski peyğəmbərlər insan qəlbinin gözəlliklərini bağladılar tanınmayan, bilinməyən, mücərrəd qüvvələrə. Mücərrəd qüvvələr də vakuum kimi sordu apardı o gözəllikləri. Asif Ata insanın idrakını işıqlandırır, deyir, sənin içindəki gözəllikləri idrakınla yaşada bilərsən, qoruya bilərsən. Ona görə O, ruha yeni məna verdi. Ruha – İnam, İdrak, Mənəviyyat, İradə birliyi dedi. Dedi, sənin özündən artıq olan bir qüdrətə inamın gözəldir. Ancaq sənin özündən artıq olan qüdrət transendental deyil, göylərdə deyil, yaxşı bax, sənin içindədir böyük məna. Allah, həqiqət, yüksək qüdrət nədirsə, sənin içindədir. İçindəkini İdrakla təsdiq eləyə bilərsən. Yoxsa naşı inamın səni uçuruma aparır. Qanmadığına nə qədər inanacaqsan?! İnanacaqsan, inanacaqsan, axırda inamın öləcək. Çünkü inamın fərəh üfüqləri tanımayacaq. İnamının gözü qapanır. İnamının gözü idrakdır. Əgər sən yüksək mənanı, yüksək qüdrəti öz içində tanıyarsan, dərk eləyərsənsə, içində gözəlliklər, yəni mənəviyyat qorunacaq. Mənəviyyatdan dünyaya işıq saçacaqsan. Həyata işıq saçacaqsan. Yeni nizam başlayacaq. Yeni düzən başlayacaq. Yeni əhval başlayacaq. Yeni sevgi başlayacaq.

Asif Ata insana belə bir aqibət hazırlayır.

Dünən "Uluyol-Hünər" Ailəsinin "Ailə Günü"nə bir qonaq gəlmişdi. Öncə bizə danıcı (inkaredici) sorular verdi. O deyir, 36 ildir Ocaq yaranıb, bəşəriyyətdə bu cür ocaqlar çox olub. Hamısı yaranıb, qapanıb. Siz də 36 ildir yaranmısınız, hələ ortada heç nə yoxdur. Asif Atanın Ocağı da qapanacaq.

Söz yox, onun sözündən vurmaq olmaz, niyə belə düşünürsən deyə. Ancaq həqiqətimizlə insanlarımızı üz-üzə qoyuruq. 36 ildir yaranıb nə deməkdir?! – Siz hər biriniz Asif Atanın işini ciddi araşdırsanız görəcəksiniz, 36 ildə 360 illik əməklər var. 360 illik hünərlər var. Sənin oğlunun, qızının, sonrakı soylarıyın qibləsini

dəyişən, ağlını böyüdən böyük ruhsal xəzinə var ortada, böyük İrs var ortada. Yenə vurğu edirəm, 36 il siyasi partiyalar üçün çox böyük vaxt deməkdir. Çünkü siyasi partiyanın məqsədi hakimiyyətə gəlməkdir. Hakimiyyət dəyişikliyi eləməkdir. Hakimiyyət dəyişikliyi eləmək üçün 36 il durub ayaq döymək, baş sındırmaq, doğrudan da, çox böyük vaxtdır. Ancaq Ocağın hədəfi hakimiyyətçilik dəyişikliyinə gəlib çıxmaq deyil axı. Ocağın hədəfi dünyada yeni bəşər halı yaratmaqdır. Yeni bəşər halını beş günə, beş ilə yaratmaq olarmı?! Siz niyə yeni bəşər halının ilk rüşeymlərini görmürsünüz?!

Bizim harayımız nədir?! – Bu yaxınlarda hansısa saytda biri (adı yadımda qalmadı) deyir, 10 ildən sonra Asif Ata Ocağı olmayacaq. Deyirlər, bəşər tarixində neçə belə ocaqlar yaranıb sönüb. Anlamıram, bunlar nəyə sevinirlər, nəyin sorağını verirlər. Hansı ocaqlar sönüb?! Babəkin adını çəkdik, Nəsiminin adını çəkdik, məgər onlar biryolluq sönüb?! Əminsinizmi, Babək sönüb, əminsinizmi, Nəsimi sönüb?! Bəs mənim harayım nədir?! Bəs mən kiməm?! Babək gələnəyi üzərində qalxdı, Nəsimi gələnəyi üzərində qalxdı Asif Ata. Nəsimi harayını çəkir, Babək harayını çəkir Asif Ata. Daha kamil, daha zəngin bir səviyyədə, yeni bir aşamada. Babək harayıdır əslində bu. Necə sönüb, bu gün haray var. Buna sönmək demək olmaz axı. Sönmək söhbətini ağlınızdan qırağa qoyun. Sönməyi sən deyə bilərsən, mən deyə bilmərəm. Mən alışıb yanıram. Alışıb yanan deyə bilər sönüb?! Sən yanmırsan, ona görə deyirsən, sönəcək. Bu düşüncələr obraz kimi görünür, ancaq bu həqiqətdir. Bu elə bir həqiqətdir, bununla yaşamaq bütün zamanları silkələyə bilər. Yetər, o həqiqətlə üz-üzə dayana biləsən. Bax, ona görə Ocağı qıraqdan seyr eləyib demək olmaz, sönəcək.

Deyirlər, siz hələ də özünüzlə uğraşırsınız. Doğru, biz özümüzlə uğraşırıq. Gör özümüzlə uğraşmaq nə deməkdir?! – Özümlə uğraşdım, Asif Atanın böyük irsini yaratdım. Elə bir İrs ki, bütün dünya o irsin içinə girəcək. Min il onu araşdıracaq. Mən bunu sizə əminliklə deyirəm. Çünkü nə yarandığını biz bilirik. Hamısı gözümüzdən, əlimizdən keçib. Dünyanı da öyrənmişik. Bilirik, dünyanın bu İrslə tutuşdurulmağa gücü bu gün yoxdur. Asif Ata elə böyük bir dəryadır, içinə girəcəksən, çıxa bilməyəcəksən. O qədər genişdir, o

qədər zəngindir, tükənməzdir. Bunu yaratmışıq. Özümüzlə uğraşdığımız üçün Azərbaycanı qarış-qarış gəzdik, haray çəkdik. Asif Atanın həqiqətini dedik, deyirik. Babəki qaytarırıq sənin xalqına, sənin gəncliyinə, sənin aydınına. Nəsimini qaytarırıq. Böyük şəxsiyyətlərini, böyük ideallarını, böyük ideyalarını qaytarırıq. Özümüzlə uğraşmaq bu deməkdir. Haray çəkirik hər yerdə. Özüylə uğraşmağa elə-belə baxmaq olmaz. Bu tədbirlər bizi içəridən qurur, idrakımızı böyüdür, yetkinləşdirir, həqiqətə gözümüzü açır. Ona görə Ocağın atdığı addımların, gördüyü işlərin prinsipiallığını dərk eləmək gərəkdir. Ona görə mən sanıram, bizim ruhsal ünvanımız var. Boşluq nə deməkdir?! – Boşluq – ünvansızlıq. Ünvan – boşluğun dolması deməkdir. İnsanları çağırmağa ünvanımız var. Hara çağırırıq?! – Mütləqə İnamla dolmağa. Mütləqə İnam adlı ünvanımız var. Elə bir ünvan, bütün bəşər tarixinin, özü də ruhsal tarixinin, gözəlliklərini üzə çıxarır, zirvəyə qaldırır. Belə bir bəşəri ünvandır. Mütləqə İnam – sənin içində ünvana çevrilir. Sənin için özü ünvana çevrilir. Sənin ömrün ünvana çevrilir. Sənin ömrünə üz tutur insanlar. Deyirsən, məsələn, o eldə filankəsə nifrət var. Nifrət böyüyür, artır. Niyə böyüyür? – Çünkü onda ünvan tapır. Gözəllik də beləcə, İnam ünvanı tapır. Arxalanmaq, güvənmək ünvanı tapır. Harda tapır? – Sənin qəlbində, əməlində, sevincində, baxışında, döyüşündə. Bu, aşama-aşama yaranır. Addım-addım, Atanın dediyi kimi, ağac-ağac yaranır. Bax, biz bu gün burada oturmuşuq. Xalqın böyük hikmətlərini açıb deyirik özümüzə. İçimizin gözəllikləriylə uğraşırıq. Öyrənəcəklərimizi bir-birimizə sunuruq, bax burda, bir kəndin bir evində. Bundan Kürdəmirin, Şirvanın sorağı varmı?! Yevlaxın sorağı varmı?! – Yoxdur! Tovuzun, Qazaxın sorağı varmı?! – Yoxdur! Ancaq burda gedən proses Tovuzun, Qazaxın, başqalarının ruhsal sabahını quran gedişdir. Bir ünvanda qurucu proses gedir. Elə bir proses ki, dediyim kimi, bu anda ondan qurulanın, qurulacaq toplumun özünün sorağı yoxdur.

Bir misal deyim, biz qəbul eləsək də, eləməsək də, dünyanı sarsıdan, gerçək düzən yaradan sosialist devrimi baş verdi. Bu devrimin yetişmə prosesindən heç dünyanın sorağı yox idi. Razliv gölünün qırağında bir kötüyün üstündə yazılırdı prosesin gedişi. Yenə deyirəm, biz o devrimin sonuclarını alqışlamırıq, çünkü dünyanın

milli istəklərini gözündə qoydu. Orda sosial dəyişikliklər var idi, dana bilmərik, bəlli üstünlüklər də vardı. Ancaq, dediyim kimi, dünyanın halını, nizamını dəyişə biləcək proses balaca bir kötüyün üstündə yaranıb formalaşırdı. Bax, Asif Atanın işi Razliv gölünün qırağındakı işdən qat-qat dərin, yüksək işdir. Bu, o proses kimi sürətli deyil. 15-18 ilə başa gəlmir. Bu, yüz ilə, iki yüz ilə başa gələcək. Ancaq aşama-aşama yetişir. O prosesləri yetirəcək insanlar yaranır, düşüncə yaranır, ortam yaranır, ünvanlar yaranır. Bunun, davamlı olaraq, qoruyanı, böyüdəni, gəlişdirəni gərəkdir.

… "Gediş Yazısı"nda xalqlaşma, kamilləşmə qonumuz da var. Mən kamilləşmə ilə bağlı bir məqamı vurğu eləmək istəyirəm. Söz yox, bu qonu olduqca çətin, dərin qonudur. Dərinliyi, çətinliyi nədədir?! İnsan, doğrudan da, gərək içini tanıya, aça bilə. Mən bunu eləyirəm. Bu çağa qədər də eləmişəm, indi də eləyirəm. Bu çağa qədər döyməli qüsurlarım çox idi. İndi mənim döyməli qüsurlarım azdır. Ona görə onu ancaq məzmunla deyirəm. Mənim özüylə döyüşüm, bu gün sizə hesabat verdiyim, amallaşmada özünü göstərir. Xalqlaşmada özünü göstərir. Bir neçə gün öncə gündəliyimi yazırdım. O gündəliyin içərisində özüylədöyüş çalarları da var, başqa yaşam halım da var. Gördüyümüz işlər, yanaşmalar i.a. Elə bunlar da özüylə döyüşün, özünü yaratmanın tələbləridir, daha doğrusu, gedişidir.

Mən özümə soru sordum, bu nədir, nə istəkdir mənim içimdə, hər gün gündəliyimi yazıram. Axı hər gün gərək yoxdur. Gündəlikdə seçilən, özəl olayları yazarlar. İnanın, istədim günləri ayıram, yazmayam, ancaq görürəm, mənim hər günüm olaydır. Hər günüm Ocaqdır. Ocaqdan başqa həyatım yoxdur. Bu mənim üçün elə bir dönməz taledir ki. Bu talenin qədrini bilirəm. İçim Asif Atayla elə dolub, o dolğunluqla ancaq Fərəh üstə yaşamaq olar. Ayrı cür yaşaya bilmirəm. Mən ancaq nikbin yaşaya bilirəm. Bax, bu, Asif Atanın yaratdığı haldır, verdiyi aqibətdir. Onun Yolunun mənə cızdığı yöndür. Ona görə də sözümün başlanğıcına qayıtmaq istəyirəm, mənim bura gəlişim özəl, önəmli gəlişdir. Təkcə Asif Atanın Ocağı bir qurum kimi yaşasın deyə gəliş deyil. Mənim buna ciddi gərəyim var.

Xalqlaşmayla bağlı da bir neçə söz deyim. Ocağımız yaxşı işlər görür. Geniş, qapsamlı işlər görür. Çox ciddi bəhrələnirlər Ocaqdan.

Biz xalqlaşmada təkcə üz-üzə ünsiyyətlərlə deyil, həm də düşüncəmizlə, tədbirimizlə, tədbirimizin kitablaşmasıyla bəhrələndiririk. Bunu dilə gətirənlər də olur. Mən özüm mətbuatda, ayrı-ayrı yaradıcı adamların yazı üslubunda da görürəm Asif Atanın etkisini. Bu, məsələnin bu yanı. Bir də son iki ayda biz səfərlər etmişik Göylüylə, İnamlıyla, bir çoxlarını İnamlıyla (bu Elşad İnamlıdır). Bu yaxınlarda "gündəliyim"dən gördüm, iki ayda 32, ya 34 ünvana ayaq döydük. Onlardan 5 görüşümüz baş tutub. Kütləvi görüşlərimiz. Üst-üstə hesablasaq, 150-yə qədər soydaşlarımızla, gənclərlə, onların öyrətmənləriylə görüşlərimiz olub. Bu ünsiyyətdə bayaq dediyim haray var. Bax, gedirik o gəncliyin içinə, deyirik onlara, gəncliyin içində Babəklik üzə çıxmalıdır. Gəncliyin içində Nəsimilik üzə çıxmalıdır. Nəsimilər, Babəklər ölüb qurtarmayıb, sizin içinizdədir. Üzə çıxardın. Ondan ötrü sənin ağlına sunuram xalqın ideallarını, sənin yurdunun böyüklüyünü, müqəddəsliyini. Sənin yurdunda başlayan Asif Atanın işlərini. Ona görə sizə sunuram ki, siz içinizdəki Babəki, Nəsimini oyadasınız, yeni Babəklər, yeni Nəsimilər yaransın özünəxas, xalqının ruhuna yiyə dursun. Bizim görüşlərin, gedişlərin məqsədi odur. Buna mən uğur kimi baxıram. Yetirik, çünkü biz onu verə bilirik, deyə bilirik. Atdığımız addımlar, gördüyümüz işlər hamısı ağac-ağac, kərpic-kərpic qurulur xalqın içində. Boşuna deyil. Söz yox, yenə deyirəm, bizim hədəfimiz 5-10 ilə hesablanmayıb, uzun illərə bərabərdir. Xalq içəridən dəyişilməlidir, bu elə-belə asan deyil.

*xxx*

Mən xalqın içinə baxıram, düzdür, ağrıyıram. Xalqın gedişini biz izləyirik axı hər birimiz. Görürəm, mənəviyyat ölür, gənclik ölür, ailə ölür, münasibətlər ölür. Yediyimiz qidaların hamısının içində bizim birbaşa genefondumuza etki göstərə biləcək komponentlər var. Bütün xalq içəridən aqressiyayla dolur. Hamının içində əsəbi gərginliklər var. Hamı bir-birini didməyə, əzməyə, parçalamağa hazırdır. Bunu məqsədyönlü həyata keçirirlər. Bir yandan pul qazanmaq üçün eləyirlərsə, bir yandan da xalqın bir-birinə sayğı bəsləyib birləşməsinin qabağını alırlar. Xalq bir-birinə qarşı elə aqressiv əhvallara köklənib ki, birinin ayağını tapdala, səni öldürməyə hazırdır. Elə hal

yaradırlar ki, xalq birləşməsin. Bütün bunların hamısını izləyirəm, ağrıyıram. Ancaq mənim nikbinliyimə zərər vermir. Atanın Yolunun həqiqətini, onun gücünü, gələcəyini dərk edirəm. Atanın yaratdığı Dünyabaxış bulanıq selin qarşısını almağa qadirdir. İndi hansı aşamada, hansı nöqtədə alacaq, burda biz falçılıq eləyə bilmərik. Ancaq alacaq. Bununçün Ocaq var. Bununçün yaşayırıq. Bununçün çarpışırıq. Bununçün fərəhlənirik. Bununçün kədərlənirik. Bununçün yetişirik, yetiririk. Bax, hamısı bunun üçündür.

Atamızın bayrağını öpürəm, ona səcdə qılıram.

## Atagün Ailə Günü
### *(15 İşıq Ayı, 36-cı il)*

15 İşıq Ayı, 36-cı ildə "Atagün" Ailəsinin III Ailə Günü mərasimini yaşayırıq. Mən Atamıza səcdə qılıb bayrağımızı öpürəm.

Ailə Günümüzün tələbi odur ki, burada hər kəs özünü həryönlü görə, öyrənə bilsin, özünü yarada bilsin. Eləcə də Ocaq mərasimlərində. Biz kitab oxuya bilərik bağımsız olaraq. Söz deyə bilərik. Ancaq bizim kitab oxumağımız, söz deməyimiz konkret olaraq mərasimləşmirsə, hesabatlaşmırsa, onda əhvallaşmır. Onda o, yerişə çevrilmir. Kim nə deyir desin, bu cür tədbirlər olmasa, adam gedib qonşusuna Ocaq sözü demir. Deyə bilmir. Bir dəfə deyər ha, ikinci dəfə gedib demir. Kökdən düşmə olur. Ona görə "Ailə Günü" mərasimləri olduqca önəmlidir. Gərək bunu da yaşayasan. Yaşamadan Günü yola vermək olar.

Bura mənim gəlişim özüm üçün çox özəl xarakter daşıyır. Mən bura həqiqətən dəyişmək üçün, dəyişdirmək üçün gəlirəm, əhvallaşmaq üşün, köklənmək, yenilənmək üçün gəlirəm. Eləcə də Bakıda keçirdiyimiz toplantılara. Mənim Ocaq tədbirləri çoxdur. Mərasimlərdən, Bayramlardan başqa hər üç Ailənin Ailə Günlərinə qatılıram.

Bizim istəyimiz odur ki, Ailə Günü keçiriləndə 3-5 adam gəlsin. Bəzən elə adamlar gələ bilir, elmi cəhətdən iddialı olur. Sözü olan adam gəlir. Bəzən elə adamlar olur, gəlib deyir, Asif Ata bəşəriyyətin

dediklərini deyir. Akademiyadan alimlər gəlib bizim tədbirimizə deyiblər, Asif Atanın filan-filan düşüncələrini bəşəriyyətin ayrı-ayrı düşüncə adamları səsləndiriblər. Biz o anda onların ağzından vurmuruq. Demirik bizi gözüyumulu dinləyib alqışlasınlar. Qoy baxışlarını desinlər. Ancaq bizə ağıl öyrətməsinlər. Biz nə dediyimizi öyrənirik, düşünürük, əsaslandırırıq. Bizi dinləyin, araşdırın, ciddi öyrənin. Sizin Yurdunuzda böyük iş başlayıb. İdrakını işə sal, vicdanınla üz-üzə dur. İnsan öz vicdanıyla düşünəcəksə, heç vaxt deyə bilməz ki, qarşıdakı əyri deyir. Düz deyirsə, deyə bilməz əyri deyir.

İndi bir neçə məqamı baxışınıza çatdırmaq istəyirəm: Bir var arzular, bir də var mübarizə. İnsanlar çox şey arzulayırlar. Bəyəm Asif Ataya qədər düşünənlər, Asif Atanın çağdaşı, Atadan sonrakı insanlar millətin gələcəyini arzulamırlarmı?! – Arzulayır. Ancaq arzular elə-belə yerimir, arzuların yerişinin gücü mübarziədir. Əgər mübarizə yoxdursa, arzular yalnız insan qəlbinin hansısa bir guşəsində gizlənib qalacaq. Ona görə də arzulamaq azdır. Əgər biz istəyiriksə, doğrudan da, Yurdumuzda qlobal dəyişikliklər eləyək, biz istəyiriksə xalqımızın yönünü dəyişək, mübarizə aparmalıyıq. Mübarizəni necə apara bilərik?! – Mən sizi əmin edirəm, bu on adamın bura gəlişi mübarizədir. Azərbaycanın hər bir bölgəsində ayrı-ayrı ünvanlarda toplantılar olur, insanlar bir yerə gəlir, nədir orda bir araya gəlib ortaya qoyduqları düşüncələr?! Ən çox sosial-məişət yönündə məsələlər çözülür. Ya da siyasi xarakterli məsələlər qoyulur. Hakimiyyət məsələləri özlərinə yarar şəkildə çözülür. Ən çox budur söhbət. Heç bir ünvanda Ruhaniyyat qonusu yoxdur. Türkçülük məsələsi, İnsanlaşma yönündə düşüncələr ortaya qoyulmur, çözülmür, deyilmir. Düşüncə, İdeya olmalıdır, bu özüldür. Biz bu özüllər üzərində dayanırıq. Bu özüllər üzərində düşüncə yürüdürük. Özümüzü kökləyirik, özümüzü doldururuq. Ata ilə dolmasan, sözün olmur. Etiraz eləmək azdır, dəyişiklik.

Hər kəs elə düşünür, yalnız öz ailəsi qarşısında sorumludur. Mən ailə qarşısında sorumlu olmağı doğru sayıram. Ancaq hər kəsin ailəsi qarşısında sorumlu olması çox azdır, səhərdən-axşama qədər ailənin qarnına qulluq eləyəndə xalq yaranmır. Xalqın dəyərini, varlığını, gələcəyini də düşünmək gərəkdir. Sənin oğlun-qızın dünyaya gəlir.

Sənin toplumun sürüləşdirilibdir. Oğlun-qızın onun içinə gəlir. Sürüyə çevrilir. Neyləyirsən, sürü doğub törəyirsən. Heyvan gətirmə dünyaya. Əgər dünyaya övlad gətirmisənsə, onu insan elə. İnsan eləmək istəyirsənsə, ruhaniyyatla uğraşmaq gərəkdir, gödəni hər şeydən yüksəkdə tutma.

Bizə sovet filmləri göstərirdilər. Müharibədə insanların əlində beş tikə çörək olurdu. İyirmi, otuz adam oturub o tikəni bölürlər, bir-birlərinə verirlər. Bu bir filmdir, bəlkə də o dərəcədə gerçək həqiqət deyil. Ancaq bu, insan arzusudur, filmdə öz əksini tapır. Bir tikə çörəyi hamının yeməyə haqqı var. Hamı o bir tikə yemək üçün çöllərə dağılıb. Əlinə silah alıb müharibə aparır ki, vətənin vətən olsun, vətənində övladıyın gələcəyi olsun. Gedirsən güllənin ağzına ki, mənim ailəmin, xalqımın gələcəyi olsun. Ancaq ruhaniyyat səndən güllənin ağzına getməyi tələb eləmir. Ruhaniyyat səndən İnsaniliyə Bayraqdar olmağını istəyir. Əgər bu olarsa, savaşlar, qırğınlar bəşəriyyəti çörəksiz qoymaz. Ruhaniyyat səndən onu istəyir. Bu baxımdan deyirəm, əgər biz ayda bir, iki dəfə öz boğazımızdan kəsib, balalarımızın boğazından kəsib xalqın gələcəyinin boğazına qoymuruqsa, onda bizim balalarımızın gələcəyi nədir, mən bimirəm.

Bizim bu zəhmətlərimizin hamısı ruhaniyyatdır, İnsanlıqdır. Hətta bir məqamda insan özünü güllənin qabağına qoyar, vətəninin işğala uğradılmasına dözməz, – bu özü ruhaniyyatdır, gödəniyyət deyil, məişət deyil. Bu açıdan deyirəm, kimsə xalqın ruhani-mənəvi gələcəyini düşünmürsə, onun öz ailəsini düşünməsi məni inandırmır. İçdənliyinə inanmıram. O, heyvana çalışır. Heyvan kimi ömür sürür. Heyvan kimi “ailə” yaradır. Onun insana, insanlığa dəxli yoxdur.

Arzu ilə mübarizə məsələsini doğru anlamaq gərəkdir. Arzular tükənmir. İnsan qəlbinin gözəllikləri arzuda öz ifadəsini tapır. Sonra arzulardan əməllərə qonur. Əməllərə qonandan sonra həyat gözəl olur. Arzular əmələ qonandan sonra İnsani gözəlliklər yaranır...

Başqa bir qonu deyim: Vaxt var idi “göydə Allah, yerdə hökmdar” ifadəsi çox geniş şəkildə vurğu edilirdi. Roma imperiyası İsanı niyə qəbul elədi? O bilirdi ki, onsuz da hökmdarlığı yenə sürəcək. “Göydə Allah, yerdə hökmdar” tələbi var. Hökmdar Allahın yerdəki kölgəsidir. Ona Allaha qulluq göstərən kimi qulluq göstərəcəklər. Allaha

təzim edən kimi qarşısında baş əyəcəklər. Hökmdarlar ona görə dini qəbul elədilər. Dini xalqın içində qəbul edib öz ixtiyarlarına götürdülər. Bu gün də elədir. Azərbaycan iqtidarı niyə bu qədər hər şeyə göz yumur?! Din ona gərəkdir. Mütləqə İnam gərək deyil! Ona görə gərək deyil ki, Mütləqə İnam şəxsiyyətlər yetirir. Şəxsiyyətlər hökmdara baş əymir, hökmdarı xalqa baş əydirir. Sən bu xalqın qulluqçususan. Sən bu xalqın ağası, koxası deyilsən. Səni xalq qulluq üçün hakimiyyətə gətirir. Məni əymək üçün yox.

Böyük ürəklər var. Böyük ürəklərdə böyük hikmətlər yaşayır. Böyük hikmətlərə arxa çevirirsən, böyük ürəkləri əyirsən. Böyük ürəkləri əydiyin qədər həyat əyilir. Böyük ürəkləri əydiyin üçün həyat eybəcərləşir. Ona görə bir vaxtlar "göydə Allah, yerdə hökmdar" çağırışı hökm sürəndə Nizamilər – böyük şəxsiyyətlərimiz insan qəlbinin gözəlliklərini nəzmə çəkirdilər. Qadını bütə çevirirdilər. "Heyrət, ey büt", deyirdilər Füzulilər. Göylərə qaldırırdılar insanı qadının timsalında. İnsanı yerin, göyün, kainatın əşrəfinə çevirirdi. İnsana lağ edilən bir vaxtda, insan aşağılanan, urvatını itirən bir vaxtda poeziya, sənət, ədəbiyat toparlanırdı böyük dühaların qəlbində, ağlında, düşüncəsində. Dirəniş göstərirdi insanın əyilməsinə, əzilməsinə.

İndi bizim çağımızda hara baxırsan əyrilikdir. Hara baxırsan eybəcərlikdir. Niyə? – Çünkü əyriliklə, eybəcərliklə döyüş yoxdur. Poeziya döyüşmür, ədəbiyat döyüşmür, sənət döyüşmür. Ədəbiyatı qəlibə saldılar. Mən yazmışdım, "Yazıçılar Birliyi" sənətin qəbirstanlığıdır. Ədəbiyatı qəlibə saldı. Çinovnikləşdi ədəbiyat yaradıcıları. Hamısı hakimiyyətin köləsinə, kölgəsinə çevrildi. Xalqın üzərində hakimiyyətin möhkəmlənməsinə qulluq göstərdilər. Bunu yaratdılar. "Yazıçılar Birliyi" o işi həyata keçirir. Ona görə də böyük sənət yaranmır. Böyük ədəbiyat, böyük poeziya yaranmır.

Xalqın içində səslənən böyük poeziya olmalıdır. Poeziya birbaşa duyğulara etki göstərir. Poeziyada bədiiyyat var, lirika var. O duyğularladır. Mübarizədə duyğu böyüyüb idrakiliyə yetir. Ona görə böyük poeziya yaranmalı idi. Böyük sənət yaranmalıydı, xalqın döyüşən gücünə çevrilməliydi. Bu gün o yoxdur. Asif Atanın Ocağı, Onun

prinsipləri böyük sənət üçün, böyük ədəbiyat üçün böyük qapılar açır, böyük olanaqlar açır.

Burada mən bu məqamları ona görə vurğu eləyirəm, biləsiniz, bizim işimiz, mübarizəmiz yalnız din məsələsi ilə deyil. Həyat təkcə dindən oluşmur ki. Toplumsal yaşamı nizamlayan, gəlişməyə başlanğıc verən həm də adını çəkdiyim məsələlərdir.

Toplumsal yaşama etki göstərən məsələlərdən biri də ideologiyadır. O da yoxdur. Ya da milli strategiya deyirlər siyasi dildə. Milli strategiya milləti qabağa apara bilən dövlət proqramıdır. Dövlət şəxsiyyətlərin yetişməsinə yardımçı olmalıdır. Onların əməyi ilə yaşamı düzənləyən bütün sahələrin hamısı xalq ruhuna uyğun işlənməlidir. Milli strategiya budur. İstər təhsil, istər hüquq sistemin, istər siyasi sistemin, istər ideoloji sistemin, istər ruhani sistemin, fərq eləməz, nəyin olursa-olsun, bunların hamısı xalqın yaşam nizamını sağlamalıdır. Bax, milli strategiya odur. Yoxsa biz demirik, həyat ancaq ruhaniyyatdan oluşub. Biz deyirik, bunların hər biri ruhaniyyatın nizamında xalqa gərək olur. Poeziya, sənət ruhaniyyatın tələbidir. Milli ideologiya ruhaniyyatın bir tələbidir. Hətta dövlət siyasəti ruhaniyyatın bir tələbidir. Hamısı Ruhaniyyat əsasında nizam tapmalı, xalqa gərək olmalıdır. Asif Atanın yaratdığı Ocaq onunla uğraşır. Yetər, onu eşidən, yaşadan oğullarımız olsun.

Bayaq qardaşımız bir söz dedi – din son həddə gəlib, indi oradan aşağı meyillənir. Ora gəldi, bəs niyə bu gün də sürətlə dinə axın olur?! Min ildir bizim toplumumuzun içərisində din məzmunu var. Bizim toplumumuzun ağlı, düşüncəsi, varlığı dinlə nizamlanıb, dinlə qurulub, əyri, ya düz. Quruluşlar dəyişir. Biz sosializm deyilən bir quruluş yaşadıq. Buna elmdə ictimai-iqtisadi formasiya deyirlər. Sonra gətirdilər çıxartdılar kapitalizmə yenidən. Kapitalizmə qayıdış birdən-birə "bacarana baş qurban" prinsipiylə dünyanı talayanlar ordusu yaratdı. Kimin harda əlinə nə düşür qamarlayır. Harda düşdü aldadır, soyur, çalır, çapır, talayır. Korrupsiya deyirlər, rüşvətxorluq deyirlər, bu nədən yaranır?! – Ondan yaranır ki, insan tamahı dünyanı qapmağa meyillidir. İnsanda ruhaniyyat olmayandan sonra, söz yox, dünyanı qamarlamağa meyil eləyəcək. Dinə ruhaniyyat deyirlər. Din ruhaniyyatdırsa niyə əngəl olmur?! Din quruluşla dö-

yüşmür axı. Xristianlığın başlanmasından islamın başlanmasına qədər; İslamın başlanmasından çağımıza qədər bir dönəmdə, mənə göstərin ki, din Quruluşla döyüşüb. Döyüşməyib. Din də vardı quldarlıq dövründə, dövrün quldarları, qulları da vardı. Sadəcə olaraq, din özü qula qul müstəvisində hüquq axtarırdı. Qul olmaqdan azad olmurdu. Qul hara, insan hara. Yerin, göyün əşrəfi olan insanın, necə olur ki, sən basıb gözünü çıxarırsan. Onu plantasiyalarda özünə qul edirsən. Necə olur biri harınlayır, biri əzab-işgəncə çəkir?! Yaxşı, necə sən dinsən, necə ruhaniyyatsan, vicdan hara baxır bəs?! Vicdan hara baxır, sən oturubsan ağacın altında, sənin başının üstündə çətir tuturlar, qabağına piy qoyurlar. O biri orda, boz çöllərdə əzab çəkir günün altında. Bəs ruhaniyyat yoluna qoymalı deyildimi bunu?! Yoluna qoymadı axı.

Ya da götürək feodalizm çağını. Mən Quranı oxumuşam, ayələri araşdırıb yazmışam. Dinlə bağlı mənim qədər bəlkə də heç kim yazı yazmayıb. Feodalizm dövründə döyüşürdümü din?! Məhəmmədin ayələri feodalizm adlanan ictimai-iqtisadi formasiyanın tələblərini nizamlayırdı. Oxuyun o ayələri. Onu bu gün XXI yüzildə kapitalizmə tətbiq eləyirlər, alınmır heç nə. Çünkü o, feodalizm prinsiplərini ifadə eləyir. Ona görə də din əslində Quruluşun içərisinə girdi, Quruluşun içərisində əridi. Ancaq Asif Ata yeni Quruluş gətirir. Yeni sivilizasiya gətirir. Bu sivilizasiyanın adı insanlaşma sivilizasiyasıdır. İnsanilik erasıdır. Ona görə də Asif Atanın dünyagörüşü din deyil. Ona görə Asif Atanın ideyaları, prinsipləri haqqında danışanda biz ürəkli danışırıq.

Asif Ata deyir, bəşər tarixi qaralamadır, filosofları oxudum, gördüm onların fəlsəfələri insana gərək deyil. Gör, kim olmalısan, bu cür hünərlə, deyəsən, bu çağacan insana gərək olan fəlsəfə yazılmayıb. İndi mən də oxuyub sübut edirəm, gerçəkdən İnsan fəlsəfəsi yazılmayıb. Bu bizim həqiqətimizin harayıdır. Hansısa filosof sübut eləsin ki, gərəkdir. Mən də sübut edəcəm, gərək deyil. Asif Atanın ölçüsünü qoyuruq ortaya, buyurun öyrənin. Sən də mənə deyirsən, Asif Atanın dediyini ondan öncəkilər deyib. Harda deyib, kim deyib?! Deyin, gedək əlindən tutaq. Deməyib! Mən bunu öyrənib deyirəm deməyib...

...Dinin işi qaldı Quruluşun içində. Quruluşla mübarizə aparmadı. Asif Atanın işi isə təkcə dinlə mübarizə deyil. Din Quruluşun bir çalarıdır. Asif Ata bütövlükdə Quruluşla mübarizə aparır. Onun "Ruhani cəmiyyət" idealı var. Deyir, nə kapitalizm, nə sosializm. "Ruhani Cəmiyyət" idealının da özül prinsiplərini qoyur ortaya. Mən indi burda açmaq, bir tədbirdə sizi yükləmək istəmirəm... Adamlara bəzən elə gəlir, Asif Atanın işi elə yalnız dinlə döyüşməkdir. Dedik ki, Asif Ata bütövlükdə Quruluşla mübarizə aparır. Ancaq siyasət biçimində aparmır, Ruhaniyyatla aparır.

Qardaşımız bayaq deyir, insanların ömründə axtararsan, yalansızlıq tapa bilməzsən. Ancaq bu o demək deyil insan ömrü yalansız keçinə bilməz. İnsan ömrü yalansız olmalıdır. Yalanı silmək gərəkdir ömürdən. Yalanı silmirsə, qəlbində, duyğularında, düşüncəsində yalan daşıyan insan vətən uğrunda düzgün düşünə bilməz. Demirəm mübarizə apara bilməz, mübarizə böyük söhbətdir, düşünə bilməz. Millətin gələcəyi haqqında doğru düşünə bilməz. Ona görə insan ömrü yalandan çıxmalıdır. Asif Atanın "Özüylədöyüş" prinsipinin əsas bəndi ömürdən yalanı silməkdir. Ona görə yalansız ömür çox fərəhlidir. Hər zaman amaldaşlarım zəng edib məndən soruşur, necəsən? Deyirəm əlayam. Mən bunu söz xatirinə demirəm, doğrudan əlayam. Mən çox fərəhliyəm. Çünkü içimdə fərəhimi azalda biləcək yalan saxlamıram. Döyürəm, döyüşürəm.

Bayaq dediniz, Mütləqə İnam dünyaya din kimi yayılsa nə baş verər? Öncə onu deyək, Mütləqə İnam dünyaya din kimi yayıla bilərmi?! – Bilər. Necə bilər?! – Baxın, məscidlərdə nə danışırlar?! – Başından axıra qədər müqəddəslik donu geydirilmiş, ruhanilik donu geydirilmiş yalan danışırlar. Allah-insan münasibəti yalandır. Dinə görə Allah doğaüstü (fövqəltəbii) qüvvədir. Transendentaldır, insan zəlildir, balacadır, əzəli günahkardır. Adəmlə Həvvanın törəməsi olduğuna görə, çağında Allahı eşitmədiyinə görə, qələt iş tutduğuna görə günahkardır. Dinə görə biz də Adəmlə Həvadan törəmişik. Axı bizim ulu babamızla ulu nənəmiz Adəmlə Həvva günahdan çxmadı. Günahdan çıxmayıbsa, biz onun gen daşıyıcılarıyıq, deməli, biz günahkarıq. Baxın, müqəddəslikdən danışasan məsciddə, durub qırmızı-qırmızı insanın gözünün içinə baxıb yalan danışasan, özün də

danışdığın yalana inanasan. Molla danışdığı yalana inanır özü. Özünü inandırır. Bir dəfə, beş dəfə deyir, deyir, axırda özünü inandırır. Yalan danışa-danışa müqəddəsliyi yaşada bilməzsən. İnsan qəlbinin gözəlliklərini üzə çıxara bilməzsən. Mən yalan danışa-danışa gözəl əhvallar sərgiləyə bilmərəm. Səni sevə bilmərəm. Mənim sevgimə necə bel bağlaya bilərsən ki, mənim (İnsanın) varlığım, nəfəsim yalandır. Ona görə müqəddəslik ünvanı bilinən məscidlərdən dünyaya yalan yağır. Bax, biz sadə insanıq, deyək ki, Məscidlə işi olmayan. Ancaq ruhaniyyatın bilicisi, başbiləni sayılan, məsciddə oturan molla bütün kütlə üçün etalondur. Doğruluq etalonudur guya. Toplum doğrunu hardan öyrənir?! Gedir məscidə, çünkü kütlə üçün məscid doğruluq ölçüsü sayılır. Halbuki kütlənin üz tutduğu, güvəndiyi Allahın evində – məsciddə başdan-ayağa yalan var. Küfr var, xəyanət var. Ona görə də toplum o məsciddən başlayan yalana bürünüb. İndi biz Məbəd tikirik. Məbədin içində oturub nədən danışaq?! Biz də əgər toplumun gözünün içinə baxıb, həqiqətdən danışmayıb yalan danışsaq, hara gedib çıxmaq olar?! Əslində həqiqətdən heç danışa da bilməzsən, əgər için həqiqətlə dolmayıbsa. Həqiqət haqqında eşitdiyin ayrı-ayrı nələrisə danışa bilərsən, həqiqəti danışa bilməzsən. Alınmaz. İnsan ruhani çağırışı qəlbinin harayı kimi deyir. Qəlbində həqiqət olmayandan sonra nə deyəcək?! Ona görə də Məbəddə oturub həqiqətin adından danışsaq, özüylə məşğul olmasaq, özüylə döyüşməsək, yalandan açılmarıq, yalnız bəlağətli düşüncələri sərgiləyərik. Bu da olar “Məbəddə oturanın dediyini elə, elədiyini eləmə” məsəli. Bu elə dindir. Nə eləyirsən elə, hansı ideyanı ortaya qoyursan qoy, bu elə dindir, özü də ən pis səviyyədə. Yəni toplum o səviyyədə qala bilər. Ancaq burada mənim ümidim var, mən deyirəm İnam din olmaz. Siz də deyirsiniz olmaz. Mənim ümidim onadır, məscid insan idrakını qapayır, Mütləqə İnam insan idrakının sonsuz olanaqlarını açır. Məsələ bundadır. İnsan idrakının olanaqları üzə çıxdıqca, insan doğruyla yalanı bəlirləyə bilir. Həqiqətlə həqiqətsizliyi bəlirləyə bilir. Gözəllə çirkini bəlirləyə bilir. Gözəli tanıya, sevə bilir. İdrak odur. Boş-boşuna, quru-qurusuna inanmırsan. Naşı inam deyil sənin inamın. Sənin inamın müdrik inamdır. Buna görə də inam özü idraka, həqiqətə əsaslanır. Həqiqətlə

yüklənir. Bax, ona görə o Məbəd ki, həqiqət izhar eləyir, o Məbəddən dünyaya yalan yayıla bilməz. Ona görə mən düşünürəm, hətta yüz il bundan sonra, iki yüz il bundan sonra Asif Ata təkcə Azərbaycanda deyil, bütün planetə yayıla bilər. Ancaq dediklərimiz olmasa, din kimi yayıla bilər. Mən sizi əmin edirəm, mən öz inandığımı sizə deyirəm, bəşəriyyət Mütləqə İnama din səviyyəsində deyil, İnam səviyyəsində tapınacaq. Çünkü bəşəriyyət yalan üstə yaşamaqdan bezib. O yolu tanıyandan sonra deyəcək, idraklı həqiqət gərəkdir. Əsas odur, İşığın yolunu qapama. Asif Ata bizim idrakımızın gözünü açır. Bəşəriyyətə idrak üfüqləri göstərir. Başını salla, otur otla demir. Din onu deyir. Allahla işin olmasın, onun işinə qarışma. Ancaq Mütləqə İnam deyir, mən gəldim ki, İnsan Allahın sirrinə vaqif olsun. Din deyir Allahın işinə qarışma, o sənin ağlının işi deyil. Asif Ata isə deyir, Allahın sirrinə vaqif olmalısan. Onda sən gözəllikləri dərk eləyəcəksən. Allahın sirrinə vaqif olmayacaqsansa, bilməyəcəksənsə, hər şey səninçün bağlı, qapalı qalacaqsa, onda nə biləcəksən gözəl nədir, çirkin nə?! Bax, Mütləqə İnam ona görə din ola bilməz. Mənim ümidim onadır, Atanın Yolu idrak korluğu yaratmır, idrak kamilliyi yaradır. Ona görə yaşasın Ata!

## *Uluyol-Hünər Ailəsinin Ailə Günü*

*(20 İşıq Ayı, 36-cı il)*

Mən sizin çıxışlarınız üstə söz demək istəyirəm. Hesabatımı 15 İşıq Ayında "Atagün" Ailəsinin "Ailə Günü"ündə vermişəm.

Öncə Ailəçinin özü haqqında sözü. Nəyə hazır olmaq doğrudur?! Ailəçilər Ailə Günlərində son çağlar təkcə özləri olmurlar. Hər zaman qonaq olub, 3 adam, 5 adam. Ailəçilər sözlərini ən çox gələnlərə hesablayıblar. Gələnlərə hesablamaq düz deyil. Bu gün sizin Ailənin iki qonağı var – biri mənəm, biri də bu xanımdır *(Yasinin qohumunu göstərir – N.A.).* Bununla belə, Ailə Gününün söhbətlərini gələnlərə hesablamaq olmaz. Mən bunu "Atagün" Ailəsində də demişəm, "Ulufərəh" Ailəsində də demişəm. Əgər məsələ bireyin özünü yaratmasıdırsa, əgər məsələ özüylə döyüşü düzgün yönəltmək, ömrü

Amala yetirməkdirsə, onda bütün söhbətlərin hamısı Ailə Gününün tələblərinə uyğun olmalıdır. Ola bilər, elə sözləriniz var, bunları qırağa çıxarmaq istəməyəsiniz. Bu, sizin haqqınızdır. Ancaq başlıca olaraq, özündən gizləməmək, elə qonağından da gizləməmək, çəkinməmək gərəkdir. Şəxsiyyətin yaranması bəlli anlamda, elə çox anlamda özünə amansız yanaşmaq tələb edir. Demirəm, özüylə-döyüş gündəliyinin bütün yazılanlarını açıb-tökmək olar, yox. Yenə deyirəm, kimsə "qırxıncı otağın qapısı"nı açmaq istəmirsə, bu, onun danılmaz haqqıdır.

Ailəçilər arasında qutsal bağlılıq, doğmalıq olmalıdır. Sizin uğurunuz odur ki, hər ikiniz ayrı-ayrılıqda suçu özünüzdə görürsünüz. Ancaq münasibətlərdə qırağaçıxmaları özünün suçu kimi boynuna almaq azdır. Həm də suçdan qurtulmaq gərəkdir. Sonrakı aşamalarda o suçu davam eləmək olmaz. Mən həmişə Amaldaşlarımı özümdən qorumuşam. Özümdən qorumuşam o deməkdir, mənim tələblərim ödənə də bilir, ödənməyə də bilir. Mənim tələblərim ödənməyəndə onlara qarşı kobud davranmayım. Söz yox, nə yaxşı olar, daim intizam olsun, dəqiqlik olsun. Özüylə döyüş zəif gedir. Şəst var. Şəsti qırmasan artmayacaqsan. Şəst balaca mən deməkdir. Həmən balaca mən sənə balaca əhvallar diktə edir. Gör sənin içində balaca mənin gücü hara kimidir, öyrənmək gərəkdir. Mən sizin hər birinizin bütün duyğularınızı aça bilərəm. Siz özünüz açmalısınız. Mən bu duyğuları sizinlə təklikdə aça bilərəm. Ancaq siz özünüz öz duyğularınızı, daha doğrusu, qüsurlarınızı, hamının yanında açmalısınız. Mən hər kəsi ona görə aça bilərəm, özümü aça bilirəm. Özümü tanıdığım qədər hamını tanıyıram.

Bütün bunlarla yanaşı insanı bir məqama, suça bərabər götürmək də olmaz. Mən sizi suçlamıram, Ocaqçılıq umuram. Sizin hər birinizin üstün keyfiyyətlərinizə də bələdəm, bağlıyam. Məsələn, Nurtəkinin Ocaqda 18 illik qurbanları var, fədakarlıqlarının əvəzi yoxdur. Ən çətin durumları yaşayıb. Bu boyda ağrılarla, acılarla vətəninə, millətinə, insanına, xalqına sevgi izhar edib. Bunu gözardı eləmək, eləyəni böyük Amallara çatdıra, kamilləşdirə bilməz. Sorumluluq adama ayrı şeylər deyir. Ona görə də özünü həryönlü öyrənmək, tanımaq doğrudur.

Yasinin dövlətlə bağlı sualına gəlincə. Dövlət anlamca qutsaldır. Dövlət siyasi yönəticilikdir (idarəetmədir). Ancaq mahiyətindən çox ayrılıb. Asif Atanın "İdeal" əsərində məsələ belə qoyulub, dövlət ruhaniləşməlidir. Ruhaniləşməlidir, yəni insani qanunlarla yönətilməlidir. İnsani qanunlarla yönətən dövlət qutsaldır. Dövlətin yerinə yetirməli olduğu funksiyalar var. Yerinə yetirdiyi funksiyanın təyinatı qutsaldır. Qorumaq qutsallıqdır. Yönəltmək, xalqı "Birlik"də saxlamaq qutsallıqdır. Dövlət İnsanı, İnsanlığı, mədəniyyəti, dəyərləri qoruyur. Qorumaqla insanlar bir araya gəlir. İnsanlarda sevgi, doğmalıq, gələcəyə ümid yaranır. Doğmalıq, sevgi, ümid, bir sözlə, dövlətin qulluğundan yaranan insani nə varsa qutsaldır. Dövlət dünyəvi yox, ruhani olmalıdır. Bununla belə, indiki dünyəvi dövlət biçimi üçün belə demək olar, bir var dövlətin özünün yerinə yetirdiyi görəv, bir də var dövlətin qulluğunun sonucu. Dövlət görəvini yerinə yetirərkən inzibati davranır. Ancaq xalqa göstərdiyi qulluğun sonucu qutsaldır. Dini anlamda ruhani yox, insani qanunlarla yönətilən dövlətin yönətməsi özü qutsaldır. Dövlət inzibati funksiyalarını qırağa qoymayacaq. Niyə qoymayacaq?! Dövlətin funksiyaları var. Ata deyir, dövlət bireyi toplumun basqısından, toplumu bireyin zorakılığından qorumalıdır. Bundan ötrü dövlətdə inzibatçılıq olmalıdır. İnzibatçılıq nədə özünü göstərə bilər?! Bütövlükdə toplum sənin arzuladığın kamil şəxsiyyətlər deyil axı. Bunun içində adamı da var, məxluqu da var. Bunlar varsa, o deməkdir, dövlətdə inzibatçılıq qalmalıdır. Əgər biz deyiriksə, vətənimizi qorumalıyıq, əgər biz deyiriksə ki, torpağımızı azad eləməliyik, sən mənə deyə bilməzsən, mən ruhaniyyatçı ola-ola, niyə savaş istəyirəm. Savaş istəmirəm. Ancaq mən bu vətəni qorumalıyam axı. Vətəni qorumaq üçün döyüşməliyəm. İnsanlaşma ideyasının varlığı o demək deyil ki, qurdla quzu yanaşı otlayacaq. Doğuluş var, yaranış var, yeni doğulanlar var. Yeni doğulanlar anadan kamil doğulmayacaqlar. Onlar doğadan, gendən gətirdikləri qüsurları ilə gəlirlər. Biz heç nəyə mücərrəd yanaşmırıq, xülyəvi yanaşmırıq. Biz dünyanın gedişinin dəyişməsini istəyirik, insani münasibətlər uyumunun yaranmasını istəyirik, həyatın dəyişməsini istəyirik. Ancaq biz özümüzü aldatmırıq. Biz demirik adamlıq olmayacaq...

Bu gün Azərbaycan ortamını götürsək, hamı acınacaqlı, qorxulu şəkildə dinə qaçır. Niyə qaçır?! Çünkü quruluş, pulçuluq, kapitalizm elə bir amansız biçim alıb, burada insanlar arasında kəskin çəkişmələr (rəqabət) gedir. "Bacarana baş qurban"… Qamarlayan qamarlayanın, dağıdan dağıdanındır. Ona görə də aclıq, səfalət artıb, ədalət yoxdur, vicdan yoxdur, ləyaqət yoxdur. Başqasının haqqını görmək yoxdur. Ona görə də insanlar düşdüyü acınacaqlı durumdan dinə qaçırlar. Ədalətsizlikdən qaçmaq üçün gedib dindən yapışırlar. Əslində amansızlıq insanları dinə doğru aparır. Din də nicat vermir axı. Hamı qaçıb gedir, dizini yerə qoyub namazını qılır. Mübarizə aparmır axı. Mübarizə aparılsaydı, onda başqa əhvallar ortaya çıxardı. Onda kapitalizm quyruğunu qısardı. Xalqı talayanlar, məhv eləyənlər düşünmək zorunda qalardılar. Din heç bir vaxt quruluşla mübarizə aparmayıb. Nə quldarlıq dövründə quldarlıqla mübarizə aparıb, nə feodalizm quruluşuyla mübarizə aparıb, nə kapitalizmlə, nə sosializmlə. Tərsinə, bütün hallarda din həmin quruluşların içində əriyib. Həmin quruluşlara tabe olub, onlara uyğunlaşıb. İsanın bir çox tələbləri quldarlıq quruluşunun tələbləri idi. Qurandakı ayələr feodalizm qanunlarının tələbləridir. Ailə məsələsi, qənimət bölmək məsələsi i.a. hamısı quruluşun içindəydi. Bu gün bir din xadimi göstərin ki, o, açıq şəkildə quruluşun eybəcərliyinə qarşı mübarizə aparır. Bir nəfər göstərin ki, kapitalizmə qarşı söz deyir. Əslində dinin başında duranlar kapitalistdirlər, pulçudurlar. Pullarını balta kəsmir. Ona görə quruluşun xətrinə dəymirlər, quruluşu qoruyurlar. Sadə insanın qaçıb namaz qılmasıyla deyil. Dinin başında duranların hamısı səni talayanların yanındadır. Onlar ortaqdırlar. Bunları dərk eləmək gərəkdir. Durumu düzgün dərk eləmək, düzgün dərk elətdirmək gərəkdir. Həqiqəti demək gərəkdir. Bizə görə bu gün Həqiqət Asif Atanın ideyalarındadır. Həqiqət bizim yarağımızdır. Bizim yarağımız insanlığı öldürmür, Şəri öldürür. Bizim yarağımız şərə qarşı tuşlanıb. İnsanların içində, qəlbində daşıdıqları şərə qarşı tuşlanıb, insanlara qarşı tuşlanmayıb. Tərsinə, insanların qurtuluşu üçün yiyələnmişik bu yarağa. Quruluş, kapitalizm, din, siyasət, ideologiya bunların hamısı birləşib insana qarşı. Siyasi ideologiya demokratiyadır. Demokratiya nədir – hərcayilik. Demokratiya nədir – dünyanı

aldatmaq. İnsanın başının altına yastıq qoymaq. "Söz azadlığı" oyunu. O nə söz azadlığıdır ki, balaca kibrit çöpünü də kəsmir. Kəsəri yoxdur. Sözün azadlığı insanların qəlbinə etki göstərməsindədir. Həqiqəti ürəklərə çatdırmaqdadır. Sən onu hər an vurursan. Hər an o Sözü eşitməz edirsən. Balacaları həqiqi sözə qarşı qaldırırsan. Necə azadlıqdır bu. Hər kəs kompüterin qabağında oturub minlərlə informasiya toplayır. Deyir, mənim də öz ağlım var, öz biliyim, öz düşüncəm var. Görürsüz televiziyaları, tok şou aparanları. Orda həqiqətmi var, əxlaqmı var? Orda dəyərmi var, mədəniyyətmi var, nə var orda?! – Qara-qışqırıq, həşir var. Bəs mənim yerim hardadır televiziyada. Televiziyanın olanaqlarından yararlanıb xalqıma, onun insani dəyərlərini tanıdan söz demək istəyirəm. Sevgimi, ərkimi bildirmək istəyirəm. Hanı bəs mənim üçün bu olanaq?! "Azadlıq" sözü alçaldılır əslində. Bayağıların, pulçuların, azğınların ağzında səslənən "azadlıq" sözü azadlığın alçaldılmasıdır. Xalqın hakimiyyəti yalan sözdür. Heç yerdə xalqın hakimiyyəti yoxdur. Xalqınmı hakimiyyəti idi Misirdə Mursi?! Tutub içəri saldılar. Xalqın içindəydi, xalqın qabağına düşmüşdü. Həmin xalq üsyan qaldırdı, onu içəri saldılar. Xalqınmı hakimiyyəti idi İraqda Batının hakimiyyətə gətirdiyi Tələbani?! Padşah gətirib qoydlar İraqa. Xalqın nümayəndəsiydi o? Yuşşenko, Timoşenko xalqınmı nümayəndələri idilər?! Hər şey bayağılaşıb. Hər şey kapitalizmin ixtiyarındadır. Bizi aldada bilməzlər. Quruluş içinə alıb hər şeyi. Din də, demokratiya da, siyasət də kapitalizmin boyunduruğundadır. Hamısı kapitalizmi, pulçuluğu qoruyur. Nə eləyirsən elə, Quruluşa dəymə. Quruluş dəyişmir. Quruluşun başından bir tük də düşmür. Demokratiya yaxşı bir şey olsaydı, kapitalizm çoxdan əlinin arxasını yerə qoymalıydı. İnsan ləyaqəti çoxdan azadlığa çıxmalıydı. Çoxdan bərabərsizlik aradan qalxmalıydı. Səfalət, aclıq çoxdan aradan qalxmalıydı.

Milyardlarla pulu qıraq dövlətlərin banklarına yığırlar. Bütün ölkələrdə, tək bizdə deyil. Gizlədirlər, torpağın altında basdırırlar, gözünün qabağında isə küçədə insanlar acından ölür. Hamısı yığdığı, topladığı, taladığı var-dövlətə görə bəraət alır. H.Z.Tağıyev haqqında nə deyirlər – xalq atası. Xalqın malını taladı, oldu xalq atası. Hardasa lisey tikdirdi. Nəylə tikdirdi? Dədəsinin varidatıylamı tikdirdi? Xalqın

malıydı. H.Əliyev yüz dənə körpü tikdirdi. Nəyin, kimin hesabına tikdirdi?! Dədəsinin mülkündənmi gətirmişdi pulu?! Xalqın puludur hamısı. Tikdirir ki, mənimsəyə bilsin. İnsanlar belə şeyə ağız suyu axıdır hələ də. Ocaq mübarizə aparır. Hər şeyə qarşı. Hər bir eybəcərliyə qarşı.

Ailəçilər bu səviyyədə daim öz içini kökləməlidir, mübarizəsini gerçəkləşdirməlidir.

Qarşıda bizim sanballı tədbirlərimiz var. Ocaq mərasimləri gəlir, Ocağın səfəri var. Sevgiylə, ürəklə hazırlaşmaq gərəkdir. Asif Atanın səsi nə qədər qulaqları, könülləri doldursa, xalqın içi bir o qədər bitəcək. Uğurlar arzulayıram. İçdən hazırlaşmaq, yaşamaq gərək. Xalqıyın fəlakətlərini dərk edirsənsə yaşa. Yaşayan yaradır, yaşamayan yox. Boğazdan yuxarı heç nə yaşamır. Yaşamayan yorulur. Mübarizə asan bir şey deyil. Özəllikcə ruhani mübarizə. Çünkü ruhani mübarizədə işin sonucu, sonu görükmür. Bunun çətinliyini fərəhli bir yaşamla yenmək olar.

**Özünə suallar gündəliyindən:**

**Sual:** *Ruhani toplantılarda elmi söhbətlərin aparılması önəmlidirmi, zərərlidirmi? Ya da önəmi nədir, zərəri nə?* – Ruhani toplantılarda ruhaniyyatla bağlı söhbətlər getməlidir. Bununla belə Ruhaniyyat elmi məntiqi də dışlamır. Elmli Ocaqçıların sözünün kəsəri, dəyəri elmsizinkindən çox olacaq, söz yox. Ancaq elm də gərək azdırmasın. Elm yola işıq da tuta bilər, zərər də verə bilər. İstənilən halda, elm ruhaniyyatın qabağına keçməməlidir. Bu məsələdə elm bizim yönətiçimiz deyil, yardımçımızdır. Necə deyərlər, ruhaniyyat ünvanı alim olmaq yeri deyil, insan olmaq ünvanıdır.

**Sual:** İnsanlıq nədir? – Mənəviyyat, vicdan, vətənsevərlik, dostluq, qanacaq... Bəs Dünyalıq nədir? – Bu suallar dərin araşdırma tələb edən suallardır, mən çalışmışam qısa da olsa aydnlıq gətirim.

Dünyalıq təbiətin təbiətdən artıq mənasıdır. Dağın dağdan, çayın çaydan, yerin, göyün özündən artıq mənasıdır, mahiyətidir. O Mənanı, Mahiyəti görən insandır. Dağ, çay özü bunu görmür, görən insandır. Elə buna görə İnsanlıq özü Dünyalıqdır. Ancaq Dünyalıq insanın onu görüb görməməsindən asılı deyil. Bu var, insan bunu

görüb dəyərləndirsə də, dəyərləndirməsə də. Var ki, o məzmun, o məna tükənmir. Daim yenilənir.

Özümə gündəlik olmasa da, ay içində onlarca suallar verirəm. Dünyalıq məsələsi əslində bu vaxta qədər dinlərin insana verdiyi, hətta sırıdığı da demək olar, Allah məsələsinin həqiqi anlamıdır. Mütləq nədir?! – Dünyalığın dəyişməzlik, sonsuzluq adı. Yəni Dünyalıq Əzəlidir, Əbədidir, Kamildir, Sonsuzdur. Din o Mənanı axtardı, onu təhrif elədi, ona adamabənzər keyfiyyətlər verib Allah adı qoydu. Bizim dediyimiz Mənaya yox, Allah adını ayrı şeyə qoyub. Dünyalığı dünyadan ayırmaq olmaz. Doğaüstü eləmək olmaz. Dünyalıq, Həyatlıq, İnsanlıq adlanan hər bir anlayışın bireysəl xüsusiyyətlərini anlamaq, dərk eləmək gərəkdir. Bütövlükdə İnsanlıq, Həyatlıq özü Dünyalığın bir cəhətidir. Dünyalıq vahiddir, bütövdür. Biz deyirik Mütləq olanın Dünyalıq, Həyatlıq, İnsanlıq adlı təyinləri var. Aydınlaşdırılası, öyrəniləsi, araşdırılası təyinləri var. Yer planeti bütün dünyanın çox balaca bir parçasıdır. Ancaq önəmli bir parçasıdır. İnsan bütün bəşəriyyətin bir parçasıdır, ancaq önəmli bir parçasıdır. Bu vəhdətdə, ilişkidə dediyimizi öyrənmək, dərk eləmək mümkündür. Bu baxımdan Dünyalıq deyəndə onu daha geniş götürmək gərəkdir. İnsanlıq insanın daşıdığı mənəvi keyfiyyətlərdir – mənəviyyatdır, insansevərlikdir, həqiqətsevərlikdir, əxlaqdır, vicdandır, ədalətdir. Bir də var Həyatlıq – doğuluşla, yaranışla təzahür edən Məna. Doğuluşun, yaranışın üzərində biçimlənən nizam, gediş. Xalqlararası münasibətlər, insanlararası münasibətlər. Dünyanın nizamlanması, gedişi, dövlətin yaranması, toplumsal münasibətlərin bəlli yöndə nizama düşməsi, dövlətin prinsiplərinin yaranması, dövlətlərarası münasibətlər i.a. Ya da təbiət-insan münasibəti, bütün bunlar hamısı Həyatlığın təzahürləridir. Məsələn, təbiətdə baş verən olaylar, istər canlı, istərsə cansız aləmdə baş verən olaylar Dünyalıq mənasının təzahürləridir, görsənişləridir.

**Göylünün** sualı: Materiya zaman etibarilə daim dəyişir, bəs sabit olmayanı necə dərk eləmək olar? – Aydınlaşdıra bilmədiyim nədir – materiya gerçəklikdir, yəni sabit olmayan gerçəklikdir. Sabit olan, yəni dəyişməyən isə Mənadır.

- Gerçəklikdə hər şey dəyişilir. Biz bir şeyi dərk eləmək istəyirik. Konkret olaraq, materiyadan gedirsə söhbət, dərk eləmək üçün sabit olan gərəkdir ki, dərk eləyək. Gerçəklik dəyişən bir şeydir, sabit deyil ki, araşdırasan, ölçü götürəsən. Daha konkret mənada ağac bitir, ölür, dağ yaranır, uçur, yəni əbədi deyil. Materiya daim dəyişilir. Dəyişiləni dərk eləmək nə deməkdir?! İnsanlığı insanda dərk edirsən. Materiyanın özü dəyişilir, ancaq yoxluğa çevrilmir. Niyə yox olmur?! Çünkü dəyişilənin özülündə Dəyişməz Mahiyət var. Dəyişməz mahiyətə istinad edirsən. Dağlıq adlanan bir məna var, bu mənanın yaranış nizamı var. Planetin özündə dağyaranma prosesi, nizamı var. Dağ yaranacaq. Təbiətin özündə proses gedəcək, yenə dağ yaranacaq. Təbiətin özündə sabit mahiyət var, o dəyişmir, yenə dağ əmələ gəlir. O dəyişməz mahiyəti tanıyırsan, onun əsasında öyrənirsən. Məsələn, bədən də bir materiyadır. Bədən-ruh birliyində bədən cansızlıqdan çıxır. Ruhu qırağa qoysaq, ölü bir bədən olur. Biz insanlığı necə dərk edirik?! Bu ölü insana tamaşa elə görüm bu mərifətlidirmi, qanacaqlıdırmı, vicdanlıdırmı, ədalətlidirmi, bilmirəm axı. Nədən biləcəm?! Davrananda, münasibət ortaya qoyanda ifadə eləyir özünü. Materiya mənanı ifadə eləyir ki, o ifadədə mənanı dərk edirəm. Üzdə təkəbbür yerinə saflıq, ülvilik görürsən, doğmalıq görürsən, başa düşürsən ki, bu adamın daşıdığı kefiyyətlər insani keyfiyyətlərdir. Bu adamda pis cəhətlər görmürəm, ya da görürəm. Mahiyətinə bərabər yaşamırsa, xarakterinə uyğun yaşayırsa, onda pis cəhətlər ortaya çıxır. O pis cəhətlər davranışında, münasibətlərində özünü göstərir. Davranışlarından bilirik ki, pisdir, əyridir i.a.

Bir var ümumi insanı tanımaq, dərk eləmək, bir də var bireyi tanımaq, dərk eləmək. Bireyi daşıdığı xarakterə görə bilirsən – pisdir, yaxşıdır, ümumi insanı isə tarixdə, dünyada, həyatda təzahür edən mahiyətinə görə, ayrı-ayrı şəxsiyyətlərdə üzə çıxan insani münasibətlər uyumuna görə.

**Göylünün** sualı: Həvəs ruhaniyyatda hansı rolu oynayır, ya da belə deyim, həvəs hara qədərdir? Belə düşünürəm ki, həvəs stimuldur, bir yerə qədərdir. İdrakdan qidalanmırsa, yarımçıq olur. Bəzən bizə də deyirlər, sizinki də həvəsdir, keçicidir. Ailəmdə də Ocaqla bağlı demişdilər ki, həvəsdir, keçib gedəcək. Məsələ burasındadır ki,

15 il həvəs olmur. Bu illərə qədər gəlmək varsa, o həvəs artıq eşqə çevrilib. Hər külək yerindən əsdirə bilməz.

**-** Həvəs – maraq. Bunlar yaxın anlayışlardır. Həvəs – sənin doğru bildiyin, sandığın bir şey nəysə, özünü onda ifadə eləmək istəyirsən. Bəlli bir yetənəyin var. O yetənəyi üzə çıxartmaq istəyirsən, ifadə eləmək istəyirsən, gerçəkləşdirmək istəyirsən, bu gerçəkləşdirmə üçün baş qaldıran əhval həvəsdir.

Var bioloji, fiziki yetənək, var ruhani yetənək. Fiziki-bioloji yetənəyi ifadə edə bilərsən. Ancaq ruhani olanaqlarını yalnız həvəs göstərməklə üzə çıxara bilmirsən. Bunun arxasında artıq idrak dayanmalıdır. Onu dərk eləyəsən, anlayasan. İş artıq həvəslə aşmır. Elə ki Həvəs idraklanır, idraki səviyyəyə çatır, onda həvəs olmur, ötür həvəsliyi. İdraki səviyyə ilə dolur, böyük addımlara çevrilir, böyük vurğunluğa çevrilir. Burada artıq eşq olur, sevgi olur. Məsələn, var həvəskar şairlər təbiətə baxır, çiçəyə baxır, şeir yazır, ya da bir sıra adamlar özünü hal əhli, sufi sayır. Özünü hal əhli saymaq həvəsdir, bu, aqibət deyil, yaşamaq deyil. Həvəs bəlli çalarlarıyla özünü necəsə göstərir. Bir də var Şəms. Şəms "dəli" idi. Özü ilahi bir səviyyədə idi, mürşid idi. Təbrizdən durub Konyaya gedir ki, mən özümə mürşid axtarıram. Qarşısına nə qədər adamlar çıxır, deyirlər bizi müridliyə götür. Cavab verir: mən mürid axtarmıram, mürşid axtarıram. Rumini tapır. Guya Rumiyə mürid olur, əslində Rumi ona mürid olur. O, Rumini böyüdür, qaldırır dağa. Rumi Şəmslə görüşəndən sonra Mövlana səviyyəsinə yüksəlir. Bunlar həvəslə mümkün deyildi. Həvəslə Təbrizdən Qaradağa kimi getmək olar, Konyaya getmək olmaz. Ona eşq gərəkdir. Dəlilik, divanəlik, içəridə başqa əhvallar gərəkdir. Həvəs balaca ölçüdür. Həvəslə başlayırsan. Ata deyir, həvəs qabiliyyətin qasididir. Həvəs varsa, demək qabiliyyətin var. Üzə çıxarmaq gərəkdir...

Həvəskar şair yox, duyğulu, idraklı şair olmaq gərəkdir. Təbiətin sənə verdiyi azdır, onun üzərində yüksəlmək, inkişaf etmək gərəkdir. Böyük bir aşama başlanır bundan sonra. Ruhaniyyatda yüksək əhvallar olur. Həvəs, maraq Ruhaniyyata qədərdir. Maraq da odur ki, sadəcə bilmək istəyirsən, burda nə var. Marağı, həvəsi ötmədən Ruhaniyyatçı olmaq mümkün deyil.

**Göylünün** sualı: Hamıdan fərqli yaşamağın fərqi nədir, tələbləri necədir?

– Hamı bugününü düşünüb yaşayır, Ocaqçı ulusunun, bəşərin sabahını düşünüb yaşayır. Hamı sosial, maddi durumun yaxşılaşmağına köklənib. Ocaqçı ruhani aqibətini qurur. Hamı yalansız yaşamağı ağlına sığışdırmır. Ocaqçı yalanı lənətləyir. Bu sıranı artırmaq da olar. Hamıdan fərqli yaşayan lokomotiv olur, ölçü olur. Ona görə də gərək elə yaşayasan ki, insanlar səndə aldanıb sarsılmasınlar.

**Sual:** Şəxs ruhani şəxsiyyət olmaq istəyində səmimi olduğunu necə bəlli edə bilər?

– O vaxt bəlli edir ki, ruhani tələblərlə yaşamağı öyrənir. Nəylə bilim ki, dəyişmək istəyirsən?! Bunu o vaxt bilərəm ki, davranışın dəyişir, əxlaqın dəyişir, düşüncən dəyişir. Dəyişmirsə, sadəcə sözlə ifadə edirsənsə, bir sözlə, yaşamırsansa, səmimiyyətə inandıra bilməzsən.

Mənim Ataya niyə səcdəli münasibətim var?! Çünkü bir cür düşünüb başqa cür yaşamır. Nə özünü aldadır, nə də başqalarını.

**Sual:** Özünü aldatmanın təyinləri nədir, onu necə bəlirləmək olar?

– Özünü aldatma nədir – ağıl bilir, ancaq əməli bacarmır. İdrakın gücsüzlüyüdür ki, ürəkdə duyğu gözəlliyi, mənəviyyat tələbləri böyüyüb gerçəklik yaratmır, yəni gerçəkləşmir. Bəzən isə buna heç cəhd də eləmir. Ancaq danışanda bəlağətli danışır.

**Sual:** Amal həyatdan üstündür. Buna inanıb yaşamağı necə sübut etmək olar?

– Amalı yaşamaq ölümsüzlüyü qazanmaqdır, nə qədər çətin olsa da. Həyatla yetərlənmək bu gündə, bugünü yaşamaqdır. Adam asan olana meyil edir. Amal isə nə qədər çətin olsa da, onu yaşamaqda ölümsüzlük var. Tək bu səbəbə görə onun çətinliyini yaşamağa dəyər. Adiliklərdən keçmək gərək, imtinaları bacarmaq gərək.

**Sual:** Ruhani düşüncələrdən, əməlçilikdən yorulma baş verərsə, onu necə aradan qaldırmaq olar, yoxsa əqidədən əl çəkməkmi gərəkdir? Bu sualın səmimi cavabı necədir?

– Son bir ayda fərqində olmadan belə bir əhval yaşadım. Ardıcıl olaraq iki dəfə "Atagün" Ailəsinin "Ailə Günü" mərasimlərini səsdən

sözə çevirdim. "İnam və Şübhə" kitabını bitirdim, eləcə də kitabın korrektəsiylə uğraşdım. Üzdən mexaniki görünən əməlləri həyata keçirdim. Özümdə duydum ki, sıxılıram. Qurcuxuram yerimdə, mənə elə gəlirdi ki, böyük əməllərdən geri salır bu məni. Böyük düşüncəliliyə, əməlçiliyə əngəl olacaq bir şeylərdir. Əqidədən əl çəkməkdən söhbət gedə bilməz. Ən azından eybəcərlik olar, doğrudan da, bu aşamadan sonra. Ancaq həm də işləri görmədən, nə qədər böyük düşüncə ortaya qoysan da, özünü doğrultmaz, ən azından etkisiz qalar. Bir şey ağlıma çatıb ki, yaşadığımız Ocaq dünyasından qıraqda bunun heç bir anlamı yoxdur. Bir şeydən əminəm, 60-70 yaşda da bu əməlləri görəcəm. Məni rahatsız edən odur, bu əməllərdə ilişib qalmaq olmaz. Böyük düşüncə, böyük əməl ki var, onu yetirməyə köklənirəm.

**Sual:** Mənəviyyatın gücünü sözlə, düşüncə ilə ifadə olunub məhdudlaşmaqdan qorumaq mümkündürmü? Bu, nədə özünü göstərə bilər?

-Yəni sözlə, düşüncə ilə məhdudlaşmaqdan qorunmaq gərəkdir. Bir var mənəviyyat haqqında danışırsan, bir də var mənəviyyatlı yaşayırsan. Siz mənə bir adam göstərin, o danışanda mənəviyyatdan danışmasın. Ən mənəviyyatsız adam belə mənəviyatdan danışır. Yaxşı danışır, pis danışır, o ayrı şeydir. Mənəviyyat gücünü itirə bilir. Mənviyyatın gücünü itirməsi o deməkdir ki, toplumsal həyatda mənəviyyat etki göstərə bilmir. Çünkü insanın ömründə ifadə olunmur. Mənəviyyat haqqında nə qədər danışırsan danış, mənəviyyat danışıqlara sığan bir məsələ deyil. Mənəviyyatı danışarsan, sənin adi danışığın ikrah doğurar. Ancaq mənəviyyatlı yaşayan mənəviyyat haqqında danışar, elə böyük haray çəkə bilər, hamı heyrətə düşər. Bu sınırları ayırmaq gərəkdir. Hər birey özündə həmin sınırı ayırmalıdır. Yəni Mənəviyyat haqqında deyilən söz, bir də mənəviyyatı yaşamaq, onun ömürdə ifadəsi. Ocaq Mənəviyyatdan danışanlar dəstəsi deyil, Mənəviyyat dünyası yaradanlar birliyidir.

**“Ailə Günü”ndə**

Ailə yükümlüləri çox yol gəliblər. Ancaq bu gün toplantıya qatılan qonaq bunu duymadı. Çünkü dünyayla bir olmağın harayını çəkə bilmədiniz. Qonaq Azərbaycanı birləşdirir duyğusallıqla. Kimə vəd verə bilərsiniz, Azərbaycan sabah birləşəcək. Küçəylə gedən insanlara təsəlli ver, onlar da elə bilsinlər, Azərbaycan sabah birləşəcək. Nə həll olur onda?! Ruhaniyyat ayrı şeydir. Ruhaniyyatın ayrı şey olduğunu Ailə duydura bilmədi bu gün. Ailə onun harayını çəkə bilmədi – Ruhaniyyat ayrı şeydir, heç ideoloji məsələ də deyil. İdeoloji düşüncələr də deyil bu. “Traktor” nə deməkdir?! “Traktor”la Azərbaycanı birləşdirmək olar?! İllərlə Babək Qalasına yürüş edirlər, Babəkdən azadlıq istəyirlər. Babək onlara azadlıq verə bilmir. Pişəvəri var idi, Səttarxan var idi. Böyük bir dalğa, axım vardı. Nə baş verdi?! Niyə darmadağın elədilər onları?! Bu səbəbi açmaq gərəkdir. Türkiyə kimi dövləti – Atatürkün yaratdığı, oturuşmuş dövləti çökdürürlər. Hələ yarağı var, gücü var, siyasəti var. Güney Azərbaycanın indiki halı nə deyən şeydir axı? İnsanların içində harda iş gedir?! Hamısı emosiyaların üzərindədir. Asif Atanın başladığı yol başqa şeydir. Mən, Ocaq olaraq dünyaya barmaq silkələyirəm, sənin peyğəmbərlərini rədd eləyirəm, yeni peyğəmbər verirəm sənə. Bunun harayını nə vaxt çəkəcəksiniz?! Elə bir peyğəmbər verirəm, dünyanın mahiyətini ortaya çıxarır, öyrədir. İnsanı dünyanın mahiyətinə bağlayır, Allahı taxtından salır. Göylər səltənətini rədd edir. Allah anlamını yenidən mənalandırıb insan qəlbinə gətirir. Dünya bunu deyibmi?! Nəsiminin harayını çəkir, yenidən “Ənəlhəqqi” dirildir, yeni bir səviyyədə. İnsanı göylərə qaldırır, göylü edir insanı. Bütün bəşəriyyətin tarixində bu yoxdur. Bütün bəşəriyyətin içində bu yoxdur. Bunu öyrənmək, bunu dərk eləmək, bununla dolmaq gərəkdir. Qonağımızın danışdığı Güney Azərbaycan qurumları ilə Asif Ata Ocağının işi bir deyil. “Traktor” oyununa milyonlarla insan baxır. Nə olsun, içi yalındır, ağlı yalındır, hisslərin üzərində çıxır. “Haray, haray, mən türkəm. Lənət olsun farsa” deyir. Nəyi həll edir bu?! Heç nə həll olunmur, olunmayacaq. Papağını qabağına qoyub düşünməlisən, ciddi işləməlisən ruhaniyyat səviyyə-

sində. Dünyanın yürüşü var üzərinə. Kim qoyacaq səni iş görməyə, Amerika qoyacaq?! Necə biz öyrənə bilmirik, Pişəvəri o boyda hökumət yaratdı, onu Quzey Azərbaycana gətirdilər, qəzaya salıb öldürdülər. Topu-tüfəngi də verdilər farsa, insanlarımızı qanına qəltan elədilər. Hökumət yoxa çıxdı. Böyük idrak, düşüncə yiyələri gərəkdir Azərbaycana yiyə çıxsın, emosional adamlar yox. Qışqır ki, sabah Azərbaycanı birləşdirəcəm gəlin. Bu çağırışa min nəfər adam topla, nə çözüləcək?! Böyük mübarizəyə 10 nəfər qüdrətli şəxsiyyət gərəkdir. İdrak insanları gərəkdir. Hər birinin qabağında üzdəki emosiyaların dizi əssin. Onu yaratmaq gərəkdir. Şər sənin düşüncənin, qələminin, idrakının qabağında, sevginin, yenilməz inamının qabağında dizini yerə qoysun. Vəhhabi burda sənin başını kəsməyə hazırdır. Güneydə sənin içində şiə oturub. 37 milyonun içində neçə nəfər dindən bezən görə bilərsiniz?! Min nəfər tapa bilməzsən, həqiqi səviyyədə dindən bezib. Onların hamısı deyir mən İslam ümmətiyəm. İranın başında duranlar içində canı, cəmdəyi türk olanlar var. Ruhu türk deyil, mənliyi türk deyil. Məhv eləyir bizi. Xameneyi kimdir – türkdür. Neçələrini demək olar, böyük görəv tutan türklər var. Sənin millətini manqurtlaşdırır. Doğrudanmı sənin ordunun 75%-i türkdür deyirsən, ancaq sən doğduğuna ad qoya bilmirsən orda...

Güney Azərbaycanla Quzey Azərbaycanın durumunun bir fərqi var: Güney Azərbaycan qəddar, amansız əsarət altındadır. Quzey Azərbaycan şirin əsarət altındadır. Bir vaxtlar SSRİ-nin şirin əsarəti altında idi, başını sığallayırdı. Sosial problemlərini həll eləmişdi. İndi Avropanın demokratiyası yeni bir şirin əsarətdir. Sabah Güney Azərbaycanın içinə yerit, bundan betər olacaq. Xalq birdir, kök birdir, ayıra biməzsən. Orda qəddar əsarətdədir, ona görə duyğular ayaqdadır. İnsanı nə qədər bizləyirsənsə, bir o qədər özünüqoruma instinkti ilə yaşayır. Məni burda bizləmir, ancaq içimi məhv eləyir, mənəviyyatımı məhv eləyir. Ona görə sərt duymuram onu. Mənəviyyat öləndə o qədər açıq duyulmur. Ancaq qolunu buranda duyursan. Etiraz edirsən, “haray, haray, mən türkəm” deyib qışqırırsan. Burda isə şirin əsarətdir, tumançaqlarını ortaya çıxarır, başını qarışdırır... Azərbaycanın dərdi birdir. İki dərd yoxdur, bir dərd var.

Hər şey Böyük Dərdin təzahürüdür, bunu Quzey Azərbaycan bu cür yaşayır, Güney Azərbaycan o cür. Parçalanmışlığın, bölünmüşlüyün, fəlakətlərin təzahürüdür. Ona görə düşünmək gərəkdir…

Axşam mən yola düşürəm. İncə dərəsinə, saz-söz şöləninə. Burda tumançaqlar üçün ünvan yaradıblar – yevroviziyon. Şüşəli ünvan. Tumançaqlar beynəlxalqdır. Maraq ora yönəlir. Çünkü güclü dövlətlər onun arxasında durur. Orda Azərbaycanın yeri nədir, mən bilmirəm. İngiliscə banlamaq?! Avropa mədəniyyəti burda qazanır, üstəlik pullar da qazanılır. Ancaq sən orda saz-söz şöləni keçirirsən, ruhumu İncə dərəsinə bağlayırsan, anamın beşiyin başındakı laylasını eşidirəm. Sazın nəğməsini, türk ruhunu çağıran Tanrısını eşidirəm. Özləri heç tam dərk eləmir bəlkə də. Ancaq balaca fakt olsa da, burdakından – "şüşəli ünvandan" daha dərindir. Əməl kimi Ocaqla tutuşdurulmayacaq dərəcədə balaca faktdır. Ocağın heç vergülü də deyil. Ancaq onu edirsən, İncəyə bağlayırsan mənim yönümü. Yönümü Təbrizə bağla. Dizimi yerə qoyub səcdə qılım. Başımı yerə qoyub torpağını öpüm, müqəddəsləşdirim, Kəbədən müqəddəs edim, Məkkədən üstün eləyim. Onda mən millət olacam. Onda milləti önə çəkə biləcəm. Ancaq bu gün mən ora getsəm, 5 nəfər məni orda Fars daşqalağından qoruya bilməyəcək. Kim qoruyacaq?! Heç dərk eləmir ki, mən nə deyirəm. Ona peyğəmbər gərəkdir?! Hələ o bilmir, yuxudadır. Faciənin təzahürü faciənin mənasından çox üzdədir. Mahiyəti daha dərindədir. Fəlakətli olayların mənası fəlakətin özündən çox dərindədir.

Asif Atanın Ocağıyla heç nəyi qarışdırmaq olmaz – Siyasəti, partiyanı. Partiyanın məqsədi ayrı şeydir – hakimiyyətə gəlməkdir. Asif Atanın işi insanı dəyişməkdir, bəşəriyyəti dəyişməkdir.

Ona görə Asif Atanın Ocağı balaca faktlarla tutuşdurula bilməz. Platonu gətirin, Sührəverdini, Bəhmənyarı, Sufiləri, Asif Atanın hikmətiylə onların az olduğunu sübut edək. Hamısının cövhəridir Asif Ata. Hamısının zirvəsi, şəhdi-şirəsidir. Babəki diriltdi Asif Ata. Azadlıq peyğəmbəri deyə, azadlıq aşiqi deyə fəlsəfəsini açdı. Nəsiminin Həqqini yenidən ayağa qaldırdı. Asif Ata böyük qüdrətdir, gəldi, dedi, mənim hikmətimi ağlınıza, ürəyinizə yazın, onda sizin ürəyinizdə böyük Azərbaycan yaranacaq. Ümidə çevriləcək böyük Azər-

baycan qəlbinizdə. Asif Atanı dərindən öyrənmək gərəkdir. İstər Ocaqçılar olsun, istər başqaları. Asif Atanın işi elə-belə məsələ deyil. Bütün dünyanı öyrəndi, sovetin içində, imperiyanın içində, şirin əsarətin sığalları altında öyrəndi dünyanı, başa düşdü ki, hardadır məsələ.

Olayları sadalamaqla insanı inama çağırmaq olumsuzdur. Dərindən bilin Asif Atanı, dərindən öyrənin. Görəcəksiniz, dünya nədir, insan nədir, Azərbaycan nədir.

Səninlə yol gedirəm, sənin sevgini, ucalığını, ləyaqətini görürəm, idrakını da görmək istəyirəm. Onda sən yenilməz olacaqsan. Mən Azərbaycanı, azərbaycanlıları sevirəm. Mənim ürəyim genişdir. Hər kəsə ürəyimdən sevgi axar. Ancaq özümü aldatmıram. Mən insanın mahiyətini sevirəm – ləyaqətini, ucalığını, xalq səviyyəsinə yüksəlməsini. Mən Azərbaycanın çağdaş sınırlarından qıraqda – Yad mədəniyyətin içində böyümüşəm – Borçalıda. Azərbaycanın nə demək olduğunu yaxşı bilirəm, ona görə ruhani mübarizəmin nə olduğunu da yaxşı anlayıram. Qars, Ərzurum, İğdır, İrəvan, ta Astaraya qədər bu yandan Qubaya qədər, Dəmirqapıya qədər Ermənistan dövləti yaratmaq istəyirdilər. Alınmadı. İrəvan başda olmaqla Göyçədən, Zəngibasardan, Dağ Borçalıdan... 29 min kv. km Erməni dövlətini yaratdılar. Ancaq Bakı başda olmaqla burada yaratsaydılar görün nə baş verərdi?! Biryolluq dövlətçiliyimizə son qoymaq planı vardı. İndi də aradan qalxmayıb. Nə ilə çıxırsan onun qabağına?! Demokratiya verir sənə, şüurunu dəyişir sənin. Mənliyini zəbt edir sənin. Özünə qulluq elətdirir səni. Onun qabağına hansı ideologiya ilə, hansı idrak gücüylə çıxırsan?! Hansı böyük birliklə çıxırsan?! O birliyi nə yaradacaq?! Sənin ideyan yoxdur, ideoloji heç nəyin yoxdur. Özümlü Mədəniyyətin yoxdur bu gün. Sayca 50 milyonluq Azərbaycanın içində mədəniyyət yoxdur. Balaca məişət mədəniyyətin qalıb. Küçələrinə bax. Burda ingiliscə, orda farsca. Geyiminə bax, davranışına bax. Arvadını çıxara bilmirsən çadranın altından. Bir yanda da əyninə tuman geydirə bilmirsən.

Bütün bu fəlakətlərdən çıxmaq üçün üzünü Asif Ataya tut. Ruhunu yaradır, dirildir səni. Ruhun, ruhaniyyatın olmasa 50 milyon yox, 100 milyon ol…

“Ulufərəh” Ailəsi, sizin o qədər zəngin əməlləriniz var, heyrət edirəm sizə. Ancaq idrakınıza da heyrət eləmək istəyirəm. İdrakınıza heyrət eləmək üçün idrakla ciddi uğraşmaq gərəkdir. Siz idraksız deyilsiniz, ancaq Asif Atanı verə biləcək qədər idraklı da deyilsiniz. Sizin idrakınız başqalarından üstündür. Ancaq Ocaq üçün yetərsizdir. Sizə mən əzab diləyirəm. Gecə, gündüz, əzab çəkin, çətinlik çəkin. Olun! Asif Ata gəldi, dedi, olmaq gərəkdir. Məhəmməddə Allah deyir, Ol. Ancaq bu “Ol” ilə O göz ağardır, ovsunla əmr edir. Asif Ata isə Olmağa çağırır səni: “İnsanlaşın – İnsanlaşdırın” (can olmağa, cisim olmağa əmr eləmir). Yəni Ol! Nəylə olursan – mənəviyyatla, inamla, idrakla.

Ata siyasətə çağırmır. Siyasət cəfəngiyyatdır. Söz yox, bu gün Siyasətlə də kimlərsə uğraşmalıdır. Siyasətlə o vaxt uğraşa bilərsən, için zəngin olsun. Ruhaniyyatdan bəhrələnməyən, onun hikmətini öyrənməyən, idrakla yüklənməyən insan siyasətlə uğraşa bilməz. Atatürk xadim idi. Xadim yaratmaq gərəkdir. Xadimin yaranması üçün isə ruhaniyyatla uğraşmaq gərəkdir. Böyük siyasətdə ona-buna baxıb nəsə eləmək olmaz. Gərək düşüncən, idrakın, mənəviyyatın olsun. Gərək tarixini biləsən. Millətinin faciələrini biləsən. Dəyərlərini biləsən, mədəniyyətini tanıyasan. Biləsən ki, nəyin uğrunda mübarizə aparırsan. Bilmədən mübarizə aparmaq olmaz. Boşuna mübarizə olmur. İdeologiya yaranmalıdır. Ancaq İdeologiya ruhaniyyat deyil, siyasətin nizamı üçün ruhaniyyatdan bəhrələnərək yaranan birlik öyrətisidir.

Asif Atanın “Uluyurd Hərəkatı” adlı ideyası var, onu siyasi hərəkat kimi düşünüb. Xalqın içindən kimlərsə yetişib bu yükün altına girməlidir. O, bizim işimiz deyil. Bizim işimiz ruhaniyyatdır.

Uluyurd hərəkatının 5 prinsipi var:

1. Tayfaçılıqla mübarizə;

2. Dinçiliklə mübarizə. Sənin insanın Məhəmmədi məndən savunur. Bu, xalq olmaq deyil, ümmət olmaq zəlilliyidir.

3. Etnik bölücülüklə (seperatizmlə) mübarizə;

4. Özgəçiliklə mübarizə;

5. Azərbaycanın siyasi bərpası.

Mən faciədən danışıram, faciəni dərk edirəm, içimi dağıdır. Söhbət ora gəlib çıxanda mən ayrı cür danışıram. Mənim içimdə hiddət var. O hiddət farsa qarşı deyil, fars şovinizminə qarşıdır. Fars hərcayiliyinə qarşıdır. Mənim hiddətim ingilis millətinə deyil, ingilis murdarlığına, dağıdıcılığına qarşıdır. Sizə elə-belə gəlməsin. Yaxşı öyrənin, Türk dövlətçiliyinə son vermək haqqında düşünürlər. Türkiyənin özündə də dövləti sarsıtmaq istəyirlər.

İslamla guya mübarizə aparırlar. Guya islam terrorizmdir. Sovetlər dağılana qədər dünyəvi (laik) Türkiyə Sovetlər dağılandan sonra İslamlaşmağa başladı. Sovetlərin içərisində olan türklər isə “demokratlaşmağa” başladılar. Ona görə elədilər ki, Sovetlər dağılandan sonra Türk Birliyi yönündə iş getməsin. İdeoloji ayrılıq yaransın. Türkiyə dinçiləşir. Ərdoğan çadralara bürüyür qadınları. Burda da demokratiya həşiri. Güney Azərbaycan da şiə əsarətində. Əxlaq, tərbiyə, durum hamısı gözünüzün qabağındadır. Ordan gəldi. Xalqın içində boşluq vardı, sovetlərin yaratdığı qapalılıq vardı, o da gəlib özünü pis mənada göstərdi. Burada söhbət Türk birliyinin dağılmasından, məhv olmasından gedir. Güney Azərbaycan məsələsi Türk Dünyasının qırıldığı nöqtədir. Eləcə də Uyğurustan Türk Dünyasının qırıldığı nöqtədir. Özündən iki dəfə az olan farsın içində əriyən Güney Azərbaycan Türkiyə örnəyi ilə Türk Dünyasına necə birləşə bilər?! Necə qüdrətli ola bilər?! Dinçilik yönündə iş gedir Türkiyədə. Böyük faciədir. Ona görə deyirəm, mənim içimdə hiddət var, ağrı var, dərd var...

## “Evlad Günü” Törəni

(1 Şölə Ayı, İnam günü, 36-cı il)

Ocağımızın bugünkü Qutsal Törəni Evlad ləyaqətini, hünərini, varlığını izhar edən bir törəndir. Bu törən özündən öncəki, bundan sonrakı ruhani olaylara, Ocaq olaylarına Evlad izharında, hesabatında işıq tutmalıdır. Ciddi düşüncələr ortaya gəlməli, aydınlaşmalar olmalıdır. Hər bireyin özünün, ya da öz doğmasının ruhani taleyini izhar eləməsi bu törənimizin anlamına özgündür, olduqca önəmlidir.

Həyat çox amansız şəkildə hər kəsin üzərinə yeriyir. Ancaq bunun qarşılığında bu gün biz Ocağı qeyrətlə, ərdəmliklə yaşadırıq.

Həyat çətinlikləriylə Ocaq Evladlarının üstünə gəlir. Həyat – məişət çətinliyi ilə gəlir, qohum-qonşu tənəsiylə gəlir. Evin içinin tənəsiylə gəlir. Bütövlükdə toplumun tənəsiylə gəlir... Asif Atanın işini, ideyalarını arzulayan çoxdur. Onu yaşadan, davamlı şəkildə arxasında duran isə Ocağın özüdür. Ocağın özündən başqa bu hünəri yaşayan, yaşadan yoxdur. Çünkü hamı qorxur. Nədən?! – Asif Atanın peyğəmbərliyindən. Görün toplum nə qədər zəlil gündədir. İçərisində ən təpərlisi belə, aydın sayılanı belə qorxur. Özünüzü onlarla tutuşdurun, kimliyinizi daha yaxşı biləcəksiniz. Biz deyəndə elə bilirlər, biz topluma üstdən aşağı baxırıq. Heç də belə deyil. Biz heç özümüzün hünərlərimiz haqqında danışmırıq. Bunu anlamırlar ki, Asif Atanın peyğəmbərliyini yaratmaq, yaşatmaq bizim nəyimiz üçündür?! Hansısa bir müəssisənin direktoru görəvi verilir, yoxsa nazirlik işçisinəmi çevrilirik?! Yoxsa pulumuzu banklara doldururuq?! Asif Atanın peyğəmbərliyini yaratmaq, yaşatmaq xalqın içindəki cılızlığı, yadlığı, eybəcərliyi, qəbahəti qovmaq, rədd eləmək üçündür. Bu ləyaqəti yaşamaq üçün Asif Ataya Evlad olmaq gərəkdir. Başqa cür yaşatmaq olmur. Asif Ataya Evlad olmaqla qürur duymaq gərəkdir. Başqaları bunu eləyə bilmir. Ən yaxşı halda, Evlad ola bilməyən bir dəfə, iki dəfə nəsə etsə də, sonra ürəyinin gücü tükənir, nəfəsi təntiyir. Asan deyil. Biz burada elan edirik, yeni İnam Xalqı yaradırıq. Yeni Bəşər Halı yaradırıq. Bu, həvəsdən gələn bir çağırış deyil. Elə-belə aradabir gəlib görünməklə olmur. Davamlı qurulmalısan, qurmalısan, iş görməlisən. Üzərinə gələn tənələri dəf eləməlisən, heç saymalısan. Qorxaq bir toplumun nümayəndəsisən sən fiziki olaraq. Ancaq qorxaq toplumdan qat-qat yüksəkdə yaşayırsan. Ocaq buna yetib. Ocaq Evlad ərdəmliyi yaradıb ortaya qoydu. Baxın öz ömrünüzə, qədrini bilin. Görün biz hara, başqaları hara. Toplumda ən çalışqan adamların belə yaşadığı ömrü bilirsiniz. Meydana çıxıb danışanda bəlağətli danışır, o yana gedəndə özünün səfil həyatını yaşayır, kefini sürür. Sən isə daim haray çəkirsən: xalqı öldürürlər, insanı öldürürlər, onu diriltmək istəyirik. Bu boyda toplumun içindən az sayda arı insanlar, ancaq dünyaca qüdrətli ideya daşıyan insanlar.

Bunu mən deyirəm, özü də sabaha üzümü tutub deyirəm, tarixə yazıram. Bunun da arxasında dururam. Bu gün Evladlıqdan böyük, Evlad əməlindən uca olay yoxdur. Evlad ərdəmliyindən böyük təpər yoxdur. Evlad sevgisindən böyük işıq yoxdur. Evlad inamından böyük hikmət yoxdur. Nəinki Azərbaycanda, bütün dünyada. Heç kim deyə bilməz ki, Asif Atanın işığından böyük işıq var dünyada. Qaranlıqlar qatılaşır hər gün. Toplum dinçiləşir – sürüləşir. Siyasiləşir – sürüləşir. Ruhaniləşən təkləşir, bireyləşir, çünkü insanlaşır. Ataya tapınmaq, ona səcdə qılmaq Evlad qəlbinin gücünü birə beş artırır. Evladların bir-birinə münasibəti, Ataya sevgisi qurulur, nizamlanır, bundan sonra daha böyük miqyas almalıdır.

**Ata Sonevini Ziyarət Günü**

(5 Şölə Ayı, 36-cı il)

Düz 17 ildir Asif Atanı bu torpağa gömmüşük. Düz 17 ildir bu torpağı ziyarət edirik. Ancaq biz Asif Atanı heç vaxt öyrətmən kimi, ustad kimi ziyarət etmədik. Biz Asif Atanı türkdən başlayan bəşər dəyəri olaraq ziyarət elədik, peyğəmbər olaraq ziyarət elədik. Bizim səcdəmiz İnsanlığa olan münasibətdir. Bizim səcdəmiz bəşəriliyə olan münasibətdir. Hələ də toplum elə bilir, biz öyrətmənimizə sədaqət göstəririk. Öyrətmənin sonevinə 17 il getməzlər. Asif Atanın böyük hədəfləri var. Asif Ata öz yurdundan başlayaraq bəşəriyyətə yeni söz demək üçün ayağa durub. Yeni bəşər halı yaratmaq, yeni sivilizasiya yaratmaq üçün. Yeni sivilizasiyanın adı İnsanlaşma sivilizasiyası, İnsanlaşma erasıdır. Sovetlər dönəmində Azərbaycanın milli ağzının yumulduğu bir çağda, insanlığın ağzının yumulduğu bir çağda, qorxunun, vəhşətin, dəhşətin tüğyan elədiyi bir çağda Asif Ata millətçiliyə başladı, İnsançılığa başladı. Birləşdirdi Millətçiliklə İnsançılığı. Dedi, əgər dünyada Millətçilik olmayacaqsa, onda bəşəriyyət sürüləşəcək. Necə ki, sürüləşib. Millətçilik olmayan yerdə sürüçülük var. Millətçilik – millətin insani keyfiyyətlərini bərpa eləməkdir. Daim yeni İnsani keyfiyyətlərini aşkarlamaqdır, dünyaya sunmaqdır.

Millətçilik – bir dildə danışan, bir aqibəti bölüşən toplumun ləyaqətini təsdiq eləməkdir. Onun Bəşər dünyasında varlığını təsdiq eləməkdir. Dünyaya ağalıq etmək iddiasıyla fəaliyyət göstərən bütün güclər dünyaya imperiya gözüylə baxdılar, dünyaya ağa gözüylə baxdılar. Dünyanı küçümsədilər, özlərinin gəlir qaynağına çevirdilər dünyanı. Belə bir vaxtda Asif Ata haray çəkdi, dünya sizin gördüyünüz deyil. Dünya – insan böyüklüyünü yaradan, insan böyüklüyünü ayaqda saxlayan Məna daşıyır özündə. O mənayla oyun oynamaq olmaz.

İnsanlığın öldürüldüyü bir vaxtda insanın gələcəyi düşündürürdü Asif Atanı. Yenə deyirəm, elə bir vaxtda ki, Atanın özü demiş, heç bir proqramda yox idi, heç bir planda yazılmamışdı ki, belə bir addım atmaq gərəkdir. Belə bir söz demək gərəkdir. Asif Ata sübut elədi ki, böyüklüyü dünyanın o başında, bu başında axtarmaq gərək deyil. Xalqın öz içindəki böyüklüyü ayağa qaldırmaq gərəkdir. Böyüklük öz içindən başlayır, dünyaya gərək olur. O, öz böyüklüyünü heç kimin, xalqın, insanların boynuna yük eləmir. Tərsinə, insanların böyüməsi üçün, şəxsiyyətə çevrilməsi üçün, eləcə də xalqın böyüməsi üçün ürəyinin qapısını onların üzünə açdı. Qarşılıq ummadı! Nə hakimiyyət umdu, nə deputat olmaq istədi, nə akademik olmaq umdu. Tərsinə, ona önərilən hər şeydən imtina elədi. Həqiqət onun üçün ən yüksək pillədə durdu. Dedi, ancaq həqiqətə tapınmaqla, insanlığı diriltməklə qurtuluş gətirmək olar, millət olmaq olar. İnsanı yaratmadan millət olmaq mümkün deyil. İndi gərək insanı yaradasan. İnsanı yaratmadan heç dövlət də olmaq mümkün deyil. Dövlətin yiyəsi insandır. Nə qədər, dövlətin yiyəsi insan deyil, dövlət özü bəlli bir qrupun aləti olur, xalq da sürüləşir. Ona görə dedi – düşündük, daşındıq, Ocaqlaşma yolu tutduq. Ocaqlaşma yolu ilə yeni İnsan Dünyası yaratmaq gərək. Yeni İnsan Dünyası nə vaxt yaranacaq?! Bunun ayrıntılarını hər zaman açıqladı. Bireysəl anlamda Ocaq özü həmin dünyadır, genel anlamda işin gələcəyi var. Heç kimi aldatmadı, vəd vermədi. "5 ildən sonra hər şey əla olacaq" demədi. Dedi, bundan ötrü gərək insanlar irəli dursun, əzab çəksin, zəhmət çəksin, savaş aparsınlar. Bu gün bir savaş yolu tanıyırlar: siyasi savaş. İnsanlaşma ideyasından qıraqda siyasi savaş özünü doğrultmur.

Niyə?! – Çünkü siyasətdə şəxsiyyət yaranmır. Xadim yetişmir. İntriqabazlar yetişir. Toplumu siyasətlə elə pozublar, heç Asif Atanın özünün Ocağı da o intriqalardan yan keçə bilmədi. Toplum o qədər deqradasiya olunub, o qədər uçub-dağılıb. İnsan özüylə uğraşmadıqca intriqa ilə uğraşacaq. Ömrü boyu düşüncəsi ola bilməyənlərin, qaz balonlarına oxşayanların işi intriqadan o yana keçmir. İnsan öz içinin balacalığını döymədikcə, başqasını cırmaqlamaqla uğraşacaq. Asif Atanın Ocğında da bir vaxtlar bunlar oldu (onun ölümündən sonra). Hər yerdə bu belədir. Ona görə Asif Ata bizə yön verdi, qapı verdi. Dedi, özünüzü yaradın. Böyük insanlara çevrilin. Yurdunuza yiyə çıxın. Özünüzə yiyə çıxın, onda Millətinizə də yiyə duracaqsınız.

Bu gün milləti ləğv eləməyə girişiblər. Millətçiliyi damğalayırlar. Pis bir şey kimi qələmə verirlər. Guya millətçilik olsa, millətçilər başqalarını basıb əzəcəklər. Məqsədyönlü şəkildə imperiyaçılıqla qarışdırırlar millətçiliyi. Niyə?! Çünkü millətçilik milləti dirildir. İstəmirlər dirilsin. İstəmirlər gücə çevrilsin, böyüsün, öz sözünü desin. Bizim taleyimizə elə bir acınacaqlı hal gətirdilər, dünyada ikinci bir xalq yoxdur bizim aqibətimizi yaşayan. Neçə yerə parçalanıb, neçə yerə dağılıb, səpələnib, ələ gəlmir. İkisinin sözü bir-birini tutmur. Hələ Quzey Azərbaycanın öz içində qruplaşmalar, tayfaçılıq fəlakəti. Ona görə də Asif Atanı eşitmək gərəkdir.

Bu gün insanlarımızın bir kəsimi (dindən bezənlər) ateizmə yuvarlanırlar. Nə tapacaqsan Ateizmdə?! Ateizmin uzun bir tarixi var. Ateizm nə yaratdı səfalətdən başqa, özbaşınalıqdan başqa?! Ateizmlə İnsan yaratmaq olmaz. Ateizmlə millət, vətən yaratmaq olmaz. Ateizmə yuvarlanmaq yanlışdır. Asif Ata deyir, inamı nə uydurmaq olmaz, nə də ləğv eləmək olmaz. Ateizm ləğv eləyir, rədd eləyir Mənanı. Ateizm ruhaniyyat tanımır. Heç bir qutsal olanaq tanımır. Hər şeyi maddidə görür, hər şeyi üzdə görür. Ateizmlə sabaha yol getmək olmaz. Din də uydurur. Fatalizm yaradır – qismətçilik. İnsan ömrünü proqramlaşdırır. İnsanı, mexanizm kimi, özündən qıraqdakı qüvvə yönətir. Hər iki halda cəhalət var. Hər iki halda insan cəhalətə yuvarlanır. Ancaq insan qəlbinin ən dərin qatlarında qutsal duyğular var, qutsal ehtiyaclar var, tələblər var.

Onu oyatmaq gərəkdir, onu qaytarmaq gərəkdir həyatın özünə. Onu ləğv eləmək olmaz. Ona görə biz üzümüzü insanlarımza tutub həmişə deyirik: Asif Atanı yaxşı öyrənmək gərəkdir. Onda görəcəksiniz, yad baxışların heç birindən yapışmağa ehtiyac qalmır. Özününkündən tut. Özününkü daha ucadır. Nəsimiyə yiyə çıxmadın. Nəsimiyə yiyə çıxsaydın, Azərbaycan ayrı Azərbaycan olacaqdı. Nəimiyə, Babəkə yiyə çıxmadın. Bu gün Atatürkü imam Hüseynin soyuna bağlayırlar. Babəki vura bilmədikdə imam soyuna bağlayırlar, ərəbləşdirirlər, ruhsuzlaşdırırlar, öldürürlər. Çünkü yiyə çıxmırsan. O boyda M.Ə.Rəsulzadə "Çağımızın Səyavuşu"nda Babəki suçlayırdı. Babək Sovet ideolojisinə gərək oldu deyirdi. Görün, M.Ə.Rəsulzadə kimi şəxsiyyət... Babəkə nə vaxt yiyə çıxdınız ki, sovet ideolojisi onu özününkü eləyib bəhrələnməsin. Sovet ideolojisi Babəkdən özünün ateizmi üçün qullandı. Sən isə özünün İnamçılığın üçün yaşat. Babək ateist deyildi, Fərəh inamı var idi. "İnsan gərək fərəhlə yaşasın, fərəhlə ölsün, döyüşsün" deyirdi. Orda ateizm yoxdu. Xürrəmilik özü din idi. Ərəblər ləğv elədilər, məhv elədilər. Babəkə yiyə çıxmadın. İndi Asif Ataya yiyə çıxmaq gərəkdir. Xalqına vermək gərəkdir, inadla, sevgiylə. Asif Atanın peyğəmbərliyindən qorxmaq gərək deyil. Peyğəmbər məsələsi heç bir vaxt ləğv olunmayacaq. Ona böyük gərəklik var. Peyğəmbərlik, sadəcə olaraq, öz mənasına yetməlidir. Asif Ata onu öz mənasına yetirir. "Ata" sözü "peyğəmbər" sözündən uca sözdür deyir. Ata o məzmunu özünə qaytarır, peyğəmbərliyi Atalıq düzeyinə qaldırır. Dünyabaxış yaradır. Dünyabaxışın əsasında, özülündə İnsan dayanır. İnsanı şəxsiyyət kimi yaradır, qurur. Həyata İnsanın əliylə yeni nizam, yeni uyum gətirir, qutsal nizam gətirir. Peyğəmbərin işi odur. Peyğəmbərin işi əllaməçilik deyil. "Peyğəmbər" sözü – "Elçi" mənası daşısa da, peyğəmbər sözünün fəlsəfi mənası o deyil, funksiyası o deyil. Dünyabaxış yaradırsan, bəşəriyyətə yeni yön verirsən, yeni hal verirsən. O hal ki, onu elm verə bilmir. Duyğularla elm uğraşa bilmir. Qutsal, gözün görmədiyi məsələlərlə elm uğraşa bilmir. Ona ancaq idrakda, inamda yetmək olur. Fəlsəfənin gücüylə yetmək olur. Onu ləğv eləmək olmaz. İnsanın insana qutsal ehtiyacı var. Ananın qutsal əzablarını hansı elmlə aşkarlaya bilərsən?! Riyaziyyatla onu hesablaya bilməz-

sən axı. Odur əslində İnam. Böyük mənada din. Ana əzabıdır, ana zəhmətidir din. İnsan əzabından doğan, qutsal hal yaradan məzmundur. Yoxsa Göylər aləminin əllaməçiliyi deyil ki.

Asif Atanı dərk eləyib onu ziyarət eləmək gərəkdir.

Biz yurdumuzdan min kilometrlərlə uzağa gedən insanlarımıza üzümüzü tuturuq. Böyük pullar xərcləyib gedirlər ora. Rütbələr alırlar. Ərəb torpaqlarını yalayırlar. Məşhədi, Kərbəlanı yalayırlar. Rütbə alırlar, titul alırlar, kərbəlayı olurlar, hacı olurlar, məşədi olurlar. Sənin yurduna da üstdən aşağı baxırlar. Göstərin mənə bir nəfər hacı ki, öz yurdunu qutsal saysın. Qutsal sayır sayır başqa yeri, başqa şəxsiyyətləri. Öz yurdunda bir nəfər böyük şəxsiyyət tapıb onu öymür, sevmir, qutsallaşdırmır.

Vətəni öpərsən qutsal olar, vətəni gözardı edərsən, zibil olar.

Ağstafalıların özünə biz üzümüzü tuturuq. Sənin içindədir böyüklük, qiblə. Mən yönümü bura tutmuşam. Qiblə sənin içindədir. Öyrən bu şəxsiyyətini. Gör buna bərabər şəxsiyyət tapa biləcəksənmi?! Biz tarixdəki heç bir şəxsiyyəti azaltmaq istəmirik. Hamısını da öyrənmişik, bilirik. Hamısının da yerini bilirik, qədrini bilirik. Hamısına yiyə çıxırıq. Ancaq öyrənin, tutuşdurun. Görün Asif Ata ucalıqda dayanır?! Çağımızda, gözümüzün qabağında şəxsiyyətimiz yaranıb, görmürük, gözüyumulu gəzirik. Mən bir vətən oğlu kimi, millətin övladı kimi ərk eləyib öz ulusuma səslənirəm. Buna mənim haqqım var. 24 il Asif Atanın varlığına yiyə çıxan, onun harayını çəkən bir insan kimi ərk eləyirəm.

Asif Ataya mən səcdə qılıram, onun dalınca düşmüşəm, ona görə yox ki, hansısa müəssisənin direktoru olacam, hansısa nazirlikdə bir görəv alacam, deputat seçiləcəm. Heç birinə görə deyil. Böyük əzabdan başqa mən heç bir şey əldə etməmişəm, bunun da fərəhini yaşamaqdayam. Ulusuma da minnət sərgiləmirəm.

Biz az sayda insanlarla gəlirik, səcdə eləyirik, ziyarət eləyirik. Söz deyirik, mərasim keçiririk, qiblə yaradırıq, hal yaradırıq. Zaman-zaman (ancaq mən deyə bilmərəm neçə ildən sonra), Azərbaycanın bütün bölgələrindən gələcəklər buranı ziyarət eləməyə. Bu da bizim üçün yeni bir aşama deməkdir, yeni bir aşamanın başlaması deməkdir.

Bilirsiniz, mən yenə vurğu eləyirəm, əgər millət olmaq istəyiriksə, öz şəxsiyyətlərimizi yaratmalıyıq. Öz dəyərlərimizi yaratmalıyıq, ona yiyə çıxmalıyıq. Asif Atanın ideyasına dayanıb böyük şəxsiyyətlər yetirmək gərəkdir. Millətə, vətənə yiyə durmaq üçün ruh yaranmalıdır. İnsanın ruhu, mənliyi yaranmalıdır. Şüarlarla iş aşmır. Gərək doğrudan da, içdən yaşayasan, yaradasan, yaşadasan. Yaradıcılıq vaxtıdır.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!

**Xəlqilik Bayramı**
(13 Şölə Ayı, 36-cı il)

Bu gün Xəlqilik üstə söhbət edəcəyik. Asif Atanın Mütləqə İnam Ocağı bütün dünyanın gedişində, nizamında, ya da nizamsızlığında sizlərə bəlli olan olayların içində, ya da ondan yüksəkdə fərqli addımlar sərgiləyir, fərqli söz deyir, fərqli işlər görür. Bu fərq nədən oluşur?! – Xalqın yaranması, bir araya gəlməsi, dövlət olması, ya da böyük mənada götürəndə bəşər olması, bütün tarix boyu çətin axtarışların, çətin əməllərin, çətin tələblərin qarşısında olub həmişə. Ona görə bu olay düşündürücüdür. Bu gün də biz, bir xalq olaraq, öz aqibətimizi düşünmək tələbi qarşısındayıq. Sizə rahatsızlıqla deyirəm, nə yazıqlar, Azərbaycanın heç bir yerində, o taylı-bu taylı Azərbaycanda, Borçalıda, başqa ölkələrdə xalqın gələcəyini doğru düşünmə faktı yoxdur. Bütün siyasi gedişlər, proseslər, təşkilatlar bu rahatsızlığımızdan yan çabalar göstərirlər. Heç yerdə bu yöndən içdənlik (səmimiyyət) yoxdur. Yəni xalqın aqibəti ilə bağlı deyiləcək sözün mənasına yönəlik içdənlik yoxdur. Xalqın gələcəyiylə bağlı şüarlar, oyunlar var. Həqiqət deyilmir, yaşanmır. İnsanları xalqın məzmununa bağlamaq olduqca çətinləşib. Gündən-günə xalqın içi boşalır. Pis mənada, yəni pisliklərdən də boşala bilər, yaxşılıqlardan da. Bu, yaxşılıqlardan boşalmadır. Xalqın özünə xas nəyi varsa, onların hamısını itirə-itirə gedir. Çox pis səviyyədə çağdaşlaşır. Buna

müxtəlif cür don geyindirilir, haq verilir, bəraət verilir. Guya biz yeni gəlişmə aşamasına başlayırıq xalq olaraq. Doğrudanmı bu, yeni gəlişmə aşamasıdır?! Xalq adına deyilən sözlər hamısı şüardır.

"Ulufərəh"in keçən "Ailə Günü" törənində Güneydən bir soydaşımız gəlmişdi. O, elə danışırdı, elə bil beş-on günə Güney Azərbaycanla Quzey Azərbaycan birləşəcək. Bu cavan oğlan deyir, biz ağrını içimizdə gizlədək, ancaq topluma deyək, hər şey gözəldir.

Onu qınamıram, hər yerdə elə deyirlər, topluma belə deyək. Topluma belə demək nəyi çözür axı?!

Xalqın içi boşalır, uçub-dağılır. Xalqın içində dəhşətli bir yoxluq yaranıb. Bu yoxluğu yaradan xurafatdır. Xalqın içində yaranan xurafat – din xurafatı, idman xurafatı, musiqi xurafatı, toplumsal münasibətlər xurafatı. Mənə göstərin xalqın həyatında xurafat olmayan bir şey. İdman keçirirlər. İdman nə verir xalqa?! Büdcəyə pul gətirir, ya nəyi yoluna qoyur?! Tərsinə, büdcədən pul gedir. O idman xəlqi məna daşıyırmı?! Xalq o idmanda milli şüurunun, demirəm bütöv gedişini, hansısa elementini tapırmı?! Tapmır. Ya da musiqi. Mən sazı, muğamı demirəm. Hərçəndi saz da, muğam da getdikcə bayağılaşdırılır. Mən xalqın içində pis etkisi olan musiqini deyirəm. Bağışlayın, tumançaqların hayladığı musiqini deyirəm. Kütlə ona susayır, ağız suyu axıdır. Gənclik ona yüyürür. Gənclik ona səcdə qılır, pərəstiş edir. Bu, xurafatdır. Cahilləşdirir toplumu. Gəncliyin içində çox az sağlam düşüncəli qüvvə var. Onları da demək olar, həşirlərdə qurban veririlər, dustaq evlərinə doldururlar.

Toplumsal qurumlar xurafatı. Yüzlərlə, minlərlə təşkilat var, onların dediyi söz, gördüyü iş nədir, onların maarifçilyi nədən oluşur?! Azadlıqmı yaradır?! Yüksək Sözün azadlığı yoxdur, hərcayi sözün azadlığı var. Kimin ağlına nə gəlir onu da danışır. Hədyan danışmaq adında azadlıq var. Söz azadlığı – xalqın həqiqətini deməkdir. Sən də o sözü demirsən. Utanırsan, ya da qorxursan.

Din xurafatı var yerə-göyə sığmayan. Bir nəfər göstərin, bu xurafata əngəl olur. Molla oturub yasda hədis söyləyir, baş qatır, düşüncə sərgiləmir. Deyir, biz kimik axı, biz heç nəyik. Hər şey odur, "Yuxarıdakı", biz nəçiyik.

"Heç nə" nə deməkdir – zibil deməkdir. Heç nəyə yaramayan zibildir. Əgər sən zibilsənsə, niyə sənə sayğı duyum?! Heç nəyə sayğı duymazlar. Sən heç nələşirsən, zibilləşirsən, tullantı olursan – xurafatdır bu. Böyüklərimizə üz tutan yoxdur. "Ənəlhəq" deyənlərimizə üz tutan yoxdur. Qədrini bilən yoxdur. İçində Şirvin gəzdirənlərimizə üz tutan yoxdur. Gəncliyə onu öyrətmək gərəkdir. İnsanı təzadların içinə atırlar, onu oradan çıxartmaq gərəkdir. İnsan adi biologiyadır, insan dilənçidir, insan padşahdır, insan allahdır, hər şeydir?! Nə deməkdir bu insan görəsən?! Nə qədər ki, insanın təfəkkürü sönükdür, ləyaqəti ölüdür, ondan dilənçi də gözlə, azğın padşah da gözlə. Elə ki, İnsan içində böyük həqiqətə yetir, böyük ədalətə, vicdana yetir, xəlqi mənaya, məzmuna yetir, onda olur allah, həqq.

Təzadların içindən çıxmaq gərəkdir, yoxsa insanla bağlı daim çaşacaqsan. Görürsən gözünün qabağında bulvarda sülənir. Deyirsən, budur insan?! O deyil. O, heyvana enibdir, içindəki mənanı itirən, ruhu ölən, çökən insan deyil.

Bax, bu deyilənlərin fonunda vurğulayırıq ki, Asif Atanın dediyi söz fərqli sözdür. Asif Atanın atdığı addım fərqli addımdır. Hamı xurafata səcdə qılır, Asif Ata İnsan böyüklüyünü yaradır, ona səcdə qılır. O, bizim xalqın içindədir. O, ucqar Afrikada, ya da Amerikada deyil. Bizim öz gözümüzün qabağında, yurdumuzun özündədir. Onu görmək gərəkdir. Biz minnətlə, yalvara-yalvara insanları çağırırıq ki, öyrənin Onu. İnsana yalvarırıq ki, xalq ol. Gəl, biz onun sözünü sənə deyə biləcəyik, gəl. Ruh gərəkdir.

Asif Ata deyir, İnsanı xurafatın içindən çıxartmaq gərəkdir. Xurafatın içindən çıxardarsan, o, böyüyər, xalq olar...

İki ayın içində Ermənistan deyilən Batı Azərbaycanda bircə insanımız da qalmamışdı o dövrdə. Proseslər elə getdi, iki ayın içində boşaldı. Çünkü yurdun yiyəsi yoxdur. Xalqın yiyəsi əlinə plakat alıb şüar səsləndirən deyil. Böyük idrak, mənəviyyat yiyəsi olanlar xalqa yiyəlik edə bilir. Düşünmürsən, Olmursan, ona görə aşama-aşama sənin yurdun boşalır, dağılır, viran olur. Sən isə minlərlə təşkilat yaradırsan, içində də bir şey yoxdur. Xalqın durumuna yaxşı baxın, öyrənin, düşünün. Onda bizim ağrımızı, dərdimizi düzgün qiymətləndirəcəksiniz.

Azərbaycanı  qarış-qarış gəzirik. Boğazımızdan kəsirik. Mən əsgərlikdəki oğlumun yanına gedə bilmirəm, ancaq gedib xalqın balaları ilə rayonlarda görüş keçirirəm. Gedirəm xalqın balalarına deyəm ki, sənin içində xalqın böyüklüyü var, onu aşkarla, ona yiyə çıx. Sənin içində Babək var, Nəsimi var. Sənin içində şəxsiyyət var. Öldürmə onu "müasir"liyin tələbində, hayında, həşirində. Sənin içində qeyrəti çökdürürlər, söndürürlər. Kim yiyə çıxacaq sənin yurduna? Əslində xalqın içində, fərq eləməz o tayı-bu tayı,  onun həqiqəti yetişməli, yaşamalıdır. Yoxsa nə eləyirsən elə, bu xalqı sürüyə çevirirlər. Bütün gediş xalqı sürüyə çevirmək halına köklənib. Xalqı xalq eləməyə, onun dəyərini özünə qaytarmağa, mənliyini, ruhunu yaratmağa köklənən bir təşkilat yoxdur. Ayrı-ayrı insanlar, ayrı-ayrı bireylər papağını qabağına qoyub düşünməlidir. Yiyəni Akademiyada axtarmayın, elmi institutlarda axtarmayın. Mən onların tədbirlərinə getmişəm, onlar tədbirlərimizə gəliblər. Tanıyıram onları, bilirəm.

Böyük dəyərlər, ulusal gələnəklər az-çox bölgələrdə yaşanılır, qorunur. Mən ruhaniyyat tarixini az-çox bilirəm. Böyük işlər, böyük əməllər əyalətlərdən başlayıb. Əyalətlərdə daha ciddi iş aparmaq gərəkdir.

Kimi dindirirsən, hamısı təsərrüfatının yoxsulluğundan ağlayır. Sənin yoxsulluğunun, dilənçiliyinin nədənləri var. Sən xalq düzeyində deyilsən. Səni qamarlayırlar, sənin birliyin yoxdur, özünü tanımırsan, ona görə bunlar baş verir.

"Gediş yazısı"nda qonu var – "Xəlqi intibah insandan başlayır". Xəlqi intibah nə deməkdir?! – Bir var inkişaf, bir var intibah. Bunlar fərqlidir. İnkişaf çeşid-çeşiddir. İnkişafın zərəri də ola bilər. Bütün hallarda inkişaf xeyiri təmsil eləmir. Ancaq İntibahın ikinci anlamı yoxdur. İntibah yaranma, qurulma anlamı daşıyır. O da, bizə görə, insandan başlayır, başlamalıdır. Ayrı-ayrı qurulan, yaranan, xalqın dəyərini anlayan, dəyəri, dəyərsizliyi doğru bilən insandan başlayır. Öyrədən, yaşadan insandan başlayır. Sadəcə olaraq, biliyə yiyələnən insandan yox. Bilik azdır. Bilik yaxşı şeydir, ancaq təkcə bilik azdır.

Asif Ata Azərbaycanımız-Azərbaycanlığımız dəyər sistemi yaradıb. Orada Azərbaycanın mahiyyətini açıb göstərir. Deyir, bəşəriyyətə ilk peyğəmbəri – Zərdüştü Azərbaycan verib. Dədə Qorqud kimi böyük

olayı Azərbaycan verib. Mən yazılarımın birində yazmışam, Dədə Qorqud yaşam sistemidir. Tarixdə Dədə Qorqud çağı olub, gedişi, nizamı olub, orada hər şey yerində olub. Doğrudan da ağsaqqal olub, ağsaqqal sözü keçib. Onu eşidiblər, müdriklik iş görüb, nizam yaradıb. Koroğlu faktını 16-cı yüzilə özgün edirlər. Mən də yazıram, Koroğlu mücərrəd bir olay deyil. O da Dədə Qorquddan gələn bir dalğadır. 7777 dəli – xalq deməkdir. Bu toplumun böyüyü Koroğludur. Dədə Qorqud kimi nizamlayır, yol göstərir, hamını sevir. O dəlilərin içərisində nizam var. Orda müxənnət yoxdur, hamı halaldır, arıdır, durudur. Hamı igiddir, mərddir, arxadan vuran yoxdur. Bu, ulusun ağlında, idealında olan həqiqətidir. Orda ərəb, islam detalı yoxdur, 16-cı yüzil olsa da. Bu xalqın Dədə Qorquddan başlayan, bu günə qədər davam eləyən diləyidir, düşündüyü, qurmaq istədiyi toplumudur. Necə görmək istəyir toplumu – Dədə Qorquddakı, Koroğludakı kimi. O toplumu qurmaq üçün sənin ideya zəminin olmalıdır, İdeologiya yönün olmalıdır. Milli şüurun gəlişməlidir.

Mən yazılarımda yazmışam: Babəkə hücumlar olur. Babəki kürd öz adına çıxır, sən öz adına çıxmırsan. Mən kürdə qarşı deyiləm. Söhbət ulusal özünəxaslığı tanımaqdan, qorumaqdan gedir. Başqası Babəkə niyə yiyə çıxır? Şah İsmayıla, Novruz-Ergenekon bayramına niyə yiyə çıxır?! – Dövlət olmaq istəyir. Bir xalq dövlətinin olmasını istəyirsə, bəşəriyyətə Söz deməlidir. Böyük dəyəri, mədəniyyəti olmalıdır ki, əsaslandıra bilsin dövlət istəyini, haqq elədiyini. Dövləti o millət yaradır ki, o millətin böyük mədəniyyəti olsun. Bir dövlətdə yaşayan bütün toplum bir millətdən oluşmur ki. Ayrı-ayrı millətin nümayəndələri olur. Onların hamısını yaşadan, qoruyan, nizamlayan, dövlətin daşıdığı mədəniyyətdir. Bu mədəniyyəti bir xalq yaradır, həmin xalq yaradır o dövləti. Qalan topluluqlar qatqı göstərir…

Ona görə dövlət yaratmaq, yönətimə yiyə çıxmaq üçün bizim dəyərləri mənimsəyirlər. Özləri dəyər yaratmayıblar. Erməni dəyər yarada bilmir, musiqimizi oğurlayır, məişətimizi oğurlayır. Məişət mədəniyyətimizi mənimsəyir. Erməninin özü yarada bilmir axı, yoxudur. Səninkini mənimsəyir. Sən halal özününkünə niyə yiyə çıxmırsan?! Sən əli-ayağı yalın qaçırsan başqa yerlərə. Gedirsən dünyanın o başında özünə dəyər axtarırsan. Özününkü qalır bir yanda,

gedirsən ondan-bundan götürürsən. Öz doğduğuna analıq eləmirsən, gedib başqa yerdən uşaq tutursan ki, mən buna analıq edəcəm. Ona görə də xalq olmaq çətinləşir, soruna çevrilir. "Xəlqi intibah insandan başlayır" deyiminin mənası budur.

Asif Ata Azərbaycanımız-Azərbaycanlığımız dəyər sistemində Füzuliliyin adını çəkir. Nəsimiliyin, Hürufiliyin, Muğamlığın, Sazlığın. 7 dəyər xalqın ruhani, mənəvi kimliyidir. İdeoloji mənanı daşıyanları salmayıb ora, məsələn, Şah İsmayılın adını ora salmayıb. Şah İsmayılın dövlətçilikdə böyük rolu var, bu siyasi faktdır. Zərdüşt isə ilk Peyğəmbərlik yaradıb, Dədə Qorqud, Xürrəmilik, yəni Babəkçilik, sonra Füzulilik. Füzulilik – poeziya araçılığı ilə insana verilən ən yüksək qiymət idi. İnsanı vəcdli sevgi ilə dərk eləmək idi Füzulilik. Nəsimilik İnsana ən yüksək qiymətdir. Ata deyir, bütün bəşər xalqları içərisində Hürufilər qədər İnsana yüksək qiymət verən olmayıb. Deyir, İnsan allahdır, yəni içində o məzmunu daşıyır. İnsan ona yetməlidir. İnsan göy məsələsidir, yer məsələsi deyil. Onu bədənə bərabər götürmək olmaz! Onu deyir. Din də deyir, sən heç kimsən, heç nəsən. O, ərəb baxışından gələndir, bu, türk baxışından gələn. Mən türk-ərəb məsələsini qarşıdurma kimi qoymuram. Fakt kimi qoyuram, bəşəriyyətə gərəkliyi baxımından qoyuram. Gör bəşəriyyətə hansı daha çox verib, hansının dediyi daha çox gərəklidir?

Ya da muğam, ya da saz. Aşağı-yuxarı yarım ay öncə biz Qazax mahalında olduq. Orda Saz-söz şöləni keçirirdilər. Öncə bizi aparıb gəzdirdilər. Təbiətin o cür gözəl guşəsində gəzinti mənə ancaq ürək ağrısı verdi. Bizi gəzdirən aşıq dostumuz mənə strateji nöqtələri göstərdi. Ermənilər yüksək nöqtələrdə postlar qurublar, bizimkilər balaca təpələrdə. Bu baxımdan yanaşıram – erməninin gülləsinin altında Saz-söz şöləni keçirmək qeyrət əməlidir. Onu mənasına bərabər yaşatmaq cəhdi qeyrətdir. Çünkü xalq dəyərlə dirçəlib ayağa durur. Xalq şüarla ayağa durmur. Fakt verirsən – bu, sənin yaratdığın dəyərdir. Sənin duyğularından, Ruhundan yaranıb. Sənin içini ayağa qaldırır, sənə sabahı göstərir, həqiqəti göstərir…

Başqa qonumuz "Xalqsız bəşəriyyətin sabahı yoxdur". Çoxluğun ağlında xalq məsələsi, millət məsələsi köhnəlib, arxaikləşib. Asif Ata yeni dünyabaxış yaradıb. Bu dünyabaxış bəşəri olsa da, Asif Ata

millətçidir. Ancaq Asif Atanın millətçiliyi heç bir xalqa qarşı yönəlməyib. Çünkü bəşər ailəsi, bəşər dünyası var. Bəşər – ayrı-ayrı xalqların ülvi keyfiyyətlərinin, dəyərlərinin Birliyidir, azğınlığının, dağıdıcılığının yox. Bəşər dünyasında biz də bir millətik. Biz özümüzü öz dəyərlərimiz, milli mahiyətimiz əsasında yaradıb qurmalıyıq, təsdiq eləməliyik. Dünyaya deyəcəyimiz Ulusal sözümüz olmalıdır. Bunlara yiyə çıxmaqdır millətçilik. Bunları yaratmaq, inkişaf elətdirməkdir millətçilik. Millətçilik başqa millətləri məhv eləmək istəyinə bərabər deyil. Millətlərin dirçəlib formalaşmasını istəməyənlər millətçiliyi gözdən salırlar. Millətsiz bəşər yoxdur. İnsansız xalq varmı – yox. Xalq insanların birliyi deməkdir. Necə olur, həm bəşəriyyət var, həm də millətçilik gərək deyil? Hər bir insan özündə xalqın ayrı-ayrı keyfiyyətlərini yaradır, yaşadır, təsdiq edir. Ən böyük humanizm odur. Səndə yaranan yüksək keyfiyyətlər bütün xalqlara gərəkdir. Eləcə də başqa xalqlarda yaranan keyfiyyətlər sənə gərəkdir. Xalq insandan başladığı kimi, bəşər də millətdən başlayır. Ona görə millətə qulluq elədiyin dərəcədə bəşərə qulluq eləyirsən. Millətə qulluq eləmirsənsə, sənin bəşəri istəkləriyin heç bir anlamı yoxdur. Bax belə, Asif Ata məsələni ayrı cür qoyur, ayrı cür düşünür, ayrı cür də yaşadır. Onun Ocağı belə yaşayır. Biz həmin məzmunu özümüzə deyirik, insanlarımıza deyirik, həmin məzmunla yaşayırıq. Yaşadığımızı, yaşatdığımızı, bayram edirik. Bu gün bu məzmunu az sayda insanlar yaşadır, ancaq gələcəkdə xalq, mənasız bayramları qırağa qoyacaq. Yalnız insanı, xalqı, bəşəriliyi ifadə eləyən bayramları həyata keçirəcək.

Bunun üçün Məktəb yaranmalıdır, Xalqın öz dərdini bilməsi, tanıması gərəkdir. Balaca xalqların adını çəkdiniz. Balaca xalqlar, nə yazıqlar, böyük güclərin oyuncağına çevrilir. Böyük güclər onları birlikdə saxlayır. Onlar ona görə bir olurlar. Bir də toplum qorxuyla üz-üzə qalanda daha çox bir yerdə olmağa meyil edir. Mən bunu belə yazmışam: Bir var amansız əsarət, bir də var "şirin" əsarət. Məsələn, Güney Azərbaycan amansız əsarət altındadır. Ona görə orda azadlığa dartınma daha çoxdur. Ancaq o meyillər bir sonuc vermir. Amansız əsarətin altında azadlığa dartınmalar var, ancaq yol yoxdur, ideologiya yoxdur. Nədən yapışaq, necə eləyək, məqsə-

dimizi necə həyata keçirək?! Söz yox, əsarət nə qədər sərt olsa, direniş də bir o qədər güclənir. Quzey Azərbaycan olaraq “şirin” əsarət altında olmuşuq. Sovetlər birliyində bizim başımızın altına yastıq qoyublar. Duymamışıq əsarətdəyik. Duymamışıq, bizim milli varlığımız zədə götürür. Sosial sorunlar həllini tapmışdı, sakit çağda yaşayırdıq. Milli sorunlar isə getdikcə dərinləşirdi. Alt qatdakı məsələləri görmürdük. Biz milli kimlikdə zədə götürə-götürə gedirdik, etnik mahiyətimiz də dərk olunmurdu. Sovetlər dağılan çağda bizim emosiyalarımız bir araya gəldi. Toplum axdı meydanlara, içəridə yatıb qalmış arzular ayağa durdu. Ancaq başqa əhvallar gəldi, bizə milli deyil, başqa ideologiyalar verdilər. Bu ideologiyaların əsasında biz elə düşündük, başqa qüvvələr – Avropa, Amerika bizim azad olmağımızı istəyirlər. Arxayınlaşma başladı, yenə də alt qatlar görünmədi. Bizim başımızda hakim olan qüvvələrin necə oturuşması, yerləşməsi xalqa bəlli olmadı. Bunların hamısından çıxmaq üçün milli məktəb, maarifçilik yaranmaldır. Asif Ata yaradıb bunu. Başqa millətlərin yaratdığına qarşı deyil Ata. Demir, rədd olsun hər şey, qalsın yalnz bizimki. O deyir, bizi biz eləyən – öz içimizdən yaranan ola bilər. Gözümüz ayda-çayda qalmaqla qabağa gedə bilmərik. Sən öz içindən yapış, öz içindən yarat. Xalqı bir araya nə gətirə bilər?! Bax, qardaşımızın çaldığı o Saz bizim milli dəyərimizdir. Milli kimliyini dərk edən hər bir kəs üçün saz onun sevgisinə özgündür. Bizim sevgimizi bir araya gətirir. Hamımızın sevgimizin obyekti bir olur. Böyük məsələlərdə də bizim sevgimiz bir araya gəlməli, bizim sevgimizi birləşdirən dəyər olmalıdır. Ancaq milli ideologiyan yoxdursa, bunun yerinə yadların ideologiyası varsa, məsələ kökündən dəyişir, heç kimi birləşdirmir o yad baxış. İnsanların içini tərpədən, oyadan, birləşdirən özül bir şey gərəkdir. Onun ağlını silkələyən, böyüdən bir şey gərəkdir. O, xalqın içində yarandıqca, yaşadıqca xalqın böyük məqsədi bir xətt üzrə həyata keçə bilər. Tərsinə olarsa, heç kimin sözü heç kimlə düz gəlməyəcək.

Biz demirik, bütün toplumsal-siyasal çalışmalar dayanmalıdır, olmamalıdır, yalnız Asif Ata olmalıdır. Elə demirik. Heç özünü doğrultmaz da bu. Biz deyirik, Asif Ata elə bir mayakdır, hər kəs öz xəttində addımlayıb qabağa gedə bilər milli zəmində. Ondan

bəhrələnərək, öyrənərək böyük məqsədləri həyata keçirmək olar. Asif Ata ruhani bir xətdir. Çağdaş nizam, dövlət, bunlar siyasətə dayanır. Bu siyasətin özünü millətin qorunmasına yönəltmək istəyərsənsə, Asif Atadan bəhrələn. Özünü milli ideologiya əsasında quracaqsan. Milli ideologiya milli ideyalardan qaynaqlanır. Milli təfəkkürdən, milli düşüncədən, mili dəyərlərdən. Asif Atanın "Uluyurd Aqibəti – Bütöv Azərbaycan" kitabı var. Bu nəyə hesablanıb?! – Asif Ata deyir, sənin yüz Füzulin olsun... Həm deyir Füzulilik böyük dəyərdir, Azərbaycançılığın mahiyətidir, həm də deyir, yüz Nəsimin, yüz Füzulin olsun, dövlətin yoxdursa, yetimsən ("Dövləti olmayan xalq yetim xalqdır" – A.A.). Füzuli, Nəsimi – bunlar dövləti qoruyan dəyərlərdir. Xalqı xalq eləyən dəyərlərdir. Xalqı özünə bənzədən, yönəldən dəyərlərdir. Dövlət xalqa dayanır axı. Xalqa dayanır, dünyada öz sözünü deyə bilir. Uluyurd Hərəkatının özünün prinsipləri var, özünün xətti var – neyləmək, necə eləmək. Orda milli ideologiya yaranır. Dövlət ideologiyası demirəm, hakimiyyət ideologiaysı demirəm, elə milli ideologiya, milli strategiya. Onun da əsası qurulur. Gəncliyin içərisində ciddi iş getməlidir. Heç olmasa gəncliyin içərisində beş nəfərin qulağı eşitsin, gələcəkdə özündən öncəki soyların yanlışlarını təkrar eləməsin. Düşünsün, yeni milli qüvvə yaranmaldır, illərlə idrak işi, mənəviyyat işi getməlidir.

**Ailə Günü**

(24 Şölə Ayı, 36-cı il)

Ocaq Ailəsi Ocaq Evladı üçün, Ocaqsevər üçün böyük bir məktəbdir. Bu məktəb bizim hər birimizi qurur. Həm həyatın dəyişməsinə hazırlayır, həm də öz xalqının yönünü (qibləsini) bəlirləməyə hazırlayır. Ocaq bizi böyük işlərə hazırlayır. Onun əsasında biz burada Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı veririk.

Mənim hər günüm Amallaşmadır. Mən hər gün öyrənirəm. Öyrənməsəm, danışmağa özümdə haqq tapa bilmirəm. Biz Ocaq olaraq, dediyimizi boğazdan deyə bilmərik. Bizim buna haqqımız yoxdur. O şeyi ki, biz yaşamırıq, yaşatmırıq, taleyimizə çevirmirik,

ondan danışmağa ixtiyarımız yoxdur. Nəylə yaşayırıqsa, nəylə nəfəs alırıqsa ondan danışırıq. İnsanın yönüylə bağlı, insanın özünü anlaması, tanıması, dərk eləməsiylə bağlı daim düşünürəm. Söz yox, əsas düşüncəmiz onsuz da buna bağlıdır. Çünkü millət insanla var olur, insandan qıraqda var ola bilmir. İnsan nədirsə, millət də odur. İnsan sürüdürsə, millət də sürüdür. Hər birimiz ayrı-ayrılıqda insanıq, ancaq biz birlikdə millətik. Bizim insana münasibətimiz nədir?! Bizim xalqın özünə münasibətimiz nədir?! Dünyaya, başqa xalqlara münasibətimiz nədir?! Başqa insanlara, Allaha münasibətimiz nədir?! İnama, dinə, yerə-göyə münasibətimiz nədir?! Hamısı bizim üçün bəlli olmalıdır. Heç birində səmimiyyətsizlik eləmək olmaz. Heç birində aldatmaq olmaz. Asif Atadan ruhani tərbiyə almış bizlərin toplumdan fərqimiz nədir?! – Nə deyiriksə, səmimi deyirik, doğru deyirik. Məsələn, deyirik bizi filan yerdə eşitmədilər, pis qarşıladılar, filan yerdə yaxşı dinlədilər. Başqaları deyir, bizim filan yerdə nüfuzumuz göylərə çatır, hər şey əladır, düzəltmişik. Aldadır bizi. Ən çox da bunu siyasi yöndə çalışan adamlar edir. Sanki bütün dünya bunların arxasındadır. Elə deyir, mən ümidimi ona bağlayım. Guya güclüdür, mən də ona səsimi verim. Lap sənə inandım, səsimi də verdim. O səsin arxasında dura bilmirsən axı. Səmimiyyətsizliyin, yalanın ortaya çıxır. Ancaq biz o cür düşünmürük. Biz yalan danışmırıq. Doğru deyirik. Səmimiyyətsizlik eləmirik. Heç bir səs də istəmirik, xalqın özünə inanmasını umuruq.

Toplumda hər bir insan təkdir. Toplumda mənə bir insan göstərin, xoşbəxtdir. Xoşbəxt deyil, özü də təkdir. Bu gün toplumda insanları birləşdirən cəhalətdir. Cəhalətin birləşdirdiyi insan sürüdür. Çünkü hər kəs qorxudan bir-birinin dediyini deyir. Heç kim deməz, elə Soylu Atalının öyrəndiyini deyirəm mən də. Ancaq deyər, Allahşükür Paşazadənin dediyini deyirəm. Qorxusundan deyir. İndi soruş görüm Allahşükür nə deyir?! Heç nə demir, səni aldadır, sən də qorxursan. Mən sənə həqiqətdən danışıram. Səni cəsarətə çağırıram, səni ləyaqətə çağırıram... İnsan o vaxt cəsarətli olur, içi doğru olur, düşüncəsi doğru olur. Qəlbi doğru döyünür. İçi düz olan adam niyə qorxmalıdır?! Əgər insan istəyirsə yaşasın, azad olsun, o, doğru yaşamalıdır, qorxudan çıxmalıdır. Cəsarət heç də "yetənə yetib,

yetməyənə bir daş atmaq" deyil. Mən də özümü dəli oğlanlığa vurum, meydana atım – bu cəsarət deyil, avantüradır, axmaqlıqdır. Cəsarətin arxasında həqiqət sevgisi var. Cəsarətin arxasında insan sevgisi var. Cəsarətin arxasında vətən sevgisi var. Cəsarətin arxasında Allah (yəni Mütləq) sevgisi var. Bir nəfər bəşər övladı mənə göstərin, o, Allahı sevir. Sevmir. Bir var dünya, həyat, insan. Dünyanın içsəl nizamı. Dünya deyəndə mən bütün kainatı deyirəm. Dünyanın nizamı, uyumu. Bir var Allah anlamı bu uyumda, nizamda, bir də var toplumsal yaşamda, insan ömründə. Biz ona deyirik Mütləq. Mütləq – insanı qorxudan Allah deyil. Mütləq kainatın içsəl qüdrətidir, nizamıdır. O, dünyada, həyatda, insanda özünü göstərir. Dünyanın nizamı var. Qalaktikada bütün planetlərin bir-birinə qarşılıqlı etkisi var. O sistem pozulmayıb, yenə də var. Toplumsal həyatda isə pozulub. Toplumsal nizamın pozulmasında hər kəsin qatqısı var. Yalan danışmağınla, oğurluq eləməyinlə, qonşunu aldatmağınla, onun cibinə girməyinlə, xalqı məhv eləməyinlə qatqın var. Hardadır Allah?! Axı Allahın adı ədalətdir, vicdandır, Allahın adı insan sevgisidir. Bütün bunlar Allahın məzmunudur, hanı o məzmun. Göstər toplumda mənə. Yaşadırsanmı onu?! – Yaşatmırsan. Göstər mənə Allahlı olduğunu. Allahsızsan. Bəs kimdir Allahlı – mən. O məzmunu yaşadıram. O məzmunla yaşayıram. Məsələnin mahiyətini burda axtarmaq gərək. Yoxsa avamcasına, müticəsinə gündə "Allah" sözünü çox işlədəndə adam Allahlı olmur. "Allah" sözünü çox işlədirsən, ancaq oğurluq edirsən, çapqınlıq edirsən, əyrilik edirsən. İndi "Allahu əkbər" deyib baş kəsirlər. Suriyada, İraqda, orda-burda, Allahın adını çəkir, baş kəsir. İnsanın başı kəsməkdə yerə-göyə sığmayan Allahsızlıq var. İnsanı öldürməklə Allahı öldürürsən. O insan Allah məzmunu daşıyır. Sən onu öldürməklə Allahsızlıq edirsən. Asif Ata deyir, insanı qurtarmaq gərəkdir. Bunun üçün onu təzadların içindən çıxartmaq gərəkdir. Bəs insan hansı təzadların içindədir, bu nə deməkdir?! – İnsan bioloji, fiziki varlıq kimi adi, bəsit duyğulara bağlıdır. Həmin adi, bəsit duyğularda yalan da var, meşşanlıq da var, dünyagirlik də var, həsəd də var, xudbinlik i.a. hamısı var. Asif Ata deyir, sən özündə yüksək duyğuları tapmasan, Mütləqi aşkarlamasan, səninlə canavarın arasında fərq silinəcək. Səninlə qoyunun

arasında fərq silinəcək. İstəyirsən qoyunla sənin arandakı sınır bəlli olsun, onda həmin fərqi aşkarlamalısan, o fərqlə yaşamalısan. Onunla yaşadıqca sən təzadlardan çıxacaqsan. Onda deməyəcəksən, ay Asif Ata, küçənin ortasında dilənənə deyirsən insan?! Mən də sənə deyəcəm, küçənin ortasında dilənən sənin mənliyini öldürdüyündür. O, orda dilənirsə, deməli, Allah ölüb. Allahı öldürmüsən. Allahı diriltmək istəyirsənsə, özünü var et. İnsan böyüklüyü ona görə gərəkdir. Asif Ata ona görə deyir, "İnsanlaşın – İnsanlaşdırın. Bəşərin nicatı İnsanlaşmaqdadır". Nəsimi nə deyir – həm şaham, həm dilənçiyəm, həm Allaham, həqqəm. Baxırsan, həm dilənçi insan, həm əzazil şah, Allah insan, böyük insan. Nə qədər ki, insan içindəki balaca sınırı aşmayıb, ondan dilənçi də gözlə, oğru da gözlə, əclaf da gözlə. Ondan yüksək varlıq gözləmə. Ondan dünyanın əşrəfi gözləmə. Dünyanın əşrəfi kimdir – içindəki balacalıqları ötən. Ona görə özüylədöyüş ideyası verib Asif Ata. Özüylədöyüş – özgəylədöyüş yox...

Dünya qana qərq olub. Mən Sabir Yanardağ adlı bir alimin 600 səhifəlik bir kitabını oxumuşam, özünü də redaktə edirəm. O, yunan mifologiyasına dayanıb bəşəriyyətdəki antitərəqqini vurğu edir. Axillesin Troyalılarla döyüşünü təsvir edir. Deyir, Axilles Allahın nəvəsidir. Axilles müsbət qəhrəmandır. Ancaq o, dostu Patrokl öləndən sonra Hektorla döyüşə gedir. Yerə-göyə sığmayan kinlə gedir, canavar kimi gedir, qan su yerinə axır. Çay ayağa durur ki, əl saxla, sənin tökdüyün qandan mən axıb dənizə yol tapmıram. Qan-qada mənə mane olur. Təbiət dilə gəlir. Təbiət qana qərq olur. Axilles deyir, mən qisas almayınca dayanmayacam. Çaylar şahə qalxır, qayalar onun belinə minir. Təbiət mane olmağa çalışır azğın döyüşlərə. Yazar araşdırır, deyir ki, onun soyu-kökü Allaha dayanır. Bir halda ki, Allaha bağlı olan da bu qədər qan-qada, qırğın törədirsə, dünyanın halına baxın onda. Gör dünya nə gündədir.

Dünən tarixdə böyük qırğınlar törənib. Qan su yerinə axıb, qılıncla-qalxanla, sonra top-tüfənglə. Bu gün də iqtisadi siyasət deyirlər. Bu gün böyük dünya dövlətləri arasında savaş getmir. Üçüncü Dünya Savaşı hələ yoxdur. Bir vaxtlar qamarlamaq üçün qılıncını çəkib qıranlar, qamarlamaq üçün topu-tüfəngi tuşlayanlar,

qan tökənlər bu gün iqtisadi siyasət deyilən tülkülüklə, bicliklə, məkrlə, murdarlıqla dünya xalqlarını talayırlar. Bunlar savaşdan daha betərdir. Adını qoyur sivilizasiya. Adını qoyur azadlıq. Adını qoyur yeni dünya halı, dünya nizamı. Görün qandan-qadadan nə fərqi var. Həmin qan-qada davam edir. Ona görə davam edir ki, insan öz mahiyətinə bərabər yaşamır. İnsan Asif Atanın dediyi kimi yaşamır...

İkinci bir söz, mollaya yasda meydan verirsən danışır. Mollanın danışmağa haqqı yoxdur. Çünkü molla bir dəfə də olsun böyüklərin kitabını qabağına qoyub oxumayıb. Ərəb dilində Quranı oxyub, içini də qanmır, dünyanın mahiyətini dərk eləmir. Durub deyir, biz heç nəyik, hər şey "göydəki"dir. Allahla insan arasında uçurum yaradır. Hamısı O`dur, biz nəçiyik.

İndi mən deyirəm, əgər biz heç nəyiksə… yuxarıda vurğuladığımız kimi, heç nə zibil deməkdir, yalnız zibil heç nədir, yəni tullantıdır, heç nəyə yaramır. Sən əgər zibilsənsə, mən sənə niyə sayğı duymalıyam. Dünya ona görə əyilib ki, sən heç nəsən, zibilsən. Ona görə heç kim heç kimə inanmır, heç kim heç kimə sayğı bəsləmir. Sən bunu yaradırsan ağıllarda, sən xəyanət edirsən bəşəriyyətə. Olanaq yaratmırsan insan insana inansın, insan insanı sevsin, insan insanı hər şey saysın. Yaratsın özünü, hər şey saysın. İçindəki böyüklüyü görsün, hər şey saysın. Sən ona olanaq vermirsən, sən zibilsən, heç nəsən. İnsanı heç nə saymaqla, zibil qutusuna tullanacaq qədər dəyərsiz saymaqla bütün dünyada toplumsal həyatın nizamını pozursan. Özün də oturursan, barmağında Ərəbistandan gəlmiş yekə üzük, təsbeh fırlayırsan. Hamıya da üstdən aşağı baxırsan. "Mən sizin kimi heç nələrin, balacaların böyüyəm, məni dinləməlisiniz" əhvalıyla. Bu, İnsanlğın fəlakətidir. Deyirsən, dünyanın uyumu, nizamı pozulub, qiyamət yaxınlaşır. Deyirsən Peyğəmbərlər deyir, zaman gələcək, insan insanın ətini yeyəcək, qiyamət qopacaq, dünya məhv olacaq. Mənə muştuluq xəbəri verirsən?! Bəs neyləyim, onu göstər mənə. Mənə qurtuluş yolu ver, İnsanlığı qurtarım. Mənə "uzaqgörənliyinlə" muştuluq demə. İnsanlığı qurtarmaq istəyirəm. Qiyamətin qabağını almaq istəyirəm. Əgər qiyamət qaçılmazdırsa, onda sənin Allahının da mənası yoxdur, dinin də, insanın da, bəşərin də, heç nəyin mənası yoxdur. Hər şey məhv olub gedirsə, hər şey məhv olmağa məhkum-

dursa, onda sevgi nə deməkdir, vətən nə deməkdir, millət, ləyaqət, namus nə deməkdir?! İnsanın ağlını tamğalamaq (möhürləmək) olmaz. İnsan idrakına yasaq qoymaq olmaz. İnsan dünyaya gəlir ki, Allahın sirlərinə yetsin. Allahın sirləri gözəldir, yüksəkdir, onları bilməlisən ki, gözəl işlər görəsən. Böyük həqiqətlərə yetə biləsən. Gözəllikləri dərk edəsən. Dərk eləməsən, insan qəlbinin gözəlliklərini kəşf eləyə bilməzsən, aşkarlaya bilməzsən. İnsan qəlbinin gözəllikləri heç olar. Onda nəyimə gərəksən?! İsa yaxşı adamdır, ancaq mənim nəyimə gərəkdir ki, onun rolu, etkisi yoxdur. Ya Məhəmməd, nəyimə gərəksən ki, mənə muştuluq verirsən, qiyamət qopacaq. İsa da, Məhəmməd də, siz ona görə gözəl idiniz ki, dünyanın əyilməsini gördünüz, ağladınız ki, belə getməz. Ancaq siz bu gün gözəl deyilsiniz, bu gün yeniliyin qabağını kəsirsiniz. 7-ci yüzil, ya da 1-ci yüzil, quldarlıq quruluşuna, ya da feodalizm quruluşuna çağırırsınız insanları. Burda müqəddəslik yoxdur. Burda xəyanət var. Qorxudurlar insanı, öldürürlər insanı. Məhəmməd ayələrində insanı hədələyir ki, qan-irin içə-içə boğulacaqsan. Gerçəklikdə onu padşahlar həyata keçirir. Bizdə Heydər Əliyev elədi onu. Millətçi oğulları qan-irin içirdə-içirdə öldürdü. Dindən gələn mütiliyin sonucudur bunlar. İnsana deyirlər, başınızı sallayın, qoyun olun. Nə Məhəmmədin işinə qarışın, 7-ci yüzildə nə deyib deyib, nə də siyasi anlamda bu gün Heydər Əliyevin işinə qarışmayın... Mənim qarışmaq haqqım var, görüm sən bu gün mənə nə deyirsən?! Mən millət olmaq istəyirəm. Mən insan olmaq istəyirəm, millətim məhv olub gedir. 15 yerə parçalanmışam. Təbriz o yanda, Borçalı, Dəmirqapı o yanda. Sən ağzıma yumruq dirəmisən, sus demisən, susmuşam, kor ol demisən, kor olmuşam. Ona görə parçalanmışam. Göydə Allah, yerdə hökmdar ideyası ilə məhv eləmisən milləti. Allahşükür Paşazadəni Prezident niyə qoruyur?! Çünkü padşahı Allahın yerdəki nümayəndəsi kimi dəstəkləyir. Hələ demirəm Paşazadə kapitalistdir. Ancaq bir nəfər dindar adam göstərin ki, ona etiraz edir. Prezident avam, sürü kütləni Allahşükürlərin əliylə yönətir, özünə boyun əydirir, talançılığının yolundan "əngəlləri" götürür. Ona polkovnik rütbəli dindar şeyxlər gərəkdir. Onların diliylə mənə deyir, kor ol, kar ol, danışma. Allahın işinə qarışma. Allahın işinə qarışma o deməkdir ki,

mənim də işimə qarışma. Mən sənin işinə qarışmaram, əgər sənin işin gözəl iş olsa. Allahın işi yoxdur, sirri var. Allahın sirlərini sevə-sevə yetirəm. Gözəllikləri bilməliyəm ki, mən ona əməl eləyim. Gözəlliyi bilməsəm necə əməl eləyəcəm. Qoyun əməl edir?! Başını aşağı salıb otlayır da. Sən də mənə deyirsən, qoyun ol, müti ol. Mən qoyun olsam, hansı gözəllikləri yaşadacam. Bilmirəm axı gözəllik nədir, çirkinlik nə?! Bilmək üçün də düşünməliyəm, ağlım olmalıdır, qəlbim işləməlidir, böyüməlidir...

Mənim Amallaşmam – insanı təzadların içindən çıxartmaq yönündədir. Mən bu yöndən hər gün işləyirəm, düşüncələrimi yazıram, sunuram.

Biz bəşəriyyətin yaratdığı, yaşatdığı heç bir yaxşı şeyə etiraz etmirik, sevirik. Remarkın kitabını oxuyuram. Onun əsərini oxyub “Tərəqqi, antitərəqqi” adında yazı yazmaq istəyirəm. Bu dediklərimizin hamısını əsaslandırıb yazacam orda. Bizə tərəqqi adına sırınan nə varsa, hamısı antitərəqqidir, antiinsanidir. Burada məndən rüşvət alır, məni hədələyir, mənim qolumu burur, həbsə soxur, televiziyada da danışır ki, mən xalqımı sevirəm, hər şey də yaxşıdır...

Xalqlaşma işimiz də uğurludur, az da olsa. Bizim Bakıda çoxsaylı tədbirlərimiz keçir. O tədbirlərimizə adamlar gəlir. Bizim qapımız bütün Azərbaycan toplumunun üzünə açıqdır. Hər kəs gəlib dinləyə, düşüncələrini deyə bilər. Heç kimin də ağzına vurmuruq, niyə belə deyir, düşüncəsinə də yasaq qoymuruq. Ancaq bizi öyrətməyə qarşıyıq. Mənim dediklərimi doğru saymırsan, özün bil, ancaq mənə ağıl öyrətmə. Mən düşüncə işi ilə hər gün uğraşıram. Mənim hər gün bireysəl görüşlərim olur. Bizim çoxsaylı səfərlərimiz olur. Bölgələrə səfərlər edirik, Azərbaycanı qarış-qarış gəzirik. Ancaq burda bir Ailəyik, burda özümüzün yaratdığımız, yaşadığımız olayların hesabatını veririk.

Borçalıda, Azərbaycanın onlarca bölgələrində, kəndlərində görüşlər keçirmişik. Gəncliyinə, sadə insanlara, aydınına, fəhləsinə, hər kəsə söz demişik. Seçilmiş adam yoxdur bizim üçün. Son iki ayda Bakının 20-yə qədər məktəblərində görüşlərimiz keçib. Türkiyədə yazılarımız çap olundu. Yaxın keçmişdə Nurtəkin, Göylü Türkiyədə görüşlər keçirdilər. Ancaq bunlar çox azdır. Vətən böyükdür, geniş-

dir. Türk Dünyası böyükdür. Davamlı iş aparmaq gərək. Hələ çox işlər görülməlidir. Təkcə bizim ölkə deyil, bütün Türk Dünyası yatıb cəhalətin altında...

Hər bir insan təkdir. Qohumun, qardaşın həm var, həm də yoxdur. Ürək qızdıra bilmirsən, ərk eləyə bilmirsən, bircə şey istəyə bilmirsən. Çünkü heç kim heç kimə inanmır. Hər kəs özü üçündür. Biz özümüz də, toplumda təkik. Asif Atanın insanlaşma ortamı var. Biz hamımız orda gəlib birləşmişik. Öz dünyamız yaranıb. Ona görə biz mübarizə aparırıq, boğulmuruq. Toplum boğulmalı ortamdır. Adamın ürəyinə işıq salan yaxşı bir şey yoxdur. Hara istəyirsiniz gedin, yaxşı bir şey tapa bilmirsiniz. Biz, insan olaraq, cücü kimi doğulub böyüyürük. Heyvan kimi işləyib ölürük, torpağa qarışırıq. Axı belə insan ömrü olmaz. Belə insan dünyaya niyə gəlib, niyə gedir?! Dünyanı anlamır, insanlığı dərk eləmir. Bütün bunların hamısı Asif Atanın öyrətisində (təlimində), baxışında, görüşündə var... Asif Ata özünü xalqa sırımağa gəlmədi, qurtarmağa gəldi.

İndi bu soruya cavab verək: İxtiyarımı Ocağa vermişəmmi?! Vermişəmsə, bu, Ocaq azadlığımı əlimdən alır anlamına gəlirmi?! – İxtiyarım nə deməkdir?! Yuxarıda vurğu etdim: insanı sürüyə çevirirlər. İnsanın özünü insan kimi duymasına olanaq yaratmırlar. Nə din, nə molla, nə prezident, nə icra başçısı, nə heç bir məmur. Heç kim qoymur insan rahat nəfəs alsın, adama oxşasın. İnsan özü də buna çalışmır. Hər kəs səhərdən axşama heyvan kimi işləyir ki, bir tikə çörək qazansın, balaları acından ölməsin. Halbuki insan gününün 3-5 saatını çörək qazanmağa ayırsa balalarını dolandırar, yerdə qalan 3-5 saatını özünə ayırar. Düşünər mən kiməm, dünya nədir. Özünü insan kimi duyar. Buna olanaq yoxdur. Sutkanın 24 saatını işlə, yenə də balaların ac qalır. Nizam belə pozulub. Biz deyirik, ixtiyarımı Ocağa vermişəm. Bu o deməkdir, Ocaq-Asif Ata, bu xalqın özülünü yaradır, istəyir ki, bu xalqın içində qeyrətli, qüdrətli şəxsiyyətlər yaransın, bu xalqı qurtarsın. Gələcəkdə dövlətinin başına da bu xalqın qeyrətli, qüdrətli oğulları gəlsin. Bir soy özündən öncəki soyun eybəcərliklərini davam eləməsin. Yəni bəşəriyyətin insani nizamının yaranmasına çalışır. Mən də bunu istəyirəm, heyvan kimi yaşamaq istəmirəm. Bu gün dünya necədir özü bilər, mən heyvan kimi yaşa-

maq istəmirəm. Yalançılıqla, murdarlıqla yaşamaq istəmirəm. İnsan kimi yaşamaq istəyirəm. İxtiyarımı Ocağa vermişəm ki, məni insan olmağa böyütsün. Mən də onun ideallarını yaşadım ki, qohumum, qardaşım, ulusum, hamı fəlakətdən çıxsın. İxtiyarımı ona görə vermişəm. Bu, mənim azadlığımı məhdudlaşdırmır, sürüdən ayırır. İxtiyarımı Ocağa verməyəndə sürüyə verirəm. Sürünün içində yaşamalı oluruq, hara baxırsan adamın ürəyi ağrıyır. Bir milli gələnəyimiz, dəyərimiz, ləyaqətimiz qalmayıb, geyimimizdən tutmuş davranışımıza qədər özgələşmişik. Küçələrimizin hər yerində ingilis sözləri. Bir milli anlayışa rast gəlmirsən ki, ürəyinə işıq düşsün. Ürəyə işıq düşməyən bir ortamda yaşamaq azadlıq deyil, əsarətdir, əzabdır. Necə ola bilər, ömrümü bundan çıxmağa bağlamağım azadlığımın qısıtlanması sayılsın?! Ona görə ixtiyarımı vermişəm, məni böyüt, ürəyimi qanadlandır, sənin sevdiyin millətinə qulluq edim. Fədaisi olum sənin həqiqətiyin, millətinin... Allahı diriltmək gərəkdir. Allahsızlıq dünyanı bürüyüb.

Başqa bir soru: Xalq qəhrəmanlar doğa bilir, ancaq qəhrəmanlarını eşitmir. Bu nədən belədir?! – Var tarixi qəhrəman, var bu günün qəhrəmanı, Gələcəyin qəhrəmanı. Əslində tarixi qəhrəman həm də Gələcəyin qəhrəmanıdır. Qəhrəman 5 günün qəhrəmanı olmur. Biz çox vaxt Babəkin adını çəkirik. Çünkü Babəkin qəhrəmanlığında ulusal qurtuluş var. Babək deyir, millət kölə kimi boyunduruqda yaşamamalıdır. Heç bir millətin haqqı yoxdur, başqa bir milləti boyunduruqda saxlasın. Biz demirik, bizim millətimiz birləşsin, başqa millətin gözünü deşsin. Nəyimə gərəkdir sənin böyüklüyün onda. Millətçilik o demək deyil, başqa xalqların gözünü deşəsən. Millətçilik odur, sən öz millətinin ləyaqətini ayağa qaldır. Millətinin gələcəyini qur, başqa xalqların əsarəti üzərində yox. Babək ulusal azadlıq məsələsinin həm də yaradıcısı idi. O, tarixdə qalmış qəhrəman deyil, gələcəkli qəhrəmandır. Babək olmasaydı, deyərdik, bu millət belə gəlib, belə də gedəcək. Kimsə elə deyəndə mən deyirəm, bəs Babək kimdir, Nəsimi kimdir?! Sənin xalqının içindən oğullar çıxıb. Sənin qeyrətin ayağa duracaq bir gün. Eşitməlisən sən bu harayı. Xalqın içindən oğlu-qızı qabağa durursa, onu eşitmək gərəkdir. Onu eşitməklə sən onun qapısında kotan çəkmirsən. Öz

Ləyaqətini dərk edirsən. Öz insani, milli kimliyini dərk edirsən. Bəs niyə eşitmir?! Min illərdir, bizim içimizdə ideyamız, ideologiyamız, üzümüzün ifadəsi, gözümüzün baxarı, hər şeyimiz özgələşib. Milli mənliyimiz, milli ruhumuz özgələşib, yadlaşıb. Yadlıq oturub içimizdə. Mayamızı korlayıblar. Doğduğumuzu sevə bilmirik, böyüdə bilmirik. Hardasa dayanmaq, üzünü öz qibləsinə, millətinə tutmaq gərəkdi. Mən böyüklüyü rusdan, ərəbdən, ingilisdən, farsdan daşımalı deyiləm. Niyə bu kənddən böyük kişi olmasın?! Niyə bu kəndi müqəddəsləşdirməyəsən?! Haranı öyərsən, ora da olar müqəddəs. Sən öz vətəninə tüpürürsən, başqalarının vətənini ziyarətə çevirirsən. Sənin vətənin olur heç, başqalarının vətəni olur müqəddəs. Göstər səadətini, göstər ləyaqətini... Ona görə sürüdən çıxmaq gərəkdir. Həqiqət sözünü dinləməkdən qorxmaq gərək deyil. Peyğəmbərləri, dinləri Asif Atadan qorumaq gərək deyil. Asif Ata gözəlliklərin yiyəsidir. Dünyanın ayrı-ayrı xalqlarının gözəlliklərini məndən qorumayın, mən onlara hücum eləməyəcəm. Yaxşı nə varsa, onun yiyəsiyəm. Mənim dizimin dibində oturub boğazdan yuxarı haqdan, ədalətdən danışma. Mən haqqı, ədaləti tanıyıram. Ömrümü buna vermişəm. Sizi də bir soydaşım olaraq buna çağırıram, xalqınızın gələcəyini düşünürsünüzsə, Asif Atanı dinləməkdən, öyrənməkdən qorxmayın. İçinizdə həqiqəti tapın. Onda zaman-zaman insan yaşamaq üçün ümid tapır.

İnsan böyüklüyü səcdəyə layiqdir. Asif Ata ona görə "Oldu" ki, xalqın içindən böyük şəxsiyyətlər yaransın, xalqına yiyə çıxsın. O cür əmək qoyan, ideya qoyan, baxış qoyan insan qutsaldır...

## *Ailə Günü*

*(27 Şölə Ay, 36-cı il)*

“Ailə Günü”nün önəmi bir cəhətdən başqa toplantılarımızdan qabaqdadır. Nə üçün?! – Üç insanın, ya da beş insanın ayda bir yol toplantı keçirməsi, 3-5 qonaq çağırması məsələnin üzdən görünən yanıdır. Məsələnin dərinliyində daha ciddi anlam var. Xalq həmişə çaşanda, büdrəyəndə, nələrisə itirəndə dönüb tarixinə baxır. Nə etməli olduğunu bilmək üçün tarixdə örnək axtarır. Görsün onun tarixində olan böyüklər nə deyir?! Məsələn, biz, milli açıdan axsayanda, nələrsə itirəndə öz tarixi şəxsiyyətlərimizə üz tuturuq. Onların adını daha çox çəkirik. Onların nə dediyini, nələr elədiyini çox insanlar bilməsə də, nikbinlik qaynağıdır, tapınmalı olan bir dəyərdir. Buna görə də Babəkin, Dədə Qorqudun adı çəkilir. Onlardan örnək axtarılır. Düşüncəli insanlar rahatsız olur, xalq yıxılır, devrilir, neyləyək yıxılmasın, devrilməsin. Bu açıdan Asif Atanın düşündüyü Ruhani Ailə biçimi hər birey üçün öz ömrünü örnəyə çevirmək ortamıdır. Xalqın yaşaya bilmədiyi, ancaq yaşatmaq istədiyi nə varsa, onları öz ömrünə gətirməli, gəlişdirməli, yeni aşamaya qaldırmalı, öz ömründən xalqa örnək göstərməlidir. Asif Atanın Ocağında sərgilənən axtarışlar, düşüncələr, özüylə bağlı həqiqətlər hamısı belə bir örnəkdir. Söz yox, sən bunu örnək kimi düşünmürsən. Sən istəyirsən, içindəki balaca yaşantılardan ayrılasan. İstəyirsən balaca duyğulardan azad olasan. Bu istəklə sən həm özüylə döyüşürsən, həm də özüylə döyüşünün gedişini hesabat verirsən. Bu baxımdan “Ailə Günü” törəni Ocağın o biri toplantılarından bir addım qabağadır.

Amallaşma haqqında hesabat verirsən. Nə öyrənirsən, necə öyrənirsən?! Söz yox, bunu biz Ailə Gününə bir-iki gün qalmış, qarşımıza dəftər-kitabı qoyub öyrənmək, yazmaq, iki gündən sonra da bunu tədbirdə durub demək məqsədi güdmürük. Bu, doğru deyil heç. Hər bir Ocaq insanı, Ocağın qapısını açdığı gündən başlayaraq, Ocağın tələbləri əsasında yaşamağa borcludur. Asif Atanın tələbləri əsasında özünü qurmaq istəyir. Asif Atanın kitablarını oxuyur, dünyanın kitablarını oxuyur, araşdırır. Araşdırdıqca düşüncələri forma-

laşır, öz ömründə tapdığı, insan kimi yaşamağa əngəl yaradan duyğularla üz-üzə qalır. Onlardan necə ayrılım, necə əl çəkim?! Bunların hamısı özünüqurma nizamına çevrilir. Bir var ömrün nizamı, bir də var ömürdə özünü qurma nizamı. Ömür özü tam nizamlı olmaya bilər, ancaq ömrün qurulma nizamı var. Ömrün qurulma nizamı, dediyim kimi, daim oxuyursan, öyrənirsən, qüsurlarını tanıyırsan, dəyərləri tanıyırsan. Bu, Ocaqda Evladın Amallaşma gedişidir.

İkinci, Kamillşmə gedişidir. Düşündükcə, öyrəndikcə, oxuduqca, ideallarınla görüşdükcə, görürsən ki, sənin ömrün ideallarından çox aşağıdır. İdeallarına doğma deyil. Nədə ideallarına doğmadır, nədə deyil? Bunu axtarırsan. Nədə ideallarına doğma deyilsənsə, bunu yaradan səbəbləri bəlirləyirsən, ideallarına doğmalaşmaqda qarşına çıxan əngəlləri ötürsən. Ötdüyün proseslərin özünü də özüylədöyüş adlandırırsan, onun hesabatını verirsən. Gündəlikdə yazırsan i.a.

Üçüncü hesabat xalqlaşmadır. Xalqlaşma hesabatının özülündə nə durur?! Ocaqçı daim Asif Atanın dediyi prinsiplərlə yüklü ideya xurcununu çiyninə almalı, xalqın içində olmalıdır. Xalqın içi Bakı küçələrinin içində o baş-bu başa getmək deyil. Xalqın içi Azərbaycanın o başından-bu başına hər yeri qapsayır, düşünülmüş şəkildə ayrı-ayrı ünvanlarda insanlarla üz-üzə oturub söhbət eləməkdir, iş aparmaqdır. Bildiyini, öyrəndiyini ona deməkdir. Bizə elə gəlir, xalqa hər şey bəllidir. Heç nə bəlli deyil. Yalnız həyatı adi qaydada necə yaşamaq gərəkdiyi bəllidir. Heç o da düz-əməli bəlli deyil. Ancaq xalq olmağın yolu, tələbi nədir, bəlli deyil. Onu verirsən. Xalqın oxumuşları belə, çoxluq olaraq, elə bilirlər, hər şeyi bilirlər. Bilmirlər.

Baxın, Asif Atanın belə bir prinsiplə irəli durması, bizim gözümüzü açması, yönəltməsi nə qədər ciddi etki doğurursa, onun gərəkliyi bir o qədər "Ailə Günü"ndə öz əksini tapır.

İndi sizin düşündüyünüz məqamlarla bağlı bəzi şeylər demək istəyirəm. Nurtəkinin deyir, mən günahsızlığımı sübut etməyə çalışırdım. Açıqlama da verir, özünü doğrultmurdu deyə. Doğru, günahsızlıq sözlə sübut olunmur. Günahsızlıq yaşanır. Nə qədər sübut edirsən, bir o qədər yanlışa yol verirsən. Ruhaniyyatçı olmaq, ruhaniyyatçı kimi yaşamaq çox çətindir, hər adamın işi deyil. Ruhaniyyatçı olmağın tələbləri var: Sənin səbrin fil səbri olmalıdır. Sənin

çiynin dağ qədər tutumlu, dözümlü olmalıdır. Yükə hazır olmalıdır. Sənin idrakıyın gücü daşı kəsməlidir.

Sonra qonu ilə bağlı: “İnsana inamla Allaha inam arasında nə kimi bağlılıq olmalıdır, toplum ruhani məzmunu anlayıb onunla yaşaya bilsin”. Nə deməkdir bu?! – İnsana inamla Allaha inam məsələsi. Bu gün sən nə qədər desən də göydə Allah-filan yoxdur, toplum deyir var. Toplum dərinmi dərk edir ki, var?! Məsələ ondadır ki, insanın içində, şüurunda belə bir məzmun var. O şüuru insandan heç vaxt ala bilməzsən. Ateistlər, materialistlər nə qədər çalışdılar, insanın o yapısındakı məzmuna etki göstərə bilmədilər. Sadəcə olaraq, o “Var”ı insan düzgün dərk eləmir. O “Var”ı da ona düzgün anladan yoxdur. Peyğəmbərlər o məzmunu insanlara düzgün verə bilmədilər. Qəbul olunan Allah adamın bütün olanaqlarını, ixtiyarını özündə toplayıb onu yönətən transsendental bir şeydir. Bu da yoxdur əslində. Bəs nə var?! O “nə var”ı verməsən, topluma nə deyirsən, nə eləyirsən elə, nəinki ciddi xalq yaradacaqsan, onu tərbiyə də edə bilməyəcəksən. Alınmır.

Dinin münasibətilə İnamın münasibətinin ayrıntılarını bir misalla açıqlamaq istəyirəm. Adamın biri deyir, tufandan qorunmaq üçün ağacları bir-birinə çatıb nəsə düzəltmək gərəkdir, adamlar daldalansın. O biri də deyir, ikiqat daşdan ev tikmək gərəkdir. Bəsit də olsa, bu paralellik, deyirəm. İkisi də düzə oxşayır. Birinci halda sən bilirsən, tufan sənin ağacdan çatıb qurduğunu götürəcək. Deməli, elə şey qurmalısan, götürməsin. Dinlə İnamın ayrıntısı ondadır. Din deyir, şax-şəvəldən bir şey düzəlt, İnam deyir, ikiqat divar qaldır.

Din də deyir insan kamil olmalıdır, İnam da. Qıraqdan da baxan deyir, ikisi də eyni şey deyir. Ancaq girirsən içinə. Din deyir, insanın kamilləşməsi üçün namaz qılmalıdır, oruc tutmalıdır, ibadət eləməlidir, qonşunun malına daş atmamalıdır. Bu, ən yaxşı halda tərbiyədir. Ancaq bu tərbiyə insanın içini, onun yetkinliyini üzə çıxarmır. Sən bu tərbiyə ilə dünyanın gedişinin qarşısında tab gətirə bilmirsən. Bu tərbiyə gec, ya tez gücünü itirir. Bu tərbiyə ilə sən nə insan ola bilirsən, nə xalq ola bilirsən, nə bəşər ola bilirsən. İnam bizə deyir, sənin içində Allah var, yəni Mütləq olan var. İçində böyük məzmun var, sən onu üzə çıxarmalısan, göylərin sirlərinə yetməlisən. Sən o

sirrə yetməyincə, qəlbiyin gözəllikləri bilinməyəcək. Mənim qəlbimə işıq salmayacaq. Ata deyir, içində Mütləq gəzdirirsən, özünü Onunla tutuşdur. Din deyir, özünü molla ilə tutuşdur, Allahla tutuşdura bilməzsən. İnam deyir, yalnız Mütləq olan həqiqidir. Nə edirsən et, o, Mütləqə uyğun olmalıdır. Dünya əyilib, dünyanı düzəltmək üçün insan özünü yalnız Mütləqlə tutuşdurmalıdır...

İnsanın mahiyətində elə balaca şeylər tapırlar, o balaca şeylər insana inamın yolunu kəsir. Birinə deyirsən insan içində Mütləq gəzdirir, o da səndən soruşur, o küçədə oturub əlini açan insan?! Nəsimi deyirdi, həm dilənçiyəm, həm şaham, həm həqqəm. İnsanda o da var, bu da var. İnsan o vaxt dilənçidir, içindəki həqiqətdən ayrılır. Öz aqibətinə yiyə çıxa bilmir. İnsan o vaxt "şah"dır, içindəki heyvani duyğularla, ehtiraslarla yaşayır. İnsan o vaxt Həqdir, içindəki həqiqətin tələbiylə nəfəs alır, yaşayır. İnsan təzadlar dünyasındadır. Təzadlar biçimidir insan. Onun biolojiliyinin etkisindən gələn dilənçilik də var, azğın şahlıq da. Ancaq onun içində İnsanlıq hikmətindən gələn Həqq də var. Ona qovuşmalıdır. İnsan ona görə doğulur, yaranır, ona qovuşsun. Ona görə doğulmur, gerçəkliyə, biolojiliyə bərabər qalsın. Təzadların içindən çıxmaq gərəkdir. Asif Ata bizi təzadlardan çıxmağa çağırır. Sən həm bədənsən, həm də ruhani xilqətsən. Mahiyətində filan şey, gerçəkliyində ayrı şeydir. Gerçəkliyin də səni öləriyə bağlayır. Mövcud olmaq məsələsi var. Mövcud olmaq üçün həyat uğrunda mübarizə aparmaq məsələsi var. Ən adi, bəsit, ibtidai səviyyələrə enmək məsələsi var. Qamarlamaq üçün, rəqabət aparmaq üçün, rəqabətdə üstünlük əldə eləmək üçün i.a. Bunlar səni heyvana bağlayır. Heyvan kimi saxlayır, heyvan kimi də öldürür. Ancaq sən içinlə əlləşdikcə, içindəki əsrarı üzə çıxarırsan. Mütləqi tanıdıqca özünü öz mənana bərabər görürsən. Öz mənana bərabər yaşayırsan. Öz mənana bərabər yaşadığın üçün də sənin ömründən həyata işıq gəlir. Sən mühiti dəyişə bilirsən. Sənin dediyin ölçü olur, ömrün ölçü olur. İnsanlar böyük hikmətlərə öz içinin tələbi ilə yanaşır. Ancaq öz fiziki, bioloji pəncərəsindən baxanda deyir, bunlar yaxşı şeydir, ancaq olası deyil. Olası deyilsə, niyə yaşayırıq?! Yaxşıdırsa, baş tutmalıdır. Baş tutmayacaqsa (mümkün olmayacaqsa), yaxşı deyil. Sən öz içinin balaca havasından baxırsan,

deyirsən, baş tutan deyil. Onda bir adam mənə göstərin, yeyib-içəndə, toylarda danışmaq üşün söz verəndə desin, hər şey murdardır, düzələn deyil. Başlayacaq yaxşı şeylərdən danışmağa. Niyə yaxşı şeylərdən danışırsan əgər düzəlməyəcəksə. Yaxşı şeydən danışırsan ki, yaxşı şey örnək olsun. Yaxşı şey ağlımıza otursun, əməlimizə otursun. Ağlına gələn nədirsə, əlinə qonan da odur. Ağlına gözəl şeylər gətir ki, əlin də gözəl şeylər yaratsın. Ancaq ağlını gah toplumun eybəcərliyinin, xurafatının, gah da yaxşı sözlərin yanına daşıma. Ağlını daim Xeyirlə doldur. Bax, bu mənada insanı təzadların içndən çıxarmaq gərəkdir. Bunun da yolu Asif Atadır, din deyil, fəlsəfələr deyil. **Asif Ata Böyük Ruhani Sistemdir**. Ruhaniyyat insanı təzadların içindən çıxarır.

Deyirsən, insan hara baxır bədbinlik görür. Ancaq təzadların içindən çıxandan sonra hara baxsan, orda məna görərsən. Poeziya nədən yaranır?! Ağaca baxırsan, məna görürsən, quşun uçuşunda məna görürsən. Göylərə baxırsan, əsrar səni çəkib aparır, qanadlandırır. Hara baxırsan mənanı görmək gərəkdir. Mənanı gördükcə ürəyin böyüyür. Mənanı göstərən hikmət ölçü olmalıdır. Buna görə Ocaqçınıın özünə də, başqasına da dediyi bir anlam daşımalıdır – özünə sözlə nə deyirsənsə, əməldə topluma onu deyirsən. Topluma əməldə yaxşı söz demək üçün için, çölün bir-birinə bərabər olmalıdır. Ocaq kamilliyi odur. İnsan mütiyə, köləyə bərabər olmur.

Mən bir yazı haqqında düşünürəm. Remarkı oxuyuram, əgər səbəb verə bilsə, o yazını gerçəkləşdirəcəm – Gəlişmə-antigəlişmə (Tərəqqi-antitrərəqqi). Gəlişmə adına deyilən nə var, antigəlişmədir. Bu gün dünyanı silkələyib çalxalayan İşid örgütündən danışırlar. Terror örgütü, harda əlinə kim keçirsə, başını kəsir. 10 yaşındakı uşağın başını "Allahu əkbər" deyib kəsir. Bunu niyə deyir, niyə eləyir?! Dünyada naşını qandıran, söz deyən, maarifləndirən bir şey yoxdur. Allah əkbər-zad deyil, Allah balacadır, yoxdur, ölüdür. Sən orda insanın başını kəsirsən, əslində Allahı öldürürsən. Hardan oldu Allah əkbər?!

Deyirlər, Asif Ata nə istəyir?! Asif Ata deyir, məni eşitməsəniz, qorxuların uçurumundan çıxa bilməyəcəksiniz, heç biriniz o taledən sığortalanmamısınız. Çünkü o quduzluğun arxasında dünyanın siyasi

azğınlığı durur. Ocaqçının Ocağa bağlanması onun xoşbəxtliyidir. Həm də xalqının xoşbəxtliyidir. Xalqını sevirsənsə, bu sənin dəyərindir.

Ata deyirdi, gərək sizin yanınızda vətənsizlik söhbəti getməsin. Vətənsizlik adlanan şər sizin olduğunuz mühitdə gərək ayaq açmasın. Xalqın yönü milli kimliyinə bağlı deyil. Biz də elə eləməliyik, xalq milli kimliyinə bağlansın. Onu bağlamasan, xalq ola bilməyəcəksən.

Bu ay biz "Xəlqilik" Bayramını keçirdik. Vaxtilə Türk Millətçi partiyasında olan bir dostumuz deyir, nədənsə biz 90-cı illərdən eyni şeyi deyirik-deyirik, bir sonuc olmur. Deyirəm, hamımız eyni şeyi demirik. Desəydik, başqa cür olardı. Millətçilik sözünü deyirik, ancaq bu dediyimiz millətçiliyin içi nədir?! Bayaq dediyim kimi, bir var, dinin kamil insanı, bir də var, İnamın kamil insanı. Bizi kökləyən başqa ideolojiliklərlə bağlı millətçilik sözü var, bir də var milli ruhun millətçilik sözü. Həqiqi millətçilik nədirsə, onun öz sözü var, ölçüsü var. Bu baxımdan söhbət təkcə millətçilik sözünü əzbərləyib dilə gətirməkdən getmir. Bu sözün altındakı mənadan gedir. O məzmunu düzgün yaratmaq, düzgün vermək gərəkdir. Yoxsa sən millətçilik sözünün altında xalqa elə söz deyərsən, nə ona yaxın gələr, nə də etkisi olar.

## "Ulufərəh"in Ailə Günündə

*(29 Şölə Ayı, 36-cı il)*

Bu gün "Ulufərəh" Ailəsinin aylıq toplantısında söz deməzdən öncə Atamıza səcdə qılıram, Bayrağımızı öpürəm.

Evladlararası doğmalıq məsələsinə yönəlik bir neçə söz deyəcəm. Öncə insan özünə doğmalaşmalıdır. Özünə doğma olmayan başqasına da doğma olmur. Özünə doğmalıq nə deməkdir?! – Mən özümdə İnsanilik adında Məna daşıyıram, Mütləq gəzdirirəm. O Mütləqə doğma deyiləmsə, toplumdakı neqativ hallara doğmayam. Nə qədər pis hallara doğmayamsa, öz insani tələblərimdən bir o qədər uzaq oluram. Öz insani tələblərimə doğma olmuramsa, başqasına necə doğma olaram?! Asif Atada başqalaşma ideyası var. Özümləşmə-

başqalaşma, özünü başqasında görmə. Özündə yüksək, gözəl nə varsa, öz doğmasında izləyib onu görür. Özündəkini görür onda. Bax o, birlik yaradır. Hər kəsə xas olan insani cəhət var, keyfiyyət var, insanca davranma var. Hər kəs onu yaşayanda, yaşadanda, davrananda, o keyfiyyətlər insanlar arasında bir bağlılıq yaradır. Həmin dərin, böyük, gözəl cəhətlər, keyfiyyətlər, onların ifadəsi özünəxas olur. Eyniyyət yaratmır. Mənim ifadə elədiyim hər hansı yaxşı bir cəhətim əslində genelinsana xas olandır. Deyək, ədalətli davranmağım, bu mənə xas olur. O birinin ədalətli davranması ona xas olur. Məni təkrar eləmir, yamsılamır. Özü onu yaşayır, ifadə eləyir. Əslində ona görə eyniyyət deyil. Eyniyyət heç vaxt doğmalaşdırmır, birlik yaratmır. Ancaq bir insanın özünəxaslığının ifadəsi o birinin özünəxaslığının ifadəsinə doğma olur. Özünəxaslıqlar insanları bir-birinə yaxınlaşdırır, bağlayır, doğmalaşdırır. Bunu yaratmaq üçün stulda oturub saatlarla düşünmək gərək deyil. Sarsıdıcı xalqlaşma işi aparmaq gərəkdir. Çıxırsan xalqın içinə, ayrı-ayrı insanlarla görüşə gedirsən, ünvanlara gedirsən, ayrı-ayrı qrupların içinə girirsən. Görüşdüyün qrup üçdür, beşdir, əllidir, bilmirəm, neçə olmağının önəmi yoxdur. Gedəndə sən bilməlisən, onların içində sənə, sənin daşıdığın Amala, həqiqətə doğma olan adam ya çox azdır, sayca yox ha, düşüncə baxımından, ya da heç yoxdur. Bununla belə, sən o mühitə gedirsən. O mühitdə səni təmin eləməyən əhvalları sarsıdırsan. Gedib demirsən sən pissən. Gedib deyirsən, mən filan həqiqətə yetmişəm. Xalqın ləyaqəti filan şeydir. İnsanı ayaq üstə saxlayan, Xalqı sabaha aparan filan şeydir. O, özündə olmayanla üz-üzə qalır, sarsılır. Özündə olmayan, ancaq həqiqət olan. Özünün eşitmədiyi, bilmədiyi şeylərlə üz-üzə qalır, sarsılır. Sən onu sarsıtdıqca için böyüyür. Başqa sözlə, sən o insandakı, o qrupdakı insanı sarsıtmırsan. O insanlardakı bəsitliyi sarsıdırsan. Daşıdığı balacalığı sarsıdırsan. Ədalətsizliyi, xalqsızlığı sarsıdırsan. Onda gücün də artır, özünə inamın da. Bilirsən ki, xeyirlə uğraşırsan. Sən xeyiri, ədaləti yaşatdıqca, mübarizə apardıqca, özünə qarşı dirəniş yaradırsan, hamı sənin dediyini deməyəcək axı, səninlə qovğa da eləyəcək, sənə qarşı söz də deyəcək. Onda sən görəcəksən, təksən. Tək olduğunu bildiyin, duyduğun, dərk elədiyin halda sən Amaldaşına doğma-

laşırsan, mənim dediyimi deyən var. Bax, onunla mənim içim birdir. Onunla mən Birəm. O, mənim dediyimi deyir. Bax, onda da tənhalığı içində ötürsən. Deyirsən, mən tək deyiləm, mənim dediyimi deyən Amaldaşım var, doğmam var. O da belə düşünür, belə deyir. Doğmalığın başlıca cəhətlərindən biri də budur. Yoxsa elə belə, o da Asif Atanın adını çəkir, mən də çəkirəm, biz doğmalaşmalıyıq. Yox! Bunları Yaşamaq gərəkdir. Yaşadıqca doğmalaşırsan. Bu dediyim hal, bu, ya başqa şəkildə Ocaqda var. Ancaq düşünülmüş, dərk olunmuş şəkildə artmalıdır. Günü-gündən artmalıdır, dərinləşməlidir, zənginləşməlidir. Onda görəcəksən, doğmalığı heç axtarmırsan. Doğmalıq gəlib səni tapır. Bu, məsələnin bir cəhəti.

İkinci, Asif Atanı öyrənirsən, düşünürsən. Öyrənib düşündükcə deyirsən, həyatın gedişi yanlışdır, Gerçəklik yanlışdır, pisdir. Nədir pis?! Siyasət də deyir gediş pisdir. Demir, bu pisi mən yaratmışam. Siyasətin hakim qanadı deyir, müxalifət mənə əngəl olur, mən də doğru iş görə bilmirəm, başım qarışır onun əngəllərini aradan qaldırmağa. Siyasətin müxalifət qanadı isə deyir, hakimiyyət pisdir. Rüşvətxordur, korrupsionerdir... Bunlar öz çaplarında haqlı görünə bilərlər. Ancaq həqiqətin, əsilliyin tələbində bunlar haqlı deyillər. Çünkü bunlar böyük Haqqı bapbalaca bir doğruyla əvəz eləyirlər. Ona görə haqlı deyillər. Haqq özünə bərabər olanda, bütöv olanda, əsil olanda özünü doğruldur, daha doğrusu, etkisini doğruldur.

Bəs din nə deyir?! Din də deyir, insan adlanan bu sürü Allahın yolundan sapıb. Ona görə də hər şey pisdir. Molla hər yerdə təbliğat aparır, məsciddə, yasda, sonevlikdə ölünün üstündə, deyir, insan adlanan allahsız bir sürü yolundan sapıb. Ancaq molla demir, mən də, adamlar da Allahın yolunu bəhanə edib hər kəsin gözünə pərdə çəkirik, özümüzün yaratdığımız eybəcərlikləri, pozduğumuz həqiqətləri görünməz edirik... Hər yerdə sən murdarlıq eləyirsən, fırıldaqla uğraşırsan, yalançılıq eləyirsən. Allahı öldürürsən, insanı öldürürsən. Hər şeyi ödürürsən. Yüksək, gözəl münasibətləri öldürürsən. Bunların hamısı görünməz olur. Ona görə dünya əyilib. Bəs sən, Ocaqçı nə deyirsən?! – Sənin deməyə sözün daha çoxdur. Sən üzdə olanı demirsən, kökdə olanı deyirsən, dərində olanı deyirsən. Fəlakətin qaynadığı, qaynadıldığı nöqtələri açıb göstərirsən. O sözlə gedirsən

toplumun içinə. Sənin dediyini nə din deyir, nə siyasət, nə toplumsal qurumlar, nə dövlət. Heç kim demir. Bu elə bir fərqdir, bütün bəşəriyyətin ləyaqətini təmsil eləyir...

..."Söz azadlığı" deyirlər. Nədir "Söz azadlığı"?! Hansı söz azaddır, hansı söz azad deyil?! "Söz azadlığı" deyilən bir şeyin sınırı varmı, olmalıdırmı?! Mən deyirəm var. Hansı söz azad olmalıdır, hansı söz azad olmamalıdır?! Bu gün Yüksək Söz əsarətdədir, hərcayi söz azadlıqdadır. Bu gün bütün dünyada Yüksək söz əsarətdədir. Onu əsarətdən heç kim çıxarmır, çıxarmaq istəmir. Yüksək sözü əsarətdən çıxarmaq üçün onu ömürə yazmaq gərəkdir. Yüksək sözün əsarətdən çıxması – İnsan adlanan yüksək varlığın taleyinə çevrilməsidir. Çevrilirmi?! Yox! Yüksək söz yalançıların, alçaqların dilində əsarətə düşür. Yüksək söz ömürdə əmələ çevrilmənin, ifadəyə gəlmənin, işığa çevrilmənin doğmasıdır. Onda azad olur Söz.

Məsələn, erməni deyir, Qarabağ elə qədimdən mənim olub. Bu onun üçün söz azadlığıdır də, deyir. Biri deyir ki, mən filan yeri dağıdıb özümə mülk tikəcəm. Daha bu yer kimindir, yiyəsi var, yoxdur, soruşmur. İndi gəl bu məsələyə de ki söz azadlığıdır, qoy özü üçün desin. Necə yəni desin?! Ağıla gələn gerçəkliyə gələr. Axı bu deyir, bunun arxasınca dağıdıcılıqlar gəlir. Bax, ona görə bu "söz azadlığı" məsələsi həllini tapmayan bir məsələdir. Nə vaxt "söz azadlığı" məsələsi həllini tapacaq?! O vaxt ki, İnsanlaşma olacaq. Adam İnsan olmayınca söz azad olmur. Çünkü söz yalnız İnsanidir. Qeyri-insani söz yoxdur. Qeyri-insani söz yalandır. İndiki "söz azadlığı" məsələsi gətirib ona çıxarır ki, hər kəs qıraqdan yönətilir... Bir məsələ var. Məncə dövlətin meydana çıxma səbəblərindən biri də tənbəli tərpətmək üçündür. Tənbəli tərpətməsən, o, iş görmür. O həyata gərək olmur. O, müftə yeyir. Tənbəlliyin daşını atanda gedib birinin ayağından çəkir, başını əzir, əlindəkini də əlindən alır. Ona görə gəlirsən çıxırsan inzibatçılığa, haqq verməli olursan. İnzibatçılığa haqq verəndə isə özbaşınalıq başlayır. İnzibatçılığı həyata keçirən sınırları aşır. Buna görədir, bütün dünya deyir, mütləq olan heç nə yoxdur. Bunu ona görə deyirlər ki, hər kəs qıraqdan yönətilir. Adi bir şey deyim. Deyək, beş nəfərin içində biri bir lətifə danışır. Hərcayi lətifə danışır. Hamının da üzü gülür. Yəni gülənlər mühit

verirlər ona. O, ikinci hərcayi lətifəni danışır, üçüncünü danışır. O biri də qoşulacaq ona. Hərcayi bir mühit formalaşacaq. Çünkü artıq danışanı başqası, çevrədəkilərin halı yönətir. Öz içində "dur" deyən yoxdur. Sənin içində dayandıra bilən məzmun olmalıdır. Asif Ata deyir, insan içindən yönətilir. Çünkü insan içində Mütləq gəzdirir. Ona görə də Ata deyir Mütləq var! Dünya deyir Mütləq yoxdur, hər şey nisbidir. Asif Ata deyir, var! İnsanı öz içinə, öz vicdanına tapşır, özünə yiyə olması üçün ona olanaq tanı, onda gör Mütləq var, ya yoxdur. Sən Mütləqi, necə deyərlər, öldürürsən əməlinlə, münasibətinlə, davranışınla, insanı əsarətə salmağınla, Sözü əsarətə salmağınla. Sonra da deyirsən həyatda mütləq heç nə yoxdur. Asif Ata deyir var, özü bunu yaşayır, yaradır, ortaya çıxardır...

Ocağın sözü də, azadlığı da, prinsipi də, hamısı dünyaya örnəkdir. Bu örnəyi yaşatmaq, qorumaq Ocaqçıdan asılıdır. Asif Atann dedikləriylə yaşamaq nə qədər çətindirsə, bir o qədər ömrə xoşbəxtlik gətirir. Bizim işimizin gözəlliyi məhsuldarlıqda deyil. İşimizin gözəlliyi quruculuqdadır. Məhsuldarlıq – quruculuq olmasa, zərərlidir. Məhsuldarlıq quruculuq üzərində önəmlidir. Ona görə zərərdən qorunmağın yolu bireysəl quruculuğu həyata keçirmək əməlidir. Demirəm başlamaqdır, bu bizə ayıb olar. İllərlə Ocaqda olaq, hələ də başlamaqdan danışaq, bu ayıb olar. Quruculuq var, həryönlü getməlidir.

Mən sizə – "Ulufərəh" Ailəsinə özünə yiyə durmaq diləyirəm. Asılılıq aradan qalxmalıdır. Heç vaxt məndən asılı olmayın. İdraki, mənəvi bağlılıq isə asılılıq deyil, ehtiyacdır, tələbdir. Başqa çalarlarda isə asılılıq bizə zərərli olur. Hər bir Ocaqçının ağlında, qəlbində azadlığın bütün çalarları qaynamalıdır. Bağımsızlığın bütün çalarları qaynamalıdır. Qarşısıalınmaz olmalıdır.

## Ailə Günündə
*(26 Od Ayı, 36-cı il)*

**...**Özüylədöyüşdə duyğunu tanımaq çox önəmli cəhətdir. Genel olaraq, özüylə döyüş çox çətin əməldir, çünkü hələ duyğunu tanımaq onun dərhal aradan qalxması demək deyil. Çünkü duyğunun aradan qalxması ömürdə bəlli bir qayğı istəyir, özünə qarşı amansız bir münasibət istəyir. Gərək yükünü anlayasan. Ən azı bu yük sənə deməlidir, hər hansı bir münasibətdə, yaşamda qırağaçıxma var, əyrilik var, sən bunu bilib aşmalısan. Bunu aşmaq üçün ilkin aşamada addım atmalısan, özünə basqı göstərməlisən... Bu başlanğıcdır, ancaq işin az cəhətidir... Mənə ilginc gəlir, Ocaq tarixində çox az Ocaqçılar olub, onlar özüylə döyüşü çılpaq şəkildə ortaya qoyub. Əslində Ocaqçılığın da yolu ordan keçir. Əsil ömür özünə qarşı mütləq səmimi olanda yaranır. Özünə qarşı, insana qarşı içdənlik göstərirsən (səmimi olursan), içində balaca bir çöp qədər eybəcərlik gizləmirsən, bunu üzə çıxarırsan, deyirsən, bu məndə var. Söz yox, qırxıncı otaq məsələsi də var, ora heç kimi buraxmaya bilərsən, elə duyğun var, başqasına demirsən, özünə deyirsən, ancaq aradan qaldırırsan...

Məsələn, vaxt olub Atanın sağlığında içimdə elə ziddiyyətli hallar olub, mən onu uzun çağlar gizləmişəm. Ya ağlımın gücü çatmayıb, ya iradəmin gücü çatmayıb, sonra onu üzə çıxarmışam. Toplantıların birində də demişəm, məndə filan cılızlıq var. Yəni bu cür duyğuların üstündən örtük götürülməsə, tanınmır. Tanınmırsa aradan qalxmır.

## "Ulufərəh"in Ailə Günü
(*26 Od Ayı, 36-cı il)*

Bu gün 26 Od Ayı, 36-cı ildə, Ocağın "Ulufərəh" Ailəsində söz demək üçün Bayrağımızı öpürəm, Ataya səcdə edirəm.

"Ailə Günü"ndə prinsipial məsələlər qoyulur – Amallaşma, Kamiləşmə, Xalqlaşma. İstəyirəm bu gün ərk edib bir-iki qınağımı dilə gətirim. Amallaşma hesabatı verəndə Ocaqçı yalnız hansı kitab-

ları oxumasını saymalı deyil, Atanın filan kitabından nə oxudum, nə öyrəndim, Amallaşma odur. Nə sənin ağlına çatıb, nə çatmayıb?! Eləcə də Kamilləşmə məsələsi, duyğuları ciddi araşdırmaqdır. Adam özü öz içində əlləşir, ancaq əlləşmək xatirinə əlləşmir. Həqiqi bir rahatsızlıq olmalıdır adamın içində. Asif Əfəndiyev "Ata" olana qədər özüylə döyüşüb. Özüylə döyüşdüyü üçün toplumsal şərlə döyüşüb. Özünü döyməsəydi, toplumsal şərlə döyüşə bilməzdi. Özünü döymək nə deməkdir?! – Deyirsən mənim içimdə meşşanlıq duyğusu var, mənim içimdə xudbinlik var, içimdə ədalətə, azadlığa meyil azdır, yoxdur, televiziyada sunulan hərcayi verilişlərə bağlanıram...

Bir dəfə Asif Atanın sağlığında "Uluyol" Ailəsinin Ailə Gününü keçirirdik. Asif Atanın "Sədaqət" kitabında insanın özüylədöyüşünə yön vermək üçün belə bir tələb var:

Qorxu əsarəti, balacalığı, yadlığı...

Televiziya əsarəti, balacalığı, yadlığı... ilə döyüşüm.

Keçmiş Ocaqçılardan biri hesabat verəndə belə bir söz dedi: evimdə televizor yoxdur, bu səbəbdən də televiziya əsarətində deyiləm. Evimdə televizor "varmı"dan, "yoxdurmu"dan getmir axı söhbət. Əgər evimdə olsa, açsam, düşərəmmi onun əsarətinə?! Əsarət nədir?! – Hərcayi verilişlər – hərcayi əhvallar gətirir ömrə. Hərcayi səhnələr var, həyat bütünlüklə səhnələşir. Televiziyaya baxır balalarımız, ondan öyrənir. Onun kimi davranır. O açıq-saçıq səhnələrdə davrananlar kimi davranırlar bizimkilər. Körpələrimiz onlara bənzəyir. Ha mən deyim, sən Ocağa oxşa, oxşamır. Onun Ocağa oxşaması üçün ağlının gücü yoxdur axı. Hələ o uşaqdır.

Televiziyanın yiyəsi yoxdur. Dövlət var, ancaq dövlətin yiyəsi yoxdur, düşünsün xalqın aqibətini. Televiziyada elə əhvallar nümayiş etdirilir, xalqın balalarının mənəviyyatını korlayır. Mənim ünsiyyətimlə televiziyanın ünsiyyəti bir deyil, adam hərcayiliyə daha çox axır. Gərgin yaşamaq, yəni insanlıq əsasında yaşamaq istəmir adam, hər kəsdə bir sərbəstlik istəyi var, pis anlamda azadlıq. Bioloji azadlıq. Necə gəldi özümü aparım. İçimdən hansı duyğular keçir onu deyim, yaşayım. Bu duyğu İnsanidirmi, heyvanidirmi, fərqinə varmır. Burada qadın var, böyük var, kiçik var, onu gözə almayım. Belə şeylərə meyil edir. Onun qarşısını almaq üçün toplumsal qınaq deyi-

lən bir şey olmalıdır. Xalqın baxışından çəkinməlidir hərcayilik eləyən. Bunun üçün özünü yaratmaq gərək. Nə yazıqlar, xalq bu gün "nəyimə gərək" əhvalındadır.

Bir fakt mən sizə deyirəm, qardaşımız acıq duyğusundan danışdı. Günev indiyə qədər Ocağa gəlmiş adamların içərisində özünəxas ömür yaşayıb. O, çox arıdır. Mən Günevi sizə sunuram, öymürəm. Mən öyə bilmirəm. Məndən bu günə qədər ədəbi ortamın ayrı-ayrı adamları öz yaradıcılıqları haqda söz istəyiblər. Mən yaza bilməmişəm. Mən sözü necə gəldi səpələyə bilmərəm. Sözə dönüklük edə bilmərəm. Sözə dönüklük millətə dönüklükdür, insana dönüklükdür. Mən burada, özümün amaldaşımdır, dostumdur deyə, onu sizə öymürəm. Mən Günevdə dönməz qeyrəti sunuram. Öyrəndim ondan. Günevdə yerə-göyə sığmayan bir sevgi gördüm. Günevin sinəsinə yumruq çəkilir, Günev onu təbəssümlə qarşılayır. Günev cəsarətsiz adam deyil, onun yumruğu var, ancaq heç vaxt bu yumruğu işlətməyib. Onun qəlbi işləyir, qəlbində gözəlliklər hərəkətə keçir. O sevgidir, Günevə qurucu iradə verib. O iradədir, Günevə xalqını sevdirən. Xalqını sevməyən kişinin döşünə döyüb "mən varam" deməyə haqqı yoxdur. Biz hər birimiz birey olaraq ölüb gedirik. Bizim nəyimiz var xalqda qalır. Bizim böyüklüyümüz, tarixi şəxsiyyətə çevrilməyimiz xalqda qorunur, yaşanır, saxlanılır. Bu xalqı sevmək gərək. Xalqı da sevmək üçün onu qurmaq gərək. Xalqın içində haray çəkmək gərəkdir. Bizə sunulan dünyabaxışların heç biri bizə sevgi verməyib. Qılıncla başımızı kəsib, mən deyəni qəbul eləməlisən deyib. Yadlar özünün "mədəniyyətini" – mədəniyyətsizliyini bizə vermək üçün üstümüzə qılınc çəkib. Ancaq Günev, onun Amaldaşları xalqına sevgi verir, xalqını özü olmağa çağırır, ona öz böyüklüyünü göstərir. Onun şəxsiyyətini ona tanıdır, onun dəyərlərini ona tanıdır. Bunun qarşılığında isə bizi hədələyirlər. Kim hədələyir – özümüzünkü, öz xalqımızın nümayəndələri. Söz yox hər yerdə belə deyil. Ancaq var.

Bax, indi gəlirəm acıq məsələsinə. Bir var acıq, bir var Hiddət. Acıq balaca duyğudur. Mən də razıyam, bizim içimizə gəlirsə, biz ondan arınmalı, durulmalıyıq. Acıq duyğusu sevgisizlikdən gəlir. Pislik eləmək istəyindən gəlir. Kinin əsasında da o durur. Yadında

saxlayırsan, məqam gözləyirsən, pislik edəsən. Ancaq Hiddət ayrı haldır. Xeyir zədə götürəndə hiddət yaranır.

Mən Azərbaycanın 45-dən çox rayonlarında olmuşam. Bir neçə rayonlarda bir neçə yol olmuşam. Hər birində görüşlər keçirmişik. 100 qapıdan 60-ı üzümüzə bağlanıb, 40-ı açılıb. Ancaq biz yenə qapıları döymüşük, yenə də döyəcəyik. Sayğı da görmüşük, acıq da. Ancaq bu bizə əsas vermir, addımı dala qoyaq. Çünkü biz öz ulusumuzu sevirik. Biz onun nə demək olduğunu anlamışıq. Bakının özündə çoxsaylı görüşlərim olub. Radioda çıxışlarım olub, televiziyada az-az olub, bizi televiziya yaxın qoymur. Azərbaycanı sevən aydını televiziyaya yaxın qoymurlar. Mənə açıq şəkildə televiziyada dedilər: "Sizin kimi adamlar bizə sərf eləmirsiniz. Bilirəm, siz xalqımızı sevirsiniz, ancaq siz bizə sərf eləmirsiniz. Bizə pul gətirən verilişlər gərəkdir, bizə tok-şou gərəkdir...".

Mənim yerim tok-şou deyil axı. Mən gedib orada dingildəyə bilmərəm axı. Mən xalqa söz demək istəyirəm, mən orda öz şəklimi göstərmək istəmirəm, baxın, mən də varam deyə. Mən ona görə varam, mənim sözüm var, sənə deyəcəyim var. Sənin dəyərini sənə tanıdıram. Yoxsa məni neyləyirsən, televizorda göstərirsən.

Ancaq canlı olaraq çoxsaylı görüşlər keçirmişik, ən çox gənclərə üstünlük vermişik. Bizim tədbirlərə hər cür insan gəlir. Onun hansı əqidə daşımağından asılı olmayaraq, mənim qapım onun üzünə açıqdır. Çünkü o mənim xalqımın övladıdır. O gəncliyə yiyə çıxan yoxdursa, onlara başqaları yiyə çıxır. Onlara yiyə çıxır, aparıb Suriyada döyüşdürüb öldürürlər. Aparıb saqqalını uzadır, şalvarını da gödəldir. Sənin üçün real qorxu yaradır. Bax, onlar çıxır yiyə, gözə görünməyən qüvvələr. Əslində gözə görünəndi, hamısı artıq bütün çılpaqlığı ilə görünürlər. Onların arxasında böyük tutumda pul var, kapital var. O kapitalın arxasında siyasət var. Bizim xalqımıza qarşı düşünülmüş siyasət var. Mənim qıraqda arxam yoxdur, pulum yoxdur, mən balalarımın boğazından kəsib eləyirəm, nə edirəmsə. Balalarımın boğazından kəsib gedirəm görüşlərə. Toplum da baxıb deyir bunlar dəlidir. Kim öz balasının boğazından kəsib onu eləyər?! Asif Ata verib bu eyitimi bizə. Xalqın qədrini bilən tək-tək olur. Bayaq qardaşımız vurğu elədi. Bizim xalqımızın durumu elə bir qorxulu

düzeyə gəlib çıxıb, bilmirsən onun sabahı nə olacaq. Bu gün mənim öz övladım qapıdan çıxanda çaşarsa, bu təkcə mənim fəlakətim deyil. Bu xalqın balalarından biridir. Xalqın balaları hər yerdə o cür məhvə sürüklənir. Dövlətimizin də başına bu cür özgələşənlər gələcək sabah. Onlar hansı şüurla, hansı sevgi ilə gələcək?! Onlar xalqa qarşı köklənmiş əhvallarla gələcəklər. Xalqı məhv eləmək, uçurmaq elə belə olur. Rüşvət alır, talayır, çapır, qarşısındakına pul kimi baxır. Bir jek müdirinin qapısını açırsan, sənə pul kimi baxır, o saat sevinir, pul gəldi. Sənə insan kimi baxmır. Düşünmür, bunun qayğısı var, dərdi var. Məni bu posta ona görə qoyublar, ona qulluq edim. Səninlə qovğa edir, get hara istəyirsən de, hara şikayət edirsən et. Nə deməkdir bu?! – Xalqın taleyi ilə oynamaq.

80-ci illərdə Azərbaycanda "Xalq hərəkatı" deyilən bir proses başlamışdı. O vaxt yüz minlərcə xalq kütləsi küçələrə axışdı. Birdən-birə azadlıq istəyi başlamışdı, ancaq onları yönəldən kimlər idi?! – Başlıca olaraq özlərilə uğraşmayan insanlar. Onların elmi var, biliyi var, ancaq şəxsiyyət kimi özünü yaratmasa, onun satılmaq ehtimalı 100 faiz olacaq. O özü də satılacaq, xalqını da satacaq. Elə çoxluq baxımdan satıldılar da. Ağrı duyğusu ilə mən bunu deyirəm. Satıldılar, xalqımızı umudsuz qoydular. Azadlıq hərəkatı kimi bir dalğa gəldi, Azadlıq baş tutmadı. Bağımsızlıq formal oldu.

Bu gün bizim dövlətimiz var, bizə doğmadı. Mən dövlətin başında kimlərin olmasını burada hallandırmaq istəmirəm. Ancaq bütün məsələləri dövlət çözmür. Dövlət polisin əlinə dəyənək verir, deyir, iki adam bir-birinin gözünü çıxardırsa, onları gətir, içəri sal. Dövlət demir, mənəviyyatlı ol, xalqının qədrini bil. Kim deməlidir bunu – xalqın aydını, ağsaqqalı, başbiləni. Onu deyəcəksə, deyən özü xalqının şəxsiyyətinə çevriləcək. Onda onun xalqının gələcəyi bizə umud verəcək.

Bir də qonaqlara bir şeyi demək istəyirəm. Siz Asif Ata haqqında qarışıq-dolaşıq sözlər eşitmisiniz. Mən özüm illər öncə Asif Atanın haqqında eşidirdim, ruhi xəstədir. Yazığım gəlirdi, belə bir adam niyə ruhi xəstədir. Günlərin bir günü mənim təhsil aldığım universitetdə görüş keçirdi, heyrət etdim, belə dəli olar?! Anladım, niyə dəli deyirlər.

İkinci onu anladım, ata-anam mənə hiddətlə dedilər, sənin ağlın başından çıxıb, sən gedib hansısa bir alimə qoşulmusan, Azərbaycanın dərdi sənəmi qalıb?! Mənim anama, atama sevgim var, bu ayrı, ancaq mənə deyirlər, bu xalqın dərdi sənə qalmayıb. Hər bir ata-ana deyir onu. Bir ata-ana övladına demir, get xalqının böyük şəxsiyyətinə çevril. Biz gəncliyi küçələrə çağırmırıq, əslində biz gəncliyi qoruyuruq. Biz çağırmırıq, çıxın küçədə çığırın, bağırın, mitinq keçirin. Gedin kimlərisə aşağılayın, sizi də içəri doldursunlar. Tərsinə, biz belə başıpozuqluluqdan geri çağırırıq.

Mən hər gün gənclərlə görüşürəm, onlarla söhbətlər aparıram. Küçələrə axışıb mənasız yerə çığır-bağır salmayın deyirəm. Siz nə istədiyinizi bilmirsiniz, sizi tutub içəri doldururlar. Sizi sındırırlar, əyirlər. Azərbaycana yiyəlik eləmək üçün idrak, mənəviyyat adamı kimi özünüzü yaradın, hazırlayın, xalqın dəyərlərinə yiyə çıxın. Biz ona çağırırıq.

Bizim analarımız, atalarımız deyirlər, oğul, birdən çaşıb Nəsimi olarsan ha, dərini soyarlar. O bizlik deyil oğul.

Sənlik deyil, mənlik deyil, onluq da deyil. Ona görə erməni gəlib beş metrlikdə, ağzımızın içində oturub. Təkcə bu deyil, vətənimizi sevmədik, yiyəlik eləmədik, xalqımız param-parça oldu. Təfəkkür, düşüncə birliyi yoxdur. Bizim faciələrimiz budur. Bu faciələri kim çözəcək – ağlı başında olan, xalqını sevən insanlar. Mən bayaq vurğu elədim, Asif Ata haqqında artıq-əksik deyiblər, Asif Atanın Evladlarına vəhhabiçi də deyiblər, ateist də deyirlər. Ancaq Asif Ata ateist deyil, Asif Ata İnamçıdır, o boyda İnamı var. Asif Ata deyir, hər bir insan Allahlıq (əslində Mütləqilik) anlamını dərk eləməlidir, ona yetməlidir. Mənadan gələn keyfiyyətlər insanda üzə çıxır, o keyfiyyətlər insanda İnsanlığın çalarlarıdır. Qeyrətdir, vicdandır, vətənsevərlikdir, namusdur… - İnsanlığın çalarlarıdır. Bu keyfiyyətləri özündə yaşadan insan Allah olur. O keyfiyyətlərlə yaşamayan insan Allahsız olur. O keyfiyyətlərlə yaşamayan baş kəsir, qan tökür, talayır, oğurlayır, incitməkdən kef alır. O, yüz yol Allah sözü işlətsin, Allahlı olmur, onun canında Allahlıq əməlləri yoxdur.

Dedik, Asif Ata ateist deyil, İnamçıdır. Asif Atanın inamçılığının canı insançılıqdır. Bütün dünyanın sirlərini açan İnsandır.

Asif Ata deyir, bütün fəlakətləri yaradan da insandır, bütün fəlakətlərdən çıxış yolu tapan da insandır. Biz insandan danışırıq, bizə deyirlər, siz hansı insandan danışırsınız, divarın dibində yatan sərxoşu deyirsiniz?! – Bilirsiniz nə var, insan özündən ayrılıb, o günə düşüb. İnsan özündə, olanaqda ilahi gözəlliklər daşıyır. O olanaqları üzə çıxarmaq gərəkdir. Onda görəcəksən, divarın dibində yatan insan sənin faciəndir. Çünkü sənin soydaşındır, qardaşındır. Ona özünü anladan olmadı, ona Allahı tanıdan olmadı. Ona insani gözəllikləri tanıdan olmadı. Ona görə də özündən ayrılıb. Asif Atanın harayı bunun üzərində qurulub, "İnsanlaşın – İnsanlaşdırın!"

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!

**"Ata Evinin Ziyarəti Günü**

*(1 Qürub Ayı, 36-cı il)*

Ocağımızın yaşaması bir neçə əmələ, çalara bağlıdır. Bunlardan biri Evladın özüylə döyüşü, özünü böyütməsi, Atanı öyrənərək ideya-prinsiplərə yiyələnməsi, Asif Atanı ruhaniyyat olayı olaraq xalqa verməsidir. Bu, Ocağın yaşaması üçün başlıca tələbdir, əməldir. Əgər bu olmasa, onda yerdə qalan əməllər gerçəkləşə bilmir. İkinci olay, bunun davamı olaraq, Ocağın arxivləşməsi (müqəddəsatlaşması), yəni Ataya bağlı əməllərin arxivləşərək sabahlaşmasıdır. Biz onu yalnız tarixə vermirik, özümüzdən ötürmürük, biz onu sabahlaşdırırıq. Başqa bir əməl, Evladlar arasındakı münasibətin qorunub saxlanılması. Bunun da başqa bir cəhəti – hər bir Evladın içində ideya, təşəbbüslər aşamasının başlaması. Əgər bu olmasa, onda birey quruculuq işində özünü axıra qədər fərəhli duya bilməz. Bu dediyim keyfiyyətlərlə dolmayan birey xalqın içində cəsarətlə iş apara bilməz. Biz buna çox anlamda yetmişik, ancaq Asif Atanın ölçüsü açısından yanaşsaq, buna davamlı yetmişik demək bir az çətindir. Özümüzü aldatmağa gərək yoxdur. Tam yetməyə əngəl olan məsələlər yenə də bireyin özüylə bağlıdır. Bizim heç birimizin

ruhumuzun həyata bağlılığı, ilişkiliyi qalmamalıdır. Bizim canımız həyatla bağlıdır. Ancaq həyata bağlı o deməkdir, ən çox fiziki varlığımıza qulluq eləsək, bu bizi həyatın bütün çalarlarına bağlayar. Bu bizim üçün hansısa bir ilişkinin qalması demək olar. Ocaqçı bu məsələni özü üçün doğru aydınlaşdırıb araşdırmalıdır. Bəzən düşüncələri doğru ifadə eləməmək halları görünür. Bu, çaşqınlıq yaradar. Məsələn, mən "Ailə Günü" tədbirinə qulaq asıram (tədbirə adamlar gəlir), orada deyirsiniz, topluma qulluq eləmək qəbahətinə endim. Adam deyər, burda pis nə var, məgər istəyiniz topluma qulluq eləmək deyilmi?! Ona görə aydınlaşdırmaq gərəkdir. Biz toplumun yaşatdığı balacalığa, onu xalqdan ayıran çatışmazlıqlara enmirik, ona ilişmirik. Ona ilişsək, biz elə toplumun içində qalacağıq. Toplumun da biri oldunsa, topluma qulluq eləməyin olumsuzdur. Odur ki, xalqın içində bu cəhətdən biz hər bir işimizi doğru dəyərləndirməli, düşüncələrmizi düzgün ifadə etməliyik...

İndi Günün anlamı ilə bağlı bir neçə söz demək istəyirəm. Nədir bizim münasibətimizin əsasında dayanan. İki əlin barmaqları saydayıq. Hansı çətinliklərə, fədakarlıqlara, əziyyətlərə qatlaşaraq, dözərək necə ciddi aşamaları keçdik. Bütün bunların hamısı Ocağın qurulmasına qulluq elədi. Burada Ocaq çox böyük ləyaqət göstərdi. Bu gün Azərbaycanda görünən, görünməyən düzeydə ciddi rahatsızlıqlar olur. Bu rahatsızlıqlar da ən çox, Sovetlər dövründən sonra ortaya çıxan dini qurumların toplumun halını, psixologiyasını pozmasına görədir. Hər kəs rahatsız olur, onun başına pis işlər gələcək. Özü də sosial şəbəkələrdə bir çox eybəcər şeylər paylaşırlar. İnsanların içinə, doğrudan da, vəlvələ düşüb. Biz də rahatsızıq, Ocaq olaraq, ancaq biz onlar kimi qorxmuruq, mübarizə aparırıq, biz ortaya söz qoyuruq, iş qoyuruq. Biz topluma götürməli olduğunu, gərək olanı veririk... Hər kəsə başa salmaq gərəkdir, Asif Atanın işini öyrənmək uğrunda ciddi çabalar göstərmək gərəkdir. Dindən gələn antiinsani faktların özü, həm də Ocağı tutuşdurmaq üçün hər kəsə bir örnəkdir. Qoy bilsinlər, din varsa, hər cür qorxu da var. Yəni cəhalət varsa, yalan varsa, xurafat varsa, insanların idrakının böyüməməsi varsa, yetkinləşməməsi varsa, mütləq bu cür qorxulu olaylar da var – Vəhhabilik var, Nurçuluq var, Şiəlik var, Sünnilik var, o biri dinlərin

qolları da var. Hamısını yaşadan nədir – insanın özünü yarada bilməməsi, cəhalətdə yaşaması, fərəhsiz yaşaması, inamsız yaşaması. Asif Atanın varlığı bizim üçün ruhani istehkamdır, xalqımız üçün ruhani istehkamdır. Asif Atanın varlığı bəşər xalqlarının yeni bir aşamaya addım qoymasıdır. Asif Ataya qulluq edirik, əslində bəşəriliyə qulluq edirik. Bəşəriyyətin ləyaqətini dirildirik. Bizim Asif Ataya səcdəmiz bəşəriyyətin ləyaqətini diriltməkdir. Səcdə ilə eybəcərliklərin varlığımıza hakim olmasını rədd edirik. Əsilliyə, müqəddəsliyə tapınmağımız elə səcdəmizdir. Əsilliyə, müqəddəsliyə tapınırıq ki, sürülük, sünilik, yalan, saxtalıq insanların canından uzaqlaşsın, rədd olsun.

Asif Ata böyük məsələlərdə insanı haqqa çatdırır. Mən yazmışam, Məhəmməd bəşəri peyğəmbər deyil, ancaq Asif Ata bəşəri peyğəmbərdir. Niyə?! – Məhəmməd xalqların etnik mahiyətinə soxuldu. Məhəmməd xalqları özümlüyündən ayırdı. Məhəmməd ümmət yaradaraq, milləti ortadan qaldırır. Milləti ortadan qaldıran millətin peyğəmbəri ola bilməz. Başqa xalqların ruhaniyyatını aşağılayan, onun etnik kimliyinə soxulan onun peyğəmbəri ola bilməz. Asif Ata bütün xalqların mənliyinin təsdiqinə çalışır. Ona görə bütün xalqların peyğəmbəridir. Asif Ata bütün xalqları qurtarır. Bütün xalqların millətçilik yolunu göstərir, Ruhaniyyatçılıq yolunu göstərir. Ruhaniyyatçılıqla millətçiliyin bir-biriylə iç-içə olduğunu deyir. Millətçiliyin özülü ruhaniyyatçılıqdır. Ruhaniyyatsız millətçilik imperiyaçılıqdır, şovinizm münasibətidir. Ruhanilik əsasında millətçilik qutsaldır. Ona görə Asif Ata bəşəri peyğəmbərdir. Bəşəriyyətin qurtuluşu Asif Atadan keçir.

Hansı peyğəmbər millətin var olmasına çalışdı?! Dünya oyun-oyuncaqdı deyir, hər şey ləğv olunacaq, axirətdə gedib kef eləyəcəksən. Hardadır burda bəşərilik?! O bəşər-zad tanımır, bəşəriliyi ləğv edir. Planeti ləğv edir, burda bəşərilik yoxdur. Ona bəşəri deyəni anlatmaq gərəkdir, necə bəşəridir ki, bəşəriyyəti ləğv edir. Semit peyğəmbərləri deyir Allahın dərgahı var, hamı ora gedəcək. Asif Ata deyir, bu dünyanın özü qutsaldır, o dünya-filan yoxdur. Atanın ideyaları bəşəriyyəti qurur, var edir, ona görə də qulluq göstərdiyi bəşərin peyğəmbəridir. Bizim cəsarətimiz əsaslı olana, doğru olana bağlıdır. Bizim deməyə, öyrətməyə, tələb etməyə daha çox haqqımız

var. Baxın, Məhəmmədin dini səndən nə tələb edir, biz nə tələb edirik?! Biz səndən tələb edirik, çolaq olma, ayar üstə dur. Mənliyini göstər, varlığını göstər, ömrünü yarat, özünə yiyə ol. Məhəmmədin dini deyir, sən günahkarsan, balacasan, başını sal aşağı, birtəhər, gör Allahın yanına gedə bilirsənmi?! Kim sənə nə deyir, kim səni hara çağırır, bunu yaxşı düşün.

Dünya tamam eybəcərləşib, pis-yaxşı bir-birinə qarışıb. Kimdir onunla uğraşan?! Kimdir, Asif Atanın Ocağı kimi, düşə çöllərə, bir qarnı ac, bir qarnı tox. Həyəcan içində, nəfəsi təntiyə-təntiyə, gedib yalvara, qalx ayağa, millət ol, insan ol, qurtuluşunu göstərirəm sənə. Belə qüvvə varmı?! – Yoxdur! Tarixdən üzü bu yana, bu gün də bizi hədələyirlər. Məhəmmədin səsi ilə, nəfəsi ilə, kitabı ilə bizi hədələyirlər. Bizi deyəndə xalqı gözdə tuturam.

Tarixin heç bir dönəmində qıraqdan gələn kimsə, bizim içimizdə sevgi ilə haray çəkməyib, yalvarmayıb, hədələyib. İçəridən çağıranı isə eşitmirik. Onun sonucudur, ruhumuz çöküb. Onun sonucudur, indi bizim dövlətimiz yox kimidir, dünya gücləri bizi hədələyir. Hamısı evimizin içində bizə göstəriş verir. Ruhani hədənin üzərində qurulur siyasi murdarlıqlar. Kimdən asılı deyilik?! Dövlətin bu qədər siyasi asılılığı bizim ruhani hədələnmələrimizin sonucudur. Var ola bilmirik.

Hansı miqyasda düşünürsən, hansı ortamda dünyaya övlad gətirirsən?! Nə verirsən övladına, nə deyirsən ona?! Onun beyninə nəyi yaza bilirsən?! – Yadlıq! Bunların hamısı bizim özümüzün assimilyasiya olmağımız deməkdir. Bunu biz, Ocaq olaraq, anlayırıq, ona görə də bizim içimizdə milli qüdrət var. Boğazımız quruyur, ancaq yolumuz qurumur. Yolumuz batmır, çünkü fərqli olduğumuzu dərk edirik. Bütün bəşəriyyətdə xoşbəxt adamlarıq, çünkü Dünyaya dediyimiz söz haqlı sözdür. Sevgimiz də, Səcdəmiz də haqlıdır. Haqlı səcdəmiz qutlu olsun.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!

## Uluyol-Hünər Ailəsinin Ailə Günü
*(5 Qürub Ayı, 36-cı il)*

Sözümü Amaldaşlarımızın toxunduğu məsələlərlə bağlı demək istəyirəm. "Ailə Günü" tədbirində deyilən söz öyrənilən sözdür. Deyilən söz həm də öyrədən sözdür. Bu baxımdan həm düşüncənin özünün sözlə cilalanması, həm də sizin sözünüzə söykək olmaq yönündən söz demək istəyirəm.

Amaldaşım Nurtəkin həmişə mehriban ola bimirəm deyir. Nurtəkin mehribandır, ancaq o, özündə ayrı-ayrı qırağa çıxma hallarını görür, bağışlamır. Bu, Ocaqçılıqda prinsipdir. Düz eləyir bağışlamır. Əgər Ocaqçı bacarmadığı, daha doğrusu, özündə döyə bilmədiyi bir halın varlığını özünə bağışlayırsa, bu, gerilik deməkdir... Əslində mehribanlıq məsələsi özünü əhvallarda göstərir. Ola bilər, sən bir ünsiyyətdə təbəssümlə davranasan, bir ünsiyyətdə bir az gərgin davranasan. Bu, sənin mehribanlığının aradan getməsi anlamına gəlməz. Mehribanlıq məqama bərabər deyil. O, bütöv ömrü qapsayan bir keyfiyyətdir, bütöv münasibətlərdə zaman-zaman özünü göstərən bir keyfiyyətdir. Bunu niyə vurğu edirəm, özüylə döyüş hansısa çatışmazlığı boynunaalma xatirinə olmamalıdır. Özünü doğru tanımasan, döyüşə bilməzsən.

Bir də çağımıza qədər yaranan, istər ayrı-ayrı siyasi qurumların, istərsə də ruhaniyyat yönlü dünyabaxışların hər biri özünü həm ifadə eləmək, həm də təsdiq eləmək üçün seçdiyi üsul var. Guya ulusal ortama, gedişə, dünyaya nizam gətirirlər. Ancaq dünyaya necə nizam gətirirlər. İnsanlararası münasibətləri qorumaq üçün dünyaya nizamı insanı öldürməklə gətirirlər. İnsanı öldürür ki, dünya düzəlsin. İnsanı öldürməklə dünya düzəlməz axı. İnsanı diriltmək gərəkdir. İnsanın içi əyilibsə, o, mənəvi-ruhani baxımdan ölüdür. Onun içi ölüdürsə, ondan nə desən gözləmək olar. Sən bugünkünü öldürdün, sabahkı bunun davamı olur axı. Bunun olmayacağına nə ilə qarantiya verirsən. Min illərdir insanı qorxu altında tutursan, nizam baş tutmur, amansızlıq daha da göyə qalxır.

Sizin toxunduğunuz, bizim də bildiyimiz olaylar ki var, mənim ağlıma yüzillər öncəki quldarlıq dövrü gəlir – tarixdən bildiyimiz,

filmlərdən izlədiyimiz. Quldarlıq dövrünün tarixini oxuyursan, ya da filmlərinə baxırsan, insanlar orda necə amansızlıqla istismar olunur, öldürülür. Ancaq öldürəndə bir dəfə vurur. Bu gün də insanı işgəncələr altında əzib öldürürlər. Bu elə quldarlıq dövrüdür. İndi Avropa mənə necə sübut edə bilər, tərəqqi baş verib. Heç kim düşünməsin, Avropada belə şeylər yoxdur. Var, özü də çeşidlərlə. Sadəcə olaraq hansı ortamda, hansı yerdə ara qarışıb məzhəb itirsə, faktlar daha qabarıq görünür. İnsana qarşı murdarlıqlar, insana qarşı həyata keçirilən fəlakətlər dünyanın hər yerində var. Özünün eybəcərliyini təsdiq eləmək üçün atılan addımlar... Hər bir şəxs, ailə bu prinsiplə yaşayır. Bunu həyat uğrunda mübarizə əsasında edirlər. Biz isə deyirik, həyat uğrunda deyil, həqiqət uğrunda mübarizə getməlidir. Həyat uğrunda mübarizə gedir, o deməkdir, insan heyvan səviyyəsindədir. Çünkü heyvanlar bir-biri ilə mövcudluğunu qorumaq üçün mübarizə edir. İnsanlar bunu eləməməlidir axı. İnsanlar həqiqət uğrunda savaşmalıdır ki, insani münasibətlər bərqərar olsun. Dünyanın neməti bütün insanlara bəsdir. Sadəcə olaraq insanlar öz növündən olanlara qarşı insani münasibət bəsləmirlər. İnsani münasibət bəsləmədikləri üçün də həyat uğrunda mübarizə gedir. Ona görə də öz ideyasını təsdiq etmək istəyənlər yanılıblar. Xristianlıq belə döyüşlərlə keçinib. Döyüşlər deyəndə mən insanların kütləvi şəkildə qırılmasını gözdə tuturam. Dinlər döyüşlə qələbə qazanıblar. Savaşla, qan-qada ilə, yaraqla. Əslində bu cür ruhsal işlərin gəlişməsində ölüm-itim təsadüfən olmalıdır, məqsədli yox ki. Yəni elə şeylər var, qaçılmaz olur. Deyək ki, sən söz deyirsən, iş qurursan, biri gəlib dağıdır, sən də onun qolundan tutub çölə çıxartmaq zorunda qalırsan. Bir də var ucdantutma öldürürsən ki, hamı səni qəbul eləsin. Biz deyirik, nə qədər ağır da olsa, çətin də olsa, yüz il, min il də getsə, insanın başını kəsməklə ona inanc vermək olmaz. Xalqın içində ona yalvarmaq gərəkdir, iş aparmaq gərəkdir. Ona sevgiylə həqiqəti vermək gərəkdir. Onun qurtuluşu nədədirsə, anladıb onu ona vermək gərəkdir. Qorxusundan 3-5 gün nəyəsə əməl etməklə məsələ həll olmur, kökündən dəyişməlidir...

Kim deyirsə, vətən mənə nə verdi, mən də can qoyam, yanılır. Mənə heç kim heç nə verməsin, başıma qapaz vursun, mən bu

vətəni yenə sevəcəm. Bu vətənin uğrunda yenə gedəcəm ölümə. Mən vətənimi umacaq üçün sevmirəm, kimdənsə ödül almaq üçün sevmirəm... Xalq oyuna düşüb. Vətən yiyəsiz qalıb. Bu xalqın özünün həyatını oyun yönətir. Asif Ata da deyir, xalqın həyatını oyun deyil, sağlam mənəviyyat, sağlam ruh, idrak bəlirləməlidir. Ona görə bu tədbir önəmlidir.

Asif Ata bu çağa kimi hər kəsdən fərqli düşünənlərin birliyini yaradıb. O birlik saylanmır. Riyazi üsulla hesablanmır... Biz fərqli düşünürük. Hamının doğru saydığı adilikləri doğru saymırıq. Biz deyirik, xalqın işində doğruçu birlik yaranmalıdır. Xalqı bir araya gətirə bilən dəyərlər yaranmalıdır.

Xalqın içini qatıb-qarışdırırlar. İş o yerə çatıb ki, Türkiyə kimi oturuşmuş bir dövlətdə prezidentliyə adaylar arasında eybəcər döyüşlər gedir. Siyasi cəhətdən bir-birini yenmək üçün nə gəldi danışırlar. Kılıcdaroğlu deyir, sən nə deyirsən de, mən ələviyəm. O biri də deyir, mən də sünniyəm. Türkiyənin başına gələcək adamlar biri sünnüyəm deyir, biri ələviyəm deyir, bir-biriylə qovğa edir. Sabah bunların axırı nə olacaq?! Vətəndaş qarşıdurması hazırdır.

Azərbaycanda da yaxşı səslənən şeyləri gəlin bir anlıq qəbul edək, – demokratik inqilab, insan haqları, demokratiyanın inkişafı i.a. Gəlin bir an elə düşünək, bu deyilənlər oturuşub. Dedik, Türkiyə oturuşmuş, gəlişmiş dövlətdir. Azərbaycan dövlətçiliyi ilə tutuşduranda xeyli qabağadır. Onun içində "ələviyəm, sünnüyəm" deyə söhbət gedirsə, Azərbaycan necə sığortalana bilər bu söhbətlərdən?! Bu, artıq potensial qarşıdurmadır. Toplumun beynində ələviyəm deyə, sünnüyəm deyə, vəhhabiyəm deyə bir ideya oturubsa, demokratiya sözü altında, texnologiyalarda nə qədər inkişaf eləyirsən elə, sənin içində vətəndaş qarşıdurması hər an baş qaldırmağa hazırdır. Sənin soydaşların bir-birini qırmağa hazırlanır. Hələ biz rahatsız idik, ildə bir dəfə şaxsey-vaxseylə çıxırlar ortaya. İndi bu tip oyunlar artıq həyatın gedişinə çevrilir.

O deyir mən ələviyəm, mən də deyirəm mən Asifçiyəm. Gəlin görək ələvilik nə deməkdir, Asifçilik nə?! Gəlin bunu aydınlaşdıraq özümüz üçün. Ələvilik min il bundan öncə başlayan, kimlərinsə öz vərəsəlik hüququnun bərpası uğrunda apardığı döyüşün görsənişi

(təzahürü) deməkdir. O dövrün uzantısıdır, çağımıza qədər gəlib çıxıb. Asifçilik isə bəşəriyyəti öz boyasında görmək deməkdir. Hər bir xalqı öz içində, öz sınırında qutsal tanımaq deməkdir. Haqlı bilmək deməkdir. Görün nə qədər fərq var. Toplantıya qatılan dostlarımız ayrı cür düşünə bilər. Onların ürəyinə toxunmaq üçün demirəm. Onlar bunu qəbul edə də bilər, etməyə də, sonda düşüncələrini də deyə bilərlər. Mən yazmışam, Məhəmməd bəşəri peyğəmbər deyil. Bəşər millətlərin birliyi deməkdir. Bəşəriyyətdə çoxlu millətlər var, bunların da ruhsal birliyi bəşər deməkdir. Məhəmməd deyir, millət yoxdur. Hamı mənim ümmətimdir. Milləti ləğv edirsənsə, bəşər nə deməkdir?! Milləti ləğv edirsənsə, necə sən mənim millətimə peyğəmbərlik edirsən?!

Asif Ata isə deyir, hər bir millət özü bəşəridir. Çünkü hər bir millətin bəşərdə öz yeri, öz dəyəri, öz çəkisi var. Millətsiz bəşər yoxdur. Ona görə mən deyirəm, Asif Ata öz yaratdığı ideyalarla bəşəriyyətin peyğəmbəridir. Onu vurğu edirəm. Millətin ləğv olunmasını dilə gətirmək küfrdür. Siyasi güclər başqa yerdə millətçilik məsələsi gündəliyə gələndə daş atıb başlarını tuturlar. Biz millətçiliyi dünyanın qızarqalandığı səviyyədə sunmuruq. Biz, hər bir millətin oluşması üçün öz mədəniyyəti, öz dəyərləri, öz milli kimliyi, öz varlığı, dünyaya öz müsbət etkisi olmalıdır deyirik. Bu sadalananların təsdiq olunması üçün millətçilik prosesi başlamalıdır. Hər bir xalqda millətçilik – milləti öz dəyərləri, kökü əsasında inkişaf elətdirmək demək olmalıdır. Başqa millətlərə saygı əsasında öz milliliyini inkişaf elətdirməlidir... Niyə daş atıb başını tutursan?! Niyəsi odur ki, bizim millətçiliyi saqqallıların əməli ilə bir tuturlar qəsdən. Yəni millətçiliyə dağıdıcılıq kimi baxırlar. Saqqallılarla qarışdırmaq gərək deyil. Onlar bilmirlər nə istədiklərini. Mən bilirəm nə istəyirəm. Mənim hədəfim var. Mən insan istəyirəm, mən millət istəyirəm. Mən bəşər istəyirəm. Ancaq onlar bilmirlər. Saqqallı deyir mən cənnət istəyirəm. Cənnət istəmək üçün gərək orda-burda adamları qırasan?! Bu nə deməkdir?! Ona görə bizim işimiz sayla ölçülmür, ideyanın gücü ilə ölçülür. Dünyaya gərək olan ideya ilə. Heç yarımca adam vermə mənə. Ancaq mən ideya verirəm ki, götür bu ideya ilə xalq yarat, bəşər yarat.

İndi bəzi baxışlara düzəliş eləmək istəyirəm. "Uluyurd Hərəkatı" Ocağın qanadı deyil. Ocağın heç bir siyasi, ya başqa qanadı yoxdur. Ocaq özü bütöv olaydır. "Uluyurd Hərəkatı" Ocağın baxışından doğan prinsipdir – Ocaqdan özül götürən. Ocağın ideya, prinsipləri əsasında vətənsevər, millətsevər insanlar, xadimlər həyata keçirməlidir bu hərəkatı. Biz istəməsək də, siyasət var, siyasəti isə yönəltmək gərəkdir. Siyasəti yönəldənlər isə şəxsiyyətlər, xadimlər olmalıdır. Həmin siyasi xadimlər siyasi prosesləri urvata gətirə bilər. Daha minüzlülük etməz, uğurlu addımlar atar, qurtuluş yönündə. Xadim məsələsi var burda. Nə qədər ruhaniyyatdan aşağı olsa da, o da gərəkdir, Dövlətdə dış işləri yönətim siyasi məsələlərə dayanır. İç işlər demədim, çünkü biz ruhsal dövlətin qurulmasını ölçü kimi görürük...

Sonra, etnik, türk qarşılaşdırılmasını dilə gətirmək doğru deyil. Allahşükür etnik olsun, ya kim olsun, özü bilər. İnsan olsun. Olsun talış, ləzgi, ya o biri. Biz yurdumuzu təkcə türkdən oluşmalı görmürük. Bizim vətənimizdə etniklər yüz illərdir yaşayır, bundan sonra da yaşayacaq. Biz onlarla dost olaraq, doğma olaraq birgə yaşayacağıq. Onların içərisindən önəmli dövlət görəvlərinə gələnlər də ola bilər, biz buna qarşı deyilik. Etnik bölücülüyə qarşıyıq, etniklərə qarşı yox. Əgər etniklər başqa qüvvələrin yönətimi altında bizim dövlətimizə, xalqımıza qarşı çıxarlarsa, söz yox, biz onları rədd edirik. Gərəkərsə, bölücülərlə döyüşə də bilərik. Biz deyirik, başqa dövlətlərin, qüvvələrin etkisi altına düşüb dövlətimizi parçalama. Axı, gücün çatar dost, qardaş kimi yaşamağa, niyə başqa qüvvələrin etkisi altına düşüb bölücülüklə uğraşırsan?! Biz bölücülüyə (separatizmə) qarşıyıq, heç vaxt etniklərə qarşı olmamışıq. Burda bir insançılıq məsələsi var. Bütün dövlətlərdə fərqli millətlərin nümayəndələri yaşayır. Bir Ermənistandan başqa. Ermənistanda ermənilərdən başqa az sayda ruslar var. Onlar da hərbçilərdir. Ermənistanın durumu bəllidir. Bu adda bir mövcudluq mənasız şeydir.

Dünyanın hər yerində fərqli millətlərin nümayəndələri var, hər bir millətin nümayəndəsi də özündə insanilik daşıyan bəşər övladıdır. Bizim ona münasibətimiz insanidir. Millətimizi sevirik. Millətimizi

qururuq, dəyərlərini tanıyırıq. Başqa etniklərə də sağlam, doğru münasibətimizin arxasındayıq...

Sizin genel toxunduğunuz, toxunmaq istədiyiniz məsələlərlə bağlı düşüncələrimi də bəlirlədim. Bizdən asılı olmayan məsələlər var. Dünyada nə baş verir versin, Ocaq həmişə öz çağırışının arxasında olacaq. İdeyası var, çalışmaları "İnsanlaşın – İnsanlaşdırın" çağırışını yaşatmaq, bu ideyanı gerçəkləşdirməkdir. Daim insanların içində olacaq, iş aparacaq. Vətənimizlə bağlı konkret addım atmaq gərəkərsə, biz orda varıq. Ancaq oyunlarda biz yoxuq. Mənəvi-ruhani döyüşümüzdəyik. Ocaqçılar sayca az olsa da, geniş, qapsamlı işlər görülür.

Biz milliləşməliyik. Bizim millətləşməyimizdən başqaları qorxmasın. Biz insani olanaqlarımızı ortaya çıxarıb milli birlik yaradırıq. Başqalarının da sağlam millətləşmə yolu keçmələrini istəyirik. Biz rusların da millətləşməsini istəyirik, imperiya olmasını yox. Rus xalqının sağlam birliyi olsa, rus dövləti başqa yerləri işğal eləməz. Alman xalqı sağlam millətçiliyini təsdiq eləmiş olsa, heç kimə zərər verməz. Heç bir xalqın haqqı yoxdur ki, başqa xalqların etnik kimliyinə soxulsun. Ruhsal anlam daşımalıdır millətləşmə, siyasi qarşıdurmalara çevrilməməlidir.

## Atagün Ailə Günü

*(27 Qürub Ayı, 36-cı il)*

36-cı ilin Qürub Ayı Atagün Elində "Atagün" Ailəsinin V Aylıq toplantısına hesabat verirəm. Söz deməzdən öncə Atamızın bayrağını öpərək Ona səcdə edirəm.

Amallaşma-Kamilləşmə-Xalqlaşma hesabatı. Amallaşmanı mən çox fərqli bir biçimdə aparıram. Fərqli biçim nədir?! – Mən özümdən Amallaşıram. Düşüncələrimdən öyrənirəm, özümə suallarımdan öyrənirəm. Hara baxıramsa, ordan mənim özümə sual yönəlir. Bu suallara cavablar mənimçün Atanı yarpaq-yarpaq öyrənmək demək olur. Ona görə də Atayla, Ocaqla bağlı düşüncələrim getdikcə öz axarını tapır. Amallaşmaq heç də yalnız kitab oxumaq demək deyil.

Onsuz da mən hər gün kitab oxuyuram. Mənim kitab oxumadığım vaxt yoxdur. Mən Atanı başqa bir açıdan topluma sunmaq istəyirəm. Bunun üçün yenə mən böyük ədəbiyata üz tutmuşam. Böyük ədəbiyat Atanı aydınlaşdırmaq yönündə mənimçün yaxşı bir araçdır.

Məni ilgiləndirən məsələni aşamalara bölüb dəqiqləşdirmələr aparmağa çalışıram. Bu aşamalar aşağıdakılardır: Bəşəriyyətin Ataya qədərki durumu, Ata çağındakı durumu, Atadan sonrakı durumu, yəni Atanın arzuladığı durumu. Bunları Atanın öz ölçüsüylə aydınlaşdırmaq üçün böyük ədəbiyat mənə gərək olur. Məsələn, məni düşündürən bir məsələ belədir: Asif Atanı, Yaşama dəyişiklik gətirən, böyük kurs götürən yaradıcı düha kimi hardan başlayım sunmağa, necə verim topluma?! – Doğrudan da, bütün bunların hamısı içimdə qurulma biçimində gerçəkləşir.

Xalq – həyatı puç edilmiş durumdadır. Səbəb nədir, xalqın həyatı puç edilib?! Bax, bu səbəb nədir məsələsi var, bir də bu səbəbdən doğru-düzgün sonuc çıxarmaq məsələsi var. Sonucda puç olmuş həyatı bərpa eləmək məsələsi var. Puç olmuş həyatı bərpa eləmək sadə bir məsələ deyil. Təkcə izahlara sığan məsələ deyil. Çox böyük addımlara bağlıdır, əməllərə, düşüncələrə bağlıdır. Mən düşünürəm, xalqın həyatı puç olana qədər hansı aşamalar yaşanıb, xalqın həyatı niyə heç ola bilir?! – Çünkü xalqın həyatını var edən keyfiyyətlər, dəyərlər insanların ürəyindən boşalıb. İnsanların ürəyi boşdur. Boş ürəkdə xalqın nə ağrısı bəlli olur, nə qayğısı, nə də gələcəyi. Bax, bu boş ürəklərdə xalqın həyatına bağlı dəyərlərin, məziyyətlərin, fəzilətlərin bərpa olunması məsələsi var. Bununla kim uğraşır, ya da kim uğraşacaq?! Biz deyirik, bununla peyğəmbərlər uğraşmaq istədi. Xalq adlanan, həyatı puç edilmiş bir varlığın qurtuluşu – boş qalmış insan ürəyinin fəzilətlərlə dolmasında, bərpa olunmasındadır. Axı peyğəmbərlər xalqı rədd edir. Axı peyğəmbərlər xalq tanımır. Axı peyğəmbərlər deyirlər, sən atanın qədrini bil, anana qayğı göstər, saygı göstər, ancaq onsuz da həyat puçdur, ailə də boş bir şeydir, yəni fanidir. Həm qayğı göstər, həm də boş bir şeydir. Mən bu peyğəmbərlərin təzadlı sözlərindən, təzadlı düşüncələrindən necə yaxa qurtarım?! Axı peyğəmbərlərin təzadlı düşüncələrinin arxasında qaragüruh var, ürəyi boşalmış insan kütləsi var. Mən deyirəm,

ailə qutsal olaydır, müsəlman deyir, dində də ailə qutsal olaydır. Mən deyirəm, ana qutsaldır, müsəlman deyir, dində də ana qutsaldır. Mən deyirəm, vətən sevgiyə layiqdir, müsəlman deyir, din də onu deyir. A balam, harda deyir?! Sənin qəlbində deyib, sənin ürəyinə yazıb?! Sənin ürəyinə yazıbsa, onda sən ürəyində o vətəni mənə göstər. Ana qutsallığını mənə göstər. Göstərə bilmirsən. Faniliyin içində Əbədiliyi necə göstərə bilərsən?!

Asif Atanın varlığı, gəlişi dinlə konflikt kimi görünür kimi görünür. Halbuki Asif Atanın dediyi düşüncə heç bir dinlə, hansısa bir aşama, hansısa bir cərgə təşkil eləmir. Yaşadığımız bu ortamda, bu müstəvidə xalq deyilən bir olay var. Bu müstəvidə vətən deyilən bir şey var. Bu müstəvidə insan, insanlıq deyilən bir şey var. Bu müstəvidə bəşərilik deyilən bir şey var. Asif Ata bu saydıqlarımızın mənasını, məzmununu ortaya qoyur, onu qurtarır, sağaldır. Axı din üçün bu müstəvi yoxdur. Hardadır din?! Asif Atayla eyni aşamada, eyni müstəvidədirmi?! Deyil! Axı Asif Ata öz dedikləriylə birdir, bir yerdədir. Sən də dediklərinlə bir yerdəsən, birsən. Sənin dediyin nədir bəs?! Asif Atanın dediyi, dediyim kimi, ailə, millət, bəşər, insan, vətən məsələsidir. Bunların müqəddəsliyi, əsilliyi. Asif Ata bunları deyir. Bunların yanındadır, dediyiylə bir yerdədir. Sən deyirsən, vətən yoxdur, millət yoxdur, bəşər yoxdur, fanidir, heçdir. Axirət var, cənnət var, allahın dərgahı var. Sən də öz dediklərinin yanındasan. Sən cəfəngiyyatın yanındasan. Sənin dediklərin cəfəngiyyatdır. Yoxdur gerçəklikdə, yoxdur yaşadığın həyatda, yoxdur gerçək düşüncələrdə dediklərin. Heç bir yerdə yoxdur. Sən xülyadasan. Ona görə də Asif Atayla semit peyğəmbərləri bir müstəvidə, çəkişmədəfilanda deyil.

Asif Ata əzab çəkir. Əzab çəkmək öyrədir. Bəs semit peyğəmbərləri nə deyir, nə öyrədir sənə? – Tüfeyli həyat. Gedəcəksən, nə isti görəcəksən, nə soyuq. Nə əzab görəcəksən, nə zəhmət. Nə gedəcəksən, nə gələcəksən. Nə başın daşa dəyəcək, nə əyiləcəksən. Heç nə olmayacaq. Kef çəkəcəksən. Bu, tüfeyli həyatdır. Əski Peyğəmbərlər sənə tüfeyli həyat öyrədir. Ancaq heç kim onların öyrətdikləri o tüfeyli həyata bel bağlamır. Bağlasaydı, bu "fani" həyat uğrunda mübarizə aparmazdı. Soruşun din adamlarından, niyə

bütün işini-gücünü qoymusan bu “fani həyat” uğrunda mübarizəyə?! Niyə qamarlayırsan, niyə yığırsan, niyə onun-bunun əlindən alırsan?! Peyğəmbərlər sənə həyatın gözəlliyini öyrətsəydi, onda sən bu dediklərimi eləməyəcəkdin. Sənə həyatın gözəlliyini öyrətsəydilər, onda sən tüfeyli həyatın olması ilə bağlı heç kimi aldatmayacaqdın. Onda sən həyatın məzmunuyla bir yerdə olacaqdın.

Bax, Asif Ata insana deyir, həyatın məzmunu insanlığa bərabər yaşamaqdadır, həyatın məzmunuyla bir yerdə olun, həyatın töküntüsüylə, itəniylə yaşamayın, məzmunuyla yaşayın. Məzmunuyla yaşayandan sonra görəcəksən, sənin qəlbində nə qədər gözəlliklərə yer var. Gözəlliklərlə dolduracaqsan boşalmış ürəyini. Xalqın puç olmuş həyatını, boşalmış ürəyini fəzilətlərlə dolduracaqsan. Budur Asif Atanın dediyi. Nə qədər canlı, aydın, gözəl. Nağıl yoxdur burda, mif yoxdur, ədəbiyat obrazı yoxdur, anlayışlar fəlsəfəsi yoxdur burda. Canlı həyatın gözəllikləri var, mənası var. Mənim yaşamalı olduğumu mənə qaytarır, öyrədir. Mənə nağıl öyrətmir...

Ancaq bu qədər aydın, sadə, dolğun bir məsələylə uğraşmaq nə qədər böyük zəhmət tələb edir. Nə qədər çətinliklər çıxır adamın qarşısına, bu qədər aydın olduğu halda. Məhəmmədin dedikləriylə bağlı heç bir çətinlik çıxmır bugünkülərin qabağına. Heç kim ağlını işlətmir. Sadəcə olaraq, yaşadığı həyatın heçliyindən gileylənir, dəyişmək üçün əzab çəkmir. Tərsinə, rahatlıq istəyir. Çünkü Məhəmməd onu yalançı rahatlığa yuvarlayır. Mütilik rahatlığına, zəhmətsizlik rahatlığına, heyvanilik rahatlığına. “Ağrımayan başına soğan doğramır”. Məhəmməd onu “rahatlığa” çağırır, Asif Ata isə onu zəhmətə çağırır. Puç olmuş həyatını bərpa eləmək üçün, yaratmaq, gözəlləşdirmək üçün zəhmət çəkməlisən, əzab çəkməlisən deyir. Ona görə də Asif Atanın çağırışına bir qom adam qulaq verir, boy verir. Məhəmmədin çağırışına “milyardlar” gedir. “Milyardlar” min ildir boşluğa gedir. Asif Ata aydın olanı, doğru olanı yaratmağa çağırır. Əsilləşdirməyə, gerçəkləşdirməyə çağırır. Ona görə hələ azca adam gedir onun ardınca. Dediyimiz kimi, çünkü burda zəhmət var, böyük məsələlərlə uğraşmaq var. Zəhmət aləmi “qatıb-qarışdırır”. Bizim əzabımız qarşılıqsız ötüşmür. Baxın, insanların münasibətini, rahatlığını kimsə, kimlərsə pozur, kimsə, kimlərsə insanları pozu-

culuqlardan qurtarmağa çalışır. İnsanlar, onların rahatlığını pozanlara dəymirlər, qorxurlar onlardan. Ancaq onları qurtaranlarla döyüşürlər. Bizim zəhmətimiz, varlığımız, döyüşümüz mütilərin, kölələrin yaşamlarına uyğun gəlmir. Ona görə özlərinin qurtarıcılarına qoşulmurlar. Dinləyəndə deyirlər, nə gözəl deyirsiniz. Ancaq bunlar baş tutası deyil. Sonra da gileylənirlər, dünya pozulub gedir. Mərifət yox, qanacaq yox, böyük-kiçik yeri bəlli deyil, yaxşı bir şey gözlənilmir. Bəs nə edək?! Çalışmaq gərək deyil, bunlar da yoxdur… Bax, sənin balaların var, soyun var, xalqın var – sənin əbədiliyin var arxanda. Onun rahatlığı üçün çalışmalısan. Sənin çəkdiyin əzabı, yaşadığın ədalətsizlikləri, haqsızlıqları o da çəkməsin, yaşamasın.

Biz Amallaşma hesabatı veririk. Nədir Amallaşma hesabatımız?! Asif Atanı xalqın içinə gətirməyin yolları, anlamı. Biz Asif Atanı xalqın içinə gətiririk ki, xalqın puç olmuş həyatını diriltmək baş tutsun. Asif Ata ruhaniyyatın yaşaması üçün oksigendir. Asif Ata sənin yaran üçün məlhəmdir. İçin çürüyür ruhaniyyatsızlıqdan, mənəviyyatı oyuna çevirməkdən…

Kamilləşməylə bağlı nə düşünürəm? Söz yox, Atanın yolunda külüng çalasan, gəlişmə olmaya, bu olası deyil. Hər gün mənim ruhum arılaşır. Hər gün içim bərkiyir. Ancaq günbəgün həyat ağırlaşır. Həyatın pozulmuş gedişində insan hər gün ölümə sürüklənir. Bunun ağrısının dalğaları çox uzaqları döyür. Hamı başını itirir. Hamı bir-birini alçaldır, aşağılayır, asanlıqla bir-birinə ağır zərbələr vura bilir. Bir-birinin əsəbləriylə oynaya bilir. Çox asan əsəbləşə bilir. İnsanlar günbəgün bir-biri üçün qiymətdən düşür. Bax bu gedişdə mən özümün ruhsal ləyaqətimi qorumaq haqqında düşünürəm. Kamilləşməmin əsasında son vaxtlar bu durur. Həyatın sillə vurduqları dizi üstə çökür, mən çökməli deyiləm. Ayaqda durmalıyam ki, çökənləri ayağa qaldırım. Evdən çölə çıxırsan, hər addımın əsəbdir. Mən öz təmkinimə yiyə çıxıram. Xalqa, onun kimsələrinə saygı duyum, saygımı itirməyim deyə. Ürəyimin gücü azalmasın. Sevgimin gücü azalmasın. Çağırmaq eşqim azalmasın, söz demək eşqim azalmasın. Usanmayım. Hər kəsin ürəyinin gücü azala bilər, hər kəs yıxıla bilər. Hər kəs məhv ola bilər. Sivilizasiya batmaq qorxusu ilə üz-üzə qala bilər, mən ölməli deyiləm. Mən o batmaqda olan sivilizasiyada

yeni bir dalğa başlamalıyam. Bax, bu dərəcədə. Peyğəmbər davamçısı olaraq sorumluluğunu dərk eləmək. Bizim öhdəmizə peyğəmbərlik işi düşür. Asif Atanın Evladı olaraq bizim işimiz peyğəmbər işini həyata keçirməkdir... Bax, bu qapıdan çölə baxırsan, gözünə gör nə görünür. Gözünə yaşamın gözəllikləri – insanı sehrləyən Doğa, Göylər, Ənginliklər, Gələcək, Əbədiyyət görünəcək. Bu biri yanda dizi üstə çökmüş, səfil duruma düşmüş insan. Ancaq bu insan o gözəlliklərin daşıyıcısıdır. Onun ürəyini səfalətdən qurtarmaq, gözəlliklərə səsləmək gərəkdir.

Bu qapıdan çölə baxıram, yalnız gözümün qabağında olanı görsəm, yəni çöküşü, çökəni görsəm, ruhumun görməli olduğunu görməsəm, yəni əbədiyyət çağırışını, ölməzlik gözəlliyini, ülviyyəti, əsrarı, sehri görməsəm, ürəyimdə güc qalmaz. Ürəyimin gücü, dayağı ruhumun gördükləridir. Deyirəm, yıxılan insan, özündən ayrılmış insan, özünə bərabər deyilsən. Mənasını, məzmununu daşıdığın sirrə, sehrə, əsrara layiq deyilsən. Düşmüsən aşağı. Bunun harayını çəkirəm. Bunun harayını çəkməsəm, ürəyimin gücü tükənə bilər. Onda Asif Atanın bayrağı enər, göylərə ucalmaz.

Xalqlaşmayla bağlı demək istəyirəm. Açığı son çağlar genelOcaq düzəyində Ocağın xalqlaşma işi, məsələn bir il, iki il bundan öncəki ilə tutuşduranda artıb. Sistemli şəkildə, davamlı olaraq. Bundan da artıq ola bilərmi?! Ola bilər. O sıradan mənim məqsədli görüşlərim, qonşuda, iş yerimdə, Ocağın indiki ünvanında, evimdə olur. Ən böyük olay kimi bu ay Güntayın əməlini vurğu eləmək istəyirəm. Mən onun işinin adını "Ev görüşü" qoydum, ya da "Düşüncə Evi" (Asif Atanın gerçəkləşdirdiyi "Düşüncə Evi"nə bənzər). Bundan sonra da davamı olmalıdır. Asif Atanı yarpaq-yarpaq, ideya-ideya insanlara öyrətmək üçün bu da bir üsuldur. Çox uğurlu iş getdi. 4 saat söhbət oldu. Bu qədər vaxtda bir adam havasını dəyişmək üçün belə çölə çıxmadı. Axıra qədər hər kəs dinlədi, sual verdi. Ocaq ədəbiyyatları götürdülər özləri ilə.

Sonra Üstünün təşkilatçılığıyla yeni adamlarla görüşdüm... Çox adamlar çox şey aparır Ocaqdan. Ciddi söz eşidirlər, Ocaq ədəbiyatları aparırlar. Yayılır ədəbiyatımız.

İndi Allah məsələsi ilə bağlı söz deyəcəm. Din baxışlarında Allahın insan kimi təsvir olunmasına yönəlik. Qaça bilmədilər. Başqa təlimlərdə Allah kainatın yaradıcısıdır. Bir var kainatın yaradıcısı, bir də var kainatın ünsürləri. Allahın yaratdığı maddələr. Buraya insan da, təbiət də özgündür. Yəni bir var Allah, bir də var, onun yaratdığı maddələr. Allah fövqəlqüvvə kimi götürülür, ancaq insan xarakteri, davranışı ilə təsvir olunur. Bax, kainatın yaradıcısı, insan xarakterləri ilə təsvir olunan o Allah hürufilərin dediyi "ənəlhəqq" məsələsi deyil. Yəni dində Allah ideyası "insan allahdır" anlamına gəlmir. Sadəcə olaraq, insan məziyyətləri verirlər ilahi adlandırdıqları o qüvvəyə. Allaha insanın, dünyanın "yaradıcısı" olan bir qüvvə kimi baxırlar. Ya da yunanların adam kimi davranan allahları da bütün insanların mənaca allah olduğu anlamına gəlmir. Seçilmişlərdir onlar. Onların konkret bir soyu var. Konkret bir ortamı var. Bir də yerdə qalan bəndə yığnağı, toplum, bəşər. Krişnaidlər də onun kimi. Krişna – allah, ali şəxsdir. Yerdə qalanlar allah deyil. Ancaq hürufilər deyir, hər bir insan allahdır. Biz də deyirik, İnsan allahdır mənaca, yəni özündə Mütləq daşıyır. Bununla belə, hürufilərin Allahı ilə Atanın Mütləqi də fərqlidir. Onların yanaşması panteist yanaşmadır, Doğa özü ilahi qüvvə sayılır. İnsan da onun bir zərrəsidir. Ancaq Asif Atada Doğa Mütləqin özü deyil, təzahürüdür. Mütləq – Doğanın nizamını, uyumunu oluşduran qüdrətdir. Bu qüdrətin adı Dünyalıqdır. İnsan Dünyalığın İnsanlıq çalarını, məzmununu özündə daşıyır. O məzmuna burada şərti olaraq Allah deyirik, o mənim içimdə İnsanlıq olaraq var. Mən Dünyalığın İnsanlıq tələbini öz içimdə gəzdirirəm. Onu üzə çıxarıram, ona doğmalaşıram. O oluram. Müsəlman bu deyilişdən qorxur, ona görə də çaşır. Necə yəni, kainatı yaradan ilahi qüvvə sənsən?! Mən də deyirəm, kainatın bənnası yoxdur. Mən də o deyiləm. İnsanlıq adlı qüdrətin daşıyıcısıyam. Dünyalıq həm də mənim İnsanlıq adlı mahiyətimdir. Dünyalıq məndən qıraqda deyil. Həm məndən yüksəkdir, böyükdür, həm də mənim içimdədir – İnsanlıq anlamında.

Ata çox böyük uğurla qabağa gedib deyir, Dünyalıq, Həyatlıq, İnsanlıq Mütləqin məna çalarlarıdır, ancaq birdir, ayrı-ayrı mənalar deyil. Mütləq birdir. Həyatlıq canlı gedişdə təcəlla tapır. İnsanlıq in-

sanların varlığında, ölməzliyində, yaşamında təcəlla tapır. Dünyalıq da bu anlayışlarla bir bütöv təşkil edir. Yəni o həm İnsanlıqdır, həm həyatlıqdır. Bu baxımdan Asif Atanın dediyi "İnsan Mütləqdir" məsələsi elə İnsanlıq daşıyıcısı olduğuna görədir. Dünyalıq mənasını özündə daşıdığına görədir. İnsanla Dünyalıq iç-içədir. Dünyalıq transendental deyil, insanüstü deyil. Kainatüstü deyil, ayrı deyil. Ancaq deyəndə ki, kainatın yaradıcısı var, həm də onda danışmaq, görmək, yönətmək bacarığı var, – bax, o, nağıldır, cəfəngiyyatdır. Allahın insan kimi təsvir olunması xülyadır. Dünyalıq insan deyil. İnsandakı bioloji keyfiyyətləri – dil, göz, acıqlanmaq kimi çalarları daşımır. Yəni Dünyalıq danışmır, görmür, eşitmir. Ya da gerçəkliyi maddə-maddə qurmur.

Asif Atadan öncəki dünyabaxışlarla Asif Atanın dünyabaxışının fərqi çox dərindir...

– Ocağın yurdumuzdakı proseslərə münasibəti. Asif Ata deyirdi, dünya demokratiya-totalitarizm, kapitalizm-sosializm dairəsində fırlanır. Bu gün dünyanın uyumu, ya da uyumsuzluğu, nizamı, ya da nizamsızlığı (çünkü bu nizam deyil) həmin dairədə bəlirlənir (müəyyən olunur). Dünya sosializm-kapitalizm dairəsinin içərisində nizamlandığına görə nizamsızdır. Dünya demokratiya-totalitarizm dairəsinin içində nizamlandığına görə nizamsızdır. Bütün gedişlər həmin nizamsızlıqdan, həmin dairənin içindən təzahür edir. Həmin dairənin içində düşünürlər. İnsan var olmur, özünə bənzəmir. İnsan içindəki İnsani mənanı aşkarlamır. Ona görə də dünyanın nizamında nizamsızlıq yaranır. Bu, məsələnin dərin, qlobal mənasıdır. Biz də bu qlobal mənaya, məzmuna baxıb izah edirik. Ordan yanaşırıq. Konkret olaraq Azərbaycanla bağlı. Biz indiki durumu ayrı-ayrı yazılarımızda yazmışıq, nə yazıqlar, ürəkaçan bir irəliləyiş yoxdur. Azərbaycanın indiki durumu sözün həqiqi mənasında izaholunmaz həddə gəlib çatıb. Biz, Azərbaycan olaraq, nə qədər ki, gizləndik, dərdimizi açıq demədik, Güneyimizin, Quzeyimizin parçalanmasını dilə gətirmədik, bu yöndə iş aparmadıq, Yurdumuzda bütün ölkələrin, dövlətlərin yaratdığı, sırıdığı hal bizi əydi. Biz onlara qarşı tolerantlıq nümayiş etdirdiyimizə görə bütün nəsnələrə zamanında səsimizi çıxartmadıq. Özümüzü "ağıllı" göstərdik, bir ölkə olaraq,

uçurulmağımıza, yıxılmağımıza göz yumduq. Yıxıla-yıxıla gedirik. İş ora gəlib çatıb ki, dövlətimizdə ən ibtidai məntiq pozulub. İnkişafdan danışırlar. Axı inkişafın özülündə təhsil durur. Bu gün test üsuluyla həyata keçirilən təhsilin keçid balı 150-yə enib. 700 balın qabağında 150-yə enib. Əgər yüksək bilik 700 balla ölçülürdüsə, 150 bal keçidiylə ölkədə hansı inkişafın özülünü qoyursan. O 150 balı hıqqana-hıqqana yığan adam oxumaz, avara tələbəyə hansı tərbiyəni verəcəksən, hansı görəvi ona tapşıracaqsan ki, ölkəmizdə abadlıq işi görsün. Yön yaratsın. Onun sonucudur, Azərbaycanda səhiyyə deyilən ünvana heç kim güvənmir. Heç kim həkimin ləyaqətinə inanmır. Ona görə ölür. Orta yaş həddi şox aşağı enib. Hamı ölür. Niyə ölür?! Ölkənin, ölümün qabağını ala biləcək səhiyyə qüdrəti yoxdur. Dərmanların çoxu insan sağlamlığını öldürəndir. Dərmanı satan insan sağlamlığını öldürəndir. İnsanı müayinə edən, müalicə edən insan sağlamlığını öldürəndir. Vicdan yoxdur, Mənəviyyat yoxdur, xalq sevgisi yoxdur. Vətən anlayışı yoxdur. Pul qazanmaq yarışı gedir dəhşətli dərəcədə.

Təhsildir, səhiyyədir, hüquq sistemidir, məhkəmə sistemidir, anti-insanidir. Balaca bir işin ortaya çıxdı, nə qədər pul verməlisən. Yoxsa aylarla məhkəmədə sürünəcəksən. İşin pis cəhəti də odur ki, bu, gözlə görünəndir. Hər kəs gözlə görür, ancaq addım atmır. Ona görə mənim kimi Asif Atanın ətəyindən tutan, ağıl işlədən, düşüncə ortaya qoyan adam uzağa baxıb deyir, xalqı bu durumdan qurtarmaq üçün ruhaniyyatı diriltmək gərəkdir. Ancaq toplum mənim kimi Asif Atanın ətəyindən tutmayıb axı. Onun gördüyü – yaşadığı gerçəkliklər, çıxılmazlıqlardır. Bunu görür, vahimələnir, ümidi ölür, həyata baxışı ölür, xalq olmaq meyli ölür, vətən haqqında düşünmür. Bu gündən sabahını sayır. Fürsət gözləyir, gedim hardansa nəsə oğurlayım deyə. Bu cür çaşanları sən qurtuluşa çağırırsan, onlar da deyirlər, "əşi, siz nəyi qoyub nəyi axtarırsınız. Həyat məhv olub gedir. Siz də deyirsiniz, gəlin insanlaşaq". Gözünün gördüyünə görə düşünür, ağıl işlətmir.

Xalqın içində bircə sağlam toxum var. O da Ocaqdır. Ocaq sağlam gələcəyin sağlam özəyidir...

Eləcə də günsəl mənada ölkənin içi, yönü. Dövlətimizin, hakmiyyətimizin başında duranlar oyun oynadılar, bir əlləri talançılıqda oldu, bir əlləri xalqın başında qapaz oldu, dövləti dövlət kimi qura bilmədilər, dövləti dövlət kimi qoruya bilmədilər. Elə acınacaqlı durumda qalmışıq ki, bu gün can hayında olan, ölüm ayağında olan Rusiyaya hələ də boyun əyir, qurbanlar verir başda duranlar. Bizi Avrasiya Birliyinə çəkir, sovet quruluşu kimi bir şey yaradaq, Avropanın gəlişindən, qamarlamasından, soyub aparmasından bir yerdə sığortalanaq, gizlənək deyir guya. Bizimkilər gedər ona, ən azı özlərini, sərvətlərini qorumaq üçün. Ancaq bu yandan da Avropa hədələyir. O qədər adiləşib, asanlaşıb, bir anın içində hakimiyyət çevrilişi edə biləcəyini gözə soxur. İndi iki yana bax, görüm gözün qabağını necə görəcək?! – Görməyəcək.

Belə bir durumda hər kəs başını itirib. Nə dövlət ümid verir topluma, nə dövlətin başında duranla savaşa bilən yoxdur. Heç nə ümid vermir. Ona görə deyirəm, yeganə sağlam toxum var, o da Ocaqdır. Ocaq siyasi mənada güc deyil. Heç Ocağın işi də deyil. Ancaq o xəttin özündə, dirçəlişin, bərpa olunmağın özülü, özəyi yenə də Ocaqdır. Ona görə biz çağıranda ki, Asif Atanı eşidin, Onun ideyaları böyük olanaqdır, bəlağətə yol vermirik. Biz həqiqi çağırış edirik. Qurtuluş budur.

Atamızın bayrağını öpürəm!

## Ailə Günü

*(1 Ata Ayı, 36-cı il)*

Burada Ocaqçılar hesabat verirlər, bunu Ailəçiliyin prinsiplərinə uyğun şəkildə edirlər, üzdən baxanda gələnlərimizi bu yöndən gözə almırlar. Yəni tədbir sırf bilgi vermək üçün deyil. Gələnlərimiz hər zaman var, hər zaman da ola bilər, ancaq Ocağın öz prinsipləri var, "Ailə Günü"ndə Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı verilməlidir. İlk baxışdan yeni gələn soydaşımız üçün bir çox şeylər qaranlıq qala bilər. Bəzən anlaşılmayan şeylər ola bilər. Bu doğaldır. "Ailə Günü" Asif Ata Ocağının apardığı işin bir xəttidir. Bizim həyata

keçirmək istədiyimiz ideyalar var. Bunu sadə həvəslə həyata keçirmək mümkün deyil. Burada bu ideyaları həyata keçirə bilən insanlar yetişir. Əslində "Ailə Günü"nün hədəfi budur. Asif Atanın ideya yükünün altına girə bilən güclü şəxsiyyətlər gərəkdir. Burada fərd özü-özünü yaradır.

Amallaşırıq, yəni nə edirik?! Göylü Hemenqueyin "Qoca və dəniz" əsərindən açıqlamalar verir. Adama elə gələ bilər, Hemenqueyin bu əsəri burada nəyə gərəkdir, axı bura ədəbiyat məclisi deyil. Məsələ ədəbiyatda deyil, Göylü bu əsərə sənət örnəyi kimi üz tutmur, genelbəşər həyatını özünə aydınlaşdırmaq üçün üz tutur. Sənət özü həyatdan qıraq bir şey deyil, həyatın içində var. Amallaşıram, əslində Asif Atanı öyrənirəm. Mən Asif Atanın anlayışlarını 7 il onun özündən eşitmişəm. Çox sonralar anladım ki, 7 il nə öyrənmişəmsə, o mənim alt yapımda qalıb. Adam sözü dinləyir, söz ona tanış gəlir, sonradan sözü dünləyəndə yalnız söz ona çatır. Əslində insanın içinə çox gec oturur həqiqət. Həqiqət o vaxt insanın içinə oturur ki, insan həqiqəti həm düşünür, həm də yaşayır. Əgər həqiqətin tələbi ilə addım atmırsan, yaşamırsansa, o yalnız sənin bəlli anlarda ağlına gələcək, sonra da ağlından çıxıb gedəcək. Ağlından çıxıb getməsə belə, o sənin üçün ritorik bir məna daşıyacaq. İnsan həqiqəti dinləyir, öyrənir, ona görə ki, yaşamaq istəyir. İnsan məsələsi demişkən, bunu izah etmək üçün bir şey vurğulayım. Burada bizə bildirmək yönündə deyildi ki, peyğəmbərlər böyük şəxsiyyətlərdir. Bunu, doğru sayırıq. Ancaq peyğəmbərlər çox deyil. Peyğəmbərlik başlayır Zərdüştdən, sonra Budda gəlir, İsa, Musa, Məhəmməd. Bunlar böyük səxsiyyətlərdir. Biz onların böyük şəxsiyyət olduğunu həm ideyalarından görürük, həm də yaşadıqları ortamda yaratdıqları hal ilə öyrənirik. Bəs bizim çağımıza onlar nə ötürüblər?! Onların böyüklüyü toplumdan (cəmiyyətdən) üstün olmalarındadır. Bəs toplum özü nə gündədir?! 7 milyard insanın içərisində bu gün axtarsanız barmaq sayı adam tapacaqsınız ki, bunlar insanlığa uyğun yaşayır. Mən sizə bunu toplumun durumu ilə uğraşdığım, öyrəndiyim üçün deyirəm. Peyğəmbərlər çağlarındakı toplumdan üstün idilər. Axı bəşəriyyət öz mahiyətinə uyğun yaşamır. Bəşəriyyət öz mahiyətinə uyğun yaşasa, biz peyğəmbərlərin öz həyatına ondan sonra baxa

bilərik, onda qırağa çıxmaları aydın görəcəyik. Mütləqilik ölçüsü ilə yanaşacağıq. Onda biz bəşəriyyətin çatdığı mənadan baxacağıq. İsa yaxşı adam idi. Ancaq İsa deyirdi, insan Allahın qoyunudur. Məhəmməd deyirdi, insan anadangəlmə günahkardır, Adəmlə Həvvanın törəməsidir. Adəmlə Həvva da Allahın cənnətdən qovduğu məxluqlardır.

Mən dönə-dönə vurğulamışam məsələnin bu yönünü. Quranda deyilir: Adəmlə Həvva Allahın buyruğuna boyun əymədilər, cənnət bağında buğda ağacından yedilər. Bu zaman onların ayıb yerləri göründü. Allah onları İblisin etkisinə uyduqlarını əsas götürüb cənnətdən qovdu. Hara qovdu?! Bizim planetə. Yer planeti nə cənnətdi, nə cəhənnəm, keçiddi. Bizim yaşadığımız dünya konslagerdi məntiqlə. Peyğəmbər bunu dedi. Öyrənmisinizmi bu nə deməkdir?! Cənnət ağacından, buğdadan yedi. Buğda nədir – çörək, çörək isə həyat deməkdir. Quran bununla başlayır. Yəni həyatı ləğv edir. Deməli, Allah buğdaya (həyatı var edən nemətə) görə mənim əcdadlarımı qovub. “Ayıb yerləri göründü” nə deməkdir, yəni doğub-törəməyə başladı. Doğub-törəmə günah imiş. İnsanlığın yaranması, gəlişməsi suç imiş. Sonra deyir, siz Allaha ibadət etməli, günahınızı yumalısınız. Bundan sonra bəlkə Allahın rəhmi gəlib sizi öz dərgahına – cənnətə götürdü. Bu məntiqsizlik insanlığı alçaltmaqdır.

Cənnətdə doğub-törəmə varmı?! – Yoxdur! Doğub-törəmə olsa, cənnət olacaq elə Yer. Ancaq deyir, orda nə isti var, nə soyuq, nə əzab var, nə əziyyət, orda hər şey hazır şəkildə verilir, kef edəcəksən. Bu, tüfeyli həyat deməkdir. Sizin də bəyənmədiyiniz Azərbaycan məmurlarının həyat tərzi kimi bir şey. Hara çağırırsan məni?! Orda nə qohum var, nə qardaş, kimsə yoxdur o dünyada. Çünkü doğub-törəmə yoxdur. Yoxdursa, millət də yoxdur. Millət qohumdan, qardaşdan, anadan, atadan olur. Millət olmayan yerdə nə var – sürü.

“Hamı məhv olacaq, sonra Allahın hüzurunda yenidən diriləcək, sorğuya çəkiləcək, 5-3 sözəbaxan (əməlisaleh) adamı saxlayacaqlar, ondan yeni bəşər yaradacaqlar”. Bunu da İsa deyir. Bu nağıllara nə vaxta kimi inanmalı?! Bu cəfəngiyyatla hara getmək olar?! Milləti ləğv eləmək nə deməkdir?! Ona görə Məhəmməd deyirdi, hamı mənim ümmətimdir. Millət yoxdur, ümmət var.

Türkdən ümmət olmaz!

Geneldə hər bir millət özü bəşərdir. Bəşər millətlərdən oluşur. Mücərrəd bəşər yoxdur. Milləti ləğv edirsənsə, bəşəri ləğv edirsən. “Onsuz da bu dünya oyun-oyuncaqdır, fanidir, heçdir, puçdur, yalnız axirət dünyası doğru dünyadır”. Dünyanı insanın gözündən salmaqdır bu. Sənin şəxsiyyətini ölçmək istəyirəm, nə ilə ölçüm, dünyanı mənim gözümdən salırsan. Mənə mücərrəd dünya vəd edirsən, ona görə dünya eybəcərliklə doludur. Eybəcər olaraq da qalır, çünkü gözdən salmısan. Sevmirəmsə bu dünyanı, demək istəmirəm bu dünya düzəlsin. Sən kamillik ideyanı ortaya qoy görüm, nə deməkdir kamilliyin?!

Sufilər İslamın içində başladılar, ancaq mənaca onun dediyindən qırağa çıxa bildilər. Onlar Allaha qovuşa bildilər. Allahla bir idilər, “vəhdəti-vücud” münasibəti yaratdılar. Onlardan qıraqda “vacibül-vücüd” baxışı da vardı: “İnsan heçdi, dünya heçdi, yalnız O vacibdi”. Nə yazıqlar, bizim mollaqafalılarımız bunu öyrənmirlər. Dərindən heç nə öyrənməyiblər. Nə sufiliyi dərindən öyrəniblər, nə dini dərindən öyrəniblər.

Gəlirəm Asif Ataya səcdə məsələsinin üzərinə. Asif Ata deyir: “İnsan – özündə Mütləq gəzdirən, gerçəklikdən, ortamdan, gedişdən yüksək olan, Mütləqiliyə meyil eləyən, Mütləqləşməyə qadir olan Ruhani Varlıqdır”. Bəşər tarixində bu sözə bərabər söz deyilməyib. Yerin-göyün əşrəfi deyib insana hürufilər, Babək deyib, Mənsur Həllac deyib, Nizami də deyib, ancaq yerin-göyün əşrəfi nə deməkdir?! – Yerüstü, göyüstü Allahın yaratdığı əşrəf. Fövqəlqüvvənin yaratdığı əşrəf. Yaradılandı o əşrəf, içində Mütləq gəzdirən deyil. Transsendental, əlçatmaz qüvvə var, o qüvvədən aşağıda hər şey var. Asif Ata isə deyir, səndən qıraqda qüvvə yoxdur, qüvvə səninlə iç-içədir. Mütləqi içində gəzdirirsən, Dünyalıq sənin mahiyətində var. Dünyalıq kainatın içində var.

Aristotel deyir, insan adlı əyri ağacdan heç nə düzəltmək olmaz. Asif Ata da deyir onda sənin fəlsəfən nəyə gərəkdir?! Fəlsəfə insanın əyrisini düzəltmək üçündür. Sən də deyirsən heç nə yaratmaq olmaz, onda niyə yaratmısan fəlsəfəni?! Ata deyir, dünya fəlsəfəsi böyük anlamda qaralamadır. Biz tarixdə olan filosoflara nisbi baxış-

larla yanaşmaq zorundayıq. Filankəslə tutuşdurmada filankəs dahidir, böyükdür. Asif Ata deyir, özünü tarixlə, toplumla, gerçəkliklə tutuşdurma. Özünü Mütləqlə tutuşdur. Mütləq nədir – Əzəli, Əbədi, Kamil, Sonsuz olan. Onda görəcəksən sən kimsən. Onda yenilməyəcəksən. Babək ona görə yenilmirdi. O bunu deməsə də, ağlına çatmışdı, içində Şirvin gəzdirirdi. İndi Bəzz Qalasına yürüş edənlər Babəki deyib gedirlər. Hamı bunu anlasa da, anlamasa da. Babəkə tapınırlar. İslama tapına bilmədilər. İrana tapına bilmədilər. Ayrı-ayrı qabağa çıxanlara, demokratik kimsələrə tapına bilmədilər. Tarixdəki Babəki pirim deyib tuturlar. Onlar üçün qaçılmaz olub ora gediş. Nə qədər tam çıxış yolu olmasa da bu uğurdur.

Baxın, görün, Asif Ata insanı hara qaldırır, İnsan kimdir onun üçün?! Sənin gördüyün insan özündən ayrılıb, bəsitləşib, cılızlaşıb, biologiyaya çevrilib. Gerçəkliyə bərabər yaşayır. Budur, Amaldaşımız deyir, xalqa özümlüyündən danışıram, qorxur. Nə ilə böyüdəcəksən xalqı, qorxmasın. Nisbi ideallarla böyüdə bilməyəcəksən. Nisbi ağılla böyüdə bilməyəcəksən. Mənim sevdiyim xalq kütləyə çevrilib. İnanmır özünə, şəxsiyyətinə, böyüyünə, gələcəyinə. Nəylə inandırım onu mən? Uydurmalarla inandıra bilmərəm. Özgə “dəyərlər” məni ayağımdan çəkib quyuya salır. Bəs necə inandırım?! – Həqiqi idealı göstərməklə. Həqiqi idealı öz ömrümdə yaratmaqla. Öz xalqımda, insanımda yaratmaqla. Nə qədər çətindir, ancaq nə qədər ucadır, nə qədər fərəhlidir.

Biz Asif Ataya səcdə qılırıq, çünkü bu bayraqda yazılıb: “İnsanlaşın – İnsanlaşdırın!” Asif Ata insanlığı təmsil edir. Çatıb o zirvəyə. Mən öyrəndim bunu. Mən bütün dinləri öyrənmişəm, animizmdən bu günümüzə qədər. Ən ibtidai inanclardan tutmuş göyel (səmavi) dinlərə qədər. Tutuşdururam, görürəm Asif Ata kimdir. Mən Asif Atanı anlamağa başlayanda özümə ilk sualım belə oldu: Asif Ata məni hara çağırır, ona yaramağamı çağırır, özüm olmağamı?! Asif Ata məni ona yaramağa çağırsaydı, bu gün məni bu bayrağın altında çıxış edən görməyəcəkdiniz. Məni özümə çağırırdı. İnsanlığa səcdəm Ona yanaşmamda gerçəkləşdi. İnsanlığa səcdəni mücərrəd edə bilmərəm ki. İnsanlığa səcdə qılıram, bu insanlıq hardadır?! – Atanın ömründə. Səndə. Səni ora qaldırmaq istəyirəm. Sənə səcdə qılmaq

istəyirəm. “Heyrət ey büt, surətin gördükdə lal eylər məni” demək istəyirəm. Həq mənəm, həq məndədir demək istəyirəm. İstəyirəm səni (insanı) sevəm, sənə tapınam, sənə güvənəm. Biləm ki, məni aldatmayacaqsan, biləm ki, dövlətimi satmayacaqsan, biləm ki, məni rəzil günə qoymayacaqsan. Onda sənə səcdə qılacam. Çünkü sən mənaca böyüksən, sənə səcdə qılmaqla səni də, özümü də yüksəkliyə qaldıracam. Sənə qovuşmağa çalışacam. Səcdə məni sənə qaldırır. Xudbinlikdən ayırır. İnsana, insanlığa səcdədən qorxmuram. Qorxmağı doğru saymıram. Necə olur, bəşəriyyət heyvana səcdə qılır, totemizm dövründə nəyi özünə səcdəgah seçmədi, ilanı, qarğanı, qartalı, canavarı. Sənin baban türk boz qurdu özünə totem seçmişdi. Asif Ata deyir, canavara niyə səcdə qılırsan, o bir dövr idi, keçdi, arxada qaldı. İnsana səcdə qılmaq gərəkdir. İnsana səcdə qıl ki, dünya düzəlsin.

Məkkədə sürünmə, Azərbaycanı müqəddəsləşdir. Nə qədər ki, Azərbaycanı sevmirsən, torpağını öpmürsən, sənin vətənin tikə-tikə olacaq. Vətənin min yerə parçalanacaq. Vətəni nə qoruyur, ürək, idrak. Vətən o deməkdir. Vətən təkcə avtomatla qorunmur. Göstərin mənə müdafiə nazirliyinin sistemində vətənsevərlik qonusunda söhbətləri. Vətəni çalan, çapan vətəni sevər?!

Biz hər birimiz öz evimizdən bayıra çıxırıq, öncə öz evimizdə tərbiyə alırıq. Gəlin görək, biz evimizdə hansı tərbiyəni alırıq?! Bizə tərbiyə verən ata-ananı sevirik, bu öz yerində. Mənim ata-anam mənə tərbiyə verib ki, qonşunun bostanına daş atma, oğurluq eləmə. Bunu dəfələrlə demişik, bu balaca tərbiyədir. Günlərin bir günü, böyük ürəyin, böyük idrakın yiyəsi olmamısansa, öz bildiyini edəcəksən, cılızlıq anlamında. Ata-ana mənə demir ki, sənin vətənin tikə-tikə doğranıb, insanlıq məhv olub, get onun uğrunda mübarizə apar. İnsanlıq uğrunda mübarizəni bizə Asif Ata öyrətdi. Atalar, analar özləri bədbəxt duruma salınıb. Onlar bilmirlər axı, Azərbaycan nə deməkdir, vətən nə deməkdir. Onlar deyirlər, əstəğfrullah, Məkkənin adını tutma. Azərbaycanı nə qədər istəyirsən söy, dinməyəcək. Öz yurdu söyülür, öz milləti aşağılanır, dinmir. Niyə?! Çünkü ağlı xürafatın etkisindədir. Xurafat belə olur.

Bütün bəşər başdan-başa xurafat içindədir. Din xurafatı, idman xurafatı, iqtisadiyyat xurafatı. Hamısı insana münasibətdə eyni şeydir. İdmanda insan kapital vasitəsinə çevrilir. Pul kimi qullanırlar onu. Ancaq deyirlər ölkənin şərəfini ucaltdı. Nə deməkdir, getdi filankəsin kürəyini yerə vurdu, ölkənin şərəfini ucaltdı?! Ayıbdır belə şeylər. Hanı sənin idrak böyüklərin?! Sənin idmanda qələbə çalanın Vətənin, Dəyərin nə olduğunu dərk eləmir. Xurafatdır bu.

Musiqi xurafatı gör sənin gəncliyin nə günə qoydu. Heç birinin qulağından qulağa taxılanı çıxara bilmirsən. Tıxayıb ora, həqiqət-zad eşitmir. Məhv olub şüuru. Bu gəncliyin beynində nə əkmək olar?! Bu gənclər evimizin içindədir. Musiqi musiqi də deyil. Hamısı vəhşi ehtizaz. Canın-cəmdəyin hoppanması. Orada ruh yaranmır. Vəhşi ehtizaz məhv edir insanlığı. Cəhalətləşdirir, sürüləşdirir.

Yönətim sistemimizə baxın. Dörd-beş ildən bir pulluları seçirik başımıza çıxarırıq ki, bizi yaxşı talayın. Seçdirirlər bizə özlərini. Get istənilən bir dövlət qurumunun qapısını döy, sənə gözlüyün altından pula baxan kimi baxır. Bir az dirəşirsən, deyir get hara istəyirsən şikayət elə. Yönətim özü xurafatdır, sürüləşdirir, əsarətə götürür. Bəs bundan necə çıxaq?! – Baxın, Asif Ata deyir, xurafat ruhdan başlayır. Ruhu xurafatlaşdıran nədir – din. Dinlərin təməl prinsipləri yalandır. Yeri-göyü yaradan Allah ideyası yalandır. "Hər şey sənin alnına yazılıb. O dünyada kef eləyəcəksən. Cəhənnəmdə səni boğacaqlar qan-irinlə". Bunları sənin şüuruna yeridiblər. Bu eybəcərliyə pənah aparan adam necə kamilləşə bilər?! Sənə necə sayğı duya bilər?! Qapıdan çölə çıx, bir-birinə sayğı yoxdur, çünkü içində inam yoxdur. İnsanlığın toxumunu içində bəsləmək istəyən yoxdur. Bu ordan başlayır. Ruhu işğal olunur, milli ruhu məhv olunur. Sonra vətən işğal olunur, dövlət işğal olunur. Ondan sonra nə qədər istəyirsən, get qeybət elə, istər kütləvi, istər dörd divar arasında. Mitinqlər qeybətdir. Mən ayrı-ayrı vətənini sevən adamlara sayğı duyuram, ancaq bu dediyim həqiqətdir – mitinq qeybətdir. Hansı maarifçilik işi aparmısan insanların içində?! Hansı milli-mənəvi həqiqəti söyləmisən onlara?! Qarnın uğrunda mübarizə gərək deyil, millət uğrunda mübarizə gərəkdir.

Hər yanda çığırırlar, din əldən getdi. Heç kim demir, millət əldən getdi. Din əldən getməyib, hamı namazını qılıb orucunu tutur. Milli şüur əldən gedib. Bunun harayını kim çəkəcək, nə vaxt çəkəcək?! Asif Ata çıxış yolunu aydın deyir: İnsanlaşın – İnsanlaşdırın. İnsanlaşma – millətləşmə, insanlaşma – dövlətləşmə, insanlaşma – bəşəriləşmə deməkdir. İçində özünə bərabər yaşamayan, səmimi olmayan, qüdrətli olmayan, şəxsiyyətli olmayan insanlar millət yarada bilməz. O şəxsiyyətlər on iləmi yaranacaq, yüz iləmi, ona çalışmaq gərəkdir. Kim yaradacaq – özümüz. Necə yaradacağıq – Asif Ata ilə. Bunu açıq deyirik, ağzını əyən özü bilər. Bunun arxasında duran fəlsəfəni sunuruq. Asif Atanın altı ideyası bu istəkləri ödəyir. Çünkü bu ideyaların içində vətən sevgisi, millət sevgisi, bəşər sevgisi birləşib.

## *"Şərqilik" Bayramı*
*(12 Ata Ayı, 36cı il)*

Ocağımızın çalışmaları həm tədbirləri həyata keçirməklə bağlıdır, həm də xalqın içində aparılan bir sıra işlərlə bağlıdır. Bu cəhətdən vurğu eləmək istəyirəm: biz xalqın içində oluruq, son dərəcə ciddi, həryönlü sözümüzlə, ideyamızla, varlığımızla. Xalqın içinin hara endiyinin fərqinə varırıq. Nə yazıqlar, xalqın içində rəsmiyyətə inam var, mənəviyyata inam yoxdur. Ona görə də xalq elə bilir, onun taleyini rəsmiyyət həll edəcək. Xalq dedikdə əslində biz genel toplumu – kütləni göz önündə tuturuq. Böyük anlamda xalq – onu düşünən, quran insanlardır. O başqa məsələ ki, xalqı düşünən insanlarla yerdə qalan toplumun bəlli bir qurucu bağlılığı olur, ya da olmalıdır. Ancaq nə görürük, bu bağlılıq on illərlə, bəzən yüz illərlə xalqın içində bütövlük xarakteri daşımayıb. Heç kim düşdüyü durumun mahiyətini ciddi düşünmür. Mən hər zaman vurğu edirəm, Asif Ata Ocağı olaraq, bizim iddiamız çox ciddi əsaslara dayanır. Azərbaycanda bireysəl olaraq Azərbaycansevərlər var, ancaq köklü şəkildə, ideya, prinsip baxımından Azərbaycanın yükünü daşıyan nə bir qüvvə var, nə də şəxs. Ona görə də günü-gündən içimizdə uçub-

dağılma gedir. Aydın sayılan insanlar belə qırılır, ümidləri itir. Mənə deyənlər olur, belə getsə, bu xalqdan heç nə çıxan deyil, heç bir mübarizə uğuru da alınmayacaq. İnsanların ürəyi millət sevgisindən, millətin gələcəyinə ümiddən boşalır. Ancaq bunları demək azdır, yaxşı bəs neyləyək?! Heç kim "neyləyək" məsələsinin altına çiynini vermir. Ocaq isə öz işində davamlıdır. Bizim ortamımız var. Bu ortamı biz təkcə Ataya sədaqətimizə, münasibətimizə görə qurmuruq. İnsanlığın durumunu anladığımız üçün özümüzü bu işə ciddi veririk. Söz yox, belə bir gedişdə Ocaq kimi ortamı qorumaq olduqca çətindir. Əgər insanlarımız, umacaqsız olaraq, xalqının gələcəyini düşünüb yükün altına çiynini verməsə, Ocaq da lokal uğurlarla bir yerə kimi gedib dayana bilər. Atanın sözü var: ***"dünya hərcayidir, sən hərcayi olma. Dünya dağılsa da, sən hərcayi olma... Öz yolunla get. Onda dünyanı taparsan"***. Müdriklər ona görə örnək ömür yarada bilirlər ki, dünya dağılsa da, onlar yoldan sapmayıblar. Necə deyərlər, Sizif aqibəti yaşayıblar. Ocaqdan da elə bir aqibət tələb olunur. Həyat getdikcə ağırlaşır. Həyat yeriyir hər kəsin üzərinə. Qıraqdan adamlar elə hesab edir ki, onların dərdi çoxdur, Ocaqçıların isə dərdi-zadı yoxdur.

Mən neçə rayonlarda olmuşam. Həm deyirlər, Azərbaycan pis gündədir, həm də deyirlər, siz neyləyə biləcəksiniz, nəyə gəlmisiniz, sizin sözünüz nəyi dəyişəcək axı?! Mən də deyirəm, mənim sözüm darı kimi qulağını dələcək, əgər sən qulaq versən. Qulağına pambıq tıxamısan, mən nə bilim neyləyəcək. Qulağından pambığı çıxart, görəcəksən mənim sözüm neyləyəcək.

Bir yazı yazmışdım, "Söz Tanrıdan sonradır. Ancaq Tanrını da tanıdan Sözdür". Əgər söz Tanrını tanıdırsa, sənə Tanrını bəxş edirsə, necə yəni söz neyləyəcək?! Asif Ata illər öncə Moskvadan Azərbaycana qayıdanda ciddi arzularla, ümidlərlə qayıtmışdı. Belə edəcəyik, elə edəcəyik. Onu hansı aqibət gözləyirdi, bilmirdi. O deyirdi, Azərbaycanın, yəqin məndən başqa da 3-5 düşünəni, sevəni var. Gəlib gördü yoxdur, Azərbaycan çöküb. Ancaq yoxun içinə girdi. Yoxluğun içində ideya yarandı. Bu gün bizim, xalq olaraq, varlığımızın təsdiq olunması üzərində çaba göstərir Asif Ata. Onun başladığı yolda yüz il, min il çağırış olur...

O gəlib Azərbaycanı bu gündə görəndən sonra düşünürdü, təkcə SSRİ ilə bağlamaq olarmı Azərbaycan xalqının fəlakətini?! Təkcə SSRİ ilə bağlamadı. Bildi ki, Azərbaycanın taleyini təkcə SSRİ ilə bağlasa, onu dərk edə bilməyəcək. SSRİ-dən öncə də başqa "SSRİ"-lər olub, bundan sonra da olacaq.

İllər öncə basında (mətbuatda) yazmışdım, nə qədər ki, bağımsız deyilik, həmişə onun-bunun qarşımızda qoyduğu öhdəlikləri ödəyəcəyik. Bu gün də "Avropa Şurası" deyilən bir qurum sənin dövlətinin qabağında öhdəlik qoyur. Azərbaycan dövləti başqa dövlətlər qarşısında öhdəlik götürür. Nə deməkdir bu?! Sən bu xalqın qarşısında öhdəlik götürməliydin. Sən bu xalqın qarşısında öhdəlik götürə bilmirsən, ona görə yadelli qüvvələrin qarşısında öhdəlik götürürsən. Öhdəlik də odur ki, Azərbaycanda hay-həşirə meydan ver. Qoy içini çalxalasın, qarışdırsın, mən də gəlim yaxşı oturum. Öhdəliyin tələbi odur. "Sərbəst toplaşmaq" nə deməkdir?! Kim toplaşır sərbəst?! Göstərin mənə sərbəst toplaşanların ağlını, ləyaqətini, vətən sevgisini, millət sevgisini. Sərbəst toplaşan ya hakimiyyət azarından ölür, ona görə toplaşır, ya da acından ölənlərdir. Onların içində Vətəni sevən barmaq saydadır. Sən də başqasının qarşısında öhdəlik götürürsən. İndi ki, SSRİ yoxdur. Deməli, xalqın ruhu çökdürülüb. Ruhu dəyişib, dəyişdirilib. Ürəyinin içi dəyişib. Aydınının ürəyinin içi boşdur. Ayrı şey dolub ora. Ona görə Asif Ata dedi, yeni dünyabaxış – Mütləqə İnam dünyabaxışı yaradıram. Mütləqə İnamı yaradıram ki, insan var olsun, Azərbaycan bəşəriyyətin gələcəyində öz varlığını təsdiq eləsin. Azərbaycan tək bizə bağlı olay deyil, o həm də geneldoğu olayıdır, geneldoğu dəyərlərinin önəmli bir parçasıdır. Bu gün məqsədyönlü şəkildə Doğu dediyimiz bir olayı hər nə ilə olur olsun, gözdən salırlar, sıradan çıxarırlar. İŞİD-i yaradır, sübut eləsin ki, Doğu dediyniz terrorçu, başkəsən sürüdür. Siz busunuz. Ayrı-ayrılıqda o, ərəb kimi görünür, ancaq Doğu adı tutanda sən də ona qarışırsan. İnkişaf etmiş Avropa, Batı öldürür Doğunu, Doğusallığı.

Batı istəyir İslam qalsın. İslam qalsın ki, ondan İŞİDlər düzəldə bilsin, onlarla regionu qarışdırsın. Ancaq islamın hay-həşiri də var, o hay-həşir qara kütlənin biryerdəliyi demək olar. Onlar bir araya gələ

bilər, birdən xəlifə yarada bilər. Xəlifə yaranmasın, ancaq İslam olsun. Bizdə deyirlər, Batı İslamla döyüşür. İslamla döyüşmür. İslamın xəlifə yaratmaq arzusuyla, meyliylə döyüşür. Geneldə isə İslamın yaşamasını istəyirlər. Nurçuluğun yiyəsi kimdir, Amerika deyilmi?! Vəhabiliyin yiyəsi İngiltərə deyilmi?! Başqa şeylər də çıxacaq ortaya. Sabah vəhabilik ortadan qalxsın, bütün region vəhabiliyə qarşı birləşsin, vəhabilik heçə çevrilsin, başqa bir "vəhabilik" ştrix ortaya çıxacaq. Mən əminliklə deyirəm. Dayanmayacaqlar, çıxaracaqlar yenə.

Asif Ata isə deyir, Doğu bu deyil. Asif Ata deyir, Doğuda Buddanın imtinaçılıq fəlsəfəsi olub (biz, adını çəkəcəyim təlimlərin heç birini əsaslı saymırıq. Ancaq bunları yox saymağa haqqımız da yoxdur. Onların hər birindən öyrəniləsi, bəhrələnəsi nələrsə var). Əgər Buddanın imtinaçılıq fəlsəfəsinə bəşəriyyət qulaq kəsilsəydi, təbiətin başına bu cür oyun açmazdılar. Sənayeləşmə bu həddə gəlib çatmazdı. Səfalət bu həddə gəlib çatmazdı. Doğunu ona görə qəbul eləmirlər. Birdən qəbul edərəm, Buddanın imtinaçılıq fəlsəfəsi dirilər. Buddanın imtinaçılıq fəlsəfəsi dirilsə nə olacaq?! Onda Rokfellerlər gedəcək zibilliyə.

O boyda Avropaya yayıldı İsaçılıq. Daha doğrusu, xristianlıq. İsanın insan sevgisini öldürdülər. Qəbul eləmədilər ki, birdən başqa bir aşama başlaya bilər – Avropa dünyaya ağalıq iddiasından qırağa durar.

Nə ərəb, nə Batı Məhəmmədin Allah sevgisini yaşatmadı, diriltmədi, öldürdü. Məhəmmədin Allah sevgisini diriltsəydilər, yaşatsaydılar, doğrultsaydılar, onda dünyada fərqli münasibətlər olacaqdı. Eləcə də, Hürufilərin insan sevgisi, insanı Allaha tən götürməsi onlara gərək deyildi. Ona görə də Doğunu gözdən salmalıydılar.

Ya da sufilərin Allaha qovuşmaq diləyi. Qəbul eləmək olmazdı bunu. Qəbul eləsəydi, onda indikilərin sənaye yürüşü dayanacaqdı. Dünyanın taleyində neft oyunları olmayacaqdı, İnsan məsələsi olacaqdı. Yalançı, demokratik azadlıqlar oyunu, ideoloji yalançılıqlar olmayacaqdı. Deyəcəkdilər, yerlə göyün yiyəsi İnsanla Allahın birliyidir. Ancaq deməmək üçün Doğusallığı öldürdülər.

Doğunun mahiyəti muğama dayanır. İndiki gedişdə, indiki demokratiya həşirində, cəfəngiyyatında sənin muğamın nə dərəcədə Doğusallığı ifadə eləyir?! – Eləmir. Bağımsız olmalıydı. Görün nə qədər dəyərlər var ki, bu dəyərlər tanınsaydı, dərk olunsaydı, qiymətləndirilsəydi, dünyanın uyumu başqa olacaqdı. Asif Ata bunu düşündü. O, dünyanı Batıya, Doğuya bölüb Batıya nifrət yaratmaq haqqında düşünməyib. Heç biz də düşünmürük. Asif Ataya görə Batılı-Doğulu Dünya, Dünyanın bütövlüyü, Birliyi Ruhaniyyatın qanunları ilə yaşamaqdan keçir. Bunun üçün dünyada Doğusal dəyərlərin yaşaması, gəlişməsi gərəkdir. Ona görə Asif Ata Mütləqə İnam yaratdı. Mütləqə İnam öz ideyaları ilə bu deyilənlərin hamısını qapsayırr, içinə alır. Onların hər biri ayrı-ayrılıqda bir cəhətdir. O cəhətləri heç kim birləşdirmədi. O cəhətləri Ata birləşidirib öz ideyalarının mayasına qatır. Biz də bir qom adam onu bayram edirik. İçimizdəki Doğu sevgisini bayram edirik. Hələ Asif Atanın yaratdığı bu məzmunu az adam anlayır, tanıyır. Az adam onunla uğraşır, ona görə az adam onu bayram edir. Nə qədər ki, çox adam onu bayram etmir, nə qədər ki, Doğu onu bayram etmir, onda dünyanın genel halının dəyişməsindən söz də getməyəcək. Neyləyirsən elə, bundan qıraqda heç nə alınan deyil. Heç kim insanla uğraşmır. Hamı qıraqdan insana xoşbəxtlik vermək istəyir. Götürmür axı insan sənin verdiyin xoşbəxtliyi. Onun içində xoşbəxtlik əkməyə sənin mühitin yoxdur. Ona gərə də qıraqdan hazırlanan xoşbəxtlik yalandır, insanın özünün qatqısı olmalıdır bu məsələdə.

Biz burada ("Gediş yazısı"nda) qonu yazmışıq – "Mütləqə İnam dünyabaxışında Doğusallıq özül ideyadır". Baxın, yuxarıda vurğuladığımız məsələlərə görə özül ideyadır. Biz özünü millətçi sayan insanlarla söhbət edirik. Onlar millətdən danışırlar, ancaq Doğudan söhbət düşəndə deyirlər, Doğuda heç nə yoxdur, bataqlıqdır. Regionda gedən prosesləri görürlər, ancaq özüldə olandan yan keçirlər, deyirlər, Doğu bataqlıqdır. Çünkü araşdırmırlar, öyrənmirlər, düşünmürlər. Doğuda hərəmxana görürlər. Şahların eyş-işrətini görürlər. Hərəmxana şahların sarayında idi. Ayrı-ayrı fərdlərin ixtiyarında idi. İndi Avropada kütləviləşib, hamılaşıb. Bir vaxtlar pulçuluq yalnız şahların saraylarında idi Doğuda. Saraylardan qıraqda

mənəviyyat adamları var idi, sufilər var idi. Ömürləri ilə insanlara mənəviyyat öyrədirdilər. İndi pozğunluq kütləviləşib, hamılaşıb…

Quldarlıq, feodalizm, kapitalizm, sosializm deyilən Quruluşlar bir-birini əvəz edir, insan da gözləyir, bu Quruluşlar bir-birini əvəz elədikcə yaxşı şeylər olacaq. Bunun təbliğatçıları olur. Təbliğatların arxasında institutlar dayanır. Quldarlıq pis şeydir, feodalizm yaxşı şeydir deyib sırıyırdılar. Bu gün heç kim kapitalizm demir Quruluşun adına, hamı demokratik quruluş deyir. Halbuki bizim yaşadığımız quruluş pulçuluqdur, kapitalizmdir. Pulla baş kəsirlər. Pul Allahın yerində durur…

Batıçılıq sənayeyə münasibətdir, Doğuçuluq insana. Bu gün o görünməyə bilər. Dünyada iki tərəf yaranıb. O tərəflərin süni böyüklüyü-kiçikliyi məsələsi ortadan qalxarsa, təbəqə aradan qalxarsa, böyük güc zəif tərəfə soxulmazsa, onu sıxışdırmazsa, sizi əmin edirəm, Doğuda insana yüksək münasibət bərpa olunar. O imkan var, o hal var. Zəif adamı döyürsən, o nə iləsə cavab vermək istəyir. Doğu o zəif tərəfin yerindədir. O, çaxnaşmalarıyla, nəyiyləsə ortaya çıxmağa çalışır. Zəiflərin ortaya çıxmasından da başqa cür yararlanırlar. Zəiflərin çabalarına görədir, İŞİD deyilən bir şeyi Batı özü yaradıb ortaya çıxarır. Bir yandan Doğu dövlətlərinin başında duran adamlar xalqın olanaqlarını mənimsəyirlər, bir yandan da xalqın ümid bəslədiyi sərvəti daşıyırlar qırağa. Batıyönlü adamlar bunu əsas götürüb həmişə tutuşdurmalar aparırlar – Batıda yaşam halı yüksəkdir, Doğuda aşağı. Mən həmişə deyirəm, bizi Avropanın gəlişmiş ölkələriylə tutuşdururlar. Əslində insanların yaşam tərzi heç də deyildiyi kimi deyil. Doğrudur, üstünlük var. Onu yaradan nədir?! – Bizim ölkəmizdə başda duranlar xalqın payını, haqqını mənimsəyirlər. Ordakılar isə xalqın olanaqlarını mənimsəsələr də, bizdən daşıdıqları ilə xalqları üçün bəlli düzəydə yaşam balansı yaradırlar. Üstünlük odur. Sənin nemətin, sərvətin o qüvvələrin üzünə bağlı olsa, görün Avropada necə devrimlər (inqilablar) tüğyan eləyir. Deyirlər Avropada qanun işləyir. Qanun nə deməkdir?! Kim qanun yazır?! – Kapitalist, pulçu. Qanun nə vaxt sadə insanların çıxarlarına qulluq göstərib?! Sadə insanlarla hakim təbəqənin qanun qarşısında sorumluluğu nə vaxt bərabər olub?! Pullu ilə pulsuz, hakimlə

məhkum, görəvli ilə görəvsiz nə vaxt qanun qarşısında bərabər olublar?! Tarixdə belə şeyə rast gəlinməyib.

Ona görə Asif Ata israrla vurğu edir: "İnsanlaşın – İnsanlaşdırın. Bəşərin qurtuluşu insanlaşmaqdadır!".

Bu ideya yürüməlidir.

İnsan gözləyirdi, quruluşlar dəyişəcək, quruluşdan quruluşa keçdikcə müsbət yönlər yaranacaq. Yaranmadı. Çünkü hamı quruluşu dəyişir, heç kim insanı dəyişmir. İnsanla heç kim uğraşmadı, uğraşmır. Asif Atadedi , insanla uğraşmaq gərəkdir. İnsanla uğraş ki o, özünə qənim kəsilən quruluş yaratmasın.

Dünən Doğuda həm ərəblərdən gələn hərəmxanalar olub, həm də adını çəkdiyim uca keyfiyyətlər vardı: Zərdüşt dünyaçılığı, Budda imtinaçılığı, İsanın mərhəmətçilik çağırışları, Məhəmmədin Allah sevgisi.

Nə yazıqlar, bu gün Doğu yoxdur. Doğunun içini o qədər qatıb-qarışdırıblar, it yiyəsini tanımır. Sabah nə olacaq, heç kimin heç nəyə gümanı da yoxdur. Həmin ruhu əlindən aldılar. Həmin ruh idi, Doğunun içində, işıq kimi ona gələcəyi nişan verən. O ruhu öldürdülər. Ona görə bütün dünya çalxalanır. Doğunun gələcəyi dirilməlidir. Bizim üçün "gələcək" təkcə nəzəri sözdən oluşmur. Biz bilirik onun arxasında nələr durur. Ancaq həm də düşüncə, söz, ideya böyük məsələdir. Ordan başlayır. Nə vaxt olacaq, biz deyə bilmirik. Ancaq Doğu Asif Atanın Mütləqə İnamıyla yenidən öz Doğuluğunu bərpa edəcək. Ya bərpa edəcək, ya da Doğu yoxdur. Ancaq biz dünyanın yox olacağını qəbul eləmirik, ona görə yox ki, özümüzə təsəlli veririk. Çünkü məğz, mahiyət budur. Məna yoxolmaya qarşıdır. Bununla sözümü bitrirəm. Mən sizin ürəyinizə Atanın ideya, düşüncə işığının artmasını diləyirəm. Atanın Doğuluqla bağlı böyük istəklərini qısaca dilə gətirdim, sizi belə bir ərdəmliyin, ümidin işığına boylanmağa çağırdım.

Əgər xalqını sevirsənsə, vətənini sevirsənsə, əgər ailəni sevirsənsə, anaları sevirsənsə, Atanı xalqa vermək gərəkdir. Öz övladını qurtarmağın da yolu budur, xalqını qurtarmağın da. Çünkü sənin balan evindən çıxdı, uçuruma düşür. Balanı qurtarmağın yolu Asif

Atanın Yolu ilə getməkdən keçir. Çünkü biz ayrı yol tanımırıq, ayrı yolu doğru saymırıq.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!

## Atagün, Uluyol-Hünər Ailə Günü

*(24 Ata Ayı, Dözüm Günü, 36-cı il)*

**...**Mən də hesabat verməliyəm. Mən "Atagün" Ailəsinin Evladıyam. Ancaq bu dəfə gələnəyimizi pozacam, qısa, yığcam danışacam. Çünkü axşamdır, vaxt baxımından gecdir. Sabah da bizim mərasimimiz var. Sabahkı mərasimdə biz daha geniş iş görəcəyik.

Bu gün Ocaq Ailələrinin birgə keçirdiyi qutsal "Ailə Günü"dür. Bir neçə söz demək istəyirəm. Atamıza səcdə edib bayrağımızı öpürəm.

Ata ona görə deyib, Ailələr 3-5 adamdan oluşsun. Çünkü çox adam olanda onların hesabatı da uzun çəkir. İkinci bir yandan, bu Günün adı Ailə Günüdür. Deyək, səhər saat 10-dan başlamalıdır, axşam 6-ya kimi. Ata elə düşünüb. Ailə saatı deyil, Ailə Günü olmalıdır. Yəni Gün Ailəyə ayrılmalıdır. Ayda bir günü Ailəçilər özlərinə ayırırlar. Ara verə-verə Gün keçirilir. Uzun illərdir, elə Atanın sağlığında da, bizdə Ailə Günü deyil, Ailə saatı olub. Yığcam deyirik, tez bitiririk.

Ailə Günüylə bağlı konkret hazırlaşmaq gərəkdir. Yaşadığın ayın aydın hesabatını vermək gərəkdir.

Amallaşma – nə öyrəndim, necə Amallaşdım. Kamilləşmə – özümlə necə döyüşdüm, nəyə yetdim, nədə yetə bilməmişəm. Xalqlaşmada konkret Atanın filan kəlamını necə çatdırdım. Necə anlaşıldı, necə qarşılıq verildi – bu yöndə danışılmalıdır. Olaylar sadalanmamalıdır. Belə gələnək olmalıdır.

Ailə Kitabı yaranır. Ailə Kitabını gələcəkdə əlinizə alacaqsınız, görəcəksiniz, bir çox hallarda özünüz özünüzü təkrar eləmisiniz. Hər dəfə eyni şeyi təkrar vurğu eləmək gərək deyil. Bax, bu baxımdan hazırlaşmaq gərəkdir.

Qonulara hərə bir cür baxış sərgilədi: Əski baxışların üzərinə gedə bilirəmmi, cəsarətim varmı, azdırmı, çoxdurmu, yaratmışammı, – bunlar doğaldır. Burada həyəcanlar var. O rahatsızlıqlar mənim özümdə var. Yaşayıram onu. Heç bir səfər mənə həyəcansız başa gəlmir. Dönə-dönə görüşlər keçirmişəm, özümü tamam unutmuşam. İçim Asif Ata ilə dolu olduğu üçün coşmuşam. Həm də özümü unutmuşam. Ancaq dodağım quruyub həyəcandan. Niyə?! Bir tarixçi, bir yazar, bir şair gedər bölgələrə, toplumun qarşısında çıxış eləyər. O çox rahat danışa bilər. Çünkü o, adamların düşündüyünü, istədiklərini deyir. Biz söz dediyimiz adamların düşündüklərini, istədiklərini demirik. Onların içindəkilərə qarşı deyirik sözümüzü. İçində daşıdığı baxışlara qarşı deyirik. Bu baxışlar səni kiçik saxlayır deyirik. O bunu öz üzərinə götürmür. Necə yəni kiçik saxlayır?! Deyir, siz Azərbaycanı dəyişmək cəsarətini hardan alırsınız, sizin dedikləriniz dəlilikdir. Bunu sözlə üzümüzə demirlər, ancaq yəqin ki, içlərində elə düşünürlər. Məsələ burasındadır. Asif Ata ortaya yeni bir İnam qoyub. Sən gedib xalqa deyirsən, sənin içindəki yanlışdır, Asif Atanın dediyi doğrudur. Bu sənin mənliyini qurur. Ancaq bunu qəbul eləmək asan bir şey deyil. Bu elə-belə başa gəlmir. Ona görə bizim gedişlərimiz-gəlişlərimiz həyəcandır. Sən xalqın içini dəyişirsən.

Baxın, bizdən siyasi dəyişiklik cəsarəti, gücü, qüdrəti umurlar. Biz siyasi dəyişikliyə gəlməmişik. Asif Ata bəşəriyyətdə insan haqqındakı düşüncəni, baxışı dəyişməyə gəlib. İnsan haqqında düşüncə yanlışdır. Asif Ata deyir, nə qədər ki, insan haqqında düşüncə dəyişməyib, dəqiqləşməyib, doğrulaşmayıb, sən bəşər olaraq heç nəyə yetə bilməyəcəksən. Heç bir qurtuluşa, özgürlüyə yetə bilməyəcəksən...

Bundan ötrü böyük səbrin olmalıdır, böyük için, böyük idrakın olmalıdır. Sən min il bu xalqa bu sözü deməlisən. Bəşəriyyətə deməlisən. Min il. 30-40 min ildir sənin ağlın, düşüncən yanlışdır. O yanlışı əsaslandırırsan, sübut eləyirsən. O yanlışı sübut eləmək üçün Antraktidanın buzunu əritmək gərəkdir. Zarafat məsələ deyil. Ona görə də hər bir Ocaqçı öz içində Asif Atayla bağlı böyük, dəqiq yəqinliklər yaratmalı, ciddi, əsaslı düşüncə yönü, yolu, ölçüsü yaratmalı, xalqın içinə getməli, baxışları dəyişməyə çalışmalıdır.

Xalqın reaksiyası bu gün sayğı ilə olar, sabah etirazlı, bunun işə etkisi olmamalıdır.

Baxın, mən deyirəm, Asif Ata insan haqqında düşüncəni dəyişməyə gəlib. Bu gün iki düşüncə var. Bir odur ki, insan öləndən sonra gedəcək cənnətə. Bu düşüncə insanlığa xəyanətdir. Asif Ata insana, bəşəriyyətə əbədiliyi öyrədir. Əbədiliyin nə demək olduğunu öyrədir. Bizə cənnət vəd edənlər isə cənnəti maddi nemətlər əbədiliyi kimi sırıyırlar. Maddi nemətdən əbədilikmi olar?! Eyş-işrətdən, kefdən əbədilikmi olar?! Ölməzlik eyş-işrət, kef deyil. Kef maddidir, öləridir. Əbədilik ayrı şeydir. Əbədilik xoşbəxtlik deməkdir. Bəs o xoşbəxtlik nədir? Mən bir yazı yazmışam, "Tərəqqi – Antitərəqqi". Bu dediklərim yazımın detallarıdır. Bir var xəstə, bir var bədbəxt. Xəstəyə fiziki qulluq gərək olur, bədbəxtə mənəvi qulluq. Fiziki qulluğu, bütün bəşər toplumu içərisində, 99 faiz insanlar bacarır. Azdan-çoxdan mərhəmət hissi hər kəsin içində var. Mənəvi qulluğu isə 0,99 faiz bacarır. Çünkü bədbəxtə mənəvi qulluq göstərmək üçün, gərək özün içindən xoşbəxt olasan. Xoşbəxt olasan ki, bədbəxtlik nədir, xoşbəxtlik nədir biləsən. Bədbəxt özü bilmir, o bədbəxtdir. Bilsəydi bədbəxt olmazdı ki. Ancaq sən xoşbəxt, bilirsən ki, o bədbəxtdir.

Xoşbəxtlik maddi tələblərə bağlı deyil. Məsələn, mən heç bir görəv daşımıram, məmur deyiləm, ancaq tutalım, normal bir həyatım var, yaşayışım var. İşim də, aylığım da imkan verir, ailəm yaxşı dolanır, özüm də hər yeri gəzirəm, dincələ bilirəm. Bu, xoşbəxtlik deyil! Bu fiziki mövcudluğa, fiziki həzzə bağlı öləri məqamlardır. Bəs xoşbəxtlik nədir?! – Gəlirəm Asif Atanın dediyinin üzərinə. Ata deyir "adam içində ilan, tülkü, canavar gəzdirir". Baxın, o ilan onun mənliyini, mənəviyyatını çaldıqca, o da başqalarının üzərinə zəhər qusur. Sənin içindəki ilan sənin mənliyini çalır, sən də başqalarını çalırsan. Həyat qana qərq olur.

Sənin içində tülkü var. Bu tülkü sənin mənəviyyatını, mənliyini alçaltdıqca, sən də başqalarına qarşı hiylə işlədirsən. Məkr, fırıldaq işlədirsən.

Sənin içində canavar var. O canavar sənin mənliyini, mənəviyyatını parçaladıqca sən də başqalarına qarşı vəhşi münasibətdə bulunursan. Asif Ata deyir, içindəki ilanı öldür! Mənliyini qurtar (xilas

elə). İçindəki tülkünü öldür! İçindəki canavarı öldür! Özüylədöyüş budur. İçin arı-duru olacaq. Sənin için o canavardan, ilandan, tülküdən azad olandan sonra bütün dünya sənin olur, gözəllik, sevgi sənin olur, insan sənin olur, vətən sənin olur, hər şey sənin olur. İçinə yerləşir onların hamısı. İçindəki canavar içindən çıxandan sonra hər şey içinə yerləşir. Canavar deyil, Xeyir hakim olur sənin varlığına. Xoşbəxtlik budur. İçində mənliyini məhv edənlərdən azad olmaqdır xoşbəxtlik.

Mən içimdəki canavardan azad olum, ola bilər bir tikə çörəyim olmaz. Ancaq bir tikə çörəyimin olmaması mənim fiziki, öləri varlığıma bağlıdır. Gedərəm daş qaldıraram, yer belləyərəm, bir tikə çörək tapıb yeyərəm. Ancaq içimdə xoşbəxtliyə yetərəm. Həqiqətən bu nağıl-zad deyil. Buna çatan dühalar olub. Xoşbəxtlik əbədiliyə bağlı anlayışdır. Mən sabah öləcəm, bir tikə çörəyə möhtaclıq da qurtaracaq. Ancaq xoşbəxtlik, örnək olaraq, sənin bütün soyuna, xalqına gedəcək. Budur əbədilik. Əbədilik cənnət şirəsi deyil. Ona görə deyirəm, iki baxış mövcuddur. Biri deyir, insan cənnətdə maddi nemətlərə qovuşacaq, yəni "əbədiliyə" qovuşacaq. Bir başqası deyir, mənə cənnətin nemətləri gərək deyil, bu həyatın nemətləri gərəkdir. Cənnətin nemətinə inanmayan (mənim kimi yox ha) materialist, ateist deyir, cənnəti verdim sənə. Dini, ibadəti verirlər yoxsullara. Get Allahla, dinlə başını qat. Mənə bu dünyanın neməti gərəkdir. Bütün dünyanın nemətini yığacam mədəmə, başlayacam gövşəməyə.

Bəs Asif Ata nə deyir?! – Deyir, bu iki yanaşmanın ikisi də insanı öldürür. Ona görə yeni ölçü gətirir. Bəşəriyyətin yolunu, yönünü dəyişir. Bundan sonra ayrı yol başlamalıdır. Bu nöqtədə dayanmaq, Yeni Yola başlamaq gərəkdir... Dayandı, başladı. Hara qədər gedəcəyik, hara qədər yetəcəyik, bu məsələdə mən görücülük eləyə bilmərəm. Ancaq onu bilirəm, mən öz içimdə bu xoşbəxtliyi yaşayıram. Özümü qura bilirəm. Bütün varlığım Asif Atanın dediyinə bağlıdır. Ayrı bağlılığım yoxdur. İnsan buna çatdıqca, yetdikcə yetirir. Bu örnəkdir. Biz göydən zənbillə sallanmamışıq. Biz seçilmişlər deyilik. Bu xalqın balalarıyıq. Biz bunu yaşaya biliriksə, zaman-zaman nə qədər çətin olsa da, xalqın genel halında bu, özünü göstərəcək.

Biz demirik, qurd quzuyla yanaşı otlayacaq, ancaq böyük ölçü yaranacaq. Yaranıb da. Ruhani dünyamızdan böyük dünya yoxdur. Bu genişlənməlidir. Ocaqçıların hamısı eyni səviyyədə deyil, ancaq Ocaq ortamının yaranmasında Ocaqçıların hamısının ülvi, gözəl qatqısı var. Hərənin özünəxas etkisi var. Xalq da standart bir şey olmur, o da yaranır. Xalq Asif Atanın yaratdığı genelbəşəri bir ölçünü yaşamına gətirib özümləşə bilər! Buna görə Ocaqçının həm olanaqları var, həm də haqqı var.

Ocaq Türkçülükdür, Bəşərçilikdir, Doğuçuluqdur, İnsançılıqdır, Vətənsevərlikdir, Həqiqətsevərlikdir… Bəşər həyatında bütün dühaların gözəlliklərinin hamısını Asif Ata, "Mütləq" izharında yazdığı kimi, yığıb qəlbinə, onlardan daha gözəl, daha yüksək bir surət yaradıb bəşəriyyətin özünə sunur...

Atamızın bayrağını öpürəm.

## "Ata Günü" Törənində
## *(25 Ata Ayı, 36-cı il)*

Qutsal Günümüzə başlayırıq. Bu gün 36-cı ilin Ata Ayı, 36-cı olmasa da, bizim üçün 36-cıdır. Baxmayaraq ki, "Ata Günü" mərasimi birinci ildən başlamır. Ancaq elə Ocaq başlayandan bu bizim üçün 36-cı "Ata Günü" mərasimidir.

Ocağımızın, 36-cı ilin Ata Ayına kimi, son əməllərini Ata Gününə – Törənə sunuram: Nurtəkinin qapsamlı Ocaq işləri var. Mən düşünmürdüm, Nurtəkin körpə uşaqla, bu qədər Ocaq işləri görə biləcək. Göylünün bilgisayarının sıradan çıxması üzündən ona olan tapşırıqları da Nurtəkin yerinə yetirib. Ləyaqət göstərib, hər bir işin öhdəsindən gəlib. Bunların hər biri Ocaq tarixində, Ocaq həyatında olduqca ciddi məna daşıyan önəmli əməllərdir. Ocağın ideya-məzmununu özündə daşıyan yazıların, Ata kitablarının çap məsələsi i.a. "Ata Günü"ndə Nurtəkinin hünərini Ocağa sunuram, alqışlayıram.

İkinci, baxmayaraq, Göylünün fədakarlığı sonuncu deyil, onu da alqışlayıram. Onu da sizə deyim, mən rahatsız idim. Göylü bu yükün

altına ilk yol girəndə özü önərmişdi, Ocaq Evi alaq, az xərc deyil. Baxmayaraq, biz bunun ilkin ödənişini həll eləmişdik. Ancaq artıq neçə aydır, Ocaq Evini ələ gətirmək üçün fədakarlıq edir. Söz yox, mən Göylünün bu işlə yetərlənməsini istəməzdim. Göylünün Ocağa verəcəyi başqa keyfiyyətləri də var. Ancaq anlayıram. Bununla belə, hələ Sovetlər vaxtı Atanın istədiyi, arzuladığı "Amal Evi olmalıdır, Ocaq Evi olmalıdır" ideyasını (Atanın sağlığında) heç kim gücünü ortaya qoyub həyata keçirə bilməmişdi. Axır, Bakıda bir Ocaq Evi, Amal Evi əmələ gələ bilər. Yəni tamam bağımsız bir ünvan.

Söz yox, Göylünün başladığı işin özülünü maddi cəhətdən İnamlı (Elşad) qoyub. Onun bu fədakarlığını Ocağa sunuram, alqışlayıram. Güntayın fədakarlığı çox qısa zamanda üzə çıxdı.

Çox öyünüləsi ortamı yaranıb Ocağın – Ərdəmli bir ortamı. Bu ortamın yaranmasında hər bir Ocaqçının ayrıca qatqısı var. Kimin nə qədər əməli, hünəri var (bu Atanın sözüdür), bir o qədər də fərəhi var.

Güntayın Ocağın maddi yaşamında son dərəcə ciddi qatqısı oldu. "Amal Evi" işini, Günevin "İnam Evi" tikintisini çıxmaqla, Amal borclarının verilməsində, Ocağın maddi işlərinin gerçəkləşməsində Güntayın əməyi çox oldu. Mən Güntayın əməlini, əməyini Ocağa sunuram, alqışlayıram.

Sonra, son vaxtların tədbirləri, bilirsiniz, nə qədər çətindir səsdən sözə çevirmə. Biz buna böyük vaxt, enerji sərf eləyirik. Doğrudan da, asan bir iş deyil. Ocaq tədbirlərinin hamısı bircə-bircə səsdən sözə çevrilir. Redaktə olunur, yoxlanılır, düzəldilir. Öncələr bir çoxunu özüm edirdim. Bilgisayarda da özüm düzəldirdim. Ancaq son vaxtlar mən çatdırmadığıma görə bilgisayarda düzəlişə Ulunur kömək edir. Onun da Ocaq işlərinə bu qatqısını alqışlayıram.

Ulusəsin Ocağa qatqısını demək istəyirəm. Söz yox, biz Mütləqçiyik, bu cür yayğın Ocaqçılıq doğru deyil. Özünə də demişəm. Ocağın işlərinə qatılmaq gərəkdir. Söz deməklə, hansısa bir daşı daş üstə qoymaqla qatılmaq. Ancaq bununla belə, Ocaq üçün indiki tədbirləri keçirmə ortamı Ulusəsin fədakarlığıdır. Bu ortamı yaratdığına görə Ulusəsin ləyaqətini ağırlayırıq.

Sonda Elana bacımla Günev qardaşımın varlığını, işini, zəhmətini demək istəyirəm. Bunların ömrü, fəaliyyəti Ocaqçıların hər birinə bəllidir. Ancaq bir neçə sözlə bəzi məqamları vurgu eləmək istəyirəm. Çünkü bu tarixdir, yazılır. Günevin xalqlaşma işi elə düşünməyin, Beyləqanla sınırlanır. Düzdür, biz rayonlara da çıxırıq, ancaq ən çox Bakıda oluruq, Bakıda işlər görürük. Bakıda bu qədər işlər görürük, Bakıyla sınırlaşmır. Çıxır bölgələrə. Günevin gördüyü işlər də Beyləqandan qırağa çıxır. Onun işinin soraqları Bakıya da gəlir. Başqa bölgələrə də gedir. Söz, iş, əməl, ədəbiyat dayanmır bir yerdə. Sən oturursan burda, o, qarış-qarış gəzir. Bu işlərin hamısı Ocaq üçün çox ciddi önəm daşıyır. Ocağın mərkəzini bölgəylə yaxşı bağlayır, əməllər bir-biriylə harmoniya yaradır, ruhani dalğaya çevrilir.

Mən "Ata Günü"ndə Günevin adını sonda çəkməyimin bir özəlliyi var – Günevin Ocağa gəlişinin 25 ilidir. Günevlə bağlı Amaldaşlarımın sözünü axırda dinləyəcəm. Çünkü bu gün Atanın Günüdür. Ata haqqında söz deyilməlidir. Sonda qardaşımız haqqında. Günevin Ocaqda varlığı hər birimiz üçün söz dedi.

Biz indi Ata haqqında sözə başlamalıyıq. Ata haqqında sözə başlamazdan öncə Günevin əməyini, xalqlaşma işini, "İnam Evi"nin başa gəlməsi ilə bağlı hünərini alqışlayıram, Ocağa sunuram. Eləcə də, ona çiyindaşlıq edən Elananın Ocaqçılığını Ocağa sunuram.

Mənim hər birinizin işindən aldığım fərəh özüm üçün bir ömür yoludur. Geneldə bizim hər birimizin həm bir-birimizə olan münasibətimiz, sevgimiz, doğmalığımız, həm də bir-birimizə olan münasibətdən ilhamlanaraq ciddi, sanballı, ağlasığmayan işlər görməyimiz, ruhani dalğalar əmələ gətirməyimiz ruhani birliyimizlə oluşur. Baxın görün nə qədər adamıq. Biz çoxuq. Niyə çoxuq?! Mən gözümlə deyil, könlümlə sizə baxıram. Gözümlə baxıb barmağımla sizi saymaq istəmirəm. Könlümlə sizə baxıram, sizin hər birinizi yüz görürəm. Mən bunu obraz üçün demirəm, bu doğru düşüncəmdir, bunu yazmışam da. Mən Amaldaşlarımın haqqında düşünəndə onların hər birini yüz görürəm. Bunu biz heç kimə sübut eləməkdən ötrü dəridən-qabıqdan çıxmırıq. Bunu biz ömrümüzlə, böyük əməllərimizlə sübut edirik.

Dünən mən “Ailə Günü”ndə dedim, Atanın məqsədi insan haqqında düşüncəni, baxışı dəyişməkdir. İnsan haqqında yanlış baxış var. Hamı insan haqqında ziddiyyətli düşünür. Hər kəsi dindirərsən insan haqqında dili dolaşacaq. Nəsimini görüb deyəcək – insan böyükdür. Küçədəki səfili görüb deyəcək – insan heç nədir. Çaşacaq. İnsan haqqında qarışıq düşüncələr yürüdəcək. Ancaq biz insan haqqında, zorlanmadan, ortaya aydın baxış qoyuruq. Atadan gələn ölçü. İki cümlə. İnsanın tərifi: “İnsan daxilində Mütləq gəzdirən, Gerçəklikdən, Şəraitdən, Mühitdən yüksək olan, Mütləqiliyə meyil eləyən və Mütləqləşməyə qadir olan Ruhani Varlıqdır.” İnsana verilən bu qiymət bizim içimizdə əkilib. Biz insana o açıdan yanaşırıq, insan haqqında çaşmırıq. Ona görə heç bir iş, əməl Asif Atanın qiymətiylə ölçüyə gəlmir.

İndi balaca bir yazını – qəlbimin sevgisini bəlli anlamda ifadə edən Ataya üztutmamı sunuram:

Ataya minnətdaram. (Ancaq minnətdarlıq Ata üçün çox azdır. Çünkü Ataya səcdəli, heyrətli halım var).

İçimdəki olanaqları özümlə sonevə (qəbrə) aparmadım.

İçimdə olanaqda olan ülvi cəhətlər mənimlə birlikdə ölməyəcək. Ülvi cəhətlərimi, mənliyimə düşən Ata işığında tanıdım.

Əbədiliyə qulluq göstərən vüqarımın, şəxsiyyətimin əsilliyi ölümdən qurtardı mənliyimi. Ölməzlik gətirdi ömrümə.

Mən dünyanın gedişinə işıq salan ayrı-ayrı dühaları da, onların böyük yaradıcılığını da Ata işığnda tapdım, tanıdım.

Ata məni aşkarladı, ürəyimə güc verdi.

Gözəllikləri sevə bildim, öyə bildim.

İdrakıma işıq saldı. Yurdçu oldum, Millətçi oldum, İnsançı oldum.

Bir ömür ruhaniyyatla doldum. Dolğunlaşdım.

Dərdi tanıdım. Dərdin mənasını sevdim. Dərdlə uğraşdım.

Fərəhi tanıdım, sevindim. İçim arılaşdı. Sağlamlaşdım. Xurafatdan ayrıldım. Cəhalətdən ayrıldım. Xəbislikdən, xudpəsəndlikdən, cılız şöhrətə tamahlanmaqdan arındım.

Özüylə döyüşüm varlığımı bəslədi. Mənəviyyatıma kölgə salan qüsurları dışladım.

Ataya səcdə qılıram. Ömrümdə yaratdıqlarımı ona sunuram. Ruhani ləyaqət hesabatı verirəm. Hər zaman vermişəm. Yenə verirəm.

Hesabatımı verib varlığına alqış deyirəm:

Doğum Günün qutlu olsun!

Mərasimin qutlu olsun!

Müqəddəs Ocağın qutlu olsun!

Amalın üçün sənin yaratdığın Soylu ömrüm qutlu olsun!

“Ata Günü” qutlu olsun!

Ata Günü ömrümdə böyük bir səhifədir. İki gün öncə gecə saat 1-2 arası düşündüm. Bir an Atayla olduğum zamanlara dönüb baxdım. Düşündüm, keşkə Ata bir az da yaşayaydı, mən Atanın əlindən tutaydım. (Fiziki mənada Atanın əlindən çox tutmuşam). Ata ilə üz-üzə dayanaydım, Atanın gözünün içinə baxaydım. Ataya deyəydim, sənin zəhmətin, inamın boşuna getmədi. Sənin Ocağın yaşayacaq...

2-3 gün öncə belə bir əhval içimə doldu. İnanın, elə bildim bütün Yer-Göy mənimdir. Necə gözəl əhvallarla dolmuşdum. Bayıra çıxdım. Ulduz axtardım, işin tərsliyinə bax, ulduz tapmadım. Göylərdə ulduz görünmürdü. Ancaq o ulduzlar ki adamı böyük xatirələrə bağlayır, onu mən içimdə tapdım. Bir an Ata ilə ruhani ünsiyyət içimdə alovlanmağa başladı, hər şeyi o alovun işığında görməyə başladım. Elə gözəl əhvaldaydım. Bu vaxta qədər mən o əhvalı o cür yaşamamışdım. Bu vaxta qədər o cür aydınlaşmamışdım özüm üçün. Ona görə Atanın Gününə çox böyük bir şövqlə gəldim.

Atanın doğum Günü təkcə doğum günü kimi qeyd olunmur. Biz Atanın varlığını mərasimləşdirmişik. Asif Ata bəşəriyyətə ruhani qurtuluş kimi gəldi. Ona görə Atanın ömrü mərasimləşir. Söz yox, bu Onun özünün istəyiylə olub. Ancaq məğz, məna doğum günü məsələsi deyil. Məğz, məna onun yaratdığını tanımaqdır. Onun yaratdığını öyrənmək, sunmaqdır.

Beləliklə, biz Ata haqqında yığcam, dolğun, doğma, həyəcanlı söz dedik. Bugünkü mərasim çox gözəl keçdi. Halı baxımından. Sözlərin hamısı yerində, hamısı mənalı, hamısı tutumlu. Qısa. Mərasim həm məzmunca, həm halca yazıldı. Qalacaq tarixdə, gələcəkləşəcək.

Ata Günümüz qutlu olsun!

Atamızın bayrağını öpürəm...

***xxx***

İndi mən Atanın Evlad şəxsində özünü göstərən uğurlarından birini də dilə gətirmək istəyirəm. Başlanğıcda vurğu elədiyimiz kimi, qardaşımız Günevin Ocağa gəlişinin, Atanı tapmasının 25 ilidir. Bu cür yuvarlaq illəri vurğu eləmək, bayram eləmək gərəkdir. Hətta hər bir ili bayram eləmək olar.

Biz Ocaq olaraq öz şəxsiyyətimizi tanımalı, tanıtmalıyıq. Əgər şəxsiyyətini tanıya, tanıda bildinsə, onda sənin Amalın xalqın baxışında etki yaradır. Ayrı-ayrı insanlar düşünməli olur, insanın qiymətini görürlər. Burada insana qiymət, münasibət məsələsi boşuna deyil, ömür var, zəhmət var, əzab var. Burada saç ağartmaq var, ürəyin hər bir uca duyğu ilə dolması var. Heyrət, həyəcan, vəcd, rahatsızlıq, sevgi. Ürəyi bu duyğular bəsləyir. O duyğular ki insan varlığında özünü göstərir, söz deyir, o duyğuların hamısı toparlanır. Bu, siyasi partiya sıralarında dayanan insan ömrü məsələsi deyil. Orada kimsə çox zəhmətlər çəkə bilər, tutuqlana da bilər. Ancaq onun daşıdığı məna ilə, məzmunla bu bir deyil. Burada insan özünə bərabər olur. Burada insan özünə layiq duyğuları aşkarlayır. Burada bütün varlığıyla insan aşkara çıxır. Bax, biz bu dediyim çərçivədə düşünsək, Günev qardaşımızın ömrünü tanıya bilərik. Günevlə mənim tanışlığım 24 ilə dayanır. Günev bir il məndən öncə Ocağa gəlib. Ocağa ilk gəldiyim gündən Günev dostum olub. Ocaqçılar içərisində amaldaşlıq var, qardaşlıq, bacılıq var, bu öz yerində. Ancaq amaldaşlıq, qardaşlıq, bacılıq böyüdükcə, bərkidikcə əsil dostluğa çevrilir. Ocaqda çoxlu sayda adamlar olar. Bunlar hamısı amaldaş sayılır. Ancaq hamısı Amalla Dostluğu birləşdirmir. Bunun olması üçün gərək hər kəs Ocaq tələbi ilə yaşasın. Hər kəs ömrünü, doğrudan da, Atanın Yoluna, Ocağa versin. Ocaq ideyalarını yaşatsın. Amaldaşlıq tələbində bizim dostluğumuz yarandı. İçimizdəki qüsurlarla, çatışmazlıqlarla bir yerdə başlamışdı dostluğumuz. O dostluğun özü bu gün mənə haqq verir, qardaşımızın ömrünü suna bilim. 24 il az vaxt deyil. Mən onun ömrünü xarakterizə edirəm. Etmişəm də, ayrı-ayrı məqamlarda. Mən bu gün, Ocağın Yükümlüsü

olaraq, ömrünün 24 ilini Ocağa vermiş bir fərd kimi deyirəm, Günev mənim üçün bir örnəkdir. Hər kəsinizin uğurunuz, ləyaqətiniz mənim özümçün örnəkdir. Münasibət qarşılıqlıdır. Mən yazmışam, Ata Evladlarını böyüdürdü, Evlad da Atanı böyüdürdü. Evlad Atasını inandırmaqla, güvəndirməklə, ümidləndirməklə böyüdür. Onun mübarizə halını böyüdür. Bilirsiniz, etki, az-çox olmasından asılı olmayaraq, qarşılıqlı olur. Asif Ata bizə ümidlənib daha ciddi işlər gördü, söz dedi. Bu onun hünərinin, qüdrətinin üzərinə gəldi. Dəstək oldu, qanad oldu.

Evladlıq nədir, Amallaşma necə olur, Özüylədöyüş necə olur, Xalqlaşma necə olur, xalqın gələcəyi uğrunda çalışmaq necə olur?! Günev bunları özünə deyə-deyə, bunların ardınca gedə-gedə təkcə söz demədi, işin üstünə getdi. Bu gün ən yaxşı sözləri biz çox ağızlardan eşidə bilərik, ancaq ən yaxşı sözlərin yiyəliyini hər kəsdə görə bilmərik. Biz qardaşımızın ömründə bu birliyi – Sözlə İşin birliyini görürük. Qardaşımız qurdu, yaratdı. Başına qar da yağdı, yolunda tufan da qopdu, söz də dedilər, hədələdilər də, yaxasından tutub çəkdilər də. Ancaq dayanmadı, sınmadı. Şəstini qabağa vermədi ki, mən də bir kəsəm. Filankəs, sən kimsən?! Bilə-bilə ki, filankəsin şəxsiyyəti bir şey deyil, ancaq ona baş qoşmadı, insanlara sevgi sundu. Gör, kim olmalısan. Asif Ata, görün, harda qələbə çalıb. Gör kim olmalısan ki, sənin qarşındakı sənin özünlə tutuşdurmada nə qədər aşağı pillədə dursun, ancaq sən ona üstdən aşağı baxmayasan. Onu haraylayasan, ona sevgi sunasan. Bu, Asif Atanı təsdiq eləməkdir. Asif Atanın dediyi, yaratdığı İnamı təsdiq eləməkdir. Asif Atanın insan haqqında ortaya qoyduğu mövqeni dəqiqləşdirməkdir.

Söz yox, insan içində şər də gəzdirir. Şərə qarşı hiddət də sərgiləyə bilərsən. Ancaq o hiddəti sərgiləyənə qədər onda yaxşı keyfiyyətlər axtararsan, sevgi sunarsan, görərsən, yox, bu elə canavardır, onda deyərsən, bunun ruhu ölü çıxdı. Bu, az-az olan bir məsələdir. Hətta bəzi məqamlarda mənim, onun kimi bacarmadığım məsələdir. İnsana qarşı o cür səbrli, sevdalı münasibət. Bax, bu uğur Asif Atanın bir fərddə əkib, becərib, araya gətirdiyi bir uğurdur. Ona görə də Günev Atalının ömrü Ocağa, Ataya layiqdir. Xalqına, onun gələcəyinə layiqdir. Günev Atalının ömrü xalqın gələcəyinə örnəkdir. Bax, bu,

Ocaqda fərd ömrünün ruhani müdriklik səviyyəsində qurulmasıdır. Ruhani müdrikliyin bərqərar olması. Ona görə bu günə gəlib çıxmaq, Ata yükü çiynində, Ata hikməti ağlında, Ata harayı dilində, insan sevgisi qəlbində 25 il yol gedəsən, onu, doğrudan da, bəxtiyarlıq saymayasan, olası deyil. Ona görə ömür sevdası baş tutub qardaşımızın. Atanın dediyi ifadə ilə deyirəm, bəxtiyardır! Ataya layiqdir. Atayla onun arasından nəsə keçmir. Ayrı-ayrı xırda məqamlar, ay filan vaxtı mən yanlışa yol verdim, bu onu azaltmır. O bitmiş bir məsələdir. Ağacın budağının biri filan yerdən sına bilər, bir küləkdən səkkiz yarpağı düşə bilər, ancaq ağac köklü-gövdəli oturub torpağa.

Mən qardaşımızın ömrünü qutlayıram. Ata Günündə onun ömrünü Atanın Ocağına sunuram. Atayla bir olduğunu bildirirəm.

## Uluférəh Ailə Günü
### *(26 Xəzan Ayı, 36-cı il)*

26 Xəzan Ayı, 36-cı il Günsıramızda "Ulufərəh"in Ailə Günündəyik. "Ailə Günü"ndə söz deməzdən öncə bayrağımızı öpüb Ataya səcdə edirəm.

Hər dəfə mən, "Atagün" Ailəsindən başqa, söhbətimi əsasən yönləndirici xətdə qururam.

Mən dünya klassikasını, ədəbiyatını öyrənmişəm. Kafka da var, Tolstoy da. Kafka da dühalar cərgəsində görünür, Tolstoy da. Tolstoy mənim üçün zirvədə görünür. Tolstoyun "Etiraflarım" əsəri var. Burada Tolstoy özünə qarşı hədsiz dərəcədə amansız, sərt yanaşır. O, özünə qarşı sərt yanaşmanı nəyinsə xatirinə eləməyib, içindəki təbəddülatları, çoxsaylı sualları həll eləmək üçün eləyib. Həyat nədir, niyədir, yaşamağın nədəni nədir?! O, toplumsal gedişə, yaşama baxır, gözünün baxarı, baxdığı hər yan bütünlüklə bataqlıqdır. Bu bataqlığın içərisində o, içində baş qaldıran sorulara cavab tapa bilmir. Belə həyatmı olar?! Belə yaşamaqmı olar?! Niyə yaşayırıq?! Axı doğal biçimdə də yaşamırsan. Doğal biçim nədir?! Yəni qarışqanın yaşadığı kimi də yaşamırsan. Qarışqanın özünəxas bir

həyat tərzi var. Heyvanat aləminin özünəxas bir həyat tərzi var. Sən nə heyvandan heyvansan, nə insandan insan. Belə dünyamı olar?! Belə həyatmı olar?! Buna ağrıyır, acıyır. Ancaq mən onu oxuduqca, Tolstoyun özüylə bağlı o cür kəskin mövqeləri, qırımları, fəryadları, ittihamları elə bir səviyyədə içimə yeriyir, ürəyim dağa dönür. Bunu oxuyanda fərəhlənirəm. Sevirəm Tolstoyu. Mənim içimi açır o. Yarpaq-yarpaq səhifələyir. Mızıldanmır, haray çəkir. Ancaq Kafka mızıldanır. Mən Kafkanı oxudum. “Çevrilmə” əsərində insanı həşərata, amöbə çevirir. Sonra qaytarıb onu insan eləyə bilmir. O cür bədbin ovqatla, ürəyim üzüldü onu oxuyana qədər. Belə həyatmı olar?! Mən Kafkada həyatı itirdim. Tolstoyda tapdım. Fərqə baxın. İndi Ocaqçı, sən içini qatıb-qarışdırmalısan. İçini söküb-tökməkdən qorxmalı deyilsən. Topluma hesablamalı deyilsən çıxışını – necə deyəcəklər, mənim haqqımda nə düşünəcəklər?! Buna hazır olmaq gərəkdir. Elə üfüqlərə qalxmaq gərəkdir, içini söküb-tökəndə, özünə toplumun gözüylə baxıb çökməyəsən. Nə deyəcəklər, desinlər. Mən buyam, ancaq bu olmaq istəmirəm. Mənim içimdə ilan-qurbağa var. İstəmirəm olsun. Ancaq arınmaq üçün o ilan-qurbağanı görməliyəm, göstərmliyəm. Ocaqçı özünün içini elə söküb tökər ki, mən ondan fərəh yığaram. Mən ondan öyrənərəm. Məktəb olar mənim üçün. Heç söküb-tökməzsən, elə mızıltılarla danışarsan, mən səni görüb bədbinləşərəm...

Sizin hər biriniz illərlə Asif Atanın yolunda külüng çalırsınız. Sizin hər biriniz Asif Atanın yolunda ölçüyəgəlməz fədakarlıqlar ortaya qoymusunuz. Bəs hanı sizin harayınız?! Harayınız yoxdur. Var ey, qalxıb-enir. Bir tədbirdə gözəl, birində yox. “Ailə Günü” məktəbdir. Burada siyasət qaynamır, insan qəlbinin incəlikləri, ağrıları, acıları, gözəllikləri üzə çıxır. Məktəbdir bu. Tədbirə çağırdığın insanlar Asif Atanın hikmətini sənin nəfəsindən, səsindən, ömründən, çalışmalarından öyrənər, yığar inci kimi. Sizin ömrünüzdə incilər var, nitqinizdə yoxdur, inciməyin. Sizin ömrünüzdən mən çox şey öyrənmişəm. Sizin fədakarlığınız ölçüyəgəlməzdir. Dünyanın heç yerində sizin fədakarlığınız yoxdur. Beş gün bundan öncə “Beşikbaşı Törəni” keçirmisiniz. Bir dənə təhlil yoxdur, nə baş verdi?! Niyə hesabat vermirsiniz, bilmirəm. İşlər görmüsünüz bu qədər. Hesabat vermirsiniz.

Açın onu, qoyun ortaya, bu işləri görmüşük. Təhlil eləyin. Bilirsiz, bu divardan o yanda toplum yaşayır. O topluma sən Asif Atanın yolunu sunursan, deyirsən, toplum, nəinki sənin, bütün bəşəriyyətin qurtuluşu Asif Atanın dediyindədir. Toplum elə bilir, Asif Atanın Ocağı 5-6 adamdır, 4 divarın arasında özünün duyğularını-filanı deyir. Elə deyil. Bu boyda gördüyünüz işlər, bu boyda dalğalar var. Bu dalğaları kim ifadə eləyəcək?! Sən yaşayırsan. Yaşadığını ifadə eləməlisən. Bu, şöhrət məsələsi deyil. Nə baş verirsə onu göstərmək gərəkdir. Bu gün sənin yaşadıqların, fədakarlıqların sabahkılar üçün zəmindir. Özündən ayrılmış, çöküşə sürülmüş toplum üçün zəmindir, qurtuluş yoludur. O bundan yapışıb düşünəcək: hansı addımı atım, necə eləyim. Mübarizə məsələsi var. Mübarizə bütün çağlarda olur. Bu gün də mübarizə var. Bu mübarizənin nə sonucu üzdə görünür, nə də etkiləri bilinir. Hər dövrdə ağıllar cılız olduğuna, mənəvi səviyyə aşağı olduğuna görə (Zərdüştün anlayışı ilə desək) Əhrimən həmişə çox qorxunc görünür. Şər çoxşaxəli, çox amansız görünür. Alt qatda Xeyirin mayanı qoruması var. O qoymur, Əhrimən o mayanı məhv eləsin. Məhv eləsə heç nə. Ancaq Hürmüzd o mayanı qoruyur. İnkişafın ayrı-ayrı müsbət xəttində dayanan insanlarımız Hürmüzdün davamçılarıdır, Əhrimənin yox. Əhrimənin də davamçıları var. Ancaq xalqı, vətənin sabahını düşünənlər Hürmüzdün davamçılarıdır. Ona görə mən Ailəçilərə üzümü tutub deyirəm: gərək sənin özünü döyməyin də, qınamağın da mənimçün məktəb olsun. Yol olsun. Qorxa-qorxa danışmaq gərək deyil...

Biz nə istəyirik? Mən dönə-dönə gəncliyi çağırıram, gəlin söhbətlərə, düşüncələrimizi bölüşək. Milli qüvvə yaratmalıyıq. Sənin içindən milli kadr yetişməlidir. Mənim üçün milli kadr o deməkdir, həmin milli kadr satılmır, satmır, əyilmir, əymir. Varmı bu?! – Yoxdur. Asif Atanın Ocağı onu yaratmaq istəyir. Sənin için elə qurulmalıdır, orada şər yaşama hökm eləməsin. Nağıldırmı bu? Nağıl deyil. Yaradırsan, olur. İnsanın doğulduğu gündən öldüyü günə qədər məqsədi o deyilmi, öz mahiyyətinə – İnsanlığa bərabər yaşasın?! Ondan ötrü gəlib dünyaya.

Bax, musəlmana öyrədiblər, sən allaha ibadət elə, cənnətə gedəcəksən. Musəlman da nə eləyirsə, cənnət üçün eləyir. Xalq

üçün eləmir, vətən üçün eləmir. Özü üçün eləyir. Sənə nə vəd eləyirlər – həyat şirnisi, kef, əyləncə. Gör sən nə üçün yaşayırsan, şüurun nəyə köklənib?! Sənə "əbədiyyət" vəd edirlər. O əbədiyyətin adı nədir – kef. "Hər şey hazır gözləyir səni. Orda nə əzab var, nə əziyyət, nə isti var, nə soyuq". Tüfeyli bir həyat. Belə ölməzlikmi olar, belə əbədiyyətmi olar?! İnsanlıq üçün ayıbdır belə şeylər düşünmək.

Asif Ata nə deyir bəs?! – Deyir, bax içinə, bütün eybəcər nə varsa gör, tanı, sil içindən. Yüksək bir surət yarat öz içindəki Mütləqdən. Elə bir surət ki, ona baxanda insanların ürəyinə işıq düşsün. Qəlbinə süzülüb axsın. Asif Atanın bizə öyrətdiyi ölməzlik, əbədilik insanın allah səviyyəsinə qalxmasından başlayır. Mütləqə qovuşmasından başlayır. İnsanın içində vətən müqəddəsliyinin sarsılmaz, ölməz olmasından başlayır. İnsanın qəlbində millət müqəddəsliyinin dönməz, sarsılmaz olaraq bitməsindən başlayır. İçində insan, millət sevgisi elə qurulur, səni heç bir çətinlik, əzab döndərə bilməz.

Mən böyük ədəbiyatı oxuyuram. "Tərəqqi – antitərəqqi" adında bir yazı yazıram. İşləyirəm hələ üzərində. Mənim indi deyəcəyim, demədiklərim çox şeylər var orda. Hüqonu oxuyuram. Hüqo türk deyil, fransızdır. Bu gün Fransa mənəvi cəhətdən ən çox çökmüş dövlətdir. Mənəvi çökmüş dövlətin Hüqosu var. Dühaların milləti olur, ancaq dühalar millətə sığmır, bəşəri olur. Hüqo Avropanın – İngiltərənin, Almaniyanın, Belçikanın, Şotlandiyanın... bir-birini əzməsini elə gözəl təsvir edir. Heç tarixçi də deyil. Tarixçi bir ayrı cür təsvir edir, yazıçı bir başqa cür. Yazıçı savaşı bir cür verir, tarixçi bir cür. Tarixçi savaşda faktları göstərir, yazıçı savaşın doğurduğu ağrıları, acıları, bəşəri fəlakətləri, faciələri. Yazıçı ona görə tarixçidən üstündür. O, Fransada insan qanına susayan, insan qanı tökməkdən usanmayan fatehlərin taleyini təsvir edir. Onun əsərindən görürük, Avropa bir-birini necə qırırdı. Bir vaxtlar bir-birini qırırdı, bu gün isə birləşib başqalarını qırırlar. Böyük fərq aradan qalxmayıb. Hüqo deyir, əgər Napoleon uduzmasaydı, onda bəşəriyyətin aqibəti başqa cür olardı. O, yazıçı sevinciylə vurğu eləyir, Napoleon yaxşı ki, uduzub.

Mən niyə Hüqonun adını çəkdim. Hüqonun əsərində obraz var, o qədər acınacaqlı bir həyat yaşayır ki, adam oxuyar, düşünər, əşi, bu

bir ədibin təxəyyülünün məhsuludur. Elə deyil. Bu bizim yaşadığımız həyatdır. Bəlkə də bizim yaşadığımız həyatdan daha sadədir. Bizim həyatımız daha mürəkkəbdir. Onun obrazı o qədər ağır, məşəqqətli əzablar yaşayır, içində bütün duyğular ölür. Canavara dönür. Ürəyi daş kimi. Duyğuları yoxdur, hissiyyatı itir. O həyata baxır, həyat bütünlüklə soyuq bir kürə kimidir. Antraktidadır, yaşayış yoxdur onun üçün. Məna, məzmun qalmayıb. Ancaq günlərin birində yepiskopa rast gəlir. İnanc adamı ona ikicə söz deyir. İkicə məsələylə onu jandarmadan savunur. Onun içində böyük dəyişiklik başlayır. Bütün o ağrıların, acıların içindən çıxa-çıxa gəlir, o, mömin bir şəxsiyyətə çevrilir. Sonralar özünü, əzaba düşəni qurtarmaq üçün, yenidən bataqlığın içinə atır. Onun üçün hər cür uğurlu gələcək görünürdü. Fiziki gələcək. Onu seçmir. İçində təbəddülatlar başlayır. Vicdan ilan kimi qıvrılır, onun üzünə dayanır, çalmağa hazır olur ki, sənin yerinə bir insan qurban gedir. Əzaba qayıdır yenidən. Deyir, cənnətdə iblis kimi yaşamaqdansa, cəhənnəmdə mələk kimi yaşamaq mənimçün üstündür. Yəni Katorqaya qayıtmaq. Bu, mücərrəd təxəyyülün məhsulu deyil. İnsan qəlbinin, düşüncəsinin haraylarıdır. Mən burada Asif Atanın ideyalarının doğruntularını görürəm. Özüylədöyüş ideyasını görürəm. Ona yenidən qayıdıram.

İnsan qəlbində bir-biriylə yola getməyən iki hiss eyni dərəcədə aktiv olarsa, onda o insanın qəlbini bədbəxtlik ələ keçirir. O duyğuların döyüşü sonucunda bədbəxtlik getdikcə güclənir, ömrə qaranlıqlar saçır. Ömrü çəkib qaranlıqlara aparır. Ancaq görün əqidə neyləyir?! Əqidə insanın içində o qədər rəvan, gözəl, aydın bir hiss, yol yaradır ki, o yolda nə bədbəxtliyə rast gəlirsən, nə də acılara, fəlakətlərə. Orda ancaq səadətə, xoşbəxtliyə rast gəlirsən. Asif Atanın özüylədöyüş ideyası budur. İçdə duyğuların təmizliyi, saflığı, sabitliyi, səbatlığı, yenilməzliyi. Xoşbəxtlik odur. İnsan həqiqətən içində elə böyük aşamaya gəlib çıxa bilər ki, heç nə onu heçə çevirə bilməz. Gerçəklikdə, həyatda qapıdan o yana çıxırsan, allahın bir jek müdiri başlayır zəhləni tökməyə...

Bunların heç biri həyatı mənim gözümdə endirə bilmir. Mən də bu toplumda yaşayıram, mənim də işim var, bir müəssisədə işləyirəm. Bataqlığın çevrəsində işləyirəm, yaşayıram. Ancaq içimdə elə əhval-

lar qaynayır ki, deyirəm, dünya mənimdir, gözəlliklər mənimdir, müqəddəslik mənimdir. Dünyada ali, gözəl nə varsa, hamısı mənimdir. Ona yiyə durmaq istəyirəm. O şey ki insana, xalqa gərəkdir, ona yiyə çıxmaq istəyirəm. Bax, Asif Atanın Evladlarına verdiyi hal, yol budur. Biz həm də toplumsal mübarizlərik. Nə vaxt toplumsal mübarizə apara bilərsən?! – Ata yazır: insan həm içsəl şərlə (xudbinlik, xudpəsəndlik, məkr, şöhrətsevərlik, şəhvətsevərlik...), həm də toplumsal şərlə (dövlətsizlik, vətənsizlik, həqiqətsizlik...) döyüşməlidir. İnsan içində özünə qalib gələ bilmirsə, toplumsal mübarizə apara bilməz. Bu gün heç yerdə ürəkaçan mübarizə getmir. Çünkü heç kim özüylə döyüşmür, içində iş getmir. Heç kim içini sağlamlaşdırmır. Onun içində vətən, millət var olmur. Ona görə toplumsal mübarizə aparanların çoxu asanlıqla satır, satılır, alınır, mübarizənin hədəflərinə dönük çıxır. Toplumsal mübarizə içdəki mübarizədən başlayır. Gərək şəxsiyyət olasan. Yenilməyəsən, satmayasan, satılmayasan... Ona görə Ata ilə dolmaq xoşbəxtlikdir. Bu xətdə mən özümü xoşbəxt sayıram. Hara baxıram Atanı görürəm.

O gün işdə Hüqonu oxuyurdum. Çölə çıxdım, havamı dəyişməyə. Bizim oturduğumuz tikilinin qarşısındakı ağacın qol-budağını kəsib budayıblar, 40 sm boyu qalıb. Həmin boyun üstündə, ilin-günün bu fəslində yeni pöhrələr qalxıb. Yaşıllıq əmələ gəlib. Hər zaman gördüyümüz, bildiyimiz bir şey baxışımı çəkdi. Düşünürəm, ağacın qolunu-budağını kəsərsən, yenidən qol-budaq atar. Pöhrələnər, yaşıllaşar, böyüyər. İnsanın qolunu-qıçını kəsərsən, yeni qol-qıç bitməz. Ancaq əzabdan yeni ruh əmələ gələr. O yeni ruh həm əzabın anlamını, həm də həyatı dərk edər. Əzab öyrədir. İnsan əzabı yaşayanda, doğrudan da, həyatın anlamına yetir. Demirəm ki, anlamaq üçün mütləq əzab olmalıdır. Ancaq əzabsız həyat mümkün deyil. Qəribədir, əzab insana nələrisə sanki anlatmaq üçün gəlir. Əzab olmasa, insan anlamır. Əzab mənadan gəlir. İşgəncə əzabını demirəm, qaçılmaz əzablar olur.

Baxın, Doğa heç vaxt dirçəliş olanağını itirmir. Bitkisində, ağacında bir cür, insanda bir cür. İnsanda daha gözəl. Çünkü insanın mənası daha gözəldir, daha alidir. Asif Ata deyir, dünyanın mənası

dünyadan artıqdır. Yəni dünya göründüyünə bərabər deyil. Ona görə Ata ilə dolan adam hara baxır, anlamı görür. Gözəllikləri dərk edir.

Baxırsan, bu gün dünyanın üzərinə qara bulud kimi qan dalğaları axır. Vahimələnirsən, dəhşətə gəlirsən, bu nə həyatdır. Ancaq bu bircə məqamı ki, görürsən, bircə məqam bütün fəlakətlərin hamısını kölgədə qoyur, sənə izah edir, Dünaynın Mənası Dünyadan artıqdır, inkişaf qarşısıalınmazdır, ölmə, qorxma, bədbinləşmə. Asif Atanın fəlsəfəsi odur.

...Əlimdəki bu kitab "Türkdən başlayan Yeni Bəşər İnamı" adlanır. Bəşəriyyəti danmırıq, bəşəriyyətə sevgini bir qırağa qoymuruq. Ancaq İnam türkdən başladığı üçün Türk Böyükdür deyirik. Bu özü bir cür möcüzədir. Onu yaratmaq, qurmaq, xalqına çatdırmaq... Şəxsiyyətini tanı, öyrən, dərk elə, xalqına ver. Çünkü sənin xalqın həmin şəxsiyyətə dayanıb xalq olacaq. Nə vaxt olacaq, 20 ildən sonra, 40 ildən sonra, 100 ildən sonra?! – Bilmirəm. Zəhmət çək, olsun.

Bu yolda zəhmət çəkənlərin zəhməti qutlu olsun!

***xxx***

Xeyir-Şər döyüşü var. Xeyir-Şər döyüşü həmişəlikdir. İnsan daş deyil, kəsək deyil, həm də biologiyadır. Hər bir doğulan insan təbiətən elə duyğularla doğulur, onunla bir sıra qüsurlu çalarlar yenidən topluma qayıdır. Yenidən xeyirə qarşı dayanır. Gediş həmişə dəyişilir. Heç nə yerində dayanmır. Dünyanın nizamı, uyumu bir nöqtədə dayanıb qalmır. Bu dəyişikliyi xeyir öz xəttində ələ keçirməyə çalışır, şər öz xəttində. Xeyir öz xəttində döyüşür, şər öz xəttində. İndi biz seçim eləməliyik, şərinmi yanında dayanaq, xeyirinmi?! Biz xeyirin yanında dayanırıq. Xeyirin yanında dayanmağımız birinci növbədə öz ömrümüzə işıq salır. Özümüzə fərəh verir. İkinci, bizim, uğrunda mübarizə apardığımız amalların xalqa çatdırılmasına işıq salır. Söz yox, heç bir vaxt dünyanın gedişi bir xətlə olmayacaq ki, deyəsən, qurtardı, qurdla quzu yanaşı otlayacaq. Ancaq xeyirin qələbəsi nə qədər üstünlüyə yetərsə, bir o qədər bəşəriyyətin yönü xeyiri ifadə edəcək, şəri yox. İndi bu gün

bəşəriyyətin yönü daha çox şəri ifadə eləyir, xeyiri yox. Daha çox şər hakimdir. Mübarizələr də ona görə var, xeyir hakim olsun. Ancaq bu o demək deyil, toplumsal həyatda şər heç olmayacaq. Olacaq. Asif Ata deyir, şər heç bir vaxt toplumsal həyatdan əksik olmayacaq. Öncələr bu düşüncəni anlamırdım. Sonra başa düşdüm, şər toplumsal həyatda niyə başa çatmır. Çünkü yeni doğulanlar var, bioloji duyğular var. Şər fərdin ömründə başa çatır. Fərd özündə şəri məhv edir, fəzilətləri həyata gətirməklə uğraşır. Nə qədər fəzilətləri sunarsan, bir o qədər həyat ülvi, gözəl olar... Gözəl insanların yaratdığı gediş qutsal olar. Bu gediş mənəviyyata doğmalaşar. Qırağa çıxmalarla mənəviyyatlı insanların qurduğu dövlət uğraşacaq.

Bu gün bəşəriyyətin genel axarı bütünlüklə Şərə doğrudur. Onu gərək Xeyirə doğru çəkəsən. Bunun üçün də mübarizə aparmaq gərəkdir. İndiyə qədər mübarizə həmişə insandan qıraqda gedib. Baxın, peyğəmbərlər, filosoflar az iş görmədilər. Ancaq həm də tam iş görmədilər. Doğrudur, peyğəmbərlər olmasaydı, min illər bundan qabaq, bəlkə də insan insanın ətini yeyərdi. Peyğəmbərlərin harayı, müqəddəs çağırışı onun qarşısını aldı. Ancaq tam ala bilmədi. Dediyimiz genel uyumu yarada bilmədi. Niyə yarada bilmədi?! Çünkü müqəddəsliyi insandan qıraqda yaratdılar. İnsana bənzər qüvvələr uydurdular göylərdə, insanı yersiz əvəz elədilər. Allah anlamını dəyişdirdilər. İnsan allahın nə olduğunu dərk eləmədi. Gərək insana allahı tanıdaydın, verəydin. Onda insan biləcəkdi, mücərrəd qüvvələrdən qorxmaq yerinə, həqiqi qüdrətə yetmək, onunla iç-içə yaşayıb mübarizə aparmaq gərəkdir. İnsanı qurtarmaq gərəkdir. Asif Ata insana dayandı. Dedi, bütün fəlakətlər insandan başlayır, bütün əlaclar insandadır. Biz də ömrümüzü, mübarizəmizi bu düşüncəyə yönəlik qururuq.

...Hansı bir insan içində mütləq təslim olur?! Kim deyə bilər, xeyir yoxdur, şər mütləq hakimdir?! Şər mütləq deyil. Şərin mahiyəti yoxdur. Şər bizim heyvani duyğularımızda var... Dünyada, həyatda inkişaf var. Şər inkişafa qarşıdır. Şər inkişafı dayandırmağa köklənir. İnkişafın mayasında isə Xeyir var. Xeyir olmasa inkişaf da olmaz. Yəni mayada, mahiyətdə xeyir var, şər yoxdur. Şər gerçəklikdə var, gedişdə var, ayrı-ayrı instinktlərdə, duyğularda var. Mahiyətdə

insanlıq var. Yoxsa insan heç yaranmaz, heç kainatda yaşayış mövcud olmaz, əgər şər mütləq hakim olsaydı. Bu, böyük nikbinlikdir. Buna dayanıb insan mübarizə aparır. Asif Ata deyir, bu mübarizəni özündən başla. Yanaşı (paralel) mübarizə - özünlə döyüşdükcə toplumsal şərlə döyüş.

Atanın dediyi kimi, öyrəndiyin qədər öyrətməlisən. Aldığın qədər verməlisən. Bu çox gözəl fəlsəfədir...

***xxx***

Bir çaları da vurğu edim. Əgər hər biriniz aktiv şəkildə Atanı da, Amaldaşınızı da öyrənərsinizsə, sizdə düşüncə formalaşar. Bu isə içində elə bir fərəh yaradar, istər evində ol, istər işdə, ən azı görüşə bilməsən də, zəng edib o fərəhi bölüşərsən. Ya da xalqlaşma işi görürsən, kitab hazırlayırsan, başqa iş görürsən, içinə fərəh seli dolur, onu bölüşmək istəyirsən. Bunun üçün içindəki təpəni aş, o təpə əngəl olur. Sənin Soyluya, İnamlının Nurtəkinə münasibətində zəif çalar varsa, deyək ki, hansısa bir düşüncəni bölüşmək üçün Nurtəkinlə söhbət səni çəkmir, ona demirsən, başqasına demək istəyirsən. Elə yox. Bəlkə də, o anda fərəhini ən çox səni o qədər də çəkməyənə zəng edib bölüş. Onun halındakı soyuqluğu aradan qaldır. Çox çətin məsələdir. Bunu özüm də asan bacarmamışam. Yadındadır, Nurtəkin, dönə-dönə sənə demişəm, bir az halını dirilt. Üzünə baxıram, üşüyürəm. Buz kimi üzün var, söz deyə bilmirəm sənə. Sözüm elə bil gedib soyuq kürəyə dəyir. İsit ürəyimi, bir az yaxınlaşım sənə. Münasibətdə elə çalarlar da olub axı. Özümdə də olub – itələyici anlar da olub. Hər kəs bu halı yaşaya bilər. Bəs kamilləşmə nədir?! Kamilləşmə o deyil ki, tədbirdən tədbirə gəlib deyəsən ki, özümdən razı deyiləm, inanıram, yaxşı olacaq"... Bu, kamilləşmə deyil. Kamilləşmə yuxarıda dediyim addımı atmaqdır. Addım at, ərit o buzu, səni üşüdür.

Belə məsələləri tədbirdə yaxşı edirsiniz, çözürsünüz.

Sonra, Ocağa zərər verən məqam varsa, arınmalıdır. Atanın sağlığında mərasimdə elə yanlış söz söylənirdi, ad hallandırmayaq, Ata çox kəskin qarşılıq verirdi, filankəs, sən yenə başladın. Çünkü bu artıq bir məqam məsələsi deyildi, genel işə ziyan verən xarakter

məsələsi idi. Burada bu gün Ata işini aparanlar oturub. Ancaq burada Ata işini aparanlar deyil, Ata işini öyrənənlər, ya istənilən şəxslər otura bilərdi. Ocaq haqqında danışanların hər biri onlar üçün ölçüdür. Dinləyən çox vaxt bilmir axı, Ocaqla bağlı Ulusəs düz dedi, Soylu yanlış dedi. Doğrunu, yanlışı Ocağı bilən bilir. Ona görə ciddi mövzularda diqqətli olmaq gərəkdir. Bilmədiyin məsələ haqqında mülahizə yürütmək doğru deyil. Ata deyir öyrəndiyin qədər de, bildiyin qədər danış...

***(Ulusəsin taleyindən gileylənməsinə yönəlik bir neçə söz).*** Bu məqamı yaxşı vurğuladın. Bu, təkcə sənin zərərin deyil, Ocağın zərəridir. Biz buna nə bəraət verməyək, nə də bunu tənqid eləməyək. Ancaq bu halın özünü deyək. Bəraəti də yoxdur, tənqid eləmək də ağırlıq gətirə bilər. Bəlli hadisə səndə elə mürəkkəb dəyişiklik yaradıb ki, bu dəyişikliklər əsnasında sənin mövzun yoxa çıxıb. Əvvəllər ən çox fikir bölüşdüyüm adam sən idin, istər telefonda, istər canlı. İndi birtərəfli, ancaq sənin dərdini bölüşürük, ayrı mövzu yoxdur. Mən Soyluyam, o ağrını, acını anlayan və sinirməyi bacaran adamam. Ancaq gəl görək, istər Ocaqda, istərsə də Ocaqdan qıraqda hər kəsmi bu mövzuda səninlə saatlarla danışmaq istəyər, ya da hər kəs buna borcludurmu?! Bu da bir cür mürəkkəblik yaradır. Burada biz anlamağa çalışaq, nə tənqiddən, nə də bəraətdən danışmayaq, indi onun yeri deyil. Biz taleni qarğaya bilmərik ki, tale belə gətirdi, Ulusəs hər gün eyni şeylərdən gileylənməlidir, hamı da işini qırağa qoyub onu dinləməlidir. Biz Ocağıq, belə şeylər düşünə bilmərik. Biz iş başındayıq, heç kimi kiminsə şəxsi qayğıları ilə yükləmək olmaz. Bu cəhət özü düşündürücüdür. Bu baxımdan düşündürücüdür ki, bir vaxtlar tanıdığın, bildiyin bir mərhələ vardı, səviyyə vardı, onu yenidən görmək arzusu var, ancaq bilmirəm ki, onu yenidən necə görüm. Belə bir həsrət də var. Bu həsrət sənin özündə daha çoxdur... Belə-belə şeylər də ünsiyyətin formalaşmamasına gətirib çıxarır. Göylünün də götürdüyü yük var. Göylü özünü Ocaq üçün çox yükləyib. Ancaq mən, hətta Ocaq üçün belə, özünü aşırı yükləməyi arzulamıram. Yük aşırı olanda sıxıntılar yaşada bilir. Bu da mənə ağrı gətirir. Mən asan müşahidə eləmirəm. Həm istəyirəm ki, Ocaq üçün o işlər görülsün, həm də sevdiyim

adamların yükün altında təntiməsini istəmirəm. Yükün altına girməsini istəyirəm, məhv olmasını istəmirəm. Məhv olmadan eləmək mümkündürmü? Hər kəsin xarakterik bir ağrısı, çətinliyi ümumi münasibətlərdə bir məsafə saxlayır. Bu məsafəni yarmaq, aradan qaldırmaq üçün razıyam ki, həm birgə iş görmək, həm də fərdi iş görmək olar. Birgə iş görmək, deyək ki, mən İnamlı ilə birgə gedib görüş keçirirəm, bu, birgə iş görməkdir. Özüm tək gedirəm, bu fərdi iş görməkdir. Mən tək gedirəm, axşam İnamlıya zəng edib ona hesabat verirəm, fərəhimi bölüşürəm. Bu da doğmalaşmaq üçün səbəbdir. Kitab oxuyursan, düşüncən əmələ gəlir, onu kiminləsə bölüşmək istəyirsən. Bu da ünsiyyət üçün yaxşı səbəbdir. Ötən dəfə Nurtəkinlə bölüşürəm, deyirəm ki, hara baxıramsa, Atanın ideyasını görürəm. Bir misal deyim (bunu bir neçə yol demişəm, indi yeri gəlib). İş yerimdə otağımızın qabağında balaca yaşıl bəzək kolunu kəsib 40 sm uzunluqda saxlayıblar. Kökü durur. Hüqonu oxuyurdum. Bayıra çıxıb havamı dəyişəndə gözümə sataşdı. Ağlıma fikir gəldi ki, ağacın qol-budağını kəsib doğrayıblar. Ancaq təzədən qol-budaq əmələ gəlir. Ancaq adamın qol-qıçını kəsərsən, yenidən qol-qıç əmələ gəlmir. Xəstəlikdən də kəsilə bilər, hansısa döyüşdə də. Qolun-qıçın kəsilməsindən yaranan əzab var. Bu əzab onda yeni ruh əmələ gətirir, yeni ruh yaranır. O, həmin əzabın mahiyətini dərk eləyir. Eyni zamanda həyatın anlamını dərk eləyir. Çünkü yeni ruh yaranıb... Bax, yenidən yaranma, ya da yeni ruh o deməkdir ki, təbiət özündə dirçəliş imkanını itirmir. Bu, Asif Atanın "Dünyanın Mənası Dünyadan böyükdür" ideyasıdır. Qarşısıalınmazdır inkişaf. İnsan üçün bu, böyük nikbinlikdir.

***xxx***

"Ocaq Yükümlüsü ideyası" ilə bağlı bir neçə söz deyim. Ocağın içində kimsə belə bir yükün altına girirsə, o, özünü dəyişir, ya da dəyişməlidir. Ya da Ocaq Yükümlüsü olana qədər özünü dəyişir. Qıraqdan da görünür, o, nə qədər özünü dəyişib, nə dərəcədə Yükə layiqdir. O, yükün altına layiq olmadan girsə, sən razı olmayacaqsan. Əgər Ocaq Yükümlüsü Yükə layiqdirsə, onun ləyaqətini yaşayırsa, dərk edirsə, onun sözünü mütləq qəbul eləmək gərəkdir. Elə olmasa,

onda Ocaq yaşamaz. Sən inanırsan, qəbul edirsən ki, o, Ocağın Yükümlüsüdür, ruhaniyyatla bağlı nala-mıxa vurmur. Heç kimin qıraq mövqeləri burda diktə edilmir. O, sözün doğru mənasında insani mahiyət üstə yaşayan biridir, o xətti yürüdür. Ocaqçılar yönətmə Yükünün altına hamılıqla girmir ki. Ancaq hər kəs Yükü götürəni görür, tanıyır. Böyük məsələləri burda oturanların hər biri bilməyə bilər. Ancaq hər kəsin ağlı var, görür ki, bu adam necə davranır. Çünkü hər kəsin içində Ocaq mənası var. Güzgü var, ölçü var. Burada oturmağı bacaran adam yaxşını, doğrunu görə bilir, ifadə eləyə bilməsə də. Söz yox, sən inanırsan, sevirsən, gedirsən, getdikcə münasibət ülvi bir aşamaya gəlib çıxır. Ocağın Yükümlüsü eqoist olsa, ağa olsa, ağzına gələni danışsa, "mən hər şeyəm, sən heç nəsən" prinsipi ilə davransa, bəri başdan sənin doğma münasibətin olmayacaq, nəinki sən onun ortamına gələsən, nəinki sən onun sözünü mütləq sayasan. O vaxt Ocaq Yükümlüsünün sözünü mütləq qəbul eləmək olar ki, Ocaq Yükümlüsü Ataya layiqdir. Ataya layiq olmasını bilmək üçünsə Atanı öyrənmək gərəkdir. Həqiqəti əzbərləmək yox, həqiqəti öyrənmək.

...Hər kəsin öz baxışı olmur. Hər kəsin öz yanaşması ola bilər, baxışı ola bilməz. Baxış birdir, Atanın dediyidir. Yanaşma doğru olaraq da fərqli ola bilər, yanlış olaraq da. Yanaşma doğru ola bilər, ancaq yenə də fərqli ola bilər, özünəxaslıq baxımından. Ancaq yanlış olsa, nəinki fərq, təzad yaradacaq. Bizim münasibətlərimizdə, baxışlarımızda təzad yoxdur xoşbəxtlikdən. Fərqlər var yanaşmalarda...

Mən sizin Ailə Gününüzdə bu məsələnin belə qoyulmasını istəmirdim. Tənqid haqqında mövzu qoymusunuz. Tənqid çox həssas məsələdir. Hər kəs hər kəsi necə gəldi tənqid eləməli deyil. Çox ölçüb-biçməlisən. Elə ölçüb biçməlisən, düşünməlisən, sənin duruma tənqidi yanaşmağın həssas münasibəti daha da mürəkkəbləşdirə bilər. Ona görə tənqid çox ehtiyatlı məsələdir. Maksimum dərəcədə tənqidə az getmək gərəkdir. Yüz ölçüb bir biçmək gərəkdir. Onu sevgiylə elə demək olar, qarşındakının qəlbini qanatmayasan, həssas durumu mürəkkəbləşdirməyəsən.

Bir vaxtlar Ocaqda olanlar deyirdilər, “adımızı Ocaqçı qoymuşuq, tənqidi qəbul edə bilmirik. Bəs onda niyə biz Ocaqçıyıq”. Sonralar mən buna belə cavab verdim. Əgər ortada irad varsa, o iradı doğuran səbəb var. O iradı doğuran səbəb – yetkin olmayan səviyyələrdir. Kamil, yetkin səviyyə olacaqdısa, heç irad da ortaya çıxmayacaqdı. Yəni kamil səviyyə ortaya irad faktını çıxartmır. Ocaqçı sayılsan da, hələ Ocaq səviyyəsinə yüksəlməmisən axı. Necə gəldi tənqid elə, ya da iradı necə gəldi asan qəbul elə. Elə deyil. Yetkin olmayan adamın gücü də azdır. Tənqidi də qəbul edə, həzm edə bilmir. Ona görə sillə kimi üzə çırpmaq ki, mən sənə irad bildirəcəm, sən də qəbul elə, onda doğmalıq yaranmaz.

Sonra, özünü başqasının yerinə qoymaq gərəkdir. Əgər özünü başqasının yerinə qoya bilsən, onda çox həssas, incə olacaqsan. Mənəviyyata ziyan verməyəcəksən.

Sonra, “özüylədöyüş” ideyamız var bizim. Davranışları, özündən başlayaraq, özünü döymək yönündə sərgiləmək gərəkdir. Hər kəs özünə eyni dərəcədə irad bildirsə, görəcəksən, qarşıdakını suçlamağa gərək qalmır. Məsələn, mən görürəm, amaldaşım özünə içdənliklə yanaşır, özünü döyür. Belə olan halda, mən də tənqidə başlasam həm zərərli olacaq, həm də çox zəif səslənəcək. Özünü görə bilmirsə, genel sözlərlə yetərlənirsə, özüylədöyüş adına genel sözlər səsləndirib özünü aldadırsa, o başqa. Ancaq özünü aldatmadan sağlam yöndə özünü araşdıra bilirsə, qıraqdan ona irad bildirmək, tənqid eləmək doğru deyil. Bu, kobud yanlışlıq olar. Bu, Asif Ata fəlsəfəsinin, “özüylədöyüş” ideyasının tələbinə uyğun deyil.

Hər kəs özündə axtarmalıdır, mənim davranışım, jestim, səsimin tonu, danışıq üslubum nə dərəcədə ruhanidir. Ruhanidirmi, yoxsa toplumçuluqdurmu (Cəmiyyətçilik)?! Onu fərd özü özündə tanıya bilsə, qiymətləndirə bilsə, sürətlə ruhaniləşə bilər. Ən çətin şey əsəblərə hakim olmaqdır. Ağlına çatır, bilirsən, filan şey yaxşıdır, filan şey pisdir. Filan cür davranmaq yaxşıdır, filan cür davranmaq pisdir. Bu ağlına çatır, bilirsən. Ancaq əməldə, məqam gələndə əsəblərinə hakim ola bilmirsən. Özünə hakim ola bilmirsən. Əsəblərinə hakim olmağı bacarmaq, təmkinli olmaq çox önəmlidir. O anda zəiflik içinə gəlib qıcıqlandırırsa, əsəblərini boğ. Hay-küylə məni

boğma, içindəkini boğ. Səni səndən ayıranı boğ. Onda görəcəksən, yeni aşamaya qalxırsan. Təkcə Amaldaşların deyil, qıraqdakıların da gözündə ucalırsan. Hər kəsin sənə münasibəti dəyişir. Fərd ömrünü necə qurursa, özünü necə ifadə edirsə, ona münasibət də elə formalaşır. Nadan olaram, kobud olaram, ağına-bozuna baxmaram, davranışımın, sözümün yerini bilmərəm, hər kəsin mənə münasibəti pis olacaq...

Amaldaşın sənin üçün zəif xarakterlidir, güclü xarakterlidir, ya da sənə münasibəti yaxşıdır, zəifdir, bundan asılı olmayaraq, sən Amaldaşına sayğılı davranmalısan. Amaldaşın şəxsiyyətinə sayğılı yanaşa bilmirsən, özünə sayğılı yanaşmalısan. Özünə sayğı duymalısan ki, necə gəldi davranmayasan, kobud olmayasan. Ola bilər, Ocağa bir nəfər gələr, səninlə onun münasibətində əyilmə olar. Hansısa səbəbdən, indi onu izah eləməyə ehtiyac yoxdur. O sənə əsas vermir ki, sən ona qarşı kobud davranasan, artıq-əskik deyəsən, içində elə duyğu bəsləyəsən, üzündə də ifadəsini tapa, özünü göstərə, içini daim gərgin saxlaya. O halı içinə yaxın qoyma, özünə sayğı duy. İçini gərgin saxlama. İçində ilan var, mənəviyyatını çalır. Sən də qırağa zəhər qusursan. İçində tülkü var, mənəviyyatını aldadır, sən də qırağa qarşı hiyləgərlik, kələkbazlıq edirsən. İçində canavar var, mənəviyyatını parçalayır. Sən də qırağa kobud, qaba münasibətlər sərgiləyirsən. Bu nədir?! – Bu azadlığı itirməkdir, ölçünü itirməkdir. Xoşbəxtliyi itirməkdir. Xoşbəxtlik odur, içindəki ilandan, tülküdən, canavardan ayrılırsan, için arılır, durulur, azad olur. Sənin xoşbəxtliyin içinin azadlığıdır. İçində xoşbəxt olanda heç kəsə münasibətində kobudluq olmaycaq. Kiməsə sevgin yüksək, kiməsə sevgin zəif ola bilər. Ancaq sən birinə yüksək sevgini qabardıb o birinin gözünə soxmursan, o birini əzmirsən. Onu aşağılamaqdan, alçaltmaqdan ötrü buna yaxşı münasibət sərgiləyim, bu da paxıllansın, ölsün, qısqansın. Bu məkri özünə yaraşdırmırsan. Bu, Ocaq məntiqi deyil, ruhani məntiq deyil. Sən fərqi hiss elətdirmədiyin üçün, hətta sənin yaxşı münasibətdə olmadığın adamın da sayğısını, sevgisini qazanırsan. Belə dəyişir müansibət.

Yoxsa, içində naqis duyğuyla doğmalaşırsan (həmrəy olursan) mənə qarşı. İçindəki naqisliklə həmrəy olma, mənimlə həmrəy ol.

Onda içindəki naqislik çıxıb gedəcək işinin dalınca, mən qalacam. Sən ruhani mənada başqalaşacaqsan. Bizim aramızda gözəl, doğma, ülvi münasibət yaranacaq. Bəşəriyyətin ehtiyacı olan da bu münasibətdir. Ata ona görə deyir, içindəki ilanı öldür, tülkünü öldür, canavarı öldür. Adamlar buna bədii ifadə kimi baxır. Elə deyil. Bu həqiqətdir. Onda sənin ülvi münasibətin yaranacaq. Bəşəriyyətin yönü, halı dəyişəcək. Ata onu izah edir. Yoxsa gəlişiyaxşı söz məsələsi deyil. Bu baxımdan öz üzərində işləməyi artırmaq gərəkdir. Ailə Günlərində öz çatışmazlıqlarını demək gərəkdir, bundan qorxmaq gərək deyil.

Keçən günlərdə iş yerimdə "özüylədöyüş gündəliyi"mi yazırdım. İş yoldaşım da məni izləyir, sayğıyla baxırdı. Mən onun həvəsini görüb dedim, istəyirsən yazdığımı sənə oxuyum. O da "oxu" dedi. Özümlə bağlı qınaqlarımı dinləyib pıçıldadı: "mənim sizə sayğım böyüdü. Adam necə özünü döyər, özü də yazar? Bu yazı qalır axı". Dedim, mənim yaşam üslubum budur – istəmirəm içimdə məni səksəkəli edən nəsə qalsın. Sən, ya başqası, ya sabahkı nə düşünəcək, ondan qorxum yoxdur. Çünkü mən özümdə həqiqi bir səviyyə görmək istəyirəm. Özümlə səmimi olmaq istəyirəm. Özümlə doğma, doğru olmaq istəyirəm. Ona görə də içimdəkini tanımaqdan, tanıtmaqdan qorxmuram. İçimdəkinə deyirəm, dilə gətirdiyim üçün qıraqdakı da səni görür. Onların nifrəti səni yandıracaq. Onların baxışı mənimki ilə birləşib sənə deyəcək, rədd ol get içimdən. Bu, özünü qurmağın, özünü doğrultmağın harayıdır – düşünmək, yazmaq, ifadə eləmək. Onda görəcəksən, 5 adamın içində nə qədər gözəl bağlılıq yaranır. Onu heç nə qopara bilməz. Əsas onun yaranması gərəkdir. Bu yaranarsa, Ocağın gücü 10 dəfə artacaq. Sevgidən böyük güc yoxdur. İnamdan böyük güc yoxdur. İnsana nə qədər böyük impuls verir. Ən çətin anların olar, ancaq Amaldaşlarına olan sevgin, inamın içində elə bir güc yaradacaq, heç yanında olmasalar da, bütün çətinlikləri yenərsən. Mən bunu fəlsəfi ibarə kimi demirəm, yaşadığım hal kimi deyirəm. Yaşamışam mən bunları. Bu qədər əməldən əmələ, hünərdən hünərə qoşuram, bu, təkcə mənim özümə inamım deyil, həm də Ocaq ortamındakı, gözəlliklərə,

gözəl üzlərə, gözəl əhvallara görədir. Mən sizdə daim gözəl keyfiyyətlər axtarıram, içimin gücü artsın…

Sizin halınızdan, harayınızdan kitab yazılmalıdır. Yaşadığınız ömür var. Nə qədər ayrı-ayrı ötəri qüsurlar olsa da, siz toplumdan yüksək yaşayırsınız. Sizin ömür yolunuz var, sizin fədakarlığınız var. Qədrinizi bilin, ömrünüz yarandığı kimi, ömrünüzün kitabı da yazılsın, yaransın. Ömrünüzdəki gözəlliklər, fədakarlıqlarınız, düşüncələrinizin qaymağı kitab səhifələrinə yazılıb sabahkıların əlinə getsin...

## Atagün Ailə Günü

*(30 Xəzan Ayı, 36-cı il)*

30 Xəzan Ayında "Atagün Ailəsi"nin VII Aylıq törənini keçiririk. Amallaşma-Kamilləşmə-Xalqlaşma hesabatımı dilə gətirim. Mən elə işləyirəm, o, elə mənim öz üzərimdə işləmək demək olur. Ata həyata, dünyaya baxmağı bizə necə öyrədirsə, ona doğru addım-addım gedirəm. Atanın "Özüylədöyüş" ideyası, varlığa münasibət yönündən düşüncəsi, eləcə də "Dünyanın Mənası Dünyadan Böyükdür" ideyası, Asif Ataya qədər olan, səmavi baxışların "Allah böyükdür, kainatın yaradıcısıdır" ideyasından daha böyük etki yarada bilir mənim düşüncəmdə. Əslində "Dünyanın Mənası Dünya-dan Böyükdür" ifadəsi səmavi dinlərin "Allah böyükdür" ideyası çəkisində olan baxış yönüdür, ancaq dediyim kimi, ondan üstündür. Necə ki, müsəlmanlar hər şeydə Allahın adını çəkirlər, bismillah, allahu-əkbər, əlhəmdülillah i.a. deyirlər, mən hər düşüncəmdə, hər baxışımda, hara baxırımsa, orada "Dünyanın Dünyadan Böyük Mənası"nı görürəm. Burada mənim üçün iki məsələ aydınlaşır. Yəni biri, bizə qədər insanın ağlında oturuşan varlığa münasibət, allahla bağlı məsələlər, biri də "Dünyanın Mənası Dünyadan Böyükdür". Biri var, onu bizə ideya kimi verənin dediyini biz anlayaq, onu sunaq, biri də var, bizdən qıraqda olanların səhərdən axşama dilindən düşməyən məsələ. Bizdən qıraqda olanların dilindən anlamadıqları yadlıq düşmür, "Dünyanın Mənası Dünyadan Böyükdür" ideyası isə mənim içimdən düşmür. Hara baxıram onu görürəm.

Bir fakt deyim. Mən bunu Ocağın o biri Ailələrinin tədbirlərində də vurğu etmişəm. İş yerimdə oxuyub düşünürdüm. Gecənin bir vaxtında havamı dəyişmək üçün çölə çıxdım. Gördüm, bizim oturduğumuz tikilinin qabağındakı ağacı kəsib budayıblar. Ağaca gözümüz alışıb, indi o, yoxdur. Ancaq kökü torpaqdadır. Gördüm, pöhrələr verib. Yenidən budaqlanır. Ağlıma gələn bir düşüncəni götür-qoy elədim – ağacın qolunu-budağını kəsirlər, yenidən qolu-budağı əmələ gəlir. Yaşıllaşır, böyüyür, artır, yenidən ağaca çevrilir. İnsanın qolunu-qıçını kəsərsən, onun yerində yeni qol-qıç əmələ gəlməz. Ancaq qolun-qıçın kəsilməsindən yaranan əzabın yaratdığı yeni ruh əmələ gələr. İnsan o ruhla əzabın, həyatın anlamına yetər. İnsanda belə bir dəyişiklik yaranar. Demirəm, insanın dünyanı dərk eləməsi üçün onun qolu-qıçı kəsilməlidir. Hansısa fəlakət üzündən insan belə bir qaçılmazlıqla üzləşərsə özünü öldürməli deyil ki. Məsələn, mən bu halı Tolstoyun "Hərb və sülh" əsərindəki Andrey obrazında izləmişəm. O yaralanır. Sağında, solunda qolunu-qıçını itirən əsgərlər, zabitlər görür. Döyüş səhnəsində obrazın üzərində işləyən yazıçı onun düşüncələrini, əzabını elə təsvir edir, savaş nə qədər amansız, pis şey olsa da, əzabdan Andreydə başqa ruh əmələ gəlir. Bu çağa qədər o başqa cür düşünürdü, qəşəng mundir geyinmiş, əmr eləyən, hökm edən bir zabit... İndi o, özünün düşündüyü kimi, göylərə üz tutur, yerin-göyün "yiyəsinin" qarşısında, uzanıqlı durumda, əzablı düşüncələr içində qovrulub insanın taleyini düşünür.

Bax, "insan qolunu-qıçını itirər, onda yeni qol-qıç əmələ gəlməz, ancaq yeni ruh əmələ gəlir" nə deməkdir, buradan anlaşıla bilər. Dünya, Doğa heç bir vaxt özündə dirçəliş olanağını itirmir. Həmişə gəlişmə, dirçəlmə, ümid, yenidən toparlanma məsələsi var. Bu elə "Dünyanın Mənası Dünyadan Böyükdür" deməkdir. O ideyadır. Dünyada nə baş verirsə versin, nə sönürsə sönsün, nə ölürsə ölsün, nə kəsilirsə kəsilsin, onun özündən artıq olan mənası başa çatmır, dirçəliş olanağını üzə çıxarır. Mənim üçün həmin ağacın kəsilməsinə baxmaq bir duyğu, bir məqam idi. Ancaq içimdə "Dünyanın Mənası Dünyadan Böyükdür" ideyasını üzə çıxardı.

Sonra, adamın içində bir biriylə yol getməyən duyğular olur. Məsələn, tamah duyğusu, bir də, deyək, insan sevgisi. Bəzən görürsən, adamda tamah duyğusu güclü olur, azca da insan sevgisi olur, o da ayrı-ayrı məqamlarda özünü göstərir. Məsələn, yol ilə yüklü gedən, ancaq yükünə gücü çatmayan bir adama kömək edir. Ancaq bu o demək deyil, o, tamah duyğusundan açıldı...

Adamın içində iki duyğu – insan sevgisi tamah duyğusuyla, tamah duyğusu insan sevgisiylə yol getmir. Bunların hər ikisi özü olmaq istəyir. Mühitin yiyəsi olmaq istəyir. İnsan qəlbinin gözəlliklərində, incə tellərində özü oturmaq istəyir. İkisi bir-biriylə döyüşür. İnsan qəlbində döyüş gedir. İkisi də eyni dərəcədə aktiv olur. Əgər insanın qəlbində bir-biriylə yol getməyən iki duyğu eyni dəcərədə aktivdirsə, insan qəlbini bədbəxtlik ələ keçirir. O döyüşün qızışdığı anlarda, getdikcə kəskinləşdiyi bir səviyyədə bədbəxtlik bütün ömrə hakim olur. Ömrün qarşısında qaranlıqlar açır, düşüncələri qaranılığa çəkib aparır.

Ancaq insan mənəvi ölçülərlə yaşayanda onun içində bir-biriylə yol getməyən duyğuların biri, daha doğrusu, naqis olanı sıradan çıxır. Əqidə o deməkdir, qutsallığa zərər verən duyğu sıradan çıxır. Sıradan çıxırsa, insanın içində fəzilət qalır. Sabitlik yaranır. Birxətlilik yaranır. Aydınlıq yaranır. Ziddiyyət aradan gedir. Belə ömürə heç vaxt bədbəxtlik hakim ola bilmir. Bu ürəkdə ancaq xoşbəxtlik başlayır böyüməyə. Bax, əqidə insan qəlbində xoşbəxtlik yaradan, o xoşbəxtliyi ömrə hakim eləyən bir qüdrətdir, gücdür. Bax, Asif Atanın "Özüylədöyüş" ideyasının anlamı odur.

Mənimlə bir qadın işləyir. Söhbət edirdik, gileylənirdi həyatından, aylığından. Böyük yaşda uşaqları var. Deyir təkəm, gücüm çatmır. Mən bunların səbəbini açıqlayıb dedim: hər şey ona görə əyridir, insani şüur zədə götürür. Ruhaniyyat birgə yaşayışa nizam gətirməlidir, ancaq ruhaniyyatı oyuna salırlar. Sizə cənnət vəd edirlər. Cənnətin adını əbədilik qoyurlar. Böyük xəyanət edirlər. Cənnətdən əbədilik olmaz. Çünkü cənnətin adı kefdir, yalançı güzəran rahatlığıdır. Orada hazır yeməklər var, zəhmət yoxdur. Ancaq həyat zəhmətlə oluşur. Əgər zəhmət yoxsa, həyat da yoxdur. İnsan varlığı

hərəkətdə bilinir. Zəhmətlə təsdiqlənir. Sizi isə tüfeyli həyata çağırırlar.

Səni də, başqasını da narazı salan bilirsənmi nədir?! Biri var zəhmət, biri var işgəncə. Zəhmət odur ki, sən öz əməyinin 3-5 saatını, lap götürək 8 saatını ayırarsan, gözəl ailə ola bilərsən, gözəl yaşaya bilərsən, dolana bilərsən, dincələ bilərsən. Hər bir işin aşar. Sənin özünə vaxtın qalar. Ancaq sən sutkanın 24 saatını çabalayırsan, dişlə-dırnaqla bir tikə çörək əldə edirsən. Sən ancaq mövcud olmağın üçün çabalayırsan, vaxtın, olanağın ona çatır. Bax, işgəncə budur. Çünkü sən başqa şeylərdən məhrum olursan. Çünkü sən özünlə bağlı düşüncələrdən, göyləri, gələcəyi görməkdən, düşünməkdən məhrum olursan. İşgəncə məhrumiyyət deməkdir. Biri səndən çox çörək yedi, sən az yedin, işgəncə bu deyil. İşgəncə odur ki, sən fəzilətlər haqqında düşünməkdən, o yöndə addımlar atmaqdan məhrum edilirsən. Bax, əzab, işgəncə odur.

Mən o qadına zəhmət-işgəncə fərqini dedim. Deyir, axı adamlar başqasını gözə almırlar. Deyirəm, adamların içində eqo deyilən şey var. Mənəmlik var. Deyir, axı o heç vaxt aradan qalxmayacaq. Deyirəm öz-özünə aradan qalxmır, onu sən aradan qaldırırsan. O, bioloji xislətdir, səninlə bir yerdə doğulur. Sənin də məqsədin odur, doğulub həyata gələndən, böyüyəndən sonra öz içindəki eqonu döyəsən, onun etkisini sıradan çıxardasan. Onda başını qaldırıb dünyaya, həyata baxanda insanı görürsən, onun haqqını tanıyırsan, gözə alırsan.

Güclü, harın sənin, mənim əlimdən qamarlayır, mən də sənin cibindən qamarlamağa çalışıram, dolanmaq üçün. Həyat uğrunda heyvani mübarizə gedir. Heyvanlar bir-birinin əlindən alır. Güclü heyvan hamısının əlindən alır, gücsüzlər də bir-birini didir. Bu, heyvani həyatdır, insani həyat ayrı şeydir. Asif Ata insani həyat istəyir, onu qurur. Onu qurmaq üçün də deyir, içindəki eqonu etkisiz duruma gətir. Sən dünyaya ona görə gəlirsən, mənəmlik ehtirasını sarsıdıb öz mənəviyyatına qovuşasan. Əbədilik tələbi olan mənəviyyatına qovuşasan. Onu yetirəsən, böyüdəsən.

Bax, insanın içində bir-biriylə yol getməyən duyğular məsələsi həmin eqo məsələsidir. O eqo məsələsi səninlə bir yerdə doğulur,

bəsləyib qoruduğun üçün səninlə bir yerdə də ölür. Asif Ata deyir, o səninlə bir yerdə doğulur, ancaq qoyma səninlə bir yerdə böyüsün. Onu içində öldür ki, sən qalasan, ölməyəsən. Onu öldürə bilsən, əbədilik əldə eləyirsən. Onu öldürə bilmirsənsə, onun etkisiylə torpağa gömülürsən, qurtarırsan.

Bu Özüylədöyüş məsələsini insanlara anlatmaq üçün, heç də, özüylədöyüşün fəlsəfəsindən şəkillər yaratmaq gərək deyil. Çox sadə, hər kəsin anladığı dildir Asif Atanın sözü. Bu dili anlayan hər kəs İnsanlığın dirçəlişinə qatqı göstərə bilər...

Sonra, kamilləşmə məsələsi. Kamil kimdir?! Bəzən biz hesab edirik, kamil o şəxsdir, onun heç bir qüsuru yoxdur. Düppədüz yeriyir. Yox, o deyil kamillik. Söz yox, əyri yeriməmək kamilliyə xas olan bir cəhətdir. Ancaq kamil odur, o özünü olduğu kimi görür, özünü doğru döyür. Sən ömrünün axırına kimi özünü döyəcəksən. Çünkü qüsurlar üstünə gəlir. Sən o qüsuru döyəcəksən ki, ömründə gerçəkləşməsin. Yoxsa sən dəmir parçası deyilsən ki, pasını təmizlədin qoydun bir qırağa. Tərtəmiz durur orda. Yox, sən canlı insansan, yaşadıqca qarşına Adamlıq çıxır, olay çıxır. Onunla davranış məsələsi gündəmə gəlir. Sənin içindən gələn bir ayrı, bəzən gerçəkliyin tələbləri sənin qolundan tutub başqa səmtə çəkmək istəyir. Onda sən gerçəkliyin əlindən alırsan özünü, doğru bildiyin səmtə çəkirsən.

Biz bioloji mövcud olmalıyıq, yaşamalıyıq. Mübarizə aparırıq. Qarşımıza çıxanın birinin gözü aladır, birinin qaradır. Daim düşünürsən, qarşıma çıxan obyektlə münasibətdə yanlışa yol verməyim. Özünə nəzarət edirsən. Özünü ələ alırsan. Özünü bütöv, həryönlü tanıyırsan. Kamillik odur, özünü doğru bilmək, görmək. Bir də özünü doğru döymək. Bütünlüklə insani ölçüyə köklənmək, bütün münasibətləri o yönə kökləmək. Bu bizim qarşımızda duran böyük bir tələbdir...

Siz hamınız bilirsiniz, mən Asif Ata yaradıcılığının bircə saralmış yarpağının da üstündə əsirəm. Ancaq indi sizə bir fakt deyim. Biz bu yaxınlarda “Beşikbaşı Mərasimi” keçirdik. “Beşikbaşı Mərasimi”nə gedərkən, Asif Atanın, iki abedə (Ocaq-Türk, latın qrafikalı Azərbaycan abelərində), “Mütləqə İnam” Bitiyini apardım, evlənənlərə

bağışlamaq üçün. Çantada həm Bitiqlər vardı, həm kamera. Yolda Elçin bəylə görüşdüm, “20 yanvar”da. Göylü ilə, Üstün də gəldi. Dördümüz burdan getdik. Metroya minəndə basabas idi, Elçin bəy kömək eləmək üçün mənim əlimdən çantanı aldı. Qatarda gözüm sataşdı, Elçin bəy torbanı yerə qoyub özü qarşısında durmuşdu. İçimdən qırıla-qırıla qaldım, bu çantadakı “Mütləqə İnam” kitabıdır, onu yerə qoymaq olmaz. Elçin bəy qəsdən eləmir, sadəcə fərqinə varmır. Gəlib toy yerinə çatdıq, gözləyirdik, bizə söz verəcəkdilər, “Beşikbaşı” törəni keçirəcəyik. Hamımız stol qırağında oturmuşduq. Güntay kitabları tilinə dizi üstə qoyub, bir əliylə də asta-asta çörək yeyirdi. Mən Göylüyə him-cim elədim ki, kitabı onun əlindən al. Bu kitabı əlində elə tutub çörək yemək olmaz. Bu, “Mütləqə İnam” kitabıdır! Sənin öz qutsal kitabına münasibətin çox şeyi həll eləyir, çox söz deyir. O da aldı kitabı. Bu münasibətlər içimdə qırıqlıq yaratdı, acıq duyğusu oyatdı. Ancaq sonra, işə gedəndə, düşündüm. Kiməsə demək, “Mütləqə İnam kitabını yerə qoymaq olmaz, onu qarşısında tutub çörək yemək olmaz” asandır. Bəs mən, başqalarının gözündə tükü gördüm, öz gözümdəki tiri görmədim axı. Mən “Mütləqə İnam” kitabının önəmini bu qədər bildiyim halda, kameranı onun üstünə niyə qoymuşdum?! Axı nəinki kameranı onun üstünə qoymaq olmaz, bir torbada “Mütləqə İnam” kitabından ayrı əşya götürmək olmaz. Sonradan ağlıma çatdı, mən özüm də yanlışa yol vermişəm. Görürsünüzmü, elə məqam gəlir, adamın ağlına gəlmir, düşüncəsi başqa yerdə olur, “Beşikbaşı”nı belə keçirək, belə söz deyək. Adam fərqinə varmır. Bu, böyük günah deyil, ancaq qüsurdur.

Bax, indi kamillik nədir məsələsi bir az aydınlaşır. Kamillik odur, o qüsuru işlədənə qədər onu görürsən, o qüsurdan həmin anda ayrılırsan, çıxırsan. İşlədilmək üçün yaxandan sallaşan qüsuru anında qırağa qoyursansa, sən kamilliyi yaşayan birisən. Sonradan anlayırsan, açılmağa çalışırsansa, deməli, kamillik yolunda gedirsən. Doğrudur, Kamillik böyük içsəl hallardır, bu faktı dedim ki, o halları araşdıranda belə detallar nəyisə aydınlaşdıra bilər.

Mən illərdir özümü görə-görə gəlirəm. Həm Ocaqda, həm qıraqda mənim qədər sağlam, özüylə döyüşən adamlar az olub.

Təkcə indi yox, tarixdə də. O az adamlardan biri Tolstoydur. Konkret bioqrafiyaları olduğu üçün deyirəm, Qandidir, Asif Atadır... Mən özüylədöyüş məsələsində onların dalınca gedirəm. Mənim gündəliklərim, düşüncələrim, özümə münasibətlərim, amaldaşlarımın hesabatları kimi deyil, çox genişdir. Amaldaşlarım "Özüylədöyüş" hesabatları verirlər: "Mən bu ay özümdən razı qalmadım. Ancaq inanıram, yaxşı olacaq..." bu, özüylə döyüşmək deyil. Bu, hesabat deyil.

Bir var insanın öz içində dəyişməsi, bir də var insanın zamanda dəyişməsi. Bizdən qıraqdakılar da dəyişirlər. Ancaq onların hamısı zamanda dəyişirlər. Zamanla dəyişirlər. Asif Ata zamanda dəyişmədi. Asif Ata içində dəyişdi, bizi də içində dəyişmək yoluna yönəltdi. Nə deməkdir bu?! – Məsələn, quruluş, zaman dəyişir. Bizə bəlli olan bir çox adamlar, dünənki kommunistlər bugünkü millətçi olur, ya da demokrat olur. Zaman onu dəyişir. Halbuki onun içində nə millətçilik var, nə də demokratiya. Ona görə biz, o cür adamlara qiymət veriləndə çaşmırıq. Onun düşüncəsinə, yazısına, davranışına, həyatına bax, görəcəksən, zamandan heç bir fərqi yoxdur. Mən zamanla dəyişmirəm, içimdə dəyişirəm. İçimdəki balacalıqları öldürə-öldürə dəyişirəm. O içindəkini öldürmür. Onun içi çölə uyğunlaşıb. O, zamana uyğunlaşıb, dəyişməyib. Asif Atanın Ocağı insanı dəyişir. Özüylədöyüş ideyasının yönü odur, insan özünü dəyişsin, uyğunlaşmasın. İçində naqis duyğuları öldürürsən, xalis duyğuları becərirsən. Xalis duyğuların böyüdükcə için yetişir, yetkinləşir, ayrı bir insan əmələ gəlir. Var uyğunlaşan insan, var yeni insan. Asif Ata Yeni İnsan yaradır. Onun özüylədöyüş ideyasının canı budur. Mən bunları ideya kimi demirəm, öz yaşantılarım kimi deyirəm.

Asif Atanın dediyinin insani, milli məktəb olduğunu anlamalıdır insanlar. Onlara demək gərək, heç zaman kimisə, nəyisə bizdən qorumağa çalışmayın. Bizdən ancaq öyrənməyə çalışın. Biz heç bir vaxt xeyirin ayağının altını eşmirik. Biz xeyrin ayağının altına çiynimizi veririk. ...Bu gün Azərbaycan toplumunda İmam Hüseyinə yas keçirirlər. Bu yastutma iki ay davam edəcək. Ancaq həmin bu azərbaycanlılar Babəki "Babok" deyə pakistanlı, özünü də kafir elan eləyirlər. Budur, azərbaycanlılar Azərbaycana gərək olan dəyərlərin

ayağının altından zəmini götürüb dəyərlərimizi yıxırlar, İmam Hüseyin üçünsə başlarını yarırlar. Ona görə Asif Atanı ciddi öyrətmək gərəkdir.

Sonuncu bir qonu, qısa deyəcəm. Atanın ideyalarının doğruluğuna ümid, inam məsələsi. Azərbaycanda, ya da dünyada bədbin olmayan az-az adamlara rast gələrsən. Nikbin adamın nikbinliyi də başqa şeylə bağlıdır. Mən bədbinlik, ya da nikbinlik məsələsini həmin bu özül prinsipə yönəlik deyirəm, dünyayla bağlı, varlıqla bağlı bədbinlik, ya da nikbinlik məsələsi. Mən böyük məsələlərdə bədbin olmayan adama rast gəlməmişəm. Səbəbi nədir onların bədbinliyinin?! Hər kəs deyir, bu gün həyatımızı təlatümə gətirən gediş "Qiyamət Günü"nün yaxınlaşdığını göstərir. Hər kəs deyir, əşi, onsuz da bu dünya düzələn deyil. Üzü dağılmağa gedir. Bu dini xətt. İkinci, dini olmayan xətt. İnsanın dəyişib başqa xilqət olacağına inanmırlar. İnanmırlar, insanın əlindən, nəfəsindən böyük quruculuq doğa bilər, dünyanın nizamı dəyişə bilər. Buna görə də hər kəs bədbindir, bədbin də danışır. Mən nikbinəm. Niyə?! Var xeyir, var şər. Bu günlərdə yenə mən bunu düşünmüşəm. Dində deyilir, qəza da, qədər də, xeyir də, şər də Allahdandır. Mən özüm də elə bilirdim, şər də böyük Mənanın təzahürüdür. Olaydır. Olay mənadan gəlir. Sonra Mənadan ayrılır. Ancaq son vaxtlar bu düşüncəyə gəldim, Şər Allahdan deyil, yəni Mənadan deyil.

Xeyir yoxdur nə deməkdir?! Yəni Məna xeyir biçimində təzahür eləmir, şər biçimində təzahür eləyir?! Xeyir yoxdursa, şər varsa, deməli, Mənadan xeyir deyil, şər təzahür eləyir. Belə çıxır?! – Çıxmır. Məsələn, varlığın mayasında xeyir var, şər yoxdur. Əgər varlığın mayasında şər olsaydı, nə kainat olardı, nə həyat, nə dünya. Çünkü şər öldürməyə, uçurmağa, dağıtmağa, yəni aqressiyaya meyillidir. Xeyir dirçəlişə, gəlişməyə meyillidir. Varlığın mayasında daim inkişaf var. Şər olaylarda var, gedişdə var. Biz ağac əkirik. Bu ağacı bitirmək üçün toxum əkirik. O da bir gündə bitmir, aşama-aşama bitir. Xeyir inkişaf aşamalarıdır. Əgər əmələ gəlirsə, deməli, bu xeyirdir. İnkişafda xeyir olar, şər olsa, bitməz. Şər hər şeyi məhv eləyir. Ona görə mayada şər yoxdur. Balaca bir gül bitirirəm. Bu gülün bitməsi üçün nə qədər vaxt gərəkdir. Ancaq bu gülü məhv eləməyə o qədər vaxt gərək deyil.

Bir sözlə, Şər olaylarda var, gerçəklikdə var, gedişdə var. Şər böyümədə yoxdur. Deməli, varlığın mayasında şər yoxdur, xeyir var. Şər olsa həyat olmaz. Bax, Asif Atanın "Dünyanın Mənası Dünyadan Artıqdır" məsələsinə gəlib çıxırıq yenə. Mənim nikbinliyimin əsasında bu durur. Şər deyə bir şeyin əbədi qələbəsi yoxdur. İnsan ondan çıxa bilər. Dünya ondan çıxa bilər. Çünkü o mayadan gəlmir. Gerçəklikdə onun qabağını kəs, o yoxdur. Bu, Asif Ata ideyasının verdiyi böyük nikbinlikdir.

İndi qayıdıram Atanın ideyalarının doğruluğuna inam məsələsinə. Mən burada Atanın ideyalarına inandım. Sual verə bilərsiniz, indiyə kimi hansı duyğular bəsləyirdin?! Bilmirəm, o ümid idimi, inam idimi?! Ancaq mən bu düşüncəyə varandan sonra gördüm inanıram. Çünkü nikbinlik verir mənə. İnamımın özülünə Nikbinlik qoyur. Nikbinlik olan yerdə heç vaxt inamsızlıq ola bilməz. Çünkü zəmin var. Ümid odur, havadan asılmışam, kimsə gəlib məni burdan qurtara bilər, uçuruma düşüb ölməyəcəm. İnam isə odur, ayağımın altında zəmin var. Uçurum yoxdur altımda. İnam odur. Ümid doğrula da bilər, doğrulmaya da. İnam isə bitir...

Yaşasın Ata!

## İnam Evi Günü

*(13 Yağış Ayı, 36-cı il)*

Qutsal Gün`ümüzdə söz deməzdən öncə Ataya səcdə qılıram.

Öncə Gün`ümüzün məzmunu ilə bağlı bir neçə söz deyəcəm. Onu deyim, Gün`ümüz iki bölümdən olacaq. Birinci bölümdə konkret olaraq qonuyla bağlı baxış sərgilənir. İkinci bölümdə Atanın Amalı ilə bağlı bizə suallar ola bilər, eləcə də fərqli açıdan yanaşanların baxışları dinlənilə bilər. Onu deyim, bizim tədbirdə nə dini anlamda gözünü yumub "bəli-baş üstə" (ləbbeykçilik) yaratmaq olmaz. Yəni hər kəsin ağzından, şüurundan vurmaq olmaz, belə düşün, belə de. Nə də demokratiya hay-həşiri yaratmaq olmaz. Demokratiya həşirində belə bir hal var: insanların ağlına yeridirlər, hər kəsin söz deməyə haqqı var. Söz deməyə haqqı var, o demək deyil, o nə gəldi

danışa bilər. Nə gəldi danışmaq olmaz! Sözün sorumluluğu olmalıdır, sözü tanıyan danışmalıdır. Əgər sözü tanımırsansa, heç danışmağa gərək görmürəm. Yəni elə adamlar var, tədbiri süni şəkildə başqa yönə çəkməyə meyilli olurlar. Guya bununla da demokratiya təmin olunur. Hay-həşir, replika, yerdən söz atmaq. Artıq 36-cı ildir, Ocaq yaranıb, yol gedir, bu qədər vaxtda Asif Atanın Ocağında elə hallar baş verməyib.

Biz, konkret olaraq "İnam Evi Günü" ilə bağlı düşüncələrimizi bölüşəcəyik. "İnam Evi Günü" Asif Ata Ocağının keçirdiyi tədbirlərdən biridir. Bizim mərasimlərimiz olur. Bu mərasimlərə yalnız Ocaq Evladları qatılır. Başqa tədbirlərimizə qıraq adamlar da qatılırlar. Sonra, Ocaq bayramları həyata keçiririk. Bunların hamısı Ocağı həm yaşatmaq üçündür, həm də Ocaq prinsiplərinin insanların ağlına çatdırılması üsuludur.

Bugünkü "İnam Evi Günü"müz nəylə bağlıdır?! Bu mərasim-törəni biz Asif Atanın ölümündən sonra gerçəkləşdirdik. Asif Atanın sağlığında, önərmişdim, Atanın gəzintisiylə bağlı Törən keçirək. Dərin anlamlı gəzintilər olurdu. Məktəb idi. Yəni bu gəzintilər elə-belə fakt deyildi. Bəzən maqnitafonla söhbəti yazırdıq. Həmin törəni Yağış Ayının 13-ünə düşünmüşdük. İş elə oldu, gecikdi, alınmadı, Ata öldü. Biz 27-ci ildə, Yagış Ayının 13-ünü "İnam Evi Günü" kimi gerçəkləşdirdik.

Bizim, Ocaq olaraq, ünvanımız yoxdur. Yəni başqa dünyabaxışlarda olduğu kimi, özünəxas memarlıqla tikilmiş ünvanımız yoxdur. Ayrı-ayrı ünvanlarda, öz evlərimizdə tədbirlər keçirmişik. Mən Ocağa gələndən sonra, Asif Atanın sağlığında da, kirayə qaldığım evlərdə keçirirdik mərasimləri. Hər kəs bilir, ünvansız addım atmaq, qurum olmaq olduqca çətindir. Asif Atanın Mütləqə İnam Dünyabaxışı bir ideya, bir hərəkat olsa da, həm də bir qurumdur. Hərəkatı həyata keçirən qurum olur, bu qurumun da konkret ünvanı olmalıdır. Doğrudur, evlərimiz həmişə Ocağın ixtiyarında olub, ancaq bunlar, həm də, bizim evlərimizdir. İndi toplaşdığımız ünvan Ulusəs bacımızındır. Neçə ildir, buranı, Ocaq tədbirlərini həyata keçirmək üçün, bizə ayırıb. Biz də bu ünvanı uğurla qullanırıq. Ocağın tədbirlərini keçiririk, sözünü deyirik. Çoxsaylı fərdi görüşlərimiz olur.

Asif Ata illər öncə belə bir işə başlyıb. Bu iş sıradan bir iş deyil. Bu iş bir millətin, konkret türk etnosunun özünü tapa bilmədiyi, özünün dünyagörüşünə yiyə çıxa bilmədiyi yüzilləri, necə deyərlər, bir sistem halına gətirmək məqsədi güdür. Əgər millət, konkret olaraq dil, aqibət, tarix birliyidirsə, bunların özülündə dünyabaxış birliyi dayanır. Çünkü dünyabaxış millətin ruhunu oluşdurur. Mədəniyyət-filan öz yerində. Mədəniyyətlər ciddi işlər görür, sözümüz yox. Ancaq dünyabaxışı əvəz eləmir. Bir fakt deyim. Bilirsiniz, İsanın haqqında nə qədər rəsm əsərləri yarandı. Heykəltaraşlar ilahi bir səviyyəyə qaldırdılar onu. Poeziya da onu göylərə qaldırdı. Elə bir hal yaratdılar, İsanın baxışını anlayan, anlamayan adam üçün O, müqəddəs bir varlığa çevrildi. Bu günə qədər də toplum ona müqəddəs varlıq kimi yanaşır. Bu bir mədəniyyət idi. Ancaq bu mədəniyyət dünyabaxışın özündən qabağa keçdi. Mədəniyyətin özü göründü, qulluq göstərdiyi olay görünmədi, bilinmədi, dərk olunmadı. Mədəniyyət ruhaniyyatdan qabağa keçməməlidir. Mədəniyyətin ruhaniyyatdan qabağa keçməməsi üçün ruhaniyyat məzmunca, ideyaca doğru olmalıdır. Özül prinsiplərində yalan olmamalıdır. Asif Ata o baxımdan dedi, bəşəriyyət bu vaxta qədər yaratdığı inanclarda, dinlərdə, dünyabaxışlarda yanıldı. Özülündə yanıldı. Əsas məsələ ideyalardadır, adamların yanlış davranmalarında, yanlış düşüncələrində deyil. İdeya doğru olarsa, adamların davranışları da doğrular. Bizə sırınan dünyabaxışların özülündə yalan durur. Ona görə mədəniyyətlər gəlişsə də, ruhaniyyat insanı bir yana çıxara bilmədi. Bu gün də hər birimizin izlədiyimiz, gördüyümüz olaylar (İngilis vəhabiliyi, Amerika nurçuluğu, İran şiyəliyi b.k.) bunu sübut edir. Azərbaycan toplumu üçün məbəd bir məna daşıyır, xristian toplumu üçün başqa məna daşıyır. İstər kilsə olsun, istər məscid olsun, istər sinaqoq olsun, padoqa olsun, nə olur olsun, insanların birgə ümid axtardığı ünvan, sonsuzluğu dərk eləmək istədiyi bir ünvan, əbədiliyə, ölməzliyə üz tutduğu bir ünvan böyük mənada Məbəd adlanır. Məbəd ciddi məsələdir. Ancaq məbəd də sadəcə dörd divar deyil. Məbəddə insan oturur, bu insan məbəddə öyrətmənlik eləyir. Söz deyir, yol göstərir. Ona görə də onun dediyi söz çox önəmlidir. Yəni Məbəddə nə deyilir, nəyə qulluq göstərilir, bu önəmli məsələdir. Biz

hesab eləyirik, insana, insanın şüurunun inkişafına deyil, başqa məqsədlərə qulluq olunur. Baxmayaraq, yenə deyirəm, məbəd özəl məna daşıyır. Qədimdə, çoxlarınız bilirsiniz, tarixi faktlar var, ədəbiyatlarda da belə faktlar var. Ən ağır suç işləmiş adam canını qurtarmaq istəyəndə qaçıb məbəddə gizlənirdi. Məbədin içində ona heç nə eləmirdilər. Məbəd müqəddəs ünvandır. Orada insanı kəsmək olmaz, öldürmək olmaz, döymək olmaz. Onu məbəddən çıxarandan sonra tutublar, öldürüblər. Ancaq yenə deyirəm, məbədin içərisindəki söhbət həlledicidir. Ona görə biz deyirik, əgər məbədin içində oturan adam boşboğazlıq edərsə, söz yox, ora üz tutan toplumdan heç nə yaranmaz. İkinci, əgər o dörd divarın arasında öyrədilən, öyrənilən təlim özül prinsiplərində doğru olmazsa, yenə də ora üz tutan insanlar sonsuzluq, ölməzlik, əbədilik axtarışından, ümid tapıntısından məhrum olar. Bu gün bizim toplumumuz elə faciələri yaşayır. Məscidlər Azərbaycanda günbəgün artır. Məscidlərin içərisində gedən söhbətlərin heç birində bu millətə yarar söhbət yoxdur. Məscidlər bölünür: vəhhabi məscidi, şiə məscidi, nurçuların məscidi, daha kimlərin… Bunların hər birinin içərisində bizə yad olan siyasi, ideoloji məsələlər həllini tapır. Heç birində bu millətə, vətənə qulluq öyrədilmir. Milli şüur inkişaf eləmir. Bizi VII yüzilə çəkib aparırlar. Göz açmağa qoymurlar, millət öz içinin çağırışıyla tərəqqiyə qovuşsun. Buna isə "milləti düşünürəm" deyənlər etiraz eləmirlər. Mən bir aydın, vətəndaş, bu millətin övladı olaraq belə şeyləri görürəm, sözümü deyirəm, döyüşürəm. Ancaq toplum, çoxluq baxımından, bizi yalana – 7-ci yüzilə bağlayan təlimi məndən qoruyurlar. Yurdumuzda nə qədər məscid çoxalırsa, bir o qədər avara yığnağı da çoxalır. Zəhmətlə uğraşmırlar. Guya hamısı Allahın qarşısında mömin şəxsiyyət olmaq üçün ibadət edirlər, toplaşırlar məscidlərə. Toplumun içərisində başıpozuqluq artır, getdikcə bunun qarşısı alınmaz olur.

C.Məmmədquluzadə o qədər zəhmət çəkdi. Ancaq dinin başından bir tük düşmədi. Sabir ağladı, söydü, satiralar yazdı, dinin başından bir tük düşmədi. Onlardan öncəkilər çabalar göstərdilər. Ancaq yenə də istənilən sonuc yoxdur...

Azərbaycanda deyirlər (Türkiyədə də belə istəklər var), Türk İslamı yaratmaq gərəkdir. Mən buna yönəlik yazılar yazmışam. Türk islamı yaratmaq cəfəngiyyatdır, olumsuzdur. Bunu dərindən anlamaq gərəkdir. İslam dünyabaxışının prinsipləri türk ruhuna, kimliyinə uyğun deyil. Sən ondan necə türk yaradacaqsan?! Baxın 9-cu yüzilə, X yüzilə, XI, XIV yüzillərə, görün onun yönünü dəyişmək istəyənlər neyləyə bildilər?! Hamısını edam elədilər, dərisini soydular, dara çəkdilər, daş-qalaq elədilər. Onlar çalışırdılar, insana yarar bir şey ortaya çıxartsınlar. Cəhaləti, heç olmazsa, səngitsinlər. Alınmadı. Çünkü özül prinsipə dəymirdilər onlar. Məsələni üzdən dəyişirdilər. Ona görə Asif Ata deyir, yeni, yalansız İnam yaranmalıdır...

Avropada Xristianlığın yaratdığı cəhalət, Doğuda İslamın yaratdığı cəhalətdən az deyil. Renessans dövründə elm ayağa durdu, inqilab elədi. Ancaq həyat düzəlmədi. Çünkü bəşəriyyət ruhaniyyatsız yaşaya bilməz. Ancaq gərək ruhaniyyatda yalan olmasın. Gərək ruhaniyyatda insançılıq ana xəttə çevrilsin. Asif Ata ona görə İnsanlaşma çağırışını gündəliyə gətirdi – "İnsanlaşın, İnsanlaşdırın!".

Nə qədər ki, insana inam yoxdur, insanın yüksək, uca mahiyəti dərk olunmur, nə istəyirsən de. Göyləri nə qədər öyürsən öy. Bu öygü mücərrəd göylərin, orada düşündüyün ilahi qüvvə üçün olur. Göylərin işığı yerə düşmür. Yerə gərək olmur. Yerin qaranlığı yarılmır, ancaq insandan qıraqda göylər müqəddəsləşdirilir. Bax, ona görə Asif Ata o işığı yerin özündə axtarıb deyir, yer – İnsanın özümləşməsindən işıqlanmalıdır. Bir az obrazlı desək, yerlə göyün anlam birliyi yaranmalıdır...

İnsan sevgisində yaşayar, ülvi təbəssümündə yaşayar, birinin əlindən tutmasında yaşayar, birinə qayğı göstərməsində yaşayar i.a. Bunu içiylə, ürəyiylə eləməsində yaşayar.

Dünyada ruhaniyyat adına yaranan olayların özü də insanların bir-birinə münasibətini aydınlaşdırmağa çalışıb. Yaxşı olmasını istəyib, ancaq insanın Allaha (əslində Mütləq olana) tən yaşamasına yardımçı olmayıb. Ona görə bu gün minlərlə insan namaz qılır, yanında durana isə üstdən-aşağı baxır. Onun içində hansı ağrı-acı var, bilmir, heç maraqlanmır da.

Soruşuram, niyə namaz qılırsan?! – Deyir, cənnətimi bulmaq üçün. Bu insandan nə gözləyirsən?! Bəs cənnət nədir?! – Cənnət guya əbədilik deməkdir. Cənnət əbədilik deyil. Cənnətdən əbədilik olmaz. Cənnət maddi nemətlər zənginliyidir. Maddi əbədilik olmur. İnsanı aldadırlar, cənnətdə sən əbədilik tapacaqsan. Orda əzab yoxdur, zəhmət yoxdur, orda soyuq yoxdur, isti yoxdur. Ancaq kef var. İnsanı hara çağırırsan?! Belə əbədilikmi olar?! Belə əbədiliyə xəyanət olar. Əbədilik insanın öz içində azadlığını tapmasıdır. İnsanın insana inanmasıdır, insanın insanı sevməsidir. İnsanın həyatı dərk eləməsidir. İnsanın millətə qovuşmasıdır, millətini yaratmasıdır. Millət sənin əbədiliyindir. Yaxşı-yaman nəyin var, millətdədir. Sən ölürsən, millət qalır, hər şeyin də onda qalır. Əbədiliyin odur, ölməzliyin odur. Fərd ölür, millət ölmür. Fərdin ölməzliyi millətdə özünü tapır.

Asif Atanın xətti – İnsançılıq, Millətçilik, Şərqilik, Bəşərilikdir. Millətçiliyi bu gün damğalayırlar, gözdən salırlar. Millətçiliyə başqa don geydirirlər, başqa məna verirlər. Ancaq millətçilik millətin varlığını saxlamaqdır. Millətin varlığını saxlamaq üçün də dəyərlərini yaratmaq, yaşatmaq gərəkdir. Millətin dəyərlərini yaradırsan, onu yaşadırsan, inkişaf etdirirsən, sənin millətin tərəqqidə öz yerini tapır. Millətçilik başqa millətlərin basıb gözünü çıxarmaq deyil. Biz bunu dönə-dönə demişik. Başqa toplumun mədəniyyətini danmaq, başqa toplumların yerini dar eləmək deyil. Ona görə Asif Ata bu işi başladı. O dedi: Yeni İnam gərəkdir, bu inamda yalan olmamalıdır. Bu inamda bilimlə ruhani idrak birləşməlidir. Sözün doğru anlamında insan üçün həyatın gözəlliklərini göstərən, dərk elədən işığa çevrilməlidir. Bunun üçün varlığa doğru münasibət yaratmalıyıq. Çoxları düşünürdü, Asif Ata da milli din yaratmaq istəyir. Elə deyil! Asif Atanın yaratdığı Mütləqə İnam bəşəridir. Milli prinsipləri İnamın içində var, bu ayrı. Ancaq Asif Atanın yaratdığı bəşəridir. “Dünyanın Mənası Dünyadan artıqdır”. Məgər təkcə türkə özgündür bu ideya?! Dünya özünün əzəli, əbədi, sonsuz, kamil mənasından yaranıb. Ya da insan əzəli, əbədi, sonsuz, kamil İnsanlıq mahiyətindən yaranıb. Bu təkcə türkə özgün deyil. Bu ideyanın özülündə türkün özünəxaslıqları da öz yerini tapır. Eləcə də bu həqiqətin içində rus xalqının

özəllikləri öz əksini tapır. Fransız xalqının özəllikləri öz əkisni tapır. Heç kimin milli, etnik kimliyi danılmır. Ancaq başqa dünyabaxışlarda bizim milli etnik kimliyimiz danıldı. Bir vaxtlar xristianlıqda milli etnik kimliyimiz danıldı. İslam gəldi, ərəbçiliyi yeritdilər, etnik kimliyimizə soxuldular. Dilimizi, şüurumuzu pozuntulara uğratdılar. Adımız, atamızın adı, soyadımız hamısı dəyişdi. Ona görə din bəşəri deyil. Bəşəri olan başqa xalqları vurub sıradan çıxartmır. Onu kor qoymur. Onun özəlliklərini ortadan qaldırıb məhv eləmir. Bəşər elə bir çəməndir, o çəməndə hər bir gülün öz ətri olur. Hər bir gülün öz ətrinin bilinməsi, duyulması üçün ortaya gələn böyük bir dünyabaxışdır Mütləqə İnam. Ona görə də Asif Atanın dünyabaxışı bəşəridir, ancaq bir millətdən başlayır. Biz bir kitab hazırlamışıq – "Türkdən başlayan Yeni Bəşər İnamı". Bu, türkdən başlayır. Biz türkçüyük. Bunu açıq şəkildə də deyirik. Ancaq Türkçülüyümüzü heç bir xalqa qarşı qoymuruq. Deyirik, İnam türkdən başlayır. Asif Ata Bəşəri olsa da, bir millətə xasdır. Onun İnamı mücərrəd havadan başlamır. Bu gün də biz Asif Atanın yaratdığı Mütləqə İnam dünyabaxışının Evinə toplanmışıq. Bu ünvanda hər birimiz Asif Atanın ruhani məktəbindən yararlanırıq. Asif Ata böyük bir məktəbdir, böyük bir sistemdir. Millət sistemidir, bəşər sistemidir. Biz bunu gücümüz çatdıqca sübut edirik, əsaslandırırıq, yazırıq. Bu məktəbin ünvanı İnam Evidir. "İnam Evi Günü"müz qutlu olsun. Sizin hər birinizi bu gün münasibətiylə həm qutlayıram, həm də hər birinizə xoş gəlmisiniz deyirəm. Biz bir yerdə millətin içində başlayan insani bir olayı vurğu edirik. Asif Ataya yardımçı oluruq. Kimin hansı mövqeni daşımasından asılı olmayaraq, harda işləməsindən asılı olmayaraq, mən düşünürəm, hər kəsin içində Asif Atanın işinə yardım eləmək havası olmalıdır. Çünkü Asif Ata bizi Millət eləmək, İnsani kimliyimizi dərk eləmək üçün ortaya çıxıb.

Atamızın Bayrağını öpürəm!

## Atagün Ailə Günü

*(23 Yağış Ayı, İnam Günü, 36-cı il)*

23 Yağış Ayı, 36-cı ilimizdə Atagün Ailəsinin 8-ci aylıq mərasimində söz demək üçün Ataya səcdə qılıb Bayrağımızı öpürəm.

Mən də sözümə Amallaşmadan başlayıram. Amallaşmamın önəmli bir cəhəti var: Həm kitabdan, həm düşüncələrimdən, həm gördüklərimdən, həm Atanın özündən, bir sözlə, hər bir şeydən Atanı öyrənirəm. Baxışlarımı çəkən olaylar olur, elə məqamlar olur, məni Atanın insan haqqında, dünya haqqında dediyi düşüncələrə aparıb çıxarır. Mən o düşüncələrdə Atanın mənalandırdığı prinsiplərlə daha da möhkəmlənirəm. Hər zaman mənim varlığımda bu özünü göstərir. Bildiyiniz kimi, mənim özümə suallar dəftərim var. Bəşər tarixində bəlkə də birinci adamam, "özünə suallar gündəliyim" var. Mən bunu fərqlənmək üçün, orijinallıq üçün eləməmişəm. Mənim içimdən keçib ki, bu suallar itməsin.

Son suallardan biri də insana münasibət məsələsidir. Yəni insana sevgi, səcdə. Ataya münasibətimiz səcdəli münasibətdir. Sevdalı münasibətdən daha yüksəkdir. Sevgili münasibət nədir, səcdəli münasibət nə?! Niyə biz Ataya səcdəli münasibət bəsləyirik?! Sevgi azdırmı?! İçimizdə bu sualların mənasına vardıqca ərdəmliyimiz ölçüyə çevriləcək.

Bir insan gözümüzün qabağında özünü yaxşı aparar. Ayrı-ayrı hallarda əlimizdən tutar, yaxşı işlər görər. Bizim ona münasibətimiz getdikcə sayğıdan artıq olar, sevgi yaranar içimizdə. Sonra, körpə uşağı çox sevirik, bağrımıza basırıq. Niyə?! Körpə uşaq safdır, arıdır, durudur. Qüsurlara bulaşmayıb, eybəcərliklərlə yarışmayıb. Ona görə də onun məsumluğu, arılığı içimizdə duyğu yaradır, sevgimizə girir. Sevgimizlə onu əzizləyirik, bağrımıza basırıq. Elə gözəl münasibətimiz yaranır, sevgimizin özü çox yüksək səviyyədə olur. Ancaq deyə bilmərik, o sevgi səcdədir. Yüksək bir sevgidir, bəlkə də heç ifadəyə gəlməyəcək dərəcədə gözəldir.

Bir də var səcdə. Səcdə kimə olur?! – Səcdə körpə uşağa olmur. Səcdə yetkin, idraklı, yüksək mənəviyyatlı, qurucu insana olur. Çünkü o insan körpə deyil, deyəsən bu insan həmişə arı-duru olub.

O, yaşadığı ömür yolunda bütün çirkabların içindən arınıb çıxıb. O, böyüdükcə, yaşa dolduqca həyatın hər bir üzüylə qarşılaşıb, görüşüb. Hər bir eybəcərliklə görüşüb, onlardan heç birini götürməyib. Öz ömrünü arı, duru saxlayıb, ya da ömrünü arılaşdırıb. Onun düşüncəsi, yol göstərməsi, müdrikliyi – hər şeyi bizim izləmələrimizdə, ağlımızda, içimizdə etkiyə çevrilir, davamlı olaraq heyrət yaradır, ülviyyət yaradır, gözəllik yaradır. Gözəlliyə yönəldir, heyrəti tanıdır, böyüklüyü tanıdır, bunları bizim içimizdə əkir. Biz ona münasibət sunarkən sevgidən daha dərin hala yetirik. Bilmirsən ona münasibətini necə ifadə eləyəsən. Sevgi özündən yüksəyə qalxır. Ona görə şəxsiyyətin əlini öpürük. Səcdə yaranır. Davamlı şəkildə bizə ülviyyəti göstərən, tanıdan, içimizi saflıqla dolduran, heyrətlə dolduran, gözəlliklərə münasibətlə dolduran bir şəxsiyyət ömrümüzə, mənəviyyatımıza işıq salır. Bax, bu, insana münasibət məsələsidir. Bu, əslində Asif Atanın "İnsanlaşın – İnsanlaşdırın!" harayının təsdiqidir.

Bir haşiyə çıxım. Mənim barmaq sayda Amaldaşlarım var. Onları sevirəm. Onların qüsurlarına heç bir vaxt yapışmaq meylim olmayıb. İnsana baxanda, ilk gördüyüm – pis şey olmur, yaxşı şey olur. Çalışıram, ilk baxdığımda pis şeyi görməyim, həmişə yaxşı şeyi görüm. İlk baxdığımda pisə baxsam, onda mənim ona münasibətim yaranmayacaq, sevgim cücərməyəcək. Söz yox, yaxşını görməklə yanaşı yüksək səviyyəyə heyrətlənmək gücü də olmalıdır insanda.

Fərd heyrətlənə bilməyəndə asan davranır, asan danışır. Heyrətlənə biləndə dili topuq çalar. Sənə heyrətlənim, sənin haqqında nə gəldi danışım, olası deyil. Ocaqçının birinci işığı heyrətdir. Yeri gəlmişkən, ona görə Nurtəkinin kitabının adını "Heyrətimin inciləri" qoyduq.

Ocaqçı olaraq hər kəs bilməlidir, dərk eləməlidir, bizim işimizin yönü, çağırışımız, harayımız "İnsanlaşın – İnsanlaşdırın!" ideyasına bağlıdır. Bu ideya bizim insana münasibətimizi oluşdurur. İnsana doğru münasibətin yoxdursa, Ocaq yoxdur, daha doğrusu, Ocaq deyilsən. Çünkü sənin qarşına məqsəd qoyulub – İnsanlaşıb İnsanlaşdırmalısan. Din deyir, bəndələş – Allahlaşdır. Onu da eləyəndə kölələşirsən. Asif Ata deyir, İnsanlaşın – İnsanlaşdırın. Asif Atanın

dediyi odur, İnsana münasibətin əyri ola bilməz. Əgər əyri olacaqsa, onda Ocaq yoxdur, Ocaq baş tutmaz.

Əgər dinin prinspi insanı bəndə eləyə bilməsəydi, onu Allaha aşağıdan yuxarı buzov heyrətiylə heyrətləndirməsəydi, din olmazdı. Din elə ondan oluşur. Asif Atanın baxışı isə, dediyimiz kimi, “İnsanlaşın-İnsanlaşdırın”dır. Ona görə sənin bütün düşüncən İnsana münasibət üzərində olmalıdır. İnsana münasibət özünə münasibəti ifadə eləyir. Bax, bu dediklərim, əslində mənim “İnsanlaşın-İnsanlaşdırın” ideyası üzərində düşündüyüm bir məqamdır.

Sonra, mənim yetdiyim bir düşüncə olub, “İnsanlaşın – İnsanlaşdırın!” ideyamızın, çağırışımızın anlamı ilə bağlı. Ailə övlad gətirir dünyaya, onu tərbiyə edib böyüdür, xalqa verir, belə deyək. Ancaq bu ailə nədir, böyütdüyü nədir, yəni xalqa verdiyi nədir, ya da kimdir?! Bunu araşdırırsan, öyrənirsən, ailə xalqa nə verib, kimi verib?! Xalqa şəxsiyyətmi verib, yağımı?! Xalqa şəxsiyyəti vermək üçün ailə qurulmalı, mənasına bənzər olmalıdır. Ailədə övlad nədən doğulub, nədən böyüyüb, bu sual ciddi önəm daşıyır. Asif Atanın istəyi də odur, “İnsanlaşın – İnsanlaşdırın!” çağırışının canı da odur. Ailə sevgi ilə qurulmalıdır deyir Ata. Sevgi ilə qurulmayıbsa, ailə deyil. Deməli, dünyaya gələn övlad sevgidənmi doğulub, cinsiyyət istəyinin ödənilməsindənmi?! Sevgidən doğulan övladı sevgi böyüdür. Atanın anaya, ananın ataya məhəbbəti böyüdür, tərbiyə verir.

Bir də, ailədə həyata münasibət məsələsi də böyütdüyünün həyatında, kimliyində rol oynayır. Ailənin işi, heç kimdən geri qalmamaq üçün, maddiyyat dalınca yortmaqdırsa, doğub dünyaya gətirdiyi uşağı xalqdan, düşüncədən, sevgidən, göylərə baxmaqdan – hər şeydən məhrum eləyir. Hər şeydən məhrum elədiyin övlad necə xalq ola bilər?! Yenə gəlib çıxıram “İnsanlaşın – İnsanlaşdırın” məsələsinə. Ailə sevgi ilə qurulmalıdır, onda bir-birinə sevgi bəsləyənlərin övladı xalqın övladı olur.

Ona görə Asif Ata bu axına qarşı çıxıb dedi: “İnsanlaşın – İnsanlaşdırın. Bəşərin qurtuluşu İnsanlaşmaqdadır”...

İkinci, Kamilləşmə məsələsiylə bağlı bir neçə söz demək istəyirəm. Mənim ən çox özümə baxdığım, özümü gördüyüm, rahatsız

olduğum mühit iş mühitimdir. Bu mühiti elədir, bağlı oluram, bəlli bir sorumluluq daşıyıram. Mənim qırağa çıxmalarım orda ola bilər. Başqa yerdə qırağa çıxmalarım, demək olar, olmur. İş yerimdə qırağa çıxmalarım nə olur? Bəzən işə münasibətim qabarır, insanlara münasibətim hardasa kölgələnir. Bəzən yanaşmalarım kobudlaşır. Bu, mənim yaşadığım bir ağrıdır. Enirəm, enəndə də gərginləşirəm. Pərtlik gətirir içimə. Mənim qarşımda qoyduğum böyük tələb var. Bu tələbə o məqamlarda cavab verə bilmirəm, onda yenidən yeni bir qüsura enirəm. O qüsuru da o anda halımda tez həll eləyə bilmirəm. Deyəsən, buna yol verməyim əsəblərimi çox yükləməyimlə bağlıdır. Ancaq əsəblərimi yükləməyim qaçılmazdır, çünkü həm işlərim çoxdur, həm də, mən iş görəndə yox, iş görməyəndə pis oluram. İş görməyəndə əsəbləşirəm. Tədbiri işləyirəm, onu qurtarandan sonra fərəhlənirəm. Qurtarandan sonra o biri işi götürürəm. Bax belə bir hal yaranıb məndə. Pisdir, yaxşıdır, məsələnin o çalarını vurğulamıram. Atanın "İnsanlaşın – İnsanlaşdırın!" harayı var. O harayın nə demək olduğunu, mahiyətini dərk elədiyim üçün bu çağırışa, az da olsa, xələl gətirəndə, dediyim kimi, qatıb-qarışdırır içimi, gərginləşdirir, pis etkiləyir. Ancaq məni tükənməyən sevinc, fərəh qoruyur sanki. Bu da Ruhani işimin çoxluğuyla bağlıdır. Elə bil içimdə sevinc dalğaları yaranıb, istəmirəm o dalğa qırılsın. Ona görə işi işin dalınca düzürəm, buna sevə-sevə gedirəm. Sevinc içimi elə gözəl cilalayır, bəzən deyirəm, o cür əhvalla adam 200 il yaşayar.

Hesabatın başqa bir tələbi xalqlaşma ilə bağlıdır. Mənim bu ay hələ də başa çatmayan işlərim çox olub. Xəzan Ayının (oktyabr) 30-u "Ailə Günü"nü, ayın 3-ü "Türkel Araşdırma Qurumu"nun tədbirini keçirdik. Yağış (noyabr) Ayının 5-i orta məktəbdə böyük bir görüş keçirdim. Ayın 7-si Atanın çap elədiyimiz kitablarının hamısından kitab evlərinə bağışladım, satışa da qoydum. Ayın 12-si bir neçə adamla görüşüm oldu, 13-ü "İnam Evi Günü" Törənimiz oldu. 16-sı yenə bireysəl görüşlərim oldu. 20-si məktəbdə böyük bir görüş keçirdim. 23-ü bura gəldim, 26-sı məktəbdə görüşüm olacaq, 27-si "Uluyol-Hünər" Ailəsi ilə "Ulufərəh" Ailəsinin birgə "Ailə Günü" tədbiri olacaq. Bu tədbirlərin hamısına qatılmışam, hamısını işləmişəm, yayına (mətbuata) vermişəm, kitabları işləmişəm, tədbirlərlə

bağlı "bilgi yazıları" yazmışam. Bu işlərin hamısı ömrümdə sevinc dalğaları yaradır. Mənə zəng eləyib kimsə soruşanda necəsən, ancaq yüksək halda olduğumu deyirəm. Mən bu qədər işlər görürəm, özümü o qədər zəngin ruhani işlərlə yükləyirəm, səhv eləməyə vaxtım yoxdur. Heç səhv haqqında düşünməyə belə vaxtım yoxdur.

Mənim Xalqlaşma işim Amallaşma işimlə bağlı olaraq çox zəngindir.

Amallaşmanın məzmunu ilə bağlı bir neçə söz də deyim. Ocaqçılarımız bəzən hesabat verib deyirlər, mənim bu ay Xalqlaşma işim olmayıb. Bu o deməkdir, Amaldaşımız Xalqlaşmanı yalnız kimlərləsə ünsiyyətdə görür. Günev deyir, elə mən də elə bilirəm. Qardaş, Məbədin divarına beş dənə daş qoyursan. O, xalqlaşma işidir. Mən Türkel Araşdırma Qurumunun tədbirini redaktə eləyirəm. O, Xalqlaşma işidir. Xalqa sunuram Atanın ölçüsündə deyilən düşüncələri. "Ailə Günü" tədbirini səsdən sözə çevirirsən, o xalqlaşma işidir. Mən redaktə eləyirəm, o xalqlaşma işidir. Hər şeyi toplumun baxışına göndərirsən, 4 divarın içindən çölə göndərirsən, o, xalqlaşma işidir, xalqyaratma əməlidir. Ruhani işlərin hər biri həm Amallaşmadır, həm Xalqlaşma, həm də Kamilləşmə. O ki qaldı, konkret olaraq, Amal "xurcununu" götürüb gedirsən səfərlərə, bu, birbaşa xalqlaşmadır. Bir də var, bu işləri görürsən, Atanın sözünü yazırsan, öyrənirsən, aydınlaşdırırsan, bunu mətbuata çıxardırsan, sabaha sunursan. Bu, Xalqlaşmanın sabaha getməsidir. Yəni Xalqlaşma bu gün də baş verə bilər, sabah da. Sənin Xalqlaşman həm bu gündə var, həm sabahda. Sən bu əməllərinlə özündən sonra da xalqlaşacaqsan. Bu işlərin hamısı elə Asif Atanın xalqlaşmasıdır. Sənin Fizuli bölgəsinə gedib apardığın söhbət Asif Atanın xalqlaşmasıdır. Səni yaradıb, böyüdüb ortaya çıxarıb, indi sənin, mənim araçılığımızla xalqlaşır. Bizim bugünkü tədbirimiz həm Amallaşmadır, həm Kamilləşmədir, həm Xalqlaşmadır. Ailə kitabı yaranacaq, törən səsdən sözə çevriləcək. Bu tədbir xalqa söz deyəcək. Saytımızın "Ailə kitabı" odası var, ayrıca. Bunların hamısı kitab şəklində qoyulur ora.

Özümüzə nəyi aydın eləyiriksə, onu sabahkı üçün də aydın eləyirik. Yenə vurğu eləyirəm, bizim hər bir əməyimiz, işimiz, davranışımız, dediyimiz söz, düşüncə – bizi sabah davam edəcək

insanlar üçün məktəbdir. Necə ki, Asif Atanın nəyi varsa, bizim üçün məktəbdir. Bizdən sonrakı üçün də məktəbdir. Eyni halda bizim özümüzün hər bir işimiz bizdən sonrakılar üçün məktəbdir. Davam eləyir, qırılmazlıq yaranır. Bir ömürdən başlayan, ömürlərdə ifadə olunan, qurulan, ömürlərə calanan böyük bir hərəkat, əməl. Ocaqçılıq budur.

Sonuncu qonumuzla bağlı deyim. "Sevgi rahatlığı itirməkdir, bəs azadlığı necə itirməkdirmi?". Sevgi, konkret olaraq, fərdə münasibət kimi olanda, deyək, bir oğlan bir qızı sevir, bir qız bir oğlanı. Sevgi vüsal çağırandır. Nə qədər ki, sevgi vüsalda sonuclanmayıb, o, fərdin rahatlığına qənim kəsilir. Fərdin rahatsızlığı o deməkdir, o, vüsal istəyir. Sevir bu kişini, bu qadını, qovuşmaq istəyir. Nə qədər ki, qovuşmayıb, həsrət var. Həmin həsrət onun içəridə rahatsızlığı deməkdir. Həsrət içəridə böyüyür, qovrulur, tələb eləyir, ehtiyac yaradır. Əli ələ çatdırmaq istəyir, üz-üzə oturtmaq istəyir, göz-gözə baxdırmaq istəyir, tellərini oxşatmaq istəyir i.a. Bu həsrət vüsalın yolunda sevgi üçün bir aşamadır. Ona görə rahatlığı pozur. Asif Atanın düşüncəsi var: "iki şəxs bir olanda sevgi təsdiq olunur". İki şəxsin bir olması o deməkdir, insan özünü başqasında tapır. Fərd özümləşir, özünün ülviyyətinə qovuşur, gözəlliklərinə qovuşur. Hər kəsdə özündəki gözəllikləri axtarır. Başqasında görəndə özünü onda tapır, görməyəndə özünü onda yaratmaq istəyir. Bax, özündəkini onda tapdığına görə sevir. Onu sevdiyinə görə, o münasibət özgür olur. Özgür, yəni özünə bağlı olur. Özünə dayaq olur, özünə yarar olur. Azadlığın adı odur. Ona görə insan azadlığı itirmir, tərsinə, tapır. İnsanın özgürlüyü (azadlığı) – içində ülviyyəti, gözəlliyi üzə çıxarmaq, onu başqasına vermək, ya da başqasında görməkdir. Özündəkiylə başqasının birliyindən (vəhdətindən) heyrətlənmək, fərəhlənmək, sevinmək, yaşamaq. Özgürlüyün adı budur. Bu, qovuşmadır. Bu onun özümlüyüdür. Başqasında özünü tapmaq, başqasıyla vəhdət, başqasını sevmək özümlüyüdür onun. Bəs özümlüyü olmayan kimdir? – Heyvani ömür yaşayan. Yəni həmin özününkü olan mahiyyətdən ayrılıb biologiyanın əsarətində, tələbində yaşayan. Biologiyanın tələbində yaşamaq əsarətdir. Mənasından ayrılıb özünə, Özümlüyünə özgün olmayan tələbdə yaşayır. Zindanda

yaşayır. Bu onun üçün əsarətdir, Azadlıq deyil. Azadlıq – bu əsarətdən çıxmaq, bu tələbdən ayrılıb Özümlüyünə üz tutmaq. Özümlük – başqasını sevə bilmək, görə bilmək, özünü başqasında tapmaq. Bu, böyük mənada gəlib çıxır əqidəyə. Biz adi həyat yaşayırıq. Hər bir doğulan adam gözünü açır, eyni şey görür. Qoyuna gedir, mal otarır, bir-birilə dalaşır, bu ondan oğurlayır, o bundan... Bunu görür hər bir fərd, bunu davam eləyir. Günlərin bir günü biri çağırıb deyir, bu bəsit həyatdır. Bundan daha yüksək yaşamaq olanağın var. Bunu anlayandan sonra o görür ki, bu vaxtacan üzləşdiyi nə varsa, uçurum imiş. Əqidə onun əlindən tutur, mənaya qovuşdurur. Özünəxaslığa, onu var eləyən yaşama tapşırır. O, əqidədə öz azadlığını tapır. Bu gün Amal bizim azadlığımızın adı, ünvanıdır. Həyat bizim özgələşməyimizin, Amal bizim özümləşməyimizin ünvanı olur. İnsanın özümləşməsi onun özgürlüyüdür (azadlığıdır). İnsanın həyatlaşması onun əsarətidir. Əslində ixtiyarını Amala vermək ixtiyarını öz əlinə almaqdır. İxtiyar, azadlıq məsələsi. İxtiyar odur, fərd hansı tələblə addım atır, nəyin tələbində çalışır (fəaliyyət göstərir). İxtiyarımı nəyə verirəmsə, o, tələb eləyir belə yaşa, belə davran. Azadlıq isə budur ki, ol! Yəni Azadlıq – olmaqdır, olursan. İxtiyar isə olmağa doğru çalışmaqdır.

***xxx***

Atanın bir düşüncəsinə aydınlıq gətirək.

Ata deyir, "xalqa yetməyən fərd fərdsizlikdir". Yəni fərdin aşkarladığı, yetdiyi, dərk elədiyi nəsnə xalqdan gəlir. Xalq adlanan bir toplumun min illərdir yaşatdığı, gətirdiyi gələnək var. Doğrudur, burada belə də deyə bilərik, Xalq fərddən götürür öz başlanğıcını, həm də xalq fərddə formalaşır. Fərd də xalqdan götürür. Bu xalqın içində deyək ki, Babəklik olanağı var. Bu olanağı fərd aşkarlayır. Yəni xalqdan gələn, əslində mənim içimdə olandır. Mən onu bilməyib sonevə (qəbirə) də apara bilərəm. Ancaq xalq mənə öyrədir, bir örnək göstərir, bir hikmət göstərir ki, bu var, sən də aşkarla. Mən məktəblərə gedəndə öyrəncilərə deyirəm, sizin içinizdə Babək var, aşkarlayın. Yəni görürəm, özümdən Babək qura bilərəm. Yenidən

aşkarlayıram özümü. Aşkarlayıram ki, xalqı yetirəm, deməli, xalq yenidən məndən başlayır, yenilənir məndə.

Sonra, bəzən Ocaqçı deyir, Atanın düşüncəsi mənə çatır, yəni sadədir, düşünürəm başqasına da asanlıqla çata bilər.

Əgər özünə çatanı sözlə ifadə eləyə bilmirsənsə, bu, çox düşündürücüdür. Başqasına deyə bilmirsənsə, demək hələ özünə də deməmisən. Özünə çatanı, gör aydınlaşdıra (şərh eləyə) bilirsənmi?! İşin çətini odur. Bir də görürsən, onun içindən elə sual ortaya çıxar, sənə tam aydın kimi görünə bilər. Ancaq soruşulsa, ifadə edə bilməzsən. Atanın hər bir düşüncəsi sadə, aydın göründüyü qədər, həm də mürəkkəbdir, çətindir. Onun arxasında yalnız oxuduğun məqam durmur. Onun arxasında ondan daha dərin məzmunlar dayanır. O məzmunları üzə çıxartmaq məsələsi var. Atanın dediyi hər bir sözə bizim qulağımız alışıb, qəlbimiz, sevgimiz alışıb. Ona görə bizə doğmadır. Ancaq ona, onu anlamaq istəyənlərin gözüylə də baxmağı bacarmaq gərəkdir.

İndi bir sıra başqa düşüncələrə də aydınlıq gətirmək istəyirəm. Ocaqçılar tədbirlərdə hesabat verirlər, onu elədim, bunu elədim deyə. Bu tədbirə ilk yol qatılan bir adam düşünər, 4-5 adam burda oturub niyə elə deyirlər, bununla dünya düzələrmi?" Ancaq insan öz halındakı yaşamıyla bərabər, bunları sözə çevirəndə aydın olur ki, burda deyilənlər nə üçündür. İndi nəinki Azərbaycanda, bütün dünyada toplumun düşüncələri bizim qayğılarımızdan fərqli xarakter daşıyır. Götürək Azərbaycan toplumumuzu. Hər kəs özünə bəlli olmayan bir "Gələcək" axtarır, "Gələcək" düşünür, istər fərdi olaraq, istər milli olaraq. Ancaq bu Gələcəyi kim verəcək?! Bu gələcək hansı özül üzərində qurulacaq?! Ona görə çox böyük bir çaşqınlıq var, bəlirlik (müəyyənlik) yoxdur. Azərbaycan toplumunun yaşlısından, cavanından soruşarsan, sənin istədiyin Gələcək nədir?! Söz yox, nələrsə deyərlər – istəyərik, ədalət olsun, yaxşı bir gediş olsun... Olsun, bəs kim oldursun, necə, nəyin əsasında oldursun?! Bu, prinsipial məsələdir.

Nə olsun, necə olsun, bunu Asif Ata öz dünyagörüşündə ortaya qoyub. Bu olmalını həyatımıza gətirmək üçün bu Ailə Günündə Ailənin bireyləri bir araya gəlir, 3-5 adam da qıraqdan çağırır,

gəlsinlər, qulaq assınlar, bunlar nə düşünür, necə düşünür, özlərini necə qururlar... Hər birey atdığı addımı doğru sayır. Doğru saymasa da, addımı atdığı üçün ona haqq axtarır, yəni özünə məntiq uydurur. Bir dəfə keçmiş bir Ocaqqçı mənim evimə bizneslə uğraşan adam gətirmişdi. Bu adam mənə deyir, sizin yazıdan oxudum, siz kapitalizmi pisləyirsiniz. O, mənə kapitalizmin "gözəlliklərindən" danışmağa başladı. Mən dedim, indi sənin özünə yarar əldə elədiyin bir qənaətin var. Bu qənaəti mənə sunmağa çalışırsan. Bəs yaxşı, səndən beş addım o yanda insanların necə düşündüyünü, necə yaşadığını düşünmüsənmi?! Deyir, onlardan mənə nə, onlar da getsin özləri düşünsün.

Mən həmişə yazıram, kapitalizm "bacarana baş qurban" prinsipidir. Kim harda bacarır, qamarlayır. Düşünən yoxdur, bu toplumun çolağı var, qocası var, yoxsulu var, az savadlısı var. Az savadlını acından öldürməlisən?" Kimin ağlı çoxdursa, zehni inkişaf eləyibsə, belə çıxır, o yaşamalıdır, o biriləri yaşamalı deyil?! Bu Nitşenin fəlsəfəsidir. Fövqəlinsan ideyası var Nitşenin. Üstün insan yox, İnsanüstü. Bir var sənin bireysəl keyfiyyətlərinin üstünlüyü, gözəlliyi, bir də var sənin başqası üzərində üstünlüyün. Söz yox, başqasından mənəvi üstünlüyə fövqəlinsan deməzlər. Mənəvi üstünlük gözəl bir şeydir. Nitşe deyir, insan aciz duruma düşərsə, o, yaşamaq haqqını itirir. Deməli, həm insanı aciz duruma sal, həm də ona yaşamaq haqqı tanıma. Gediş insanı aciz duruma salır, toplum insanı aciz duruma salır, dövlət insanı aciz duruma salır. Biz dövlətlə bağlı yüksək düşüncədəyik. Ancaq dövlətin başında duranlar var. İnsanı həyatın içindəcə çıxdanc edirlər. Həmən çıxdanc olan insanın qəlbində vətən sevgisi becərilməz. Həmən çıxdanc olan insanın qəlbində insan sevgisi becərilməz. Dəyərləri tanımaz, sevməz. O çıxdanc olan insanın həyat gözündən düşür. Həyat gözündən düşən insanın hər şey gözündən düşür. Ona görə bir var, özü üçün yaşayan, fövqəl olanaqlara can atan adamlar. Onlar harda əllərinə keçdi qamarlayıb yığırlar. Onlar üçün onsuz da vətən yoxdur, topladığı sərvət var. Onun beyni, düşüncəsi o topladığı sərvətlə uğraşır, Vətənlə uğraşmır. Bir var, bu tip insan, bir də var, çıxdanc olan insan. İki qütb yaranır – biri özü üçün yaşayan, biri isə aciz duruma düşən,

çıxdanc olan. Bunların hər ikisinin qəlbindən vətən duyğusu çıxdanc olur. Hər ikisinin içində millət duyğusu yoxdur. Gediş budur. Bütün bunları tarixin, bəşəriyyətin aşamalarında ayrı-ayrı dühalar görür, göstərir, insan hara gedir. Fəlakətlərin üzərində vurğu edir, bəlli anlamda ortaya qurtuluş yolunu da qoyur. Ancaq bu qurtuluş yolu özüldə bütöv İnsani xarakter daşımır. Ona görə bəşəriyyətin hər bir soyu, hər bir aşamada yenidən qurtuluş yolu axtarmalı olur. Bu da ona gətirib çıxarır, insan daim həyat uğrunda mübarizə aparır. Bizə görə həyat uğrunda mübarizə eləməzlər, Həqiqət uğrunda mübarizə edərlər. Həqiqət uğrunda mübarizə edərsən, onda həyat gözəl olar. Bu həqiqət nədir bəs?! Hər kəs özünün düşündüyünə, atdığı addıma həqiqət kimi baxır. Asif Ata deyir, ağlına ilk gələnə həqiqət demə. Həqiqət insan qəlbinin bütün dərinliklərində olan gözəlliklərin üzə çıxması, ifadəyə gəlməsidir, gerçəkləşməsidir. "Özüylədöyüş" onun üçün gərəkdir.

Toplumdan, hər bir antiinsani münasibətlərdən gələn əhvallar oturur adamın içinə. Uşaq məktəbə gedəndən sonra onun şüurunda oturuşmağa başlayır. Nəyi müşahidə edirsə, o da onun içində oturuşmağa başlayır. İndi uşaq, gənc toplumdan daha çox yaman şeylər götürür, onun əsasında ömrünü qurur. Ömür də bada gedir. Gediş insani ölçülərlə oluşmadığına görə, insana qıraqdan olan basqılar, etkilər onların içində hər şeyi söndürməyə köklənir. İnsanın öz içində mənəviyyat işığı yandırmasına olanaq tanımır. Toplumun başını həyat, səfalət, aclıq elə qatır, insanların bir-birinə münasibəti antiinsani olur. Buna qarşı direniş yaratmaq gərəkdir. Bunu anlada biləcək, yetirəcək ortam yaranmalıdır.

Asif Ata Ruhani Ailə biçimini yaratdı ki, burada 3-5 Ocaqçı ayda bir yol toplanmaqla özlərinin ağlını, mənəviyyatını, iradəsini qursunlar. Özünü yaradan, həqiqətini tapan hər bir insanın içində Vətən məsələsi, Millət məsələsi oturar. O, vətənlə, millətlə bağlı səmimi, sağlam addımlar atar, döyüşə başlayar. Bu iş bütövlükdə millətə yansımalıdır. Bu olmayanda nə olar?! Baxın, Azərbaycanda yüzlərlə təşkilatlar çalışır. Bu təşkilatların heç birində milli-insani məsələlər aydınlaşmır, siyasal söhbətlər gedir. Hər kəs hakimiyyət davasına, məişət istəklərinə köklənir, asır, kəsir, pislikləri sadalayır. Bununla

ölçü dəyişməz axı. Deyirlər, "hakimiyyəti dəyişək, biz hakimiyyətə gələk, hər şey gözəl olacaq". Bu, avantüradır. Min ildir bu sözü deyirlər. İki min ildir demokratiya yaranıb. Demokratiya dövlət ideologiyasına çevrilib, bireysəl çıxarları (fərdi mənafeləri) qoruyur. Deyirlər, demokratiya yaxşı şeydir, onun tələblərinə əməl etmək gərəkdir. Soruşuram, nədir yaxşı şeyi, ortaya qoy. Bir ideoloji ki Quruluşa (kapitalizmə) qulluq edir, onun nəyi yaxşı ola bilər?!

Sözümün başlanğıcında dedim, hər bir insan özü üçün "gələcək" haqqında düşünür. Ancaq bu gələcək nədir, onu bəlli eləmək gərəkdir. Bizim üçün konkret bir "Gələcək" var. Biz bu gələcəyi bəlirləmişik: İnsanlaşmaq, İnsanlaşdırmaq, bunun üçün ruhani mübarizə aparmaq. Bütün aşamalar bundan sonra başlanır. Bütün münasibətlər bundan sonra olur. Nə qədər ki sənin, insan olaraq, öz olanaqlarını aşkarlamağın baş verməyib, mən sənə heç nəyi etibar eləyə bilmirəm. Biz inamçıyıq, sənə inanaram, ancaq sən də özün özünə inan. Gör inana bilirsənmi? Özünü aldatma. İçinin dərinliyində özünə sual ver, gör özün öz ipinin üzərinə odun yığırsanmı?! Sən özün özünə vətənini, Millətini, Dövlətini etibar edirsənmi?! Ləyaqətin varmı buna?!

Böyük şəxsiyyətlər başlanğıcda etiraf ediblər ki, özlərinə axıra qədər etibar etmirlər. Etiraf edə-edə böyük şəxsiyyət olublar. O zaman ki, insan içindəki cılızlığı görür, göstərir, etiraf edir, onda böyüməyə başlayır.

Bütün toplumun ağlında liberal, mücərrəd "gələcək" var. Heç kim o "gələcək"də sağlam, səmimi düşüncəyə yetmir. Heç kəs üçün o "gələcəyin" özülündə milli nəsnə, qatqı yoxdur. Özünün qatqısı yoxdur. Ona görə də bu "gələcək"dən Gələcək olmaz. Bu "gələcək"dən qaranlıq bir keçmiş olar. Əgər "liberal gələcəkli" adamlar öz milli keçmişinin üzərinə xətt çəkə bilirsə, öz gələcəyinin üzərinə milli dəyərlərini yerləşdirə bilmirsə, söz yox, tərəqqidən danışmaq olumsuzdur.

Asif Atanın prinsipləri odur, hər bir şəxs özündə yüksək ideallların mahiyyətini görə bilsin, ona qovuşa bilsin.

Biz çoxsaylı insanlarla görüşüb söhbətlər aparırıq. Heç kimin sevgisində, ağlında, istədiyimiz ölçüdə, Azərbaycan yoxdur. Sənin

dəyərin deyə bir şey yoxdur. Halbuki o dəyər səni millət halına gətirə bilər. Ona görə Azərbaycan toplumuna dəyərlərini tanıtmaq, özünə vermək gərəkdir. Bunun üçün özünü qurmaq, şəxsiyyətə çevrilmək gərəkdir. O zaman mübarizə yolu aydınlaşar.

Bu gün Naxçıvanda çoxsaylı dindarları tutublar. Bakıda da Qaraçuxur məscidini yandırıblar. Mən dini qəbul eləmirəm, ancaq bu, məni çox pis etkilədi. Ona görə ki, Qaraçuxur məscidində dəhşətli bir cəhalət böyüyür. Dəhşətli bir fəlakət böyüyür. Onu yandıranlar bu cəhaləti, bu fəlakəti daha da sürətləndirirlər. Bu cür eybəcər əməllərlə onlara insanların gözündə qaldırırlar. Döyülənə qarşı mərhəmət duyğusu baş qaldırır. Cəhalətə yol açırlar. Bilmirəm, bunu kimlər edir – toplumun sayğısını (rəğbətini) qazanmaq üçün özlərimi edir, ya onların saylarının çoxalmasından hakimiyyətləri üçün qorxanlarmı edirlər. Fərq etməz, istənilən halda bu addımlar toplumun fəlakətinə qulluq edir.

Ona görə Asif Atanın Ocağında insanların öz ömürlərini qurması, ulusu üçün bir gələcək bəlirləməsi çox böyük olaydır.

## Bəşərilik Bayramı

*(12 Sərt Ayı, Qismət Günü, 36-cı il)*

Qutsal Gün`ümüzə başlayırıq. Asif Atanın Mütləqə İnam Ocağının Qutsal "Bəşərilik Bayramı"nda söz deməzdən öncə Ataya səcdə qılıb bayrağımızı öpürəm.

36 ildir Ocaq yol gəlir. 36 ilin 16 ilini, yəni Ocağın 20-ci ilindən, biz, türkdən başlayan, milli-bəşəri bayramlarımızı həyata keçiririk. Bunları başlıca olaraq, mərasim biçimində gerçəkləşdiririk. Onun mərasim bölümünü bayramın anlamına, Asif Atanın ideya-prinsiplərinə uyğunlaşdırırıq. Üzdən bayrama oxşamır. Ancaq belə doğrudur. Çünkü öyrənmək gərəkdir, öyrənmədən qurulmaq olum-suzdur. Öyrənməklə Ol`maq olar, Ol`madan qurulmaq doğrulmaz. Hər kəs elə bilir, ideyanın adını eşidəndə, sözü eşidəndə hər şey düzələcək. Çoxluq əlli-yüz il ömür yaşayır, yüz ildə bir dəfə öz içinə

girmir. Öz şəxsiyyətini araşdırmır, görsün orda nə var. Sən ora girə bilsən, biləcəksən dünya niyə bu günə düşüb, dünyanın aqibətini necə həll etmək olar. Hamı özünü ağıllı sayır. Hamı özünü mənəviyyatlı sayır. Hamı özünü insani sayır. Ancaq heç kim heç kimi saymır. Şəxs özünü mənəviyyatlı, milli saya bilər, doğrudan da mənəviyyatlı, milli yaşayırsa. Ancaq çoxluqda bu belə deyil. Yəni yaşamır, ancaq sayır. Hər kəs elə düşünür. Asif Ata elə düşünmür. Bizə də elə düşünmək öyrətmir. Asif Ata şəxsiyyətini öyrəndi, içinə girdi. Gördü, onun içində min illərdən gələn nə qədər çatışmazlıqlar var. Öz içiylə uğraşdı. Təmizlədi içini keçmişin çatışmazlıqlarından, tarixin pisliklərindən, toplumun hədyanlıqlarından, yerində şəxsiyyət yaratdı. Yerində Mənəviyyat Ocağı qaladı. Yerində insanlıq hikməti yazdı. Ol`du! Kamilləşdi! Asif Ata anladı, dünyanın sorunu onun (yəni insanın) içindən başlayır. Onun çölündən başlamır, qonşusundan başlamır. Ona görə İçlə uğraşmağın harayını çəkdi: "İnsanlaşın, İnsanlaşdırın! Bəşərin qurtuluşu İnsanlaşmaqdadır!" – Bu çağırış onun öz içiylə uğraşmasından doğdu. İllərlə öz ömrüylə uğraşdı. İnsanlarımız Asif Atanın sorağını eşidəndə deyirlər, nə vaxt düzələcək dünya, tək Asif Ata neyləyəcək, neçə ildir deyir, düzəlmir axı.

Asif Ata min il deyəcək. Siz elə bilirsiniz bizim hamımız onu eşidirik, hamımızın qəlbimiz doğmalaşıb Asif Atanın çağırışına?! Hamımız o hikmətin tələbi altında yaşayırıq, hamımız onun çağırışının gözəllikləri ilə böyüyürük?! Elə deyil. Kiminsə Asif Ataya sayğısı yaranır, kiminsə sevgisi yaranır. Kiminsə səcdəsi yaranır. Ancaq bu münasibət Asif Atadan ötüb ideyaya keçmir. Asif Atada dayanıb qalır. Asif Ataya münasibət – Asif Atanın özündə dayanmalı deyil, Onun ideyasına yiyələnmək, ideyası ilə yaşamaq gərəkdir. Sənin onda danışmağa haqqın olar. Onda deməyə haqqın olar, dünya niyə bu gündədir.

Hamı hamını qınayır. Hamı toplumu qınayır. Hamı bu xalqı qınayır. Bu xalq düzələn deyil deyir. Sual verirəm, sən özün düzəlmisənmi?! Düzəlməmisən. İçin bayağılıqla doludur. Düşüncən tüfeylıliklə doludur. Həyatın puçdur. Özün üçün yaşamaqdan başqa hikmət tanımamısan. Yalandan millət sözünü işlətmisən, ancaq milli

hikmətin qapısını döyməmisən, açmamısan. İçəri girməmisən. Gözəllikləri seyr eləməmisən. Sadəcə eşitmisən.

Böyük məsələdir bəşərilik, insanlıq, millilik.

Bu gün biz bəşərilikdən söhbət açacağıq. Asif Atanın bu tədbiri "Bəşərilik Bayramı" adlanır. Gəlin görək bəşəriyyəti kimlər, necə yönətirlər?! Gəlin görək niyə o cür yönətirlər?! Niyə belə yönətirlər deyə onlara dirəniş göstərən bir qüvvə varmı dünyada?! Dərin mənada, şəxsiyyət varmı?! Bu gündən gedir söhbət.

Bu gün bəşəriyyəti – onun həyatını, şüurunu, mənəviyyatını, kimliyini iki faktor yönətir: Siyasətlə Din. Hər ikisi də başdan-ayağa yalan. Hər ikisi də başdan-ayağa eybəcərliklə dolu. Siyasət nədir? (Hər bir yönətməni siyasət sayırlar. Mən saymıram. Ruhani yönətmə də var). Siyasət – münasibətlər oyunu deməkdir. Harda adını nə qoyursan qoy, harda nə axtarırsan axtar, tapırsan tap, istəyirsən, ona gözəllik adı ver, deynən, siyasətin də əxlaqı var, mənəviyyatı var... Doğru deməyəcəksən. Çünkü siyasət özüldən münasibətlər, çıxarlar (mənafelər) oyunu kimi başlayıb.

Bu gün dünyanı siyasət yönətir, münasibətlər oyunu baş verir. Bu münasibətlər oyunu Quruluşa dayanır. Quruluş nədir?! Pulçuluq, kapitalizm. Kapitalizm nədir? Başdan ayağa, ayaqdan da başa mənəviyyatsızlıq. Varidatçılıq, pulçuluq bərabərdir ləyaqətsizlik. İnsan yoxdur, insana qiymət yoxdur. İnsana inam yoxdur. İnsana münasibət yoxdur. Kapitalizmin yaratdığı dövlət görün nəyə qulluq eləyir?! Dövlət min illər öncə yaxşı bir olay kimi düşünülüb. Ancaq dövlət özünün mahiyətinə yetməyib, öz görəvini həyata keçirməyib. Dövlət, Asif Atanın dediyi kimi, özgür bireylərdən xalq yaratmalı idi. Xalqı dünyada təmsil eləməli idi – Xalqın mənəviyyatını, ləyaqətini, dəyərlərini, böyüklüyünü. Ancaq dövlətin bir əli nizamlayır, bir əli terror törədir, cinayət törədir. Qırğınlar, qətllər, fəlakətlər yağdırır. Ona görə dövlət özü özünə zidd yaşayır.

Hiylə üzərində qurulan dövlətin istiqlalına inanmıram. Amerikanın istiqlalına inanmıram. Sabah Amerika olmayacaq. Ya da balaca bir şey qalacaq yerində. Özləri də bilir bunu, heç bir imperiya axıra qədər deyil. Ancaq çağında imperiya azğın olur, azğınlığa, gücə qarşı hamı ağız suyu axıdır. Üstündən yüzillər keçəndən sonra sənin varis-

lərin, nəvələrin-nəticələrin həmin imperiyanı söyür, onun tarixini araşdırıb deyir, eybəcərlik eləyib, qırğınlar törədib, qarətlər edib. Sənin nəvələrin səndən nə örnək götürəcək?! Sən imperialistlərə ağız suyu axıtmısan, qan-qada törədənlərə tamah salmısan, haqq vermisən ona. "Belə olmalıdır, ayrı yol yoxdur" demisən. Çıxış yolu elə budur – "bacarana baş qurban", çünkü güclüdür, qalibdir. Bunu demisən. Ona görə səndən heç nə qalmayacaq sabaha. Heç nə saxlamırsan özündən sabaha.

Asif Ata dedi, fiziki ömür çox qısadır. İndi gəlin bu qısa ömrü əbədi işlərə kökləyək. Gəlin özümüzdən yüksəyə qalxaq. Axıra qədər bunun harayını çəkdi. Nə qədər addımladısa bu yolda, hər addımda ayağına daş dəydi. Hər addımıyla o daşı adladı. Yıxılmadı, dayanmadı... Kapitalizm antiinsani quruluşdur. Kapitalizmin nəzəri ideologiyası olan demokratiya necə insani ola bilər?! Mən ciddi öyrənmişəm bunları, havadan danışmıram. Onunla bağlı çox şeylər oxumuşam, araşdırmışam, görüm bu ideologiyanın canında nə var. Heç bir şeyi biz boşuna, öyrənmədən danmırıq.

Ona görə Asif Ata deyir, Ruhani Dövlət yaranmalıdır. Bəşəriyyətin, xalqların bir-birinə münasibəti ən çox irtica xarakteri daşıyıb. Ən çox dağıdıcı olub. Ona görə bəşərilik deyəndə mən Asif Atanı, Onun ideyalarını görürəm. Asif Atanın prinsiplərinə doğma olan, tarixdə ayrı-ayrı dühaları görürəm. Onlar barmaq saydadır.

İkinci, bəşəriyyətin həyatını yönətən dindir, Ruhaniyyatdır. Din də hər şeyin altını üstünə çevirir, üstünü də altına. Din dünyanı faktiki yoxluqla sonrakı yoxluq arasında görür. Faktiki yoxluq nədir? Sıfır. Yəni Yoxdur. Bir az "insaflı" tərpənir din, sıfır demir dünyaya, fani deyir. Fani isə sıfırdan sonrakı yoxluq deməkdir. Dinə necə bel bağlayasan, dünyanı faktiki yoxluqla sonrakı yoxluğun arasında görür. Ondan o yanı görmür. Dünyanın əzəli, əbədi, kamil, sonsuz mahiyətini görmür, dərk eləmir. Məhrum olursan ondan. Ağlını damğalayır ki, onun haqqında düşünməyəsən. Onun haqqında düşünərsən, dünyanı dərk eləməyə can atarsan, dinə görə küfr işlətmiş olursan, allahın işinə qarışırsan. Görürsünüzmü, dinlə siyasət necə doğmadır. Bir-birinə keçid edirlər, bu ona keçir, o buna keçir. Sonucda ikisinin də yönü insana qarşı olur. Din istəməyərəkdən,

siyasət istəyərəkdən. Din istədi insanı qurtarsın. Ancaq bunun üçün min dənə yalan uydurdu. Yalanla insanı qurtarmaq olmaz. Siyasət insanı əymək üçün min dənə yalan uydurur, din insanı qurtarmaq üçün min dənə yalan uydurur. Çox az fərq var aralarında. Milləti ortadan qaldırırlar – bir yandan siyasət, bir yandan din. Bizi ümmətçiliyə bağlayır din. İndinin özündə də millət olmaq istəyirik, yenə cəhalətin dırnağından çıxa bilmirik ki, milli kimliyimizi dərk eləyək, milli dəyərlərimizi tanıyaq. Bütün milli dəyərlərin hamısını ayaqlarının altına alıblar... İki aydır çıxa bilmir millət "Aşura"nın içindən, Məhərrəmliyin oyunundan. Min il bundan öncəyə yas saxlayırlar. Min il bundan öncəyə göz yaşı tökənin sabahına necə inanmaq olar?!

Dinin ümmətçiliyi çox böyük fəlakət gətirdi bizə. Bu gün də hələ öz toplumumuzun içərisində türk sözü, türk adı çəkəndə çomaq qaldırırlar üstümüzə. Türk pis şeydir, biz müsəlmanıq, türk-zad da deyilik deyirlər.

Bəşəriyyətin yönətimi İnsanlaşmanın ixtiyarına keçməlidir. Nə vaxt keçəcək – bilmirik. Ancaq bunun uğrunda döyüşürük. Neçə illər bu döyüş gedəcək?! – Bilmirik. Min ilmi gedəcək, qoy getsin. Əlimizə qılınc alıb heç kimin üstünə getməyəcəyik ki, tez elə, tələs, biz görək, dediyimiz gerçəkləşdi deyə. Tələsdirəndə mənim dediyimi sənin qulağın eşidər, ürəyin eşitməz. Mənə gərək deyil sənin qulağın, ürəyin gərəkdir, ürəyinin ixtiyarını verməlisən ki, ondan gözəlliklər yaransın.

Baxın, adını bəşərilik qoyuruq bayramın, ancaq mən bu bəşərilik bayramında çox ehtiraslı, çox kəskin danışıram, çünkü ağrımız böyükdür. Bayramımızın özünün ləyaqətiylə, sevinciylə, fərəhiylə bir yerdə ağrımız böyükdür.

Bəs nəyi bayram eləyirik biz?! – Biz insan qəlbinin gözəlliklərini kəşf eləyib onu bayram edirik. Harda kəşf edirik?! – Özümüzdə, insanda, səndə, onda. Dünya sənin içindəki insani dəyərlərlə gözəl olacaq. Özünlə sonevə (qəbirə) aparma bu dəyərləri. Ver bəşəriyyətə, ver xalqa, ver ölməzliyin ixtiyarına, ver əbədiliyin ixtiyarına.

Bizə zorla müsəlmanlığı yeridənlər bizim boynumuza qılınc sürtdü, onun böyükləri bizim başımızı kəsmək öyrətdi öz varislərinə. Asif

Ata bizə insana yalvarmaq, onu anlatmaq öyrədir. Yalvar ki, insanlığı üzə çıxartsın deyir. Onu öldürmə, onu hədələmə deyir. Onun ürəyindən öp deyir. Qoy ürəyi sağalsın.

Asif Ata Sovet quruluşunun içində başladı bu düşüncələrə. Sovet quruluşu Asif Atanın sözünü, səsini, çağırışını arxayın, ayağını ayağının üstünə aşırıb dinləmədi. Ona zərbələr vurdu. Onun dalınca düşdü, təqib elədi. Özünə bir şey eləyə bilməyəndə ailəsinə elədi. Fiziki sağlamlığına elədi. Ancaq Asif Ata əqidəsindən əl çəkmədi. Ona qarşı hər yola əl atdılar. Asif Ata deyirdi, mənə təkcə "adamyeyən" sözü demədilər, hər şey dedilər. İndi çağdaşlarımız bir addım atan kimi, çığır-bağır salırlar, xalq mənə heykəl qoymadı, mənim adıma küçə qoymadı deyə. Asif Ata ona çalışmırdı. Asif Ata əzab qazanmağa çalışırdı. Qazandı da o əzabı. Əqidə asan məsələ deyil. Əqidəli olmaq da asan məsələ deyil. Əqidəli olmaq üçün gərək bütün varlığınla o əqidənin tələblərini yaşayasan. Biz Asif Atanın Ocağında, burda olan, olmayan Ocaqçıların içərisində, ayrı-ayrı bireylərin içərisində o halı yaradırıq. Örnək yaradırıq. Özünün ağlında, düşüncəsində böyük məsələlərin oturuşmasına çalışırıq, hara getsə, orda Asif Atanın tələbini çatdıra bilsin. Onun ruhaniyyat dünyasını göstərə bilsin.

Hər kəs elə bilir, gedib bir təşkilatın biletini alıb cibinə qoyan kimi, o, əqidəli adam olacaq. Elə deyil. Əqidə çox ağır işdir. Yüz dəfə ölürsən, yüz dəfə dirilirsən əqidə adamı oluncaya qədər. İçindən nələri silməlisən, içinə nələri yazmalısan əqidə adamı olmaq üçün. Sənin içinə etibar olunmalıdır. Sənin içini yüz il görməyəcəklər. Yüz ildən sonra görəcəklər. Əgər biz bu gün fərəhlə yaşayırıqsa, bunda, bizdən öncəki, fərəhlə yaşayan böyük şəxsiyyətlərimizin içinin rolu var. Üzünü görmədiyimiz, səsini belə eşitmədiyimiz Nəsiminin içinin örnək rolu var. Babəkin içində qurulan gözəlliyin rolu var. Ancaq biz istəmirik, Asif Ata yalnız tarixi fakt kimi örnəyə çevrilsin. Biz istəyirik, Asif Ata canlı həyat kimi örnəyə çevrilsin. Bütün işimizi də ona görə qurmuşuq. Hər sözümüz, yazımız, addımımız, çabalarımız, hamısı bu işə qulluq eləyir.

Bəşərilik bayramımız Asif Atanın 4 bayramından biridir – İnsanilik, Xəlqilik, Şərqilik, Bəşərilik olmaqla 4 bayramımız var. Bu, ilin

sonuncu bayramıdır. Bizim ilimiz hələ qurtarmır. Bizim ilimiz Köçəri Ayının (fevralın) axırı qurtaracaq. Yanvarın 1-i bizim ilimiz deyil. O, Avropa-xristian dünyasının ilidir. Bizim yeni ilimiz martın 1-indən başlayır. Bununla belə, bu bayram ilin sonuncu bayramıdır. 3 aydan sonra İnsanilik Bayramı olacaq.

Asif Atanın sözünü, ideyalarını, insan-insan, kənd-kənd, rayon-rayon, bölgə-bölgə gəzib deyirik, veririk, çağırırıq, usanmırıq, yorulmuruq. Bəzən getdiyimiz ünvanda boylanıb təkcə özümüzü görürük, ancaq özümüzü itirmirik, ağlımız çaşmır, çünkü dünyanı içimizlə bir yerdə aparırıq. İdeyanı içimizlə bir yerdə daşıyırıq. Asif Atanın ideyasıyla bir olan – dünyayla bir olan deməkdir.

Atamız Var olsun!

## Ruhani Səfər Günü Törəni

*(27 Sərt Ayı, Murad günü, 36-cı il)*

Günümüzə səfərlərimizin hünər örnəklərini qiymətləndirməklə başlayırıq. Ocaqçıların səfər təşkilatçılığı bu il də çox uğurlu oldu. Ocağın ideyalarının, ədəbiyyatlarının Azərbaycan insanları, özəllikcə öyrəncilər arasında yayılması gələcəkli hünər əməlləridir. Az sayda Ocaqçıların bunca fədakarlıqlar eləməsi, umacaqsız əməllər becərməsi Ocağın yaşaması üçün ruhsal ərdəmlikdir.

Ocaq ayrı-ayrı bireylərin hünəri üstə yaşayır, qabağa gedir. Ancaq Ocaqda hər bir insanımızın daha çox mənəvi-idraki baxımdan özünü təsdiq eləməsini istəyirik. İş-əməl gərəklidir, ancaq bununla sınırlanmaq olmaz. İdrakca, İradəcə kamilləşməyən Ocaqçı sabah əməldən yorulub qırağa dura bilər. Özünü aldatmaq olmaz.

Bütövlikdə "Ruhani Səfər Günü" Mərasimi il içində, ötən 35-ci ilin Səfər günündən bu günə qədər, çox ciddi uğurlar sərgiləyib. Ocaq bundan da artıq, fiziki anlamda, nələrsə çatdıra bilməz. Say məsələsi önəmli deyil. Önəmli olan Ürək məsələsidir. Əmələ ürək verməni say əmələ gətirmir. Əmələ ürək verməni hünər əmələ gətirir, ruhani keyfiyyətlər əmələ gətirir. Biz də həmişə həmin əməlin, həmin keyfiyyətin arxasındayıq.

Bu qədər böyük Olayın arxasındayıq, bunu bu gün bizim özümüzdən, öz qiymətləndirdiyimizdən daha çox, Gələcək qiymətləndirəcək. Çünkü "Gələcək" bizim işlərimizə həryönlü baxacaq, yanaşacaq. Çətinliyin içində atılan addımlara baxacaq. İndi elə bir zamandır, belə bir Olayı yaşatmaq başqa olayları yaşatmaqdan qat-qat çətindir, qat-qat böyük qüvvə tələb edir. Fiziki anlamda güclüyükmü, gücsüzükmü, bu önəmli deyil. Önəmli olan, Asif Atanın Ocağı başqa olaylardan qat-qat yüksəkdir. Burada iynənin ucu boyda umacaq yoxdur, özünü gözəsoxma, şöhrət dalınca qaçmaq yoxdur. Bizdən qıraqda bütün qurumlar başdan-ayağa özünü reklamdır, umacaqdır. Özləri də ayrı-ayrı qıraq qüvvələrə bağlıdır. Hamısı dış qüvvələrə güvənir. Cəsarət ora bağlıdır. Onların buyruğundan qırağa çıxanın cəsarəti yoxdur. Gedib Avropanın ortasında oturub, Azərbaycan iqtidarını söyməyi hünər sayırlar. Hünər deyil o. Biz canavarla üz-üzə durub mübarizə aparırıq. İran kimi canavar qulağımızın dibindədir. Baş kəsir, terror törədir. Onun tapındığı, özünün dayağı saydığı dini rədd edirik, özü də ateistcəsinə yox, kökündən, yüksək təfəkkürlə, yüksək idrakilik səviyyəsi ilə, Yalansız İnamla rədd edirik. Zarafat deyil bu. Eləcə də siyasi hakimiyyətin yurda, millətə qarşı atdığı bütün yanlış addımların hamısını zaman-zaman ifşa eləmişik. Öz ləyaqətimizə söykənmişik, özümüzün milli sevgimizə söykənmişik. Ona görə Ocaq hamısının biri deyil, hamısından çox-çox yüksəkdir. Ona görə Ocağın qədrini bilin. Ürəyinizi balaca məsələlərlə yormayın.

Biz heç kimə üstdən aşağı baxmırıq. Heç kimlə də münasibəti dışlamırıq. Biz burada, Ocağın içində Asif Atanın adıyla, Asif Atanın etkisiylə, Asif Atanın ideyalarıyla özümüzü tərbiyə edirik, böyüdürük, millət səviyyəsinə qaldırırıq. Vətən səviyyəsinə, şəxsiyyət səviyyəsinə qaldırırıq. Münasibətimiz ordan yaranır. Yoxsa biz süni şəkildə özümüzü heç kimdən ayırmırıq (təcrid eləmirik). Bizim məqsədimiz insanların bir-birinə qarşı xəstə münasibətinin sağalmasıdır. Burada oyun, quraşdırma yoxdur. Ocağımızın qədrini bilin.

Ancaq bütün bunlarla yanaşı Ocaqçıların xalqlaşma əməli, bu ləyaqətin fonunda, zəifdir. Çox işləmək gərəkdir. Hər birimiz dolanmaq üçün hardasa işləyirik. İşi qarşımıza əngəl kimi qoymaq olmaz.

Böyük işlər, çətinliklər adamı şəxsiyyətə çevirir. Öz-özünə şəxsiyyət yaranmır. Ruhani döyüşə ara verilərsə, onda şəxsiyyət qurulmaz. İdrak hər gün döyülməlidir, böyüməlidir, hər gün qurulmalıdır. Mənəviyyat hər saat qurulmalıdır. İradə hər saat bərkiməlidir. Böyük yükün altındayıq. Böyük idealların peşindəyik. Böyük məqsədlər daşıyırıq. Özümüz özümüzün işimizin miqyasını hər gün dərk eləməliyik. Həyat olduqca azdır. Getdikcə də quruyur. Münasibətlər də quruyur, ürəklər də quruyur. Quru ürəklərdə gözəl, ülvi münasibətlər bəslənilmir. Ona görə hər gün, hər saat Ocaqlaşmaq gərəkdir.

Bizim işimizin bundan sonra da davamlı, uğurlu olması sizin hər birinizdən asılıdır. Bir-birinə münasibəti, bütövlükdə insani münasibəti ciddi öyrənmək gərəkdir. İnsana münasibət başlıca məsələdir. Hər şeydən yüksəkdə durur, hər şeyin həlli insana münasibət məsələsidir. Vaxt tapmaq, insanları çağırmaq, söhbət aparmaq, böyütmək, Ocağa Evlad hazırlamaq gərəkdir. Dişimizlə, dırnağımızla Ocağı qoruduq, yaşatdıq. Bundan sonranı ciddi düşünmək gərəkdir. Hər kəs düşünsün. Arxayınlaşmayın, mənim üzərimə atmayın sorumluluğu. Ocaq mənim şəxsi məsələm deyil, bəşəriyyətin məsələsidir. Ocaq hər birinizin ölməzliyinizin, əbədiliyinizin məsələsidir...

Asif Ata "Ruhani Səfər Günü" mərasimini sovet ideologiyasının hakim olduğu dövrdə başladı. İlk Ocaqda olanlar (indi Ocaqda olmasalar da), o dövrdə, cəsarətli işlər görürdülər. Onların əməllərini yüksək qiymətləndirirəm. Mən istəyirəm, Ocaqçılar bir məsələnin ciddi fərqinə varsınlar: yasaq olunmuş dövrdə adam balaca bir addım atır, o addım böyük uğura çevrilir. İndiki çağda böyük addım atırsan, o balaca addım kimi görünür. Tutuşdurma edib öz əməyini azaltmaq gərək deyil. Bu psixologiyadan çıxmaq gərəkdir. Hər kəs özünü yasaq dövrünün içində görsün. Ocağın ruhani abesini (əlifbasını) öyrətməyi küçümsəmək olmaz.

"Ruhani Səfər Günü" mərasimi – hər bir Evladın, xalqın içində olaraq, xalqa verdiyi soraq, xalqdan götürdüyü soraqdır. Ona görə də hər kəs özünün ömründə, əməlində xəlqi yöndən uğurlarını həmişə hesabat verməlidir. Tarixdir bu. Ocağın tarixi hesabatlardan götürülüb yazılacaq, həm də tutuşdurmalar aparılacaq...

## Ailə Günü Törəni

*(6 Köçəri Ayı, Qismət Günü, 36-cı il)*

Bu gün Ocaqdan (Ocaq ünvanından) qıraqda Atalı adına iddia edənlər var. Bir vaxtlar, Atanın ölümündən sonra Ocaq bölündü. Onda da mən çox ehtiyatlı davrandım. Yükün altına girmişdim, ancaq bu hələ Ocağın mənim yanımda olanlardan sayılması anlamını təsdiq eləmirdi. Baxmayaraq, mən Asif Atanın dönəmində, sağlığında Ocağın ruhani təşkilatçısı idim. Ancaq ruhani təşkilatçı olmaq dediyim məsələyə əsas vermirdi, səbəb vermirdi. Bununla belə, o çağda da mən məsələyə həm ehtiyatlı, həm də iddialı yanaşırdım. Ancaq gediş, Ocaqçılıq halı sübut elədi, biz doğru addım atmışıq, doğru yol seçmişik, Ocağın ləyaqətinin, adının, işinin yalnız bizə bağlı olduğuna haqq etmişik. Bunu biz sübut elədik. Çünkü başqaları dağıldılar, Ocağın adını doğrultmadılar. Ocaqla bağlı düzgün addım atmadılar. Heç bir ruhani münasibət, ünsiyyət yarada bilmədilər. Ancaq biz Atanın ölümündən bu çağa kimi Ocağı ləyaqətlə yaşadırıq. Onun hər bir işini bütün sorumluğu ilə həyata keçiririk. Heç kimlə cırmaqlaşmadan, heç kimi qaralamadan, heç kimlə oyun oynamadan, rəqabət aparmadan yüksək səviyyədə ruhani əməllər becərmişik, ruhani işlər həyata keçirmişik. Özümüzü içəridən böyütməklə uğraşmışıq. Asif Ata Evladı adına layiq olmağa çalışmışıq. Bu yöndə ciddi yaşantılarımız göz önündədir. Ocağı biz gətirib çıxartdıq bugünə, o adamları da biz yığmışdıq yörəmizə. Biz Ocağa qatdıq onları. Biz yönəltdik onları. Onlar bizdən ayrıldılar, biz onlardan ayrılmadıq. Onun da bu gün sonucu göz qabağındadır. Bütün işləri, gücləri bizi qaralamaqdan, rəqabət aparmaqdan başqa bir şey olmadı. Toplumun içinə yüyürüb bağırmaqla deyil, Ocaq filankəs deyil, bizik. Ocağı yaşatmaq gərəkdir. Atanın işini qabağa aparmaq gərəkdir. Yenə deyirəm, heç kimlə cırmaqlaşmadan, heç kimi qaralamadan, heç kimin yanına yüyürüb hesabat vermədən böyük ləyaqət ortaya qoyuruq. Bu gün bir daha biz onu sübut elədik. Bu gün bizdən ayrılanlar özlərinin heçliyini, yolsuzluqlarını sübut elədilər. Dalaşdılar, dağıldılar. Ruhani birlik yarada bilmədilər. Ruhani ünvana çevrilə bilmədilər. Ona görə bu gün yenə də qəti bir

qərar verirəm – Ocaq adı, Ocaq ünvanı ikinci, üçüncü, beşinci yerdə yoxdur, ola da bilməz.

Bilmirlər Ocağı, dərk eləmirlər Ata kimdir, nə istəyir. Ocaq birdir, o da bu ünvandır. İkinci Ocaq yoxdur. Bundan sonra da olmayacaq. Ocağa ancaq Evlad gələ bilər, ya da çıxa bilər. Ayrı-ayrı bölgələrdə Ailələr olacaq, ancaq beş Ocaq olmayacaq.

Bəlkə sabah Ocağın etkisi, sorağı artandan sonra qıraqdan, Ocaqdan çıxmışlardan beş-üç nəfər yığdılar, dedilər, bu da Ocaqdır, Ocağı sarsıtmaq üçün, Atanın işini əymək üçün-filan. Biz belə şeylərdən heç vaxt çaşmayacağıq. Heç kimə qarşı da özəl təbliğata gərək yoxdur. Heç bir balacanı böyütməyək. Ocaqdan qıraqda kim Atanın işinə xeyir vermək istəyər, buyursun. O cəhətdən biz Ata işinin qapısını heç kimin üzünə qıfıllamırıq. Xalqın içində ciddi işlər getməlidir.

Atanın adından Qutsal bəlgə yazmağa Ocağın Yükümlüsü haqq edir. Bu ünvandan çıxacaq həmişə Ocağın Yükümlüləri...

İndi istəyirəm Ruhani Ailə ilə bağlı bir neçə söz deyəm.

Ocağın yaşaması, böyük ideyaları gerçəkləşdirməsi üçün, bilirsiniz, Atanın illərlə üzərində işlədiyi biçimlər var. Mərasimlərin hər biri Ocağın yaşadılması, Evlad boyunun ruhani səviyyəyə yüksəlməsi üçün Atanın düşündüyü biçimlərdir. Bunların da hər biri özünəxas məzmun daşıyır. “Ailə Günü” mərasimində konkret Ailə ilə bağlı, Ailənin işi, əməli ilə bağlı söhbət getməlidir. “Ruhani Evlad Günü” mərasimində konkret Evlad səviyyəsi, Evlad boyunun yaranması, Evlad özünəxaslığı, Evlad əməli, hünəri, bunlarla bağlı söhbət getməlidir. “Ata Günü” mərasimində Ata ilə bağlı söhbət getməlidir. Onsuz da bütün mərasimlərin cövhərində Atalıq məsələsi var. Ancaq “Ata Günü” mərasimi Ocaqçının Atanı necə görməsi, necə anlaması, Ataya necə yaxınlaşması i.a. bunlar öz izahını tapmalıdır. Ocaqçının ağlında hər bir mərasimin məzmunu aydınlaşmalı, oturuşmalıdır. “Ruhani Səfər Günü” mərasimində ruhani səfərlərdən danışmaq gərəkdir. “Ailə Günü” tədbirlərində də həmçinin konkret Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı, “Gediş Yazısı”nda qoyulan qonular üstə söhbət eləmək gərəkdir. Bunu yetirmək gərəkdir. Hər bir

tədbirdə hər şeyi danışmaq doğru deyil. Konkret təyinatı üzrə danışmaq. Bununla da törənlər gələnəyini təsdiq eləmək gərəkdir.

Ailə biçimini Asif Ata düşündü, ortaya gətirdi, təkcə Ailəni biçimləşdirmədi, həm də Ailənin Gününü bəlirlədi: Ocağın içində "Ailə Günü" olsun, mərasimləşsin. Bütün Ailələr Ocaq mərasimində bir yerdə olur, başqa Ailələrin işlərindən bilgili olur, başqa Ailənin əməlləriylə, hesabatlarıyla, düşüncələriylə tanış olur. Ata bu mərasimi ona görə düşünüb. Bu gün bizim sayımız azdır deyə, həm də çox vaxt Ailələr bir yerdə Ailə Günü keçirdiyinə görə hamı bir-birini görür, bir-birini eşidir, bir-birini dinləyir. Ancaq ola bilər, sabah daha çox bölgələrdə Ailələr olsun, biri o rayonda, biri bu rayonda. Sən onu mərasimdən-mərasimə görürsən. Ya da səfər edərkən görərsən, doğmalaşarsan, bu da hər gün demək deyil. Bu mənada hər bir Ailəçi Ocaq mərasimində bir-birini içdən tanımalı, bilməli, ruhani bağlılıq yaranmalıdır. İlk dəfə Ocaqda Ailə başlayanda bir Ailə vardı. Baxmayaraq, Ocaqda vur-tut bir Ailə yaranmışdı, Ata o Ailənin yaranmasıyla Ocaqda "Ailə Günü" olayını mərasimləşdirdi. Ondan sonra yeni Ailələr yarandı. Atanın sağlığında, yanılmıramsa, 8-9 Ailə vardı: İnşaat Mühəndisləri Universiteti Ailəsi, Bakı Dövlət Universiteti Ailəsi, Ocaqkənd Ailəsi, Beyləqan Ailəsi, Şəmkir Ailəsi... Mən hesab edirəm, Ailəçilərin sayı 6-7 şəxsdən çox olmamalıdır. Biz qıraq adamları çağırırıq. Çox sayda Evladların danışmalarına da çox vaxt gərək olur. Yorucu olmamalıdır. Ocağa yeni gələn adamı da kökləmək gərəkdir. Ocağın qurallarını öyrənməlidir. Özü onu yaşatmağı bacarmalıdır.

Ocağın Ailə Günləri həmişə keçirilir, keçiriləcəkdir. Ocağımız, Atadan sonra, yenə bir Ailədən – "Uluyol" Ailəsindən başladı, Ocaq səviyyəsinə çatdı, Ailədən Ailələr doğdu. Hər bir Ailə özü Ocağı təmsil eləməyi bacarmalıdır. Hər bir Ailə Ocaq olmağı bacarmalıdır. İçəridə elə Ruhani qırım olmalıdır.

Ailənin məzmunu çox dərindir, əsaslıdır. Əslində buna biz Ruhani Ailə deyirik. Ancaq geneldə cismani Ailə də ruhani məna daşıyır. Cismani Ailəni sosial olay sayırlar. Mən saymıram, doğru deyil. Cismani Ailə ruhani olaydır, çünkü insanı quran, yaradan, tərbiyə edən, yönəldən Ailədir. Ona yön verən, dünyagörüş verən, baxış

verən ailədir. O, altı yaşına qədər ailədə köklənir, sonra oxula gedir. Sonra başlayır oxuldan öz dünyagörüşünü artırmağa, gəlişdirməyə.

Cismani ailə ruhani olaydır, çünkü orda övlad böyüyür, xalqın dəyəri, mədəniyyəti yaşayır, gələnəyi yaşayır. O gələnək yeni doğulan uşağa öyrədilir, onun araçılığı ilə əmniyyətə götürülür. Xalqın dəyərləri, keyfiyyətləri ailədə öz ifadəsini tapır, öz yaşamını qurur. O, ümumtoplum səviyyəsində yaşadılır. Ancaq nə yazıqlar, ruhaniyyat olayı bəşər tarixində ciddi bir səviyyəyə gəlib çatmadığı üçün, ciddi bir ölçü ilə insanın həyatına gəlmədiyi üçün, insanın varlığına hakim olmadığı üçün Adam İnsanlaşa bilmir. Adam İnsanlaşa bilmədiyinə görə də ailələr ruhaniləşə bilməyib. Ailə sosiallaşıb. Ailənin öz məzmununa uyğun yaşaması üçün birey özü insanlaşmalıdır. Ailə bireydən başlayır. Birey insanlaşmalıdır, ruhaniləşməlidir, onun qurduğu ailə öz məzmununa bərabər yaşasın, ruhani olsun. Ancaq ölçüsüz toplumda ailələrin hərəsi bir tərbiyə alır, pis tərbiyə alır, başıpozuqluğa gedir. İnsanlaşma olmur, özünüyaratma olmur, özüylədöyüş olmur. İki gəncin səviyyəsi nədirsə, onun övladı ordan özül tapır, onlardan başlanğıc alır. Ona görə də bu gün qurulan ailələr sosial olaya çevrilir, özünü doğrultmur, ona görə toplum millət ola bilmir. Millətin dəyəri ailələrdə dərk olunmur, yaşanmır, pozuntulara uğrayır i.a. Asif Atanın yaratdığı ruhsal ailə biçimi cismani olmasa da, ruhsal xassələri ilə cismani ailələrə örnək verə bilər. Ocaqdan başlayaraq, ailə ruhaniyyatçılığı, gələnəyi yarana bilər. Ocaqda olan insanlar, Ocağa gələn gənclər ailə qurarkən burada ailələşdiyi səviyyədə öz cismani ailəsini ruhani səviyyəyə çatdıra bilər.

Ata deyir, bu çağa qədər ailə janrı özünü doğrultmayıb. Bəşər həyatında alınmayıb, təkcə Azərbaycanda yox. Dövlətdə ağalıq hardan gəlir – ailədən. Dövləti qamarlayan, ağalıq edən, imperiya yaradanlar hardan başlayır – ailədən. Ata deyir, ata ağalıq edir, ana xanımlıq edir. Əslində övlad atalıq-analıq birliyindən tərbiyə alıb böyüməlidir. Onda xalqın dəyərlərinə yiyəlik eləyə bilər. Dünyaya ağalıq eləmək deyil, dünyanın dəyərlərinə yiyə çıxmaq gərəkdir.

İnsan ailədən başlayır. Xalq ailədən başlayır. Bəşər ailədən başlayır. Asif Ata istəyir, ailə halını dəyişsin, məzmununu yenilənsin,

özünəxaslığını qaytarsın. Ocaqçılar ömürlərini elə bir gələcəkli işə verirlər, o gələcəkdə böyük olaylar öz məzmununa dönsün. Bu cəhətdən Asif Atanım Ruhani Ailə biçimi olduqca dərin, geniş anlam daşıyır. Gərək hər bir Ocaqçı o anlamı öz içinə çevirməyi bacarsın. Öz içinə çevirmədən xalqa söz demək olumsuzdur.

Asif Atanın cismani ailəsi dağıldı. DTK dağıtdı. Gələcəkdə ailə janrının özünü doğrultmasını təsdiq eləmək üçün Ocaq yaratdı. Ona qurban verdi hər şeyini. Görüşlərində ona ailəsi ilə bağlı sual verirdilər, deyirdi, qoy bir adam da belə yaşasın, özündən keçsin. Alınmır heç nə. Çağımız daha qorxunc bir durumdadır. Tərbiyə pozulur, əxlaq pozulur, mənəviyyat pozulur. Rəsmi statistikaya görə minlərlə ailə dağılır, pozulur. Belə zarafat olar, belə oyun olar?! Ona görə Ocaqdan ciddi tutmaq gərək. Ocağın prinsipləriylə nəfəs almaq, yaşamaq gərək. Dərin məsələlərin çözümünü öz içimizdə başa çatdırmaq gərək. Dərin məsələlərin çözümü var Ocaqda...

## Ailə Günü

*(19 Köçəri Ayı, 36-cı il)*

Amallaşma məsələsiylə bağlı bir neçə söz deyim. Mən dünyanı öyrənirəm, dünyadan Asif Atanı da öyrənirəm. Əslində mən öz kimliyimi öyrənirəm. Milləti, insanı öyrənirəm. Asif Ata deyir, "İnsanlaşın – İnsanlaşdırın". İlk eşidənlərə elə gəlir, Asif Atanın çağırışı elə o iki sözdən oluşub. Bunu mənə Azərbaycan alimlərindən biri deyib. Deyir, "İnsanlaşın – İnsanlaşdırın" mücərrəd bir şeydir. Şüar kimi yanaşır bu çağırışa. Deyirəm, bəy, sizin adınız da mücərrəd bir şeydir. Nə qədər ki, bu adı ifadə edən sözdən başqa bir şey düşünmürsən, ad mücərrəddir. Elə ki, düşünürsən, bu adın altında bir boy dayanır, üz cizgiləri dayanır, bir keyfiyyət, bir xasiyyət dayanır, o zaman bəlli olur, o ad kimi, nəyi ifadə eləyir. O sözün altında bəlli bir məzmun yatır. Bu sözün, çağırışın altında da böyük məzmun yatır. Siz iki söz eşidib məzmununa varmayanda mücərrəd görünəcək söz yox.

Mən o məzmunu öyrənirəm. Hamı deyir demokratlaş, hamı deyir qloballaş, hamı deyir dinləş, ərəbləş, farslaş, açıq deməsə də. Asif Ata deyir İnsanlaş, Bəşərləş.

Amaldaşımız yazını oxuyanda dedi, bəşər siyasətdən imtina eləməlidir. Kimə desən bunu normal qarşılamaz. Necə yəni siyasətdən imtina. Dünya siyasətlə yönətilir. Siyasətdən imtina nə deməkdir?

Dövlətin, dövlətlərarası münasibətin gedişində siyasət qalacaq, ancaq necə qalacaq, nə qalacaq?! Siyasət başlıca olaraq, münasibətlər oyunudur. Ailədə, evdə, xalqda hər yerdə oyun gedir. Siyasət bu oyunun tərtibçisidir, qurucusudur, yönəldicisidir. İndi Asif Ata deyir, siyasətdən üstün olmaq gərək. Kitabının birinin adı belədir. Nə deməkdir siyasətdən üstün?! Deyir, xalqına münasibət bəsləyəndə onunla oyun oynama. Hakimiyyətə gələn adama (xalqın başına gələnə) deyir, xalqa ağalıq eləmə, atalıq elə. Siyasət ağalıq deməkdir, atalıq demək deyil. Çünkü ata oyun oynamır. Övladının yolunda zəhmət çəkir, böyüdür onu. Onu aldatmır, böyütmək yerinə kiçiltmir. Ona görə dövlətin başında durana deyir, xalqınla oyun oynama. Onun içində münasibətləri insani səviyyəyə qaldır. Onda böyüyün böyük yeri olacaq, kiçiyin kiçik yeri. Onda xalqın içində bir ölçü olacaq. Hər kəs hər kəsə fırıldaq münasibət bəsləməyəcək. Heç kəs heç kəslə saxta davranmayacaq. Ehtiyat eləyəcək, rahatsız olacaq, qırağa duracaq.

İndi hər kəs hər kəsi ittiham edir. O yanlış elədi, bu yanlış elədi. Hər şey yanlışdır. Yaxşı, bəs yanlış eləməmək üçün nə gərəkdir?! Asif Ata ona görə deyir, münasibətlər oyunundan çıx – "İnsanlaşın – İnsanlaşdırın!".

Gələk Dövlətlərarası münasibətə. Sənin dövlətinin ayrı istəyi var, o biri dövlətin öz istəyi var. Dövlətlərarası münasibətlərdə mütləq alver olacaq. Bunu sənə verirəm, bir şərtlə, filan şeyi mənə ver. Deməyəcək, al bunu sənə umacaqsız verirəm. Yəni dövlətlərarası münasibətlərdə bu hal qaçılmaz olacaq. Qalacaq. Ancaq ölçü kamil olacaq. Genel gediş kamil olacaq. O gedişi içəridə kamil insanlar yönləndirəcək. Ləyaqət ölçüsü olacaq. Münasibət ölçüsü olacaq. Eləcə də dövlətlərarası münasibətlərdə ölçü olacaq. Ata deyir,

siyasəti xalqın içindən çıxart. Ailənin içindən çıxart. Mədəniyyətin içindən çıxart. Musiqinin içindən çıxart! Sənətin, ədəbiyatın içindən çıxart! Ədəbiyat fəlsəfədir, həyatdır. Mən ədəbiyatdan həyat öyrənirəm. Bunun içinə siyasət soxma. “Yazıçılar “Birliyi” yaradaraq, başına öz köləni qoyub bu xalqı aldatma. Oynatma xalqın mədəniyyətini, ruhunu. Asif Ata onu deyir. Bu mümkündürmü?! Mümkündür! Ona mümkün deyil, buna mümkün deyil deyirlər, onda niyə mübarizə var, niyə razılaşmamaq var, barışmamaq var?! Mümkündür. İstək, mübarizə gərəkdir.

Sonra, indi deyəcəyim düşüncə “özüylədöyüş”ə aid olan bir məsələdir. Mən, Soylu Atalı olaraq, həm özümə görə rahatsız oluram, həm də Amaldaşlarıma görə. Onların hər bir doğru olmayan addımına görə rahatsız oluram. Qayğılanıram, qayğılarımı deyirəm. Ancaq bununla belə, özüylədöyüş məsələsinə çox inanıram. Özüylədöyüş məsələsi qabağa addımdır. Aparır adamı. Nağıl deyil o. Bir az aşırı istəmək gərəkdir, az istəmək yox.

Asif Ata deyir, ruhaniyyat elə bir ortamdır, orada çoxbaşlılıq durumu əyir. Orada birbaşlılıq olmalıdır. Ruhaniyyat birxətlilik tələb eləyir. Mənəviyyat birxətlilik tələb eləyir. Ona görə burada Ocağın içində demokratiya yerimir. Demokratiya özbaşınalıq, hərcayilik yaradır. Hərə bir hava çalır. Ocaqda birxətlilik olmasa, 18 il Asif Atanın ölümündən sonra yol gələ bilməzdik. Bir xətt var. Bu xətdə heç kimin haqqı gözardı edilmir. Bu xətdə heç kimin döşündən geri itələnmir. Heç kim yaradıcılıqdan geri itələnmir. Quruculuqdan geri itələnmir. Ancaq Ocağı bilməyən Ocağı biləni dinləməlidir. Bax, bu özüylədöyüş məsələsidir, mənim əzizlərim. Xalqda bu yaranmalıdır. Asif Ata xalqda bunu yaratmaq istəyir. Demək istəyir, toplum, sənin içindən filankəs adlı bir aydın çıxıb. Bayaq görüşdə dediyim kimi, sənin tərəvəz becərməyinə qarşı deyiləm. Ancaq sən xalqın içindən çıxmış aydını eşitməlisən. Eşitməyə borclusan. Yoxsa balıq-ördək-xərçəng nağılı oxuyacağıq yüzillər boyu. Hərə bir yana dartacaq. Biz millət ola bilmirik. Bax, ən böyük çətinliyimiz də, qüsurumuz da odur, içimizdə bir xətt yaradıb, onu, içdənliklə (səmimiyyətlə), doğruçuluqla, ləyaqətlə yönəldəni eşitmirik. Bu özüylədöyüşün çox önəmli, prinsipial bir yönüdür. Əgər hərə bir hava çalacaqsa, Ocağa

heç gərək yoxdur. Ya da, hərə bir hava çalacaqsa, millət adına iddia etməyə gərək yoxdur. Millət bir vəhdətdir, birlikdir. Bu birliyin nizamı olmalıdır. Bu birliyin yönü olmalıdır. Başı-ayağı olmalıdır. Ona görə Asif Ata özüylədöyüş ideyası verib. Ancaq Asif Ata özüylədöyüş ideyasını təkcə öz Ocağının içindəkilərə verməyib. Öz xalqına verib, bəşəriyyətə verib.

Üçüncü, xalqlaşma məsələsiylə bağlı. Mənim xalqlaşma işim çox genişdir. Bireysəl, kütləvi görüşlərim çox olur. Demək olar, evimdə çox az oluram. Bu da mənim seçdiyim aqibətdir. Heç kimin də boynuna minnət qoymuram. Heç kimdən də, özəl olaraq, sağ ol ummuram. Bu, mənim Millət qarşısında, insanlıq qarşısında borcumdur. Mən bunu yaşayıram.

Bireysəl görüşlərim evimdə də olur, İçərişəhərdə də olur. Başqa ünvanlara çağırırlar, gedirəm. Bəzən Amaldaşlarım mənə deyirlər, filankəslərin ayağına, yanına getmək gərək deyil. Mən hər kəsin yanına (bu ayağına getmək kimi görünsə də) getməyə hazıram. Mənim üçün baş, ayaq yoxdur. Mənim üçün xalqın yanı var. Xalqın ürəyi var. Mən xalqın qəlbinə yol salıram. Mənim çəkdiyim zəhmət odur, Asif Atanın istəyi xalqında doğrulsun, xalq baş olsun. Biz xalqın çiyninə ayaq qoymuruq. Biz xalqın ayağının altına çiyin veririk. Başqa cür xalq yaranmır.

Öz övladının zəhmətini çəkirsən, qayğısını çəkirsən, bu sənin canından, cismindən qopandır. Söz yox, mənəviyyatın da rolu var. Ancaq əsasən canından, cismindən qopandır. Bəs bu xalq?! Bu xalq sənin gələcəyindir axı. Niyə canından, cismindən qopana bu qədər xərclənirsən, ancaq sənin əbədiliyini daşıyan bu xalqa qulluq eləmək istəmirsən?!

Mənim kütləvi görüşlərim ən çox İnamlının (indi Ocaqda deyil) təşkilatçılığı ilə araya gəlib. Yazdan üzü bu yana oxullarda 30-dan çox kütləvi görüşlərimiz olubdur. Sonra, Göylünün təşkilatçılığı ilə olub. Güntayın (indi Ocaqda deyil) təşkilatçılığı ilə olub bir-iki dəfə. Ciddi söz demişik, ədəbiyatlar vermişik. Yön yaratmışıq, hal yaratmışıq. Söz yox, bunu hər şey saymırıq. Mən bu gün də o düşüncədəyəm, hələ Böyük Yolun başlanğıcındayam.

Xalqa verdiyimiz, xalqda görmək istədiyimiz dəyərlərlə yaşamağımız bizi ayaqda saxlayır. Fərəh verir. Bizim ləyaqətimizi yetirir. Ola bilsin adama bu qədər fərəh verməsə, bu zəhmətin qabağında fiziki olaraq dözmək çətin olar.

Ocağın xalqda başladığı çox böyük bir iş var – "Yas Mərasimi" keçirdik. Bunun gərginliyi var, ağırlığı var, çətinliyi var. Gecə işdən çıxmışdım, gedib o mərasimi keçirmişik. Onun dalınca dalbadal görüşlər keçirmişəm. Gecə işə getmişəm. Səhər tezdən işdən çıxıb səfər eləmişik. Bunları fiziki cəhətdən çatdırmaq olmur. Çox ağır zəhmət tələb eləyən məsələdir. Ancaq inanın, mən bunları eləməyəndə boğuluram, eləyəndə yox. Bu mənim havamdır, suyumdur. Mən heç vaxt zəhmətdən gileylənmirəm. Zəhmətdən giley həm də zəhməti minnətə çevirə bilər. Onu hər bir Amaldaşım düşünüb qorumalıdır. Zəhmətdən giley xalqın boynuna minnətə gətirib çıxara bilər. Sonra sənin zəhmətin olur bir heç.

İndi bir neçə söz "Atagün" Ailəsi ilə bağlı deyim. Asif Atanın sağlığında bu bölgədə Qədimyurd adında bir Ailə yaranmışdı. Bu Ailənin 9, ya 10 Evladı olub. Bunların çoxu sıradan adamlar idilər – özüylə uğraşmayan. Asif Ata "mənə yüksək oxul keçmiş adam gərəkdir" deyə seçim eləmir. Asif Ata deyir, mənə insanlığı yaşamaq istəyən, onun uğrunda mübarizə aparan insan gərəkdir. Diplomu varmı, yoxmu, bunun önəmi yoxdur. Ancaq Ailədəkilərin hamısı xalqın içindən gəlmiş sadə insanlar idilər. Onların içində hər cür bəsit, balaca hisslər vardı. Gah dağıldı, gah quruldu, gah alındı, gah alınmadı, sonucda, alınmadı. Ancaq şəxsiyyət varsa, Ailə yenə olacaq. Biz, üstündən illər keçəndən sonra, Günev Atalının yaşadığı bu bölgədə, tək qalmasın deyə, uğurlu işlərini davam etdirə bilsin deyə, Atagün adında Ruhani Ailə yaratdıq. Dağlara qar yağır. Bu qarın qalınlığı bəzən bir neçə metrə çatır. O qar yaz-yay əriyir. Qış gələndə yenidən qalınlayır. Əgər o yenidən qalınlamasa, qar əriyib qurtara bilər. İnsanın da halı elədir. Əgər o artmasa, azalıb tükənir. Gərək daim qurulsun, köklənsin. Biz istədik, bölgənin halını kökləyə biləcək Amaldaşlarım Günev, Elana Atalılar Asif Ata ilə dolsunlar, dolğunlaşsınlar. Özləri ilə uğraşmaq üçün daha böyük sorumluluq duysunlar. Ailə qarşıya daha böyük sorumluluq çıxarır. "Atagün"

adının anlamı dərindir. Atagün – Atanın günü, xalqın özünə bənzəməsi günüdür. Atanın günü xalqın milli kimliyini dərk eləməsi günüdür. Həm də bu günü qoruyan, yaşadan Günev var. Bu Ailənin adı həm də Atanın Günevi anlamına gəlir. “Günev” – Atanın ona verdiyi addır, “Xalqın Günü” anlamından qaynaqlanır o söz.

3 ildir burada “Ailə Günü” keçiririk. Üç ildir haysız, həşirsiz, yorulmadan, usanmadan bura gəlirik. Mən həmişə gəlirəm, arada o biri Ocaqçılar da gəlirlər. Göylü də çox gəlib. Göylü “Atagün” Ailəsinin Evladı deyil. Ancaq gəlir, təşkil edir, yazır, çəkir. Bu, quruculuqdur. Bu, Ocaq quruculuğudur, insan quruculuğudur. Daha böyük anlamda xəlqi quruculuqdur.

Ailə Günlərində Atanı öyrənirik, özümüzü öyrənirik. Özüylə döyüşümüzün məzmununu ortaya qoyuruq. Xalqla işləməyin açarını ortaya qoyuruq. Yönünü, yöntəmini deyirik özümüzə. Ürəyimiz güclənir, böyüyür, ağlımız kəsərini artırır. Ağlımızın kəsəri artdıqca bizə dirəniş göstərənlərə qarşı acığımızın kəsəri azalır. Çünkü onları xalqımızın övladları bilirik.

Bir var ağlın kəsəri, bir var acığın kəsəri. Atanın çağında da, dediyim kimi, mənim acığımın kəsəri çox güclü idi. Ancaq onun gücü, obrazlı desək, küt olmasında idi. Küt kəsmir, əzir. Ağlın kəsəri isə kəsir. Ona görə biz ağlın kəsərinə üstünlük veririk, acıqdan uzaqlaşırıq.

Biri var, özümüzün bireysəl duyğularımız, biri də var, böyük istəklərimiz, Amalımız, Ocağımız. Acıq məsələsi nədən qaynaqlanır?! Nadanın da acığı olur, müdrikin də. Nadanın acığı öz bəsit hisslərini qorumağa yönəlir. Niyə mənə bu söz deyildi?! Niyə mənim xətrimə dəyildi?! Nadanın acığı ona qarşı yönəlir. Müdrikin acığı “Niyə həqiqətin xətrinə dəyildi?!” məntiqindən qaynaqlanır. Sonra nadan bəzən elə bilir onun acığı həqiqət üçündür. Elə bilir, doğrunu qoruyur. Ancaq Doğrunu qorumaq üçün gərək Doğrunu tanıyasan. Nadan həqiqəti tanımır, acığına həqiqət adı qoyur.

Mən, Soylu olaraq, 25-ci ilə keçib, Asif Atanın yolunda yürüyürəm. Bu qədər vaxtda bir dəfə də olmadı, mən öz şəxsi işimi, şəxsi həyatımı Ocağın işinə qarışdırım. Bir dəfə olmadı, mən milli məsələlərin içinə öz şəxsi işimi, şəxsi istəyimi qarışdırım. Mənim

üçün Ocağın işi qatqısızdır. Orada başqa şeyə yer yoxdur. Mənim dərin səbrim var. Ancaq həqiqət ayaqlananda haray çəkirəm. Mənim Amalım təkcə mənim nəfəsim deyil, millətimin yönüdür, özülüdür, gələcəyidir. Mən ömrümü buna vermişəm. Mənim evimin, oğlumun, arvadımın dərdi, qayğısı Amalımın içinə girə bilməz. Ocağımın içinə girə bilməz. Girə bilmədiyi üçün Asif Atanın Ocağının işi, ölümündən sonra 18 ildir yaşayır.

Bütün partiyalarn, təşkilatların, təriqətlərin, sektaların hamısında özlərinin şəxsi karyerası var, çıxarı var, məqsədi var, ailəsi var, özünü düşünmək var. Mən istəyirəm Ocaqda içdənlik, doğruluq, ərdəmlik qorunsun. Bu çağa kimi, Asif Atanın Ocağının mərasimlərini, “Ailə Günləri”ni saat 10-da deyib, heç vaxt 11-də keçirməmişəm. 11-ə on dəqiqə işləmiş keçirməmişəm. 10-da demişik, 10-da keçirmişik. Bax, bu ruhaniyyatın tələbidir – dəqiqlik. Bu dəqiqlik topluma örnəkdir, topluma da verilən tərbiyədir, özünə də. Bizim, xalq olaraq, yenilmişliyimizin nədəni dəqiqsizliyimiz, sorumluluğumuz olub. Ocaq bunu durdurmalıdır.

Kişilik dəqiqlikdən başlayır, qadınlıq dəqiqlikdən başlayır, intizamdan başlayır. Ailə intizamdan başlayır. Millət intizamdan başlayır, dövlət intizamdan başlayır. Ləyaqət intizamdan başlayır. Hər şey intizamdan başlayır. O tarazlıq əyilməməlidir. Mənim evimin işi min dəfə əyilə bilər. 14 il mən nəmin içində yaşamışam. Başımın üstündən su tökülüb (otağın tavanından). Döşəmə silən ağaca əski bağlayıb silmişəm, gedib uzanıb yatmışam. Gecənin ortasında bir də durub silmişəm. 14 il mən elə yaşamışam. Vaxtım da yox idi, pulum da. Vaxtımı, pulumu Ocağın yeriməsinə qoyurdum. Bu yaxın çağlara qədər belə olub, sonra uşaqlar işlədilər, qolumdan tutdular, nəmişliyin içindən çıxdıq.

Bu rayon, o rayon, o kənd, bu kənd gəzirdim, Atanın harayını çəkirdim. İçimdə yanğı var, dərd var. O dərdi tanıyıram, ona görə bu yanğı var məndə.

Bax, Ocaq olmaq üçün, Ruhani Ailə olmaq üçün, xalqa qulluq göstərmək üçün, onun ləyaqətini qorumaq üçün Asif Ata mənə belə bir ruhani tərbiyə verib. Ona görə mən Asif Ataya səcdə qılıramsa, elə-belə qılmıram. O səcdə vərdiş deyil. Mənim içimdə Ocaqçılıq,

səcdə vərdiş ola bilməz. Ata bu xalqın içində böyük dayaqdır, böyük hikmətdir. Elə böyük bir hikmətdir, bu xalqın yenilmişliyinin qarşısını alır. Xalqın öz içində dik saxlayan gücə çevrilir.

***xxx***

Bir neçə söz deyim bölgədə, ölkədə gedən toplumsal-siyasi, mənəvi durum haqqında. Biz Ocağımızda olaylara ruhani qiymət veririk. Politoloji, siyasi qiymət vermirik. Bu ayrı bir şeydir, o bizim işimiz deyil. Bilsək belə. Bizim özümüzün öz qiymətimiz var.

Azərbaycan olaraq, bağımsızlıq əldə eləyəndən sonra yalnız bir yöndən biz bərkidik. Dövlətin strukturları quruldu, güc strukturları yarandı, hərbi potensiyası aşama-aşama oturuşdu. Ancaq biz, bir millətin mədəniyyətini, varlığını ifadə eləyən bir dövlət olaraq qurulmadıq. Bunu mən ağrıyla deyirəm. Çünkü xalqın içində onun milli, mənəvi dəyərləri onun özünə qaytarılmadı, öyrədilmədi.

Tolerantlıq deyə bir anlayış öz-özlüyündə yaxşı səslənir. Ancaq bizdə tolerantlıq oyunu var. Bu da ona gətirib çıxarır, içinə ilan-qurbağa doldurur, dözməlisən. Bunun adını qoyur tolerantlıq. Bu tolerantlıq deyil. Bu gün yurdumuzu hər yandan ayrı-ayrı güclər basqı altına alıb hədələyir. İstər siyasi xətlə, istər dini xətlə. Bu gün Azərbaycan Suriya kimi dövlətlərin taleyinə sürüklənir. Bunu da Sələfi-vəhabi deyilən örgütlərin əliylə gerçəkləşdirməyə çalışırlar. Axı bu örgütlərin toruna düşənlər bizim soydaşlarımızdır. Onlar öz xalqının içində potensial qorxu faktına çevrilirlər. Onlar məndən qorxmurlar. Mən də şəxsim üçün onlardan qorxmuram. Ancaq millətim üçün, millətimin gələcəyi üçün onlardan qorxuram. Çünkü onların qəlbinə, ağlına cəhalət hakimdir. Bax, toleyrantlıq oyununun doğurduğu bu qorxu böyük bir yanlışdır, böyük bir suçdur.

Sonra aydınlar adına biçimlənən, şəkillənən zümrənin böyük suçu var. Onlar öz toplumuna heç yerdə həqiqəti öyrətmirlər, maarifləndirmirlər. Tərsinə, dəyərlərlə bağlı qarışıq-dolaşıq baxışlar ortaya gətirirlər. Mən siyasi adamları demirərm, toplumsal adamları deyirəm. Özləri toplumsal nizam yaratmırlar, yaranmasına əngəl olurlar. Hərə bir hava çalır. Toplum bilmir, onun dəyəri nədir, dəyərsizliyi nə. Xeyiri nədir, ziyanı nə. Bu gün dünyada böyük bir güc

yaradıblar, ağa yaradıblar – Amerika adında. Bunu çağında Avropa özü yaratdı. Avropalılar gedib hakim kəsildilər, tutdular o torpaqları. Oranı vaxtilə kimin axtarıb tapmasından asılı olmayaraq. Oranı Avropa xalqları qılıncla, tüfənglə, zor gücünə gedib işğal elədilər. İspanlar, italyanlar, fransızlar, ingilislər... Orada bir dövlət yaratdılar. O dövlətdə adını çəkdiyim xalqların, toplumların hamısının nümayəndələri var. Yəni Amerika Avropanın əmniyyətidir. O bunları qoruyur. Baxmayaraq, bu gün Avropayla Amerikanın arasında bəzən iqtisadi çəkişmə gedir. Amerika orada, okeanın o tayında Avropanı Doğudan, onun mədəniyyətinin etkisinə düşməkdən qorumaq üçün düşünülmüş bir dövlətdir. Amerika – Avropanın gücüdür. Bu güc xeyirxah güc deyil, bəşəri güc deyil, dağıdıcı gücdür. Avropanın caynaqları daha yaxşı ilişsin deyə, Amerika özünün yaratdığı struktur araçılığı ilə, ya da, böyük maliyyə bazasıyla yeriyir xalqların içinə. Köklü xalqları sıradan çıxarır. Köklü xalqların məbədlərini məhv eləyir. Ərəblərin qədim məbədlərini məhv eləyir, Türklərinkini məhv edir. Orta Asiyanı diqqətdə saxlayıblar. Əfqanstanda nə qədər dağıntılar yaratdılar. Baxın, köklü xalqları dağıdıb yerində milli dövlət adına balaca-balaca xalqların dövlətlərini yaradırlar. Həmin balaca xalqlara qarşı guya bu humanizmdir, guya hər bir xalqın haqqı var, demokratiya da bunu tələb edir. Ancaq köklü xalqları dağıdır, onun coğrafiyasında yönətilən, dağıdıcılıqlarına səbəb yaradan (guya balacaları əzilməkdən qoruyurlar) dövlətlər quraşdırırlar. Dönə-dönə yazmışam, əgər Amerika o qədər humanistdirsə, qoy qorumaq istədiyi balacalara öz ştatlarının birini verib dövlət yaratsın. Ya da, Rusiya bu qədər humanistdirsə, qoy geniş çöllərində Ermənistan dövləti yaratsın. Niyə mənim torpağımda, niyə mənim içimdə yaradırsan?! Bu dalğa Doğunu üzük həlqəsi kimi dövrələyib... Öncə iki qütb vardı, indi birqütblü ideoloji yönətim var. Bu ideolojinin başında duran Batı hər yerə burnunu soxub sömürməyə çalışır.

Bu gün yurdumuzda da, yurdumuzun dışında da başlıca üç islam var. Bunlardan biri Amerikanın islamıdır, biri ingilisin, biri də İranın – nurçuluq, vəhabilik, şiəlik. Bundan başqa, içimizdə həmin qüvvələrin həm də türkçülüyü var. O türkçülük Turan İmperiyaçılığı kimi təbliğ olunur. Gəncliyimizin ağlına bunu yeridirlər, bizə sübut eləsinlər,

dağıdıcı düşüncədə olduğumuz üçün bizi basqı altında saxlayırlar. "Sizi kəndirdən açıb buraxsaq, bizi məhv eləyəcəksiniz. Dünyanı imperiyanızın ağalığı altına alacaqsınız". O proseslər ondan ötrüdür. (Ona görə biz istəyirik, Asif Atanın türkçülüyü yerisin düşüncələrə. Onun türkçülüyü humanist türkçülükdür, bəşəri türkçülükdür. Onun türkçülüyü İnam, İdrak, Mənəviyyat, İradə türkçülüyüdür. Zor türkçülüyü deyil, başkəsən türkçülük deyil)...

Bundan ötrü çeşid-çeşid oyunlar gedir: Ukrayna oyununda, baxın, zərbə kimə dəyir?! Türklərə. Ərdoğan burada guya Türkiyəni qoruyur. Onların gördüyü işin hamısı Orta Doğu projesinin yürüdülməsinin çalarlarıdır. Amerikayla Ərdoğanın planlarının arasında heç bir kəskin fərq yoxdur. Ərdoğan Türkiyəni elə duruma salacaq, Amerika onu dağıtmağa haqq eləsin. Amerika onun üzünə dayansın, sən xilafət yaradırsan, geriliyə çəkirsən bəşəriyyəti. Ərdoğan ona gedir. Üzdə isə guya Türkiyə üçün çalışır.

Belə bir vaxtda Azərbaycanın durumu da bunlardan çox asılıdır. Azərbaycanı sürüyürlər, boyunduruğa çəkirlər. Bizim dövlətin başında duranlar elə görüntü yaradıblar, guya onlar dövləti qoruyurlar. Amerika başda olmaqla, Avropa bizi ordan boyunduruğa çəkir, Rusiya burdan. Bunlar da guya balanslaşdırmağa çalışırlar, nə ora girirlər, nə də bura, bağımsızlığımızı qoruyurlar. Görünən isə odur, bizim bağımsızlığımızı talamaqla, oyunlarla məhv elədilər. Dağıdıcı güclərin sektalarını, təriqətlərini, siyasi qurumlarını içimizə doldurmaqla özgürlüyümüzü, bağımsızlığımızı dalana dirədilər. Xalq görün kimlərə umud bəsləyir?! Qıraq qüvvələrin buyruğunda çalışan hüquq müdafiəçilərinə. Onlar millət üçün çalışmırlar, Amerika üçün çalışırlar. İqtidarı vurmaq üçün çalışırlar, ancaq millət üçün vurmurlar, Amerika üçün vururlar. Oyundur.

Ona görə bizim dilimizdə, nəfəsimizdə, sevgimizdə doğruluq, doğmalıq, düşüncə-söz bütövlüyü yaranarsa, bizim etkimiz xalqın içində yeriyəcək. Zaman-zaman yeriyəcək, birdən-birə yox. Bəzən damcı seldən daha çox iş görür. Sel qayanı dağıtmır, ancaq damcı qayanı dağıdır. Oyun oynamırıq. Mən bu nikbinliyə dayanıb hər birinizə soydaşlıq, millətdaşlıq sevgisi sunuram.

**Soylu Atalı**
**(Talıflı Zülfüqar Qara oğlu)**

**Düşünməyin İnam Ölçüsü**

**(Türk dilində)**

**Bağlantı: (051) 585-56-97**
**www.asifataocagi.com**
**soyluatali@mail.ru**

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4